ETİBAR HƏSƏNZADƏ



VƏTƏN UĞRUNDA

DAŞKƏSƏN RAYONU



ETİBAR HƏSƏNZADƏ

VƏTƏN UĞRUNDA

Kitab 44 günlük Vətən müharibəsində iştirak edən Daşkəsən rayonunun döyüşçülərinə həsr olunmuşdur

Bakı - 2023

Bu kitab "Qarabağ Azərbaycandır" adlı fərdi layihəm çərçivəsində yazılmışdır

Redaktor: *Nəcibə İLKİN*
şair-publisist, yazıçı,
AYB-nin, AJB-nin üzvü,
Prezident mükafatçısı

Üz qabığı tərtibatı: ***Hikmət Əliyev***

Etibar Həsənzadə, "Vətən uğrunda"
Bakı, «İMZA» nəşrlər evi, 2023, 532 səh.

Etibar Həsənzadə gənc yazar kimi çoxlu sayda kitabların müəllifidir. Vətənpərvərlik mövzusu onun yaradıcılığından qırmızı xətlə keçir. Vətən qəhrəmanlarından bəhs edən bu kitab sırf Daşkəsən şəhid və qazilərinə həsr olunub. Kitab «Qarabağ Azərbaycandır» fərdi layihə çərçivəsində hazırlanmışdır. Müəllifə uğurlar diləyi ilə...

İSBN 978-9952-37-329-4

© Etibar Həsənzadə, 2023



"İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu

qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq".

İlham Əliyev
Ali Baş Komandan

MÜƏLLİFDƏN

Bu kitabda ürəyi, qəlbi Vətən üçün döyünən Vətən oğullarından - Vətən timsalına dönən oğullarımızdan söz açmaq, onları geniş oxucu kütləsinə tanıtmaq istəyirəm. O oğullardan ki, 28 il həsrət qaldığımız torpaqlarımızın azad edilməsi uğrunda başlayan 44 günlük Vətən müharibəsinə (27.09.2020 – 10.11.2020) göz qırpmadan, könüllü olaraq, ürəklə, qeyrətlə, qəlblərində intiqam hissi ilə getdilər. Düşmənə göz açdırmadan işğal altında olan torpaqlarımızı azad etdilər. Bu yolda şəhidlik zirvəsinə yüksələnlərimiz də oldu, qazilərimiz də, sağ-salamat qayıdanlarımız da. Müharibə bitsə də, cəbhə bölgələrində qalıb xidmətinə bu günə qədər davam edənlər də. Onlar ən yeni Zəfər tariximizin müəllifləri, salnaməçiləridirlər. Bizim qanla yazılmış tariximiz, şəhidlə doymuş torpağımız var. Millətimiz çox əziyyətlər, zülümlər, çətinliklər çəkdi, amma hər çətinliyin öhdəsindən gələ bildik. Vətən torpağının hər qarışında cəbhə açmadığımız yer qalmadı. Bizi biz edən dəyərlər sayəsində bu günlərə gəldik. Müzəffər ordumuzun əsgərləri bu Vətəni daimi etmək üçün, Vətənin müdafiəsi üçün, bayraq, torpaq üçün əllərindən gələn hər şeyi etdilər, canlarını belə verdilər. Onlar varsa Vətən var, millət var, bayraq var. Onların ürəklərinin tamamı Vətəndir, Vətən! Onların qanları, canları bahasına yazdıqları tarixi bizlər qələmə almağa çalışırıq ki, gələcək nəsillərimiz bu zəfər dolu döyüşləri canlı olaraq qəhrəman döyüşçülərimizin öz dilindən öyrənsinlər. Vətəni necə sevməyi, fəda-

karlığı, dostluğu, qəhrəmanlığı döyüşçülərimizin öz dilindən duysunlar.

Hamımız yaxşı bilirik ki, müharibə dövründə təcili yardım sürücülərinin və həkimlərin fədakar xidməti əvəzedilməz və çox çətin olub. Məhz onların sayəsində nə qədər yaralılarımız həyatda qala biliblər. Bəlkə də onların çoxusu bu insanları xatırlamır belə, amma bu qəhrəmanları xalqımız yaxşı tanıyır. Natiq həkimin, Gəncədən gələn cərrahların, xəstəxananın tibb və sanitar xidməti işçilərinin, təcili yardım şöbəsinin baş feldşeri Qənbərov Sərdar Səftər oğlu və təcili yardım maşınlarının sürücüləri Ruslan, Rafayəddin, Fərrux, İqbal, Sarvan, Arif və Aqilin xidmətləri çox böyükdür. Allah hamısından razı olsun.

Mən qürur duyuram ki, belə igid oğullarımızdan yazmaq mənə də qismət oldu. Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa, döyüşçülərimizə can sağlığı arzulayıram.

Əziz oxucularım, Xalq şairimiz Bəxtiyar Vahabzadənin "Gəlin açıq danışaq" kitabından oxuduğum bir hissəni sizlərin diqqətinə çatdırmaq istəyirəm:

"Sevginin müddəti ömrə bərabərdir. Vətən sevgisinin müddəti isə ömürdən o tərəfə keçir. Sevgilini özümüz üçün seviriksə, Vətəni xalqımız üçün, xalqın gələcəyi – gələcək nəsillər üçün sevirik. Vətən sevgisinin qarşısında qadına olan sevgi məzmunca kiçik və cılızdır. Qadına olan sevgidə mənəmlik var. Vətən sevgisində isə böyüklük, genişlik və ictimailik var. Sevdiyimiz qadını başqası, gözümüzün işığı belə sevsə, ona düşmən kəsilərik. Vətənimizi

sevəni isə biz də sevirik... Vətən – hamınındır. Vətən – milyonların evidir. Buna görə də, Vətən mənafeyi qarşısında onun övladlarının hamısı eyni dərəcədə cavabdehdir. Vətən müxtəlif fikirli və əqidəli övladları birləşdirən yeganə anadır. Vətən və ana tale töhfəsidir, onları seçmirlər. Vətənin taleyi onun vətəndaşlarının hamısından asılıdır. Vətənini sevən insan özü vətənləşib amala çevrilir, Vətən timsalına dönür. Bu nöqtədə o, şəxsiyyət səviyyəsinə yüksəlir. Xalqın düşünən beyninə, görən gözünə, vuran qoluna çevrilir. Bu çevrilmədə insan adilikdən sıyrılıb qeyri-adi şəxsiyyət olur. Bax, belə şəxsiyyətlər tarixin sükançılarıdır.

İnsanlığın birinci şərti, başlıca sifəti onun vətəndaşlığıdır. Hər kəs Vətənə övladlıq borcunu verməlidir. Kimdir Vətəndaş? Vətən üçün, xalq üçün özünü çıraq kimi yandıran, "mən"ini "biz"in içində əritməyi bacaran..."

REDAKTORDAN

Bu gün gənc yazarlar içərisində özünəməxsus dəsti-xətti olan şair--publisist, yazıçı kimi tanıdığımız Etibar Həsənzadə imzası da var. Bu imza başqalarından fərqli olaraq vətən sevgisini daha güclü yaşayan, vətənpərvərlik hissini öz döyüşkən ruhuyla kitablara köçürməklə çoxlu oxucu sevgisi qazanan imzalardandır. Nəinki doğma vətəndə, hətta qardaş Türkiyəmizdə onun yazıb-yaratdığı əsərlər, layhələr sevilir və diqqət çəkir.

Poeziyasında, nəsrində vətən deyə-deyə vətənin müsəlləh əsgərinə çevrilən Etibar əslində arxa cəbhənin qəhrəmanlarından sayılır. O da igid əsgər kimi, əlindəki qələmi süngüyə çevirməklə şeir-şeir, söz-söz döyüşür, kitab-kitab qalibliyin zirvəsinə doğru gedir. Bu, özü bir qəhrəmanlıqdır. Bu, özü bir vətən qazisi olmaqdır.

Erkən yaşlarından qələmə sarılan Etibar öz dünyasına sığmayan yazardır. Onun iç dünyasında haqqa-ədalətə gedən yol var, azadlıq harayı var. Bu yol onun hər zaman içində dəniz kimi çalxanır, çay kimi kükrəyir, söz kimi aşıb daşır. Onun yazdığı çoxlu sayda kitablar bunu sübut edir. Şeirlərində şəhid nəfəsi, təbiətin səsi, vətənin ağrılı baxışı, nəsirlərində vətən oğullarımızın getdiyi mərd, igidlik yolu var. O yol ki, gələcək nəsillərə nümunədi, örnəkdi. Bu, özü bir həyat məktəbidir ki, Etibar bu məktəbi ləyaqətlə qələmə almaqla, şəhid, qazi zirvəsinin aliliyini yaratmağı bacarır.

Etibar Həsənzadənin dünyaya gəlişi Birinci Qarabağ müharibəsinə təsadüf edib. 1992-ci ildə ermənilərin vəhşiliklə Xocalıda törətdiyi "Xocalı faciəsi"nin acıları ilə başlayıb uşaqlıq tarixi. Otuz ilə yaxın erməni vandallarının iş-

ğalı altında torpaqlarımızın inildisi, həmin illərdə dəfələrlə oğullarımızın şəhid xəbərləri, Aprel döyüşləri, müharibənin qara xəbərlərinin baş verdiyi bir vaxtda boy atıb Etibar. Bütün bu ağrıları yaşayan, İkinci Qarabağ müharibəsində artıq gənc bir yazar kimi yetişən Etibar Həsənzadəni başa düşmək çətin deyil. O, vətən ağrıları ilə bir böyüyüb, vətən dərdini öz içində böyüdüb, onunla bir boy atıb. Və sonda o dərdləri misra-misra, sətir-sətir becərməyə can atıb. Çünki, hər yazılan bir tarixdir. Vətən tarixi...

Doğrulub boya-başa çatdığı Daşkəsən rayonun şəhid və qaziləri haqqında yazdığı "Vətən uğrunda" kitabı çox təqdirəlayiqdir. Düşmən tapdağında olan vətən torpaqlarımızın azad olunmasında böyük fədakarlıq göstərən və Zəfər tarixini yazan İkinci Qarabağ Müharibəsinin vətən oğulları içərisində Daşkəsən rayonun da igidləri az deyil. Bir müəllif olaraq Daşkəsən qəhrəmanlarının döyüş yolunu bir-bir aramaq, şəhidlərin doğmaları ilə xatirələrini bölüşmək, qazilərlə görüşmək, onların keçdiyi ağrıları dillərindən eşitmək asan bir iş deyil. Etibar bunu çox böyük cəsarətlə bacarıb. Onların atdığı hər addım, hər döyüş səhnəsi Zəfər tarixinin parlaq səhifəsidir. Bu səhifəni dəyərli fikir və düşüncələri ilə işıqlandıran gənc yazara yalnız alqış düşür.

Etibar üçün vətən sevgisi ana sevgisi qədər əvəzedilməzdir. Ana qucağı, vətən qucağı onun üçün əbədiyaşar bir isti ocaqdır. Bu ocaqda onun qələmindən çıxan hələ çox əsərlər yetişəcək. Buna tam əminəm. Etibarın istedadı, savadı və gücü bunu deməyə əsas verir. Uğurlar olsun sənə müsəlləh əsgər!

Nəcibə İlkin

ÖN SÖZ

Azərbaycanın Daşkəsən şəhərində anadan olmuş gənc şair, yazıçı Etibar Həsənzadə fiziki məhdudiyyətlərinə baxmayaraq, zəngin yaradıcılıq bioqrafiyasına malikdir, mənəvi, elmi təfəkkürü ilə bir neçə keçilməz zirvələri fəth etmişdir. Bütün bu fədakarlığı ilə onun keçdiyi ictimai mühiti yenidən xatırlayaq:

Həsənzadə Etibar Oktay oğlu Azərbaycan Yazıçılar Birliyinin, Avrasya Sanat Kültür, Edebiyat və Bilim Federasyonunun (ASKEF), Anadolu Sanatçı, Yazar və Ozanlar Birliyinin (ANASAN), Türkmen Edebiyatçı və Yazarlar Birliyinin, Ankara Kültür Sanat ve Edebiyat Derneğinin (AKSED) üzvü, Qarabağ Əlillərinə Qayğı İctimai Birliyinin (QƏQIB) və İstedadlı Əlillər İctimai Birliyinin fəxri üzvüdür.

Həsənzadə Etibar «Könlümlə söhbət», «Duyğular dinsin», «Gecikmiş etiraf «, «Bir həyat romanı», «Sevgi bəstəsi», "Nurla gəldi, Nurla yaşadı, Nurla getdi", Mən şəhid olacam, ana" və "Eşqin heykəli" adlı kitabların müəllifidir.

2022-ci ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən "Kəsişən yollar" adlı kitabı nəşr olunub.

Etibar 44 günlük Vətən müharibəsində qəhrəmanlıq və fədakarlıqla iştirak edən Daşkəsənli şəhidlərimizin, döyüşçülərimizin həyat və döyüş yolundan bəhs edən "Vətən uğrunda" adlı kitabını rəy üçün mənə göndərib. Kitabı oxuduqca çox böyük həvəslə bu kitaba ön söz yaz-

maq qərarına gəldim. Bu kitabın oxucularının bu yolun ilahi güc olduguna şübhəsiz yanaşmalarını istərdim.

Kitabda Azərbaycan tarixinin 44 günlük və hər günü zəfərlərlə dolu, şərəfli bir dövrü döyüşçülərin döyüş xatirələri ilə əhatəli bir şəkildə təqdim edilib.

Kitabın giriş bölməsində müəllif Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin 2021-ci ildə 27 Sentyabr – Anım Günü ilə əlaqədar xalqa müraciətini sitat gətirir:

"İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi... Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq".

İkinci Qarabağ müharibəsi, 44 günlük müharibə və ya "Dəmir Yumruq" əməliyyatı – Azərbaycan Silahlı Qüvvələri və Ermənistan Silahlı Qüvvələri arasındakı qarşıdurmadır. Qarşıdurmalar 27 sentyabr 2020-ci il səhər saat 06:00-da Qarabağ müharibəsindən sonra yaradılmış təmas xətti boyunca başladı. Bunun ardınca Ermənistan hərbi vəziyyət və ümumi səfərbərlik, Azərbaycan isə bütün ərazisində 2020-ci il 28 sentyabr saat 00:00-dan hərbi vəziyyət, komendant saatı və qismən səfərbərlik elan etdi.

Müəllif vətənpərvərlik mövzusunda məhz bu istiqaməti əsas götürmüşdür. Həyat onu sevənlərindır, zəhmət onu çəkənlərin. Orduda xidmət isə fiziki sağlam şəxslərin vəzifə borcudur. Lakin elə insanlar da var ki, onların ruhu

Vətənə, onun bütövlüyünə xidmət edir. Yazarımız Etibar Həsənzadə də məhz belə bir xidməti seçmişdir.

Kitabın gedişində General Polad Həşimov və Tovuz döyüşləri haqqında məlumatda əsasən Vətən müharibəsinə gedən yolun işıqlandırılmasına diqqət yetirilib. Bu döyüşlərdə bir neçə qəhrəman - İlqar Mirzəyev komandirim, Akula ləqəbli Anar Novruzov isə kurs və döyüş yoldaşım olub. Onların qəhrəmanlığı xalqımızın 44 günə gedən yoludur.

Kitabda General Polad Həşimov haqqında məlumat diqqətimi çəkdi. 1992-ci ildə M. Müşfiq adına 34 nömrəli tam orta məktəbi bitirmiş Generalımız ilə eyni məktəbi bitirmişəm. Səmayə ana Poladın tarix müəllimimiz Habil müəllimin məsləhəti ilə hərbçi ixtisasını seçdiyini bildirib. Bu kitab bunlara görə mənə doğma gəlir.

Müəllifin şəhidlərin məqamı haqqında fikirləri ruhun İlahi vəhdətinin nəticəsidir. Bir daha bunları təkrar nəzərdən keçirək.

Şəhidlər xalqın kimliyini, mənliyini qoruyan insanlardır. Azərbaycanın bugünkü, həm də gələcək nəsilləri şəhidlərimizin qəhrəmənlıqlarından nümunə götürəcəklər və azadlığımızı, müstəqilliyimizi qorumaq üçün daim mübarizə aparacaqlar. Şəhid bir millətin, bir xalqın bütövlüyünü, varlığını təmin edən əsas şəxsiyyətdir.

Müharibədən sonra bir xarici jurnalist hər iki tərəfin əsgərinə suallar verirdi. Azərbaycan əsgərindən soruşdu:

- Sizin neçə ölünüz var? Əsgər:

- Bizdə ölü yoxdur.

- Necə yəni ölünüz yoxdur, bu qədər çətin döyüşdə. Baxın qarşı tərəfin bu qədər ölüsü var, sizin necə olmaz?

- Bizim qazimiz oldu, qəhrəmanımız oldu, şəhidimiz oldu, amma ölümüz olmadı.

Etibar şəhidliyə gedən yolun zirvəsini, Vətənin taleyinin məhz bu cür insanların əlində olmasını oxucuya göstərməyi bacarmışdır.

Kitabın ikinci hissəsi Vətənin keşiyində dayanan, onun üçün savaşan, sağlamlığını vətəninə qurban verən igid qazilərimizə və həm ehtiyatda, həm də xidmətdə olan cəsur döyüşçülərimizə həsr olunub. Etibar yazır: "Bu xalqı yenilməz edən "Önco Vətəndir" deyən, qəlbi Vətən sevgisi ilə döyünən oğullarıdır. Düşmən qarşısında dağ kimi dayanan, savaşdan - savaşa, zəfərdən - zəfərə qoşan oğullarıdır. Biz yatarkən yatmayanlar, addım-addım o çətin dağlardan, yüksək təpələrdən, dərin dərələrdən keçən, gecə-gündüz sərhədlərimizdə göz qırpmadan keşik çəkənləridir. Onlar ailələrindən uzaq olsalar da, Vətənə daha yaxındırlar. Ölümdən qorxmadan, sağlamlıqlarını itirmək bahasına da olsa, Vətəni qoruyanlardır. Onlar bir ailənin deyil, bütün xalqın övladlarıdırlar. Hər günü Zəfər dolu 44 günlük Vətən müharibəsinin qəhrəman döyüşçüləridirlər".

Mənca, Etibar bu cümlələri ilə bütün oxucularının ürəyindən keçən fikirləri ifadə edə bilmişdir. Azərbaycan əsgərinin hansı çətinliklər bahasına Vətənini qoruya bildiklərini göstərmişdir.

Dəyərli qardaşım Etibarın bu kitabda yer alan şeirlərini oxudum və hər sətrində onun Vətəninə, bayrağına olan bağlılığını, sevgisini hiss etdim. Mən də bu şeirim ilə onu dəstəkləyirəm:

Niyyətimiz güclü olmaq, bu yoldayıq ölənəcən,
Bir biləkdə Dəmir Yumruq ola bildik, şanlı Vətən.
"Sən Azadsan, əziz Şuşa", and yerimizdə söylədin,
Döyüşlərdə Qalib oldun, vəsiyyətə əməl etdin.

Üfüqlərdə, bax, qızaran al qanıdır Şəhidlərin,
Bu yol ilə gedilərsə, müjdəsi var səhərlərin.
Xalq sevgisi yaşadacaq bu yol ilə gedənləri,
Düşməninə zərbə vurdu bu torpağın igidləri.

Unutmadıq min illəri, köksüm yara, dərdim dərin,
Tarixlərdə, Baş Komandan, bilinəcək sənin yerin.
Dəmir yumruq sənindədir, xalqın gücü sənindədir,
Xətaidən, Nadir şahdan aldığın ruh sənindədir.

Uzaq görən siyasətin ordumuza verdi təpər,
Düşmən ölər, düşmən çökər, ot kökünün üstə bitər.
Biz döyüşün qazisiyik, bu dastanı yazan Sənsən,
Qarabağa dönüş edib, bu ləkəni pozan Sənsən.

Etibar qardaşıma tövsiyə edərdim ki, gələcək əsərlərində də qəhrəman döyüşçülərimizə geniş yer versin və onları öz oxucularına tanıtsın. Bu yolda ona böyük uğurlar arzulayıram. Allah yolunu açıq, qələmini iti, oxucularını bol eləsin.

Elmar Hüseynov
Ehtiyatda olan polkovnik-leytenant
Bakı ş. Suraxanı r. İHB Aparatında
Vətən müharibəsi iştirakçıları və şəhid
ailələri ilə işin təşkili şöbəsinin müdiri

VƏTƏN MÜHARİBƏSİ

İkinci Qarabağ müharibəsi, 44 günlük müharibə və ya "Dəmir Yumruq" əməliyyatı– Azərbaycan Silahlı Qüvvələri və Ermənistan Silahlı Qüvvələri arasındakı qarşıdurmadır. Qarşıdurmalar 27 sentyabr 2020-ci il səhər saat 06:00-da Qarabağ müharibəsindən sonra yaradılmış təmas xətti boyunca başladı. Bunun ardınca Ermənistan hərbi vəziyyət və ümumi səfərbərlik, Azərbaycan isə bütün ərazisində 2020-ci il 28 sentyabr saat 00:00-dan hərbi vəziyyət, komendant saatı və qismən səfərbərlik elan etdi.

2020-ci il sentyabrın 27-də mövcud atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri cəbhə boyu Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə intensiv zərbələr endirməklə yanaşı, Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələrini qəsdən artilleriya atəşinə tutaraq Azərbaycana qarşı növbəti təcavüzə başladılar. Nəticədə, hərbi qulluqçular ilə yanaşı, Azərbaycanın 11 dinc sakini, o cümlədən 2 uşaq həlak oldu. Düşmənin hərbi təxribatını dəf etmək və təcavüzünə son qoymaq məqsədilə Ali Baş Komandanımız, Prezident İlham Əliyev dərhal bütün cəbhə boyu əks-hücuma keçmək əmri vermişdir.

Bu müharibədə Azərbaycan xalqı, ordu və hakimiyyət heyrət ediləcək birlik və bərabərlik nümayiş etdirdi və Dəmir yumruğa çevrildi.

İlk gündən Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən başlanılmış əks-hücum əməliyyatları nəticəsində Azərbaycan Respublikasının bir neçə rayonu,

eləcə də strateji əhəmiyyətli əraziləri işğaldan azad edilmişdir. Bu məqsədlə 29 sentyabr 2020-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Fərman imzalanmışdır və hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar yaradılmışdır. Müvəqqəti komendantlıqların nəzdində də müvafiq dövlət orqanlarının (qurumlarının) nümayəndələrinin daxil olduğu əməliyyat qərargahları yaradılmış, vəzifələri müəyyən edilmişdir.

Rəşadətli və müzəffər Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Ermənistan Respublikasının silahlı qüvvələri darmadağın edilərək, canlı qüvvə və texnika sarıdan böyük itkilər verərək geri çəkilməyə məcbur olmuşdur. Bu məğlubiyyətlərinin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə zonasından və cəbhə xəttindən uzaqda yerləşən Gəncə, Mingəçevir (Su Elektrik Stansiyası) və Yevlax (Bakı-Tbilisi-Ceyhan neft kəməri) şəhərlərini, Ağdam, Beyləqan, Bərdə, Tərtər, Qəbələ, Goranboy, Ağcabədi, Abşeron, Xızı, Naftalan, Tərtər və s. rayonların mülki obyektlərini – yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, inzibati binaları və s. hədəf seçmiş, müxtəlif növ silahlarla, o cümlədən artilleriya və ballistik raketlərlə, fosforlu və kasetli bombalarla atəşə tutaraq insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri törətmişlər. Nəticədə mülki şəxsləri vəhşicəsinə qətlə yetirmiş, mülki əhaliyə, dövlət əmlakına, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə irimiqyaslı zərər vurmuşlar.

Ümumilikdə Ermənistanın hərbi təcavüzü nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla 100-ə yaxın mülki şəxs həlak olmuş, 454 mülki vətəndaş yaralanmış, ümumilikdə 13360 yaşayış və qeyri-yaşayış sahəsi, o cümlədən 2406 fərdi ev, 92 çoxmənzilli bina və 423 mülki obyekt zərər görmüş, yararsız hala düşmüşdür. 346 nəqliyyat vasitəsinə ziyan dəymiş, 1018 fermer təsərrüfatı üzrə zərər faktı aşkar edilmişdir.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu noyabrın 9-dək 5 şəhəri - Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərlərini, 4 qəsəbəni - Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini, 300-dən çox kənd və yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etmişdir.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə noyabrın 8-də Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynamış, bununla da, Ermənistan öz məğlubiyyətini etiraf etmişdir. 2020-ci il noyabrın 10-da Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin imzaladığı bəyanat ilə müharibə Azərbaycanın qələbəsi ilə nəticələnmişdir. Bəyanatda 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə 00:00-dan etibarən tam bir atəşkəs və Dağlıq Qarabağ münaqişəsi bölgəsindəki bütün hərbi əməliyyatların dayandırılması elan edilmişdir. Ermənistan kapitulyasiya olunaraq Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur olmuşdur.

Üçtərəfli bəyanata əsasən noyabrın 20-də Ağdam şəhəri və rayonun işğal edilmiş 73 faiz ərazisi, noyabrın 25-də Kəlbəcər şəhəri də daxil olmaqla, 147 yaşayış məntəqəsi, dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verildi. 2022-ci il avqustun 26-da isə Zabux və Sus kəndləri də Azərbaycana qaytarıldı.

Azərbaycan, həmçinin Türkiyə və İranla həmsərhəd olan Naxçıvana dəhliz əldə etdi və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin edildi. Təxminən 2000 rus əsgəri Ermənistan və Dağlıq Qarabağ arasındakı dəhliz boyunca və keçmiş DQMV-nin Azərbaycanın nəzarətində olmayan hissəsində ən azı 5 il müddətinə sülhməramlı qüvvələr olaraq yerləşdirildi və atəşkəsə nəzarət edəcək Rus-Türk Mərkəzi quruldu.

İkinci Qarabağ müharibəsi 30 ilə yaxın gözlədiyimiz tarixi ədaləti bərpa etdi.

Azərbaycan Respublikası Prezidentinin 02.12.2020-ci il tarixli Sərəncamları ilə sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü, noyabrın 8-i Zəfər Günü kimi təsis edilmişdir.

Müharibədə Azərbaycan tərəfi «Harop» zərbə pilotsuz aparatlarından, o cümlədən İsraillə birgə Azərbaycanda istehsal olunan «Zərbə» dronlarından, «Bayraktar TB2» zərbə pilotsuz təyyarələrindən və digər PUA-lardan geniş istifadə edib. Təkcə Bayraktar TB2 dronları vasitəsilə Azərbaycan Ermənistanın bir milyard dollar dəyərində hərbi texnikasını məhv edib. Dronlar həm düşmənin texnikasına və canlı qüvvəsinə dəqiq zərbələrin endirilməsi, həm artilleriya atəşini korreksiya etmək və kəşfiyyat apar-

maq məqsədləri ilə tətbiq olunub.

Azərbaycan pilotsuz An-2 təyyarələrini Ermənistanın hava hücumundan müdafiə sistemlərinin mövqe rayonlarını aşkarlamaq üçün fəal şəkildə tətbiq edirdi. Azərbaycan Ordusunun bu unikal fəndi dünya hərb tarixində yenilik kimi qəbul edilir.

Bu müharibə sensorların, ağır artilleriyanın və raket zərbələrinin istifadəsi, habelə dövlət təbliğatının və onlayn informasiya müharibəsində rəsmi sosial media hesablarının istifadəsi ilə yaddaqalan oldu. Azərbaycan xalqı informasiya cəbhəsində də üstünlüyü əlinə aldı. Xalqımız gerçəkləri dünyaya çatdırmaq üçün sosial şəbəkələrdə genişmiqyaslı informasiya müharibəsində də qalib gəldi.

Azərbaycan dövləti 44 gün ərzində bütün gücünü dünyaya göstərdi. Bu yolda Vətənə canını fəda edən şəhidlərimizin, öz sağlamlıqlarını qurban verən qazilərimizin və müharibənin dəhşətləri içərisində böyük travma alan veteranlarımızın qəhrəmanlığı göz önündə idi. Vətən müharibəsində 3000-ə yaxın Azərbaycan hərbçisi şəhid olmuş, mindən çox əsgər və zabit yaralanmış, 7 nəfər itkin düşmüşdür.

Ermənistan tərəfi müharibə zamanı 3363 hərbçisinin öldüyünü təsdiq etsə də, reallıqda bu rəqəmin daha çox olduğu bilinən həqiqətdir. 44 gün davam edən müharibə nəticəsində Ermənistan 10 ədəd S-300 və onun taktiki-döyüş vasitələri, 366 tank, 352 müxtəlif çaplı top, 22 ədəd pilotsuz uçuş aparatı, 5 Su-25 təyyarəsi, 50 Tor, Osa, Kub, Kruq modelli zenit-raket kompleksindən məhrum olub. Eyni zamanda döyüş əməliyyatları çərçivəsində xüsusi əhəmiyyətə malik 97 ədəd Qrad, 4 ədəd Smerç, 1 Tos od-

saçan, 2 Uraqan, 1 ədəd Yars, Toçka-U, ballistik raketlər, Elbrus raket kompleksləri də məhv edilib. Azərbaycan ordusunun məhv etdiyi və ya qənimət kimi götürdüyü hərbi texnikanın dəyəri minimum qiymətləndirmə əsasında ən azı 3,8 milyard ABŞ dolları dəyərindədir

Azərbaycanın son 200 illik tarixində ilk dəfə müstəqil dövlətimiz mənfur, işğalçı Ermənistan və onun ordusu üzərində şanlı qələbə qazandı. Bu qələbə Prezidentimizin uğurlu diplomatiyasının, müasir standartlara cavab verən ordu quruculuğu siyasətinin nəticəsi idi. Bu qələbə Azərbaycan xalqının kimliyini, dövlətinin gücünü, nüfuzunu bütün dünyaya bəyan etdi. Bir daha dünyaya sübut etdik ki, xalqımızın birliyi sarsılmazdır. Biz Ali Baş Komandanımızın ətrafında Dəmir yumruq kimi birləşərək Vətənimizi mənfur düşməndən azad etdik.

Qardaş Türkiyənin və Pakistanın siyasi və mənəvi dəstəyi bu Qələbənin qazanılmasında çox böyük rol oynamışdır. Çünki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" sözləri bir çoxlarının bu münaqişəyə müdaxilə cəhdlərini alt-üst etdi. Və bir daha qardaşlığımızı, bir millər, iki dövlət olmağımızı dünyaya göstərdi. Bundan sonra da hər iki dövlət eyni yolda bərabər yürüyəcəyik. 2021-ci il iyunun 15-də Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında imzalanmış "Bəyannamə" bunu bir daha təsdiq etdi. Türk xalqına hər zaman Böyük Qələbələr yaraşır. İnşallah gün gələr, Azərbaycanın bütün tarixi torpaqlarını – Zəngəzuru, Göyçəni, Basarkeçəri, İrəvanı geri alarıq.

Bu gün üçrəngli bayrağımız əzəli və əbədi torpaqlarımızda qürurla dalğalanır. Var olsun Qüdrətli, Şanlı, Müzəffər Ordumuz və Ali Baş Komandanımız!

Qarabağ Azərbaycandır və daim Azərbaycanın olacaqdır. Qarabağ Turanın qapısıdır və gün gələcək, Turan qurulacaq!

QARABAĞ AZƏRBAYCANDIR

Aldıq Qarabağı qələbəmizlə,
Tarixlər yazılsın zəfərimizlə.
Tarixə yazılsın qızıl hərflə:
Qarabağ bizimdir – Azərbaycandır!

Bitdi həsrətimiz, bitdi ayrılıq,
Bir Vətən övladı, Vətən oğluyuq.
Bu gün hər birimiz Qarabağlıyıq,
Qarabağ bizimdir – Azərbaycandır!

Coşsun Vətən eşqi qəlblərimizdə,
Dalğalan bayrağım, göylərimizdə.
Qürurla səslənsin qoy dilimizdə:
Qarabağ bizimdir – Azərbaycandır!

Ali Baş Komandan! Sən məğrur dayan!
Bu gün bütün dünya səndən danışır.
Yenilməz ordumuz dillərə dastan,
Yurdumun tarixi başdan yazılır.

Gəl, qəhrəman xalqım, birgə qeyd edək,
Bu böyük zəfəri Vətən boyunca.
Qaldıraq badələr şərəfimizə,
Azadlıq şərbətin içək doyunca.

Bu gün Qarabağım üzündə gülüş,
Açmış qollarını övladlarına.
Yetdi ayrılığın ağrı-acısı,
Vətən alqış deyir oğullarına.

Yenə də səslənsin bizim muğamlar,
Şirin zəngulələr Qarabağımda.
Yenə Arif, Alim, Məhsun oxusun,
Qarabağ şikəstəsin Qarabağımda.

Yenə cəngi səsi haraya qalxsın,
İgidlər hay vursun Cıdır düzündə.
Gözü yolda qalan Xarıbülbülün,
Həsrəti yox olsun, bitsin gözündə.

Qarabağ yurdumun çarpan ürəyi,
Dağıldı buludlar, doğdu Günəşin.
Ey düşmən, həsrətlə bax Qarabağa,
Qarabağ bizimdir – Azərbaycandır!

Etibar Həsənzadə
18.11.2020

***

Əziz oxucularım, bildiyiniz kimi General Polad Həşimov uzun müddət Daşkəsəndə, Murovdağ yüksəkliklərində xidmət etmişdir. Bu gün də əsgərləri generalımız haqqında göz yaşları ilə ağız dolusu danışırlar. Onun əsgəri olmuş bir çox Daşkəsən hərbçiləri 44 günlük Vətən müharibəsində həm oz komandirlərinin qisasını almaq, həm də işğal altında olan torpaqlarımızı azad etmək üçün döyüşlərə qatıldılar, şəhid olanları da oldu, sağ qayıdanları da. Bu kitabı yazmağa başlayanda mənimlə söhbət edən, vaxtı ilə Polad Həşimovun əsgəri olmuş müddətdən artıq xidmətdə olan bir çox hərbçilərimiz və qazilərimiz bu kitabda canlarından artıq sevdikləri general Polad Həşimov haqqında geniş məlumatın olmasını xahiş etdilər. Öz əbədi komandirlərini öz cərgələrində görmək istədilər. Onlar bildirdilər ki, biz Vətəni, torpağı, bayrağı sevməyi, Vətən üçün candan keçməyi ondan öyrəndik. O, bizim unudulmaz, çox əziz və əbədi komandirimizdir. Mən də sevə-sevə onların bu təklifini qəbul etdim və Böyük Generalımıza həsr etdiyim "General gəlir" adlı poemamı və Polad Həşimov haqqında geniş məlumatı bu kitaba əlavə etdim. Düzdür, tarixin hər dönəmində torpağımız böyük qəhrəmanlar yetirmişdir. Amma Polad Həşimov kimi qəhrəmanlar tarixdə az-az olur. O, hər cəhətdən – həm insanlıq, həm mükəmməl hərbçi, həm komandir, həm ailə başçısı, həm övlad kimi qəhrəman idi. Ölməzliyini sağlığında qazanan ordu başçısı, əsgərinə ata, qardaş olan bir komandir idi.

Qəhrəmanlıq sevdiklərindən, sənin üçün müqəddəs olan hər şeydən vaz keçdiyin yerdən başlayır. Qəhrəmanlıq – vəzifənin bir addım ötəsidir. Bir ananın oğlu şəhid olduqdan sonra, böyük bir millətin oğlu olur. Polad Həşimov da torpağımızın, millətimizn şərəflə, qürurla, fəxrlə andığı oğludur. O, qəlblərdə taxt quran bir KOMANDİR, bir QƏHRƏMANDIR.

Allah Generalımıza və bütün şəhidlərimizə qəni-qəni rəhmət eləsin, məkanları Cənnət, ruhları şad olsun. Amin.

GENERAL GƏLIR

Bu gün gözlənilməz xəbər yayıldı:
General Həşimov şəhid olubdur.
Şəhidlik yaraşır səntək oğula,
Anında məkanın Cənnət olubdur.

Cənnət şəhidləri! Ayağa qalxın!
Düzülün sıraya, General gəlir!
Tanrı hüzurunda yeri bəllidi,
Hüseyn aşiqi - General gəlir!

Ey qəhrəman ruhlar, başda Mübariz,
Qarşıla hörmətlə, komandir gəlir.
Göstərin məqamın Böyük əsgərin,
Cənnət gənclərinin vüqarı gəlir.



Ey böyük General! Ölməmisən sən!
Şəhidlər Dünyaya əbədi gəlir.
Vətən torpaqları şəhidlərilə,
Hər dəfə yenidən həyata gəlir.

Sən yalnız Cənnətdə bərqərar deyil,
Xalqın ürəyində bərqərar oldun.
Bu Vətən unutmaz səntək oğulu,
Ən uca məqamda təkrar doğuldun.

İgidlik ruhunda bərqərar – odur,
Generallar içində tək şəhid – odur.
Rəşadət, şücaət, cəsarət rəmzi,
Təpədən dırnağa General – odur.

Baş əy qarşısında böyük ananın,
Dünyaya Poladtək övlad gətirir.
Başını uca tut, Səmayə ana,
Əlini öpməyə əsgərlər gəlir.

Xain düşmənləri çox sevinməsin,
Şəhidlər ölmürlər, onlar diridir.
Neçə ki, torpaqlar əsarətdədir,
Onların ruhları Vətənindədir.

Cismi torpağımda olsa da bu gün,
Ruhu hər gün gedən döyüşə gəlir.
Yenə əsgərlərin başına dönüb,
Döyüşdə onlara köməyə gəlir.

Vətənə məhəbbət, torpağa sevgi
Bizə babalardan, nəsildən gəlir.
Yol verin əsgərlər, salama durun,
Vətənə sevdalı General gəlir.

Adınla bağlıdır alınan postlar,
Murovdan, Talışdan dastanın gəlir.
Bu gün Tovuzdakı döyüşlərindən,
Əsl Generaltək sorağın gəlir.

Əfsanə general, böyük sərkərdə,
Əsgərin atası, qardaşısan sən.
Bu gün əsgərlərin qürurla deyir:
"Polad Həşimovun əsgəriyəm mən".

Ey böyük sərkərdə, öndə gedərək
Savaş meydanında mayak olmusan.
İrəli, igidlər! – deyə hayqırıb
Neçə qələbəyə səbəb olmusan.

Böyük sərkərdələr əfsanə olur,
Səni kimdən sorsam, gözləri dolur:
"Əsgərlə bərabər yük daşıyaraq,
Əsgərdən qabaqda Həşimov gəlir".

Övladtək sevərdin sən Vətənini,
Hamı sənin ilə qürur duyurdu:
"Polad olan səngər təhlükəsizdir",
"Uğrunda ölərik", deyə duyurduq.

Sən ana yurdumun mərd övladısan,
Böyükdür xidmətin bu Vətən üçün.
Ordunun şərəfi, həm vüqarısan,
Çox böyük itkisən ordumuz üçün.

Xidmətdə əsgərin donmasın deyə
Odun da yarmısan əsgərlər üçün.
Öz şəxsi pulunla təmir etmisən,
Böyük kazarmanı əsgərlər üçün.

Nə gözəl ürəyin, insanlığın var,
Vüqarlı, şərəfli, qayğıkeş Polad.
Evini şəhidə hədiyyə verib,
Özü kirayədə yaşayan Polad.

Hərb tariximizin yaşı çox qədim,
Ard-arda gör neçə döyüşlər gəlir?
Əsl generallar kimdir deyəndə,
Yaddaşa Həzilər, Poladlar gəlir.

Siz döyüş yolunun Günəşlərisiz,
Nur saçın azadlıq yollarımıza.
Düşmən həsəd ilə baxıb qovrulsun,
Bayraqçün açılan qollarımıza.

Hərb tariximizin salnaməsisən,
Mərdliyin məktəbi – bizim General.
Şərəflə, izzətlə yaşadın ömrü,
Dünyadan izzətlə köçdün, General.

Bu Vətən, bu torpaq unutmaz sizi,
Yazaq, salnamələr tarixdə qalsın.
Gələcək nəsillər sizi tanısın,
Adınız əbədi qəlblərdə qalsın.

Rəssamlar, şairlər, heykəltəraşlar,
Səflənin sırada, General gəlir.
Yeni yaradılan hər bir əsərdə,
Qəhrəman yenidən dünyaya gəlir.

Ey nəhəng aktyorlar, sıraya gəlin,
Baş qəhrəman roluna General gəlir.
Bütün əsərlərin baş qəhrəmanı,
General Həşimov tarixə gəlir.

General tanıdım, dillərdə dastan,
Şəninə nə yazsam yenə az gəlir.
Ürəklər soyumur nə qədər yazsan,
Gör neçə əsərlər sənincün gəlir...

Gün gələr, ordumuz qisasın alar,
Bayrağımız Qarabağda dalğalanar.
Baxaraq göylərə yenə deyərik:
Sıraya düzülün, General gəlir!

02.08.2020

Həşimov Polad İsrayıl oğlu
general-mayor



Azərbaycanın Milli Qəhrəmanı, Azərbaycan Silahlı Qüvvələrinin 3-cü Ordu Korpusunun Komandir müavini — Qərargah rəisi

1975-ci il yanvarın 2-də Qutqaşen rayonunun (hazırda Qəbələ) Vəndam kəndində anadan olmuşdur. Adını 2-ci Dünya müharibəsinin veteranı olan babası qoymuşdur. Arzu və Kəmalə adlı iki bacısı, İlham adlı bir qardaşı vardır. 1975-ci ilin iyul ayında —

Polad Həşimov 6 aylıq olanda ailəsi Qəbələ rayonundan Sumqayıt şəhərinə köçüb və şəhərin 13-cü mikrorayon adlandırılan ərazisində yaşamağa başlamışdır.

1982-ci ildə Sumqayıt şəhəri 28 nömrəli tam orta məktəbin birinci sinfinə qəbul olmuş və 1986-cı ilə qədər orada təhsil almışdır. 8-ci sinifdə oxuyarkən yaşadığı ərazidə riyaziyyat üzrə olimpiadada II pillənin sahibi olmuşdur. 1992-ci ildə M. Müşfiq adına 34 nömrəli tam orta məktəbi bitirmişdir.

Anası Səmayə xanım Poladın hüquqşünas olmağını istəsə də, 1992-ci ildə Qarabağda şiddətli döyüşlərin olduğu bir dövrdə Polad hərbçi olmağı qərara aldığını bildirir. Anası buna icazə verməsə də, atası razılıq vermişdi. Həmin ilin avqustunda Polad sənədlərini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə vermiş, 1995-ci ildə oranı «Motoatıcı» ixtisası üzrə bitirmişdir.

Polad Həşimov 1992-ci ilin noyabr ayında 1-ci Qarabağ müharibəsi zamanı Ağdam rayonunun Mərzili və Novruzlu kəndlərinin müdafiəsi uğrunda gedən döyüşlərə qatılmışdır. 1992-ci ilin dekabr ayında Ağdam rayonunun Mərzili və Novruzlu kəndlərinin müdafiəsində olmuş, Füzuli rayonunun kəndlərinin azad edilməsi ilə nəticələnən uğurlu əməliyyatlar keçirmiş, 702-ci motoatıcı briqadanın hazırlığında iştirak etmişdir. 1994-cü ilin fevral ayında Murovdağ silsiləsində Güzgü, Koroğlu və Ömər yüksəkliklərinin alınması uğrunda vuruşmuş, həmçinin uzun illər Murovdağ silsiləsində olan hərbi hissələrdə xidmət etmişdir.

Polad Həşimov Murovdağda xidmət edərkən ermənilərdə olan bir postu dəfələrlə izləyib, görüb ki, erm-

nilər gündüzlər postda olur, gecələr isə oranı tərk edirlər. Bir gecə gedib həmin postu 15 dəqiqə ərzində azad etmişdi. Onların S tipli qazma maşınını sürərək öz postumuza gətirmişdi.

1994-cü ildə Türkiyənin İstanbul şəhərində yerləşən "Tuzla Piyada Okulu"nda üç aylıq kurs keçmiş, hərbi təhsilini təkmilləşdirmişdir.

1995–2017-ci illər ərzində Motoatıcı Taqım Komandiri vəzifəsindən Hərbi Hissənin Komandiri vəzifəsinə qədər müxtəlif vəzifələrdə çalışmışdır. 28 yaşı olanda «mayor» hərbi rütbəsi, 6 il sonra isə «polkovnik-leytenant» hərbi rütbəsi almışdır.

Polad Həşimov 2003-cü ilin sentyabrında Ofeliya Salmanova ilə ailə həyatı qurmuşdur. Davud və Teymur adında oğulları, Aybəniz adında isə qızı var.

2013-cü ildə komandiri olduğu hərbi hissələrin birində əsgər Ceyhun Qubadovun ölümü ilə bağlı rütbəsi alınaraq «mayor»a endirilmişdir.

2014-cü ilin iyul ayında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasına daxil olmuş, 2016-cı ildə hərbi idarəetmə ixtisaslaşması üzrə magistr elmi-ixtisas dərəcəsi almışdır.

2016-cı il aprelin 1-dən 2-nə ötən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin bölmələri arasında cəbhənin Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətlərində şiddətli döyüşlər başlamışdı. Tarixə Aprel döyüşləri olaraq yazılan hərbi əməliyyatlar zamanı Polad Həşimov 1-ci Ordu Korpusunun Komandir müavini – Qərargah rəisi idi. Cəbhənin Tərtər rayonu istiqamətində gedən döyüşlərin idarə edilməsi məhz ona həvalə

olunmuşdu. Gecə döyüşləri zamanı Tərtər rayonunun Talış istiqamətində olan əlverişli mövqelər, strateji nöqtələr, o cümlədən Talış yüksəkliyi Azərbaycan Ordusu tərəfindən işğaldan azad olnumuşdu. Döyüş zamanı yaralanmışdı. Hal-hazırda həmin istiqamətdəki postlardan biri "Polad postu" adlanır.

Tərtər rayonu istiqamətində gedən döyüşlərin idarə edilməsi xidmətlərinə görə Polkovnik Polad Həşimova mənzil hədiyyə edilmişdi. Kirayə mənzildə yaşamasına baxmayaraq Polad Həşimov həmin mənzili Aprel döyüşləri zamanı şəhid olan hərbçinin ailəsinə bağışlamışdı.

Polad Həşimov 2017-ci ilin aprel ayından şəhid olduğu günədək 3-cü Ordu Korpusunun Komandir müavini – Qərargah rəisi vəzifəsində xidmət etmişdir. O, orduda böyük hörmətə və ehtirama malik olan bir zabit idi. Sözün həqiqi mənasında əsgərlərinin qəlbində taxt qurmuşdu.

2019-cu il iyunun 24-də Azərbaycan Prezidenti İlham Əliyevin 1286 nömrəli Sərəncamına əsasən Polad Həşimova «general-mayor» ali hərbi rütbəsi verilmişdir. Bununla da Polad Həşimov XIX əsrdə yaşayan İsmayıl bəy Qutqaşınlıdan sonra Azərbaycanın tarixində Qəbələdən general rütbəsi alan birinci hərbçi olmuşdur.

2020-ci il iyulun 12–16-da baş verən Tovuz döyüşlərini idarə edən Polad Həşimov iyulun 14-də səhər saatlarında Tovuz rayonu istiqamətində Ermənistan Silahlı Qüvvələrinin hücum cəhdinin qarşısını alarkən tabeliyində olan əsgərlərlə bir yerdə döyüş zamanı ön xətdə qəhrəmancasına şəhid olmuşdur. Onunla birgə polkovnik Mirzəyev İlqar da şəhid olmuşdur. Bu döyüşdə Azərbaycan Silahlı Qüvvələrinin 6-sı zabit olmaqla 7 hərbi qulluqçusu şəhid

oldu. Bu onu göstərir ki, bizim generallar və yüksək rütbəli zabitlər əsgərlərin arxasında gizlənmirlər və döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetirirlər. Polad Həşimovun iyul ayında şəhid olması, sentyabr ayında İkinci Qarabağ müharibəsinin başlamasına aparan prosesdə mühüm rol oynamışdır. Bütün ölkə cəncləri yaşadıqları bölgə üzrə hərbi komissarlıqlara müraciət edərək döyüşə getmək və generalımızın qisasını almaq üstəyirik deyə müraciətlər edirdi. Polad Həşimov Azərbaycan Silahlı Qüvvələrinin hərbi əməliyyatlar zamanı şəhid olan birinci və yeganə generalıdır. O, İsmət Qayıbov və Məhəmməd Əsədovdan sonra 1988-ci ildən etibarən başlayan Qarabağ müharibəsində həlak olan üçüncü Azərbaycan generalıdır.

İyulun 14-də günorta saatlarında Polad Həşimovun nəşi doğulduğu Qəbələ rayonunun Vəndam kəndinə gətirildi. Hələ səhər saatlarından vida mərasimi üçün minlərlə insan Qəbələ şəhərindən Vəndam qəsəbəsinə gəlmişdi. Doğma yurdunda keçirilən vida mərasimindən sonra Polad Həşimovun nəşi böyüyüb boya-başa çatdığı Sumqayıt şəhərinə yola salındı. Axşamüstü Polad Həşimovun nəşi minlərlə insan izdihamı ilə evinə gətirildi. Bir gün sonra isə general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyevlə vida mərasimi keçirildi və Azərbaycanın Dövlət Himninin sədaları ilə Polad Həşimov və İlqar Mirzəyev hərbi ənənələrə uyğun olaraq yaylım atəşləri altında son mənzilə yola salındı və hər ikisi II Fəxri Xiyabanda yanaşı dəfn olundu.

Prezident İlham Əliyev Polad Həşimovun anası Səmayə Həşimova ilə telefonla danışıb və şəhidin ailə üzvlərinə dərin hüznlə başsağlığı verib.

Polad Həşimov 25 il Vətəninə xidmət edib, onun 22 ilini ön cəbhədə olub və o əraziləri yaxşı tanıyırdı.

Təltifləri:

- (26 iyun 2001) — «Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi» yubiley medalı
- (26 iyun 2002) — «Qüsursuz xidmətə görə» 3-cü dərəcəli medalı
- (24 iyun 2003) — «Hərbi xidmətlərə görə» medalı
- (26 iyun 2004) — «Hərbi xidmətdə fərqlənməyə görə» 3-cü dərəcəli medalı
- (26 iyun 2006) — «Hərbi xidmətdə fərqlənməyə görə» 2-ci dərəcəli medalı
- (26 iyun 2007) — «Qüsursuz xidmətə görə» 2-ci dərəcəli medalı
- (26 iyun 2008) — «Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi» yubiley medalı
- (25 iyun 2009) — «Vətən uğrunda» medalı
- (26 iyun 2012) — «Qüsursuz xidmətə görə» 1-ci dərəcəli medalı
- (26 iyun 2013) — «Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi» yubiley medalı
- (24 iyun 2014) — «Vətənə xidmətə görə» 3-cü dərəcəli ordeni
- (18 aprel 2016) — «Vətənə xidmətə görə» 2-ci dərəcəli ordeni
- (26 iyun 2017) — «Azərbaycan Silahlı Qüvvələri Veteranı» medalı
- (26 iyun 2018) — «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı
- (9 dekabr 2020) — «Qızıl Ulduz» medalı (ölümün-

dən sonra)

Azərbaycanda yeni doğulan bir çox oğlan uşaqlarına «Polad» adı verildi.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və döyüş tapşırıqlarını yerinə yetirən zaman göstərdiyi igidliyə görə Azərbaycan Prezidenti İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli 2337 nömrəli Sərəncamına əsasən Polad İsrayıl oğlu Həşimova ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verildi.

Polad Həşimova həsr olunan bir çox kitablar işıq üzü gördü:

1. Qanun Nəşriyyatı tərəfindən «Polad Generalımız»
2. «Hədəf» Nəşrləri və «XAN» Nəşriyyatı tərəfindən «General Polad Həşimov xatirələrdə»
3. Əməkdar jurnalist, tarix üzrə fəlsəfə doktoru, istefada olan polkovnik Hikmət Xudiyevin «Milli Qəhrəman Polad Həşimov» kitabı və s.

Mən yazar Etibar Həsənzadə Polad Həşimova həsr etdiyim "General gəlir" adlı poemamı aktyor Əjdər Zeynalovun və Bakı şəhər 255 saylı tam orta məktəbin şagirdlərinin ifasında şəxsi YouTube.com kanalıma yüklədim və Qarabağ Azərbaycandır" adlı fərdi layihəmin həm Bakıda, həm də Daşkəsəndə keçirilən təqdimat tədbirlərində təqdim elədim. Poemam bir çox yerli və Türk antologiyalarında, ədəbi jurnallarda yer aldı.

Polad Həşimovun şəhid olmasından bir gün sonra müğənni Çingiz Mustafayev Polad Həşimovun timsalında Tovuz döyüşlərində şəhid olanlara həsr olunan «Vətənim Kimiyəm» mahnısını təqdim elədi.

2020-ci il avqustun 22-də Polad Həşimova həsr olunan «Paşam, hey!» mahnısı təqdim olunub. Mahnının musiqisi Faiq Sücəddinova, sözləri isə Musa Uruda məxsusdur. Mahnını Şəmistan Əlizamanlı ifa edib.

2020-ci il avqustun 24-də İctimai TV-də Polad Həşimova həsr olunan «Poladın 7 anı» sənədli filmi təqdim olunub. 26 dəqiqədən ibarət olan sənədli filmin müəllifi İlham Tumas, rejissoru isə Ruslan Hüseyndir.

2020-ci ilin avqust ayında Qəbələ şəhərində mərkəzi küçələrin birinə - Şəhidlər Xiyabanının yerləşdiyi küçəyə Polad Həşimovun adı verilib.

2020-ci il oktyabrın 28-də Bursa ilinin Osmanqazi ilçəsinin Dəmirtaş bölgəsində Polad Həşimovun adını daşıyan parkın açılışı olub.

2021-ci ilin yanvarında Türkiyənin Elazığ ilinin Keban ilçəsində küçələrin birinə Polad Həşimovun adı verilib.

2021-ci ilin yanvar ayında Quba şəhərində mərkəzi küçələrin birinə Polad Həşimovun adı verilib.

2021-ci ilin fevral ayında Sumqayıt şəhərində mərkəzi küçələrin birinə Polad Həşimovun adı verilib.

2021-ci ilin aprel ayında Polad Həşimovun və Vətən müharibəsi şəhidi Aqşin Qədirzadənin adına Qəbələ rayonu Zərgərli kəndi, Qəbələ-Oğuz yolunun kənarında bulaq istifadəyə verilib.

2021-ci il mayın 7-də Bakıda Pavel Naximov küçəsinin adı Polad Həşimov olaraq dəyişdirilmişdir.

2021-ci il iyulun 22-də Bakının Xətai rayonunda Polad Həşimovun adını daşıyan park istifadəyə verilib.

Sumqayıt şəhəri 28 nömrəli tam orta məktəbə Polad Həşimovun adı verilmişdir.

AMEA Milli Azərbaycan Tarixi Muzeyinə Polad Həşimovun həyat yoldaşı və oğlu tərəfindən Polad Həşimovun şəxsi əşyaları təhvil verilib. Bunlar şəhidin istifadə etdiyi hərbi geyim səhra forması – şalvar, kitel və papaqdan ibarətdir.

***

Vətənimin Böyük Əsgəri, əbədiyaşar Böyük General, sən cismən ölümünlə ölümsüzlüyün nə olduğunu bütün dünyaya göstərdin. Cəmi 45 il yaşasan da, bütün xalqımıza Vətən sevgisinin nə olduğunu əyani şəkildə nümayiş etdirdin. Bəlkə də xalqımız indiyədək belə bir ağrılı, acılı ölüm görməmişdi. Böyükdən kiçiyə hər kəs sizin üçün göz yaşı tökdü. Vətənini sevən bütün Azərbaycan xalqı "Qisas" deyə hayqırdı və o qisası da aldı. Ölməz ruhun qarşısında baş əyirik, sözün həqiqi mənasında BÖYÜK İNSAN! BÖYÜK SƏRKƏRDƏ!

Əziz oxucularım, Polad Həşimov haqqında Daşkəsən döyüşçülərinin xatirələri çoxdur. Amma hamısını bu kitaba vermək mümkün olmadığı üçün bir neçəsini sizlərə təqdim etmək istədim.

Allahverdiyev Nofəl Səday oğlu:

"O vaxtlar "Yeddi qardaş" dağının 7 zirvəsindən beşi bizdə, 6 və 7-ci zirvələr isə düşmən nəzarətində olub. 6-cı zirvəni Polad Həşimov bir neçə nəfərlə azad etmişdi. Post azad edildikdən sonra posta rabitə xətti çəkilirdi. Xətti çəkən əsgərlər yolun üst tərəfində nahar edirdilər. Bu vaxt

Polad Həşimov Niva ilə posta qalxırmış. Sürücüsünün dediyinə görə, əsgərlərə yaxınlaşan zaman Polad Həşimov oturacağın arxasını açaraq uzanmışdı ki, əsgərlər onu görüb, süfrədən qalxmasınlar.

Mənim hərbidə işlədiyim vaxtlar Polad Həşimovun işlədiyi vaxtlara təsadüf etmişdi. Dəfələrlə azad etdiyi postda əsgərləri ilə bərabər səngər qazdığını görmüşəm. Mən xidmətim müddətində, yay aylarında KamAz-la postlara odun, ərzaq, su daşıyırdım. O müddət ərzində mən Polad Həşimovu həmişə postlarda görmüşəm, heç vaxt hərbi hissədə görməmişəm".

Aslanov Elçin Xanlar oğlu:

"Bir dəfə Polad Həşimov Daşkəsəndə hərbi hissədə otağının qarşısında dayanıbmış. Qarşıdan gələn bir əsgər fikirli olduğundan Polad Həşimova dəyib. Ətrafdakı əsgərlər onu danlayarkən, Polad Həşimov deyib ki, kor o deyil, sizsiniz, görmürsünüz ki, nə qədər fikirlidir. Sonra əsgəri otağına çağırıb, niyə fikirli olduğunu soruşub. Əsgər kiçik yaşlı övladının xəstə olduğunu və 3 min manat pul lazım olduğunu, sələm axtardığını deyib. Həşimov həmin pulu tapıb ona köməklik edib. Bir neçə ay sonra əsgər pulu ona qaytarmaq istəsə də, Polad Həşimov pulu götürməyib, ona kömək üçün verdiyini deyib".

Alıyev Adil İsfəndiyar oğlu:

"MAHHXHQ kimi xidmətə başladığımızın ilk günləri idi. Hər kəs Polad Həşimovun necə yaxşı insan olduğu haqqında danışırdı. Bu danışıqlar zamanında mənə adi gəlirdi. Vaxt keçdikcə Polad Həşimovu özüm də tanıdım, gördüm ki, həqiqətən də əsl komandirdir; əsgərinin qeydinə qalan, qayğısını çəkən, əsgəri ilə bir yerdə yatan ilk

komandir idi ki, görürdüm. Postlara təminatın qalxması üçün öz şəxsi hesabına yol çəkmişdi.

Bir dəfə Ramazan ayı idi, hərbi hissəyə telefonoqramma ünvanlandı, hansı ki, Ramazan ayında oruc tutan, namaz qılan əsgərlər üçün onların yeməklərinin iftar vaxtlarında verilməsinin təmin edilməsini tələb etmişdi. Əsgərlərin buna necə sevindiklərinin şahidi oldum. Hərbi hissə komandirinin bu addımı atmağı mənim üçün böyük fəxr, qürur idi.

Ermənilər hərdən atəşkəsi pozanda, biz həyəcan komandası ilə postlara qalxanda, komandir kimi bizimlə çiyin-çiyinə olurdu. Onun yanımızda olmağı bizə başqa əhval-ruhiyyə verirdi.

Bir müddət sonra Polad Həşimov bizim hərbi hissədən Şəmkir korpusuna dəyişdirildi. O, hər dəfə bizim hərbi hissəyə gələndə, özünü sanki öz evinə gəlmiş kimi hiss edirdi".

Haqverdiyev Bayram Əli oğlu:

"Polad Həşimov hər dəfə postları yoxlayanda kimin nə problemi olub, hamısını həll edib, bütün ehtiyaclarımızı qarşılayıb. Allah rəhmət eləsin. General bizə atadan da yaxın insan olub".

Məmmədov Kamil Faiq oğlu:

"Polad Həşimov 2014-cü ildən 2016-cı ilədək mənim hərbi hissə komandirim olub. Mən manqa komandiri idim. Çox sadə bir insan idi, dövlətin ona verdiyi maaşla hərbi hissədə əsgərlər üçün hamam tikdirmişdi. Əsgərlərilə bərabər post üçün odun təminatına gedirdi, bizimlə bərabər çiynində posta odun qaldırırdı. Bütün postların yollarını Polad Həşimov çəkdirib. Bölmə komandiri olan

zaman Hinal dağı tərəfdəki ən hündür postlardan biri olan 93 nömrəli postu bir bölüklə almışdı. Həmin posta Polad postu deyirdilər.

Bir dəfə mənim əsgərim məzuniyyətdən gəlmişdi. O, gələndən bir həftə sonra övladı olmuşdu. Biz bunu öyrəndik və Polad Həşimova dedik. O, əsgəri yanına çağırdı və dedi:

- Səni məzuniyyətə göndərmək istəyirəm.

- Cənab polkovnik, mən məzunuyyətdən təzə gəlmişəm.

- Mən istəyirəm ki, sən yenə məzuniyyətə gedəsən.

O, öz cibindən 300 manat çıxarıb, əsgərin cibinə qoydu və əsgərə 10 gün məzuniyyət verdi. Əsgər ona təşəkkür edib evlərinə getdi və övladını görüb gəldi.

Polad Həşimov heç vaxt özünü əsgərdən yuxarı tutmazdı, əsgərlərlə birlikdə oturub yemək yeyərdi. Bizimlə bərabər işləyər, səngər təmizləyər, sığınacaq düzəldərdi. O, tək komandir idi ki, heç vaxt telefon işlətmirdi. Heç kəsə fərq qoymazdı; əsgər, zabit onun üçün eyni təbəqədəydi. Həmişə deyərdi ki, əsgərlər mənim övladlarımdır, valideynləri onları burada bizə əmanət ediblər. Onları öz balalarınızı qoruduğunuz kimi qoruyun. Borcu olan hərbi qulluqçulara kömək edər, borcundan verərdi. Ona görə də, heç vaxt onun şəxsi avtomobili olmadı, bahalı telefon işlətmədi.

2016-cı ildə Beyləqana 1-ci korpusa Maddi Texniki Təminat rəisi getmişdi. Korpus komandirinin 3-cü müavini idi.

O, 2020-ci ildə korpusumuza (3-cü korpusa) qərargah rəisi - general vəzifəsinə gəldi və Şəhid olanadək orada işlədi".

Orucov Samir Surxay oğlu:

"2016-cı il avqustun 19-dan 191 saylı hərbi hissədə maxe kimi işləmişəm. Mən orda işlədiyim müddətdə və bir il də ondan əvvəl evdə ad günümü müəyyən səbəblərdən qeyd eliyə bilmirdim. 2019-cu ildə mənim 23 yaşım tamam oldu. Ad günümə görə məzuniyyətimi saxladım, komandirdən xahiş elədim, məzuniyyətimi ad günümə saldılar. Həmin vaxtı biz aşağı düşəndə bizim üstümüzdə əlahiddə komandir var idi, bütün bölmələrdən aşağı düşmüş şəxsi heyəti düzüb təqdim eliyirdi. O, bir-bir fərdi soruşanda mən də dedim ki, ad günümə görə düşmüşəm, artıq 3-4 ildir ki, evdə ad günümü qeyd eliyə bilmirəm. O da təbrik elədi, yoldaşlar da əl çaldı. Polad Həşimov da qərargahın qabağında komandirlə söhbət eliyirdi, eşitdi və əlahiddə komandiri çağırdı. Komandir onun yanına gedəndə ona dedi ki, orda nə səs-küydü, nə məsələdi? Komandir də dedi ki, bizim maxenin ad günüdür, mən də təbrik eliyirdim. Həşimov da əlahiddə komandirə pul verib deyib ki, get bir dənə saat al. Əlahiddə komandir gəlib bizim yanımızdan çaynıya keçəndə bizə dedi ki, qaçaraq ağ xəttə düzülün. Bizim qərargahın qabağında ağ xətt var idi, həmişə orada düzülürdük. Biz detdik orada düzləndik, kənardan kimsə də gəldi bizi təqdim elədi. Həşimov çox sadə şəkildə hər kəslə fərdi söhbət eliyirdi. Ona qədər əlahiddə komandir də saatı aldı gətirdi, Həşimov saatı mənə normal təqdim elədi, dedi ki, evdəkiləri də biz əvəzdən təbrik edərsən. Mən o saatı saxlayıram evdədir, sandığa qoymuşam. Mənim üçün həyatım boyu aldığım ən dəyərli hədiyyədir. Mən yaralanandan sonra dostlarla getmişdim Poladın anasıgilə, qadını xatirələrimizlə bir az da biz ağlatdıq. Öz xatirələrimizdən danışdıq. O da təsir-

ləndi".

Ələkbərov Taleh Tahir oğlu:

"Mən Polad Həşimovun vaxtında xidmət eləmişəm. O, 3-cü Ordu Korpusunun Komandir müavini - Qərargah rəisi vəzifəsində çalışırdı. Mən Göygöl rayon N saylı hərbi hissədə kəşfiyyat bölüyündə postda xidmət edirdim. Kəşfiyyat bölüyündə müşahidəçi manqa komandiri kimi bir ay posta göndərmişdilər. Ermənilərin gələn maşınlarını, diversiya qrupunu, ermənilərin canlanmasını, bir iş görməsini, dot tikməsini, səngər tikməsini öyrənmək üçün müşahidə aparır, məlumatı ötürürdük kəşfiyyat müşahidə məntəqəsinə. O vaxt rəhmətlik Polad Həçimov posta gəlmişdi yoxlamağa, onda necə səmimi insan olduğunu biz görmüşdük, çox sevinirdik. Gəldi, əsgərlərimizlə görüşdü, onların problemlərilə maraqlandı. O, ehtiyacı olan əsgərləri məzuniyyətə buraxdırırdı. Allaha and olsun ki, biz nə vaxt eşidirdik ki, komandirimiz Polad Həşimov yoxlamağa gəlib, çox sevinirdik.

Mən Daşkəsən rayon N saylı hərbi hissədə xidmət edən vaxt gəlirdi hərbi hissəyə, biznən xoş danışar, xoş rəftar edərdi. Bizi həyəcan komandası ilə qaldırar, cərgəyə düzərdi, müharibədə necə olmalısız, necə döyüşməlisiz deyə təlimatlandırardı. Həmişə deyərdi ki, mən aldığım postdan hücuma keçərsiniz. Amma əksinə oldu, bizi başqa planla hücuma apardılar...

O, bizimlə komandir kimi yox, kiçik qardaş kimi danışırdı, bizimlə övladı kimi rəftar edirdi. Şəxsi heyətin problemi ilə maraqlanırdı. O insan üçün adam ürəyini də çıxardıb verərdi.

Polad Həşimov rəhmətə gedəndə inanın ki, bizim

briqadada hamı dizini yerə qoyub hönkürtü ilə ağlayırdı. Ürəyimiz partlayırdı, hamımız istəyirdik ki, hücum əmri verilsin, gedək onun qisasını alaq. Nəhayət əmr gəldi ki, Tovuzdan hücuma keçək, biz sevinclə, hərbi hissədə silahlardan ata-ata, qışqıra-qışqıra getdik ki, Polad Həşimovun qisasını alacağıq. Bizi mindirdilər maşınlara gəldik Daşkəsən yanacaqdoldurma məntəqəsinin yanına, amma oradan bizi geri qaytarıb, Xoşbulaq şamlığa gətirdilər, şamlıqda palatka qurub növbəti əmri gözləmişik. Çox təəssüf edirdim ki, Tovuza döyüşlərə gedə bilmədik. Allah komandirimizə qəni-qəni rəhmət eləsin".

Vətən timsalına dönən şəhidlər



TORPAQ, UĞRUNDA ÖLƏN VARSA VƏTƏNDİR

Ancaq müqəddəs amallar uğrunda çarpışan, qorxu nə olduğunu bilməyən, Vətən və xalq yolunda canını fəda etməkdən çəkinməyən cəsarətli, ləyaqətli insanlar şəhidlik zirvəsinə yüksələ bilirlər. Bu zirvəyə qalxmaq hər kəsə nəsib olmur. Şəhidliyə gedən yol fədakarlıqdan başlanır. Şəhidlərin ölüm günü yoxdur, onların ancaq doğum günü var. Şəhidlik ölüm deyil, şəhidlik bir həyat tərzidir. Şəhid düşüncəsi bir yaşam tərzidir. Ölümü gözə almayanlar əbədi yaşaya bilməzlər.

Onlar torpağı Vətən edən, Vətənə namus deyən, bayrağa qanını verən, Cənnətə hamıdan əvvəl gedənlərdir. İnsanı insan edəcək bir şanı, şərəfi olmalıdır. Bizim şəhadətə çatan qəhrəmanlarımız o şan və şərəfə malikdirlər. Onlar bu yurdu yaşatmaq üçün canlarından keçdilər, amma əbədiyaşar oldular. Hər şeydən vaz keçdilər, sevdiklərinə, Allaha qovuşdular. Ona görə də adları şəhid oldu.

Torpaqlarımızın harasını sıxsan şəhid qanı çıxacaq. Onlar azan oldular, hər gün 5 dəfə səsləndilər, bayraq oldular enmədilər, ölkəmizin hər yerində ən yüksəklərdə dalğalandılar, azad ruhları hər gün səngərlərdə və işğal olunmuş torpaqlarımızda dolaşdılar. Bu ölkənin, bu torpağın mərd oğullarının dirisi əsgər, gedəni şəhiddir.

Bu millətin igid oğulları evində doğular, savaşda ölər. Əbədi olan Vətəndir, Vətən sağ olsun, - deyib, atılan mərmilərin üstünə gedər.

Bizim rahat yaşamağımız üçün şəhidlərimizin və bütün əsgərlərimizin səngərlərdə nə qədər yuxusuz gecələri,

ac günləri olub... Əgər bu gün səmalarımız aydın və təmizdirsə, həyatımız öz axarında davam edirsə, uşaqlarımız şən və qayğısız yaşayırsa, bu gözəl günlərin bədəlini ödəyən şəhidlər, qazilər və Vətənimizin keşiyində dayanan əsgərlər vardır. Vətən üçün canından keçən şəhidlərimiz dünən də varıydılar, bu gün də varlar, sabah da olacaqlar.

Şəhidlik - vətənpərvərliyin ən ali məqamıdır. Vətən üçün ölüm həyatın davamı deməkdir. Vətən üçün atılan hər bir addım vətənpərvərlikdən xəbər verir.

Heç bir şəhid anasına "necəsən" deyə soruşma, onların ürəklərinin bir tərəfi qan, bir tərəfi göz yaşıdır. Mən o analara demək istəyirəm ki, ey şəhid anası, sən əsla ağlama, başın dik, gözün pak olsun, göz yaşı axıtma, sənin oğlunun cismi torpaq altında, amma ruhu Cənnətin baş köşəsindədir, bunu unutma.

Şəhidlər dəfn edilməzdən öncə yuyulmazlar, çünki onlar təkrar dirildiklərində Allahın hüzuruna yaraları ilə çıxarlar. Hər yara, hər qan ləkəsi cənnətin xəbərçisidir.

Hz. Məhəmməd (s.ə.s) buyurmuşdur: "Cənnətə ilk girən şəxs şəhid olacaq". Şəhidlər məhşərə daxil olanda peyğəmbərlər ayağa qalxar.

Şəhidlərə verilən 6 böyük mükafat vardır:

1. Şəhidin tökülən ilk qanı ilə bərabər bütün günahları bağışlanır.
2. Şəhidin şəhid olduğu ilk anda cənnətdəki məqamı özünə göstərilir.
3. Şəhid qəbrinə dəfn edildikdən sonra, qəbir əzabından qurtulur.

4. Şəhid ən böyük qorxudan (cəhənnəm qorxusundan) əmin olur.

5. Axirət günü şəhidə iman paltarı geydirilir.

6. Hurilərlə evləndirilir və qiyamət günü qohumlarından 70 insan haqqında şəfaəti qəbul olunur.

Şəhidlər xalqın kimliyini, mənliyini qoruyan insanlardır. Azərbaycanın bugünkü, həm də gələcək nəsilləri şəhidlərimizin qəhrəmanlıqlarından nümunə götürəcəklər və azadlığımızı, müstəqilliyimizi qorumaq üçün daim mübarizə aparacaqlar.

Şəhid bir millətin, bir xalqın bütövlüyünü, varlığını təmin edən əsas şəxsiyyətdir.

***

Əziz oxucularım, Türk Silahlı Qüvvətlərinin Albayı Erhan Altınokun YouTube kanalında izlədiyim bir çıxışını sizlərin diqqətinə çatdırmaq istəyirəm:

"Dağlıq Qarabağdakı o qədər igidlikdən sonra bir xarici jurnalist hər iki tərəfin əsgərlərinə suallar verdi. Azərbaycan igidinə döndu:

- Sizin neçə ölünüz var? Əsgər:

- Bizdə ölü yoxdur.

- Necə yəni ölünüz yoxdur, bu qədər çətin döyüşdə. Baxın qarşı tərəfin bu qədər ölüsü var, sizin necə olmaz? Neçə ölünüz var?

- Bizdə ölü olmadı, bizim qazimiz oldu, qəhrəmanımız oldu, şəhidimiz oldu, amma ölümüz olmadı".

SİZLƏR TORPAQ OLDUNUZ, TORPAQLAR VƏTƏN

ŞƏHİDLƏR

Qəlbləri döyündü Vətən eşqiylə,
Vətənçün canından keçdi şəhidlər.
Xalqın varlığını saxlamaq üçün,
Azadlıq yolunu seçdi şəhidlər.

Xalqına edilən haqsızlıqlara
Dözməyib meydana çıxdı şəhidlər.
Sinəsin tanklara sipər edərək,
Ən uca zirvədən baxdı şəhidlər.

O şənbə gecəsi qan yaddaşımız,
"Şəhidlər xiyabanı" and yerimizdir.
Şənbə gecəsindən Qarabağadək
Keçdiyiniz yollar yurd yerimizdir.

Harda sıxsan bircə ovuc torpağı,
Orda çıxacaqdır şəhidin qanı.
Aç kar qulağını, eşit, ey düşmən,
Bir daha vermərik ana torpağı!

Ən böyük sevgidir Vətən sevgisi,
Torpaqçün torpağa döndü şəhidlər.
Vətən tarixini başdan yazaraq,
Vətən timsalına döndü şəhidlər.

Meydan oxuyaraq ölümə hər gün,
Ölümdən yüksəkdə durdu şəhidlər.
Qəhrəman tarixi təsdiq edərək,
Ən yeni tarixi qurdu şəhidlər.

Şəhidlər ölmürlər, onlar diridir,
Onlarçün yalnızca doğum günü var.
Vətən torpağında dolanıb hər gün,
Şəhidlər Vətəndə əbədi yaşar.

Çarpışar müqəddəs amal uğruna,
Göylərə ucalan bayraq uğruna.
Sizlərə borcluyuq bu Vətən üçün,
Vətənin dərdinə ortaq şəhidlər.

Son nəfəsdə "Vətən"- deyib ölərlər
Xalqın qüruruna dönən şəhidlər.
Bizləri Vətənə keşikçi qoyub,
Özləri bayrağa dönən şəhidlər.

Zəfər tarixini qanla yazdılar,
Azadlıq əlini sıxan şəhidlər.
Ruhunuz şad olsun: Qələbə çaldıq!
Düşməni yandırıb-yaxan şəhidlər!
Qarabağ bizimdir, Azərbaycandır!!!

17.01.2021



Alıyev Vahid Abbas oğlu
Gizir

1989-cu il fevralın 18-də Daşkəsən rayonunun Alunitdağ qəsəbəsində anadan olub. 2006-cı ildə Alunitdağ qəsəbə Rövşən Qafarov adına tam orta məktəbi bitirib. 2007-ci il aprelin 10-da Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Ağdam rayonunda N saylı hərbi hissədə xidmət edib, 2008-ci il oktyabrın 15-də tərxis olunub.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin Gizir Hazırlığı Kursunda 10.11.2011-ci il tarixdən 28.04.2012-ci il tarixə kimi fəaliyyət göstərən T-72 tank komandiri kursunu bitirib. Azərbaycan Respublikası Müdafiə nazirinin 28.04.2012-ci il tarixli əmri ilə Vahidə "Gizir" hərbi rütbəsi verilib. Elə həmin tarixdən Bakının yaxınlığında N saylı hərbi hissənin tank taborunda tank komandiri vəzifəsində xidmətini davam etdirib.

N saylı hərbi hissənin komandiri general-leytenant Rövşən Əkbərov tərəfindən 08.11.2017-ci ildə "9 noyabr – Dövlət Bayrağı" günü və 24.06.2020-ci ildə "Azərbaycan Ordusunun Yaradılmasının 102-ci ildönümü" münasibəti ilə, eləcə də döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə görə Fəxri Fərman;

N saylı hərbi hissənin komandiri polkovnik Zülfüqar

Abdullayev tərəfindən 28.01.2019-cu ildə "Hərbi hissənin yaranmasının 23-cü ildönümü", 28.05.2019-cu ildə "28 may-Respublika Günü", 05.06.2019-cu ildə "Ramazan bayramı" münasibətilə, eləcə də döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə görə Fəxri Fərman;

N saylı hərbi hissənin komandiri polkovnik Bilal Çompuzov tərəfindən "28 may – Respublika günü" münasibətilə döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə görə Fəxri Fərman;

N saylı hərbi hissənin qərargah rəisi - hərbi hissə komandirinin müavini polkovnik-leytenant Firdovsi Bəyov tərəfindən 26.06.2020-ci ildə "26 iyun – Azərbaycan Ordusunun Yaranması Günü"nün 102-ci ildönümü münasibəti ilə döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə görə Fəxri Fərman ilə təltif olunmuşdur.

Vətən müharibəsinin başlandığı ilk gündən komandiri olduğu tank heyəti ilə döyüşlərə qatılıb. Cəbrayıl və Füzuli rayonlarının işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Sentyabrın 30-da Füzuli istiqamətində gedən döyüşlərin birində qəhrəmancasına şəhid olub. Oktyabrın 2-də Daşkəsən rayonunun Şəhidlər Xiyabanında dəfn olunub. Ailəli idi, Vətənə əmanət Abbas və Rahid adında iki övladı qalıb.

Təltifləri:

"Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Yubiley medalı. 26.06.2018.

26.06.2018. "Qüsursuz Xidmətə Görə" 3-cü dərəcəli medalı. 26.06.2020.

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 25.12.2020.
"Cəsur döyüşçü" medalı. Sərəncam № 2724. 24.06.2021.
"Azərbaycan Bayrağı" ordeni. Sərəncam № 2987. 05.11.2021.

2022-ci il martın 8-də Vahidin anası Xəlilova Pəri xanıma Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Hacıyev Rəhman tərəfindən "Vətən müharibəsi şəhidi Alıyev Vahid Abbas oğlu kimi qəhrəman və fədakar övlad yetişdirdiyinə görə və 8 mart qadınlar günü münasibətilə təbrik etmək məqsədilə Pəri xanımın adından işğaldan azad edilən ərazilərdə əkilməsi üçün Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi işçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılov tərəfindən 1 ədəd ağac ianə edilməsi barədə" İanə Sertifikatı təqdim edilmişdir.



Cəfərli Orxan Etibar oğlu
Gizir

1996-cı il fevralın 16-da Daşkəsən şəhərində anadan olub. 2013-cü ildə tam orta məktəbi bitirib. 2014-cü il aprelin 4-dən 2015-ci il oktyabrın 3-dək Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmət keçib. Ehtiyata buraxıldıqdan sonra Silahlı Qüvvələrin Tə-

lim və Tədris Mərkəzinin "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu hazırlığı" və "Gizir hazırlığı" kurslarını bitirib. Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 8 may 2020-ci il tarixli əmri ilə "Gizir" hərbi rütbəsi verilib.

Hərbi hissənin dağ-atıcı taborunda dağ-atıcı manqanın komandiri, dağ-atıcı taqım komandirinin müavini vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günündən Murovdağ - Kəlbəcər istiqamətində gedən döyüş əməliyyatlarında fəal iştirak edib.

Atası Etibar Cəfərlinin danışdıqlarından:

"Oğlumla axırıncı dəfə sentyabrın 26-da danışdım, sonra isə əlaqə saxlaya bilmədim. Təxmini saat 7-8 radələri idi, zəng vurdu ki, salam, ata, necəsən? Mən də ondan hal-əhval tutdum, ancaq əlaqə kəsildi. Nə qədər çalışsaq da, danışa bilmədik. Təxminən 20 dəqiqədən sonra yenidən zəng vurdu, az danışdıq, öpürəm, ata, - dedi və əlaqə yenidən kəsildi.

Orxangil ermənilərin postunu ələ keçirəndən sonra çox sayda erməni məhv etmişdilər. Döyüşlər davam etdiyi müddətdə düşmənlə əlbəyaxa döyüşüblər.

Orxanla birlikdə döyüşən bir şəhidin qardaşı mənimlə söhbət etdi. O, bildirdi ki, döyüşün sonlarına yaxın silah-sursatları tamamilə azalmışdı. Həmin vaxt posta yaxın yerdə Orxan ermənilərlə üz-üzə gəlib, əlbəyaxa döyüşərək bir çoxunu məhv edib. Orxan çiynindən yaralı olduğu üçün tam qüvvəsindən istifadə edə bilməyib, sol əli ilə kaskasını çıxarıb onunla ermənilər məhv edib. Bunu görən ermənilər Orxanın diz nahiyəsindən iki güllə vurublar. Yerə yıxıldıqdan sonra isə sinəsindən vurula-

raq şəhid olub. Bir neçə saat döyüşdükdən sonra hərbçi yoldaşları ilə birgə hamısı şəhid olublar. Orxan 2020-ci il oktyabrın 30-da şəhid olsa da, nəşi dekabrın 9-da yüksəklikdən çıxarılaraq ailəsinə təhvil verilib və Daşkəsən rayonunun Şəhidlər Xiyabanında dəfn edilib. Hamı deyirdi ki, Orxan sanki iki gündür şəhid olub.

Mən Orxana demişdim ki, sən evə gələndə qurban kəsəcəm. Düzdür, Orxan şəhid oldu, amma mən yenə sözümün üstündə durub, qurbanımı kəsdim. Çünki, oğlum evinə gəlmişdi. Orxan şərəfli döyüş yolu keçdi".

Təltifləri:

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.
"Cəsur döyüşçü" medalı. Sərəncam № 2724. 24.06.2021.
3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni. Sərəncam № 3573. 05.11.2022.



İsmayılov Novruz Nurəddin oğlu
Gizir

1987-ci il oktyabrın 13-də Daşkəsən rayonunun Zinzahal kəndində anadan olub. 2005-ci ildə Gəncə şəhər Məhsəti qəsəbəsi 21 saylı tam orta məktəbi bitirib. Novruzun uşaqlıqdan gözəl səsi olub.



2005-ci il oktyabrın 19-da Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Tərtər rayonunda N saylı hərbi hissədə xidmət edib. Tərtər rayonunun Tülkü dərəsi adlanan istiqamətində düşmənlə üz-üzə müdafiədə olarkən üst çənə nahiyəsindən yaralanıb - düşmən tərəfindən atılan güllə sağ üz nahiyəsindən keçib, boğazından çıxıb. Ağdam hərbi hospitalında ilkin tibbi yardım göstərilib. Yarası ağır olduğu üçün Bakı şəhərinə Papanin hospitalına (Silahlı Qüvvələrin Baş Klinik Hospitalı) göndərilib. Burada 5 ay müalicə olunub və hərbi xidməti başa çatıb. Hərbidən tərxis olunduqdan sonra bir müddət müxtəlif işlərdə işləyib. Amma hərbçi olmaq həvəsi onu yenidən ordu sıralarında xidmətə qaytarıb.

15.09.2008-ci il tarixindən 07.03.2009-cu il tarixinədək Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində fəaliyyət göstərən motoatıcı taqım komandirinin müavini kursunu bitirib və Sertifikat alıb. MAHHXHQ olaraq Naxçıvan MR-də N saylı hərbi hissədə gizir vəzifəsində 5 il xidmət edib. 2014-cü il mayın 14-də valideynlərinin təkidi ilə ordu sıralarından tərxis olunub. 2014-cü il oktyabrın 13-də ailə həyatı qursa da, təkrar hərbi xidmətə qayıtmaq istəyirdi. Hörmətli generalımız Polad Həşimov şəhid olandan sonra qəti qərara gəlib ki, mütləq generalımızın qisasını almalıyıq.

Vətən müharibəsi başlayanda bir neçə dəfə SHXÇ-DX-nın Daşkəsən rayon bölməsinə müraciət etsə də, onu qeydiyyata götürməyiblər ki, yaralısan. Novruz isə təkidlə "Mən getməliyəm, neçə ildir ki, torpaqlarımız xain düşməndədir, almaq vaxtıdır. Məni Vətənim çağırır, getməliyəm". Nəhayət o, könüllü olaraq qeydiyyatdan keçib. 2020-ci il oktyabrın 9-da cəbhəyə yola düşərkən valideynlərinə son sözü bu olub: "Bütöv olmayan Vətənin vətəndaşı bütöv olmaz. Ailəm sizə əmanət". Bütün əsgərlərimiz kimi, onun da ən böyük arzusu Şuşanı azad görmək idi. Novruz oktyabrın 31-dək şücaətlə döyüşüb, Füzulinin, Xocavəndin alınması uğrunda gedən çoxsaylı döyüş əməliyyatlarında fəal iştirak edib. Döyüşlər zamanı dizindən yaralansa da, döyüşlərə davam edib.

Oktyabrın 31-də Füzuli rayonunun Hadrut qəsəbəsində növbəti döyüş əmrini yerinə yetirərkən qəhrəmancasına şəhid olub, noyabrın 8-də Daşkəsən rayon Şəhidlər Xiyabanında dəfn olunub. Vətənə əmanət Günay adlı bir qız övladı var.

Dostalarının ailəsinə dediklərinə görə minaya düşüb. Dostlarına deyirmiş ki, "Qızımdan çox narahatam, mənsiz neyləyəcək?".

Təltifləri:

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.
"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 25.12.2020.
"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2712. 24.06.2021.
"Cəsur döyüşçü" medalı. Sərəncam № 2724. 24.06.2021.

23.12.2020-ci ildə N saylı hərbi hissənin komandiri kapitan Bayram Hüseynov tərəfindən "Azərbaycan Respublikasının Suverenliyi, ərazi bütövlüyünün bərpası və Vətən müharibəsində göstərdiyi şücaətə görə" şəhidimiz Fəxri Fərmanla;

Yeni İctimai Nəzarət Təşkilatının sədri Ramil Şükürov tərəfindən "Torpaqlarımızın azadlığı uğrunda 44 gün davam edən hərbi əməliyyatlar zamanı düşmənin silahlı qüvvələrini darmadağın edərək böyük zəfərə imza atdığına görə" ölümündən sonra "Xarı Bülbül" Fəxri Diplomu ilə təltif olunub.

Abdullayev Şəhriyar Kamil oğlu
Kiçik gizir



1987-ci il martın 2-də Tərtər rayonunun Cəmilli kəndində müəllim ailəsində anadan olub. Əslən Kəlbəcər rayonundan olduğu üçün, bir müddət sonra ailəsi Kəlbəcərə köçmüş, bir neçə il orada yaşamışdır. Şəhriyar Kəlbəcər rayonunun Məmmədsəfi kəndində qeydiyyatda idi. 1993-cü il aprelin 4-də Kəlbəcərin işğalından sonra ailəsi Tərtər rayonunun Cəmilli kəndində məcburi köçkün kimi məskunlaşmışdır. Ailədə 3 qardaş, 2 bacı olmuşlar. Şəhriyar

ailənin 3-cü övladıdır.

İbtidai təhsilini Tərtər rayonunun Cəmilli kənd tam orta məktəbində alıb. 1998-ci ilin noyabr ayında atası Abdullayev Kamil Mahmud oğlunun işi ilə əlaqədar Daşkəsən rayonunun Bayan kəndinə köçüblər. Şəhriyar Bayan kəndində yerləşən 73 saylı Kəlbəcər rayon tam orta məktəbində təhsilini davam etdirmiş və 2005-ci ildə həmin məktəbi bitirmişdir. 2005-ci ilin oktyabr ayında Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılmış, Ağcabədi rayon N saylı hərbi hissədə il yarım manqa komandiri kimi xidmət etmişdir. O, hərbi xidmətini də öz istəyilə ön cəbhədə çəkib. Xidmət etdiyi müddətdə Xüsusi Təyinatlı Qüvvələrin kursuna seçilib. Hərbi hissədə keçirilən idman yarışlarında iştirak edib, qaydasız döyüş üzrə yarışda 1-ci yeri tutub. 2007-ci ilin aprelində ordu sıralarından ehtiyata buraxılıb.

Valideynləri onun polis olaraq xidmət göstərməyini istədiklərinə görə, Şəhriyar sənədlərini verdikdən sonra polis orqanlarına işə qəbul olunsa da, son anda fikrindən daşınıb. 2010-cu ilədək müxtəlif işlərdə işləyib. 2010-cu ildə MAHHXHQ kimi yenidən Ağcabədi rayon N saylı hərbi hissədə, ön xətdə post başçısı kimi xidmətinə davam edib.

Qardaşı Tural:

«Şəhriyar işğal altında olan torpaqlarımızı azad etmək və şəhidlərimizin qisasını almaq üçün hərbçi olmaq istəyirdi, atamdan xəbərsiz sənədlərini götürüb Xüsusi Təyinatlı Qüvvələrə qəbul üçün verdi. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində MAHHXHQ-nin hazırlığı kursunda 23.04.2012-ci il tarixdən 11.07.2012-ci il tarixə kimi fəaliy-

yət göstərən motoatıcı manqa komandiri kursunu bitirdi. 2012-ci ildən XTQ-də, 052 saylı hərbi hissədə kiçik gizir kimi xidmətinə davam etməyə başladı. Şəhriyar həmişə deyirdi ki, mən burada ermənilərdən qisasımızı istədiyim kimi ala bilmirəm. O, müharibənin tezliklə başlamasını və özünün orada iştirak etməsini arzulayırdı».

Xidmət etdiyi hərbi hissədə həm komandirləri, həm də yoldaşları arasında böyük hörməti olmuşdur.

Şəhriyar Aprel döyüşlərində də böyük şücaət göstərib.

18.10.2016-cı il tarixində 052 nömrəli hərbi hissənin komandiri general-mayor Hikmət Mirzəyev tərəfindən "18 oktyabr dövlət müstəqilliyi günü"nün qeyd edilməsi və 2017-ci il iyunun 26-da "26 iyun Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 99-cu ildönümü"nün qeyd edilməsi münasibəti ilə döyüş və ictimai-siyasi hazırlıqda yüksək nailiyyətlər əldə etdiyinə, nizam-intizamı ilə seçildiyinə görə" Fəxri Fərmanlarla təltif olunub.

Hərbçi yoldaşlarının dediklərinə görə, Şəhriyar müharibə başlamamışdan əvvəl keçirilən təlim kurslarında iştirak etmək istəməyib ki, birdən müharibə başlayar, o təlimlərdə olar, iştirak edə bilməz.

Vətən müharibəsi başlayanda, Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib. "Bu dəfə mütləq torpaqlarımızı erməni işqalından azad edib, ata yurdumuza qayıdacağıq" demişdi. O, qızğın və amansız döyüşlərdə düşmənə əsl kabus yaşatmışdı. Uğurlu döyüş əməliyyatından sonra ailəsi ilə danışanda "Murovdan Kəlbəcərin qoxusu gəlir" demişdi.

Oktyabrın 10 – 11-də Cəbrayıl, Füzuli, Xocavənd, Hadrut uğrunda gedən döyüşlərdə yoldaşları ilə birgə düşmə-

nin xeyli sayda hərbi qulluqçusunu məhv etmişdi. Döyüş yoldaşları ilə bərabər ermənilərin texnikasını əlindən almışdılar. O, hər dəfə düşmən səngərinə yoldaşlarından əvvəl girər və onları məhv edərdi. Anası ilə danışanda demişdi ki, "Xocalının qisasını min qat aldıq".

Şəhriyar Hadrutun girişində, Şişqaya yüksəkliyi uğrunda gedən döyüşdə qəhrəmancasına həlak olub. Həmin yüksəklikdə Şəhriyarın xatirəsinə lövhə də vurulub. Oktyabrın 13-də Daşkəsən rayon Şəhidlər Xiyabanında dəfn edilib. O, 33 illik ömrünün 12 ilini vətəninə xidmət etmişdir. Ailəli idi, Vətəninə və ailəsinə əmanət Zəhra və Füruzə adlı iki qız övladı var.

Döyüş yoldaşı:

"Şəhriyar qorxu bilmədən, uca səslə bağıraraq düşmən üstünə gedib. O, oktyabrın 9-10-da 50-dən çox ermənini məhv edib. Oktyabrın 11-də isə ermənilərin atdığı snayper gülləsi nəticəsində başından yaralanaraq şəhid olub».

Şəhriyarın qardaşı Tural:

"Axırıncı dəfə oktyabrın 9-da mənə səs göndərmişdi ki, həqiqətən hər şey yaxşıdır. Hamıya salam de, arxayın olsunlar, biz istəyimizə nail oluruq".

Şəhriyarın həyat yoldaşı Zülfiyyə Abdullayeva:

"Sonuncu dəfə Şəhriyara mesaj yazdım ki, müharibədir, hər şey ola bilər, uşaqlarını necə böyütmək istərdin? Mənə səs göndərdi ki, balaca qızım hərbçi, ya polis, Zəhra da həkim olmalıdır. Nə olursa-olsun onları oxutmalısan. Mən onun arzularını reallaşdıracam.

Şəhriyar çox gözəl ailə başçısı olub. Mən həm sağlığında, həm də şəhid olandan sonra onunla fəxr edirəm. Onunla hamı qürur duyur.

Şəhriyar döyüşlərə şəhid olmaq arzusu ilə gedib, biz ona hazır idik. Şəhriyar özü bizə demişdi ki, bizim işimiz budu, biz şəhid olmaq üçün bu işə gəlmişik. O, mənim qəhrəmanımdır və mən ona görə ayaq üstəyəm".

Təltifləri:

"Silahlı Qüvvələrin 100 illiyi" Yubiley medalı. 26.06.2018.

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

"Kəlbəcərin azad olunmasına förə" medalı. Sərəncam № 2372. 29.12.2020.

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2711. 24.06.2021.

"Azərbaycan Bayrağı" ordeni. Sərəncam № 2987. 05.11.2021.

Yeni İctimai Nəzarət Təşkilatının sədri Ramil Şükürov tərəfindən "Torpaqlarımızın azadlığı uğrunda 44 gün davam edən hərbi əməliyyatlar zamanı düşmənin silahlı qüvvələrini darmadağın edərək böyük zəfərə imza atdığına görə" ölümündən sonra "Xarı bülbül" Fəxri Diplomu ilə təltif edilmişdir.

2021-ci il oktyabrın 13-də Bayan kəndində, yolun kənarında Şəhriyarın xatirəsinə inşa edilən bulaq kompleksinin açılışı olub.



Ələsgərov Pərviz
Lətif oğlu
Çavuş

1984-cü il sentyabrın 27-də Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 2002-ci ildə Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbi bitirib. Elə həmin ilin oktyabrında Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Naxçıvan MR-də N saylı hərbi hissədə xidmət edib. 2014-cü ilin mart ayından Daşkəsən rayonunda N saylı hərbi hissədə ön postda MAH-HXHQ, çavuş vəzifəsində xidmət edib.

12 may 2014-cü il tarixdən 28 iyun 2014-cü il tarixədək N saylı hərbi hissədə "Motoatıcı manqa komandiri" ixtisası üzrə tam kursu keçib və bu ixtisas üzrə 3-cü dərəcə alıb.

Pərviz General Polad Həşimovun sevimli əsgəri olub. İlk vaxtlarda əsgər kimi xidmət edib. Polad Həşimov onun postdakı xidmətini yüksək qiymətləndirərək ilk 3 aydan sonra kiçik çavuş, 6 aydan sonra isə çavuş rütbəsi verib.

2017-ci ilin mart ayında ön postda xidməti vəzifəsini yerinə yetirərkən yaralanıb, sağaldıqdan sonra Vətəninə, bayrağına olan sevgisindən xidmətinə davam edib.

26.06.2018-ci il tarixində Daşkəsən rayon N saylı hərbi hissənin komandiri polkovnik - leytenant Siyavuş Mustafayev tərəfindən "26 iyun – Azərbaycan Respublikası Si-

lahlı Qüvvələrinin yaranmasının 100-cü ildönümü" münasibəti ilə, eləcə də döyüş hazırlığında, qoşun xidmətinin təşkilində əldə etdiyi nailiyyətlərə görə Fəxri Fərmanla təltif olunub.

10.05.2019-cu il tarixində Daşkəsən rayon N saylı hərbi hissənin 12-ci bölüyünun komandiri Yaqub Məmmədov Pərvizin ailəsinə Təşəkkür məktubu göndərib:

"Hörmətli Lətif müəllim, nəzərinizə çatdırırıq ki, oğlunuz snayper çavuş Ələsgərov Pərviz qısa müddətdə özünü nizam-intizamlı, qorxmaz, cəsur və igid Azərbaycan hərbçisi kimi göstərmişdir. Ona həvalə olunmuş silahı mükəmməl öyrənir, azğın düşmənin məhvi üçün onun imkanlarından məharətlə istifadə etməyə hazırdır.

Pərviz hərbi hissədə vətənpərvərliyi və qayğıkeşliyi ilə yoldaşlarının və hərbi hissə komandanlığının dərin hörmətini qazanıb. Əla xidmətinə və nümunəvi intizamına görə dəfələrlə komandanlıq tərəfindən təşəkkürlə qeyd olunub.

Pərviz müstəqil Azərbaycanın dövlət mənafeyini müqəddəs tutaraq torpaqlarımızın bütövlüyü uğrunda öz əsgəri borcunu layiqincə yerinə yetirir.

Pərviz kimi oğul tərbiyə edib böyütdüyünüzə görə sizə təşəkkür edir, möhkəm can sağlığı, uzun ömür, ailə firavanlığı, halal və nəcib əməyinizdə uğurlar arzulayırıq.

Snayper çavuş Ələsgərov Pərviz kimi övladınız olduğu üçün fəxr edə bilərsiniz".

27.06.2020-ci ildə Daşkəsən rayon N saylı hərbi hissənin komandiri polkovnik Əflatun Nurəliyev tərəfindən "İyun ayının yekununa görə, döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi yüksək nəticələrə və yüksək hərbi intizama nail olduğu üçün" Fəxri Fərmanla təltif olunub.

Vətən müharibəsi başlayanda Pərvizin ad günü idi, elə xidmət etdiyi postda böyük ruh yüksəkliyi ilə döyüşlərdə iştirak edirdi. Ən böyük arzusu torpaqlarımızı azad edib, canından çox sevdiyi komandiri Polad Həşimovun intiqamını almaq idi. O, oktyabrın 2-də Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu. Nəşi 52 gündən sonra, noyabrın 23-də Ağqaya istiqamətində tapılıb. Noyabrın 24-də Daşkəsən şəhər Şəhidlər Xiyabanında dəfn edilib. Ailəli idi, Vətənə əmanət iki oğul övladı qalıb.

Pərvizin həyat yoldaşı Mətanət xanım:

"Pərvizlə son görüşümüz sentyabrın 26-da oldu. İşdən evə gəldi, çox həyəcanlı idi, tələsirdi. Mən onun sabahkı ad gününə tort hazırlayırdım. Dedi ki, gedirəm, hazırlıq görmə, onsuz da ad günümdə evdə olmayacam. Soruşdum ki, hara gedirsən?

- Vətən bizi çağırır.

- Yaran ağrıyır, yalvarıram, getmə.

- Generalımızın qisasını almalıyıq, bu azğın düşmənləri torpaqlarımızdan birdəfəlik qovmalıyıq.

Pərviz sanki qayıtmayacağını bilirdi, təkrar-təkrar dönüb uşaqları mənə əmanət edir, təkrar-təkrar uşaqları öpürdü. Elə bil bizimlə son görüşü idi. Biz onu yola saldıq. Son dəfə oktyabrın 1-də danışdıq. Hey uşaqlara, özünə yaxşı bax deyirdi. Biz bir saatadək danışdıq. Elə bil ikimiz də hiss edirdik ki, son danışığımızdı. O gecə yuxumda gördüm ki, Pərviz şəhid olub, bayrağa bükülü tabutu gəlib. Səhəri gün Pərviz şəhid oldu.

Pərviz yaxşı övlad, gözəl ata və ailə başçısı, ən əsası isə çox yaxşı insan idi. Onu tanıyanlar necə xeyirxah, gözəl

qəlbli bir insan olduğundan danışır. Amma onu ən çox bu qəsəbənin uşaqları sevirdi, çünki hər işdən gələndə onlara pay alardı. Özünü onlara elə sevdirmişdi ki, indi də gəlib soruşurlar ki, Pərviz əmi niyə gəlmir?

Pərvizin 36 illik həyat yolu qısa olsa da, şərəfli oldu. Yoxluğunu hər an hiss etsəm də, onunla fəxr edirəm. O, mənim 14 illik ömür yoldaşım, övladlarımın atasıdır. Mən onun xatirəsini daim yaşadacağam".

Əziz oxucularım, Mətanət xanımın Pərvizə həsr edib, məzar daşına yazdırdığı şeirini sizlərə təqdim edirəm:

Torpağı canıyla, qanıyla alan,
Bu yerdə qəhrəman bir igid yatır.
Pərvizin adını tarixə yazan,
Bu yerdə qəhrəman bir şəhid yatır.

Ata ümidləri olubdur talab,
Arzusu, istəyi gözündə solan,
Eşqin, Elgün adlı körpəsi qalan,
Şəhid ata yatır, qəhrəman yatır.

Düşmənə od qoyan Vətən dağında,
Tarixə ad yazan torpaq uğrunda,
Daşkəsən şəhidi Pərviz adında,
Şəhid oğul yatır, qəhrəman yatır.

Mən şəhid Pərvizin sevən yarıyam,
Mətanət adında son baharıyam.
O, Vətənə, mən də ona bağlıyam,
Bir şəhid sevgili qəhrəman yatır.

Təltifləri:

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 13.12.2020.
"İgidliyə görə" medalı. Sərəncam № 2352. 18.12.2020
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 24.12.2020.
"Döyüşdə fərqlənməyə görə" medalı. Sərəncam № 2725. 24.06.2021.

Yeni İctimai Nəzarət Təşkilatının sədri Ramil Şükürov tərəfindən "Torpaqlarımızın azadlığı uğrunda 44 gün davam edən hərbi əməliyyatlar zamanı düşmənin silahlı qüvvələrini darmadağın edərək böyük zəfərə imza atdığına görə" ölümündən sonra "Xarı Bülbül" Fəxri Diplomuna layiq görülmüşdür.

2022-ci il martın 8-də Pərvizin anası Aybəniz xanım Ələsgərovaya Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Hacıyev Rəhman tərəfindən "Vətən müharibəsi şəhidi Ələsgərov Pərviz Lətif oğlu kimi qəhrəman və fədakar övlad yetişdirdiyinə görə və 8 mart qadınlar günü münasibətilə təbrik etmək məqsədilə Aybəniz xanımın adından işğaldan azad edilən ərazilərdə əkilməsi üçün Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi işçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılov tərəfindən 1 ədəd ağac ianə edilməsi barədə" İanə Sertifikatı təqdim edilmişdir.



Sadıqov Rüfət Vaqif oğlu
Çavuş

1995-ci il noyabrın 13-də Daşkəsən rayonunun Quşçu kəndində anadan olub. İki bacının tək qardaşı idi. 2016-cı ildə atası vəfat edəndə Rüfət 9-cu sinifdə oxuyurdu. Ailənin bütün yükü Rüfətin çiyinlərinə düşdüyü üçün məktəb vaxtlarından müxtəlif işlərdə işləmişdir. Hələ məktəb yaşlarından Rüfətin idmana böyük marağı vardı.

Daşkəsən rayon Gənclər və İdman İdarəsinin rəisi S.F.Həsənov tərəfindən:

27.02.2008-ci ildə "05 mart B/T və İdman günü"nə həsr olunmuş rayon məktəbləri arasında keçirilən "Voleybol" idman oyunu üzrə rayon birinciliyində 1-ci yeri;

28.04.2008-ci ildə Ümummilli liderimiz H.Əliyevin anadan olmasının 85-ci ildönümünə həsr edilmiş rayon məktəbləri arasında keçirilən "Voleybol" idman oyunu üzrə yarışlarda 1-ci yeri;

21.11.2008-ci ildə Bələdiyyə Kuboku uğrunda rayon məktəbləri arasında keçirilən "Voleybol" yarışında 3-cü yeri;

07.12.2008-ci ildə Ümummilli liderimiz H.Əliyevin xatirəsinə həsr edilmiş rayon məktəbləri arasında keçirilən "Mini-Futbol" yarışında 1-ci yeri tutduğuna görə Diplom-

larla təltif olunub.

Rüfət 2013-cü ildə Quşçu kənd Əli İsmayılov adına tam orta məktəbini bitirib. 2014-cü il yanvarın 13-də SHXÇ-DX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 2015-ci il iyulun 26-da hərbi xidmətini başa vuraraq, ordu sıralarından tərxis olunub. 2016-cı il dekabrın 3-də Şəmkirdə N saylı hərbi hissədə MAHHXHQ olaraq kiçik çavuş rütbəsində hərbi xidmətə başlayıb.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində MAHHXHQ-nin hazırlığı kursunda N saylı hərbi hissədə 05.12.2016-cı il tarixindən 15.01.2017-ci il tarixədək təşkil edilmiş Kəşfiyyat ixtisası kursunu bitirmişdir.

15.03.2017-ci ildən N saylı hərbi hissənin həmlə taborunda XTQ-nin 2-ci bölük, 3-cü taqım, 3-cü manqa komandiri, kəşfiyyatçı vəzifəsində xidmət edib.

03.10.2017-ci ildə N saylı hərbi hissənin komandiri general-mayor Xəqani Cəbrayılov tərəfindən "Döyüş atışlı taktiki təlimdə fərqləndiyinə görə" Fəxri Fərmanla təltif olunub.

01.02.2018-ci il tarixindən saylı hərbi hissənin 2-ci bölük, 3-cü taqım, 2-ci manqa komandiri, kəşfiyyatçı vəzifəsində xidmət edib.

N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Rəşid Orucov tərəfindən "9 noyabr Dövlət Bayrağı Günü münasibəti ilə nümunəvi hərbi xidmətə, yüksək intizama, döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə görə" Fəxri Fərmanla təltif olunub.

Rüfət nişanlı idi, toya hazırlaşırdılar. 2020-ci il sentyabrın 24-də ailəsi ilə görüşüb, anası ilə qızıl almağa gediblər.

Sentyabrın 25-də bacısına zəng edib ki, anamı tək buraxma, nişanlıma tez-tez zəng et. Mənə zəng etməyin. Amma deməyib ki, müharibədi.

Vətən müharibəsi başlayandan Rüfət Kəlbəcər-Murovdağ istiqamətində gedən döyüşlərdə manqa komandiri, kəşfiyyatçı olaraq iştirak edib. Dövlət tərəfindən Rüfətin oktyabrın 1-dən 2-nə keçən gecə şəhid olduğu yazılıb. Amma Rüfət oktyabrın 4-də savaşda olub. Həmin gündən ailəsinin onunla əlaqəsi kəsilib. Neçə ay dəqiq məlumat olmayıb. Rüfətin nəşi 2020-ci il dekabrın 13-də tapılıb, Gəncə şəhər Məhsəti qəsəbəsindəki hospitalın morquna gətirilib, hansı ki, Rüfət oranın tikintisində iştirak edib. Orada ekspertizanın nəticələri çıxana qədər qalıb. Dekabrın 19-da nəşi ailəsinə təhvil verilib, elə həmin gün də Daşkəsən rayon Şəhidlər Xiyabanında dəfn olunub.

Döyüş yoldaşının ailəsinə danışdıqlarından:

"Oktyabrın 4-də Ömər aşırımında, Canavar postunda mühasirəyə düşdük. Döyüş yoldaşlarımızdan ikisi özünü aşağı, dərəyə atdılar, Rüfətlə bir nəfər postda qaldı. Sabahı gün əsgərlər posta gələndə görüblər ki, biri şəhiddir, Rüfət isə yoxdur. Düşünüblər ki, yəqin ya əsir götürülüb, ya da bir yerdən çıxacaq. O döyüşdə Rüfətin demək olar ki, bütün döyüş yoldaşları şəhid olmuşdu. Bir-iki nəfər sağ qalmışdı. Rüfət itkin düşmüş sayıldı. Əsgərlər deyirdilər ki, bizə kömək elədi, əsir düşməkdən qurtardı.

Rüfətin komandiri bizə dedi ki, Rüfət mənlə əlaqə yaratdı, sevincək dedi ki, komandir, Kəlbəcər rayonu görünür. Yolda 2 UAZ markalı avtomobil gördüm, birini içindəkilərlə birlikdə partlatdım, biri sizə tərəf gəlir, vurun.

Orada şiddətli döyüş gedib, artilleriya atıb, çoxlu şəhi-

dimiz olub, komandir kömək istəyib, yaralıları göndərib, özü də şəhid olub".

Rüfətin bacısı Fəridə xanım:

"Rüfət biz iki bacısından 10 il sonra doğulmuşdu. Mən onu Allahdan arzulamışdım, adını da mən qoymuşdum. Qardaşım mərd, sözünə bütöv, sadə, mehriban, sakit təbiətli, xoş xasiyyətli bir insan idi. Böyüyə-kiçiyə, müəllimlərinə hörmətli, anasına, bacısına diqqətliydi. Uşaqları çox sevərdi, bizim uşaqlarnan nəfəs alardı. Çox arzulayırdı ki, qız atası olsun, təəssüf ki, qismət olmadı. Kollektivdə hörmətli, ətrafındakı hər kəsə qarşı mehriban idi.

O, çox qısqanc idi. Mən indi də onun sağlığında olduğu kimi, heç kimnən danışmıram. Əsgər yoldaşı da olsa, Rüfətin ruhu rahat olsun deyə, heç kimi axtarıb danışmıram.

Biz müharibə vaxtı böyümüşdük. 1992-ci ildə 4 dayım əsgər idi, qohumlardan şəhid vermişdik. Biz 20 yanvara, Xocalıya baxa-baxa böyümüşdük. Tez-tez yuxuda qaçqın düşdüyümüzü görürdüm. Bir neçə dəfə gördüm ki, qaçırıq, qardaşım qalıb ermənilərin içində. Hamımız ağlayırıq, xəbərimiz yoxdu ki, öldü, qaldı. 2020-ci ilin yayı idi, yuxumda gördüm ki, zəng gəlir, mənə deyirlər ki, qardaşın ölüb. Yuxumu heç kimə deyə bilmədim, qorxdum, fikirli idim.

2020-ci ilin iyul ayı idi, Tovuz hadisələri zamanı general Polad Həşimov şəhid oldu, qardaşım zəng etdi ki, "anamın başını qat, qıza zəng et, darıxmasın. Mənə zəng etməyin, sonra sağ-salamat gəldi, dedi ki, heç nə, indi müharibə zad olmayacaq, dayandılar. Əsəbimizdən hər gün ölürük, müharibə başlasın, bitsin".

Müharibə xəbərlərini eşitdikdə dünyaya sığa bilmədim, ermənilərin əsirlərə verdikləri işgəncələri, Xocalını düşündükcə...

Rüfət sentyabrın 13-də doğulub, noyabrın 13-nə yazılıb. Sentyabrın 13-də bizə gəlmişdi, bir də gördüm Gəncədən bacım da gəldi, Gəncədən bazarlıq da eləmişdi. Tort bişirdik, deyə-gülə yedik. Mən Rüfətə dedim ki, gələn il evlən və bütöv Azərbaycana qulluq elə. Elə sevindi ki... Bacım 20, mən isə 17 ildir ki, evliyik. Ailə qurandan sonra biz 3 uşaq birinci və axırıncı dəfə ad günü keçirdik, son görüşümüz oldu. Dedim ki, Xocalıdakı ayaqyalın qadınların hayıfını çıxsanız başı dik olarıq.

Axırıncı dəfə söhbət edəndə gizir getmək istəyirdi. Biz də paltarını yumuşduq, yığışdı. Soruşdum ki, kurs noldu? Dedi ki, öz qolumun gücünə Milli Qəhrəman alacam. Oğlum dedi ki, ana, dayım niyə belə dedi? Onda Şükür Həmidov sağ idi, mən də dedim ki, sağ Milli Qəhrəmanlar da var.

Sentyabrın 26-da hamı ağlayırdı, məndə müdhiş bir sevinc vardı, hamıya təsəlli verirdim, deyirdilər ki, necə güclüsünüz... Axırda hamı bizə təsəlli verməli oldu.

Sentyabrın 27-də Seyfəlidən Murovdağa döyüşə 200 nəfər bölünüb girib, 40 nəfər sağ qalıb. Canavar postunda Rüfətin manqası olub, biz axtaranda Müdafiə Nazirliyindən dedilər ki, 15 nəfər şəxsi heyətdən xəbər yoxdu. Çətin yer olub, təminat getməyib. Pasportlarını neçə aydan sonra tapdıq, Laçında bir oğlandan aldıq.

Göygöl xəstəxanasında bir oğlan bizim qohumlara dedi ki, Rüfət məni çıxardanda sağ idi, kömək elədi mən çıxdım. Axşam saat 10-da onlara kömək gedəsi idi, maraq-

landıq ki, axşam onlara kömək getməyib. Biz ağlayırdıq ki, daha hər şey qurtardı. Gecə Rüfət uşaqları qaldırıb ki, ermənilər bizə tərəf gəlirlər, siz durun dərəyə qaçın, mən başlarını qatacam. Uşaqlar özlərini atıblar, Rüfət atmayıb. Bu vaxt partlayış səsi gəlib, elə biliblər ki, özünü partladıb. Uşaqlar çox pis olublar, çətinliklə yuxarı qalxıb baxıblar ki, biri şəhiddir, Rüfət isə yoxdur. Sonra bildik ki, artilleriya ilə atıblar, müxtəlif qəlpə yaraları alıb, əl-ayağından qan axa-axa özü-özünü sarıyıb. Qarnından da qəlpə yarası alıb, orada qan aparıb, köməksiz vəziyyətdə məlumat verib, gözləyib, heç kim də köməyə gəlməyib.

Komissarlıqda anamla qarşılaşan Daşkəsənli bir şəhidin atası qardaşımın şəklini görəndə deyib ki, "Rüfət Seyfəlidə bizə bir neçə dəfə gəlmişdi, tanıyıram, yaxşı oğlan idi, araq içmirdi, siqaret çəkmirdi. Mənim oğlum oktyabrın 6-da zəng eləmişdi, dedi ki, ay ata, Rüfət qayanın yanında oturaq vəziyyətdə durub, bilmirəm şəhid olub, yoxsa yox. Artilleriya möhkəm atır, kömək eliyə bilmirəm. Bir-birimizi görürük, amma yanına gedə bilmirəm. Elə həmin gün artilleriya atəşindən mənim oğlum da şəhid olub".

Qardaşımın o sıldırımdan düşməyə gücü çatmayıb. Elə orada da oturaq vəziyyətdə şəhid olub. Ölüm kağızında da yazılıb ki, müxtəlif qəlpə yaralarından şəhid olub. Yaralı-yaralı qayanın elə bir yerində durub ki, əsir düşməsin.

Biz qardaşımı axtaranda dövlət qurumlarına zəng eliyirdik, bizə məlumat verirdilər ki, oktyabrın 4-dək bizim rabitə əlaqəmiz olub, onu kəşfiyyatçı kimi göndərmişik.

Qardaşımın kəşfiyyatçı olduğunu o, itkin düşəndə bildim.

Həyatımda ən ağır gün, Prezidentin Kəlbəcərə vaxt

verdiyi gün idi.

Müharibə vaxtı bacımın 15 yaşında qızı Rüfətin ad günündə - noyabrın 13-də əsgər paltarını geyinib, intihar etdi. O vaxt qardaşım itkin idi. Xəstəxanaları gəzib, yaralıları görmüşdü. Bacımın getdiyi ailə qaçqın idilər, hamı danışıb ki, qaçqınları məcbur aparacaqlar, oraya gedəcəklər. Uşağın içində bir qorxu yaranıbmış...

Qardaşımın yanında çox güclü döyüşçülər olub, Mustafa Qasımov və s. O biri uşaqların meyitləri tapılanda tanınmaz halda olublar. Ermənilərin əlinə keçiblər, onları pis vəziyyətdə basdırıblarmış, ancaq ekspertizadan sonra tanınıblar. Amma mənim qardaşımın meyiti salamat idi, dəfndə anamgil, dayımgil görüblər. Qardaşımın dəfnində anam gedib toy xonçaları almışdı.

Atamın kənddə köhnə, təmirsiz bir evi vardı. Rüfət o evi təmir edib, əyər-əskiyini düzəltmişdi, amma bir gecə də olsun içində yatmadı.

Yuxularıma gəlir arada, anamdan şikayət edir ki, nolub, ağlamasın.

Mən namaz qılırdım, nə istəyirdim, Allah verirdi. Rüfət mənə dedi ki, dua elə, elə güvənirdi ki... O qədər dua elədim ki, İlahi, əsir düşməsin, sağ-salamat gəlsin. İnanın, meyiti elə bil yatmışdı, gülə-gülə... Bədəninin sağ-salamat gəlməyi də bizə təsəllidi. Hamı qurban demişdi - kənd camaatı, 7 xalam, 4 dayım, biz... Yuxuda gördüm ki, 2 dənə qurban peyda oldu, guya qardaşım donubmuş, çimizdiriblər, ayılıb. Anama deyirəm ki, bəs biz elə bilirdik ki, qurbanımız qəbul olmayıb, qoyunlara bax.

Tanıyan yoldaşları, dostları məzarını ziyarət edirlər. Anam Gəncədə yaşayır, kənddəki evinin qapısı bağlı olur.

Bizim evimizi də əsgərlər tanımırlar. Uşaqların sağ qalanı xalam oğluna bildikləri qədər danışıblar. O da bzi üzməmək üçün heç nə demir". Allah rəhmət eləsin.

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən uğrunda" medalı. Sərəncam № 2722. 24.06.2021.



Bağırov Eşqin Rafiq oğlu
Kiçik çavuş

1991-ci il aprelin 1-də Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olub. Evin tək oğlu idi, iki bacısı var. 2009-cu ildə Xoşbulaq kənd tam orta məktəbini bitirib. Elə həmin il iyunun 2-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Xudatda sərhəd qoşunlarında xidmət edib. Xidmətə başlayandan 2 ay sonra, avqustun 2-də kiçik çavuş rütbəsi alıb. 2010-cu ilin yanvarında ordu sıralarından tərxis olunub. Müxtəlif işlərdə işləyib. 2013-cü ildə MAHHXHQ kimi Daşkəsən rayon N saylı hərbi hissədə, ön xətdə kiçik çavuş vəzifəsində xidmətə davam edib:

24 fevral 2014-cü il tarixdən 19 aprel 2014-cü il tarixə-

dək N saylı hərbi hissədə "Motoatıcı manqa komandiri" ixtisası üzrə tam kursu bitirib. İlk hərbi ixtisası üzrə ona 3-cü dərəcə verilib.

Eşqin 2017-ci ildə ailə həyatı qurub, Zəhra və Yağmur adlı iki qız övladı var. Övladlarına gözəl ata olub. Dostları arasında böyük hörməti olub. Ailəsi ilə axırıncı dəfə 2020-ci il sentyabrın 26-da əlaqə saxlayıb, hər şeyin yaxşı olduğunu deyib. Müharibədə də manqa komandiri olan Eşqin sentyabrın 27-də snayper gülləsi ilə vurularaq şəhid olub. Eşqin bu müharibədə Daşkəsənin ilk şəhidi idi. Sentyabrın 28-də ailəsinə şəhid olduğu xəbəri verilib və nəşi evinə gətirilib. Sentyabrın 29-da Xoşbulaq kəndində dəfn edilib.

Təltifləri:

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.
"İgidliyə görə" medalı. Sərəncam № 2352. 18.12.2020.
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.

Cəfərov Vüsal
Saxləddin oğlu
Kiçik çavuş



1990-cı il martın 1-də Daşkəsən rayonunun Qabaqtəpə kəndində anadan olub. 2007-ci ildə Azər Rüstəmov adına Qabaqtəpə kənd tam orta məktəbini bitirib. 2008-ci ilin aprel ayında Daşkəsən RHK

tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Naxçıvan MR-də N saylı hərbi hissənin kəşfiyyat bölümündə xidmət edib. 2009-cu ilin oktyabrında ordu sıralarından tərxis olunub. 2013-cü ildə yenidən Daşkəsən rayon N saylı hərbi hissədə MAHHXHQ olaraq çavuş, snayper, manqa komandiri vəzifəsində xidmətə başlayıb.

12.05.2014-cü il tarixindən 28.06.2014-cü il tarixinədək N saylı hərbi hissədə snayper ixtisası üzrə tam kurs keçmişdir. N saylı hərbi hissə komandirinin 28.06. 2014-cü il tarixli 179 nömrəli əmri ilə Vüsala Snayper ilk hərbi ixtisası üzrə 3-cü dərəcə verilib.

Müdafiə Nazirinin 1-ci müavini Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 22№-li 07.03.2016-cı il tarixli əmrinə əsasən 14.03.2016-cı il tarixdən 10.04.2016-cı il tarixədək Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində təşkil edilmiş Snayper hazırlığının təkmilləşdirilməsi (SVD tüfəngi üzrə) kursunu bitirmişdir.

2016-cı ildə Lələtəpə döyüşlərində iştirak edib. Lələtəpə döyüşlərində yaxşı döyüşdüyünə görə Fəxri Fərman alıb.

Qardaş Türkiyədə təlimdə iştirak etdiyinə görə Fəxri Fərmanla təltif olunub.

Daşkəsən rayonunun yüksəkliklərindəki postlarda və Göygöl rayonunun Murovdağ yüksəkliklərindəki postlarda xidmət edib.

Şəmkir korpusunun həmlə taborunda baş çavuş, baş snayper vəzifəsində xidmət edib. Bir neçə snayper kurslarında korpus komandiri tərəfindən təltif olunub.

2020-ci il iyul-avqust aylarında Tovuz döyüşlərində iştirak edib və bir neçə postun alınmasına görə Fəxri Fərmanla təltif edilib. Erməni zabitini öldürdüyünə və dö-

yüşlərdə fərqləndiyinə görə General Polad Həşimov öz qol saatını Vüsala hədiyyə edib.

Vətən müharibəsi başlayan gündən Murovdağ - Kəlbəcər istiqamətində gedən döyüşlərdə Canavar qulağı adlanan postda döyüşüb, oktyabrın 1-də qəhrəmancasına şəhid olub. Dekabrın 18-də Daşkəsən rayon Şəhidlər Xiyabanında dəfn olunub.

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Cəsur döyüşçü" medalı. Sərəncam № 2724. 24.06.2021.

Quliyev Elşən
Natiq oğlu
Kiçik çavuş



1992-ci il dekabrın 21-də Daşkəsən şəhərində anadan olub. 2009-cu ildə Daşkəsən şəhər İmadəddin Nəsimi adına 1 saylı tam orta məktəbi bitirib. 2011-ci ilin yanvar ayında Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. DİN Daxili Qoşunlarında xidmət edən tədris prosesinin təminatı bölüyünün 3-cü taqım 3-cü manqasında baş atıcı olub.

Elşənin xidməti xasiyyətnaməsində yazılıb:

"Quliyev Elşən Natiq oğlu xidmət etdiyi müddət ərzin-

də özünü nizam-intizamlı, işgüzar və bacarıqlı əsgər kimi göstərmişdir. Özünün döyüş hazırlığını təkmilləşdirməsi istiqamətində daim çalışmışdır. Komandirlər və rəislər tərəfindən ona verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirir. Nizamnamələrin tələblərinə ciddi riayət edir. Komandir və rəislər tərəfindən mükafatlandırılmışdır. Silah və sursatdan istifadə qaydalarını bilir və onlara düzgün riayət edir. Döyüş və istimai-siyasi hazırlıq fənlərini yaxşı qiymətlərlə mənimsəmişdir. ...Hərbi anda sadiqdir. Hərbi və dövlət sirrini qorumaq qaydasını bilir".

Elşən hərbi xidmətini başa vurduqdan sonra evinə qayıdıb, müxtəlif işlərdə çalışıb. O, hərbi işi çox sevdiyinə görə, hərbçi olmağa qərar verib və 2014-cü ildə MAH-HXHQ kimi xidmətə başlayıb. 2017-ci ildə Gəncə N saylı hərbi hissədə snayper kursuna göndərilib. Kursdan qayıtdıqdan sonra Daşkəsən rayonunun Koroğlu postunda uzun müddət xidmət edib. İşlədiyi müddətdə ona kiçik çavuş vəzifəsi verilib.

2018-ci ilin sentyabrında Elşən ailə həyatı qurub, Dünyamin adlı bir oğlu var.

27.06.2019-cu ildə N saylı hərbi hissənin komandiri polkovnik Əflatun Nurəliyev tərəfindən "Nümunəvi Məşğələnin Keçirilməsi Məqsədi ilə Döyüş hazırlığında, qoşun xidmətinin təşkilində əldə etdikləri nailiyyətlərinə", 11.06.2020-ci ildə isə "Ən yaxşı dağ-atıcı manqa komandiri adı uğrunda yarışda əldə etdiyi nailiyyətlərə və yüksək hərbi intizama nail olduğuna görə" Fəxri Fərmanlarla təltif olunub.

Vətən müharibəsi başlayan gündən Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib. Onun döyüş-

lərdə göstərdiyi şücaətdən döyüş yoldaşları göz yaşları və qürur hissi ilə danışırlar. Dediklərinə görə, döyüş zamanı Elşən silahını yerə qoyaraq düşmənlə əlbəyaxa döyüşüb, öz dəbilqəsi ilə düşmənin başını əzib və bağıra-bağıra "mənim torpağımda nə gəzirsən?" deyib. O, ayağından yaralansa da, onu döyüşdən uzaqlaşdıra bilməyiblər. Qanının son damlasına qədər vuruşub və sentyabrın 29-da şəhid olub, nəşi 72 gündən sonra tapılaraq, dekabrın 12-də ailəsinə təhvil verilib. Elə həmin gün Daşkəsən rayon Şəhidlər Xiyabanında dəfn olunub. Ölümündən sonra, yanvarın 27-də onun ikinci övladı Nəzrin dünyaya gəlib.

Təltifləri:

"Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Yubiley medalı. 26.06.2018.

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Döyüşdə fərqlənməyə görə" medalı. Sərəncam № 2725. 24.06.2021.

3-cü dərəcəli "Vətənə xidmətinə görə" ordeni. Sərəncam № 3573. 05.11.2022.

Yeni İctimai Nəzarət Təşkilatının sədri Ramil Şükürov tərəfindən "Torpaqlarımızın azadlığı uğrunda 44 gün davam edən hərbi əməliyyatlar zamanı düşmənin silahlı qüvvələrini darmadağın edərək böyük zəfərə imza atdığına görə" ölümündən sonra "Xarı Bülbül" Fəxri diplomu ilə təltif edilib.

Elşənin anası Quluyeva Səyyarə Əli qızı Daşkəsən rayon Mərkəzi Xəstəxanasının uşaq şöbəsində təsərrüfat bacısı işləyir. Müharibə dövründə digər işçilərlə bərabər xəstəxanaya gətirilən yaralılara əlindən gələn qədər kömək etməyə çalışıb. Hər dəfə yaralılar gətiriləndə onların rahatlığı üçün cəld yorğan-döşək hazırlayar, şərbət, şokolad və s. verər, yaraları təmizlənib sarındıqdan sonra hər cür xidmət göstərərdi. Hər dəfə xəstəxanaya yaralı və şəhidlər gətiriləndə ürəyi əsə-əsə onların içərisində öz oğlunu axtarardı...

Azərbaycan Respublikası İcbari Tibbi Sığorta Üzrə Dövlət Agentliyi "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi"nin İdarə Heyətinin sədri vəzifəsini icra edən Vüqar Qurbanov Səyyarə xanımı "Vətən Müharibəsi dövründə göstərdiyi xidmətlərə görə" Təşəkkürnamə ilə təltif edib.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev 08.03.2022-ci il tarixində Elşən kimi qəhrəman və fədakar övlad yetişdirən Səyyarə xanımı Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik etmək məqsədilə onun adından işğaldan azad edilən ərazilərdə əkilməsi üçün Az. Res. Fövqəladə Hallar Nazirliyi işçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılov tərəfindən bir ədəd ağac ianə edilməsi barədə ona İanə Sertifikatı təqdim edib.



Tağıyev Asif Zakir oğlu
Kiçik çavuş

1985-ci il fevralın 23-də Daşkəsən şəhərində anadan olub. 2002-ci ildə Daşkəsən şəhər Səməd Vurğun adına 4 saylı tam orta məktəbi bitirib. 2003-cü ildə Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Ağdam rayonunda N saylı hərbi hissədə xidmət edib, 2004-cü ildə tərxis olunub. 2016-cı ildə MAHHXHQ kimi Daşkəsən rayon N saylı hərbi hissədə baş çavuş vəzifəsində xidmətə başlayıb. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 25.04.2016-cı il tarixdən 03.06.2016-cı il tarixədək fəaliyyət göstərən "motoatıcı manqa komandiri" kursunu bitirib.

Vətən müharibəsi başlayanda Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib. Oktyabrın 3-də qızğın döyüşlər zamanı döyüş yoldaşı vurulub. Asif yaralı dostunu götürüb ərazidən çıxaran zaman sağ ayağı minaya düşüb, şəhid olub, neytralda qalıb. Ona görə də döyüş yoldaşları ona kömək edə bilməmişdilər. Kəlbəcər təhvil veriləndən sonra Asifi neytral ərazidən götürüb, ailəsinə təhvil veriblər. Noyabrın 18-də Daşkəsən rayon Şəhidlər Xiyabanında dəfn olunub.

Qardaşı Elnurun Asifə həsr etdiyi şeir:

Fələk nə tez girdi ah, aramıza,
Kəsdi yollarımızı çən-duman, qardaş.
Susuz dodağına su çatdıramadım,
Sanki cəllad oldu vaxt-zaman, qardaş.

Dərd verdin dərmansız canımı aldın,
Çəkib ürəyimin qanını aldın.
Didərgin eləyib çöllərə saldın,
Daha yox bir ümid, bir güman, qardaş.

Gözlərin dikilib hər gün yoluna,
Bəlkə bir girəsən gəlib qoluma,
Baxıb gah sağıma, gah da soluma,
Yox daha taqətim, bir aman, qardas.

Qardaşım sağ olsaydı, qalan ömrümü qardaşıma verərdim.

Təltifləri:
"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.
"İgidliyə görə" medalı. Sərəncam № 2352. 18.12.2020.
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.

Yeni İctimai Nəzarət Təşkilatının sədri Ramil Şükürov tərəfindən "Torpaqlarımızın azadlığı uğrunda 44 gün davam edən hərbi əməliyyatlar zamanı düşmənin silahlı qüvvələrini darmadağın edərək böyük zəfərə imza atdığına görə" ölümündən sonra "Xarı Bülbül" Fəxri Diplomu ilə təltif olunub.



Tağıyev Ramid Yaqub oğlu
Kiçik çavuş

1994-cü il fevralın 25-də Daşkəsən ryonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 2011-ci il mayın 25-də Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbi bitirib. 2012-ci il aprelin 5-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Ağcabədi rayon N saylı hərbi hissədə xidmət edib, 2013-cü il oktyabrın 5-də tərxis olunub. 2014-cü il mayın 26-da yenidən Daşkəsən rayon N saylı hərbi hissədə 1-ci tabor, 3-cü bölükdə MAHHXHQ kimi xidmətə başlayıb, 5 il postlarda xidmət edib. Sonra xidmətinə briqadanın kəşfiyyat bölüyündə davam edib.

Vətən müharibəsi başlayan gündən böyük qardaşı Vüsal və ekiz qardaşı Rahidlə bərabər Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib. Hər şeyi göz altına alaraq, hər zaman irəlidə düşmənlə üzbəüz döyüşlərdə olub. Neçə əsgərin həyatını xilas edib.

Böyük qardaşı Vüsalın danışdıqlarından:

"Sentyabrın 27-də 40 nəfər heyətlə döyüşə giriblər, Ağdağın altındakı məxfi minbata hücum ediblər və oktyabrın 2-dək orada döyüşüb düşmənin 40-dək döyüşçüsünü məhv ediblər. Oktyabrın 2-də olan döyüşdə 4 nəfər şəhid veriblər. Haqverdiyev Novruzu və qardaşım Ramidi snay-

perlə vurublar. Novruz orada şəhid olub. Tağıyev Asif Ramidə kömək eləyib ərazidən çıxarıb, 300-400 metrədək getdikdən sonra minaya düşüb şəhid olublar. Dəstə Ağdağın alt tərəfindən Kəlbəcər istiqamətində çıxarkən Məmmədov Elnur vurulub və şəhid olub. Qalan heyət yaralıları ilə birgə oradan çıxıb Yeddi qardaş dağının alt tərəfində yerləşən 22-ci posta, 2-ci tabora gəliblər. Orada müharibə bitənə qədər müdafiədə dayanıblar. Sonra tabor Kəlbəcərə yerləşib".

Ramid oktyabrın 2-də şəhid olub. 44 gün neytralda qalıb, noyabrın 17-si çıxarılıb, 18-də Daşkəsən rayon Şəhidlər Xiyabanında dəfn olunub.

Təltifləri:

"Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Yubiley medalı. 20.06.2019.

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.

"İgidliyə görə" medalı. Sərəncam № 2352. 18.12.2020.

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.



Vəkilov Elməddin
Nizami oğlu
Baş əsgər

1988-ci il avqustun 21-də Ermənistan Respublikası Allahverdi rayonunun Axtala kəndində anadan olub. Həmin il azərbaycanlıların Ermənistandan məcburi köçürülməsi nəticəsində ailəsi Daşkəsən rayonuna köç etmişdir. Ailənin 3 oğlan övladının ikincisidir. 2006-cı ildə Daşkəsən şəhər İmadəddin Nəsimi adına 1 saylı tam orta məktəbi bitirib. 2006-cı ilin oktyabr ayında Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Beyləqan rayon N saylı hərbi hissədə xidmət edib. 2008-ci il aprelin 1-də ordu sıralarından tərxis olunub. Şəhid generalımız Polad Həşimov Daşkəsən rayonunda N saylı hərbi hissədə komandir işlədiyi dövrdə Elməddin müddətdən artıq hərbi qulluğunu davam etdirmək üçün generalımızın əmrinə əsasən 2014-cü ilin may ayında ordu sıralarına qəbul olunub. O, uzun müddət şəhid generalımızın komandanlığı altında xidmət edib. 2019-cu il avqustun 25-də ailə həyatı qurub.

Vətən müharibəsi başlayanda Elməddin Daşkəsən rayon N saylı hərbi hissədə baş əsgər MAHHXHQ olaraq işləyirdi. Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüşlərdə hər bir qeyrətli Azərbaycan oğlu kimi, o da ürəklə,

qəhrəmanlıqla döyüşüb və 10-dan çox erməni əsgərini məhv edib. Sentyabrın 27-də Murovdağ istiqamətində gedən döyüşlərdə itkin düşüb, nəşi uzun müddət axtarışdan sonra, 2021-ci il mayın 7-də tapılaraq ailəsinə təhvil verilib və mayın 8-də Daşkəsən rayon Şəhidlər Xiyabanında dəfn olunub.

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən uğrunda" medalı. Sərəncam № 2722. 24.06.2021.

"Şücaətə görə" medalı. Əmr № 0207t. 13.07.2021.

3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni. Sərəncam № 3573. 05.11.2022.



Abbasov Möhlət Eldəniz oğlu Əsgər

2001-ci il martın 19-da Daşkəsən rayonunda anadan olub. 7 yaşından ata qayğısı görməyib. Ailənin böyük oğludur, iki qardaşdırlar. Çox gülərüz və şən oğlan idi. Anasının dediyi kimi, kasıb evin qəlbən varlı uşağı idi. Möhlət 9-cu sinfədək Cəncə şəhər 21 nömrəli tam orta məktəbdə oxuyub, sonra təhsilinə Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində Zahir Ba-

ğırov adına tam orta məktəbdə davam edib və 2018-ci ildə orta məktəbi bitirib. 2019-cu il aprelin 23-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Beyləqan N saylı hərbi hissədə baş sürücü vəzifəsində xidmət edib.

28.05.2020-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik Firudin Əzizov tərəfindən "28 May – Respublika günü münasibətilə, döyüş və ictimai-siyasi hazırlıqda, nizam-intizamın möhkəmləndirilməsində əldə etdiyi nailiyyətlərə görə" Fəxri Fərmanla təltif olunub.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Füzuli, Qubadlı, Zəngilan, Xocavənd, Şuşa uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Çox sayda şəhid və yaralı yoldaşlarını neytraldan çıxarıb. Qorxu bilmədən, qəhrəmanlıqla döyüşüb. Noyabrın 6-sı səhər vaxtı Şuşanın Daşaltı kəndi istiqamətində yolu açarkən Möhlətin maşını düşmən tərəfindən vurub. Möhlət bilirdi ki, yuxarıdan onları izləyirlər və onun maşınını vuracaqlar, amma ölümün üstünə getdi, ölümə meydan oxudu və qəhrəmanlıqla şəhid oldu. Qəlbən və ruhən qəhrəman olan Möhlət, müharibənin 41-ci günü, anasının ad günündə şəhid olub. Ailəsinə noyabrın 7-də xəbər veriblər, noyabrın 9-da Daşkəsən rayon Şəhidlər Xiyabanında dəfn olunub.

Əsgər yoldaşlarının danışdıqlarından:

"Güllələr başımızın üstündən keçirdi, amma Möhlət bizi o qədər güldürürdü ki, müharibədə olduğumuzu unudurduq. Onda qorxu hissi yox idi".

Bir dəfə Zaur Baxşəliyevin verilişini izləyirdim, ekranda Möhlətin şəkli var idi, komandiri Möhlət haqqında danışırdı:

"Şuşa Daşaltı yolunda bizim maşınlar vurulmuşdu, düşmənlərin vurulan maşınları da var idi, yolu bağlamışdı. Bütün maşınlar Şuşaya o yolla gedirlər, o yolu açmaq lazım idi ki, bizim kalon keçsin. Bu uşağın adını mən bilmirəm, 20 yaşı var, sizdən xahiş edirəm onu tapasız. Yolu açmaq üçün qəhrəmanımız oturdu "Ural"ın rulunun arxasında, sürüb o maşınların hamısını yoldan çıxardı, 500 metr getdi və yolu tamam təmizlədi, bu zaman maşını vuruldu, o şəhid oldu".

Təltifləri:

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.
"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 25.12.2020.
"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2364. 25.12.2020.
"Cəsur döyüşçü" medalı. Sərəncam № 2724. 24.06.2021.

Yeni İctimai Nəzarət Təşkilatının sədri Ramil Şükürov tərəfindən "Torpaqlarımızın azadlığı uğrunda 44 gün davam edən hərbi əməliyyatlar zamanı düşmənin silahlı qüvvələrini darmadağın edərək böyük zəfərə imza atdığına görə" ölümündən sonra "Xarı bülbül" Fəxri Diplomu;

"Qazilər" Vətən Müharibəsi İştirakçılarına və Ailələrinə Sosial Dəstək İB-nin sədri Qazi Ceyhun Ağayev tərəfindən "Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərlik etdiyi rəşadətli ordumuz tərəfindən torpaqlarımızın düşmən işğalından azad edilməsi uğrunda gedən Vətən müharibəsində döyüşlər zamanı göstərdiyi şücaətə görə" ölümündən sonra Fəxri Fərman;

31.12.2020-ci il tarixində Ulu Öndər Heydər Əliyev Siyasi Kursu və Yeniləşən Dövlətə Dəstək İB-nin sədri Nəbi Qafarov tərəfindən ölümündən sonra "Müzəffər Ali Baş Komandan" mükafatı ilə təltif edilmişdir.

Abbasov Tacəddin
Vüqar oğlu
Əsgər



2001-ci il dekabrın 10-da Daşkəsən rayonunun Pirverdilər kəndində anadan olub. Pirverdilər kənd tam orta məktəbində 9 illik təhsil alıb. 2019-cu il yanvarın 8-də SHXÇDX-nın Daşkəsən bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Üç ay Ağcabədi rayonunda N saylı hərbi hissədə xidmət edib, aprelin 8-də Füzuli rayonunda yerləşən N saylı hərbi hissəyə göndərilib, Quru qoşunlarında xidmət edib.

Vətən müharibəsində Xocavənd və Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib, şərəfli döyüş yolu keçərək şəxsi igidlik və şücaət göstərib. 2020-ci il oktyabrın 24-də Füzuli uğrunda gedən döyüşlərdə yaralanıb, xəstəxanaya aparılarkən yolda şəhid olub. Oktyabrın 25-də nəşi ailəsinə təhvil verilib, 26-da Daşkəsən rayon Şəhidlər Xiyabanında dəfn olunub.

Təltifləri:

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 25.12.2020.
"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2364. 25.12.2020.
"Cəsur döyüşçü" medalı. Sərəncam № 2724. 24.06.2021.



Abdullayev Həsən Qərib oğlu Əsgər

1994-cü il iyunun 21-də Daşkəsən şəhərində anadan olub. Çox çətinliklə, 7 qurbanla tapılmış uşaq idi, bir bacısı var. Ona babasının adını vermişdilər. Bir tikə çörəyini belə hamı ilə bölərdi. Bacısının dediyinə görə, onu Həsən saxlayıb- böyüdüb. Ailədə oğlan uşaqları az olduğuna görə, üç bibisinin ümid yeri idi. İdmanın güləş növü ilə məşğul olub. 2011-ci ildə Daşkəsən şəhər Səməd Vurğun adına 4 saylı tam orta məktəbi bitirib. 2012-ci il yanvarın 30-dan Gəncə şəhərində yaşayırdı. 2012-ci il iyulun 4-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Müdafiə Nazirliyinin N saylı hərbi hissəsində kəşfiyyatçı vəzifəsində xidmət edib. Ordu sıralarından tərxis olunduqdan sonra idmanın karate-do növü ilə məşğul olub, bir sıra nailiyyətlər qazanıb. Subay idi.

Tovuz hadisələri başlayandan deyirdi ki, mən hərbiyə

gedəcəm. Həsən çox vətənpərvər oğlan idi. 2020-ci il sentyabrın 8-də N saylı hərbi hissədə MAHHXHQ kimi işə başladı. Bir müddət sonra könüllü olaraq xidmətini Xüsusi Təyinatlı Qüvvələrdə (052) davam etdirib. Həmişə evdə deyərdi ki, mən gedib şəhid olacam, siz də mənimlə fəxr edəcəksiz. Müharibəyə gedəndə hamı ilə görüşüb, dayısı oğluna deyib ki, bu mənim sizinlə axırıncı görüşümdür, mən gedirəm şəhid olmağa.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Murovdağ-Kəlbəcər istiqamətində döyüşlərə qatılıb. Elə müharibənin ilk günlərində Murovdağda bir çox əsgərlərimiz şəhid oldu, xeyli hissəsi yaralandı. Ağır döyüşlər zamanı Həsənin yaxın yoldaşlarından da 3-4 nəfəri şəhid olmuşdu. Həsən üç gün mühasirədə, şəhidlərimizin olduğu neytral ərazidə meyitlərin altında gizlənib.

Döyüş yoldaşı Qəzənfər Məmmədovun danışdıqlarından:

"Döyüşdük, elə oldu ki, mühasirəyə düşdük, gecə idi, həm də sıx duman vardı, arxaya çəkilmək istəyəndə, 12 nəfərdən 5 nəfər ayrı düşdü, Həsən də onların içində idi. Mən onlarla deyildim. Biz birtəhər yolu tapıb geri gəldik, amma Həsəngil orda qaldı, nə qədər axtardıq tapa bilmədik, dedilər ki, itkin düşüblər".

Sonra Xüsusi Təyinatlılar (052) gəlib ərazini düşməndən azad ediblər. Şəhidlərimizi ərazidən çıxaranda, Həsən deyib ki, qorxmayın mən sağam. Onu hərbi hissəyə gətiriblər, oradan da 052 ilə Murovdağdan Şuşayadək döyüşlərə davam edib, igidlik və mərdliklə döyüşüb, böyük şücaət göstərib.

Həsənin qohumu Samir Abbasov:

"Həsəndən soruşdum ki, 3 gün şəhidlərlə bir yerdə necə qalmısan? Dedi ki, mən 3 gün elə bildim ki, elə hamımız bir yerdəyik, onlar ölməyiblər".

Döyüş yoldaşı Nizami Qasımov:

"Həsən 1-ci qrupdaydı, mən 3-cü qrupda. Mən orda Həsəndən xeyli aralıda qalmışdım, Həsən məndən qabaqda idi, erməni postuna girmişdi. Biz hələ gəlib onlara çata bilməmişdik. Elə oldu ki, biz geri çəkilməli olduq, 3 gün Həsəndən xəbər ala bilmədik. Orda dedilər ki, Həsən şəhid olub, inanmırdıq. Sonra dedilər ki, itkin düşüb, əsir düşüb və s. Geri çəkiləndən sonra biz yuxarıda mövqe tutmuşduq, oradan müşahidə eliyirdik ki, kimsə gəlsə xəbər eliyək. Bir də gördüm Həsən gəlir, gözlərimə inanmadım. Gülə-gülə dedim ki, Həsən, bəs deyirdilər şəhid olmusan?

Biz Tuğdan çıxdıq, gəldik Şuşaya. Həsən, mən, iki nəfər də başqa yoldaşımız eyni yerdə oturduq, 2 gün orda gecələdik, gözlədik ki, nə zaman komanda verilsə gedək. Gecə Həsənlə mən eyni yerdə torpağın üstündə yatdıq, üstümüzdə də heç nə yox idi. Gördüm Həsən səhər tezdən durub məni durğuzur ki, qalx. Bizim qarşımızdakı dağı ermənilər atəşə tuturdular. Daşaltı kəndi iki qalanın arasında idi, qaladan baxanda Daşaltı kəndi görsənirdi. Həsən dedi ki, biz ora gedəcəyik, inşallah torpağımızı azad edəcəyik. Saat 4 idi bərabər gedirdik, birdən bizə atəş açdılar, bir-birimizi itirdik. Çox atəşə tutdular bizi, bölündük, yarı bir tərəfə, yarı digər tərəfə getdik. Həsəndən xəbərim olmadı".

Döyüş yoldaşı Yusif Cəfərov:

"Elə bir məqam çatdı ki, dedilər Şuşanın alınmasına

dəstək lazımdır, könüllü kim getmək istəyirsə, çıxsın. Könüllü olaraq bizim briqadadan 52 nəfər çıxdıq. Biz o briqadadan çıxandan sonra Həsən, mən və Nurəddin həmişə bir yerdə idik. Orda da döyüş başlayanadək bir yerdə qaldıq. Biz irəliləyirdik, Şuşaya doğru gedirdik, KamAz-la Cəbrayıladək gəldik. Cəbrayılda dayandıq, ordan o tərəfə yol yox idi, dağlar idi. Yola piyada davam etdik.

Bizim alayımızı minamyotla vurdular. Mən ayağımın iki yerindən yaralandım. Həsən də yaralanmışdı, onu yerdə uzanan gördüm, düşündüm ki, bəlkə kömək edə bilərəm. Həsənə yaxınlaşdım, həmin vaxt döyüş sahəsi minamyot mərmiləri, insan qolu və s. ilə çox pis vəziyyətdə idi, hər yer barıt iylənirdi. Gəldim Həsəni götürdüm, Həsən özü qalxdı, o məndən güclü idi. Mənim sağ əlimdə silah var idi, sol əlimlə də Həsəni tutmuşdum. Elə bir metrə yaxın irəliləmişdik ki, sağ əlimdən vurdular, silah düşdü yerə, mən yıxıldım, gördüm Həsən xırıldayır, canını tapşırmaq üzrədir. Mən ona dedim ki, qaqa, ölmə, səbirli ol, səni çıxardacam. O sevinclə dedi ki, mən iylədiyim iyi sən hiss edə bilmirsən. Amma hər yer barıt iylənirdi, orda xoşagələn iy ola bilməzdı. Mən ümid edirəm ki, o Cənnətin iyisidir. Bizi təxliyyə eliyirdilər, məni də xərəyin içində çıxarırdılar. Təsəvvür edin ki, xərəyimizi vururdular, amma üzbəüz gələndə həqiqətən qorxurdular. Yadımdadır, ermənilər deyirdilər ki, ara, Yaşma, ara, türk. Yaralı dostlarını qoyub qaçırdılar".

Həsən noyabrın 6-da Şuşa şəhərinin Daşaltı kəndi uğrunda gedən döyüşlərdə şəhid oldu.

Şahin Bayramov:

"Həsən şəhid olanda artıq Şuşadaydıq. Mənə dedilər,

inanmadım ki, ola bilməz. Zəng elədim təsdiq etdilər. Mərminin dalğası vurub, yıxılanda kaska başından çıxıb başına qəlpə dəymişdi".

Həsənin bibisi:

"Hər dəfə danışanda gülə-gülə deyirdi ki, narahat olmayın, biz qalib gələcəyik. Görün burda neçə Həsənlər var. Burda atasız-anasız oğlanlar var ki, qorxmadan irəli gedir. Biz döyüşməli, torpaqlarımızı azad etməliyik. Yoxsa bizə deyərlər ki, sizdən bir kişi çıxmadı? Hansısa döyüşdən sonra deyirdi ki, mənim dostlarımın qanından elə bil lalələr bitib".

Atası:

"Oktyabrın 25-dən sonra Həsənlə əlaqəmiz olmayıb. Heç hardan bir məlumat əldə edə bilmirdik. Anası elə hey deyirdi ki, bircə dəfə zəng eləsin, səsini eşidim. Yalandan deyirdim ki, mənimlə danışır. Anasının ürək xəstəliyi var idi, nigarançılıqdan ürəyi davam gətirə bilmədi və noyabrın 3-də vəfat etdi".

Həsənin nəşini noyabrın 11-də ailəsinə təhvil veriblər, noyabrın 12-də Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn edilib.

Təltifləri:

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.
"Döyüşdə fərqlənməyə görə" medalı. Sərəncam № 2354. 18.12.2020.
"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2370. 29.12.2020.
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.

Yeni İctimai Nəzarət Təşkilatının sədri Ramil Şükürov tərəfindən "Torpaqlarımızın azadlığı uğrunda 44 gün davam edən hərbi əməliyyatlar zamanı düşmənin silahlı qüvvələrini darmadağın edərək böyük zəfərə imza atdığına görə" ölümündən sonra "Xarı bülbül" Fəxri Diplomu;

Ulu Öndər Heydər Əliyev Siyasi Kursu və Yeniləşən Dövlətə Dəstək İB-nin sədri Nəbi Qafarov tərəfindən şəhidimiz "Müzəffər Ali Baş Komandan" mükafatı;

Sosial-Dövlət Naminə QHT-nin Administrasiyasının rəhbəri N.Ş.Əfəndiyeva tərəfindən döyüşlərdə göstərdiyi qəhrəmanlıqlara görə şəhidimiz "Dəmir Yumruq" Fəxri Diplomu, "Qarabağ Azərbaycandır" Diplomu, "Azərbaycan Bayrağı" Fəxri Diplomu və döş nişanı ilə təltif edilmişdir.

Abdullayev Məhəmməd Vaqif oğlu Əsgər



1999-cu il aprelin 19-da Daşkəsən rayonunun Xoşbulaq kəndində fəhlə ailəsində anadan olub. İki bacının tək qardaşı idi. 2014-cü ildə Xoşbulaq kənd tam orta məktəbinin 9-cu sinfini bitirib, təhsilinə 3 №-li Gəncə Peşə Liseyinin "Geyim üzrə dizayner" bölməsində davam edib. Həm orta məktəbdə,

həm də peşə liseyində hörmətinə, davranışına və dərslərinə olan diqqətinə görə müəllimləri Məhəmmədin xətrini çox istəyirdilər. 2014-cü il dekabrın 24-də Peşə liseyində "Qruplararası peşə müsabiqəsində fəal iştirakına görə" Liseyin direktoru A.Əliyev tərəfindən Tərifnamə ilə təltif olunub. Liseyi bitirdikdən sonra 2017-ci il iyulun 4-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Qusar rayonunda N saylı hərbi hissədə xidmət edib. Nümunəvi xidmətinə görə hərbi hissənin komandiri polkovnik Əflatun Nurəliyev tərəfindən hərbi hissə komandanlığı və şəxsi heyət adından ailəsinə Təşəkkür məktubu göndərilib.

Məhəmmədin məzuniyyəti bacısının ad gününə təsadüf etmişdi. O, Qusar şəhərindən Gəncəyə gəlib, qaranlıq düşməyinə baxmayaraq Xoşbulağa qalxıb, gecə saat 12-yə qalmış evlərinə çatıb, ailəsinə və bacısına çox gözəl hədiyyə edib.

22.06.2018-ci il tarixində Azərbaycan Respublikasının Gənclər və İdman Naziri Azad Rəhimov tərəfindən "26 iyun – Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü münasibəti ilə hərbi xidmətdə fərqləndiyinə görə" Fəxri Fərmanla təltif olunub.

2019-cu il yanvarın 7-də hərbi xidmətini başa vuraraq doğma kəndinə, ailəsinin yanına qayıdıb. Amma Vətəninə olan sevgisi onu yenidən ordu sıralarına qaytarıb. 2020-ci il iyunun 19-da Daşkəsən rayon N saylı hərbi hissədə minaaxtaran (sapyor) vəzifəsində MAHHXHQ olaraq xidmətə başlayıb. O, hər dəfə dağa qalxıb evə qayıdanda düşmən tapdağı altında olan torpaqlarımızın necə gözəl, mənzərəli olduğunu və erməni vəhşilərinin torpaqları-

mızı necə məhv etdiyini ürək ağrısı ilə ailəsinə danışardı. İnamla deyərdi ki, o gün uzaq deyil, tezliklə torpaqlarımızı işğaldan azad edəcəyik.

Sentyabrın 25-i idi, Məhəmməd evə gəlib ata-anasıyla sanki, son dəfə kimi görüşüb. Valideynləri heç bir söz deməsələr də, nəsə olduğunu hiss edirdilər. Səhərisi gün, sübh vaxtı anası onu işə yola salarkən Məhəmməd arxaya dönüb: "Get evə, arxamca çox baxma, hava soyuqdu, bəlkə bizi dağa qaldırdılar, torpaqlarımızı azad etmək üçün getməliyik"- dedi. Axşam saat beş olardı, Məhəmməd atasına zəng elədi: "Ata, biz dağa qalxırıq, inşaallah, ya torpaqlarımızı alandan sonra sağ-salamat, ya da şəhid olaraq gələcəm, amma bu yoldan dönməyəcəm. Bütün ordumuza və mənə qalib gələk deyə çoxlu dualar edin, haqqınızı halal edin".

Bu ailəsi ilə son danışdığı olub. Bütün kənd sübhü güllə səslərilə açdı. Ailəsi çölə çıxıb dağlara baxırdı, Qoşqar dağından Murov dağına qədər bütün sərhəd boyu dağların başında partlayan mərmilərin oğ-alovu görünürdü. Müharibə başlamışdı.

Sentyabrın 27-də Kəlbəcər-Murovdağ istiqamətində gedən döyüşlərdə Məhəmməd şəhid oldu. Döyüş yoldaşlarının danışdıqlarına görə o, öz vəzifəsini bitirmişdi, ərazidə mina olub-olmadığını yoxlamışdı, lakin döyüş yoldaşlarını tək qoymayıb, onlarla birgə irəli gedib. Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüşdə ermənilərdə olan Üçtəpə postunu alıb, Ağçınqıl postuna irəliləyərkən düşmənin pusqusuna düşüblər və hamısı şəhid olublar. Məhəmmədin və döyüş yoldaşlarının nəşi 70 gün neytralda qalıb.

Oğlundan xəbər tutmağa çalışan ana 70 gün ərzində hospitalları, hərbi hissələri, postları axtarıb, lakin, heç bir dəqiq xəbər ala bilməyib. Atası oğlunun dağdan yaralı halda düşdüyü xəbərini alıb posta gedib, amma bu xəbər də düz olmayıb. Heç kəs ata və anaya oğlunuz şəhid oldu, neytralda qaldı deyə bilməyib. Bütün qohum-əqraba, qonşular, tanışlar – hər kəs bilirdi ki, Məhəmməd şəhiddir. Anası hər gün Allaha dua edirdi ki, "Oğlum necə gəlir-gəlsin, bircə gəlsin".

Neytralda qalan Məhəmməd və döyüş yoldaşları Kəlbəcər azad olunduqdan sonra tapılaraq Füzuli şəhərinə gətirilib, DNT analizindən sonra, dekabrın 5-də ailəsinə xəbər verilib. Onu gətirməyə gedən anası oğlunu ilk baxışdan tanımışdı: "Deyirlər şəhidlər ölmür, bu həqiqətən də belədir. Mənim oğlum necə vardı elə də dururdu. Sentyabrın 29-dan dekabrın 5-nə kimi keçən müddət oğlumun nəşinə heç bir zərər vurmamışdı".

Məhəmməd dekabrın 6-da Daşkəsən rayon Şəhidlər Xiyabanında dəfn olunub.

Təltifləri:

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.
"Döyüşdə fərqlənməyə görə" medalı. Sərəncam № 2725. 24.06.2021.

Yeni İctimai Nəzarət Təşkilatının sədri Ramil Şükürov tərəfindən "Torpaqlarımızın azadlığı uğrunda 44 gün davam edən hərbi əməliyyatlar zamanı düşmənin silahlı qü-

vvələrini darmadağın edərək böyük zəfərə imza atdığına görə" ölümündən sonra "Xarı bülbül" Fəxri Diplomu ilə təltif edilmişdir.

2021-ci il dekabrın 6-da Daşkəsən rayonunun Xoşbulaq kəndində Məhəmmədin xatirəsinə bulaq kompleksi tikilmişdir.

Bağırov Elnur Sahib oğlu
Əsgər



1993-cü il aprelin 16-da Daşkəsən şəhərində anadan olub. 2011-ci ildə Daşkəsən şəhər İmadəddin Nəsimi adına 1 saylı tam orta məktəbi bitirib. 2011-ci ilin iyulunda Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Füzuli rayonunda N saylı hərbi hissədə xidmət edib. 2013-cü ilin yanvarında ordu sıralarından tərxis olunub. Elə həmin ildən MAHHXHQ kimi hərbi xidmətə başlayıb, Murovdağda Koroğlu postunda snayper vəzifəsində xidmət edib.

12.05.2014-cü il tarixdən 28.06.2014-cü il tarixədək N saylı hərbi hissədə "Snayper" ixtisası üzrə tam kursu keçib və ilk hərbi ixtisası üzrə 3-cü dərəcə almışdı.

Vətən müharibəsi başlayan gündən Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib. 2020-ci il sentyabrın 28-dən 29-na keçən gecə ağır döyüşlər zama-

nı şəhid olub. Nəşi dekabrın 26-dək neytral zonada qalıb. Torpaqlarımız işğaldan azad olunduqdan sonra nəşi Daşkəsənə gətirilib, ailəsinə təhvil verilib, Daşkəsən rayon Şəhidlər Xiyabanında dəfn olunub.

Təltifləri:

"Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Yubiley medalı. 20.06.2019.
"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.
"İgidliyə görə" medalı. Sərəncam № 2723. 24.06.2021.

31.12.2021-ci ildə SHXÇDX-nın Daşkəsən rayon bölməsinin rəisi mayor Faiq Vahabov tərəfindən Elnurun ailəsinə "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" münasibətilə bölmə adından təbrik və minnətdarlıq məktubu verilmişdir.

Yeni İctimai Nəzarət Təşkilatının sədri Ramil Şükürov tərəfindən "Torpaqlarımızın azadlığı uğrunda 44 gün davam edən hərbi əməliyyatlar zamanı düşmənin silahlı qüvvələrini darmadağın edərək böyük zəfərə imza atdığına görə" ölümündən sonra "Xarı Bülbül" Fəxri Diplomu ilə təltif edilmişdir.



Bəxtiyarov Orxan
Sərvər oğlu
Əsgər

1991-ci il sentyabrın 13-də Daşkəsən şəhərində anadan olub. 2009-cu ildə Daşkəsən şəhər İmadəddin Nəsimi adına 1 saylı tam orta məktəbi bitirib. Elə həmin ilin oktyabr ayında Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Beyləqan rayon N saylı hərbi hissədə snayper vəzifəsində xidmət edib. 2011-ci il aprelin 3-də ordu sıralarından tərxis olunub. Azərbaycan Filizsaflaşdırma Kombinatında mühafizədə işləyib.

Vətən müharibəsi başlayanda könüllü olaraq qeydiyyatdan keçib, 2020-ci il sentyabrın 30-da səfərbərliklə çağırılıb, Gəncə N saylı hərbi hissəyə göndərilib, noyabrın 6-dək orada təlimdə olub. Sonra Füzuli – Şuşa - Xankəndi istiqamətində gedən döyüşlərdə iştirak edib. Son dəfə noyabrın 6-da həyat yoldaşına mesaj yazıb ki, biz gedirik döyüşə. Noyabrın 6-dan sonra ailəsi onunla əlaqə saxlaya bilməyib. Noyabrın 8-də Şuşa uğrunda gedən döyüşlərdə snayper gülləsi ilə vurulub, qəhrəmancasına şəhid olub. Noyabrın 16-da Daşkəsən rayon Şəhidlər Xiyabanında dəfn olunub. Ailəli idi, oğlu Tunar və qızı Nəfəs Vətəninə və ailəsinə əmanət qalıb.

Təltifləri:

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.
"Cəsur döyüşçü" medalı. Sərəncam № 2353. 18.12.2020.
"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2370. 29.12.2020.

Yeni İctimai Nəzarət Təşkilatının sədri Ramil Şükürov tərəfindən "Torpaqlarımızın azadlığı uğrunda 44 gün davam edən hərbi əməliyyatlar zamanı düşmənin silahlı qüvvələrini darmadağın edərək böyük zəfərə imza atdığına görə" ölümündən sonra "Xarı Bülbül" Fəxri Diplomu ilə təltif olunub.



Cabbarov Muraz İlham oğlu Əsgər

2000-ci il martın 7-də Daşkəsən rayonunun Zağalı kəndində anadan olub. Ailədə 5 qardaş olublar. Ailənin ilk övladı olan Muraz 5 qardaşın böyüyü idi. 2019-cu ildə Qazaxyolçular kənd tam orta məktəbini bitirib. Elə həmin il iyulun 1-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, N saylı hərbi hissədə XTQ-də xidmətə başlayıb. Qısa müddət ərzində döyüş sirlərinə yiyələnib və bir çox silahlardan istifadə etməyi bacarıb.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Ömər aşırımından başlayaraq, Kəlbəcər, Füzuli, Cəbrayıl, Xocavənd istiqamətlərində gedən döyüşlərdə iştirak edib. Oktyabrın 10-da düşmənin snayper gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub. Noyabrın 2-də Daşkəsən rayon Şəhidlər Xiyabanında dəfn olunub.

Anası Zeynəb xanım Cabbarova:

"Oğlumu itirmək acı olsa da, şəhid olmasından qürur duyuram. Murazla fəxr edirəm, o, şəhid olaraq mənim də başımı uca elədi. Muraz hərbi xidmətə gedən zaman tamam başqa yerə düşmüşdü, lakin XTQ-nin əsgəri olmaq istədi. Soruşanda ki, daha rahat olan yerini niyə dəyişdin? Dedi ki, ana, bura daha yaxşıdı, burda daha rahatam. Həmişə əsgər yoldaşlarından, komandirindən razı olub. Sonuncu dəfə müharibədən öncə görüşmüşdüm. Dedi ki, natahat olma, az qalıb qayıdacam yanına, darıxma. Müharibə başlayanda bir dəfə zəng etdi, amma demədi ki, döyüşə gedir, dedi ki, özündən, qardaşlarımdan muğayat ol, mənə görə də narahat olma, mən başqa yerdəyəm, müharibə bölgəsindən kənardayam".

Döyüş yoldaşlarının dediklərinə görə Muraz çox yaxşı dost, yoldaş, mərd, igid, qürurlu, iradəli, dözümlü, zarafatcıl, deyib-gülən, mehriban və şən oğlan idi. Özünəməxsus insani keyfiyyətlərilə sevilib - sayılan bir qəhrəman idi. Xidmət etdiyi müddətdə öz yoldaşları və silahdaşları arasında böyük hörmət və rəğbət qazanmışdı. Çox qəlbi təmiz, ürəyi yumşaq, əliaçıq olub. Çox gözəl tərbiyəyə və əxlaqa sahib idi, hər zaman böyük-kiçik yeri bilərdi. Muraz çox canayaxın, istiqanlı, mehriban biri idi.

Murazın döyüş yoldaşları Muraz haqqında yazdıqları xatirələrini əlyazması şəklində "Xatirə kitabı" adı ilə onun ailəsinə hədiyyə ediblər. Əziz oxucularım, həmin xatirələri sizlərin də diqqətinə çatdırmaq istəyirəm.

Kiçik gizir Musayev Elşad:

"Sentyabr 2019. Gənc döyüşçülərin sıralarımıza gəldiyini gördük. Gənc olsalar da, gözlərindəki qığılcım, Vətən sevgisi çox böyük idi. Mənim işim yeni gələn döyüşçüləri hazırlamaq, döyüş hazırlığını yüksəltmək idi. Bu gənclərdən biri də şəhidim Muraz idi. Muraz gördüyüm ən sadə, dostluğa layiq biri idi, xidməti dövründə yoldaşlarına, komandirlərinə sadiq bir döyüşçü idi. Döyüşməyə həvəsli idi, elə bil bilirdi ki, döyüş olsa, o Cənnətə gedəcək. Çox gülərüzlü idi, elə gülərdi ki, heç zaman yaddan çıxmayacaq gülüş kimi. O, çox güclü və qeyrətli əsgərdi. Döyüşə girdiyimizdə deyirdi ki, mən düşməndən qorxmuram, bu bizim şərəfli işimizdir. Ölsək şəhid, qalsaq cəsur igidik. Ona sual verdim ki, Muraz, niyə bu qədər döyüşmək istəyirsən? Çünki, biz komandirlərə maraqlıdır ki, kim döyüşkən, kim qorxaqdır. Biz XTQ mənsubuyuq, içimizdə xain, qorxaq ola bilməz. Muraz cavab verdi ki, komutan, can o qədərmi şirindi? Bizim torpaqda erməni gəzir, bu iş bizə düşür, bu torpağı biz azad etməliyik.

Bəli, Murazım öz qanı, canı ilə layiqincə döyüşdü, qəhrəman taqımımız ilə Cəbrayılı azad etdik. Torpaq su ilə qarışsa palçıq, şəhid qanı ilə qarışsa Vətən olur. Bu Vətən torpağına Murazın da qanı qarışdı".

Kiçik gizir Hüseynov Əli:

"Murazın çox yaxşı əsgər yoldaşlığı var idi, çox nizam-intizamlı idi. XTQ-yə təzə gələn vaxt özünü sakit

aparır və danışmırdı. Bir müddətdən sonra yavaş-yavaş danışmağa, deyib-gülməyə başladı. Mənə deyirdi ki, siz nə etmisiz ki, bu qədər çox qaça bilirsiz. Muraz çox qaça bilmirdi, deyirdi ki, böyrüm ağrıyır. Bir müddətdən sonra qaçmağı öyrəndi. Mənə deyirdi ki, lətifə danış, qulaq asaq, sakitcə oturub dinləyərdi. O, mənim qardaşım kimiydi, istəyirdi ki, ərazi dərslərini mən keçim. Deyirdi ki, siz yaxşı keçirsiz, siz keçəndə maraqlı olur, dərsə həvəsimiz olur. Çox şey yazaram, yazmaqla bitməz. Muraz bizim yanımızda olmasa da, ürəyimizdədir".

Qazi Rəsulzadə Vüsal:

"Əziz qardaşım, sən mənim üçün çox dəyərlisən. Sən mənim heç vaxt yadımdan çıxmazsan. Təlimlərdə, hətta döyüşdə belə bir yerdə olmuşuq. Döyüşdə insan çox qorxur, amma Murazın tükü belə tərpənməzdi, ancaq irəli gedib torpağımızı azad etmək arzusu ilə irəliləyirdi. Qısa bir zamandan sonra mən yaralandım, bir-birimizdən ayrıldıq".

Qazi sanitar Əlizadə Natiq:

"Döyüşdən qorxmaz, ancaq irəli getməyi arzulayardı. Muraz şəhid olanda da, mərd, kişi kimi şəhid oldu. Hələ döyüşlərdən qabaq, təlimlərdən heç vaxt geri qalmazdı, daim nəsə öyrənməyə çalışardı. Kollektivdə hörmət qazanmış bir qardaş idi".

Qazi Xəlili Rəsul:

"Muraz əsgər yoldaşı kimi təlimlərdə bizim sirdaşımız idi. O, bir qurtum suyu, bir tikə çörəyi yanındakı yoldaşlarıyla bölərdi. Murazın bir sözü varıydı - "qardaşım" deyib o dəqiqə adamın könlünü alardı, heç kimin xətrinə dəyməzdi. Elə bu səbəbdən də, yoldaşları arasında hörmət

və rəğbət qazanmışdı. Yadımdadı, biz Murazla Kəlbəcər əməliyyatlarından geri dönəndə düşmən artilleriyası bizim yolu vururdu. Biz ikimiz onda dəstəmizdən ayrı düşmüşdük və Muraz mənə deyirdi ki, Xəlili, mənim atam da döyüşlərə qatılıb, ona nəsə olsa mən neyləyəcəm. O, bu sözləri deyə-deyə kövrəlirdi, mən isə əlimdən gələn qədər ona ürək-dirək verirdim ki, sən atanın qəhrəman oğlusan və sənin atan da qəhrəmandır. Onun üçün də narahat olma, ona heç nə olmayacaq inşaallah. Biz onunla kilometrlərlə yol getdikdən sonra nəhayət öz dəstəmizə çata bildik. Muraz öz yoldaşlığını bir daha mən yaralı olanda sübut etdi. Döyüş boyu mənə və başqalarına çətinliklərdə yardım edirdi. Mən fəxr edirəm ki, Muraz və onun kimi qardaşlarla xidmət etmişəm. Onlar bizim Azərbaycan qəhrəmanlarıdırlar".

Qazi Vəliyev Röyal:

"Muraz həmişə öz ixtisasına məsuliyyətlə yanaşan, içində düşmənə qarşı nifrəti olan və torpaqlarımızın azadlığını səbirsizliklə gözləyən qardaşımız idi. Təlimlərdə yorulmaq bilməzdi, o cür çətin təlimlərimiz olduğuna baxmayaraq, o, həmişə canla-başla iştirak edər, bizə də ürək-dirək verərdi. Zarafatından da heç qalmaz, deyib-gülməyi xoşlayardı. Kollektiv arasında hörmətli idi. Komandirlərimiz də Murazı çox sevərdi. Döyüşdə mən tez yaralandığıma görə çox görə bilməmişəm, amma döyüşdən qayıdan qardaşlarımızın onun göstərdiyi şücaətlər barədə danışdıqları çox qürur vericidir. Mən fəxr edirəm ki, Muraz kimi bir yoldaşımla bir parça çörəyimizi də, bir azca suyu da böldüyümüz olub və o, mənim ağlımda mərd, kişi ürəkli bir yoldaş kimi qalacaq".

Çavuş Mahmudov Həsrət:

"Muraz çox açıq ürəkli yoldaşlardan biri idi. Xidmət cəhətdən məndən böyük olsa da, mənə xidmətim boyunca keçdiyi dərslərdən və çalışmalardan çox şeylər öyrətmişdi. Murazın mənə öyrətdiyi şeylər döyüş vaxtı mənə çox kömək oldu. Muraz igid və qəhrəman övladlardan biri idi".

Çavuş Dadaşov Dadaş:

"Murazla çox yaxşı vaxtlarımız olub. Muraz həmişə bizimlə mehribancasına rəftar edərdi, yoldaşlarının içində ən savadlı əsgər olub. Komandirlərin dediyini layiqincə yerinə yetirirdi. Çox sakit əsgər, bizim çox sevdiyimiz yoldaşımız olub".

Çavuş Aslanov Elgün:

"Muraz yaxşı döyüş yoldaşı idi. Bizim təlimlərimiz həmişə olurdu. Təlimlərdə çox əziyyət çəkirdik, ancaq bu elə bir hissdir ki, sənin qardaşlarının sənin yanında olmağı insana güc, qüvvət verir. Muraz da o qardaşlardan idi. Onun nizam-intizamı, normativləri, döyüş hazırlığı yerində idi. Əsl Xüsusi Təyinatlı Qüvvələrə yararlı döyüşçü idi".

Çavuş Xalidov Həmid:

"Mən bu taqıma gələndə döyüş olub bitmişdi. Muraz haqda o qədər gözəl, qürur verici sözlər eşitmişəm ki, içimdən yazmaq gəlir. Mən sizə çox təşəkkür edirəm ki, belə bir övlad dünyaya gətirmisiniz. İnanın ki, oğlunuz 052 qəhrəmanlarındandır".

Çavuş Nərimanov Orxan:

"Qardaşım Murazla yaşadığım xidmət boyunca xatirələrimiz çoxdur. Biz təlimlərdə olduğumuz zaman çox susamışdıq, suyumuz qurtarmışdı. Hər kəs bir-birindən

su istədiyi zaman, Muraz dedi ki, məndə su var. Çantasından 1 litr su çıxarıb yoldaşlarına verdi. Hər kəs su içib qurtardıqdan sonra Muraz səsləndi ki, mənə də su saxladınızmı? Su Murazın olduğu üçün yoldaşlar elə bilmişdi ki, Muraz suyu 1-ci içib. Sən demə Muraz yoldaşlarını özündən də çox düşündüyü üçün su içməmişdi. Hamı Muraza təəccüblə baxırdı, hamı başa düşmüşdü ki, sabah döyüş olarsa, Muraz öz qardaşları uğrunda canından keçməyə hazırdır. Təlimdə göstərdiyi fədakarlığı döyüşdə də göstərdi və qəhrəmancasına şəhidlik zirvəsinə ucaldı".

Çavuş Fətullayev Tahir:

"20.09.2019-cu il tarixində taqımlara bölündük və bir-birimizi daha yaxından tanıdıq. İdmanı çox sevirdi. İdmana həmişə bir yerdə çıxırdıq, ən çox da qaçmağı sevirdik. Ərazi dərslərində yaxşı fəaliyyət göstərirdi. Həmişə onu bizə nümunə göstərirdilər. Sıranın qarşısına çıxıb bizə dərs keçirdi. Axşam yeməyindən sonra boş vaxtımız olurdu, vaxtımızı deyib-gülür, zarafat edərək keçirirdik.

44 günlük müharibəyə bir yerdə başladıq, təəssüf ki, bir yerdə bitirə bilmədik. Muraz çox qəhrəmanlıqlar göstərib...".

Leytenant Şəkərov Firudin:

"Əziz Muraz, biz səni heç vaxt unutmarıq. Sənlə olan xatirələri heç vaxt yaddan çıxarmarıq. Sən bizim üçün çox əziz bir insan olmusan.

Döyüşün ən qızğın vaxtı idi, mən yaralandım, o, canından keçib məni güllənin altından sürünərək çıxartdı, məni belinə qaldırıb dəstək istədi ki, mən ölməyim. Mən onun xətrini balaca qardaşım kimi çox istəyirdim. Döyüşdən qabaq sinif dərslərində deyərdi ki, bir insan yaralan-

sa, ona necə ilkin tibbi yardım göstərə bilərəm. Vaxt gəldi mən ona öyrətdiyim ilkin tibbi yardımı, mənim üzərimdə etdi. Muraz canından, qanından keçib vətənimizin, torpağımızın, millətimizin azadlığı uğrunda daim irəli gedib, qəhrəmancasına şəhid olmuşdur".

Leytenant Camalov Süleyman:

"2019-cu ildə Muraz taqıma gəldi. Çox yaxşı əsgər olub. Taqımda çox sevilən əsgərlərdən biri olub. Döyüşdə də həmişə bir olmuşuq. Mənə həmişə deyirdi ki, komandir, döyüşdə ölsəm belə, geri qayıtmaram, mən ancaq irəli gedəcəm. Yalnız irəli gedib torpaqlarımızı geri qaytarmaq arzusu ilə irəliləyirdi. Oktyabrın 4-ü idi, gecə vaxtı bir-birimizi itirdik, səhərə qədər onu axtardım. Səhərə yaxın idi, yağış da yağırdı, yanımızda olan yoldaşlar səs eşitdi, komutan, komutan, deyə çağırırdı. Bir zamandan sonra tapdıq, gördük ki, belində böyük çanta var, içinə də su, yemək yığıb gəlib. Soruşduq ki, hardan tapmısan? Dedi ki, bir evə girdim, evdə hər şey var idi, mən də yoldaşlarımın ac-susuz olduğunu bilib, əlimə keçənləri yığıb gətirdim. Çox yaxşı yoldaşlıq edib bizim üçün. Dedi ki, mən öz yoldaşlarımdan ötrü canımdan keçərəm".

Şəhidin adına Daşkəsən rayonunun Zağalı kəndində ehsan bulağı istifadəyə verilib.

Təltifləri:

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.
"Cəsur döyüşçü" medalı. Sərəncam № 2353. 18.12.2020.
"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 25.12.2020.
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"3-cü dərəcəli "Rəşadət" ordeni. Sərəncam № 2987. 05.11.2021.

Yeni İctimai Nəzarət Təşkilatının sədri Ramil Şükürov tərəfindən "Torpaqlarımızın azadlığı uğrunda 44 gün davam edən hərbi əməliyyatlar zamanı düşmənin silahlı qüvvələrini darmadağın edərək böyük zəfərə imza atdığına görə" ölümündən sonra "Xarı bülbül" Fəxri Diplomu ilə təltif olunub.

23.04.2021-ci il tarixində Bakıda Təlim və Tədris Mərkəzində keçirilən tədbirdə Xüsusi Təyinatlı Qüvvələrin komandanlığı tərəfindən "Mənim Sədaqətim, Mənim Şərəfimdir" simvolik medalı və Təşəkkür məktubu ailəsinə təqdim edilib.

26.12.2022-ci il tarixində Xüsusi Təyinatlı Qüvvələrin komandanlığı tərəfindən Murazın anası Zeynəb xanıma bütün ailəsi üçün "31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü" və "Yeni il Bayramı" münasibəti ilə təbrik məktubu verilmişdir.



Murazın atası Çavuş Cabbarov İlham Müzəffər oğlu da 2-ci Qarabağ müharibəsinin iştirakçılarındandır. O, 1978-ci il fevralın 2-də Gəncə şəhərində anadan olub. 1982-ci ildə ailəsi Daşkəsən rayonunun Zağalı kəndinə köçüb. İlham 1995-

ci ildə Zağalı kənd tam orta məktəbini bitirib. 1996-cı il iyulun 3-də həqiqi hərbi xidmətə çağırılıb, Ağdam rayonunda N saylı hərbi hissədə minamyot heyət komandiri vəzifəsində xidmət edib. 1999-cu il yanvarın 1-də ordu sıralarından tərxis olunub. 2014-cü ilədək müxtəlif işlərdə işləyib. 2014-cü ildə MAHHXHQ olaraq manqa komandiri vəzifəsində xidmətə başlayıb. Müharibə başlayanda Murovdağ - Kəlbəcər istiqamətində döyüşən hərbi hissənin tərkibində xidmət edib.

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

Əhmədov Əhmədxan Məzahir oğlu
Əsgər



1999-cu il fevralın 1-də Daşkəsən rayonunun Çovdar kəndində anadan olub. Əslən Kəlbəcərin Təkdam kəndindəndir. 2018-ci ildə Kəlbəcər rayon 115 saylı tam orta məktəbi bitirib. 2019-cu ildə Gəncə Regional Kollecinin "Bədən Tərbiyəsi və İdman" ixtisasına qəbul olunub. 2020-ci il yanvarın 15-də SHXÇ-DX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Naxçıvan MR-də N saylı hərbi hissənin XTQ-də xidmət edib.

Vətən müharibəsi başlayanda hərbi hissə komandirinə müraciət edib, razılıq almayıb. Bir müddət sonra general mayorun hərbi hissəyə gəldiyini bilib və gedib qapısını döymədən açıb:

- Cənab general, icazə olar?

- Buyur əsgər.

- Cənab general, mən Kəlbəcərliyəm, kimə deyirəm, döyüşə getməyimə icazə vermirlər. Xahiş edirəm, məni döyüşə göndərin.

- Sən əsgərsən axı.

- Cənab general, əsgərin namusu, qeyrəti yoxdur məgər?

General qalxıb Əhmədxanın alnından öpüb:

- Sənə general sözü verirəm, əsgər, ilk partiyada səni döyüşə göndərəcəm.

2020-ci il oktyabrın 24-də Əhmədxan Naxçıvandan Bakıya, Bakıdan da ön cəbhəyə göndərilib, Füzuli - Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak edib. Laçın dəhlizində PK ilə 3 erməni öldürüb və gələn bir ədəd sanitar maşınını partladıb. Noyabrın 9-də Şuşa uğrunda gedən döyüşlər zamanı yaralanmış döyüş yoldaşını ərazidən çıxaranda, yaxınlıqlarına mərmi düşüb, Əhmədxan qolundan və ayağından yaralanıb. Döyüşlər bitib, təxliyyə gələnədək çoxlu qan itirdiyinə görə şəhid olub. Nəşi noyabrın 11-də ailəsinə təhvil verilib, noyabrın 12-də Göygöl rayonunun Murovdağ qəsəbəsində dəfn olunub.

Təltifləri:

"Azərbaycan Bayrağı" ordeni. Sərəncam
№ 2348. 15.12.2020.

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.
"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2370. 29.12.2020.
"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2712. 24.06.2021.

Haqverdiyev Novruz Əli oğlu Əsgər



1996-cı il martın 25-də Daşkəsən rayonunun Alunitdağ qəsəbəsində ekiz qardaşı Bayram ilə birgə anadan olub. Ailədə iki bacı, iki qardaş idilər. 2014-cü ildə Alunitdağ qəsəbə Rövşən Qafarov adına tam orta məktəbi bitiriblər. Novruz hələ uşaqlıqdan hərbçi-kəşfiyyatçı olmaq istəyirdi. 2014-cü ildə SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən hər iki qardaş həqiqi hərbi xidmətə çağırılıblar. Novruz Ağcabədi rayon N saylı hərbi hissədə xidmət edib, 2016-ci ildə tərxis olunub. 2016-cı ildə qardaşı ilə birgə

Daşkəsən rayon N saylı hərbi hissədə MAHHXHQ kimi xidmətə başlayıb.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində Müddətdən Artıq Həqiqi Hərbi Xidmət Hərbi Qulluqçularının hazırlığı kursunda N saylı hərbi hissədə 05.09.2016-cı il tarixdən 06.10.2016-cı il ta-

rixədək təşkil edilmiş kəşfiyyat ixtisası kursunu bitirib.

Bir müddət xidmət etdikdən sonra kəşfiyyat bölüyünün 1-ci kəşfiyyat taqımı 1-ci kəşfiyyat manqasının kəşfiyyatçısı olub. Kəşfiyyatçı kimi təlimlərdə və yarışlarda iştirak edərək 1-ci və 2-ci yerlərin sahibi olub. Çox cəsur, igid və qorxmaz kəşfiyyatçı idi. Medalları, Fəxri Fərmanları vardır.

Vətən müharibəsinin ilk günlərindən hər iki qardaş xidmət etdikləri hərbi hissənin tərkibində Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüşlərə qatılıblar. Birgə döyüşüblər, Novruz şəhid, qardaşı veteran olub.

Anası Kifayət xanım:

"Komandirləri və döyüş yoldaşları ondan çox razılıq edirdilər. Oktyabrın 2-də mənimlə danışdı. Dedim ki, qadan alım, başına dönüm, ehtiyatlı ol. Cavab verdi ki, ana, biz qorxaq millət deyilik, həmişə qalib gəlmişik, qalib də gələcəyik. Danışandan sonra vurulub. Eşitdim, getdim axtarmağa. Orda komandirlərindən soruşanda, dedilər ki, ana, sən başını uca tut, ağlama, sənin oğlun qəhrəman oğuldu. Gördüm ki, şəklini də vurublar şərəf lövhəsinə. Onun həm yoldaşları arasında, həm də hərbçilərin arasında hörməti vardı. Gözəl insan, gözəl ata idi. Novruzun qardaşı hal-hazırda da hərbidədir. Mənə deyir ki, ana, mən o evə girə bilmirəm, hər dəfə mənə baxanda ağlayır".

Uşaqlıq dostu və döyüş yoldaşı Məharət Musayev:

"Uşaqlıqdan Novruzla bir yerdə böyümüşük, bir boşqabdan çörək yemişik. Göyçənin üstündə Hinal dağı var, ordan bizə korpus komandiri tərəfindən hücum əmri gəldi. Hücuma keçdik, 22 saat mühasirədə qaldıq. Sonra gecə saat 12-01 radələrində mühasirədən çıxdıq, Hinal da-

ğına, öz postumuza tərəf gəldik. Sentyabrın 29-da əmr gəldi ki, siz getməlisiz Ağdağa hücuma. Ağdağ istiqamətində döyüşə girdik, Novruzla bir yerdə idik. Oktyabrın 1-i, axşam radələri idi, səhərə yaxın hücum etməli idik. Gəldik yarım çörək və pendirimiz var idi, oturduq bir yerdə çörək yedik. Səhərə yaxın saat 3-4 radələrində bizə hücum əmri gəldi. Gəldik Ağdağ postu deyilən yerə, ora hücum edib postu götürməli idik. Neytralda bölündük, Novruzgil sekret minbat deyilən yerə getdilər, biz Ağdağ deyilən posta qalxdıq. Sekret minbatda dedilər ki, Novruz vuruldu, mən çox pis oldum. Qışqıra-qışqıra qalxdım dağa, ermənilərin üstünə. Dağın arasında ermənilərin 3 dənə NSV atanları var idi, mən arxadan fırlandım gəldim, söyə-söyə üçünü də güllələdim, məni snayperlə vurdular."

Ayın 2-də Novruz bacısı ilə danışıb deyib ki, mənim uşağıma və anasına yaxşı baxın, onları əldən buraxmayın.

Elgün Gəncimsoy:

"Kəlbəcər yenicə təhvil verilib. Artıq meyitlərin mübadiləsi ilə bağlı görüşlər başlayır. Ermənistan ordusunun alay komandiri ilə Daşkəsəndə yerləşən hərbi hissənin komandiri Ramin Cabbarovun ilk dialoqu baş tutur. Kəlbəcər istiqamətində aparılan hərbi əməliyyat zamanı qalan şəhidlərimizin bir neçəsinin yeri deyilmişdi. Əraziyə gedən qrup elə birinci meyitin ətrafında "sürpriz" mina aşkarlamışdılar. Digər meyitlərdənsə hələ də xəbər yoxdur. Növbəti görüş baş tutdu. Hərbi hissə komandiri polkovnik-leytenant Cabbarov erməni polkovniki ilə daha sərt danışır. Onlara meyiti belə minalamağın acizlik olduğunu bildirir. Həmin zaman alay komandiri ilə yanaşı ermənilərin tabor komandirləri də görüşdə iştirak edirdi. Həmin

"kombat" R.Cabbarova "Bu ərazidə sizin bir nəfər yaşma meyiti də var"- deyir. Cabbarov ermənіyə: "Ümumiyyətlə, bu ərazidə bizim xüsusi təyinatlı döyüşməyib". Ancaq erməni tabor komandiri israrla dediyinin üstündə durur. Bu arada qeyd edim ki, ermənilər bizim xüsusi təyinatlı qüvvələrin hərbi qulluqçularını geyimindən və kaskasından tanıyır. Onların hamısına "Yaşma" deyirlər. Cabbarov şəhid olmuş əsgərlərini düşünür və onun kim olduğunu tapır. Erməni alay komandiri isə öz zabitinin sözünü dəstəkləmək üçün deyir: "Gecə bizim minaatan mövqelərində peyda oldular. Avtomatlardan atəşə tutulduq. Qaranlıqdan üstümüzə ata-ata gələn həmin o idi – Yaşma. Bir neçə əsgərimi öldürəndən sonra kombatımın sürücüsünü də öldürüb, UAZ-a oturub aradan çıxmaq istəyirdi. Əraziyə gələn batareyanın mühafizə bölmələri onu güllə ilə vurdu. O, çox cəld döyüşürdü. Əsgərlər xeyli müddət onun meyitinə yaxınlaşa bilmirdi". Sonra görüş sona çatır. Erməni alay komandiri maşına oturanda komandiri səsləyib "Düşmən olsaq da, etiraf edirəm ki, o, əsl qəhrəman idi. Bizdə elə əsgər yoxdur ki, təkbaşına bir neçə nəfərin üstünə gedib onları öldürsün", deyib və ərazidən uzaqlaşıb.

Komandirdən həmin əsgərin kim olduğunu soruşanda o, mənə həmin igidin kəşfiyyat bölüyünün əsgəri MAH-HXHQ Novruz Haqverdiyev olduğunu dedi. Onun meyitinin axtarışı xeyli vaxt apardı. Bu da hamını məyus edirdi. Sonradan dəqiq yer göstərmək üçün Cabbarovun təkidi ilə erməni tabor komandiri BQXK-nın və rusların vasitəçiliyi ilə əraziyə gətirildi. Havanın əlverişsiz olması axtarışa mane olurdu. Bir neçə gün sonra Novruzun nəşi tapıldı."

Novruzun həyat yoldaşı Rəfiqə xanım:

"Novruz Vətənə olan sevgisi, məhəbbəti, düşmənə olan nifrəti və işinə olan həvəsilə hər gün daha həvəslə işləyirdi. Novruz 5 il idi ki, məni sevirdi, amma Vətəninə olan sevgisi hər şeydən öndə idi. Mənə tez-tez məktublar, şeirlər yazardı. Xidmətdə olduğu üçün tez-tez görüşə bilmirdik, bu da onu kədərləndirirdi. Novruz mənə yazdığı şeirlərində sevgisindən, həsrətindən bəhs edərdi:

Sən mənim qəlbimdə yaşayan mələk,
Həsrətinə necə dözüm, ay ürək?
Sənin ürəyində vardı bir dilək,
Novruz ölənədək səni sevəcək.

Xəyal dənizində bir gəmidəyəm,
Avar çəkirəm ki, sahilə çatam.
Niyyətim haradı, mənzilim ora,
Niyyət etmişəm ki, Rəfiqəmə çatam.

Gülüm, sənin üçün həyatda məntək
Sevən başqa oğlan səncə olarmı?
Bu şeiri yazan həmin oğlantək,
Eşqindən dəlitək qəlbi dolarmı?

Bir məktub yazıram yadigar sənə,
Bəlkə də bu məktub sonuncu oldu.
Yolumu gözləmə, hələ əsgərəm,
Bəlkə də bu məktub sonuncu oldu...



Biz 2018-ci il aprelin 29-da ailə həyatı qurmuşuq. 2019-cu il iyunun 13-də İnci adlı qızımız dünyaya gəlib. Qızının adını Novruz özü qoyub. İnci böyüdükcə atasına daha çox bənzəyirdi. Atası işdən gələndə İnci onun papağı ilə oynayardı. Novruz bir saat qızı ilə oynayar, sonra yeməyini yeyib iş dalınca gedərdi. Çox ailəcanlı və qayğıkeş ata idi. Ailəsi ilə birgə 2018-ci ilin avqust ayından Daşkəsən şəhərində kirayədə qalıb.

Hər bir azərbaycanlı kimi, Novruzun da ən böyük arzusu işğal altında olan torpaqlarımızı işğaldan azad etmək, Polad Həşimovun, Mübariz İbrahimovun, Xocalının qisasını almaq idi. Vətən müharibəsində Kəlbəcərin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Novruz imkan olduqca mənimlə əlaqə saxlamağa çalışırdı, bizdən çox nigaran idi. Hər döyüşə girəndə döyüş yoldaşlarına deyərmiş ki, kirayədə qoyub gəldiklərimdən çox narahatam, qızım çox körpədir. Hər dəfə mənimlə əlaqə saxlayanda deyərdi ki, necəsiz? Özünüzə yaxşı baxın, soyuqdan qorunun. Mən yaxşıyam, burada vəziyyət çox yaxşıdır, artıq bir neçə yüksəklik almışıq. Şərti adı Təkəqaya olan düşmən mövqeyinə ilk olaraq Abbasov Vüqar və mən ayaq basmışıq, oraya bayraq sancdıq. Sənə söz verirəm ki, top kimi

gələcəm, artıq bir medalım da var. Tez bir zamanda qələbə xəbəriylə gələcəm, medalımı da sənin boynundan asacam. İncidən muğayat ol, özünü qoru, heç kəsə də qapı açma.

Mən Novruzla əlaqə saxlaya bilməyəndə, çox nigaran qalırdım. Novruz da həmçinin bizim üçün darıxırdı, imkan olduqca set olan əraziyə gedər, mənə zəng edərdi. Oktyabrın 2-də mənimlə son danışığı olub. Sanki Novruzun ürəyinə dammışdı ki, şəhid olacaq. Son sözləri çox təsirli idi:

- Mən sizin üçün, Vətən üçün burdayam, torpaqlarımız azad olunmamış gəlməyəcəm. Amma sizdən də çox nigaranam, mənə görə narahat qalmayın, hər şey yaxşıdır, düşmənin tam olaraq məhv olmasına az qalıb. Artıq xeyli sayda yüksəklik və kənd bizidədir, azaddır. Çox sevinirəm ki, 30 ildir işğal altında olan torpaqları biz azad edəcəyik. Biz imam Hüseyn(ə) ordusuyuq, qələbə bizimdir. Əgər mənə nəsə olsa, qızım

İncini sənə, ikinizi də tək olan Allaha əmanət edirəm, özünüzü qoruyun. İnşallah sağ-salamat gəlsəm, İncini parka aparıb gəzdirəcəm, ona oyuncaqlar alacam. 1-ci sinfə özüm aparacam. Narahat olma, artıq kirayədə də qalmayacağıq, gələn kimi ipoteklə ev götürəcəm, özümə maşın alacam, inşallah heç kimə möhtac olmayacağıq.

- Təki sən sağ-salamat qapıdan gir, qurban kəsək.

- Əsas Vətəndi, birinci torpaqlarımızı azad edək, sonra hamısı olacaq.

Novruz sonuncu dəfə İncinin səsini eşitmək istədi, İnci səsə yuxudan oyanıb ağladı, atası da telefonda ağladı, mən də onlarla birgə. Bu danışıqdan sonra Novruzgil Ağdağ istiqamətində irəliləyiblər. Novruz UAZ markalı maşını

sürüb irəli getmək istəyərkən qəhrəmancasına şəhid olub. Novruzun nəşi 3 ay 17 gün sonra, 2021-ci il yanvarın 19-da Ağdağdan tapılıb. Bu müddət ərzində mən onu əsirlikdə bilirdim, sağ-salamat gələcəyini səbirsizliklə gözləyirdim. Mən onu son mənzilinə öz çiyinlərimdə yola saldım, son vəzifəmi belə yerinə yetirdim".

Novruz 2021-ci il yanvarın 19-da Gəncə şəhər Şəhidlər Xiyabanında dəfn olunub.

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.

"Vətən uğrunda" medalı. Sərəncam № 2722. 24.06.2021.

Yeni İctimai Nəzarət Təşkilatının sədri Ramil Şükürov tərəfindən "Torpaqlarımızın azadlığı uğrunda 44 gün davam edən hərbi əməliyyatlar zamanı düşmənin silahlı qüvvələrini darmadağın edərək böyük zəfərə imza atdığına görə" ölümündən sonra "Xarı Bülbül" Fəxri Diplomu;

İnform-Xəbər TV-nin rəhbəri Azər Kazımov tərəfindən "II Qarabağ Vətən müharibəsində ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda gedən döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə" Vətən Uğrunda Fəxri Diplomu;

2022-ci ildə Vətən müharibəsi Əlillərinə Kömək İB-nin Gəncə Regional Mərkəzinin sədri S.Məmmədov tərəfindən "Müharibədə göstərdiyi igidliyə görə" Fəxri Fərmanla təltif olunub.

İbrahimov Mübariz
Telman oğlu
Əsgər



1990-cı il yanvarın 14-də Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olub. 2008-ci ildə Xoşbulaq kənd tam orta məktəbini bitirib. 2008-ci il iyulun 2-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Beyləqan rayon N saylı hərbi hissədə atıcı əsgər olaraq xidmətə başlayıb, 3 ay sonra manqa komandiri keçib, 9 ay sonra isə taqım komandirinin müavini olub. 2010-cu il yanvarın 1-də ordu sıralarından tərxis olunub. Fəhlə işləyirdi. 2018-ci il fevralın 7-də MAHHXHQ kimi Şəmkir rayonunun Seyfəli N saylı hərbi hissəsinin həmlə taborunda xidmətə başlayıb. Hava hücumundan müdafiə sistemini idarə edib.

Vətən müharibəsi başlayan gündən Kəlbəcər istiqamətində gedən döyüşlərdə zirehli texnika ilə iştirak edib. Kəlbəcər istiqamətində bir neçə gün döyüşdükdən sonra Füzuli istiqamətində gedən döyüşlərdə ehtiyac olduğu üçün oraya aparıblar. Mübariz Xocavəndə qədər gedən döyüşlərdə iştirak edib. Döyüşlərdə hər zaman irəlidə olub və öz döyüşü ilə fəxr edib. Döyüş yoldaşlarının dediyinə görə, o, hər zaman döyüşlərə ürəklə gedər, ürəklə vuruşardı, qorxu bilməzdi. Hər döyüşə girəndə deyərdi

ki, Mübariz İbrahimov ölməyib, sağdır, mən həm 1-ci, həm də 2-ci Mübarizi canlandırıram. Hər qələbə çalınanda qışqırardı ki, "şəhidlərimizin qisasını alırıq".

Mübariz hər zaman ailəsinə deyərdi ki, şəhid olsam, mənimlə fəxr edin, mən qürurla döyüşmüşəm.

Bir dəfə Xocavənd istiqamətindəki döyüşlərin birində öz idarə etdiyi zirehli texnikada və avtomatında nasazlıq yaranıb. Döyüş gedə-gedə Mübariz düşməndən qənimət götürülmüş texnikanı və üzərindəki avtomatları gətirərək öz idarə etdiyi texnikanı təmir edib və heyətilə bərabər döyüşə davam edib. Onlar düşmən hədəflərini gördükləri anda məhv edirdilər. Noyabrın 9-da Xocavənd uğrunda gedən döyüşlərdə Mübarizin idarə etdiyi zirehli texnika vurulub, heyətilə bərabər texnikanın içindən çıxa bilməyib, şəhid olublar. Mübariz noyabrın 11-də Daşkəsən rayon Şəhidlər Xiyabanında dəfn olunub.

Təltifləri:

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 13.12.2020.
"İgidliyə görə" medalı. Sərəncam № 2352. 18.12.2020.
"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 25.12.2020.
"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2364. 25.12.2020.
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.
"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2714. 24.06.2021.
"3-cü dərəcəli "Rəşadət" ordeni. Sərəncam № 2987. 05.11.2021.

İsmayılov Rüstəm Üzeyir oğlu Əsgər



1995-ci il avqustun 29-da Daşkəsən şəhərində anadan olub. 2012-ci ildə Daşkəsən şəhər İmadəddin Nəsimi adına 1 saylı tam orta məktəbi bitirib. 2013-cü il oktyabrın 10-da SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Beyləqan rayon N saylı hərbi hissədə topçu əsgər olaraq xidmət edib. 2015-ci il aprelin 1-də ordu sıralarından tərxis olunub. 14.09.2016-cı ildən 29.08.2018-ci ilədək Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində həm işləyir, həm də psixologiya üzrə təhsil alırdı. 2018-ci ildə təhsilini dondurub Azərbaycana gəlib. 2020-ci ilin avqustunda MAHHXHQ kimi Şəmkir rayonunda N saylı hərbi hissədə xidmətə başlayıb. Sentyabrın 24-də evə zəng edib anası Nubar xanımla danışıb. Anasının dediyinə görə, "Rüstəm çox həyəcanlı idi, hal-əhval tutdu, amma müharibəyə hazırlaşdıqları haqqında heç nə demədi. Bu mənimlə son danışığı olub".

Vətən müharibəsi başlayanda – sentyabrın 27-də atası Üzeyir bəy və bir qohumu Rüstəmin xidmət etdiyi hərbi hissəyə gediblər, orada onlara deyiblər ki, hamı cəbhədədir, Kəlbəcər istiqamətində döyüşürlər. Günlər keçsə də

ailəsi ondan heç bir xəbər ala bilmirdi. 70 gün sonra nəşi Füzulidən tapılaraq ailəsinə təhvil verilib. 2020-ci il dekabrın 17-də Daşkəsən rayon Şəhidlər Xiyabanında dəfn olunub.

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən uğrunda" medalı. Sərəncam № 2722. 24.06.2021.

Yeni İctimai Nəzarət Təşkilatının sədri Ramil Şükürov tərəfindən "Torpaqlarımızın azadlığı uğrunda 44 gün davam edən hərbi əməliyyatlar zamanı düşmənin silahlı qüvvələrini darmadağın edərək böyük zəfərə imza atdığına görə" ölümündən sonra "Xarı Bülbül" Fəxri Diplomu ilə təltif olunub.



İsmayılov Tural Nurəddin oğlu Əsgər

1999-cu il martın 10-da Daşkəsən rayonunun Zivlən kəndində anadan olub. 2016-cı ildə Gəncə şəhərində fəaliyyət göstərən Kəlbəcər rayon 109 saylı tam orta məktəbi bitirib. 2017-ci il aprelin 4-də SHXÇDX-nun Daşkəsən rayon

bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, əvvəlcə Sumqayıtda Nasosnu deyilən yerdəki hərbi hissədə, sonra isə Qusar rayon N saylı hərbi hissədə qumbaraatan vəzifəsində xidmət edib. 2018-ci ilin oktyabrında ordu sıralarından tərxis olunub. Müxtəlif işlərdə işləyib.

Vətən müharibəsi başlayanda, getmək üçün SHXÇ-DX-nın Daşkəsən rayon bölməsinə müraciət edib və oktyabrın 5-də könüllü olaraq müharibəyə gedib. Füzuli, Cəbrayıl, Xankəndi, Suqovuşan, Xocavənd, Şuşa istiqamətində gedən döyüşlərdə iştirak edib.

Döyüş yoldaşları Turalın adını dağ keçisi qoymuşdular. Dediklərinə görə, Tural çox qürurlu, cəsur və qoçaq döyüşçü idi. Döyüşün qızğın vaxtı Turalın silahında mərmi bitib, amma o, düşmənin üzərinə gedərək xəncər, bıçaqla döyüşüb. Döyüş yoldaşları deyib ki, irəli getmə, silahında mərmi yoxdu, deyib gedəcəm. Döyüş bitdikdən sonra yaralıların ərazidən çıxarılmasında kömək edib və onları maşına mindirib yola salıb.

Turalın gözündən yaralanmış qazi dostunun danışdıqlarından:

"Mən yaralanandan sonra Tural mənə dedi ki, gəl yerimizi dəyişək və yerimizi dəyişdik. O, məni ölümdən xilas elədi, yoxsa mən şəhid olacaqdım".

Noyabrın 8-də Şuşa uğrunda gedən qızğın döyüşlərdə Tural əvvəl ayağından, sonra boynundan vurularaq şəhid olub. Noyabrın 15-i axşam nəşi ailəsinə təhvil verilib, 16-da Gəncə şəhər Şəhidlər Xiyabanında dəfn olunub.

Təltifləri:

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.

"Cəsur döyüşçü" medalı. Sərəncam № 2353. 18.12.2020.
"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2370. 29.12.2020.

"Qafqaz Media" İctimai Birliyi tərəfindən (ölümündən sonra) "Nur Üzlü Şəhidim" döş nişanı ilə təltif olunub.



İsrafilov Vidadi Vaqif oğlu
Əsgər

1987-ci il iyunun 18-də Daşkəsən şəhərində anadan olub. 2005-ci ildə Daşkəsən şəhər Anar Mürsəlov adına 2 saylı tam orta məktəbi bitirib. Elə həmin il Gəncə Dövlət Universitetinin Riyaziyyat fakültəsinə daxil olub, 2009-cu ildə universiteti bitirib. 2009-2010-cu illərdə Bakı şəhərində N saylı hərbi hissədə xidmət edib. 2010-cu il sentyabrın 1-də təyinatla Daşkəsən rayonunun Gurbulaq kənd ümumi orta məktəbində riyaziyyat müəllimi kimi fəaliyyətə başlayıb. 2014-cü il fevralın 22-də ailə həyatı qurub, Xatun adlı bir qızı və Ataxan adlı bir oğlu var.

Vətən müharibəsi başlayanda Vidadi müharibəyə getmək üçün könüllü olaraq SHXÇDX-nın Daşkəsən rayon bölməsinə müraciət edib. O, gecə səhərədək Gəncə Tibb

Mərkəzinə gətirilən yaralılara kömək edib. Sentyabrın 28-də səfərbərlik başladı, elə həmin gün də çağırış vərəqəsi gəldi. 29-u səhər saat 6-da yola düşdülər, Füzuli, Cəbrayıl istiqamətində döyüşlərə qatıldılar. Qardaşı Əmrah da döyüşlərdə iştirak edirdi. Noyabrın 6-da ailəsi ilə əlaqə saxladı, dedi ki, uşaqlardan muğayat ol. Axırıncı dəfə noyabrın 8-də atası ilə danışıb, Şuşanın alındığını söyləyib, elə həmin gün də Xankəndi istiqamətində gedən döyüşlərdə yaxınlıqda partlayan mərmi nəticəsində şəhid olub. Ailəsi noyabrın 10-da eşidib ki, Vidadi yaralanıb, 11-də isə komissarlıqdan çağırıblar Füzuliyə, orada deyiblər ki, oğlunuz şəhid olub. Vidadinin nəşini noyabrın 11-də evə gətiriblər, 12-si Gəncə şəhər Şəhidlər Xiyabanında dəfn olunub.

Təltifləri:

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.
"Cəsur döyüşçü" medalı. Sərəncam № 2353. 18.12.2020.
"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2370. 29.12.2020.

Xatirəsini əbədiləşdirmək üçün Bakı şəhəri Mehdiabad qəsəbəsindəki 4 nömrəli orta məktəbdə 7a / 4a sinif otağına və Gəncə şəhəri 38 nömrəli məktəbdə 1a sinfinə Vidadi İsrafilovun adı verilib.

Yeni İctimai Nəzarət Təşkilatının sədri Ramil Şükürov tərəfindən "Torpaqlarımızın azadlığı uğrunda 44 gün davam edən hərbi əməliyyatlar zamanı düşmənin silahlı qüvvələrini darmadağın edərək böyük zəfərə imza atdığına görə" ölümündən sonra "Xarı Bülbül" Fəxri Diplomu ilə təltif olunub.

Azərbaycan Respublikasının Şəhid Ailələri, Əlillər və Müharibə Veteranlarının Müdafiəsi İB-nin sədri T.Y.Məmmədov tərəfindən şəhidimizin ailəsi Fəxri Fərmanla təltif olunub.



Quliyev Elvin Amil oğlu
Əsgər

2001-ci il iyulun 24-də Daşkəsən rayonunun Əhmədli kəndində anadan olub. 2001-ci ildən ata-anası ilə bərabər çobançılıqda olub. Məktəb yaşına çatan Elvin kasıbçılıqdan məktəbə gedə bilməyib. Bütün həyatı acı, əziyyət içində keçib. Ən böyük arzusu əlinə silah götürüb mənfur düşməni məhv edərək, işğal altında olan torpaqlarımızı azad etmək olub. 2019-cu il iyulun 24-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Bakıda N saylı hərbi hissədə atıcı olaraq xidmət edib. Tərxis olunmağına 3 ay qalmış Vətən müharibəsi başlayıb, xidmət etdiyi hərbi hissənin tərkibində Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib. 2020-ci il oktyabrın 1-də Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Elə həmin gün Əhmədli kəndində yaşadığı ünvana gətirilib. Oktyabrın 2-də Daşkəsən rayon Şəhidlər Xiyabanında dəfn edilib.

Təltifləri:
"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.
"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 25.12.2020.

Məmmədov Elnur
İsrafil oğlu
Əsgər



1989-cu il sentyabrın 16-da Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olub. 2008-ci ildə Gəncə şəhər Şah İsmayıl Xətai adına 13 saylı tam orta məktəbi bitirib. Gəncə şəhərində Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına daxil olub, 2012-ci ildə Azərbaycan Dövlət Aqrar Universitetinin məzunu olub. 2012-ci ilin iyul ayında SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Sərhəd Qoşunlarının N saylı hərbi hissəsində xidmət edib. 2013-cü ildə xidmətini başa vurub Gəncəyə qayıdıb. Elnur oxuduğu ixtisası yox, hərbçi olmağı seçib və 2014-cü ildə Daşkəsən rayon N saylı hərbi hissədə MAHHXHQ kimi kəşfiyyatçı vəzifəsində xidmətə başlayıb. Hər zaman işində fəal olub.

Vətən müharibəsi başlayan gündən Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib. Elə döyüşün ilk günündən yüksək qəhrəmanlıq nümunəsi göstərib.

Müxtəlif mövqelərdə döyüşən Elnur, oktyabrn 1-də Daşkəsən rayon sərhədindən Kəlbəcər rayonuna keçid edib. Komandiri və döyüş yoldaşları ilə birlikdə düşmənin iki postunu dağıdıb. Oktyabrın 2-si səhər saatlarında, döyüş zamanı erməni zabitlərinin olduğu UAZ markalı maşının yaxınlaşdığını görən komandiri, Elnura başını qaldırmamasını deyib. Lakin Elnur UAZ maşınını partladıb, özü isə düşmənin snayper gülləsinə tuş gəlib və qarın nahiyəsindən yaralanıb. Qısa müddət yerdə qaldıqdan sonra, özünü toparlayıb və döyüş yoldaşlarına «Siz geri çəkilin, mən gedərəm» deyərək, düşmənə hücum edib. Düşmən snayperi onu izləyirmiş, bu dəfə baş nahiyəsindən vurub, Elnur şəhid olub. Komandiri onun nəşini çıxara bilmədiyi üçün, iki qayanın arasında gizlədib ki, düşmən əlinə keçməsin. Elnurun nəşi 49 gün neytralda qalıb, 50-ci günə keçən gecə komandiri və döyüş yoldaşları onun nəşini gizlətdikləri yerdən götürərək, ailəsinə təhvil veriblər. Elnur noyabrın 23-də böyük izdihamla Gəncə şəhər Şəhidlər Xiyabanında dəfn edilib.

Evli idi, Vətənə əmanət Sevgi və Sevim adlı ekiz qız övladları qalıb.

Təltifləri:

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.
"İgidliyə görə" medalı. Sərəncam № 2723. 24.06.2021.

Məmmədov Sərxan Sahil oğlu Əsgər



2001-ci il mayın 9-da Daşkəsən rayonunun Pirverdilər kəndində anadan olub. 2019-cu ildə Pirverdilər kənd tam orta məktəbini bitirib. Məktəbdə yaxşı oxumağı ilə seçilib. Ən çox vətənpərvərlik mövzularında fərqlənərdi. Boş vaxtlarında idmanla məşğul olardı. Sakit təbiətli, gülərüz, xoş xayiyyətli oğlan idi. Bacardığı qədər hər kəsin köməyinə çatar, əlindən gələn köməyi əsirgəməzdi. Ən böyük arzusu hərbçi olmaq idi. Həmişə deyərdi ki, mən gedib hərbidə işləyəcəm, sülhməramlı orduya gedəcəm.

2019-cu il iyulun 3-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Əvvəlcə Ağcabədi rayon N saylı hərbi hissədə, andiçmədən sonra Ağdam rayon N saylı hərbi hissədə xidmət edib.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Füzuli, Cəbrayıl, Xocavənd uğrunda gedən döyüşlərdə iştirak edib, qəhrəmanlıqla döyüşüb. Bir çox döyüşlərin və qələbələrin iştirakçısı olub. O, həmişə ailəsi ilə danışanda "Qorxmayın, hər şey yaxşıdır, inşaallah qələbə ilə qayıdacam. Dığaları it kimi qovuruq, onlar kimdi ki, bizim torpaqlarımızı verməyələr. Allah

qoysa, 30 illik işğala son qoyacağıq, nəhayət ki, bütün torpaqlarımızı azad edəcəyik bu murdarlardan" - deyərdi.

Sərxan sonuncu dəfə noyabrın 2-də atasına zəng edib: "Ata, hər şey yaxşıdır, qələbə bizimdir. Siz heç narahat olmayın, mənə zəng çatmasa qorxmayın. Biz başqa yerə gedirik, özüm imkan tapan kimi zəng vuracam. Anamdan muğayat ol, ona salam de".

Noyabrın 3-ü idi, Xocavənd uğrunda qızğın döyüşlər gedirdi. Qırmızı Bazar deyilən yerdə, Sərxangilin azad etdikləri yüksəklik düşmən tərəfindən ağır artilleriya atəşinə tutulub. Sərxan yaxınlıqda partlayan mərmi nəticəsində aldığı qəlpə yaralarından qəhrəmancasına şəhid olub. Noyabrın 4-də Daşkəsən rayon Şəhidlər Xiyabanında dəfn olunub.

Təltifləri:

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.
"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2364. 25.12.2020.
"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2987. 05.11.2021.

Məmmədov Tural
Taryel oğlu
Əsgər



1999-cu il noyabrın 5-də Daşkəsən şəhərində anadan olub. Əslən Qərbi Azərbaycandan, Göyçə mahalının Cil kəndindəndir. 2000-ci ildə ailəsi ilə birlikdə Bakıya köçüb. 2006-2015-ci illərdə orta təhsilini Bakı şəhəri M.Rəsulzadə qəsəbəsi 99 saylı məktəbdə və Mehdiabad qəsəbəsi 1 saylı orta məktəbdə alıb. 2015-ci ildə 9-cu sinfi bitirib, C.Naxçıvanski adına hərbi liseyə daxil olub, lakin səhhəti ilə bağlı orada təhsilini davam etdirə bilməyib. 2017-ci ildə Bakı şəhəri Mehdiabad qəsəbəsi 1 saylı tam orta məktəbi əla qiymətlərlə bitirib. Müəllimlərinin dediyinə görə, Tural onların sevimli şagirdi olub və heç zaman müəllimlərini incitməyib. Elə həmin ildə 18 yaşı tamam olan Tural SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Əvvəl Ağcabədi, sonra isə Xocavənddə qumbaraatan vəzifəsində xidmət edib. 2019-cu ildə ordu sıralarından tərxis olunaraq evlərinə qayıdıb, işləyərək ailəsinə kömək edib.

Vətən müharibəsi başlamamışdan əvvəl, müharibədə iştirak etmək üçün adını könüllü olaraq yazdırıb, müharibə başlayan zaman isə səfərbərlikdən çağırılıb. Bir müddət Gəncədə təlimlərdə olub, sonra Füzuli və digər rayonların

azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib.

Tural son dəfə noyabrın 5-də, öz ad günündə ailəsi və yaxınları ilə telefonla danışıb. Noyabrın 5-dən sonra ailəsi Tural ilə əlaqə saxlaya bilməyib. Anası Könül xanımın sözlərinə görə, Tural son telefon danışığında sanki ürəyinə dammış kimi anasından halallıq istəyib.

Şuşada gedən qızğın döyüşlərdə 6 yaralı əsgər yoldaşını xilas edib. Noyabrın 9-da ürəyindən aldığı qəlpə yarasından şəhidlik zirvəsinə ucalıb. Noyabrın 12-də Xırdalan Şəhidlər Xiyabanında dəfn edilib.

Bacısı Yasəmən ilə aralarında 2 yaş fərq olmasına baxmayaraq, Tural onu qızım deyə əzizləyərdi. Yasəmənin dediyinə görə qardaşının şəhid olmasını hiss etmişdi, ürəyinə dammışdı. Yasəmən: "Turalımın çox gözəl rəsm çəkmək qabiliyyəti var idi. Mən də hər zaman onun kimi şəkil çəkmək istəyirdim".

Qohumların, dost-tanışların dediyinə görə, Tural mehriban, mərd, hər kəsin qeydinə qalan biri idi. Yaşadığı şərəfli ömür yolunda Tural heç kimi incitməmişdi. Vətəninə, bayrağına bağlı olan Tural, müharibəyə getməmişdən əvvəl üçrəngli bayrağımızla Şəhidlər Xiyabanını ziyarət etmişdi.

Müharibədən sonra Turalın döyüş yoldaşları onun ailəsini, ev muzeyini, dəfn olunduğu Şəhidlər Xiyabanını, adına tikilmiş bulağı ziyarət ediblər. Onlar Turalın haqqında qürurla, fəxrlə və bir o qədər də kədərlə danışıblar.

Şəmkir rayonunun Cırdaxan kəndində yaşayan Həsənov İlkin:

"Mən müharibəyə getmək üçün könüllü olaraq yazılmışdım. Müharibə başlayan kimi Gəncədə N saylı hərbi

hissədə yığılmışdıq. Biz Turalla hərbi hissədə tanış olduq. Tural qumbaraatan idi. Döyüş yolumuz Füzulidən başladı. Mən döyüşlər zamanı bir hadisənin şahidi oldum – Tural qumbaraatanla ayaq üstə atırdı. Döyüşlərin ən qızğın vaxtlarında üzərimizə dolu kimi güllə yağırdı. Tural qorxmadan döyüşürdü, çox mərd, qeyrətli və cəsur oğlan idi. O, 6 nəfər yaralı döyüş yoldaşımızı xilas etdi. Noyabrın 9-u gecə saat 11 olardı, biz Şuşanın Topxana meşəsində Turalla birlikdə idik. Minamyot yanımıza düşdü, mən yaralandım, Tural və digər 2 döyüş yoldaşım şəhid oldu. Mən Turalın şəhid xəbərini səhər tezdən eşitdim. Heç cür inana bilmədim ki, biz Turalı itirmişik... Allah Turalın timsalında bütün şəhidlərimizə rəhmət eləsin".

Şəmkirin Bayramlı kəndindən Səmədzadə Qafqaz:

"Müharibəyə könüllü olaraq qatıldım. Gəncədə N saylı hərbi hissəyə yığışmışdıq. Turalla orada tanış oldum, birlikdə təlimlərə gedirdik. Sonra bizi Füzuliyə apardılar.

Turalın haqqında bir dastan belə yazsalar, azdır. Çox mərd, rəhimli və cəsur idi. Füzulidə 2 uşaq var idi, Tural onların başını dizinin üstə qoyub yatırdırdı. Sonra biz maşınla getməli idik, Tural maşından düşüb o uşaqları öpdü, sonra maşına mindi.

Noyabrın 5-i Turalın ad günü idi, biz Turalı təbrik etdik. Sonra əmr gəldi və biz Şuşaya getdik. Tural çox qəhrəmancasına döyüşürdü. Bir neçə döyüş yoldaşımızı xilas etdi, ancaq biz onu xilas edə bilmədik. Tural kimi oğullar bir daha dünyaya gəlməz. Şuşadan sonra biz Xankəndinə getdik, Tural orada da çox qəhrəmancasına döyüşürdü. Noyabrın 9-u, gecə Tural və 2 qardaşımız Topxanada şəhid oldu. Allah şəhidlərimizə rəhmət eləsin".

Həsənov Tural Ramiz oğlu:

"Müharibəyə manqa komandiri vəzifəsində könüllü olaraq qoşuldum. Orda bir çox döyüş yoldaşlarımla həm qardaş, həm də bir-birimizə sipər olduq. Mənə əziz olan bir qardaşım var idi – Tural Məmmədov. Turalla münasibətim ilk gün Gəncədə oldu. Döyüş zamanı kimisə tanımaq çox asan olurdu. Döyüşdə olduğumuz zaman Turalı tanımağa vaxt lazım olmadı, çünki Tural qardaşımız tam başqa biri idi. Vətənpərvər, ən əsası dostcanlı idi. Heç vaxt dostunu darda qoymazdı, öz canından keçərdi, amma dostunu satmazdı.

Şuşada güclü atışma var idi, biz çox yüksək əhval-ruhiyyə ilə döyüşürdük. Bir-birimizi və yoldaşlarımızı qoruyurduq. Qumbaraatan mərmisi yanıma düşdü, huşum getmişdi. Tural mənə kömək etdi, su verdi, üzümü yudu və hər şeyin yaxşı olduğunu, yaralanmadığımı dedi. Şuşa azad olundu. Noyabrın 9-u 21-00 radələrində Tural mənə dedi ki, biz ən böyük zirvəyə ucalacağıq. Sanki qardaşımın ürəyinə dammışdı şəhid olacağı. Biz Topxana meşəsində idik, düşmən tərəfindən güclü artilleriya atəşinə tutulduq. Saat 11 olardı, minamyot düşdü yanımıza. Döyüş yoldaşlarımızdan 3-ü şəhidlik zirvəsinə ucaldı, bir neçəsi isə yaralandı. 2 saat sonra döyüşün bitdiyini və atəşkəs elan olunduğu xəbərini aldıq, ancaq biz sevinə bilmirdik. Səhər tezdən əraziyə dağıldıq, həmin an Turalı yerdə gördüm. Göz yaşları içində şəhid qardaşımı qucaqladım, amma artıq gec idi, Tural arzusuna çatmışdı, şəhidlik zirvəsinə ucalmışdı. Allah cəmi şəhidlərimizə rəhmət eləsin".

Tovuzdan Rəhimli Rəhman:

"Döyüşlərə könüllü olaraq qatılmışdım. Turalla Gən-

cədə N saylı hərbi hissədə tanış oldum. Biz təlimlərdə iştirak etdikdən sonra Füzulidə döyüşlərə qatıldıq. Tural qumbaraatan, mən onun köməkçisi idim. Şuşada mən yaralananda, Tural məni xilas etdi. Dost yolunda canından keçərdi. Cibində bint var idi, çıxardıb mənim yaramı sarıdı. Neçə yaralı yoldaşımızı xilas etdi. Ancaq biz onu xilas edə bilmədik. Xankəndində üzərimizə tank gəlirdi, Tural axırıncı qumbara ilə tankı vurdu, bizi xilas etdi. Sonra mən yaralandım. Turalın şəhidlik zirvəsinə ucaldığını sonra eşitdim. Tural kimi dostu itirmək çox çətindi, ancaq biz onunla qürur duyur, fəxr edirik. Allah şəhidlərimizə rəhmət eləsin".

Təltifləri:

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.
"Cəsur döyüşçü" medalı. Sərəncam № 2353. 18.12.2020.
"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2370. 29.12.2020.

Abşeron rayonu Mehdiabad qəsəbəsi 2 və 4 nömrəli məktəblərin, M.Ə.Rəsulzadə qəsəbəsi 99 nömrəli məktəbin sinif otağına və Abşeron rayonu Mehdiabad qəsəbəsində bir küçəyə Tural Məmmədovun adı verilib.

Abşeron rayonu Digah qəsəbəsində ailəsi tərəfindən Turalın adına bulaq tikilib. Ailəsinin yaşadığı evdə Turalın ev muzeyi var.



Süleymanov Turxan
İdris oğlu
Əsgər

2002-ci il sentyabrın 20-də Daşkəsən rayonunun Quşçu qəsəbəsində anadan olub. Ailədə 2 bacı, 2 qardaş olublar, Turxan ailənin sonbeşiyi idi. O, 2019-cu ildə Quşçu qəsəbə Səlimxan İsgəndərov adına tam orta məktəbi bitirib. 2020-ci il oktyabrın 19-da SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Cəncə N saylı hərbi hissədə snayper vəzifəsində xidmət edib. Xidməti müddətində Xüsusi Təyinatlı Qüvvələrə seçilib. Xidmət müddəti bitdikdən sonra da, MAHHXHQ kimi N saylı hərbi hissədə XTQ mənsubu olaraq xidmətinə davam edib. Xidməti müddətində Təşəkkür və Fəxri Fərmanlar alıb.

2022-ci il sentyabr ayının 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan ordusu Azərbaycan – Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribatlar törətdi. Döyüşlərdə XTQ-nin hərbçisi kimi iştirak edən Turxan bütün döyüş yoldaşları kimi böyük şücaət və qəhrəmanlıqla döyüşüb. Sentyabrın 13-də Kəlbəcər istiqamətində törədilən təxribatların qarşısını alarkən snayper gülləsi ilə vurularaq şəhid olub. Sentyabrın 15-də nəşi ailəsinin yaşadığı Daşkəsən rayonunun

Quşçu kəndinə gətirilib və ailəsinə təhvil verilib. Sentyabrın 16-da Daşkəsən rayon Şəhidlər Xiyabanında dəfn olunub.

Təltifləri:

3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni. Sərəncam № 3573. 05.11.2022.

"Vətən uğrunda" medalı. Sərəncam № 3573. 05.11.2022.

28.05.2022-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Anar Qlinçev tərəfindən "28 may–Müstəqillik günü münsibətilə döyüş və ictimai-siyasi hazırlığında, qoşun xidmətinin təşkilində və hərbi intizamında əldə etdiyi nailiyyətlərə görə" Fəxri Fərmanla təltif olunub.

Şıxıyev Orxan Raqif oğlu
Əsgər



1989-cu il sentyabrın 29-da Daşkəsən rayonunun Dəstəfur kəndində anadan olub. 2007-ci ildə Dəstəfur kənd tam orta məktəbini bitirib. 2008-ci ildə Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Beyləqan rayonunda N saylı hərbi hissədə topçu vəzifəsində xidmət edib. 2010-cu ildə tərxis olunub, sonra fəhlə işləyib.

Vətən müharibəsi başlayanda könüllü olaraq qeydiyyatdan keçib, oktyabrın 10-da səfərbərliklə çağırılıb. İlk olaraq Ağcabədi rayonuna aparıblar, orada bir neçə gün təlim keçdikdən sonra, oktyabrın 15-də Füzuli istiqamətində döyüşlərə qatılıb, sonra Cəbrayıl, Xocavənd istiqamətində döyüşüb. Oktyabrın 26-da Xocavənddə Qırmızı Bazar adlanan yerdə, Şuşa istiqamətində gedən döyüşdə şəhid olub, 5 gün neytralda qalıb. Noyabrın 1-də Göygöl rayonunun yeni Qızılca kəndindəki evinə gətirilib, noyabrın 2-də Daşkəsən rayon Şəhidlər Xiyabanında dəfn olunub.

Orxanın qardaşı Sərxanın danışdıqlarından:

"Oktyabrın 25-dən 26-na keçən gecə saat 12 radələrində Orxan mənə zəng edərək hal-əhval tutdu, "anamı-atamı sənə tapşırıram. Mən şəhid olacam, özünüzə yaxşı baxın. Əgər sabah sənə zəng eləməsəm, bil ki, şəhid olmuşam, məni axtararsan", dedi.

Anamla danışarkən "Haqqınızı halal edin, mən şəhid olacam, özünüzə yaxşı baxın, qardaşımdan muğayat olun" deyib. Bu Orxanın son sözləri olub, elə həmin gün şəhid oldu, noyabrın 1-də şəhid xəbəri gəldi".

Müharibədən sonra döyüş yoldaşları Orxanın ailəsini ziyarət ediblər. Onların danışdıqlarından:

"Müharibəyə yola düşdüyümüz gün Orxan dedi ki, uşaqlar, mən şəhid olacam. Bu sözü o, döyüşlər vaxtı bir neçə dəfə dedi. Şəhid olmamışdan bir neçə saat əvvəl gülümsəyərək bizə dedi ki, mən 1-ci tabora yazılacam, qismətim harda tamamdırsa, orada da şəhid olacam.

Orxan həmişə bizə deyərdi ki, mən ermənilərdən qorxmuram, siz də qorxmayın, biz qalib gələcəyik. Erməni

kimdi ki, bizim torpağımızda qala".

Dəstəfur kəndində adına ehsan bulağı tikilib və abidə ucaldılıb.

Təltifləri:

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.

"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2364. 25.12.2020.

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2711. 24.06.2021.

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2714. 24.06.2021.

Verdiyev Nihad Nicat oğlu Əsgər



2003-cü il dekabrın 19-da Daşkəsən rayonunun Qaraqollar kəndində anadan olub. Ailənin tək oğul övladı idi, bir bacısı var. 2021-ci ildə Cəncə şəhərində yerləşən Kəlbəcər rayon 109 saylı tam orta məktəbini bitirib. Təhsil aldığı müddətdə vətənpərvərlik mövzusunda olan bütün tədbir və təlimlərdə iştirak edib.

Vətən müharibəsi başlayanda yaşadığı yer üzrə SHXÇ-DX-nın Gəncə şəhər Kəpəz rayon şöbəsinə könüllü işti-

rak barədə müraciət edib, məktəbli olduğundan iştirakı mümkün olmayıb. Rəşadətli Azərbaycan Ordusunun Şanlı Qələbəsindən sonra Gəncə şəhər rəhbərliyinin təşkil etdiyi Qələbə tədbirlərində, eləcə də Vətən müharibəsi şəhidlərinin dəfn və yas mərasimlərində iştirak edib. Hər zaman bir Azərbaycan əsgəri kimi Vətənin keşiyində duracağı və Vətən uğrunda şəhid olacağı günü arzulayırdı.

2021-ci il dekabrın 20-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb və 2022-ci il yanvarın 6-dan Müdafiə Nazirliyinin Quru Qoşunları sıralarında Gəncə şəhər «N» saylı hərbi hissədə xidmətə başlayıb. Bir müddət sonra hərbi hissə rəhbərliyinə hərbi xidmətini "KOMANDO" Xüsusi Təyinatlı Qüvvələrində davam etdirmək istədiyi barədə müraciət edib. Daha sonra xidmətini Laçın rayon «N» saylı hərbi hissədə davam etdirib. İntizamlı və cəsarətli Azərbaycan əsgəri kimi xidmət keçib. Hərbi xidmət dövründə dəfələrlə hərbi hissə rəhbərliyi tərəfindən mükafatlandırılıb və hərbi xidmətə yeni qəbul olunmuş əsgərlərə nümunəvi əsgər kimi təqdim edilib.

2022-ci ilin avqust ayında qeyri-qanuni erməni silahlı dəstələrinin Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirmək və orada yeni döyüş mövqelərini qurmaq cəhdlərinin qarşısının alınması məqsədilə Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatında mərdliklə iştirak edib və nəticədə Qırxqız yüksəkliyinin, həmçinin Kiçik Qafqaz sıra dağlarının Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklərin nəzarətə götürülməsində böyük şücaət göstə-

rib. Yoldaşlarının şəhid olması Nihadın qəlbində qisas hissi yaratmışdı. Tək arzusu yoldaşlarının qisasını almaq və şəhid olmaq idi.

2022-ci il sentyabrın 11-də hər kəslə halallaşıb, sağollaşıb. Sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törətdilər. Təxribatın qarşısının dərhal alınması məqsədilə Azərbaycan Ordusunun bölmələri tərəfindən təxirəsalınmaz tədbirlər görüldü. Nihadgil elə həmin gecə döyüş meydanına yollanıblar. Sentyabrın 12-dən 13-nə keçən gecə ermənilərin 5 postunu aldıqdan sonra, yüksəklikdə döyüş yoldaşları ilə bərabər Nihad da şəhidlik zirvəsinə ucalmışdır. Nəşi 3 gün neytralda qalıb, sonra çıxarılaraq, sentyabrın 16-da Gəncə şəhər Cavadxan qəsəbəsi Aşıq Ələsgər küçəsində yaşayan ailəsinin evinə gətirilib, elə həmin gün də Gəncə şəhər Şəhidlər Xiyabanında dəfn olunub.

Dostu Röyal Əliyev:

" Nihad mərd, ürəkli, nikbin, vətənpərvər oğlan idi. Ən böyük arzusu azad olunmuş torpaqlarda xidmət etmək idi".

Dostu Teymur:

" Nihad mənim uşaqlıq dostum idi, bir yerdə böyümüşük. Çox vicdanlı, hörmətli və ailəsinə bağlı oğlan idi. Dostlarının çoxu yaşca ondan böyük olsalar da, həmişə ona hörmətlə yanaşardılar".

Döyüş yoldaşı:

"Nihad çox mərd, qorxmaz, intizamlı və dözümlü Azərbaycan əsgəri idi. Döyüşməkdən heç vaxt qorxmaz,

daim irəlidə olmaq istəyərdi. Arzusuna çatdı. Ailəsinə, millətinə və dövlətinə çox bağlı idi".

Təltifləri:

"Vətən uğrunda" medalı. Sərəncam № 3573. 05.11.2022.
3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni. Sərəncam № 3573. 05.11.2022.

2022-ci ildə Azərbaycan Respublikası Gəncə şəhər Murov Boks İdman Klubunun İcraçı direktoru X.Hacızadə tərəfindən şəhidin valideynləri "Vətənə layiqli övlad yetişdirdiklərinə görə" Fəxri Fərmanla təltif olunub.

Şəhidimizin adını əbədiləşdirmək üçün Kəlbəcər rayon 109 saylı tam orta məktəbində adına sinif otağı verilib.

Ailəsinin təşəbbüsü ilə yaşadığı Cavad xan qəsəbəsində Nihadın adına şəhid bulağı tikilib.

2022-ci il dekabrın 19-da Gəncə şəhər Uşaq evində Nihadın doğum günü ilə əlaqədar anım tədbiri keçirilib, uşaqlara şəhidimizin qəhrəmanlığından bəhs edilib.

Verdiyev Röyal
Qabil oğlu
Əsgər



1994-cü il avqustun 17-də Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olub. İki bacının bir qardaşı idi. 2011-ci ildə Xoşbulaq kənd orta məktəbini bitirib. 2012-ci ilin oktyabr ayında SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Beyləqan rayon N saylı hərbi hissədə sürücü vəzifəsində xidmət edib. Xidmət etdiyi müddətdə hərbi hissənin bacarıqlı, çalışqan, cəsur əsgərlərindən biri olub. Komandirin verdiyi bütün tapşırıqları vaxtında və dəqiq yerinə yetirib. Hərbi xidmətdə olduğu müddətdə hər kəsin hörmətini qazanmışdı. 2014-cü ildə ordu sıralarından tərxis olunub.

Röyal Vətənini, anasını, ailəsini həmişə hər şeydən üstün tutub. Zəhmətkeş, səmimi, gülərüz, tərbiyəli, vətənpərvər bir gənc idi. Vətənini hər şeydən çox sevərdi. Subay idi, arzuları çox idi. Ən böyük arzusu torpaqlarımızı işğaldan azad etmək, Qarabağı azad görmək idi. İçindəki Qarabağ həsrəti və qəlbindəki bütöv Vətən alovu sönmək bilmirdi.

Vətən müharibəsi başlayandan sonra, sentyabrın 29-da könüllü olaraq cəbhəyə getdi. Heç nəyə məhəl qoymadan

Ana Vətəni qorumaq üçün sinəsini sipər etməyə hazır idi. O, sürücü olaraq Cəbrayıl, Qubadlı, Laçın rayonları istiqamətində gedən döyüşlərdə iştirak edib. Dekabrın 2-də Laçın uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Dekabrın 3-də Daşkəsən rayon Şəhidlər Xiyabanında dəfn olunub.

Dostu Namazov Elvin:

"Röyal ilk olaraq Füzuliyə göndərilib, orada ehtiyatda olub, sonra isə Cəbrayılda sürücü olaraq döyüşlərə qatılıb. Bi çox şəhidlərimizi və 20-dən çox yaralını döyüş meydanından çıxarıb, həyatlarını xilas edib. Sonra Laçının azadlığı uğrunda gedən döyüşlərdə komandirinin sürücüsü olaraq iştirak edib. Laçın döyüşlərində daha çox çətinliklər olub, amma Röyal heç nəyə baxmadan, heç nədən qorxmadan yenə də hamıdan qabaqda bir çox şəhidimizi və 30 nəfərədək yaralı yoldaşlarını döyüş meydanından çıxarıb. Hər şeyi göz altına alaraq gecə vaxtı susuz əsgər və zabit heyətinə su paylayıb. Hər zaman irəlidə olmağa çalışıb. O, döyüş yoldaşlarının və komandirlərin hörmətini qazanmışdı. Döyüşdə onu düşündürən tək şey yalnız irəli getmək, torpaqlarımızın hər qarışını yağı düşməndən azad etmək olub.

Səhər saat 5-də ermənilər 3 qırıcı qaldırdılar, Röyal yaralı əsgəri çıxaran zaman ayağından yüngül yaralandı və uçurumdan yıxıldı. Buna baxmayaraq yenə də döyüşə davam etdi. Qubadlının Muradxanlı kəndi uğrunda gedən döyüşlərdə komandirinin əmrini yerinə yetirərkən güllə ilə vurulub və qəhrəmancasına şəhid olub.

Röyal hər zaman deyərdi ki, mən şəhid olacam. Onun

hərəkətləri, dediyi sözlər gözümün qabağından getmir, içim qan ağlayır. Laçının Arpacıq kəndində ermənilər dron qaldıran zaman məni vurdular, Röyal mənim həyatımı xilas edib, ölənədək ona borcluyam".

Bacıları Ruhiyyə və Manyanın danışdıqlarından:

"Röyal Xoşbulağın ən cəsur igidlərindən biridir. Hər ailədə seçilən övladlar olur, Röyal da ailədə seçilən, fərqlənən övlad olub. O, kiçik yaşlarından hər kəsin sevgisini, hörmətini qazanan, hər kəsin qəlbində xüsusi yer tutan bir uşaq idi. Özünəməxsus o qədər gözəl, şirin bir gülüşü varıydı ki,... Röyalın adı dilə gələndə ilk öncə insanın gözü qarşısına o gülüş gəlir. Röyal o qədər şən, mehriban, zarafatcıl insan olub ki, onu xatırlayanda hər kəsin yaddaşında gözəl, şirin xatirələr canlanır. İnsanın qəlbinin lap dərinliyində yer salmaq, insanın ən gözəl xatirələrində həkk olunmaq, xatırlayanda daim xoş gülümsəməylə yada salınmaq hər insana nəsib olmur. Röyal ta uşaqlığından ailəcanlı, zəhmətkeş, fədakar bir övlad olub. Bəlkə də onun yaşda uşaqlar oynamağı, gəzməyi düşünəndə, o, ailəsinin qayğısına qalıb. Elə bir övlada sahib olmaq hər ata-anaya qismət olmur. Röyalı tanıyan hər kəs - ətraf da, qohum-qonşu da, tanış da onun haqqında yalnız müsbət fikirlər söyləyirlər. Necə deyərlər, hər evin yanan bir işığı olur ha, Röyal da evin yanan işığı, nəfəsi olub.

Röyalın Vətən sevgisi ta uşaqlıqdan başlayıb, lap kiçik yaşlarından. O, igid, qorxmaz, mərd idi, heç vaxt heç nədən çəkinməyib və hər şeydə irəlidə getməyi sevib.

Röyal onu sevənlərin, millətinin, xalqının yaddaşında əbədi yaşayacaq".

Təltifləri:

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2355. 24.12.2020.

"Qubadlının azad olunmasına görə" medalı. Sərəncan № 2369. 29.12.2020.

"Laçının azad olunmasına görə" medalı. Sərəncam № 2373. 29.12.2020.



Zeynalov Arzu Rövşən oğlu Əsgər

1999-cu il martın 6-da Qazaxıstanın Arşala rayonunun Qırmızı göl kəndində anadan olub. 2016-cı ildə Daşkəsən rayonunun Mədənçilər qəsəbə Nəriman Nərimanov adına 3 saylı tam orta məktəbini bitirib. 2017-ci il aprelin 4-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Füzuli rayonunda N saylı hərbi hissədə xidmət edib. 2018-ci ilin oktyabrında tərxis olunub.

10.08.2018-ci ildə "Xocalı Soyqırımını Tanıtma" İB-nin sədri Şamil Sabiroğlu, "Yeni Yurd Sosial İnkişaf" İB-nin sədri Mahirə Əsədova və Azərbaycanın Milli Qəhrəmanı Asif (Fred) Məhərrəmov adına İnkişaf Fondunun sədri Ədalət Məhərrəmov tərəfindən "Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunması zamanı göstərdiyi

fədakarlığına, vətənpərvərliyinə və nümunəvi xidmətlərinə görə" Təşəkkürnamə ilə təltif olunub.

2020-ci ilin iyunundan Daşkəsən rayon N saylı hərbi hissədə MAHHXHQ kimi xidmətə başlayıb. Vətən müharibəsi başlayan gündən Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüş əməliyyatlarında iştirak edib. Oktyabrın 2-də şərti adı "Ağdağ" olan döyüş mövqeyi istiqamətində aparılan hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olub, uzun müddət neytralda qalıb. Nəşi noyabrın 24-də tapılaraq Daşkəsən şəhər Şəhidlər Xiyabanında dəfn edilib. Subay idi.

Təltifləri:

"Vətən uğrunda" medalı. Sərəncam № 2349. 15.12.2020.
"İgidliyə görə" medalı. Sərəncam № 2352. 18.12.2020.
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.

Yeni İctimai Nəzarət Təşkilatının sədri Ramil Şükürov tərəfindən "Torpaqlarımızın azadlığı uğrunda 44 gün davam edən hərbi əməliyyatlar zamanı düşmənin silahlı qüvvələrini darmadağın edərək böyük zəfərə imza atdığına görə" ölümündən sonra "Xarı Bülbül" Fəxri Diplomu;

15.10.2021-ci ildə Şəmkir Regional Mədəniyyət İdarəsi Daşkəsən rayon Heydər Əliyev Mərkəzinin direktoru Nailə Məmmədova tərəfindən "Vətən uğrunda göstərdiyi mərdliyə və şücaətə görə" ölümündən sonra Təşəkkürnamə;

"Qazilər" Vətən Müharibəsi İştirakçılarına və Ailələrinə Sosial Dəstək İB-nin sədri Ceyhun Ağayev tərəfindən "Vətən müharibəsində döyüşlər zamanı göstərdiyi şücaətə görə" ölümündən sonra Fəxri Fərmanla təltif olunub.

QƏLBİ VƏTƏN EŞQİ İLƏ DÖYÜNƏN QƏHRƏMANLARIMIZ

"VƏTƏN BİR AZ QAZİ, BİR AZ ŞƏHİDDİR"

Vətən onu qoruyan, onun üçün savaşan və uğrunda canından keçən varsa, Vətəndir! Torpaqlarımızın hər qarışında qazilərimizin və şəhidlərimizin qanı var. Bu torpaqlar qəhrəman oğullarımızın qanı ilə yoğrulduğundan bir az qazi, bir az şəhiddir. Bu torpaqların hər qarışında şəhidlərimizn cismi dəfn olunub. Ona görə də Vətən müqəddəsdir. Qazi və şəhid qanı tökülən torpaqlara düşmən ayağı dəyə bilməz. Vətən ata-babalarımızın dəfn olunduğu yerdir. Vətən bədənimizdəki qəlbdir. Qəlbi itirərsək, hər şeyimizi itirərik.

Heç kimin daşında, torpağında gözümüz olmasa da, bu Cənnət Vətənimizə göz dikən xain qonşularımız var. Neçə ki, mənfur, şərəfsiz ermənilərin torpaqlarımızda gözü var, onların bu Dünyada yaşamağa nə şansları, nə də haqları var. Bizim igidlərimizin kitabında qorxaqlıq yazılmayıb. Əcdadlarımız nə qədər qəhrəmandırlarsa, nəsilləri də o qədər qəhrəmandır. Bizlər ata-babadan döyüşkən və qəhrəman xalqıq, qorxunun nə olduğunu bilmərik, köksümüzü gərər, mərminin üzərinə gedərik.

Bu xalqı yenilməz edən "Öncə Vətəndir" deyən, qəlbi Vətən sevgisi ilə döyünən oğullarıdır. Düşmən qarşısında dağ kimi dayanan, savaşdan - savaşa, zəfərdən - zəfərə qoşan oğullarıdır. Biz yatarkən yatmayanlar, addım-addım o çətin dağlardan, yüksək təpələrdən, dərin dərələrdən keçən, gecə-gündüz sərhədlərimizdə göz qırpmadan keşik çəkənlərdir. Onlar ailələrindən uzaq olsalar da, Vətənə daha yaxındırlar. Ölümdən qorxmadan, sağlamlıqlarını

itirmək bahasına da olsa, Vətəni qoruyanlardır. Onlar bir ailənin deyil, bütün xalqın övladlarıdırlar. Hər günü Zəfər dolu 44 günlük Vətən müharibəsinin qəhrəman döyüşçüləridirlər. Onların bir hissəsi fiziki cəhətdən sağlamlığını itirən qazilərdir.

Əziz oxucularım, Qazi sözünün əsl mənasını açıqlayan Türk Silahlı Qüvvətlərinin Albayı (polkovnik) Erhan Altınokun bir tədbirdə səsləndirdiyi fikirləri sizlərin diqqətinə çatdırmaq istəyirəm:

"Qazi nədir bilirsinizmi çocuklar? Qazi – qaza edən (döyüşən), Vətən, millət, torpaq, bayraq üçün savaşan, özündən sonra adını hələ bilmədiyi gənc nəsillər uğruna əlini, qolunu, gözünü verən kişidir. Bir yerindən vurulan və ölməyən, bəlkə hər gün min kərə ölən, amma Vətən üçün yaşamağa davam edən. Ölməyən, amma artıq əli-qolu, ayağı olmayan, gözü görməyən, bəlkə də heç gözü olmayan, yeriyə bilməyən...

Bizim üçün savaşanlara biz sahib çıxmasaq, əlini işlədə bilməyənə əl, yeriyə bilməyənə ayaq, danışa bilməyənə dodaq, görməyənə göz olmasaq, onlara kim sahib çıxacaq.

Nə igidlər gəldi-keçdi bu torpaqlardan – kimi daha heç gülməmişdi, kimi hələ uşaqdı, kimi hələ böyüməmişdi, kiminin sevdası yarım qaldı, kimi də hələ sevda nədi bilməmişdi. O isə sevmək, sevilmək nə gözəl şey, deyilmi? Hələ bir də qarşılığı varsa. Amma qarşılıqsız eşqlər də var bu həyatda – Vətən, torpaq, bayraq, ata-ana kimi. Nə xoş o qarşılıqsız eşqlə vazkeçilməz dəyərlərə ürəkdən inananlara, onları özündən, sevdiyi yardan daha çox sevib, sevə bilənlərə".

Ruhunda müharibənin ağrılı-acılı xatirələri, cismində

qəlpə yaraları ilə yaşayan qazi qardaşlarımıza Allahdan şəfa, döyüşçülərimizə can sağlığı diləyirəm! Allah sizləri qorusun. Xalqımız hər zaman sizinlə fəxr edir, qürur duyur.

Əziz oxucularım, kitabımın bu bölməsi Şanlı Zəfər tariximizi yazan qəhrəman döyüşçülərimizə həsr olunub.

Müstəqil Azərbaycanımız daim var olsun. Üçrəngli bayrağımız daim dalğalansın. Xalq, dövlət və ordu birliyi daim Dəmir yumruq kimi var olsun!



HüseynovElmar Etibar oğlu
Polkovnik-leytenant

1977-ci ildə Sumqayıt şəhərində anadan olub. Sumqayıt şəhər 34 nömrəli orta məktəbi bitirib. 1995-1999-cu illərdə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) artilleriya ixtisası üzrə hərbi təhsil alıb.

2009-2011-ci illərdə Silahlı Qüvvələrin Hərbi Akademiyasında təhsil alıb.

1999-2017-ci illərdə Ağdam, Tərtər, Gədəbəy, Ağstafa, Goranboy və Qusar rayonlarındakı N saylı hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmət edib. 2017-ci ilin iyul ayında ehtiyata buraxılıb.

2020-ci il oktyabrın 20-dən Vətən müharibəsində kö-

nüllü olaraq iştirak edib. II qrup Qarabağ müharibəsi əlilidir.

Hazırda Bakı şəhəri Suraxanı rayon İcra Hakimiyyəti başçısı Aparatında yaradılmış Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri vəzifəsində çalışır.

Elmar bəyin danışdıqlarından:

"Mənim hərbiyə gəlişim bir tale yolu idi. Bu, təsadüfi seçim yox, qətiyyətlə seçilmiş məsələ idi.

Mən şəhid general-mayor Polad Həşimovun Sumqayıtda doğulduğu məhəllədə böyümüş, onun oxuduğu məktəbdə təhsil almışam. İki qardaşım 1-ci Qarabağ müharibəsinin savaşçısı olub. Ailədə yüksək vətənpərvərlik tərbiyəsi görmüşəm. Bütün bunlar mənim hərbçi olmaq istəyimi tamamlayan reallıqlardır.

1993-cü ildə baş verən hadisələr yaxşı yadımdadır. Azərbaycan müstəqilliyini itirmək təhlükəsi qarşısında idi. Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə Bakıya qayıtmışdı. O, Azərbaycanın müstəqil dövlətçiliyini müdafiə etmək üçün radio və televiziya ilə xalqa birbaşa müraciət edirdi. Hətta onun səsində titrəyiş var idi. Anam televizorun qarşısında ağlamağa başladı. Dedi ki, bala, dar günümüzdür, müstəqilliyimiz əldən gedir. Heydər Əliyevə dəstək olmasaq, vay günümüzə...

Xalq ayağa qalxıb Ümummilli Liderə dəstək oldu və Azərbaycan böyük bir bəladan qurtuldu. Ulu öndər Heydər Əliyevin qətiyyətli, müdrik daxili və xarici siyasəti Azərbaycanda silah gücünə dövlət çevrilişi etmək cəhdlərini puça çıxardı. Məhz bu dövrdən sonra Azərbaycanda ordu quruculuğu prosesinə start verildi, vahid komandan-

lıq yarandı. Get-gedə silahlı qüvvələrimizin maddi-texniki bazası gücləndirildi. Mənim hərbiyə olan həvəsim daha da artdı.

1995-ci ildə imtahan verib yüksək balla Ali Hərbi Komandanlıq Məktəbinə daxil oldum. Taqım komandirim sonradan Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş İlqar Mirzəyev (2020-ci ildə Tovuz döyüşlərində şəhid olub) idi. Leytenant İlqar Mirzəyevdən dürüstlüyü, qəhrəmanlığı və hərb sahəsinin sirlərini öyrəndim. Çox yaxın münasibət qurmuşduq. Dolanışıq çətinlikləri ilə rastlaşanda kömək və dəstək üçün İlqar Mirzəyevə müraciət edərdim.

"Azərbaycan Bayrağı" ordenli Ağamir Sultanov (Azərbaycan Silahlı Qüvvələrinin general-mayoru, Raket və Artilleriya Qoşunlarının komandanı) da bizə dərs deyirdi. Yəni biz Azərbaycanın ən savadlı, ən qeyrətli zabitlərindən dərs almışıq və onlardan öyrəndiklərimizi sonralar tətbiq etməklə uğurlar qazanmışıq.

Ulu öndər H.Əliyevin sərəncamı ilə 1998-ci ildə ölkənin ali təhsil müəssisələri üzrə cəmi beş tələbə Prezident təqaüdü aldı ki, onlardan biri də mən idim. Sonra İkinci Gənclər Forumunda iştirak etdim, 1999-cu ildə isə hərbi məktəbi fərqlənmə ilə bitirdim.

Seçimlər zamanı Gəncədəki N saylı artilleriya hərbi hissəsini seçdim və taqım komandiri kimi fəaliyyətə başladım. Çox nizam-intizamlı hərbi hissə idi və mən də bütün qaydalara əməl edən gənc leytenant kimi üzərimə düşən vəzifənin öhdəsindən layiqincə gəlirdim. Çünki intizam olan yerdə ucalıq var, zirvələrə yüksəlmək üçün intizamla



yaşamalısan. Həmin vaxt ordumuzun maddi-texniki bazası yenilənməyə başlamışdı. Yeni müasir silahlar alınırdı və nizamlı ordu yaradılmışdı.

Hər zaman sıranın qabağına keçəndə bir şeyi düşünürdüm; ailədə aldığım tərbiyə, dövlətimin mənə yatırdığı sərmayə və çəkilən əziyyət. Borcumu qaytarmaq zamanı çatmışdı.

Əsgərlərimə həm komandir, həm də böyük qardaş oldum. Lazım gələndə yaralıların köməyinə çatmağa çalışdım, yarasını sarıdım.

2002-ci ildə Ağdamdakı N saylı hərbi hissədə xidmətə başladım. 2003-cü ildə Ulu Öndərin layiqli varisi cənab İlham Əliyev Prezident seçildikdən sonra ordu quruculuğu prosesi daha da sürətləndi. Mənim xidmət etdiyim hərbi hissədə də yenidənqurma prosesi aparıldı və birləşməmiz ən müasir bir struktura çevrildi. Get-gedə yeni silah-sur-

satlar, hərbi texnikalar alındı və ordunun şəxsi heyətinin döyüş hazırlığı səviyyəsi yüksəlməyə başladı.

Ağdamda müxtəlif illərdə ayrı-ayrı hərbi vəzifələrdə çalışdım, daha sonra Tərtərdəki N saylı hərbi hissədə artilleriya rəisi vəzifəsini icra etdim.

Zabit həyatımın ən yaddaqalan hadisələrindən biri Tərtərdə baş verdi. 2008-ci il martın 4-də düşmən cəbhədə təxribat törətdi və hərbi hissəmiz buna layiqli cavab verdi. Mən artilleriya rəisi idim. Düşmən yerləşdiyi mövqelərdən kəndlərimiz istiqamətində qumbaraatanlardan atəş açırdı. Həmin döyüşlərdə iki əsgərimiz şəhid oldu. Bu hadisə məni çox hiddətləndirdi və ordumuzun arsenalına yeni gətirilmiş SPQ-9V silahı ilə düşmənin uzunmüddətli atəş nöqtəsinə atəş açaraq şəxsi heyətlə birlikdə oranı məhv etdik. Düşmən atəşinin intensivliyinin qarşısını almaq üçün minaatan batareyalarımıza əmr verdim və 82 millimetrlik avtomatik minaatan batareyanın ehtiyat atəş mövqeyindən düşmənin atəş nöqtəsinə ümumilikdə 22 ədəd mərmi atıldı. Atəş nəticəsində düşmənin bir ədəd texnikası və onlarla canlı qüvvəsi məhv edildi.

2009-2011-ci illərdə Ali Hərbi Akademiyada iki il dinləyici oldum. 2011-ci ildə Qusardakı N saylı hərbi hissəyə artilleriya rəisi təyin edildim. İki il burada xidmət etdikdən sonra Gədəbəydəki N saylı hərbi hissəyə göndərildim. Postlara qalxarkən yolda qəzaya düşdüm, ayağım qırıldı. Bərpa prosesi çətin oldu. Bir müddət sonra məni Bakıdakı N saylı hərbi hissəyə artilleriya rəisi göndərdilər. Sonra da Heydər Əliyev adına Ali Hərbi Məktəbin Artilleriya kafedrasında artilleriya taktikasından dərs deməyə başladım.

2016-cı ildə Azərbaycan Ordusu uğurlu əməliyyat keçirdi və 1994-cü il Horadiz əməliyyatından 22 il sonra növbəti qələbəmizi qazandıq. Aprel döyüşləri Lələtəpənin, Talış kəndi ətrafındakı yüksəkliklərin və digər strateji məntəqələrin işğaldan azad edilməsi ilə nəticələndi. Bu zəfər Ali Baş Komandanın dünyaya və düşmənə nümayiş etdirdiyi qətiyyətli hərbi və siyasi iradəsi idi. "Məğlubedilməz" erməni mifi darmadağın edildi. Bununla da Ermənistanda iqtidar-müxalifət və vətəndaş qarşıdurması başlandı.

2017-ci ildə ehtiyata buraxıldım və 2018-ci ildə Abşeron rayonu, Xırdalan şəhər 9 saylı tam orta məktəbdə hərbi müəllim kimi çalışmağa başladım. İşlədiyim müddətdə şagirdlərimə Azərbaycan tarixi, döyüş yollarımız, vətənpərvərlik hissinin aşılanması istiqamətində əlimdən gələni əsirgəmədim.

Hər zaman deyirdim ki, bu gün Azərbaycanın qüdrətli ordusu var və həmin ordu istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Çünki, bu ordunun başında güclü sərkərdə var. Əgər əmr verilsəydi, Azərbaycan Ordusu Qarabağı bir neçə günə işğaldan azad edə bilərdi. Bu, bir əminlik idi. Çünki mən bilirdim ki, Azərbaycan Silahlı Qüvvələri nəyə qadirdir. Ordumuzun arsenalında ağır artilleriya raketləri, müasir silah-sursatlar, zərbə dronları, sputnikdən müşahidə aparatları və ən əsas isə şəxsi heyətin yüksək döyüş ruhu var idi. Bütün bunlar Qarabağda savaş aparıb zəfər qazanmağa imkan verirdi. Çox keçmədi, söylədiklərim reallığa çevrildi. 2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin Müzəffər Ordusu düşmən üzərinə yeriyib nəyə qadir olduğunu göstərdi.

Vətən müharibəsi tariximizə ən şanlı səhifə kimi yazıldı. Ermənistan bir daha Azərbaycandan hər sahədə zəif olduğunu anlayıb diz çökdü. Düşmən üzərində əldə edilən hərbi-strateji üstünlük bizi böyük Zəfərə çatdırdı. İgid oğullarımız əks-həmlə əməliyyatlarında cəsarətlə döyüşür, düşməni darmadağın edərək torpaqlarımızı azad edirdi. Prezidentimizin qələbə müjdələri isə xalqı sevinc göz yaşlarına boğurdu. Mən bu dövrdə şagirdlərim və tələbələrim ilə qələbəmizin təbliğatını aparır, eyni zamanda səfərbərlik xidmətinə təkidlə müraciət edib savaşa göndərilməyimi tələb edirdim.

Oktyabrın 3-də dostumla birlikdə Horadizə yollandım. Əsgərlərimizə yardım aparmışdıq. Cəbrayılın Daşkəsən kəndinə qədər gedə bildik. Orada əsgərlərimizlə görüşdük, yardımları payladıq. Zenitçilərlə söhbətləşdim, təcrübəmi bölüşdüm və 10 gün həmin ərazidə qaldım. Bakıya qayıdıb yenə də təkid etdim ki, məni döyüşə göndərsinlər.

Nəhayət, mənə də şans yarandı və oktyabrın 20-də könüllü olaraq döyüşə yollandım. Bu mənim zabit borcum idi.

Tərtərdə artilleriya rəisi kimi çalışdığım hərbi hissəyə getdim. Çünki həmin istiqamətdə düşmənin bütün komanda müşahidə məntəqələrini, möhkəmləndirdiyi postları əzbər bilirdim. Məni yenə də artilleriya rəisi təyin etdilər. Birinci Qarabağ müharibəsində həmin istiqamətdə döyüşən Tərtər qazilərini bir araya toplayıb müzakirə apardım. Çünki həmin istiqamətdə düşmənin dərinlikdə olan əsas mövqelərini döyüşən qazilər yaxşı bilirdilər. Xeyli məlumat topladıqdan sonra artilleriya bölmələrinin komandirlərinə müvafiq göstərişlər, koordinatlar verdim.

Hədəfləri bir-bir müəyyənləşdirib raket zərbələri ilə məhv etdik. Ağdərə istiqamətində olan düşmənin hərbi hissələrini darmadağın edib külünü göyə sovurduq.

Düşmənin üstün olan qüvvələrinə, iki dağatıcı alayın divizionlarına və əlahiddə minaatan batareyalarına qarşı hərbi hissənin artilleriya bölmələrini düzgün bölüşdürməklə tabeçiliyimdə olan bölmələri məharətlə idarə etdim. Ağdam rayonunun Güllücə, İlxıçılar və Papravənd istiqamətlərindən Suqovuşan, 530 yüksəkliyinə qədər olan düşmən hədəflərinin düzgün planlanması, dəqiq atəşlərin aparılması nəticəsində düşmənə ağır zərbələr endirdik.

Bundan başqa, bütün radiostansiyaların tezliklərini dəyişdirdim. Çünki düşmən şəhid zabitlərimizin üstündə olan rabitə vasitələrini götürüb bizim komandaları dinləyir və əvvəlcədən tədbir görürdü.

Suqovuşan düşməndən azad olunsa da, orada tək-tək düşmən dəstələri yüksəkliklərin arxasından minaatanlarla bizim bölmələrimizə atəş açırdılar. Bir qədər müşahidə apardıqdan sonra düşmənin yerini müəyyənləşdirdik və göstərişimlə həmin əraziyə sızma əməliyyatı həyata keçirildi. Düşmən artilleriyasını qoyub qaçdı. Oradan 4 ədəd minaatan qənimət kimi götürüldü.

Noyabrın 8-də xəbər gəldi ki, artıq Şuşa düşməndən təmizlənib və atəşkəs elan olunub. Növbəti gün isə Ermənistan rəsmən təslim oldu. Böyük sevinc, qürur hissi keçirdik. Biz 30 ildən sonra böyük Zəfər qazanmışdıq. Axı illərlə bu günü gözləmişdik, bu gün üçün çalışmışdıq.

Bu qələbəni İlham Əliyevin sərkərdə qətiyyəti ilə qazandıq. Bu, sadəcə, bir qismət idi. Tanrı bizə 30 ildən sonra xilaskar lider nəsib etmişdi və onun komandanlığı altında

xalq-ordu birliyi yarandı, Azərbaycan dövləti işğalçı Ermənistana, onun havadarlarına əsl gücünü göstərdi.

Noyabrın 20-də Ağdam bir güllə atmadan düşməndən azad edildi. İlk olaraq bizim hərbi hissəmiz Ağdama daxil oldu. Şəhərdəki məscid dağıdılmışdı. Minarəyə qalxıb Azərbaycan və Türkiyə bayrağını sancdım. Sonra aşağı düşdüm və kiçik bir yeri əlimlə təmizləyib orada namaz qıldım.

Üç gündən sonra – noyabrın 23-də Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Ağdama səfər etdilər. Prezident və Mehriban xanım əllərində Məkkədən gətirilən "Qurani-Kərim"lə məscidə daxil oldular.

Vətən müharibəsi bizim milli kimliyimizi, namus və şərəfimizi özümüzə qaytardı. Prezident İlham Əliyevin 17 il ərzində həyata keçirdiyi xarici siyasət, hücum diplomatiyası, Mehriban xanım Əliyevanın Azərbaycan həqiqətlərinin dünyaya tanıdılması istiqamətində gördüyü böyük işlərin hamısı Vətən müharibəsindəki qələbənin təməlini qoydu. İllərlə çəkilən əziyyət sonda bəhrəsini verdi. Dünya Azərbaycan həqiqətlərini gördü və tanıdı, Ermənistanın işğalçı olduğu isbatlandı. Bu, cənab İlham Əliyevin yürütdüyü siyasətin təntənəsi idi.

Ali Baş Komandan bu savaşda təkcə sərkərdə məharətini deyil, diplomatik bacarığını da dünyaya nümayiş etdirdi. Suqovuşanı, Cəbrayılı, Zəngilanı, Füzulini, Qubadlını, Hadrutu, Şuşanı savaşaraq azad etdiksə, Ağdamı, Kəlbəcəri, Laçını bir güllə atmadan düşməndən geri aldıq. Bu, bəlkə də, çoxlarına adi məsələ kimi gələ bilər, amma İlham Əliyev mümkün olmayanı reallaşdırdı.

Əminliklə deyirəm ki, bu hələ son deyil. Qarşıda bizi daha böyük uğurlar, zəfərlər gözləyir. 44 günə Qarabağı azad edən Ali Baş Komandan Azərbaycanı daha möhtəşəm gələcəyə aparır. Biz xoşbəxt insanlarıq ki, Azərbaycana İlham Əliyevin rəhbərlik etdiyi illərdə yaşayırıq. Əsrlər öncə vətəndaşlarımız Azərbaycanın qüdrətli sərkərdələri Şah İsmayıl Xətainin, Nadir şahın dövründə yaşayıb və onlarla fəxr ediblər. Mən də fəxr edirəm ki, İlham Əliyev kimi sərkərdənin rəhbərliyi ilə reallaşan Vətən müharibəsində iştirak etmişəm və indi vicdanı təmiz, alnıaçıq həyat sürürəm. Buna görə də Ali Baş Komandanıma minnətdaram.

Hər bir xalqın tarixində xilaskar rolunu oynayan lider var. O lider xalqının taleyüklü məsələsinin həllində xilaskarlıq missiyasını üzərinə götürüb cəsarət nümayiş etdirir və adını əbədi olaraq dövlətinin şanlı tarixinə yazdırır.

Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, xalqın 30 illik həsrətinə son qoyan Prezident İlham Əliyev həmin liderlərdəndir. Çünki, məhz İlham Əliyevin sərkərdəliyi ilə çoxlarının qeyri-mümkün hesab etdiyi Qarabağ münaqişəsi cəmi 44 günə həll olundu. Uzun illər dünya dövlətlərinin əksəriyyətinin himayə etdiyi işğalçı Ermənistan İlham Əliyevin hərbi-siyasi diplomatiyası qarşısında diz çökdü.

Bu gün bizlərə müharibə qəhrəmanları deyirlər. Əslində isə əsl qəhrəman Ali Baş Komandanımızdır. Biz döyüşün qazisiyik, bu şanlı qəhrəmanlıq dastanını yazan isə qalib sərkərdəmizdir. Komandanımızın dönməz iradəsi, qətiyyətli qərarı ilə xalqımız 30 ilədək davam edən bir ləkəni üstündən təmizlədi. Əgər bu gün alnımız açıq, ba-

şımız dikdirsə, buna görə Baş Komandanımıza minnətdar olmalıyıq".

Təltifləri:

"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10, 90, 95, 100 illik" Yubiley medalları

"1-ci, 2-ci və 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalları

"Hərbi xidmətdə fərqlənməyə görə" medalı.

Bağırov Vüqar Vaqif oğlu
Tibb xidməti
polkovnik-leytenantı



1970-ci il dekabrın 8-də Gəncə şəhərində anadan olub. 1987-ci ildə Daşkəsən şəhər A.S.Puşkin adına 2№-li orta məktəbi bitirib. 1988-ci ildə Sovet Ordusu sıralarına həqiqi hərbi xidmət keçmək üçün çağırılıb. 1990-cı ildə Sankt-Peterburqda S.M.Kirov adına Hərbi Tibb Akademiyasına qəbul olunub. 1997-ci ildə həmin Akademiyanın "Cərrahiyyə" kursunu bitirib. 1997-ci ildən 2000-ci ilə qədər Rusiya Federasiyasının Silahlı Qüvvələrində hərbi xidmətdə olub. 2000-ci ilin avqust ayında vəzifə ixtisarına görə Rusiya Federasiyasının Silah-

lı Qüvvələrindən tərxis olunub. 2000-ci ilin noyabr ayında Azərbaycan Respublikası Silahlı Qüvvələrində hərbi xidmətinə davam etməyə başlayıb. 2000-ci ilin noyabr ayından 2004-cü ilin iyun ayınadək Füzuli hərbi hospitalının STQ-sinin cərrahiyyə bölmə rəisi, 2004-cü ilin iyun ayından 2006-cı ilin noyabr ayınadək 2-ci ordu birliyinin tibb xidməti rəisi, 2006-cı ilin noyabr ayından 2010-cu ilin yanvar ayınadək Füzuli Hərbi Hospitalının komandiri, 2010-cu ilin yanvarından 2010-cu ilin noyabrınadək Ağcabədi N saylı hərbi hissənin tibbi təminatına cavabdeh zabit, 2010-cu ilin noyabr ayından 2012-ci ilin iyun ayınadək Beyləqan N saylı hərbi hissənin tibbi təminatına cavabdeh zabit, 2012-ci ilin iyun ayından 2015-ci ilin fevral ayınadək Lənkəran hərbi hospitalının cərrahiyyə bölməsində baş ordinator vəzifəsində xidmətinə davam edib. 2015-ci ilin fevral ayından öz arzusu ilə Silahlı Qüvvələrin sıralarından tərxis olunub. 2015-ci ilin mart ayından Füzuli Diaqnostika Mərkəzinin konsultativ poliklinika şöbəsinin müdürü vəzifəsinə təyin olunub və həkim-cərrah fəaliyyətini davam etdirib.

2016-cı ilin Aprel döyüşlərində xəstə və yaralılarımıza ilk tibbi yardımın göstərilməsində tibb xidmətinin işini təşkil edib və yaxından iştirak edib.

26.06.2016-cı il tarixində N saylı hərbi hissənin komandiri General-mayor Mayis Bərxudarov tərəfindən "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatları zamanı arxa cəbhədə xidməti vəzifələrini layiqincə yerinə yetirdiyinə görə" Fəxri Fərmanla təltif olunub.

2020-ci ildə Vətən müharibəsindən bir ay öncə, ehti-

yatdan yenidən ordu sıralarına qayıdıb və Kəlbəcərin, Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə arxa cəbhədə tibb xidmətinin təşkilini həyata keçirib. Bir cərrah olaraq yaralılarımıza tibbi yardım göstərilməsində yaxından iştirak edib. Müharibə bitdikdən sonra öz daimi iş yerinə qayıdıb. Hal-hazırda Füzuli Mərkəzi Xəstəxanasının tibb xidmətinin keyfiyyətinə nəzarət komitəsinin rəhbəri vəzifəsində işləyir.

Təltifləri:

"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)" yubiley medalı.

Əmr № 027t. 21.06.2006.

"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918–2008)" yubiley medalı. Əmr № 0140t. 19.07.2008.

"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı. Əmr № 0101t

24.06.2013.

"Qüsursuz Xidmətə Görə" 3-cü dərəcəli medal. Əmr № 096t. 24.06.2019.

"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 671s. 05.11.2022.



Vahabov Faiq Saroğlan oğlu
Mayor

1979-cu il dekabrın 28-də Biləsuvar rayonunun Əsgərabad kəndində anadan olub. 1996-cı ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi bitirib. Elə həmin il Azərbaycan Beynəlxalq Universitetinin Hüquq fakültəsinə daxil olub, 2000-ci ildə universiteti bitirib. 2001-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb, 2002-ci ildə ordu sıralarından tərxis olunub. 2003-cü ildən hərbi xidmətdədir - Biləsuvar, Lənkəran, Ucar, Gəncə şəhərinin Kəpəz rayonu, Bakı şəhərində Xidmətin Mərkəzi Aparatında xidmət edib. 2020-ci ilin iyul ayından 2021-ci ilin avqust ayınadək SHXÇDX-nın Daşkəsən rayon bölməsinin rəisi vəzifəsində xidmət edib. Vətən müharibəsi başlayandan öz hərbi vəzifələrini layiqincə yerinə yetirib.

Faiq Vahabovun danışdıqlarından:

"Vətən müharibəsi başlayandan bölməmiz tərəfindən "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin imzaladığı Sərəncamdan irəli gələn vəzifələrin mütəşəkkil qaydada icrası təmin edildi. Təsdiq edilmiş planlara uyğun olaraq hərbi vəzifəlilərin səfərbərlik üzrə



hərbi xidmətə çağırılması həyata keçirildi. Bölməmiz tərəfindən ehtiyatda olan birinci dərəcəli hərbi vəzifəlilər – əsgərlər, çavuşlar, gizirlər və zabitlərin hərbi rütbəsindən asılı olaraq ordunun komplektləşdirilməsinə cəlb olunması, toplanılaraq hərbi hissələrin qəbul məntəqələrinə göndərilməsi, Silahlı Qüvvələrin sifarişləri əsasında tələb olunan sayda hərbi-nəqliyyat vasitələri ilə təmin olunması Xidmətimiz tərəfindən müvəffəqiyyətlə icra edildi.

Müharibə başlayan gündən rütbəsindən asılı olmayaraq bütün Daşkəsən hərbçiləri – bütün şəxsi heyətimiz yüksək peşəkarlıq, şücaət, fədakarlıq və cəsarətlə, qisas və qələbə hissi ilə torpaqlarımızı işğaldan azad etmək uğrunda müqəddəs borcunu yüksək peşəkarlıqla yerinə yetirdi. Bu döyüşlərdə yaralananlarımız da oldu, şəhidlərimiz də. Bütün yaralılarımızın təxliyyəsində, şəhidlərimizn qarşılanmasında və dəfnində fəal iştirak etmişəm.

44 günlük Vətən müharibəsi zamanı torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş, şəhid olmuş, xəsarət almış və Azərbaycan Respublikası Prezidenti tərəfindən təltif edilmiş şəxslərə dair bölməmizə daxil olmuş orden, medal və onların vəsiqələrinin aidiyyəti şəxslərə təqdim edilməsini təmin etmişik.

Hal-hazırda SHXÇDX-nın Ağcabədi rayon şöbəsinin rəis müavini – bölmə rəisi vəzifəsində xidmət edirəm".

Təltifləri:

2008-ci ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi " yubiley medalı

2013-cü ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi " yubiley medalı

2014-cü ildə "Qüsursuz xidmətlərə görə" 3-cü dərəcəli medalı

2019-cu ildə "Qüsursuz xidmətlərə görə" 2-ci dərəcəli medalı

2021-ci ildə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı

2021-ci ildə Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin - 25 il medalı

2021-ci ildə "Milli Ordu 100 illiyi" medalı

2023-cü ildə "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin 10 illiyi" yubiley medalı.



Məmmədov Turxan
Ələddin oğlu
Kapitan

1991-ci il dekabrın 12-də Gəncə şəhərində anadan olub. 2006-cı ildə Daşkəsən rayonunun Quşçu kənd Əli İsmayılov adına tam orta məktəbinin 9-cu sinfini bitirib. Elə həmin il də Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub.

2009-cu ilin fevralında Silahlı Qüvvələrin daşqaldırma birinciliyində Hərbi Liseyin kursantı olan Turxan da iştirak edib. O, 70 kq çəki dərəcəsində daha yüksək fiziki hazırlıq və texnikaya malik olduğunu göstərib və birinciliyin qızıl medalına layiq görülüb. O, hər əli ilə 24 kiloqramlıq daşı 42 dəfə başı üzərinə qaldırıb, təkanla isə 26 nəticə göstərib.

2009-cu ildə liseyi bitirib və elə həmin il də Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub, 2013-cü ildə həmin məktəbi motoatıcı ixtisası üzrə bitirib.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 25.07.2013-cü il tarixdən 24.06.2014-cü il tarixədək fəaliyyət göstərən motoatıcı taqım komandiri kursunu bitirmişdir.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 23.06.2016-cı il tarixdən 29.07.2016-cı il tarixədək fəaliyyət göstərən motoatıcı bölük komandiri kursunu bitirmişdir.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 27.12.2017-ci il tarixdən 10.02.2018-ci il tarixədək fəaliyyət göstərən motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini kursunu bitirmişdir.

23.06.2014-cü il tarixdən 15.06.2020-ci il tarixədək Ağcabədi rayon N saylı hərbi hissədə taqım komandiri, bölük komandiri, tabor komandirinin maddi-texniki təminat üzrə müavini vəzifəsində işləyib.

26.02.2000-ci il tarixində Azərbaycan Respublikasının Müdafiə Naziri general-polkovnik Səfər Əbiyev tərəfindən "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daşqaldırma üzrə birinciliyində N saylı hərbi hissənin yığma komandasının üzvü olaraq 70 kq çəki dərəcəsində I qrupda I yeri tutduğuna görə" Fəxri Fərmanla, 24.02.2011-ci il tarixində isə 80 kq çəki dərəcəsində I yeri tutduğuna görə" Fəxri Fərmanla təltif olunub.

2016-cı il Aprel döyüşlərində bölük komandiri vəzifəsində iştirak edib.

2020-ci il iyulun 12-dən 24-dək davam edən Tovuz döyüşlərində tabor komandirinin maddi-texniki təminat üzrə müavini vəzifəsində iştirak edib.

15.06.2020-ci il tarixdən 16.09.2020-ci il tarixədək Tovuz rayon N saylı hərbi hissədə tabor komandirinin maddi-texniki təminat üzrə müavini vəzifəsində işləyib.

16.09.2020-ci il tarixdən 15.11.2021-ci il tarixədək Göygöl rayon N saylı hərbi hissədə tabor komandirinin müavini – taborun qərargah rəisi vəzifəsində xidmət edib.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Kəlbəcər istiqamətində gedən döyüş əməliyyatlarında iştirak edib. Oktyabrın 1-də yaxın-

lığında minaatan mərmisinin partlaması nəticəsində ağır qəlpə yaraları alıb. Onu Göygöl rayonunun Buzluq yaşayış məntəqəsinə təxliyyə ediblər. İlkin tibbi yardım göstərildikdən sonra, vəziyyəti ağır olduğundan Gəncə Mərkəzi Xəstəxanasına təxliyyə ediblər. Orada qarın boşluğundan və sağ qolundan əməliyyat olunub. 32 gün müalicə olunduqdan sonra evə göndəriblər, müalicəsinə ev şəraitində davam edib. Aprel ayında sağ qolundan təkrar əməliyyat olunub, sağ ayağından sağ qoluna 12 sm sümük köçürülüb.

2021-ci ilin noyabrında ordu sıralarından tərxis olunub.

08.07.2022-ci ildə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Azərterminalkompleks Birliyinin Tikinti və Təchizat şöbəsində inspektor vəzifəsinə təyin olunub.

02.08.2022-ci ildə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Qərb Ərazi Baş Gömrük idarəsinə inspektor kimi təhkim olunub. Hal-hazırda həmin Baş idarədə növbətçi hissədə çalışır. Gömrük Xidmət kapitanıdır. Evlidir, iki oğul övladı var. Gəncə şəhərində yaşayır, Daşkəsən rayonunun Quşçu kəndində daimi qeydiyyatdadır.

Təltifləri:

"Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)" Yubiley medalı. Əmr № 0163t. 26.06.2018.

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Əliyev Ceyhun
Məşdi oğlu
Baş leytenant

1988-ci il iyunun 24-də Daşkəsən rayonunun Aşağı Daşkəsən qəsəbəsində anadan olub. 2005-ci ildə Aşağı Daşkəsən qəsəbəsi, Gündüz İsmayılov adına tam orta məktəbi bitirib. 2005-ci ildə Gəncə Dövlət Universitetinin qiyabi şöbəsinə daxil olub, 2010-cu ildə bitirib. 2006-cı il yanvarın 3-də Daşkəsən RHK tərəfindən həqiqi xidmətə çağırılıb, 2008-ci ildə hərbi xidmətini başa vurub.

14.01.2010-cu ildən 10.11.2016-cı ilədək xüsusi təyinatlı və kəşfiyyat bölmələrində kəşfiyyatçı vəzifələrində xidmət edib.

10.11.2016-cı ildə Ehtiyat Zabit hazırlıq kursuna daxil olub, 14.02.2017-ci ildə bitirib. Həmin ildən zabit kimi bir çox hərbi hissələrdə xidmətini davam etdirib.

24.06.2020-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik Əflatun Nurəliyev tərəfindən hərbi hissənin komandiri adından Ceyhuna ad günü münasibətilə Təbriknamə təqdim olunmuşdur.

21.03.2020-ci ildə N saylı hərbi hissənin komandiri polkovnik Əflatun Nurəliyev tərəfindən "Novruz Bayramı" münasibəti ilə, 24.05.2020-ci ildə "Ramazan Bayramı" mü-

nasibəti ilə döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi yüksək nəticələrə və yüksək hərbi intizama nail olduğuna görə Fəxri Fərmanlarla təltif olunmuşdur.

23.05.2020-ci ildə N saylı hərbi hissənin komandiri polkovnik Əflatun Nurəliyev tərəfindən Hərbi hissədə "Ən intizamlı və döyüş yoldaşlığı möhkəm olan post" adı uğrunda müsabiqəsində əldə etdiyi yüksək nəticələrə görə Fəxri Fərmanla təltif olunmuşdur.

Vətən müharibəsi başlayan gündən Daşkəsən - Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Ceyhunun danışdıqlarından:

"2020-ci il sentyabrın 27-də yüksəklikdə yerləşən düşmən postundan olan hücumun qarşısını almaq üçün əks-hücum əməliyyatına keçdik və düşmənə xeyli itki verdik. Posta çatmağa 15-20 metr qalmış mühasirəyə düşdük, yeddi saat mühasirədə qaldıq, sonra hava şəraitinin sıx duman olmasından istifadə edərək mühasirədən çıxmağı bacardıq və öz mövqeyimizə qayıtdıq. Oktyabrın 2-də bizi növbəti tapşırıqla şərti adı Ağdağ olan başqa post istiqamətinə göndərdilər. Orda düşmənin bir neçə canlı qüvvəsini məhv etdik və düşmən postunun yaxınlığında düşmən snayperi ilə sol qolumdan yaralandım. Güllə qolumu dağıdaraq ürəyimin üstündə qaldı. Hər iki ayağımdan isə güllə və qəlpə yarası aldım. Mənim yaralarım çox olduğu üçün həmin ərazidən çıxa bilmədim, döyüş yoldaşım Baş leytenant İntiqam İsmayılova dedim ki, artıq vəziyyətim pisdir, sən məni qoy, get. Sənə vəsiyyətim budur ki, gedərsən bizə, övladlarıma və atama deyərsən ki, oğlun qəhrəmancasına döyüşdü, heç nədən qorxub, çəkinmədi... Mən özümü partlatmaq istəyirdim, o isə im-

kan vermədi, dedi ki, ölsəm sənlə birgə öləcəm, qalsam sənlə qalacam, amma səni heç vaxt bu vəziyyətdə, yaralı halda qoyub getmərəm, nəyin bahasına olursa-olsun səni ərazidən çıxardacam. Dediyi kimi də etdi – mənə ilk yardım göstərərək, yaralarımı sarıdı və 600 metr məsafədən təhlükəsiz əraziyə gətirdi. Orada mənə ilkin tibbi yardım göstərilərək, təcili yardım maşını ilə Daşkəsən rayon Mərkəzi Xəstəxanasına gətirdilər, tibbi yardım göstərildikdən sonra Gəncə şəhər Abbas Səhhət adına xəstəxanaya göndərdilər. Orada bir ay müalicə olundum, sonra müalicəmi ev şəraitində davam etdirdim. Hal-hazırda sol ayağımda qəlpə qalıb, sol qolumun sağalması mümkün olmadığı üçün protez qoyuldu. Türk həkimləri tərəfindən ürəyimin üstündə ilişib qalan güllə isə çıxarıldı".

Təltifləri:

"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi" Yubiley medalı.
Əmr № 0107t. 24.06.2013.
"Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Yubiley medalı.
Əmr № 0178t. 26.06.2018.
"Qüsursuz xidmətə görə 3-cü dərəcəli" medalı. Əmr № 0139t. 26.06.2019
"Döyüşdə fərqlənməyə görə" medalı. Sərəncam № 2354. 18.12.2020.
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

İbrahimov Zahir Əli oğlu
Baş leytenant



1977-ci il sentyabrın 7-də Ermənistan Respublikasının Basarkeçər rayonunun Canəhməd kəndində ziyalı ailəsində anadan olub. 1988-ci ildə ermənilərin təcavüzü nəticəsində vətəni tərk etmişlər. Həmin ildən etibarən Azərbaycan Respublikasının Daşkəsən rayonunda yaşayırlar. 1994-cü ildə Mikayıl Mustafayev adına Bayan kənd tam orta məktəbini bitirib. 1995-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasına daxil olub, 1999-cu ildə bitirib. 2000-ci ildə Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb və hərbi xidmətini düşmənlə üzbəüz yerləşən Xocavənd rayonu istiqamətində Baş leytenant taqım komandiri vəzifəsində yerinə yetirib. 2002-ci ilin dekabrında tərxis olunub.

Vətən müharibəsi başlayanda Vətənə olan borcunu yerinə yetirmək və müharibədə iştirak etmək üçün ordu sıralarına qatılıb. Artilleriya idarəetmə taqım komandiri kimi vəzifə borcunu yerinə yetirib. Qazax, Tovuz istiqamətində müdafiə bölgəsində və Kəlbəcərdə xidmət edib, 2020-ci il dekabrın 30-da tərxis olunub.

Hal-hazırda Daşkəsən rayon Poçt filialının Baş mühasibi vəzifəsində işləyir.



Məmmədov Elxan
Şəmiddin oğlu
Baş leytenant

1971-ci il iyunun 1-də Göyçə mahalının (Ermənistan SSR-in) Basarkeçər rayonunun Ağkilsə kəndində anadan olub. 1988-ci ildə orta məktəbi bitirib. 1988-ci ildə erməni vəhşiliyi ucbatından dədə-baba yurdunu tərk edərək ailəsi ilə birlikdə Daşkəsən rayonunun Bayan kəndində məskunlaşmışdır. 1988-1993-cü illərdə Azərbaycan Dövlət Universitetinin Tətbiqi Riyaziyyat fakültəsində təhsil alıb.

1994-cü il aprelin 23-dən 1996-cı il oktyabrın 26-dək N saylı hərbi hissədə xidmət etmişdir. Xidmət etdiyi müddətdə özünü bacarıqlı, qorxmaz bir əsgər kimi göstərmiş, nümunəvi xidmətləri ilə daim döyüşçü yoldaşlarından fərqlənmişdir. Torpaqlarımızın bütövlüyü, respublikamızın suverenliyinin təmin olunması naminə əlindən gələn köməyi əsirgəməyib. O, 1994-cü il aprelin 23-dən 1994-cü il mayın 12-dək Goranboy rayonunun Gülüstan, Tapqaraqoyunlu kəndləri istiqamətində erməni silahlı birləşmələrinə qarşı döyüş əməliyyatlarında fəal iştirak etmiş, özünün qorxmaz döyüşçü olduğunu həmin döyüşlər zamanı sübut etmişdir. 1994-cü ilin mayından 1996-cı ilin oktyabrınadək müharibədə olmuş, atəşkəsdən sonra postlarda durmuşdur.

Komandir və rəislərinin hər bir tapşırıq və əmrlərini vaxtında və bacarıqla yerinə yetirmişdir. Özünün səmimiliyi, qayğıkeşliyi və təvazökarlığına görə komandanlığın və şəxsi heyətin dərin hörmətini qazanmış, dəfələrlə komandanlığın təşəkkürlərinə layiq görülmüşdür.

1998-ci ildən 2020-ci ilədək Daşkəsən rayonunda Mikayıl Mustafayev adına Bayan kənd tam orta məktəbində müəllim işləyib. 2020-ci ildə ailəsi ilə birlikdə Şəmkir rayonuna köçüb, Şəmkir rayonunda Kəlbəcər rayon 74 saylı ümumi orta məktəbdə müəllim işləyib.

Vətən müharibəsi başlayanda ehtiyatda olan artillerist zabit - leytenant kimi müharibəyə çağırılıb. 44 günlük müharibədə Kəlbəcər-Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak edib və növbəti hərbi rütbə - Baş leytenant rütbəsi ilə təltif olunub.

Elxan müəllimin danışdıqlarından:

"2020-ci il sentyabrın 21-də ehtiyatda olan zabit kimi ordu sıralarına qoşuldum. Bir həftə təlimdən sonra, sentyabrın 27-də Daşkəsən - Kəlbəcər istiqamətində "özü yeriyən top batareyasında (haubitsa) ikinci atəş taqım komandiri kimi döyüşlərə başladım. Döyüşlər çox ağır şəraitdə keçirdi. Belə döyüşlərin birində toplardan biri vuruldu və bir əsgərimiz şəhid oldu. Bu istiqamətdə gedən döyüşlərdən sonra, oktyabrın 6-dan etibarən Cəbrayılın müdafiəsi uğrunda gedən döyüşlərə qatıldım. Cəbrayıl rayonunun Masallı, Tumas, Dağtumas və s. kəndlərində atəş mövqeləri qurduq. Bundan sonra Qubadlı rayonunun azad olunması uğrunda gedən döyüşlərdə iştirak etdim. Qubadlı rayonunun Balasoltanlı kəndində atəş mövqeyi qurduq. Qubadlı rayonunun azad olunması və Laçın dəh-

lizinin müdafiəsi uğrunda top mərmiləri atdıq. Noyabrın 13-dən Qubadlı rayonundan Kəlbəcər rayonuna getdik. Bundan sonra Kəlbəcər rayonunun azad olunması uğrunda döyüş istiqamətlərində iştirak etdim və bütün bunlar üçün mənə Baş leytenant rütbəsi təsis olundu".

Təltifləri:
"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.



Mirzəyev Rəşad
Ələddin oğlu
Baş leytenant

1978-ci il martın 29-da Gədəbəy rayonunun Arabaçı (hal-hazırda Çiçəkli) kəndində anadan olub. 1995-ci ildə Arabaçı kənd tam orta məktəbini bitirib. 1995-1999-cu illərdə M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat və Kibernetika" fakültəsində ali təhsil alıb. 1999-cu ildə Daşkəsən rayon Zəylik kənd tam orta məktəbində riyaziyyat-informatika müəllimi kimi əmək fəaliyyətinə başlayıb. 2000-2002-ci illərdə N saylı hərbi hissədə leytenant hərbi rütbəsində taqım komandiri kimi

hərbi xidmətdə olub. Hərbi xidməti bitirdikdən sonra Zəylik kənd tam orta məktəbində müəllim kimi fəaliyyətini davam etdirib. 2009-cu ildən həmin məktəbin direktoru vəzifəsində işləyir. İki övladı var.

Vətən müharibəsinin ilk günlərindən baş leytenant hərbi rütbəsində artilleriya taqım komandiri kimi aktiv döyüşlərə qatılıb. Kəlbəcər, Cəbrayıl, Zəngilan, Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak edib. 2020-ci il dekabrın 31-də ordu sıralarından ehtiyata buraxılıb.

Rəşad müəllimin danışdıqlarından:

"2020-ci ilin iyul hadisələri yüzlərlə vətənpərvər Azərbaycan övladları kimi, məndə də düşməndən qisas almaq, əzəli torpaqlarımızı işğaldan azad etmək hissini alovlandırdı. Mənim bu istəyim sentyabrın 21-də reallaşdı. Belə ki, 5 günlük təlimdən sonra taqım komandiri kimi hərbi əməliyyatlarda iştirak etməyə hazır idim. 2 gün sonra əks-hücum əməliyyatları başladı və mən aktiv döyüşlərə qatıldım.

İlk günlər Daşkəsən-Kəlbəcər istiqamətindəki döyüşlərə qatıldım. Daha sonra yuxarı komandanlığın əmri ilə Cəbrayıl, Zəngilan, Qubadlı istiqamətində gedən döyüş əməliyyatlarında iştirak etdim. Mənim üçün ən böyük motivasiya illərdir həsrətini çəkdiyimiz torpaqlara ilk ayaq basan Vətən övladlarından birinin də mənim olmam idi. İnsan qürur hissi keçirir. İllərdir barəsində işğal altındakı torpaqlarımız kimi danışdığımız yerlərə ayaq basırdıq.

Əlbəttə, müharibə barəsində xoş sözlər söyləyə biləcəyimiz bir məfhum deyil. Vətən müharibəsi də hər bir Azərbaycan övladı üçün sadəcə çarəsizlikdən doğan zərurət idi. Və bu zəruri addımın atılmasında hər kəs canla-başla iştirak etdi.

Mənim üçün də bu müharibədə iştirak etmək şərəf idi. Nəinki mən, elə oradakı hər kəs üçün. Hamının yalnız bir məqsədi, bir hədəfi vardı: "İrəli, yalnız irəli!" Çünki irəlidə də bizim öz torpaqlarımız idi. Bir qarışı da düşməndə qalmamalı idi. Kimin nə vaxt öləcəyini, hansımızın bu savaşdan sağ çıxacağını bilmirdik. Bir onu bilirdik ki, dayanmaq, geri çəkilmək, güzəştə getmək olmaz! Nəticəsi fərd olaraq bizim üçün nə olacağından asılı olmayaraq, torpaqlarımızı geri almaqda qərarlıydıq. İllik yox, neçə əsrlik erməni bəlasından birdəfəlik qurtarmağa çalışırdıq.

Döyüşdə insan fərqli hisslərlə hərəkət edir. Biz gözümüzün qarşısındakı ölümlərdən təsirlənirdik. Ancaq bu ölümlər bizim gözümüzü qorxutmur, əksinə, bizi daha çox qisas almağa sövq edirdi. Və belə də oldu. Biz öz döyüş yoldaşlarımızın, xalqımızın qisasını şərəfsiz düşməndən layiqincə aldıq".

Təltifləri:

"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

31.12.2020-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Ramiq Əliyev tərəfindən "2020-ci tədris ilində əldə etdiyi nailiyyətlərə görə, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibəti ilə" Fəxri Fərmanla təltif olunub.

Musayev Əli Vilayət oğlu
Baş leytenant



1961-ci il iyunun 1-də Daşkəsən rayonunun Əmirvar kəndində anadan olub. 1978-ci ildə Əmirvar kənd tam orta məktəbini bitirib. 1979-cu ilin noyabrında Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Ermənistanın Abovyan rayonunun Lusakert kəndində yerləşən hərbi hissənin piyada qoşununda manqa komandiri vəzifəsində xidmətə başlayıb. Bir müddət sonra rota komandirinin müavini, daha sonra baş serjant vəzifəsində xidmət edib. 1981-ci ilin noyabrında tərxis olunub, Daşkəsənə qayıdıb. 1982-ci ilin axırlarınadək Daşkəsəndə sürücü işləyib, sonra Rusiyanın Krasnoyarsk vilayətinə işləməyə gedib. 1983-cü ilin yayında Özbəkistana - Daşkəndə gəlib orada KamAZ sürücüsü işləyib. Oradan N.Nərimanov şəhərinin hərbi komissarlığı tərəfindən Buxara şəhərinə zabitlik kursuna göndərilib. Elə həmin ildə kursu bitirib, baş çavuş kimi Əfqanıstan müharibəsinə piyada qoşununa göndərilib. Müharibədə bir ay döyüşdükdən sonra yaxınlıqda partlayan mərminin qəlpəsndən ayağından yaralanıb, ilkin tibbi yardım göstərilərək yenidən Buxaraya qaytarılıb. 1984-cü ilin əvvəllərində oradan Daşkəsənə gəlib, Baş leytenant vəsiqəsini Daşkəsənə gön-

dəriblər. Daşkəsəndə müxtəlif işlərdə işləyib. 1992-ci ilin mart ayının 16-da Daşkəsən rayonunun Kobalt qəsəbəsində özünü müdafiə batalyonu yaradıb, taqım komandiri vəzifəsində Gədəbəy rayonunun Başkənd kəndinin azad edilməsi uğrunda əməliyyata rəhbərlik edib. Həmin kəndi azad etdikdən sonra yaxınlıqdakı yüksəklikləri ələ keçiriblər. Mövqeləri yenidən bərpa etdikdən sonra dəstəsi ilə birgə Daşkəsənə qayıdıblar. Bir ay sonra 1993-cü ilin yanvar ayında Kəlbəcərin müdafiəsi uğrunda döyüşlərə qatılıblar. Əli kəşfiyyat qrupunun rəisi vəzifəsində idi, orada 15 kənd azad etmişdilər. Təəssüf ki, həmin kəndlər də boşaldılaraq təkrar ermənilərə verildi. Fevralın 12-də bütün briqadalar, həmçinin Əlinin dəstəsi Kəlbəcərin Susuzluq kəndindən dağ yolu ilə Daşkəsənə qayıdıblar. Elə səhərisi gündən yaralıları və donmuş əsgərləri xilas etmək üçün, Əli öz kəşfiyyat qrupu ilə Daşkəsənə gəldikləri istiqamətdən atlarla Kəlbəcərə qayıdıb. Yol boyu dağlarda azaraq donub qalmış əsgərləri atlarla ərazidən çıxarıblar. Fevralın 14-də Daşkəsəndən vertolyotla təkrar Kəlbəcərə qayıdaraq, Susuzluq kəndinin ərazisində olan mal damında qalmış yaralı əsgərləri çıxarıblar. Ondan sonra da həmin vertolyotla Əlinin qrupu aprelin ortalarınadək azıb dağlarda qalmış, donmuş əsgərləri axtarıb taparaq, aidiyyəti üzrə təhvil veriblər. Çalışırdılar ki, səhər hava işıqlaşanda çıxıb, şər qarışanda geri qayıda bilsinlər. Eyni zamanda ələ keçirdikləri sulah-sursatı da gətirərək dövlətə təhvil veriblər. Həmin dövrdə hələ ermənilər həmin dağlara və kəndlərə gəlib çatmamışdılar. Murovdan Kəlbəcərə gedən 701 saylı briqadadan təxminən 150 nəfərədək əsgər sağ

idi, qalanları donaraq dağlarda qalmışdı.

Həmin vaxtdan 2-ci Qarabağ müharibəsinədək Əli Daşkəsəndə yaşayıb. 2018-ci ildən indiyədək "Azərbaycan Vətən Müharibəsi Veteranları" İB-nin Daşkəsən şöbəsinin sədridir.

Vətən müharibəsi başlayandan birlik tərəfindən döyüş bölgəsində olan əsgərlərə dəfələrlə ərzaq yardımları göndərilmişdir. Dağdan hərbi maşınlarla Qoşqar dağının, Yeddi qardaş dağının ətəyinə və Xoşbulaq kəndinə endirilən yaralıların öz şəxsi maşınları ilə Daşkəsən Mərkəzi Rayon Xəstəxanasına çatdırılmasına yardım edirdilər.

Bu gün Birliyin Daşkəsən şöbəsinin rəhbərliyi qazilərimiz və veteranlarımızın problemləri ilə maraqlanır, imkan daxilində lazımi köməklik göstərirlər.

Bu kitabın yazılmasında da, şöbənin sədri və müavini tərəfindən məlumatların toplanmasında mənə lazımi dəstək verildi.

Təltifləri:

AVMV İB-nın sədri Füzuli Rzaquliyev tərəfindən
04.06.2019-cu il tarixində "Milli Ordu-100" medalı
04.06.2019-cu il tarixində "Müharibə veteranı" medalı
30.09.2019-cu il tarixində "AVMVİB-25 il" medalı
01.10.2021-ci il tarixində "Böyük Zəfər" xatirə medalı ilə təltif olunmuşdur.



Həsənov Fəxri Akif oğlu
Leytenant

1972-ci il aprelin 2-də Daşkəsən rayonunun Dəstəfur kəndində ziyalı ailəsində anadan olub. 1989-cu ildə Daşkəsən şəhər Səməd Vurğun adına 4 saylı tam orta məktəbi gümüş medalla bitirib. Elə həmin ildə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının Kənd Təsərrüfatının Mexanikləşdirilməsi fakültəsinə daxil olub və 1994-cü ildə tam kursu bitirərək mühəndis-mexanik ixtisasına yiyələnmişdir.

1995-ci il yanvarın 2-dən Daşkəsən rayon Xalq Deputatları Məclisinin Təşkilat şöbəsində təlimatçı vəzifəsində işləyib. 1995-ci il noyabrın 27-də Azərbaycan Respublikası Konstitusiyasının keçid müddəalarının 6-cı bəndinə əsasən Daşkəsən rayon Xalq Deputatları Məclisinin səlahiyyətlərinə xitam verildiyi üçün işdən azad edilib.

09 sentyabr 1996-cı il tarixdən 21 aprel 2021-ci il tarixədək Daşkəsən rayon İcra Hakimiyyəti Başçısı Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsində baş məsləhətçi vəzifəsində işləyib.

05 yanvar 2005-ci il tarixdən 29 iyul 2006-cı il tarixədək həqiqi hərbi xidmətdə olub, leytenant rütbəsi ilə taqım komandiri vəzifəsində işləyib.

1996-cı ilin sentyabr ayından Yeni Azərbaycan Partiyasının üzvüdür. Ailəlidir, 3 övladı var.

Azərbaycan Respublikası Müdafiə Nazirinin 21.09.2020-ci tarixli müvafiq əmri ilə hərbi təlimlərə çağırılıb və N saylı hərbi hissədə leytenant rütbəsi ilə Artilleriya divizionunun 4-cü artilleriya batareyasının İdarəetmə taqım komandiri vəzifəsinə təyin edilmişdir.

Vətən müharibəsində Kəlbəcər istiqamətində gedən döyüşlərdə şərəf və ləyaqətlə iştirak edib.

Fəxri Həsənovun danışdıqlarından:

"Vətən müharibəsi başlayan gündən ermənilər tərəfindən hədəfə alınmış bir postda döyüş yolu keçmişəm. Şəhid generalımız Polad Həşimovun rəhbərliyi ilə ermənilərdən alınmış həmin posta hərbçilər "Polad" postu deyirdilər. Mən və hərbçi yoldaşlarım fəxr edirdik ki, bu postda döyüş aparmışıq. Bu post strateji əhəmiyyətə malik olduğu üçün həmin posta ermənilər daha çox mərmilər atırdılar. Demək olar ki, gün ərzində 100-dən artıq mərmi düşürdü. Ancaq orada olan zabit, əsgər heyəti olaraq buna qarşı öz məsuliyyətimizi daha da artırırdıq. Kəlbəcər tərəfdə yerləşən düşmən hədəflərini aşkar edib, onların məhv edilməsi üçün sarsıdıcı zərbələr endirirdik. Döyüşlərin birində erməni artilleriyası tərəfindən atılan mərmilərlə Komanda Müşahidə Məntəqəsinin sağ və sol tərəfi vuruldu. Biz isə ruhdan düşməyərək döyüş əməliyyatını davam etdirirdik, düşmən mərmiləri bizi qorxutmurdu. Zabit heyəti əsgərlərlə birgə posta gətirilən döyüş sursatlarının, mərmilərin, mühəndis istehkam qurğularının təmin olunması üçün materialın, ərzaq və digər məişət

əşyalarının daşınmasında fəallıq göstərirdi.

Vətənpərvərlik hissinin qarşısında heç bir qüvvə tab gətirə bilməz. Vətən sevgisi ən ali sevgidir. Bu sevgi ana-ya olan sevgi ilə bir tutulur. Vətən müharibəsi zamanı hakimiyyət, ordu və xalq birliyi, biz döyüşçülərə qələbə çalmağımız üçün stimul verirdi. Biz hər gün qələbə, zəfər çalmaq istəyi ilə döyüş aparırdıq və buna da nail olduq.

Müharibə varsa ölmək və yaralanmaq da qaçılmazdır. Mən olduğum postda da şəhid və yaralılarımız oldu. Al-lah bütün şəhidlərimizə rəhmət eləsin, yaralılarımıza isə şəfa versin.

Azərbaycan Respublikası Prezidentinin 7 yanvar 2021-ci il tarixli Fərmanına əsasən "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 6 iyun 2012-ci il tarixli 648 nömrəli Fərmanda dəyişiklik edilərək yerli İcra Hakimiyyətlərində "Vətən müharibəsi iştirakçı-ları və şəhid ailələri ilə işin təşkili" şöbəsi yaradılmışdır. Mənə etimad göstərən Rayon İcra Hakimiyyəti başçısının 21.04.2021-ci il tarixli müvafiq əmri ilə Daşkəsən rayon İcra Hakimiyyəti Başçısı Aparatının Vətən müharibəsi iş-tirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşam".

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Məmmədov Nadir
Məhərrəm oğlu
Baş gizir



1965-ci il yanvarın 18-də Daşkəsən rayonunun Qabaqtəpə kəndində anadan olub. 1982-ci ildə Qabaqtəpə kənd orta məktəbini bitirib. 1983-cü ildə rus ordusuna hərbi xidmətə göndərilib və rus ordusunda bir il yarım xidmət edib. 1984-cü ilin sentyabrında Çita vilayətinin Çita şəhərinə Gizir məktəbi oxumağa göndərilib, Gizir məktəbini bitirib və Monqolustana qayıdıb. Monqolustanda rus ordusunun tərkibində 8 il yarım xidmət edib. 1992-ci ilin aprelində Azərbaycanda zabit çatışmamazlığına görə 4 nəfər azərbaycanlı – 3 zabit, bir gizir ordan könüllü olaraq Azərbaycana gəliblər.

Nadir bəyin danışdıqlarından:

"Azərbaycan ordusunda xidmətim zamanı böyük fəaliyyətlərim olub, o cümlədən Gədəbəy rayonunun Başkənd kəndinin azad edilməsinin 60 faizi demək olar ki, bizim taborlarun üzərinə düşüb. 1993-cü ilin axırı 1994-cü ilin əvvəli Kəlbəcəri düşməndən azad etmək üçün Kəlbəcərə getdik və orada bir neçə kəndi azad edə-edə irəliləyə-dik. Çəpli kəndindəki erməni qərargahını aldıq. Orada 4 nəfər – mayor, kapitan, gizir və sürücü əsir götürüb təhvil verdik. Həmin 4 nəfər Yerevanın Leninakan rayonunun

komissarlığından gənc əsgərləri gətirib döyüş bölgəsində təhvil verib qayıdarkən, biz Daşkəsən batalyonu onları yaxaladıq. Orada qoçaqlıq göstərən uşaqlar çox idi, amma mən bir nəfərin adını çəkmək üstəyirəm, Azər adlı balacaboy oğlan o 4 nəfərin tutulmasında böyük qoçaqlıq göstərmişdi. İki gündən sonra ermənilər zirehli texnika ilə həmin qərargahı almaq üçün hücum etdilər. Oraya mən və 2 nəfər əsgərim – Məmmədov Ədalət Məmməd oğlu və Sadıqov Zahid Əli oğlu getmişik, sonradan kömək üçün arxamızca 2-3 əsgər göndərdilər. Biz həmin mövqenin lap yaxınlığında özümüzə mövqe seçib gələn erməni texnikalarını pusquya salıb tutmuşuq. Mən tank əleyhinə qumbara atanlara tapşırmışdım ki, zirehli texnikanın üzərinə atmayın, onu zədələməyin. Çünki o texnika bizə lazımdır, biz ondan istifadə edə biləcəyik. Mən onlara tapşırmışdım ki, dağılmış, uçmuş evlərin divarlarına atsınlar, oradan qopan qığılcım onlarda vahimə yaratsın. Elə də oldu, onlar tankı, BMP-ni qoyub qaçdılar. Ölən - öldü, qırılan - qırıldı, qaçanlar da qaçdı. Mən orada 1993-cü il aprelin 1-də Kəlbəcəri işğal eliyən taborun komandiri mayor Barseqyanı güllələyib, onun üzərindəki sənədini və xəritəsini götürüb təhvil vermişəm. Və 2 ədəd piyada döyüş maşını, 1 ədəd də MTB deyilən zirehli texnikanı təhvil vermişəm. Mənim Azərbaycan ordusunda qoçaqlığım çox olub. Əlbəttə, xidməti borcumuzu yerinə yetirmişik, amma ürəknən döyüşmüşəm".

Hazırda Nadir bəy "Qarabağ Əlillərinə Qayğı" İB-nin Daşkəsən filialının sədridir.

Bu kitabın ərsəyə gəlməsində lazım olan məlumatların toplanmasında böyük dəstək vermişdir.

Təltifləri:
SSRİ Ali Sovetinin Rəyasət Heyəti adından "SSRİ Silahlı Qüvvələrinin 70 illiyi" medalı. 28.01.1988.
"Qarabağ Əlillərinə Qayğı" İB-nin sədri Firidun Məmmədov tərəfindən "Veteran medalı" № 00086, "Qazi medalı" № 000140, "Qalib döyüşçü" medalı. № 00073.
"Azərbaycan Vətən Müharibəsi Veteranları" İB-nin sədri F.Rzaquliyev tərəfindən AVMV İB – 25 il" medalı. № 905. 11.12.2019. və "Böyük Zəfər" xatirə medalı. № 1158. 02.11.2021.

Abbasov Asəf Valeh oğlu
Gizir



1991-ci il avqustun 8-də Daşkəsən şəhərində anadan olub. 2008-ci ildə Daşkəsən şəhər Anar Mürsəlov adına 2 saylı tam orta məktəbi bitirib. 2009-cu ilin oktyabrında Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Bakı şəhərində N saylı hərbi hissədə xidmət edib. 2011-ci ilin aprelində tərxis olunub. 2011-ci ilin iyulunda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində motoatıcı manqa komandiri kursuna daxil olub, oktyabr ayında kursu bitirib. Ok-

tyabrın 15-də Xocavənddə yerləşən N saylı hərbi hissədə MAHHXHQ olaraq motoatıcı manqa komandiri vəzifəsində xidmətə başlayıb. 2012-ci il avqustun 20-də Füzuli rayon N saylı hərbi hissədə manqa komandiri, 2013-cü il iyulun 15-də Beyləqan rayon N saylı hərbi hissədə NSVP 3-cü tabor, 7-ci bölük əlahiddə manqa komandiri, 2015-ci il yanvarın 15-də Daşkəsən rayon N saylı hərbi hissədə manqa komandiri vəzifələrində xidmət edib.

2017-ci il iyulun 20-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində gizir hazırlıq kursuna qəbul olub, oktyabrda kursu bitirib. Noyabrın 10-da Gədəbəy rayonunda N saylı hərbi hissədə taqım komandirinin müavini vəzifəsində xidmətə davam edib. 2018-ci ilin yanvarında Gədəbəy rayon N saylı hərbi hissədə taqım komandirinin müavini, 2019-cu il yanvarın 10-da Daşkəsən rayon N saylı hərbi hissədə taqım komandirinin müavini vəzifəsində, 2020-ci ilin aprelindən Daşkəsən rayon N saylı hərbi hissədə postda taqım komandirinin müavini vəzifələrində xidmət edib.

Vətən müharibəsi başlayan gündən Daşkəsən-Kəlbəcər istiqamətində gedən döyüşlərdə taqım komandirinin müavini vəzifəsində iştirak edib. Müharibə bitənə qədər şəxsi heyətlə birlikdə xidmət etdiyi postun müdafiəsində dayanıb. Kəlbəcər rayonu təhvil veriləndən sonra Kəlbəcər rayon N saylı hərbi hissədə indiyədək xidmətini davam etdirir.

Təltifləri:

"Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medal. 26.06.2020.

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Cəfərov Rəhman Bahadur oğlu
Gizir



1989-cu il mayın 10-da Daşkəsən şəhərində anadan olub. 2007-ci ildə Daşkəsən şəhər Səməd Vurğun adına 4 saylı tam orta məktəbi bitirib. 2007-ci il iyulun 4-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Beyləqan N saylı hərbi hissədə motoatıcı manqa komandiri vəzifəsində xidmət edib. 2009-cu il yanvarın 1-də ordu sıralarından tərxis olunub, Daşkəsənə qayıdıb. 2011-ci il iyulun 1-də Müdafiə Nazirliyinin Təlim və Tədris Mərkəzində MAHHXHQ kimi kurs keçib. Füzuli rayon N saylı hərbi hissədə motoatıcı manqa komandiri vəzifəsində xidmət edib. Rütbəsi çavuş olub. 2015-ci ilin axırında Daşkəsən rayon N saylı hərbi hissəyə göndərilib, eyni vəzifədə xidmətinə davam edib. 2018-ci ildə xidmət müddəti bitdiyi üçün ehtiyata buraxılıb. 2-3 ay sonra Müdafiə Nazirliyinin Təlim və Tədris Mərkəzinə gizirlik kursuna qəbul olub və kursu bitirdikdən sonra gizir kimi hərbi xidmətə başlayıb. Ağcabədi rayon N saylı

hərbi hissədə taqım komandirinin müavini vəzifəsində xidmət edib. 2020-ci il avqustun əvvəllərində Beyləqan rayon N saylı hərbi hissəyə göndərilib. Hərbi hissənin əməliyyat qrup komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsi başlayanda Füzuli istiqamətində döyüşlərə girib, oktyabrın 1-də yaxınlığında partlayan mərmi nəticəsində xəsarətlər alıb. Füzulinin Əhmədbəyli kəndində yerləşən hospitalda müalicə olunaraq təkrar Zəngilan istiqamətində döyüşlərə qatılıb. Cəbrayıl istiqamətində gedən döyüşlərdə mərmi partlayışı nəticəsində təkrar yaralanıb. Füzuli Müalicə Diaqnostika Mərkəzinə gətirilib, ilkin tibbi yardım göstərilib, göndərilib İsmayıllı rayon Mərkəzi Xəstəxanasına. Oradan Gəncəyə, sonra Şəmkirə, oradan da Bakıya Müdafiə Nazirliyinin Baş Klinik Hospitalına göndərilib. Müalicədən sonra aldığı xəsarətlərə görə hərbi xidmətə yararsız kimi ehtiyata buraxılıb.

Təltifləri:

"Hərbi Xidmətdə Fərqləndiyinə görə" 3-cü dərəcəli medal. Əmr № 0853t. 30.12.2020.

"Füzulinin azad olunmasına görə" medalı.
Sərəncam № 2362. 25.12.2020.

"Cəbrayılın azad olunmasına görə" medalı.
Sərəncam № 2714. 24.06.2021.

"Cəsur döyüşçü" medalı. Sərəncam № 2724. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı.
Sərəncam № 250s. 21.04.2022.

Əsgərli Ramayıl
Rəfayıl oğlu
Gizir



1996-cı il yanvarın 11-də Daşkəsən şəhərində anadan olub. 2013-cü ildə Daşkəsən şəhər İmadəddin Nəsimi adına 1 saylı tam orta məktəbi bitirib. 2013-cü il yanvarın 11-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Ağcabədi rayon N saylı hərbi hissədə xidmət edib. 2015-ci il iyunun 15-də tərxis olunub. 2018-ci il iyunun 6-dan Daşkəsən rayon N saylı hərbi hissədə MAHHXHQ kimi xidmətə başlayıb.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Kəlbəcər istiqamətində Ağçınqıl postunda gedən döyüşlərdə iştirak edib.

31.12.2021-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik Fuad Mirzəyev tərəfindən "31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il münasibəti ilə döyüş və ictimai-siyasi hazırlıqda, qoşun xidmətinin təşkilində və hərbi intizamın möhkəmləndirilməsində əldə etdiyi nailiyyətlərinə görə" Fəxri Fərmanla təltif olunub.

Təltifləri:
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s 21.04.2022.



Hüseynov Arif Ağəli oğlu
Gizir

1990-cı il avqustun 11-də Daşkəsən rayonunun Qabaqtəpə kəndində anadan olub. 2007-ci ildə Qabaqtəpə kənd tam orta məktəbini bitirib. 2008-ci il oktyabrın 1-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Bakıda N saylı hərbi hissədə sürücü vəzifəsində xidmət edib. 2010-cu il aprelin 5-də xidmətini başa vuraraq, ordu sıralarından tərxis olunub. Sonra müxtəlif işlərdə işləyib. 2014-cü il martın 7-də Şəmkir N saylı hərbi hissədə MAHHXHQ kimi rabitə sürücü-elektrik vəzifəsinə təyin olunub.

04.02.2015-ci il tarixdən 30.03.2015-ci il tarixədək N saylı hərbi hissədə fəaliyyət göstərən MAHHXHQ-nin hazırlıq kursunun sürücü-elektrik ixtisasını bitirib.

18.02.2019-cu il tarixdən 05.05.2019-cu il tarixədək N

saylı hərbi hissədə fəaliyyət göstərən gizir kursunu bitirib. Sonra piyada döyüş maşını xidmət komandiri kimi göndəriblər N saylı hərbi hissənin 3-cü taboruna. Orada maşın olmadığından yerini dəyişiblər 2-ci tabora, orada piyada döyüş maşını BMP-2-yə veriblər.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 03.02.2020-ci il tarixdən 05.05.2000-ci il tarixədək fəalyyət göstərən PDM-2 komandiri ixtisası kursunu bitirib.

Vətən müharibəsində İncəçay, Füzuli, Tərtər, Suqovuşan istiqamətində gedən döyüş əməliyyatlarında iştirak edib.

Arifin danışdıqlarından:

"Sentyabrın 27-si səhər saat 07:00-da bizə Füzuli istiqamətindən girişə əks-hücum əmri verdilər. Yol açmaq üçün bizə mina təmizləyici vermişdilər, ermənilər ilk olaraq onu vurdular, sürücü yaralandı, qulağından qan gəlirdi, onu çəkdik çıxardıq, təkrar minalanmış əraziyə döyüş maşınları ilə məcbur özümüz girdik, geri çəkilə bilmədik. Yolu açarkən həddindən çox yoldaşlarım minaya düşdü, həlak oldu. O xətti yarana kimi çox əziyyətlər çəkdik... O döyüşlərdə çörək kəsdiyim çox döyüş yoldaşlarımı, can qardaşlarımı, o cümlədən - baş gizir Hüseyinli İlqarı, öz sürücüm Məmmədov Elnuru itirdim. Allah hamısına rəhmət eləsin. Qərargah rəisim Toğrul müəllim ağır yaralandı.

Suqovuşan istiqamətində gedən döyüşlərdə 120-lik minamyotla bizim BMP-2 maşınımızı vurdular, mən sol tərəfimdən qəlpə yaraları almışdım, huşum özümdə olmayıb. Məni Sarıcalı Hərbi Hospitalına aparıblar, orada əməliyyat ediblər, ayılmadığıma görə göndəriblər Bakıya Papanin Hospitalına, orada ayılmışam. 40 günə yaxın

orada müalicə olundum, sonra evə buraxdılar. Səhhətim imkan vermədiyinə görə ordu sıralarından ehtiyata buraxıldım".

Təltifləri:
"Cəsur döyüşçü" medalı. Sərəncam № 2353. 18.12.2020.
"Suqovuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2720. 24.06.2021.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Qafarov Nəsimi Elşad oğlu
Gizir

1992-ci il oktyabrın 28-də Daşkəsən şəhərində anadan olub. 2008-ci ildə Daşkəsən şəhər İmadəddin Nəsimi adına 1 saylı tam orta məktəbin 9-cu sinfini bitirib. Orta məktəbdə oxuduğu müddətdə idmanın Yunan-Roma güləş növü ilə məşğul olub və yüksək nəticələr əldə edib.

06.02.2005-ci il tarixində Goranboy RTŞ-nin müdiri E.Əliyev tərəfindən "2 fevral – Gənclər gününə həsr olunmuş Goranboy rayon Yunan-Roma güləşi üzrə açıq birincilikdə 29 kq çəki dərəcəsində 1-ci yeri tutduğu üçün" Diplomla;

18.03.2005-ci il tarixində Daşkəsən RİH-in Başçısı F. Cabbarov tərəfindən "Daşkəsən rayonunun idman şərəfini yüksək səviyyədə qoruduğuna görə" Fəxri Fərmanla;

UGGİM-in direktoru M.Novruzov tərəfindən "Bakı şəhəri UGGİM-in nəzdindəki Yunan-Roma güləşi üzrə keçirilən turnirdə 38 kq çəkidə 1-ci yer tutduğuna görə" Diplomla təltif olunub.

2008-ci ildə Gəncə şəhər Humanitar Kollecinin Bədən Tərbiyəsi və İdman fakültəsinə daxil olub, 2011-ci ildə kolleci bitirib.

08-09.04.2010-cu il tarixlərində Gəncə Humanitar kollecinin direktoru A.M.Əliyev tərəfindən "Gəncə şəhər Humanitar kollecin B/Tərbiyə müəllimləri Əlirza Yusibovun, Zəlimxan və Bərxudar Cəfərovların xatirəsinə həsr edilmiş sərbəst güləş üzrə tələbələr arası açıq birincilikdə 55 kq çəki dərəcəsində 1-ci yeri tutduğuna görə" Diplomla təltif olunub.

07.07.2011-ci ildə Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, 01.01.2013-cü ildə tank taborunun tuşlayıcı operator vəzifəsini bitirib və tərxis olunub. 15.09.2013-cü ildə Daşkəsən rayonunun Əmirvar kənd ümumi orta məktəbinə fiziki tərbiyə müəllimi vəsifəsinə işə girib. Həmin məktəbdən öz xahişi ilə işdən azad olunub. 01.10.2018-ci ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Təlim və Tədris Mərkəzinin Gizir hazırlıq kursuna daxil olub. 12.12.2018-ci ildə Gizir hazırlıq kursunun tank komandiri ixtisasını bitirib. Daşkəsən rayon N saylı hərbi hissədə taqım komandirinin müavini vəzifəsinə təyin olunub. 08.07.2019-cu ildə Ağstafa rayonu N saylı hərbi hissəsinə tank komandiri vəzifəsinə təyin olu-

nub. 25.12.2019-cu ildə tankları ilə bir yerdə Mingəçevir şəhər N saylı hərbi hissəsinə tank komandiri vəzifəsinə təyin olunub. Hal-hazırda həmin hərbi hissədə tank komandiri vəzifəsində xidmət edir.

26.06.2020-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Orxan Rzayev tərəfindən "Azərbaycan Ordusunun yaradılmasının 102-ci ildönümü ilə əlaqədar, döyüş hazırlığının yüksəldilməsi və hərbi intizamın möhkəmləndirilməsi istiqamətində əldə etdiyi nəticələrə görə" Fəxri Fərmanla təltif olunub.

Vətən müharibəsinin ilk günlərindən Talış, Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak edib. Komandiri olduğu tank vurulduqdan sonra başqa hərbi hissənin tankını götürüb 3 gün döyüşdükdən sonra tabor komandirlərinə qaytarıb. 44 gün davam edən döyüşlərdə iştirak edib.

Nəsiminin danışdıqlarından:

"Sentyabrın 27-si səhər tezdən Tap Qaraqoyunlu istiqamətindən girdik Talışkənd istiqamətinə, qarşımızdakı çoxsaylı postları almalı idik. Səhər tezdən saat 9-10 olardı, biz artıq yüksəklikləri almağa başlayırdıq ki, qarşımızdakılar taborumuzun BMP-2 maşınını vurdular, o döyüşdə çox sayda yaralılarımız oldu. Mən tankdan düşərək 5 nəfər yaralımızı xilas elədim və 5-ni də maşına mindirib geriyə göndərdim ki, tibbi yardım alsınlar. Sonra başladıq irəliləməyə, qarşımızdakı tapşırıq Ağuçuq yüksəkliyini almaq idi. Çünki Ağuçuq istiqamətindən Tap Qaraqoyunlunu açıq-aşkar və dəqiq görürdülər. Ona görə də, hər dəfə ora top atırdılar, raketlə vururdular. Biz Ağuçuq istiqamətini götürəndə artıq bizim şəhidlərimiz və çox sayda yaralılarımız vardı. Daldalanmaq üçün bir yer tapa

bilmirdik, demək olar ki, açıqlıqla gedirdik, ermənilər isə gizlənib postlardan atırdılar. Ağuçuğu götürdükdən sonra, Yaltaxıl deyilən dağlıq bir yeri ələ keçirməli idik. Oranı almaq da bizim üçün çox çətin oldu, çünki qarşımızda nə olacağını, nə ilə qarşılaşacağımızı bilmirdik, ərazini tanımırdıq. Amma onlar koordinatları, yolları bildikləri üçün, artilleriya zərbəsi, 120-lik minamyot və topla biz aldığımız postları, bizi açıq-aşkar vura bilirdilər. 30 il idi ki, oranı möhkəmlətmişdilər, daimi gedib-gəldikləri yol idi. Bütün bunlara rəğmən biz Yaltaxılı ələ keçirdik.

Biz postları götürdükcə oranın mühafizəsini təşkil edir və müdafiəyə verirdik ki, erməninin əks-hücumuna məruz qalmayaq. Məsələn, 2 ədəd BMP və piyadaları orada qoyurduq ki, mühafizə etsinlər. Biz isə irəliləyirdik, növbəti döyüş tapşırıqları ondan ibarət idi ki, Talış kəndini düşməndən tam azad edək. Biz bütün yüksəklikləri əldə edirdik, amma təəssüf ki, çox itkilərimiz olurdu, texnikalarımızı vururdular. NTRB-ni vurdular, yandı, BMP-2-ləri vurdular, qumbaraatanla tankları vururdular. Qumbaraatan tankları elə də çox partlatmırdı, amma baş qülləsini, döyüş mövqeyini sıradan çıxardırdı.

Sentyabrın 28-də Talış kəndi istiqamətinə girdik, döyüş tapşırığı gəldi ki, 482 yüksəkliyindən irəliləməliyik. 482 yüksəkliyi də Tərtər istiqaməti idi, biz qayıtdıq düşdük aşağı. Tərtər istiqamətinə başqa istiqamətdən hücuma keçdik. Ayın 29-u günü biz 482 yüksəkliyinə qalxmalı idik, amma 482 yüksəkliyinə çatmamış, valın içində mühasirəyə düşdük, 3 tərəfimiz də erməni idi – qabaq, sağ, sol. Ermənilərin tam ortasında idik, bizi arilleriya, toplar, minamyotlar, D-30-larla vururdular. Biz 2 gün pusquda qaldıq, hər gecə

bizim başımızın üstündən atırdılar, transferləri, mərmiləri görmək olurdu. Meşə deyilən bir yer var, ordan biz hücuma keçən zaman tankımın tranmissiyası ilə motorxanasını vurdular. Faqot deyilən raket biz irəliləyəndə üstdən gəldi, onlar baş qülləni vurmaq istəyirdilər, hardasa 15-20 sm arxaya düşdüyü üçün tank partlamadı, əgər döyüş sursatı olan bir yerə, "başnya" deyilən qülləyə düşsəydi, üçümüz də şəhid ola bilərdik. Tank partlasaydı, o valda çox sayda itkilər verə bilərdik, yaralılarımız ola bilərdi. Tankın vurulduğu an arxadan yanmağa başladı, mənə qışqırırdılar ki, qaç, partlayacaq. Uşaqların çoxusu qorxusundan qaçıb gizlənmişdi ki, mərmi partlaya bilər, tank partlaya bilər. Mərminin partlaması nəticəsində dalğası məni vala çırpmışdı. Zərbənin gücündən möhkəm zədə almışdım, hələ də sağ dizimdə narahatçılıq var. Müharibədən bəri sağ dizim çox ağrıyır, ayaq üstə çox dura bilmirəm, çox hərəkət edə bilmirəm. Bizə camaatdan kasetlərlə litrlik sular gəlirdi, tankım vurulanda qarşıdan kimsə mənə kaset-kaset su atırdı. Mən litrlik sularla başladım alovun qarşısını almağa, çox çətinliklə də olsa, axır ki, tankı söndürdüm. Sonra taqım komandirimiz Əhmədov Naibə (indi kapitandır) müraciət elədim ki, bizim tabor irəli gedirsə, mən də irəli getməliyəm, mənə tank verin, mən gedirəm. Çox çətinliklə, dava-dalaşla başqa hərbi hissənin tankını götürdüm və tank komandiri kimi fəaliyyətə başladım. Yeni mexanikimi, tuşlayıcı operatorumu tanımırdım, orda tanış oldum. Biz 482 istiqamətindən hücuma keçdik, postları götürdük. Demək olar ki, 4-5 saata 2 post aldıq, o postlardan Suqovuşana tam nəzarət edə bilirdik. 482 postunda şəhidlərimiz oldu. Rüstəmov Eminlə bağlı mən televizorda da çıxış elə-

mişəm. Çox sayda düşmənləri məhv elədik, 530 postunu aldıq, mühafizəsi üçün 2 dənə BMP-2 və piyadalar orada qaldı, biz isə irəliləməli idik ki, 570 yüksəkliyindəki postu alaq, Suqovuşana girə bilək.

Mən tankla irəliləyəndə gördüm ki, sağ tərəf valda kimsə yerdə uzanıb. Baxdım ki, bizim kombatımız mayor İbadov Şahindir. Mexanikimə komanda verdim ki, tankı saxla, kombatımız yaralanıb, onu çıxartmalıyam, o, saxladı. İndi də o heyətlə bir yerdə işləyirik. Bizimkilər orada Satko və tank vurmuşdular, tank yanırdı, tabor isə hücuma irəliləyirdi. Biz ermənilərin içində çoxsaylı döyüş sursatları olan KamAz-ını, evro KamAz-larını içində şəxsi heyətləri ilə birgə vurduq, zirehli texnikalarını məhv etdik. Mən mexanikimə komanda verdim ki, arxada Satko yanır, tankı arxaya ver ki, yol açа bilək. Mənim arxamda gizir Qaflanov Qalibin BMP-2-si var idi, komanda verdim, tankın böyründən keçdi. Atışma gedirdi, minamyotlar atırdı, mən isə artıq tankdan düşmüşdüm, mərmilər gəlib yanıma düşürdü. Mən özümdə qürur hissi duyurdum ki, kombatımı xilas edəcəm, burda qoyub getməyəcəm. Əgər onu çıxartmasaydım, qanitirmədən ölə bilərdi. Kombatı çox çətinliklə neytraldan çıxardaraq qırağa gətirdim, ayağından və sol böyründən yaralanmışdı. BMP-ni valın içində döndərdim, kombatımızı qoydum BMP-2 maşınına və arxaya yola saldım ki, tibbi yardım alsın. Yolda KamAz yanırdı, yolu kəsmişdi, tankdan komanda verdim ki, tank onu itələyib dağdan aşağı salsın, yol açılsın və BMP-2 qayıda bilsin. Sonra bizim qərargah rəisimizə məruzə elədim, bildirdim ki, bizim BMP-miz gəlir və kombatımız onun içində yaralıdır, elə bilərlər ermənin BMP-2-sidir,

vurmasınlar. Dedilər ki, başa düşdüm, çox sağ ol, qəbul edildi.

Biz yenidən hücuma başladıq, erməni postları ilə məsafəmiz 5-6 metr olardı, ermənilərı görə-görə, döyüşə-döyüşə, postları götürə-götürə irəlilədik. Biz onları açıq-aşkar görürdük, onlar da bizi. Sadəcə olaraq onlar gizlənib atırdı, biz açıqda idik, gizlənməyə yer yox idi. Tapşırıq bizim üçün çox çətin idi, amma ruh yüksəkliyimiz o qədər çox idi ki... hamı istəyirdi ki, sürətlə irəliləyək. Maşın xarab olurdu, tank xarab olurdu qalırdı orda, avtomatlarımızı götürüb piyadalar ilə irəli qaçırdıq ki, ermənilərı vura bilək. Və sonda biz 570 yüksəkliyini də aldıq. Sonra düşdük aşağı İncəçaya, oradan qalxdıq, 157-nin tank bölüyü ilə Ruslan postundan (99 postu deyirlər) Talış istiqamətinə keçdik. Oktyabrın 1-i düşdük Talış kəndinə, 2-si artıq Suqovuşan istiqamətinə hücumumuz başladı və Suqovuşanın postlarını alıb, şəhərin içinə daxil olduq. Demək olar ki, oktyabrın 3-ü Talış kəndilə Suqovuşanı ələ aldıq. Talışda yüksəklikləri qoruyub saxlamaq üçün mühafizə təşkil etdik, sonra biz Talış kəndindən qayıtdıq, artıq texnikalarımız sıradan çıxmışdı. Texnikalarımıza qulluq göstərəndən sonra yenidən Talış-Suqovuşan istiqamətinə irəlilədik. Tapşırığımız ondan ibarət idi ki, Talış-Suqovuşanı düşmənlərdən qoruyub saxlayaq.

44 günlük müharibədə çox çətin idi, məsafələr uzaq olsa da, Talış kəndində bizi artilleriya zərbələri ilə vururdular. Biz də atırdıq, amma ki, məsafə çox idi. Gecələr qarşı tərəfdən kəşfiyyat gəlirdi. Bir dəfə bizim bir mexanik sürücümüz 4 nəfər erməni kəşfiyyatçısı ilə qarşılaşmışdı, amma tankla gələ-gələ onları vura bilməmişdilər. Biz 44

günün axırınadək ancaq döyüşürdük, postların mühafizəsini təşkil edirdik ki, ermənin əks hücumuna məruz qalmayaq".

Təltifləri:
"Suqovuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2368. 29.12.2020.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

12.10.2022-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Fariz Rüstəmov tərəfindən "Hərbi hissənin texnikalarının payız-qış mövsümünə keçidi zamanı texnikasına yaxşı texniki qulluq göstərdiyinə görə" Fəxri Fərmanla təltif olunub.

Qurbanov Tural
Qəşəm oğlu
Gizir



1992-ci il yanvarın 15-də Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 2009-cu ildə Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbi bitirib. 2010-cu il yanvarın 17-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırı-

lıb, Bakıda N saylı hərbi hissədə radio kəşfiyyatda baş operator vəzifəsində xidmət edib, 2011-ci ilin iyulunda tərxis olunub. 2014-cü ildə MAHHXHQ kimi Daşkəsən rayon N saylı hərbi hissədə snayper vəzifəsində xidmətə başlayıb, 2017-ci ildə müqavilə müddəti bitdiyi üçün tərxis olunub. 2019-cu ilin avqustunda yenidən həmin hərbi hissədə MAHHXHQ kimi sürücü vəzifəsində xidmətə başlayıb.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Kəlbəcər istiqamətində gedən döyüşlərdə sürücü vəzifəsində iştirak edib. Müharibədən sonra gizir rütbəsi alıb, Dövlət Sərhəd Xidmətində xidmət edib. Hazırda Milli Orduda N saylı hərbi hissədə qrup komandiri vəzifəsində xidmətinə davam edir.

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Məmmədov Afiq Faiq oğlu
Gizir



1990-cı il iyunun 2-də Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 2008-ci ildə Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbi bitirib. 2008-ci il oktyabrın 2-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, əvvəl Ağcabədi, sonra Füzulidə N saylı hərbi hissədə baş kəşfiyyatçı vəzifəsində xidmət edib. 2010-cu il mayın 1-də hərbi xidmətini başa vuraraq, ehtiyata buraxılıb. 2014-cü il sentyabrın 4-dən Daşkəsən rayon N saylı hərbi hissədə MAHHXHQ kimi dağatıcı briqadada əvvəl snayper, sonra isə qumbaraatan komandiri, manqa komandiri, qurğu komandiri vəzifələrində xidmət edib.

Vətən müharibəsi başlayanda sentyabrın 27-dən Kəlbəcər istiqamətində hava hücumundan müdafiə sistemində döyüşlərdə iştirak edib. Hazırda Dövlət Sərhəd Xidməti diviziyasında gizir qrup komandiri vəzifəsində xidmətinə davam edir.

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.



Məmmədov Elvin
Fərmayıl oğlu
Gizir

1994-cü il fevralın 12-də Daşkəsən rayonunun Zinzahal kəndində anadan olub. 2011-ci ildə Zinzahal kənd tam orta məktəbini bitirib. 2012-ci il aprelin 4-də SHXÇ-DX-nin Daşkəsən rayon bölməsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb, N saylı hərbi hissədə xidmət edib. 2013-cü il oktyabrın 12-də tərxis olunub. 2014-cü ilin iyul ayından 2019-cu ilin yanvarınadək özəl şirkətlərin birində bağban işləyib. 2019-cu il martın 1-dən 2019-cu il mayın 20-dək Qaraheybət Təlim və Tədris Mərkəzində gizir hazırlıq kursu keçib. Oradan N saylı hərbi hissəyə göndərilib, orada gizir kimi hərbi xidmətə başlayıb.

Vətən müharibəsinə Murovdağ istiqamətindən cəlb olunub.

Elvinin danışdıqlarından:

"Sentyabrın 29-da yaxınlığımda partlayan mərmi nəticəsində çoxsaylı qəlpə yaraları aldım. Məni Gəncə şəhər Hərbi Hospitalına təxliyyə etdilər. İlkin tibbi yardım etdikdən sonra Şəmkir rayon Mərkəzi Xəstəxanasına apardılar, orada əməliyyat edib qəlpələri bədənimdən çıxardılar. 2020-ci il oktyabrın 5-də özümü yaxşı hiss etdiyim üçün xəstəxana rəhbərliyinə və öz rəhbərimə müraciət

etdim, öz hərbi hissəmin daxili tibb məntəqəsinin nəzarətinə yazıldım və müalicəmə orada davam etdim. Oktyabrın 20-dən digər hərbi hissənin tərkibinə könüllü qoşularaq Şuşa istiqamətində gedən döyüşlərə qatıldım. Şuşa şəhər və şəhər ətrafında qarşımıza qoyulan tapşırıqları yerinə yetirib, dekabrın 21-də yenidən əvvəlki N nömrəli hərbi hissəmə geri döndüm. Hazırda Göyçə mahalı istiqamətində ön döyüş mövqelərindən birində xidmətimə davam edirəm".

Təltifləri:

"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2370. 29.12.2020.

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

2021-ci il noyabrın 8-də N saylı hərbi hissənin komandiri pokovnik-leytenant Ramin Cabbarov tərəfindən "8 noyabr – Zəfər Günü münasibətilə döyüş tapşırıqlarının yerinə yetirilməsində fərqləndiyinə, hərbi intizamın möhkəmləndirilməsində əldə etdiyi nailiyyətlərə görə" Fəxri Fərman;

2022-ci ilin aprelində N saylı hərbi hissənin komandiri polkovnik Oruc Abdullayev tərəfindən "2022-ci tədris ilinin birinci rübündə qarşıya qoyulmuş döyüş tapşırıqlarının yerinə yetirilməsində, döyüş hazırlığının yüksəldilməsində və intizamın möhkəmləndirilməsində əldə etdiyi nailiyyətlərə görə" Fəxri Fərmanla təltif olunub.



Nağıyev Həsən Famil oğlu
Gizir

1993-cü il oktyabrın 26-da Sumqayıt şəhərində anadan olub. 2011-ci ildə Sumqayıt şəhər N.Tusi adına 12 saylı tam orta məktəbi bitirib. 2011-2015-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyasının Beynəlxalq İqtisadi Münasibətlər və Menecment fakültəsinin Sənayenin Təşkili və İdarə Olunması ixtisasının bakalavr pilləsində təhsil alıb. 2015-ci ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə gedib, 2016-cı ilin iyul ayında tərxis olunub. Bir müddət şirkətdə mühasib işləyib. 2016-cı ilin dekbrından 2017-ci ilin yanvarınadək SHXÇDX-nin İmişli rayon bölməsində və 2019-cu ilin avqustundan 2021-ci ilin dekabrınadək SHXÇDX-nin Daşkəsən rayon bölməsində leytenant vəzifəsində işləyib. 2021-ci ilin dekabrında səfərbərlik sistemindən ayrılıb.

Vətən müharibəsi dövründə ehtiyatda olan birinci dərəcəli hərbi vəzifəlilər – əsgərlər, çavuşlar, gizirlər və zabitlərin hərbi rütbəsindən asılı olaraq ordunun komplektləşdirilməsinə cəlb olunması, toplanılaraq hərbi hissələrin qəbul məntəqələrinə göndərilməsində fəal iştirak edib. Çağırışçıları Füzuli, Ağcabədi və Beyləqan zonalarına apararaq aidiyyəti üzrə təhvil verib. Yaralılarımızın təxliyyəsində, şəhidlərimizin qarşılanmasında və dəfnində fəal iştirak edib. Hazırda şirkətdə işləyir.



Nağıyev Zabil Qabil oğlu
Kiçik gizir

1999-cu il iyunun 4-də Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olub. 2005-2014-cü illərdə Gəncə şəhər Molla Pənah Vaqif adına 8 nömrəli tam orta məktəbdə 9 illik təhsil alıb. 2014-cü ildə Gəncə şəhər 3 saylı Peşə Liseyinin Dizayner fakültəsinə qəbul olub, 2017-ci ildə liseyi bitirib. Elə həmin il də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Naxçıvan MR-də N saylı hərbi hissənin XTQ-də sürücü vəzifəsində xidmət edib. 2019-cu il yanvarın 3-də hərbi xidmətini başa vurub və ordu sıralarından ehtiyata buraxılıb.

01.12.2018-ci il tarixində N saylı hərbi hissənin komandiri Azər Baxşəliyev tərəfindən Zabilin ailəsinə aşağıdakı məzmunda Təşəkkür Məktubu göndərilib:

"Oğlunuz əsgər Nağıyev Zabil Qabil oğlu hərbi xidmətdə olduğu müddətdə özünü nizam-intizamlı, müqəddəs torpaqlarımızın toxunulmazlığı uğrunda mübarizədə qorxmaz, igid və cəsur bir Azərbaycan əsgəri kimi göztərib. O, hərbi xidmətdə çalışqanlığı və qayğıkeşliyi ilə əsgər yoldaşlarının və hərbi hissə komandanlığının dərin hörmətini qazanıb. Əla xidmətinə və nümunəvi intizamına görə komandirləri tərəfindən mükafatlandırılmışdır. Oğ-

lunuz suveren, müstəqil Azərbaycanın Dövlət mənafeyini yüksək tutaraq, müqəddəs torpaqlarımızın toxunulmazlığı uğrunda öz əsgəri borcunu ləyaqətlə yerinə yetirir. Zabil kimi oğul böyütdüyünüzə görə Sizə təşəkkür edir, əməyinizdə uğurlar arzulayıram"

2019-cu il sentyabrın 27-dən aprelin 5-dək DSX-nin N saylı hərbi hissəsində Qrup komandiri hazırlığı kursunu keçib. Kurs müddətində ona Kiçik çavuş rütbəsi, aprelin 5-də isə kiçik gizir rütbəsi verilib. 2019-cu il aprelin 5-dən Dövlət Sərhəd Xidmətinə kiçik gizir vəzifəsinə təyin olunub.

2020-ci il iyulun 20-də XTQ-nin hazırlıq kursuna göndərilib, avqustun 30-da kursu bitirib və XTQ-nin N saylı hərbi hissəsində xidmətinə davam edib.

Vətən müharibəsində 27.09.2020-ci il tarixindən 10.11.2020-ci il tarixinədək xidmət etdiyi DSX-nin XTQ dəstəsinin tərkibində Kəlbəcər, Füzuli, Cəbrayıl istiqamətlərində döyüşüb.

Zabilin danışdıqlarından:

"Sentyabrın 26-da hazırlaşdıq, Kəlbəcər istiqamətinə yola düşdük. Bizə demişdilər ki, heç kim bilmədiyi, tam məxfi bir əməliyyata gedirik. Biz döyüşün bu qədər geniş miqyaslı olacağını düşünmürdük. 26-sı axşam Hinal dağ istiqamətində müvəqqəti bir dislokasiya məntəqəsi yaratdıq. Planlar hazırlanır, ətrafın sxem çertyoju çəkilirdi və qrupun hardan sızma əməliyyatı edəcəyini qrup komandirlərinə bildirirdilər. Sentyabrın 27-si səhər tezdən biz Göbələk, Ömər postları istiqamətində irəlilədik. Neytral zonaya keçmişdik ki, döyüş başladı, biz postu götürdük, amma düşmənləri görə bilmirdik. Mənə elə gəlirdi ki, on-

lar bizi açıq şəkildə görür, çünki sərbəst şəkildə bizi atəşə tutmuşdular. Demək olar ki, açıqlığa çıxmışdıq, biz irəlilədikcə, onlar bizi minamyot, PK və digər iri çaplı silahlardan atəşə tuturdular. Çox çətinliklə bir az daha irəlilədik, amma digər qrupdan yaralılarımız var idi. Düşmənlər uzaqda olsalar da, artıq seyrək-seyrək görünürdülər. Açıq döyüş gedirdi, onda başa düşdük ki, bu kiçik əməliyyat deyil, artıq müharibədi. Bir neçə gün belə davam elədik, ancaq irəliləyə bilmirdik. Düşmən elə bil yerin altından çıxırdı, sayları həddən çox idi. Demək olar ki, bizə hər tərəfdən atəş açırdılar. Müəyyən yerlərdə düşməni görürdük, biz ora atəş açanda digər yerlərdən bizə atəş açırdılar. Bir həftəyə yaxın orada qaldıq, sonra bizə rabitə vasitəsilə məlumat verdilər ki, bu tərəfdən əməliyyat təxirə salınır, geri çəkilin, yalnız müdafiə olunacağıq.

Orada hava çox soyuq idi, arabir qatı duman gəlir, külək qalxır, səhərə yaxın da qırov düşürdü, yer şeh, qar kimi bozarırdı, üst-başımız suyun içində olurdu. Qrupumuzun demək olar ki, əksəriyyəti xəstələnmişdi, ancaq heç kim tibb məntəqəsinə getmirdi.

Bir gün yenidən planlar quruldu, biz də o müddətdə silahlarımızı təmizlədik, palrtarlarımızı qurutduq, yenidən döyüşə hazırlaşdıq. Axşam əməliyyat planı daxil oldu, ancaq bu dəfə Füzuli istiqamətindən. Yola düşdük, biz Füzuliyə çatanda artıq müzəffər ordumuz Füzulidən irəliləyirdi. 7-8 gün geridə qalmışdı, yenidən irəlilədik və Araz qırağı əməliyyata başladıq. Qruplar bölündü, irəlilədik, döyüşə yenicə girmişdik ki, snayperlərimiz artıq bir neçə düşməni sıradan çıxarmışdı. Hər post uğrunda 3-5 saat, elə olurdu ki, ağır, gücləndirilmiş postlar olurdu, 2

gün döyüş gedirdi. Amma sonunda ya özləri geri çəkilirdilər, ya da postu artıq məhv edirdik.

Bir neçə gün sonra Cəbrayıl istiqamətinə çatdıq. Təpələrin üstündə post qurmuşdular, deyəsən bir neçə dənə idi, amma biz 3-nü görürdük. Çox açıq yer idi, burada qorunmaq çox çətin idi. Yenə də qrup olaraq irəliyə doğru ziqzaqvari qaçışla, kol-kos arxasında gizlənə-gizlənə postlara yaxınlaşdıq. Burda da açıq döyüş gedirdi, amma bir neçə saat yox, bir neçə gün oldu, çox ağır post idi. Düşmən bizə ağır silahlar ilə atəş açırdı, 5 gün döyüşdük. Qrupda nə su var idi, nə də yemək. Mən inanmırdım, deyirdilər ki insan 3 gün susuz qalanda ölür, amma qrupumuz 5 gün ac-susuz qaldı. Gecə düşəndə bizi görmək üçün göyə işıqlanma fişəngi atırdılar, sonra da artilleriyadan atəşə tuturdular. Bizə kömək, dəstək də gələ bilmirdi, artilleriya ilə maşınları vururdular, döyüşün dərinliyində idik. Bir neçə gün sonra artıq dəstək qrup bizə çatdı, biz təxliyyə qrupuna çevrildik, yaralı və şəhidlərimizi çıxarmağa başladıq, 2 şəhid, 3 yaralımız var idi, 9 nəfər isə sağ qalmışdıq. Oktyabrın 17-si idi, biz bir qədər geriyə çıxmışdıq, digər qrup isə döyüşə girmişdi, arxadan minamyot səsi gəldi. Biz inanmadıq ki, bizə atarlar, yolumuza davam edirdik ki, mərmi yaxınlığımıza düşdü. Sürəti artırmağa çalışdıq ki, artmağa başladılar, bombalar üstümüzə yağış kimi səpilirdi, cəhənnəmə oxşuyurdu. Komandir bizə qışqırdı ki, sağa qaçın. Biz 2-3 metr addım atmışdıq ki, son minamyot mərmisi qrupun içinə düşdü, 2-3 nəfərdən başqa, hər kəs yerdə idi. Qəlpə və təzyiq qrupu demək olar ki, sıradan çıxarmışdı. Başımı qaldırmaq istədim, gücüm çatmadı, onda gördüm ki, məni kimsə sürüyür, qrup komandirimiz

idi. Öldüyümü sandım, gücüm yox idi, gözüm yumuldu, komaya düşmüşdüm, ayılanda Dövlət Sərhəd Xidmətinin Hospitalında idim. Orada məlumat verdilər ki, döyüş bir neçə gündü bitib. Sonra 4 ay müalicə olundum. Səhhətim ilə bağlı 23.10.2021-ci il tarixində işdən tərxis olundum".

Təltifləri:

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

17.08.2021-ci il tarixində Dövlət Sərhəd Xidməti rəisinin müavini Sərhəd Qoşunlarının Komandanı general-leytenant Araz Məmmədov tərəfindən "Azərbaycan Sərhəd Mühafizəsinin 102-ci ildönümü münasibəti ilə və xidməti vəzifələrinin icrası zamanı yüksək nəticələrə nail olduğuna görə" Fəxri Fərmanla təltif olunub.

Həsənov Natiq Nəsir oğlu
Həkim



1962-ci il aprelin 27-də Daşkəsən şəhərində anadan olub. 1979-cu ildə Daşkəsən şəhər Səməd Vurğun adına 4 saylı tam orta məktəbi bitirib. Elə həmin il Azərbaycan Tibb Universitetinə daxil olub. 1986-cı ildə universiteti bitirdikdən sonra, Daşkəsən rayonunun Quşçu kənd

xəstəxanasında həkim işləyib. 1992-ci ilin dekabrında 1-ci Qarabağ müharibəsində Ağdərə bölgəsində həkim olaraq iştirak edib. 2015-ci ildən Daşkəsən Mərkəzi Rayon Xəstəxanasında işləyir. Vətən müharibəsi dövründə səfərbərlik başlayandan SHXÇDX-nin Daşkəsən rayon bölməsində Hərbi Həkim Komissiyasının sədri olub. 44 günlük müharibə dövründə bütün xəstəxana personalı ilə birlikdə gecə-gündüz yaralılara xidmət göstərib.

Natiq həkimin danışdıqlarından:

"Xəstəxanamızın bütün işçiləri müharibə başlayandan 7 gün gecə-gündüz xəstəxanada qalıblar. Xəstəxanaya gətirilən yaralıların yüngül olanları xəstəxanamızda qalır, ağır olanları isə Gəncə 230 saylı Hospitala, Gəncə Beynəlxalq Xəstəxanasına, Abbas Səhhət adına 1 saylı Xəstəxanaya və s. göndərilirdi.

Müharibə dövründə gələn və təxliyyə olunan yaralılar qeydiyyata götürülür, xəstəxanada qalanlar stasionar müalicə olunurdu. Bütün tibbi personal bacardıqları qədər, layiqincə gələn bütün yaralıların xidmətində olublar – paltarlarını dəyişdirib, yaralarını təmizləyiblər, üzərlərində olan sənədləri götürüb qoruyublar, yemək, çay veriblər.

Bütün təcili yardım maşınları – həm rayon xəstəxanasının, həm də kənd tibb məntəqələrinin sürücüləri döyüş bölgəsindən yaralıları və şəhidlərimizi gətiriblər.

Müharibə dövrü ön cəbhədən xəstəxanaya 4 şəhid, 147 yaralı, arxa cəbhədən 49 yaralı və 45 nəfər müxtəlif xəstəliklərdən əziyyət çəkənlər daxil olub, müalicə olunub. Daşkəsən Mərkəzi Rayon Xəstəxanasında müalicə olunan 45 nəfər yaralı, müharibədən sonra Gəncə 230 saylı Hərbi Hospitala təxliyyə olunub.

Müharibədə aktiv iştirak edən işçilərə TƏBİB-dən Təşəkkürnamə verilmişdir".

Məmmədov Riyaviz
Əli oğlu
Baş çavuş



1992-ci il mayın 22-də Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 2009-cu ildə Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbi bitirib. 2010-cu il iyulun 3-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, hərbi xidmətinə Bakıda N saylı hərbi hissənin Təlim və Tədris Mərkəzində başlayıb. Qaraheybət mühafizə bölüyündə əsgər kimi bir müddət xidmət edib. Komandirləri yaxşı xidmət etdiyini görüb onu bölüyə çavuş təyin ediblər. Riyaviz bundan ruhlanıb və xidmətinə daha da həvəslə davam edib, 2012-ci ilin yanvar ayında ehtiyata buraxılıb. 2013-cü ilin iyul ayından Bakıda N saylı hərbi hissədə MAHHXHQ olaraq təkrar hərbi xidmətə başlayıb.

Riyavizin danışdıqlarından:

"Daxili Qoşunların xüsusi vasitələrində atıcı sanitar vəzifəsində 8 ay xidmət etdikdən sonra, Xüsusi Təyinatlı Dəstədə xidmət edəcəyimi bildirdim. Torpaqlarımızı düşmən tapdağından azad etmək üçün hazırlıqlar gördüm, öz üzərimdə əlimdən gələn qədər çalışdım, təlimlərdə oldum və Xüsusi Təyinatlıların kursunu keçdim. Xüsusi Təyinatlı Dəstədə 60 mm minaatan heyət nəfəri vəzifəsinə

təyin olundum. Yaxşı xidmət etdiyimə görə bir müddət sonra məni 1-ci xüsusi həmlə qrupuna pulemyotçu vəzifəsinə təyin etdilər. Həmin qrupda uzun müddət xidmət etdim. Xüsusi Təyinatlı Qüvvələrdə baş çavuş kimi xidmət etmişəm. 2020-ci ilin avqust ayında bizi Müdafiə Nazirliyinin Xüsusi Təyinatlılarına qoşdular, onlarla birgə təlim kursu keçdik.

Biz səbirsizliklə gözləyirdik ki, cənab Ali Baş Komandanımız əmr versin, biz mənfur düşmənləri torpaqlarımızdan rədd edək. Həmişə düşünürdüm ki, biz Azərbaycan əsgərləri çox güclüyük, nəyin bahasına olursa-olsun torpaqlarımızı azad edib, başı yuxarı gəzəcəyik. Həhayət sentyabrın 27-də Vətən müharibəsi başlayanda Murovdağ istiqamətində döyüşlərə qatıldıq, düşməni məhv etdik, sağ qalanları da postları qoyub qaçdılar, bir neçə postumuzu ələ keçirdik. Biz Murovdağdan döyüşə-döyüşə Ağdərə istiqamətinə keçdik. Bir az döyüşdük, amma irəli getməyə imkanımız yox idi. Çünki, onlar uzun müddət idi ki, orada yerləşmişdilər. O döyüşlərdə həm yaralılarımız, həm də şəhidlərimiz oldu. Çox çətin döyüşlərimiz oldu, tanımadığımız ərazi idi, birbaşa ermənilərin içinə girmişdik, həmin istiqamətdə 3 gün, 3 gecə mühasirədə qaldıq. Hər tərəfdən bizə atəş açırdılar. Üç gündən sonra hava hücumundan bizə dəstək gəldi (dron), biz mühasirədən çıxdıq.

Oradan da döyüşə-döyüşə Suqovuşan, Kəlbəcər istiqamətinə getdik. Orada da, şəhidlərimiz və yaralılarımız oldu. Biz şəhid və yaralılarımızın qisasını almaq üçün daha da hirs və nifrətlə ermənilərə hücuma keçib, onları məhv etdik, şəhidlərimizin qanını yerdə qoymadıq, qisasımızı aldıq.

Oradan bizi qaytardılar Füzuli istiqamətinə və döyüşlərə davam etdik, çox atışdıq, ağır döyüşlər getdi, ölüm hər an başımızın üstünü kəsdirirdi. Füzulidə torpaqlarımızın bir hissəsini azad edib, Araz boyu Cəbrayıl istiqamətində döyüşə girdik. Çox çətin günlərimiz oldu, 9 gün ac, susuz döyüşdük. Həm ərazi minalanmışdı, həm də biz çox irəlidə olduğumuzdan təminatı çatdıra bilmirdilər.

Oktyabrın 5-i günorta saat 2-3 radələri idi, dəstəmiz Cəbrayılın Daşkəsən kəndinə hücuma keçdi. Mənfur düşmənə göz açmağa belə imkan vermədən, qısa müddət ərzində onların səngərlərini, sığınacaqlarını dağıdıb, 60-70 nəfərədək heyətlərini, tanklarını, tibb maşınlarını və s. texnikalarını məhv etdik və irəli getdik. Meşəlik ərazidə ermənilərin hərbi hissələrinin yaxınlığında eşalonları ilə qarşılaşdıq və döyüşə girdik. Çox qızğın döyüş gedirdi, hər tərəfdən güllə, mərmi yağış kimi yağırdı. Bütün dəstə üzvləri kimi mən də böyük ruh yüksəkliyi və qisas eşqilə döyüşürdüm, düşmən yerimi təsbit etmişdi, sağ qolumdan güllə yarası aldım, həm də yaxın məsafəmdə mərmi partladı, partlayışın dalğasından kəllə beyin travması aldım. Bir iş yoldaşım vardı, Anar Əmirov, şəhid oldu, Allah ona rəhmət eləsin. Mənim yaşamağımın səbəbi o insan olub. Mən yaralananda məni ərazidən o çıxardı, köməklik göstərdi. Olduğumuz ərazini elə atəşə tutmuşdular ki, oradan salamat çıxmaq mümkün deyildi. Anar mənə ilkin tibbi yardım göstərdi, qolumu sarıdı. Mən də şəhid olmaq istəyirdim, qismət olmadı. Məni təxliyyə elədilər Füzulinin Əhmədbəyli hospitalına, oradan Papaninə göndərdilər, oradan da Semaşko xəstəxanasına, orada müalicələ-

rim davam etdi. Sonra Daxili Qoşunların Hospitalında, Daxili İşlər Nazirliyinin 1 saylı klinikasında, Bakıda Lor hospitalında və Müdafiə Nazirliyinin hospitalında müalicə olundum. Hazırda isə müalicələrimi Gəncə və Daşkəsəndə davam etdirirəm. Sol qulağımda qulaq pərdəsi deşilib, hər iki tərəfli ağır eşidirəm, hər iki gözümdə zəif görmə yaranıb və s.

Çox təəssüf edirəm ki, yaralandım, Şuşayadək döyüşə bilmədim, ən böyük arzum Şuşanı azad etmək idi, etdik də. Çox sevinirəm ki, biz bir olduq, Dəmir yumruq olaraq bir yerə vurduq və torpaqlarımızı düşmən tapdağından azad etdik. Bu müharibədə Azərbaycan əsgərləri çox güclü və cəsarətli idilər. Baxmayaraq ki, çox çətin günlərimiz oldu, amma biz daim irəli getdik, canımız, qanımız bahasına qələbə çaldıq".

Təltifləri:

"Doyüşdə fərqlənməyə görə" medalı. Sərəncam № 2354. 18.12.2020.

"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2376. 29.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

"Şücaətə görə" medalı. Əmr № 703. 03.11.2020.

Tağıyev Seymur
Nəsrəddin oğlu
Baş çavuş



1972-ci il sentyabrın 22-də Daşkəsən şəhərində anadan olub. 1989-cu ildə Daşkəsən şəhər Səməd Vurğun adına 4 saylı tam orta məktəbi bitirib, Gəncə şəhər İnşaatçılar texnikumuna qəbul olub. Bir il təhsil aldıqdan sonra 1991-ci ildə Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, təhsilini yarımçıq qoyaraq hərbi xidmətə gedib. Ukrayna Respublikasında hərbi hava qüvvələrində bir il xidmət edib. Vətəndə müharibə başladığı üçün könüllü olaraq onu Azərbaycana göndəriblər. Daşkəsən rayonunda N saylı hərbi hissədə xidmətini davam etdirib. Daşkəsən, Gədəbəy, Kəlbəcər rayonları uğrunda gedən ağır döyüşlərdə kiçik çavuş, baş çavuş vəzifələrində iştirak edib. Kəlbəcər döyüşündən sonra müharibədə fəal iştirak etdiyi üçün taqım komandiri vəzifəsinə yüksəlib. 1996-cı ildə ordu sıralarından tərxis olunub. Hal-hazırda "Azərbaycan Vətən Müharibəsi Veteranları" İB-nin Daşkəsən şöbəsində sədr müavini vəzifəsində işləyir.

Vətən müharibəsində öz vəsaiti hesabına döyüş bölgələrinə dəfələrlə yardımlar aparmış və yaralı əsgərlərimizin Xoşbulaqdan Daşkəsən Mərkəzi Xəstəxanasına

daşınmasında kömək etmişdir. Yaralılar Xoşbulağa Hinaldağ, Qoturdağ, Ağçınqıl, Koroğlu yüksəkliklərində gedən döyüşlərdən Niva markalı və s. maşınlarla gətirilirdi. Oradan isə Seymurgil Daşkəsən camaatı ilə köməkli təcili yardım maşınlarına qoyub xəstəxanaya göndərirdilər.

Bu kitabın ərsəyə gəlməsində, məlumatların toplanmasında yaxından köməklik edib.

Təltifləri:

AVMV İB-nin sədri Füzuli Rzaquliyev tərəfindən
"Milli Ordu – 100" medalı. 11.06.2019.
"Müharibə veteranı" medalı. 11.06.2019.
"AVMV İB – 25 il" medalı. 30.09.2019.
"Böyük Zəfər" xatirə medalı. 15.10.2021.



Babayev Orxan Səfər oğlu
Çavuş

1989-cu il yanvarın 28-də Daşkəsən rayonunun Bayan kəndində anadan olub. Valideynləri Qərbi Azərbaycanın Dərələyəz mahalındandır. 2007-ci ildə Mikayıl Mustafayev adına Bayan kənd tam orta məktəbini bitirib. Hələ məktəb illərindən Orxan hərbi oyunlarda, hərbi təlimlərdə, idman oyunlarında fəal iştirak edərdi. Rayonlararası zona yarışlarında fəal iştirak edər, uğurlar qazanardı. Ən

böyük arzusu hərbçi olmaq idi. 2007-ci ilin yanvar ayında Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində müddətli hərbi qulluqçu kimi xidmət edib. 2008-ci ilin iyulunda xidmətini başa vurub, ehtiyata buraxılıb. Bir müddət müəyyən işlərdə işləyib, amma içindəki Vətən sevgisi onu özünə çəkirdi. Öz-özünə deyirdi ki, mən hərbçi olmalıyam, 1-ci Qarabağ müharibəsində şəhid olan dayım İsgəndərov Xaliq Hüseyn oğlunun, bibim oğlu Babayev Fərəməz Zəmin oğlunun, eləcə də, bütün şəhidlərimizin qisasını bizlər almalıyıq.

2013-cü ildə Orxan Daxili Qoşunların Xüsusi Təyinatlılarının N saylı hərbi hissəsində MAHHXHQ kimi xidmətə başladı. Bir müddət müəyyən kurslar, təlimlər keçəndən sonra Xüsusi Təyinatlı Qüvvələrin sıralarına qəbul olundu və 2014-cü ildə çavuş rütbəsi aldı.

2016-cı ildə ailə həyatı qurub, iki oğlu var.

XTQ-də xidmət etdiyi müddətdə peşəkarlıq səviyyəsini o dərəcədə artırmışdı ki, bunu döyüş meydanında sübut eləmək istəyirdi. Xidmət etdiyi illərdə çox istəyirdi ki, Ali Baş Komandan torpaqlarımızın azad edilməsi barədə əmr versin, o da döyüşçü kimi vuruşaraq Zəfər tariximizi yazanlardan biri olsun. Nəhayət o gün gəldi.

Orxanın danışdıqlarından:

"2020-ci il sentyabrın 26-dan 1-2 gün əvvəl bizə göstəriş gəldi, bizdə toplanış oldu. Dedilər ki, hazırlaşın, döyüş bölgəsinə istiqamət alırıq. Sentyabrın 26-da Ali Baş Komandanımız döyüşlərə başlamaq haqqında əmr verdi. Biz Göygöl istiqamətinə, Toğanaya gəldik. Oradan qalx-

dıq yol evinə, orada KamAZ-lardan düşdük, piyada Koroğlu postu istiqamətinə qalxdıq. Sentyabrın 27-si tezdən biz Koroğlu postuna çatdıq, yarım saat sonra bizə göstəriş verildi və döyüş başladı. Ömər postundan Koroğlu postunu vururdular, bizimkilər də qarşılıq verirdilər. Biz bir az orada gözlədik, sonra komandir göstəriş verdi və biz Kəlbəcər istiqamətinə keçdik. Orda düşmənin müəyyən sektorları var idi, Canavar-1, Canavar-2, qol deyirdilər ora. Solda Ömər postu idi, sağ istiqamətdə Canavar-1 və Canavar-2. Biz ora basqına girdik, oradakı yamacı ermənilər minalamışdılar, neytral zona idi. Bizim istehkamçılar həmin yerləri qısa müddətdə açdılar, bizim Xüsusi Təyinatlı bölməmiz ora daxıl oldu. Biz düşmənin ağlına belə gəlməyəcəyi istiqamətlərdən girib o sektorları darmadağın etdik. Düşmən heç başa düşə bilmədi ki, biz hardan, necə gəldik. İmkan belə vermədik ki, əllərinə silah götürsünlər.

Düşmənin xeyli sayda canlı qüvvəsini və texnikasını məhv edərək bütün mövqelərini, sektorlarını, postlarını ələ keçirdik. Bütün istiqamətlərdə artıq hücuma keçilmişdi. Hücuma girdiyimiz an hər şeyi gözə almışdıq, qərara gəlmişdik ki, bu torpaqlar bizimdir, azad etməliyik. Hər sektorda 20 nəfərədək şəxsi heyətləri olardı. Qırılan qırıldı, digər sektorlara xəbər vermişdilər deyə, bəziləri qaçmışdılar. Orada bizim şəhidlər də oldu, yaralılar da.

Biz 5 gün o mövqelərdə qaldıq, yüksəklikləri qoruyub saxladıq. Hər gecə bizə basqın edirdilər ki, o sektorları geri alsınlar. Amma, biz orda elə mövqelənmişdik ki, oranı bizdən almaq mümkün deyildi.

Onlar ərazidən çıxıb gedəndə orada bir dənə ağır çaplı silahları qalmışdı. Ağır olduğuna görə aparmamışdılar.

Təpiklə o silahı vurmuşdular, elə bilmişdilər ki, qırılıb. Bizə lazım olduğu üçün, mən o silahı təmir eləyib, işlək vəziyyətə gətirdim.

Biz əraziyə basqın edən vaxtı, orda sektorların böyründə qış tədarükünə görə odun yığmışdılar, mən o kötüklərin arasında durmuşdum. Onların bir dənə Pikap fason maşını ərazidən çıxarmaq istəyəndə, mən onu həmin ağır çaplı snayperlə vurdum. Atdığım an maşına dəymədi, daha doğrusu solundan dəydi, torpağa düşdü. Mən bildim ki, gülləm boşa çıxdı. Maşın növbəti döngəni çıxıb aşağı düşəcəkdi, son şansım idi, vura bilməsəm maşın ərazini tərk edəcəkdi. Mən onu müşahidədə saxlamışdım. Nəzərə aldım ki, maşının hardasa 1.5 metr sağından nişan almalıyam. Atdım, mərmi maşının qabaq burnundan girdi, bütün mator sistemini dağıtdı. Gördüm maşın getdi, dönmədi, yolun altına, dərəyə düşdü və aşmağa başladı. Arxayın oldum ki, maşını vurmuşam. Maşın 2-3 dövrə vurdu, içində 3-4 nəfər idilər. Maşın yavaş-yavaş aşdığına görə, 2-si düşüb qaçırdı, yoldaşlarımız onları vurdular. Arxa tərəfdə onların bir bölmələri var idi, onlar postları və sektorları əsgərlər ilə təmin edirdilər. O bölmə də artıq arxadakı rəhbərlərinə məlumat vermişdi ki, daha burada qüvvəmiz qalmayıb. Onlara qüvvə gəlirdi, həmin vaxt biz düşdük aşağı yola. Kəlbəcərin Yanşaq kəndinin üstündə idik, tam yuxarı tərəfdə də Göyçə mahalının müəyyən tərəfləri görsənirdi. Onlar KamAz-larla əraziyə gələndə biz yola pusqu atdıq, o KamAz-ların bəziləri şəxsi heyətləri ilə birlikdə orda məhv oldu. Biz bütün ərazini müşahidə altında saxlayırdıq, gördük onlara dəstək üçün bir avtobusları gəlir. Həmin vaxt bizim pilotsuz aparat-

larımız oranı müşahidə altında saxlamışdı. Pilotsuz aparat özünü həmin avtobusa vurmuşdu, avtobusla birlikdə şəxsi heyət də məhv olmuşdu. Biz tam yüksəklikdə idik, duman, bulud bizdən aşağıda idi. Nə bir ağac, nə bir kol yox idi, hava çatışmazlığı vardı. Qida sarıdan çətinliklər olsa da, biz XTQ olaraq hər şeyə sinə gərib, torpağımızı azad etməli idik. Biz bir neçə gün orda qalandan sonra Müdafiə Nazirliyinin bölmələri, həmlə qrupları gəldi. Biz oraları o bölmələrə təhvil verərək, oradan çıxdıq və Cəbrayıl istiqamətinə gəldik. Biz ora çatanda o istiqamət hələ düşməndən tam azad olmamışdı. Orda da bizim bölmələrimiz döyüşmüşdü. Biz onlara dəstək getdik. Döyüşə girdiyimiz an düşmənin canlı qüvvəsi gəlirdi, onların tanklarını bizim artilleriyamız məhv elədi, dağıtdı. Şəxsi heyətlərinin də qabaqda olanlarını biz məhv elədik. Bir neçə gün orada döyüşdük, orada qabaq tərəfdə bir yüksəklik var idi. Bizə əmr verdilər ki, o yüksəkliyi götürmək lazımdır, komandirimiz də bizə göstəriş verdi ki, hazırlaşın. Biz həmin yerə sağ istiqamətdən, dağın arası ilə, tam da üstü ilə deyil, görüntü verməmək şərti ilə gedib ələ keçirməliyik. Biz gəlib həmin yerə çıxdıq, orda üç dənə təpə var idi. O yüksəkliklərin əldə edilməsi, hər təpənin qorunub saxlanması, müdafiəsi üçün 18-20 nəfər orada qruplara bölündük və o təpələri ələ keçirdik. Orda biz onları gözlədik, izlədik ki, görək bunların müşahidəçisi hardadır, bunlar hansı istiqamətdən gəlmək istəyirlər. Onlar da oranı almağı planlaşdırırdılar. Biz ora gələndə onlar oradan çıxmış, ərazini boşaltmışdılar. Ən sol təpədə bizim qrup yerləşdi. Təpənin alt tərəfində Cəbrayılın bir kəndi vardı, o kəndi tamam talan, darmadağın eləmişdilər, evlə-

rin təkcə divarları qalmışdı. Demək olar ki, bütün kəndləri yurd eləmişdilər. O yerlərə ürək yanğısı ilə baxırdıq ki, gör kəndlərimizi nə günə qoyublar. Evlərin xarabalarında kol-kos, ağac bitmişdi. Müşahidə edəndə gördüm ki, aşağı tərəfdə əsgərləri dayanıb. Biz olduğumuz yerdə də, təpənin üstünə hədəf üçün bir dənə jiquli təkəri qoyublar. Orda bir yoldaş dedi ki, bəlkə bu təkəri ataq aşağı. Komandirimiz dedi ki, olmaz, əgər təkəri salsaq, onlar biləcək ki, burada kimsə var, təkər onların nişan yeridir. Onlar tankla o təkəri nişan alıb vura biləcəklər. Biz də təkəri salmadıq. Amma onların müşahidəçisi bizi görmüşdü. Düşmən bölmələri hücuma keçdilər, biz döyüşdük. Həmin vaxt onlar Cəbrayıla əks hücum eləmişdilər, amma bacara bilmədilər. Tanklar gəldi bizi keçdi, əgər onlar geri qayıdası olsaydılar, biz mühasirədə qalacaqdıq. Onların şəxsi heyətləri bizi görmüşdü, yavaş-yavaş təpənin üstünə tərəf çıxdılar. Son anda komandirimiz qərar verdi ki, artıq buradan çıxmalıyıq. Aramızda 300 metr məsafə vardı. Onlar tam təpəyə qədər çıxdılar, aramız heç 100 metr deyildi, biz döyüşə başladıq. Biz yüksəklikdə, onların təpənin üstündə qazdıqları səngərdə idik. Onlar yuxarı çıxdıqca, biz əl qumbaralarını onların üstünə atırdıq ki, bizə yaxınlaşa bilməsinlər. Orada onların xeyli sayda canlı qüvvəsini məhv elədik. Aşağıda onların bölmələri var idi, amma bizə tərəf gəlmədilər, gördülər ki, bacarmırlar. Bizim sektorumuz normal idi, oturmuşduq səngərin içində. Onlar qorxularından təpəyə çıxa bilmirdilər, bilirdilər ki, əl qumbaraları ilə vuracağıq. Biz ərazidən çıxanda, ərazi tam sakitlik idi, arxamıznan gələn olmadı. Bir oradakı kəndləri, şəhəri aldıq. Biz öndə gedirdik, aldığımız yüksəklikləri Müda-

fiə Nazirliyinin ordu qurumlarına təhvil verir və yenə də irəli gedirdik. O döyüşdə bir yoldaşımız şəhid olmuşdu, onu oradan çıxarıb gətirdik Cəbrayılın mərkəzinə, sanitarla yola saldıq. Şükür ki, yaralananımız olmamışdı, yalnız yüngül xəsarət alanlar vardı.

Orda komandirimiz bizə yemək təşkil eləmişdi. Ərzaqla təmin olunduq, gəldik gecəni Daşkəsən kəndində qaldıq. Həmin vaxt bizə xəbər verdilər ki, siz Hadrut istiqamətinə gedəcəksiniz. Sonra plan dəyişdi, gəldik Füzuli istiqamətinə, orada kəndlərin alınması üçün döyüşdük. Döyüş bitdikdən sonra yaralıları qaynar nöqtələrdən çıxarmağa kömək elədik. Orada şəhidlərimiz də oldu. Çox kəskin və sərt döyüşlər gedirdi, amma biz dayanmadan irəliləyirdik. Sonra yenə qayıtdıq Hadrut istiqamətinə. Hadrut istiqamətinə qalxanda gecə bizi minamyotla atəşə tutdular. Çox yüksəklik idi, gündüz vaxtı idi deyə, gözləyəsi olduq ki, qaranlıq düşsün, sonra ərazini çıxaq yuxarı. Gündüz vaxtı onlar bizi gördükləri üçün, ancaq bizə uyğun yerlərdə hərəkət edə bilirdik. Həmin vaxt 4-cü qrup yuxarıda idi. Bizim bölməmizin biri və biz qalxdıq Hadrutun qabaq baş istiqamətinə. Sonra qarşı tərəfə təminat gəldi. Həmin vaxt 4-cü qrup onları məhv eləmişdi, biz də gəldik, çıxdıq ora. Orda hamı bir-birini tanıyırdı, yoldaşlarla görüşdük, bir-birimizi görməyə çox sevindik, hər kəs mənim üçün doğma, əziz idi, neçə il çiyin-çiyinə döyüşmüşdük. Orda mənə daha yaxın olan Abdullayev Şəhriyar idi. Mən yoldaşlardan soruşdum ki, Şəhriyar hardadır? Gördüm ki, bir cür oldular, dedilər ki, şəhid olub. Mən çox pis oldum, gəldim Şəhriyarın yanına, gördüm ki, üzərinə yağmurluq atıblar. Üzünü açdım ki, bəlkə o deyil, amma Şəhriyar idi.

Oturdum yanında, bir az gözlədim, özümü çox pis hiss edirdim. Biz Şəhriyarla bir kənddə böyümüşük, bir məktəbdə oxumuşuq, canbir, bir qəlb olmuşuq, mənə çox ağır idi. Bir sinif məndən yuxarı olub, amma gözəl münasibətimiz olub. Cavanlığımız, yoldaşlığımız bir olub. Sonra sanitar gəldi, orda daha bir şəhidimiz və yaralımız var idi, onları sanitarla yola saldıq. Sonra komandirimiz göstəriş verdi ki, biz Hadrut istiqamətində döyüşə-döyüşə, buraları təmizləyə-təmizləyə irəli getməliyik. Biz düşdük Hadrutun altına, ordan altdan yuxarı getdik, təpələrin başı ilə Hadrutu fırlandıq, içinə girmədik, altı ilə keçdik, tam təpənin başına çıxdıq. Meşəlikdən düşdük, Hadrutun o tərəfi açıq təpələr idi. Biz o təpələrdən gecə hərəkət elədik, gündüz orda olduq, axşam düşdük Hadrutun altına. Həmin təpələri gecə əhatəyə aldıq, orda bir neçə gün ağır döyüşlərimiz oldu. Xocavənd rayonunun Ağoğlan (Hadrut) qəsəbəsi uğrunda böyük bir döyüşümüz oldu. Bizim də itkilərimiz olurdu, buna çox üzülürdük. Amma yaralı yola salanda sevinirdik ki, sağ qalacaq. O döyüşlərdə yaralılarımız var idi, onları döyüş meydanında atıb getmədik, hər zamanki kimi kürəyimizdə daşıyıb, müəyyən yerə qədər gətirdik. Xocavənd rayonunun bir neçə kəndinin azad olunmasında iştirak etdik. Ermənilərin bizimlə döyüşməyə gücləri, hünərləri çatmırdı, onların döyüşü 3-5 dəqiqə idi, sonra leş olurdular, qalanları da qaçırdı. Hər döyüşə girəndə mən 3-5 erməni öldürürdüm. Səngərə girəndə onlara imkan vermirdim ki, bizə qarşı hərəkət etsinlər, silaha əl atsınlar. Yeri gələndə əlbəyaxa da döyüşürdük. Biz səngərlərə o dərəcədə peşəkarcasına girirdik. Mən 35-40-a qədər erməni öldürmüşəm.

Əraziləri düşməndən təmizləyəndən sonra döyüşə-döyüşə gəldik Şuşa ətrafındakı Topxana meşəsinə. Axşam saat 4-5 radələri idi. Biz gecələr yol gedib, gündüzlər dincəlirdik. Meşələrdə də bizə basqı və pusqular oldu, amma XTQ olaraq geri dönüşümüz ola bilməzdi. Biz onların qarşısını alırdıq. Orada komandirimiz qərar verdi ki, burada gecələyəcəyik. Həmin vaxtı meşənin içində çəpə-çevrə alırdıq. Xüsusi Təyinatlılar kom halında ola bilməz, biz əraziyə bölünməliydik. Ərazidə dairə şəklində mühafizə təşkil olunmalıydı ki, biz gecə orda qala bilək. Biz dairə şəklində oranı götürdük, yerlərimizi təyin elədik və mövqeləndik. Mən öz mövqeyimi hazırladım, əl çantam arxamda idi, onun ağzını açıb gecəgörmə cihazını çıxarıb silahın üstündəki qurğuya yerləşdirməli idim ki, gecə ərazini müşahidə edəm. Onu gündüzdən taxmalı idim, çünki gecə işıq yandırmaq olmur. Mən döndüm arxaya ki, cihazı çantadan çıxardam, bu zaman qolum bir az qabağa çıxdı. Sən demə, mən çantanın ağzını açanda sol tərəfdən snayper məni müşahidə edirmiş, sol qolumdan vurdu. Snayperin atışı ilə onlar döyüşə başladılar, birinci hədəf də mən idim. Mən vurulan kimi yıxıldım, məndən çıxan güllə yaxındakı yoldaşımın boynuna girdi, o şəhid oldu. Mən çalışdım ki, özümü müdafiə edim, sağ əlimlə özümü arxaya sürüşdürdüm, düşdüm çökəyə. Mən aşağı düşəndə gördüm qolum fırlandı, düşdü başımın üstünə, buruq idi. Əlimlə fırladıb düzəltdim, qolumu dəri saxlayırdı, çiynim qalıb aşağıda, sümük çıxıb çölə, qan fışqırıb sürətlə yerə axır. Yaxınlıqdakı yoldaşıma dedim ki, mən ağır yaralanmışam, qolum artıq yox vəziyyətindədir. O, mənim qolumu yoxladı, dedi ki, qolun yerindədir, qırılıb. Mənə

ağrıkəsici vurub qolumu jqutla bağladılar. Sağ olsunlar, ilkin tibbi yardım göstərdilər. Güllə arterial damarları, vətərləri və sümüyü qırmışdı deyə, sanitar dedi ki, əgər həyatda qalmaq istəyirsənsə jqutu açma, qoluna onsuz da qan getmir, qolun amputasiya olunsa da, sən həyatda qalarsan. Əgər bir saatdanbir jqutu açsan qan yerə axar, sən qanitirmədən şəhid olarsan. Mən də onun dediyinə razı oldum, jqutu açmadım.

Deməli, əl qumbaraları sinəmin üstündə yuxarıda, daraqlar aşağıda idi, güllə ikisinin arasından keçmişdi. Əgər bir az yuxarıdan keçsəydi, əl qumbarasını tutacaqdı, mən də şəhid olacaqdım.

Yoldaşlarım məni vuran snayperi vurub, onun silahını - snayperi gətirmişdilər. Həmin vaxt həm şəhidlərimiz, həm də yaralılarımız var idi.

Atəş dayanandan sonra mən bir yaralı yoldaşımı da sağ əlimlə birtəhər kürəyimə atıb yuxarı çıxdım, orda yoldaşlar kömək elədilər. Həmin vaxt bizim Xüsusi Təyinatlı qrupumuz, şəxsi heyətimiz düşmənin canlı qüvvəsini şok atəşilə məhv etdi. Qaçanlar qaçdı, qalanlar leş oldular. Biz bir gün yarım orada yaralı vəziyyətdə qaldıq, şəhidlər də yanımızda. Jqutu açа bilmədiyim üçün dəhşətli dərəcədə ağrı vardı, jqutu tam çiynimdən sıxmışdılar, yerini dəyişməyə belə imkan yox idi. Sonra təxliyyə gəldi və bizi Füzuliyə hospitala gətirdilər. Biz yola gecə çıxmışdıq ki, düşmən bizi görməsin, çünki, gördükləri hədəfi vururdular. Biz ora çox çətin şəraitdə gəldik, yollar tanınmaz halda idi, bilmirdik hansı istiqamətə gedirik.

Füzuli hospitalında ölkənin hər tərəfindən ezam olunmuş həkimlər vardı. Hospitalda soruşdular ki, yaralanma

nə vaxt olub? Dedim ki, bir gün yarımdır mən jqutdayam. Mənə dedilər ki, keç otağa, mən də keçdim. Gördüm ki, bir qol çıxartdılar, mənim qolumu qoydular onun üstünə ki, sənin qolunu amputasiya eliyirik. Mən sistemin ləvazimatını əlimlə atdım kənara, sistem qolumdan çıxdı. Mən durmaq istədim, tibb bacısı məni təkrar uzatdı cərrah masasına. Dedim ki, kəsməyin, valideynlərimə zəng eliyin, bəlkə məni başqa xəstəxanaya götürəcəklər. Mən çox səs-küy elədim ki, ola bilməz, necə yəni qolum kəsiləcək. Təsəvvür edin ki, həmin an mən nə hisslər keçirdim, nələr yaşadım... Kəssəydilər neyniyəcəydim ki. Həkimə dedim ki, istəyirəm qolum qalsın, ehtiyac olsa, yenə döyüşə gedəcəm, yenə döyüşəcəm. Damar həkimi gəldi, əlindəki ləvazimatla qolumu yardı, qan çıxmadı. Kəsdiyini də hiss etmirəm. Həkimlərə dedi ki, 10 faiz işləmə ehtimalı var, bunu götürək Füzuli Mərkəzi Xəstəxanasına. Məni gətirdilər Füzuliyə, orda da əməliyyat masasını görəndə dəhşətə gəldim, düşündüm ki, bəlkə məni aldadıb buraya gətiribər. Orda bir xanım varıydı, hələ həkimlər gəlməmişdilər, ona dedim ki, sizə yalvarıram, mənə düzünü deyin, məni bura qolumu amputasiya eləməyə gətiriblər? Dedi ki, yox, qolunun damarlarını yaracaqlar. Həkimlər gəldi, narkoz verdilər... Məni ayıltdılar, yarı narkozlu, yarı oyaq vəziyyətdə idim, ilk anda adyalı üstümdən atdım, gördüm ki, kəsməyiblər, çox sevindim. Məni əməliyyat edib damarları və vətərləri tikmişdilər.

Məni göndərdilər M.Topçubaşov adına Respublika Elmi Cərrahiyyə Mərkəzinə. Bakıya gələndə yolda qolum açıldı, qan məni götürdü, ambulansın içi tamam qan idi. Qan itirən adam həmişə susuzluyur, susuzluqdan da ya-

nıram. Yolda mənə az-az su verirdilər, çünki su içəndə qan durulur, qan dövranı artır. Məni Topşubaşova gətirəndə özümdə deyildim, ayıldım ki, reanimasiyadayam, bütün aparatlar işləyir. Orda üç əməliyyatım olub. Mənə yüksək səviyyədə diqqət və qayğı göstərilirdi. Bir müddət müalicə olundum. Orda Rasim həkim var, qolumun qalmasının səbəbi o olub. Noyabrın 25-də mənə dedi ki, sənin qoluna qan dövranını gətirdik, amma barmaqlarına qan gəlmədi, ona görə də barmaqlarını kəsəcəm. Noyabrın 26-da ikinci dəfə əməliyyat olundum, 4 barmağımı amputasiya etdilər. Bir gün reanimasiyada qaldım, sonra gəldim palatama və müalicələrim davam elədi. Allah Rasim həkimin də, digər bütün həkimlərimizn də canını sağ eləsin, bizə çox qayğı göstərdilər. Bütün xidmətlər dövlət tərəfindən idi. Müzəffər Ordumuzun Ali Baş Komandanı cənab İlham Əliyev bu işlə çox yaxından məşğul olurdu. O, tapşırıq vermişdi ki, bütün yaralılara necə lazımdırsa, xidmət göstərilsin.

3-cü əməliyyatım olmalı idi – estetik dəri köçürmə və millərin dəyişdirilməsi. Məni göndərdilər Elmi Tədqiqat Travmotologiya və Ortopediya İnstitutuna. Həkimləri sağ olsunlar, burada da yaxşı qarşıladılar. Əməliyyat olundum, bütün müalicələrimi həyata keçirdilər. Bir müddət sonra göndərdilər hospitala, orada yoxlanışdan sonra göndərişimi Daşkəsənə verdilər.

Mən döyüşə gedəndə 1-ci Gəncə şəhər Şəhidlər Xiyabanına getmişdim. Orada şəhid dayımla müəyyən fikirlərimi paylaşdım ki, sənlə halallaşıb gedirəm müharibəyə. Gələndə də getdim şəhidlərimizi ziyarət etdim. Orda artıq 2-ci Qarabağ müharibəsinin də şəhidləri dəfn olunmuşdu. Gəldiyimi eşidib kəndimizdən də ora xeyli ziyarətçi

gəlmişdi, məni orada qaşıladılar. Onlarla birgə şəhidlərimizi ziyarət elədim, onlara baş əydim, Allahdan rəhmət dilədim, məzarlarına qərənfillər düzdüm. Oradan gəldim kəndimizə - Bayana. Bütün kənd camaatı, dost, tanış, qohum-əqraba məni hörmətlə qarşıladılar, qurban kəsdilər. Çox sevinirəm ki, torpaqlarımızı azad etdik. Biz düşmənə yaxşı dərs verdik. Çox təəssüf edirəm ki, yaralandım, döyüş yoldaşlarımla axıra qədər gedə bilmədim. Amma çox xoşbəxtəm ki, torpaqlarımızın azad olunmasında mənim də payım var".

Təltifləri:

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2370. 29.12.2020.

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.

"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2712. 24.06.2021.

"Cəsur döyüşçü" medalı. Sərəncam № 2724. 24.06.2021.

27.05.2021-ci ildə Daşkəsən rayon Heydər Əliyev Mərkəzinin direktoru Nailə Məmmədova tərəfindən "Xalqımızın birliyi, torpaqlarımızın bütövlüyü uğrunda, Vətən qarşısında borcunu şərəflə yerinə yetirdiyinə və bu yolda canından keçməyə hazır olduğuna görə" və 15.10.2021-ci ildə "Vətən uğrunda göstərdiyi mərdliyə və şücaətə görə" Təşəkkürnamələr ilə təltif olunmuşdur.

Bayramov Samir
Qüdrət oğlu
Çavuş



1997 -ci il fevralın 18-də Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 2015-ci ildə Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbi bitirib. 2015-ci il aprelin 4-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Lənkəran şəhər N saylı hərbi hissədə 3 ay təlim keçdikdən sonra, Beyləqan rayon N saylı hərbi hissədə əsgər-qumbaraatan vəzifəsində xidmət edib. 2016-cı il oktyabrın 20-də ehtiyata buraxılıb. 2017-ci ilin sentyabrında Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində müddətdən artıq həqiqi hərbi xidmət kursunu keçib, Müdafiə Nazirliyinin sərəncamına əsasən Ağcabədi rayon N saylı hərbi hissədə manqa komandiri kimi xidmətə başlayıb. 6 ay orada xidmət etdikdən sonra Müdafiə Nazirinin sərəncamına əsasən Daşkəsən rayon N saylı hərbi hissəyə göndərilib, manqa komandiri kimi xidmətini davam edib. Qrupun hazırlanmasında nümunəvi iştirakına görə hərbi hissənin komandiri tərəfindən Fəxri Fərmanla təltif edilib.

Vətən müharibəsinin ilk günlərindən xidmət etdiyi hərbi hissənin tərkibində öz hücum-həmlə qrupu ilə Kəl-

bəcər istiqamətində gedən döyüşlərdə iştirak edib. Verilən tapşırıqları hər zaman vaxtlı-vaxtında yerinə yetirib. Şəhidlərin çıxarılmasında göstərdiyi cəsurluğa görə hərbi hissə komandiri tərəfindən Fəxri Fərmanla təltif edilib. Torpaqlar işğaldan azad edildikdən sonra 2021-ci il fevralın 10-dan Gədəbəy rayon N saylı hərbi hissədə xidmətini davam etdirib. Martın 30-da xidmət müddəti başa çatdığına görə çavuş kimi ehtiyata buraxılıb. 2022-ci il sentyabrın 26-dan yenidən MAHHXHQ kimi Gədəbəy rayon N saylı hərbi hissədə xidmətə başlayıb.

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Budaqov Elnur Nizami oğlu
Çavuş



1991-ci il oktyabrın 13-də Daşkəsən şəhərində anadan olub. 2009-cu ildə Daşkəsən şəhər Anar Mürsəlov adına 2 saylı tam orta məktəbi bitirib. 2009-cu il oktyabrın 14-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Sumqayıt şəhər N saylı hərbi hissədə hərbi hava qüvvələ-

rində çilingər vəzifəsində xidmət edib. 2011-ci il aprelin 5-də ordu sıralarından tərxis olunub. 2012-ci ildən Daşkəsən Filizsaflaşdırma ASC-də işləyib. 2014-cü il fevralın 14-dən Daşkəsən rayon N saylı hərbi hissədə MAHHXHQ olaraq manqa komandiri, çavuş vəzifəsində işləyib.

20.03.2019-cu il tarixində N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Fəxrəddin Cavadov tərəfindən "Novruz Bayramı münasibəti ilə, döyüş və ictimai-siyasi hazırlığında əldə etdiyi nailiyyətlərə görə" Fəxri Fərmanla;

10.02.2020-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik Əflatun Nurəliyev tərəfindən "Hərbi hissənin yaranmasının 15-ci ildönümü münasibəti ilə və 26.06.2020-ci il tarixində "26 iyun Silahlı Qüvvələr günü münasibəti ilə döyüş hazırlığında və qoşun xidmətinin təşkilində əldə etdiyi nailiyyətlər və nizam-intizamı yüksək səviyyədə saxladığına görə" Fəxri Fərmanlarla təltif olunub.

Vətən müharibəsinin ilk günündən Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Elnurun danışdıqlarından:

"2020-ci il sentyabrın 27-də müharibə başlayanda Daşkəsən rayonunun Hinal dağı istiqamətində qrup şəklində ermənilərin 46 deyilən postuna hücuma keçdik. Həmin istiqamətdə ermənilər tərəfindən pusquya düşdük. Səhər saat 8-dən axşam saat 8-dək mühasirədə qaldıq. Axşam saat 8-dən sonra mühasirəni yarıb öz tərəfimizə keçdik. Sentyabrın 29-da 21 adlı posta getdik, 2 gün orada ermənilərin Ağdağ postunu müşahidə etdik. Oktyabrın 2-si səhər saat 8-də Ağdağ postuna hücuma keçdik, döyüşə-döyüşə irəliləyirdik. Ermənilərin postuna 40 metr qalmış 5

nəfər döyüş yoldaşımız şəhid oldu. Mən düşmənlə üz-üzə gəldim, bir-birimizə atəş açdıq, mən sol qolumdan yaralandım, güllə qoluma girib çıxmışdı, amma ermənini vurmuşdum. Biz o gün postu ala bilmədik, mən qayıtdım öz tərəfimizə. Məni Daşkəsən rayon Mərkəzi Xəstəxanasına apardılar, 6 gün orada yatdım, sonra Gəncəyə hospitala getdim, 6 gün də orada müalicə olundum, sonra qayıtdım öz hərbi hissəmizə.

2021-ci il iyunun 19-da Mərkəzi Hərbi Həkim Komissiyasının qərarına əsasən ordu sıralarından tərxis olundum".

Təltifləri:

"Döyüşdə fərqlənməyə görə" medalı. Sərəncam № 2354. 18.12.2020.

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

2022-ci ildə "Vətən Müharibəsi Əlillərinə Kömək" İB-nin Gəncə Regional Mərkəzinin sədri S.Məmmədov tərəfindən "Müzəffər Azərbaycan Ordusunun Vətən Müharibəsində tarixi Qələbəsinin qazanılmasında və müharibədə göstərdiyi igidliyə görə" Fəxri Fərmanla təltif olunub.

Ələkbərov Taleh
Tahir oğlu
Çavuş



1992-ci il iyunun 25-də Daşkəsən rayonunun Qıyıxlı kəndində anadan olub. 2010-cu ildə Göygöl rayonunun Ş.S.Əhmədov adına Zurnabad kənd tam orta məktəbini bitirib. 2010-cu ilin oktyabr ayında Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Daxili Qoşunların Quba rayon N saylı hərbi hissəsində çavuş rütbəsində Taqım komandirinin müavini vəzifəsində xidmət edib. 2012-ci ildə ordu sıralarından tərxis olunub. 2015-ci il iyunun 18-də MAHHXHQ kimi Azərbaycan Silahlı Qüvvələrinin Göygöl N saylı hərbi hissəsinin kəşfiyyat bölməsində çavuş, manqa komandiri vəzifəsində xidmətə başlayıb. 2019-cu il avqustun 2-dən sonra isə xidmətini davam etdirmək üçün Daşkəsən rayon N saylı hərbi hissənin 4-cü tabor 11-ci həmlə bölüyündə qumbaraatan vəzifəsində xidmətə başlayıb.

Vətən müharibəsi başlayan gündən Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib.

Talehin danışdıqlarından:

"Murovdağ istiqamətində post cəmləşmə yerimiz var idi, oradan Üçtəpə adlanan yüksəkliyə hücuma keçdik, çox əziyyətlər çəkdik, amma düşmənə sarsıdıcı zərbələr

endirdik. Biz 6 nəfər – 4 nəfər bizim bölmədən, 2 nəfər isə şəxsi heyətdən minalanmış sahələrdən düşmənin arxa istiqamətinə keçdik, oradan irəlilədik və düşmən postuna hücuma keçdik. Qabaq tərəfdən isə bizim postun şəxsi heyəti düşmənlə atışırdı. Düşmənin postda olan şəxsi heyətindən bir neçəsi qaçmağa başladı. Orada bizimlə postun komandiri var idi, bizim bölmənin komandiri deyildi, o komandirin silahında güllə qurtarmışdı deyə silahını atdı və ermənilər ilə əlbəyaxa çıxdı. Üç nəfər başladı komandiri təkləməyə, əsir götürmək istəyirdilər. Bizdə Nəzərov Emin var idi, şəhid oldu, ermənin 2-ni o, birini də komandir öldürdü, qalanları qaçdılar. F1-i atdıq posta, partladı, sonra girdik postun içərisinə, hər bir şəraitləri var idi. Orada ermənin 3 dənə telefonunu götürdüm, gətirdim korpusun zampolitinə verdim. Üçtəpə adlanan bu yüksəkliyi elə sentyabrın 27-si günü saat 13:00 radələrində ələ keçirdik. 28-i günü axşam Üçtəpənin qarşısında balaca posta hücum elədik. Arada 150-200 metr məsafə vardı. 3 qrupa bölündük, 1-ci qrup girdi, rəhmətlik Quliyev Elşən, Arzu, gizir Cəfərli Orxan və digərləri. Sonra 2-ci qrup girdi. Biz postu almışdıq deyə 3-cü qrupla irəlilədik. Biz girəndə gördük ki, onlar bizim dildə təmiz danışırlar. Bizə dedilər ki, ə, adam kişi olar, bizə atmayın, erməni bu tərəfdədir. Rəhmətlik Quliyev Elşən bizə qışqırdı ki, bunlar ermənidir, bizim dildə danışırlar, özünüzü qoruyun. Hərəmiz bir tərəfə dağıldıq. Mansurov Xətainin ayağından güllə girmişdi, orada qalmışdı, biz 6-7 nəfərlə geri çəkildik, ora girə bilmədik. Çünki, səhərə yaxın ora 7 maşın şəxsi heyət gəlmişdi, onlar güclü idilər, biz aldığımız posta qayıtdıq. Qayıdan vaxt şəxsi heyətimizin xeyli hissəsi-

ni həmin postda itirdik. Sonra biz kömək istədik, kömək gəlmədi. Komandir əlaqəyə çıxdı ki, sizi öldürəcəklər, 4-5 nəfərlə siz postu saxlaya bilməzsiniz, geri çıxın. Oradan çıxdıq, gəldik orta post deyilən yerə, dayaq məntəqəsinə. Sentyabrın 28-i axşam o posta girəndə qumbaraatandan müntəzəm istifadə etdiyimə görə mənim qulağımdan qan gəlirdi. Ordan məni endirdilər Xoşbulağa, briqadanın tibb məntəqəsinə, orada məni müalicə etdilər, bir gün orada qaldım, ayın 30-da mən könüllü olaraq yenidən maşınla döyüş bölgəsinə yoldaşlarımın yanına qalxdım. Orada 3 gün qaldıq.

Oktyabrın 2-də bir neçə nəfər şəxsi heyətlə rəhmətlik Polad Həşimovun aldığı postdan (21 postundan) düşmən əlində olan Ağdağ yüksəkliyinə hücuma keçdik. Minalanmış sahələrdən, səngərlərdən cığır açıb irəlilədik. Bizim hərbi hissənin kəşfiyyat bölüyü ermənilərin sekret minbatına girdi. Digər hərbi hissənin kəşfiyyat bölüyü Haça qaya deyilən istiqamətdən yol gəlirdi, Haça qaya dağında gələn erməni kalonlarının – maşınlarının yolunu kəsməli idilər, amma kəsməmişdilər. O maşınlarda gələnlərin çoxu erməni snayperləri idi. Haça qayadan gələn istiqamətdə ermənilərin şəxsi heyətinin hamısı dağlara səpələnmişdi. Ağdağın qarşısında adsız yüksəklik var idi, ordan snayperlər bizi işləyirmişlər. Biz postun yaxınlığına çatdıq, posta hücuma keçəndə manevr qrupu ilə düşmənin arxa tərəfindən irəlilədik. Düşmən postuna hücuma keçəndə 9 nəfər idik, bizi posta yaxın buraxdılar, həmin vaxt Cəfərov Mehmanla mən ikimiz qayanın dibi ilə qalxanda ermənilərin 2 hərbi qulluqçusu ilə üz-üzə gəldik, 2-ni də vurduq, onlar da başladılar bizi snayperlə bir-bir vurmağa. Ələsgərov Pərviz,

Rüstəmov Ələs, Zeynalov Arzu, leytenant Nadirli Ərtoğrul və daha bir nəfər şəhid oldular, 4 nəfər yaralandıq. Erməni snayperinin atəşi nəticəsində güllə başımdakı kaskanı deşib keçmişdi, mən özümdən getmişdim. Yaxınlıqda partlayan mərmi nəticəsində isə həm sağ əlimdən qəlpə yarası, həm də partlayışın dalğasından yerə çırpılaraq qapalı kəllə-beyin travması, baro travma və böyrəyimin birindən zədə almışdım. Əliyev Yaşar əlindən vuruldu, Budaqov Elnur qolundan. Bir nəfər də bəridə vurulmuşdu, bizim bölmədən deyildi, bizim qrupla getmişdi. Mən vurulanda səkret minbatın arxa tərəfinə dərəyə düşmüşdüm, ordan Cəfərov Neyman məni çiynində gətirmişdi bizim istiqamətimizə, öz postumuza, oradan da URAL markalı maşınla aşağı tabora düşürüblər, oradan da hərbi tibb maşını ilə məni Daşkəsən rayon Mərkəzi Xəstəxanasına gətirmişdilər, bir gün sonra ayılanda xəstəxanada olduğumu bildim. Başıma 5 tikiş qoyulmuşdu, əlimi də müalicə edirdilər. 10 gün xəstəxanada qaldıqdan sonra yenidən hərbi hissəyə qayıtdım. Bir müddət orada qalıb hərbi hissənin tibb məntəqəsində müalicəmə davam eladim. Sonra isə 5 aylıq sərəncama çıxarıldım və növbəti dəfə xidmətimə Kəlbəcər rayon N saylı hərbi hissənin 3-cü taborunda manqa komandiri kimi davam etdim. 40 gün orada xidmət etdikdən sonra yenidən səhhətimdə problem yarandığı üçün Bakı şəhəri Papanin ruhi dispanserinə göndərildim və 92 gün müalicə olundum. Müalicədən sonra 2021-ci il avqustun 31-də Azərbaycan Respublikası Silahlı Qüvvələrindən tərxis olundum. Sonra Bakı şəhəri Maştağa qəsəbəsində 1 nömrəli xəstəxanada 30 gün müalicə olundum. Mənə 3-cü dərəcəli əlillik təyin olundu".

Təltifləri:
"Döyüşdə fərqlənməyə görə" medalı. Sərəncam № 2354. 18.12.2020.
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Göyüyev Vüqar
Vilayət oğlu
Çavuş



1988-ci il fevralın 28-də Daşkəsən rayonunda anadan olub. 2006-cı ildə Gəncə şəhər Şah İsmayıl Xətai adına 13 nömrəli tam orta məktəbi bitirib. Elə həmin ilin iyulunda Gəncə Hərbi Komissarlığının Kəpəz rayon bölməsindən həqiqi hərbi xidmətə çağırılıb, Lənkəranda daxili qoşunların xüsusi təyinatlı bölüyündə manqa komandiri vəzifəsində xidmət edib. 2008-ci ilin yanvarında xidmətini başa vuraraq ordu sıralarından tərxis olunub. İki il müxtəlif işlərdə işləyib. 2010-cu ildən Qusarda, Gəncədə, Toğanalıda, Daşkəsəndə N saylı hərbi hissədə MAHHXHQ kimi manqa komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi

hissənin tərkibində Daşkəsən-Kəlbəcər istiqamətində gedən döyüşlərdə bir çox yüksəkliklərin azad edilməsində iştirak edib. Sonra Kəlbəcərdə xidmətinə davam edib. Hazırda da xidmətinə N saylı hərbi hissədə davam edir.

Təltifləri:

"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi" Yubiley medalı.
Əmr № 0110t. 24.06.2013.
"Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Yubiley medalı.
Əmr № 0190t. 26.06.2018.
"Qüsursuz Xidmətə Görə" 3-cü dərəcəli medalı. Əmr № 0158t. 26.06.2019.
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Həsənov Səbuhi
Şöhrəddin oğlu
Çavuş

1992-ci il noyabrın 29-da Daşkəsən şəhərində anadan olub. 2008-ci ildə Mədənçilər qəsəbəsi Nəriman Nərimanov adına tam orta məktəbin 9-cu sinfini bitirib. 2011-ci il yanvarın 4-də Daşkəsən RHK tərə-

findən həqiqi hərbi xidmətə çağırılıb, iki ay Cəlilabadda, sonra isə Bakıda sərhəd qoşunlarında xidmət edib. 2012-ci il iyulun 10-da ordu sıralarından tərxis olunub.

Müdafiə Nazirinin 1-ci müavini – Silahlı Qüvvələrin Baş Qərargah rəisinin 02.06.2016-cı il tarixli 59 nömrəli əmrinə əsasən N saylı hərbi hissədə 13.06.2016-cı il tarixldən 27.07.2016-cı il tarixinədək təşkil edilmiş motoatıcı manqa komandiri kursunu bitirib.

2016-cı il avqustun 29-dan Daşkəsən rayon N saylı hərbi hissədə motoatıcı manqa komandiri vəzifəsində xidmət edib. 31.07.2020-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Vüsal Sadıqov tərəfindən "Qurban Bayramı münasibəti ilə döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərinə və yüksək hərbi intizama nail olduğuna görə" Fəxri Fərmanla təltif olunub.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Səbuhinin danışdıqlarından:

"2020-ci il sentyabrın 27-si müharibə başladı, 29-u mən döyüşə getdim. Xidmət etdiyim hərbi hissə ilə bərabər Koroğlu-3 postunda döyüşmüşəm. Düşmənin Ağdağ istiqamətində irəliləyən avtomobil kalonundan 3 ədəd şəxsi heyət və sursatla dolu hərbi maşınlarını vurmuşam. Əlavə olaraq top və minaatan mərmilərini tank əleyhinə idarə olunan raketlə partladaraq məhv etmişəm. Müharibə qurtardıqdan sonra, noyabrın 27-də xidmət etdiyim hərbi hissəni Kəlbəcərə köçürtdülər, xidmətimə orada davam etdim. 2021-ci il martın 13-də öz istəyimlə ordu sıralarından tərxis olundum".

Təltifləri:
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Paşayev Elşad Əli oğlu
Çavuş

1979-cu il dekabrın 17-də Daşkəsən şəhərində anadan olub. 1997-ci ildə Daşkəsən şəhər Səməd Vurğun adına 4 saylı tam orta məktəbi bitirib. 1998-ci il aprelin 2-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Bakı, Bərdə, Goranboy, Ağdam və Gəncə N saylı hərbi hissələrdə sürücü, çavuş vəzifəsində xidmət edib, 2000-ci ildə tərxis olunub. 2014-cü ildən 2019-cu ilədək Daşkəsən rayon N saylı hərbi hissədə müddətdən artıq hərbi qulluqçu işləyib. 2016-cı ildə Lələtəpə istiqamətində gedən döyüşlərdə köməkçi kimi iştirak edib. Tərtərin Təzəkəndinə şəxsi heyət aparıb.

19.05.2018-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Siyavuş Mustafayev tərəfindən "03 may 2018-ci il tarixində "Ən yaxşı artilleriya divizionu" adı uğrunda keçirilən yarışın yüksək səviyyədə təşkil

edilməsi və keçirilməsində fərqləndiyinə görə" Fəxri Fərmanla təltif olunub.

2019-cu ildən 2020-ci ilin iyun ayınadək Ağstafa N saylı hərbi hissənin tank batalyonunda sürücü işləyib, 2020-ci ilin iyunundan xidmət yeri yenidən Daşkəsən N saylı hərbi hissəyə dəyişdirilib.

29.05.2020-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik Əflatun Nurəliyev tərəfindən "May ayının yekununa, döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi yüksək nəticələrə və yüksək hərbi intizama nail olduğuna görə" Fəxri Fərmanla təltif olunub.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Elşadın danışdıqlarından:

"Sentyabrın 27-dən Kəlbəcər istiqamətində gedən döyüşlərdə xidmət etdiyim hərbi hissənin komandir sürücüsü olaraq iştirak edirdim. 93 (Polad Həşimov), Koroğlu-3, Ağçınqıl və s. postlarda olmuşam. 93 nömrəli postdan öz şəxsi Niva markalı avtomobilim ilə yaralıları Qoşqar dağının ətəyində Çayqarışan deyilən yerdəki istilik kamplarına, Koroğlu-3 postundan yaralıları Zivlən kəndinə gətirirdim, oradan tibb məntəqəsinin təcili yardım maşınları aparırdılar. Torpaqlarımızı mənfur düşməndən geri almaq üçün əlimizdən gələni edirdik.

Atəşkəsdən sonra bir müddət müdafiədə qaldıq, sonra hərbi hissəmiz Kəlbəcərə köçürüldü. Mən də komandirim ilə ora getdim, iyunadək orada xidmət etdim, iyunda tərxis olundum".

Təltifləri:
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

20.03.2021-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Ramin Cabbarov tərəfindən "Novruz Bayramı münasibəti ilə, döyüş hazırlığında və qoşun xidmətinin təşkilində əldə etdiyi nailiyyətlərinə və nizam-intizamı yüksək səviyyədə saxladığına görə" Fəxri Fərmanla təltif olunub.



Rzayev Rza Bəhman oğlu
Çavuş

1991-ci il yanvarın 22-də Daşkəsən rayonunun Mollahəsənli kəndində anadan olub. 2008-ci ildə Mollahəsənli kənd orta məktəbini bitirib. 2009-cu ilin yanvarında Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, N saylı hərbi hissədə 3 ay çavuşluq və 82 minamyot üzrə kurs keçib. Martın 28-də N saylı hərbi hissənin 3-cü taboruna 82 minamyot bölüyünə göndərilib, 2-ci taqım komandirinin müavini vəzifəsində xidmət edib. 2010-cu ilin iyulun-

da ordu sıralarından tərxis olunub. 2011-ci ildə "Riyad" Şirkətlər Qrupunun mühafizə xidmətində mühafizəçi işləyib. 2018-ci ildə öz xahişi ilə işdən azad olunub.

2020-ci il sentyabrın 21-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən Vətən müharibəsinə çağırılıb, Gəncə N saylı hərbi hissəyə göndərilib. Oradan da Göygöl rayon N saylı hərbi hissəyə, 3-cü tabora göndərilib. Sentyabrın 27-si Kəlbəcər istiqamətində gedən döyüş əməliyyatlarında atıcı vəzifəsində iştirak edib. Noyabrın 27-si İstisudan keçərək Sarıyel və Alagöyçə gölü adlanan ərazidə yerləşiblər. Dekabrın 24-də İstisuya, 25-də isə N saylı hərbi hissəyə gəlib. Dekabrın 27-də tərxis olunub.

Təltifləri:
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

08.11.2021-ci il tarixində Azərbaycan Vətən Müharibəsi Veteranları İB-nin Daşkəsən şöbəsinin sədri Musayev Əli tərəfindən "Müzəffər Azərbaycan Ordusunun Vətən müharibəsində tarixi Qələbəsinin qazanılmasında göstərdiyi fədakar əməyinə və maddi-mənəvi dəstəyinə görə" Fəxri Fərmanla təltif olunub.



Yusifov Şahrux İlqar oğlu
Çavuş

1985-ci il iyunun 16-da Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olub. 2002-ci ildə Xoşbulaq kənd tam orta məktəbini bitirib. Elə həmin il Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə Kredit Ümumi İqtisadiyyat fakültəsinə daxil olub, 2007-ci ildə universiteti bitirib. 2007-ci il iyulun 3-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, 2008-ci ilin iyulunda ordu sıralarından tərxis olunub. 2009-cu ilin oktyabrından Daşkəsən elektrik şəbəkəsində debitorlarla iş üzrə mühəndis vəzifəsində işləyib. 2014-cü ilin oktyabrında öz ərizəsi ilə işdən azad olunub. 2015-ci il iyulun 5-də MAHHXHQ kimi Daşkəsən rayon N saylı hərbi hissənin 2-ci tabor tank əleyhinə taqımının 3-cü manqa komandiri vəzifəsində xidmətə başlayıb.

04.10.2015-ci il tarixindən 28.11.2015-ci il tarixədək Gəncə N saylı hərbi hissədə "Qumbaraatan komandiri" ixtisası üzrə tam kursu keçmiş və ona ilk hərbi ixtisası üzrə 3-cü dərəcə verilmişdir.

12.07.2015-ci il tarixdən Daşkəsən rayon N saylı hərbi hissənin 2-ci tabor 5-ci bölük 2-ci taqım 3-cü manqa komandiri vəzifəsində xidmət edib.

N saylı hərbi hissənin komandiri polkovnik Əflatun Mirəliyev tərəfindən "Döyüş hazırlığında və Qoşun Xidmətinin Təşkilində əldə etdiyi nailiyyətlərinə və nizam - intizamı yüksək səviyyədə saxladığına görə" Fəxri Fərmanla təltif olunub.

Vətən müharibəsi başlayan gündən Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Şahruxun danışdıqlarından:

"2020-ci il sentyabrın 27-si Kəlbəcərin Lev kəndi istiqamətində döyüşlərə qatıldım. Sentyabrın 29-da partlayış nəticəsində ənsə, sol dirsək nahiyəmdən və sol saidin yuxarı 1/3-nin yumşaq toxumalarından qəlpə yaraları aldım. Hərbi hissənin tibb məntəqəsində ilkin tibbi yardım göstərildikdən sonra ixtisaslı müayinə və müalicə məqsədilə məni N saylı hərbi hissəyə göndərdilər. Burada əməliyyat olundum, qəlpələri çıxardılar, müalicədən sonra 15 gün evə məzuniyyət verdilər. Müalicəmə ev şəraitində davam etdim, sonra öz hərbi hissəmə, xidmət etdiyim posta qayıtdım. Kəlbəcər təhvil verilənədək – noyabrın 25-dək müdafiədə qaldıq, sonra xidmətimə Kəlbəcərdə davam etdim. 2021-ci il avqustun 27-də əmək müqaviləm bitdiyinə görə tərxis olundum".

Təltifləri:

"Döyüşdə fərqlənməyə görə" medalı. Sərəncam № 2354. 18.12.2020.

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Abdıyev Elmir
Sərdar oğlu
Kiçik çavuş

1986-cı il sentyabrın 12-də Daşkəsən şəhərində anadan olub. 1991-ci ildə Daşkəsən şəhər Səməd Vurğun adına 4 saylı tam orta məktəbi bitirib. 2004-cü ildə SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, N saylı hərbi hissədə atıcı-tuşlayıcı vəzifəsində xidmət edib, 2006-cı ilin aprelində tərxis olunub.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris mərkəzində MAHHXHQ-nin hazırlıq kursunda 23.04.2012-ci il tarixdən 11.07.2012-ci il tarixə kimi fəaliyyət göstərən T-72 tank mexanik-sürücüsü kursunu bitirmişdir.

2012-ci ilin iyulundan MAHHXHQ olaraq kiçik çavuş vəzifəsində xidmətə başlayıb. Bakı, Tovuz, Ağstafa, Gədəbəy, Daşkəsən, Beyləqan, Gəncə rayonlarında xidmət edib.

29.07.2014-cü ildə Daşkəsən rayon N saylı hərbi hissənin komandiri general-leytenant Rövşən Əkbərov tərəfindən "Nümunəvi hərbi xidmətinə, döyüş və ictimai-siyasi hazırlığında əldə etdiyi nailiyyətlərə görə və Ramazan Bayramı münasibəti ilə" Fəxri Fərmanla;

28.05.2020-ci il tarixində Daşkəsən rayon N nömrəli hərbi hissənin komandiri polkovnik Əflatun Nurəliyev

tərəfindən "28 may Respublika Günü münasibəti ilə döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi yüksək nəticələrə və yüksək hərbi intizama nail olduğuna görə" Fəxri Fərmanla təltif olunub.

Vətən müharibəsi başlayanda Tərtərin Suqovuşan kəndi istiqamətində döyüşə başlayıb. Sonra Ağdam, Füzuli, Qubadlı istiqamətlərində döyüşüb. Oktyabrın 3-də Ağdam istiqamətində gedən döyüşlərdə yaxınlığına düşən artilleriya mərmisinin partlaması nəticəsində kəllə-beyin barotravması alıb. Bərdə xəstəxanasına gətirilib, müayinə olunub, 3 gün orada qalıb, çox yaralı gətirildiyi üçün yer olmadığından, Ağdamın Sarıcalı hospitalına göndərilib. Burada da müayinə olunub, bir neçə gün qalıb, öz istəyi ilə döyüşlərə qayıdıb. Müharibənin sonuna qədər Suqovuşan, Ağdam, Füzuli, Qubadlı istiqamətində tank mexanik-sürücüsü, kiçik çavuş vəzifəsində döyüşüb. Müharibə bitəndən sonra hərbi hissədən Bakıya, Papanin hospitalına göndərilib. Orada 27 gün müalicə olunub, göndərilib Buzovna Reabilitasiya Mərkəzinə. 15 gün də burada müalicə olunub və ordu sıralarından tərxis olunub.

Təltifləri:

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2711. 24.06.2021.

"Ağdamın azad olunmasına görə" medalı. Sərəncam № 2717. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250. 21.04.2022.



Alıyev Elcan Çərkəz oğlu
Kiçik çavuş

1991-ci il mayın 23-də Daşkəsən rayonunun Alaxançallı kəndində anadan olub. 2009-cu ildə Anar Mürsəlov adına 2 saylı tam orta məktəbi bitirib. 2009-cu il iyulun 2- də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Bakıda Hərbi Dəniz Qüvvələrində xidmət edib.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində 20.10.2010-cu il tarixdən 29.12.2010-cu il tarixə kimi fəaliyyət göstərən motoatıcı manqa komandiri kursunu bitirib. 2011-ci il yanvarın 5-dən MAHHXHQ kimi xidmətinə davam edib. Hərbi Dəniz Qüvvələrində Şturman Rabitə Xidmətində manqa komandiri olub. 2014-ci ilin martında iş yerini Daşkəsən rayon N saylı hərbi hissəyə dəyişdirib və 2-ci taborda snayper vəzifəsində xidmətinə davam edib. Oradan verilib 1-ci tabor 1-ci bölüyə tuşlayıcı minaatan komandiri vəzifəsinə, oradan da veriblər həmlə taboruna, sanitar-təlimatçı vəzifəsində xidmətinə davam edib.

Vətən müharibəsi başlayan gündən Kəlbəcər istiqamətində gedən döyüşlərdə həmlə taborunda sanitar təlimatçı vəzifəsində iştirak edib. Hal-hazırda xidmətinə davam edir.

Elcanın danışdıqlarından:

"Döyüşlərdə qrupda olmuşam, sanitar-təlimatçı kimi yaxşı fəaliyyətim olub, həm döyüşmüşəm, həm yaralılara ilkin tibbi yardım göstərmişəm. Ermənilərin Ağdam postunu ələ keçirmişik, sonra bizi veriblər düşmənin 4616 postunu azad etməyə, oranı azad edib, posta girmişik. Sonra bizi gətirdilər Şəmkirə, komplektləşdirməyə, Şuşa döyüşlərinə hazırlayırdılar. 92 nəfər maxedən 35 nəfər qalmışdıq, qalanı şəhid və yaralı olmuşdu. Orda eşitdik ki, düşmən məğlub olub, sülhə razıdır, öz xoşları ilə torpaqlarımızı verirlər. Sonra bizi qaytardılar öz yerimizə, bizi hazırladılar, girdik Kəlbəcərə, qızıl mədəni olan Zod istiqamətinə, orda post qurduq, postlarımızı yerləşdirdik, düşmənlə sərhəd qurduq. 2021-ci ilin aprel ayı idi, ordan bizi 052 ilə birlikdə qaldırdılar Göyçə istiqamətinə. Orada postlar var idi, onları tutduq, sonra orda postları qurduq, təhvil verdik N saylı hərbi hissəyə. İndi də bizi komando yaradıblar, hal-hazırda da komando briqadasında xidmət edirik".

Təltifləri:

"Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Yubiley medalı. 26.06.2018.

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Alıyev Elməddin
Çərkəz oğlu
Kiçik çavuş

1994-cü il oktyabrın 19-da Daşkəsən şəhərində anadan olub. 2012-ci ildə Daşkəsən şəhər Anar Mürsəlov adına 2 saylı tam orta məktəbi bitirib. 2012-ci il oktyabrın 22-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən hərbi xidmətə çağırılıb, Ağcabədi rayon N saylı hərbi hissədə xidmət edib, 2014-cü ilin aprelində tərxis olunub. 2016-cı ilin iyul ayından MAHHXHQ kimi Daşkəsən rayon N saylı hərbi hissədə kiçik çavuş sanitar-təlimatçı vəzifəsində xidmət edib.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi MAHHXHQ-nin hazırlığı kursunda N saylı hərbi hissədə 03.09.2018-ci il tarixdən 15.09.2018-ci il tarixədək təşkil edilmiş sanitar-təlimatçı ixtisası üzrə imtahanlarda iştirak etmiş, müsbət qiymətləndirilmiş və Sertifikat almışdır.

31.12.2019-cu il tarixində N saylı hərbi hissənin komandiri polkovnik Əflatun Nurəliyev tərəfindən "31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il münasibəti ilə döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərinə və yüksək hərbi intizama nail olduğuna görə" Fəxri Fərmanla təltif olunub.

Vətən müharibəsi başlayan gündən Kəlbəcər istiqamə-

tində gedən döyüşlərdə sanitar təlimatçı kimi iştirak edib. 2021-ci ilin mayında ailə vəziyyətinə görə işdən ayrılıb.

Təltifləri:
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Azərbaycan Vətən Müharibəsi Veteranları İB-nin Daşkəsən şöbəsinin sədri Musayev Əli tərəfindən "Müzəffər Azərbaycan Ordusunun Vətən müharibəsində tarixi qələbəsinin qazanılmasında göstərdiyi fədakar əməyinə və maddi-mənəvi dəstəyinə görə" Fəxri Fərmanla təltif olunub.

Allahverdiyev Allahverdi Şəmsəddin oğlu
Kiçik çavuş



1997-ci il iyunun 29-da Daşkəsən rayonunun Zəylik kəndində anadan olub. Əslən kəlbəcərlidirlər. 2015-ci ildə Daşkəsən rayon Quşçu kənd tam orta məktəbini bitirib. 2015-ci ildə SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Tərtər rayon N say-

lı hərbi hissədə tank əleyhinə artilleriya diviziyonunda xidmət edib. 2016-cı ildə Aprel döyüşlərində iştirak edib. 2017-ci il yanvarın 3-də ordu sıralarından tərxis olunub. 2019-cu il avqustun 8-də N saylı hərbi hissədə MAH-HXHQ kimi hərbi xidmətə başlayıb.

Vətən müharibəsində Kəlbəcər, Şuşa istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

Allahverdinin danışdıqlarından:

"2020-ci il sentyabrın 29-da Kəlbəcər istiqamətindən döyüşə girdik, ermənilərin 2333 postu istiqamətinə. Postun altında neytralda minaya düşdük. Sürpriz 3 dənə mina basdırılmışdı. Yoldaşım ayağı ilə minaya basdı, mina ayağını apardı. Onun da zərbəsi mənim ayağımı tutdu. Bizdən qabaq da bir yoldaşımız orada minaya düşmüşdü. Taqım komandirim elə bildi ki, mən də minaya düşmüşəm, mənə yaxın gələndə o da minaya basdı, mina ayağını apardı, şəhid oldu, məkanı cənnət olsun. Minanın partlayış dalğası məni götürüb çırpdı sol tərəfə, sağ sifətimi tutdu. Barıt dodağıma, sifətimə dolmuşdu, sifətim əzilmişdi. Mən şoka düşmüşdüm, travma almışdım. Həmin gecə orda qaldıq. Səhərisi digər dəstələr gəldi, bizi erməni postunun altından çıxartdı. Bizi gətirdilər Gəncə hospitalına, oradan da göndərdilər Şəmkir hospitalına. Orada yatmadım, müayinə və müalicədən imtina etdim. Xüsusi Təyinatlılar ilə Şuşaya yollandım. Getdik Beyləqanda dəstələrə bölündük - XTQ-nin bölmələrinə, oradan Cəbrayıl, sonra da Şuşa istiqamətində döyüşə girdik, Şuşanı aldıq. Şuşada minamyot mərmisinin partlayış dalğasına çox düşdük. Hər gün 3-5 şəhid və yaralımız olurdu. Şuşada bir ay qaldıq, sonra yenidən qayıtdıq Cəbrayıla. Oradan da Laçın dağlarına.

Yanardağ adlı dağda yerləşmiş ermənilәri oradan çıxartmağa getmişdik. Biz ora çatanda ermənilər bizə təslim oldular, biz də onları qabağımıza qatıb gətirdik bir kəndə. Kəndin adını bilmirdik, orada sülhməramlılar dedilər ki, burdan o tərəfə sizə aid deyil, ermənilәri burada qoyub, geri qayıda bilərsiniz, biz də qayıtdıq.

Sonra Şuşadan gəldik hərbi hissəmizə, gördük ki, hərbi hissəmiz köçürülüb Kəlbəcərə, İstisuya. Getdik İstisuya, oradan məni tərxis elədilər. Nazirlikdən zəng gəldi ki, qazisənmi. Hərbi hissədə də səhhətimlə bağlı xidmət edə bilmədim".

Təltifləri:

"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2370. 29.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

27.05.2021-ci il tarixində Daşkəsən rayon Heydər Əliyev Mərkəzinin direktoru Nailə Məmmədova tərəfindən "Xalqımızın birliyi, torpaqlarımızın bütövlüyü uğrunda, Vətən qarşısında borcunu şərəflə yerinə yetirdiyinə və bu yolda canından keçməyə hazır olduğuna görə" Təşəkkürnamə;

27.05.2021-ci il tarixində nmedia.az saytının Baş redaktoru Nicat Dilqəmli tərəfindən "Vətən uğrunda göstərdiyi mərdliyə və şücaətə görə" Fəxri Media Mükafatı ilə təltif olunub.



Allahverdiyev Nofəl
Səday oğlu
Kiçik çavuş

1985-ci il dekabrın 1-də Daşkəsən rayonunun Zağalı kəndində anadan olub. 2003-cü ildə Daşkəsən şəhər İmadəddin Nəsimi adına 1 saylı tam orta məktəbi bitirib. Orta məktəbdə oxuduğu müddətdə idmanın bir neçə növü ilə məşğul olub və uğurlar qazanıb.

10.02.1997-ci ildə Daşkəsən rayon Gənclər və İdman İdarəsinin rəisi İ.Sadıqov tərəfindən "Müstəqil Azərbaycan Respublikası Gənclərinin 1-ci forumunun 1-ci ildönümünə həsr olunmuş Mini-Futbol üzrə V-VI sinif şagirdləri arasında rayon birinciliyində 1-ci yeri tutduğuna görə" Vışe Znamya Sovetskoqo Sporta! mükafatı ilə;

11.12.2000-ci ildə Daşkəsən rayon Gənclər və İdman İdarəsinin rəisi İ.Sadıqov tərəfindən "Rzayev Rasim Rza oğlunun xatirəsinə həsr edilmiş Yunan-Roma güləşi üzrə Respublika şəhərlərarası turnirdə 69 kq çəki dərəcəsində 2-ci yeri tutduğuna görə" Fəxri Fərmanla təltif olunub.

03.04.2004-cü ildə Daşkəsən RHK-dan həqiqi hərbi xidmətə çağırılıb. N saylı hərbi hissənin kəşfiyyat bölüyündə kiçik çavuş rütbəsində və manqa komandiri vəzifəsində xidmət edib. Xidməti dövründə hərbi hissənin **Qərargah**

rəisi v.m.i.e, kapitan A.Quliyev tərəfindən Nofələ verilən Xidməti Xasiyyətnamədə yazılmışdır:

"Kiçik çavuş Abdullayev Nofəl Saday oğlu hərbi hissəyə gəldiyi ilk gündən özünü nizamlı, intizamlı, savadlı, bacarıqlı, işgüzar və hər zaman əmrə tabe olan bir hərbi qulluqçu kimi göstərmişdir. Komandir və rəislərin verdiyi bütün əmr və tapşırıqlara məsuliyyətlə yanaşır, vaxtlı-vaxtında və yüksək keyfiyyətlə yerinə yetirir. Hərbi işin, vəzifə borclarının öhdəsindən layiqincə gəlir. Hərbi hissədə keçirilən bütün təlim və məşqlərdə özünü yüksək cəhətdən göstərir".

2005-ci ildə N saylı hərbi hissə komandiri kapitan M. Yusifli tərəfindən "28 may Respublika günü münasibəti ilə vəzifə borcunun yerinə yetirilməsində fərqləndiyinə, döyüş hazırlığı və nizam-intizamda əldə etdiyi yüksək nailiyyətlərə görə" Fəxri Fərmanla təltif olunub.

Nofəl 2005-ci il iyulun 3-də xidmətini başa vurub və ordu sıralarından tərxis olunub. 2009-cu il fevralın 1-də Daşkəsən Filizsaflaşdırma ASC-də mühafizəçi vəzifəsinə işə qəbul olub. Oktyabrın 12-də həmin şirkətin mühafizə xidmətinin növbə rəisi vəzifəsinə təyin edilib. 2014-cü il fevralın 14-də öz xahişi ilə işdən azad olunub. Fevralın 18-dən N saylı hərbi hissənin 3-cü taborunun maddi-texniki təminat manqasında sürücü vəzifəsində xidmət başlayıb. Fevralın 27-də N saylı hərbi hissədə MAHHXHQ-nin hazırlığı kursuna daxil olub, aprelin 18-də həmin kursu bitirib, Daşkəsən rayon N saylı hərbi hissədə 3-cü dağatıcı taborun maddi-texniki təminat taqımında sürücü vəzifəsində işləyib. O vaxtlar həmin hərbi hissənin komandiri Mais Bərxudarov idi.

18.04.2014-cü ildə N saylı hərbi hissə komandiri polkovnik Mais Bərxudarov tərəfindən "Döyüş və ictimai-siyasi hazırlığında, nizam-intizamda yüksək nailiyyətlər əldə etdiyinə görə" Fəxri Fərmanla;

26.06.2014-cü ildə N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Polad Həşimov tərəfindən "26 iyun Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranması günü münasibəti ilə, döyüş hazırlığında, qoşun xidmətinin təşkilində əldə etdiyi nailiyyətlərə və nizam-intizamı yüksək səviyyədə saxladığına görə" Fəxri Fərmanla;

31.12.2015-ci ildə N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Elzamin Behbudov tərəfindən "Yüksək hərbi intizamına, döyüş və ictimai-siyasi hazırlığında əldə etdiyi nailiyyətlərə görə, 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il münasibəti ilə" Fəxri Fərmanla;

20.03.2019-cu ildə N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Fəxrəddin Cavadov tərəfindən "Novruz bayramı münasibəti ilə, döyüş və ictimai-siyasi hazırlığında əldə etdiyi nailiyyətlərə görə" Fəxri Fərmanla;

18.04.2019-cu ildə N saylı hərbi hissənin komandiri general-mayor Xəqani Cəbrayılov tərəfindən "N saylı hərbi hissənin tabeliyində olan birləşmə və hissələr arasında keçirilmiş Yunan-Roma idman növü üzrə 98 kq çəki dərəcəsində II yeri tutduğuna və 18.04.2019-cu ildə "N saylı hərbi hissənin tabeliyində olan birləşmə və hissələr arasında keçirilmiş Cüdo idman növü üzrə 100 kq çəki dərəcəsində II yeri tutduğuna görə" Diplomlarla;

N saylı hərbi hissənin komandiri polkovnik Əflatun Nurəliyev tərəfindən 26.06.2019-cu il tarixində "26 iyun

Silahlı Qüvvələrin Yaranması Günü" və 15.06.2020-ci il tarixində "15 iyun Milli Qurtuluş günü münasibətilə döyüş hazırlığında və qoşun xidmətinin təşkilində əldə etdiyi nailiyyətlərinə və nizam-intizamı yüksək səviyyədə saxladığına görə" Fəxri Fərmanlarla;

21.11.2019-cu ildə N saylı hərbi hissənin qərargah rəisi, hərbi hissə komandirinin müavini polkovnik-leytenant Ədalət Hacıyev tərəfindən "Döyüş Hazırlığında və Qoşun Xidmətinin Təşkilində əldə etdiyi nailiyyətlərinə və nizam intizamı yüksək səviyyədə saxladığına görə" Fəxri Fərmanla təltif olunub.

Vətən müharibəsi başlayan gündən Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüşlərdə sürücü kimi iştirak edib. Döyüş bölgəsinə silah-sursat, ərzaq və s. təminatı aparıb, yaralı və şəhidlərimizi geriyə gətirib.

Nofəlin danışdıqlarından:

"Bir dəfə Yeddi qardaş dağının 1-ci zirvəsinə, Ağçınqıl postuna təminat aparırdım. Dərə boşluğunda bizim 120 minaatan batareya yerləşirdi, yuxarıda, postda isə qızğın döyüş gedirdi, məni orada saxladılar, hərəkətə icazə vermədilər. Mən maşını kapanerin böyründə saxladım. 15-20 dəqiqə sonra fikirləşdim ki, əsgərlərə silah-sursat və ərzaq çatdırmalıyam. Daxili bir hisslə, özümdən asılı olmayaraq maşınla post istiqamətində hərəkət etdim. Aradan bir neçə dəqiqə keçmişdi ki, düşmən artilleriyası kaneri yerlə yeksan etdi. Məni sanki bir möcüzə xilas etmişdi. Dağın zirvəsi ilə hərəkət edirdim, düşmənin açıq hədəfi idim, atdıqları mərmilər maşının sağına-soluna düşürdü. Minaatan mərmilərinin qəlpələri maşının tentini bir çox yerlərdən zədələmişdi. Təhlükə nə qədər böyük olsa da,

mən Allahın köməyi ilə təminatı sağ-salamat posta çatdırmışdım.

Müharibə bitəndən sonra ermənilərin 32-65 postundan Kəlbəcərin Lev kəndinə yol çəkildi, noyabrın 25-də biz o yol ilə Kəlbəcərə getdik. Hal-hazırda da Kəlbəcər N saylı hərbi hissədə xidmətimə davam edirəm.

2021-ci ilin mart-aprel aylarında şəhidlərimizin axtarışı üçün qrup yaratdılar, qrupun iştirakçıları şəhidlərin döyüş yoldaşları idi. Mən də o qrupun sürücüsü idim. Neytralda qalan 4 şəhidin axtarışına başladıq, 4-nü də tapıb Gəncə 3 nömrəli xəstəxanaya gətirib təhvil verdik. Oradan isə hərbi ekspertizaya göndərilirdi".

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

26.06.2021-ci ildə N saylı hərbi hissə komandirinin vəzifələrini icra edən mayor Rasim Əliyev tərəfindən "Azərbaycan Ordusunun Yaranmasının 103 illiyi münasibəti ilə döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi yüksək nəticələrə və yüksək hərbi intizama nail olduğuna görə" Fəxri Fərmanla təltif olunub.

Bağırov Emin Xasay oğlu
Kiçik çavuş



1994-cü il aprelin 12-də Daşkəsən rayon Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 2011-ci ildə Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbi bitirib. 2012-ci il aprelin 19-da SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, 2013-cü ilin oktyabrınadək Qusar N saylı hərbi hissədə manqa komandiri vəzifəsində xidmət edib. 2014-cü ilin fevralından Daşkəsən rayon N saylı hərbi hissədə MAHHXHQ olaraq mühafizə manqa komandiri vəzifəsində xidmətə başlayıb.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Kəlbəcər, Cəbrayıl, Hadrut, Zəngilan istiqamətlərində gedən döyüş əməliyyatlarında iştirak edib.

Eminin danışdıqlarından:

"Çox çətin günlər gördük – atışmalar, şəhidlər, yaralılar... Üç gün ac, susuz mühasirədə qaldığımız günlər olub. Qubadlıda palatkamız vuruldu, şəhid və yaralılarımız oldu. Amma heç bir çətinlik bizi qorxutmurdu, bir məqsədimiz var idi, torpaqlarımızı şəhidlərimizin qisası ilə bərabər alaq. Allaha çox şükür ki, buna da nail olduq".

Təltifləri:
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.
"Vətən müharibəsi iştirakçıları" medalı. Sərəncam № 250s. 21.04.2022.



Əliyev Yaşar
Müseyib oğlu
Kiçik çavuş

1984-cü il sentyabrın 11-də Daşkəsən rayonunun Aşağı Daşkəsən qəsəbəsində anadan olub. 2001-ci ildə Aşağı Daşkəsən qəsəbə G.İsmayılov adına tam orta məktəbi bitirib. 2003-cü il yanvarın 3-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Naftalan rayon N saylı hərbi hissədə atıcı və manqa komandiri vəzifəsində xidmət edib. 2004-cü il iyulun 1-də ordu sıralarından ehtiyata buraxılıb. 2014-cü il sentyabrın 1-də MAHHXHQ kimi Daşkəsən rayon N saylı hərbi hissədə snayper vəzifəsinə təyin olunub. 01.11.2014-cü ildən 22.12.2014-cü ilədək N saylı hərbi hissədə hazırlıq kursu keçib. 23.12.2014-cü il tarixdən 2015-ci ilin sentyabrınadək Daşkəsən rayon N saylı hərbi hissədə snayper vəzifəsində xidmət edib. 2015-ci ilin sentyabr ayından 2019-cu ilədək

60 mm-lik minaatanda komandir vəzifəsinə təyin olunub. Sonra 4-cü taborun həmlə bölüyünə Baş atıcı vəzifəsinə təyin edilib.

23.09.2016-cı ildə N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Fuad Ələkbərov tərəfindən "60 mm-lik minaatan heyətləri ilə keçirilən praktiki atışda əldə etdiyi yüksək nailiyyətlərə görə" Fəxri Fərmanla təltif olunub.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Kəlbəcər istiqamətində döyüşüb.

Yaşarın danışdıqlarından:

"Sentyabrın 27-də biz Hinaldağ postundan ermənilərdə olan Konqor və Buğda postlarına hücum etdik, amma mühasirəyə düşdük. 3 gün mühasirədə qaldıq, sentyabrın 30-da dəstək gəldi, mühasirədən çıxdıq. Sonra bizi gətirdilər 2-ci taborun Çənlibel postuna, axşam oradan bizi düşürdülər taborun özünə. 2 gün orada qaldıq, oktyabrın 2-də Çənlibel postundan Ağdağ postuna hücuma keçdik. Orada əlimə snayper gülləsi dəydi, yaralandım. Yerimi dəyişən vaxt 2 snayper gülləsi də kürəyimdən bronojiletə dəydi, məni 5 m irəli tulladı. 2 saatadək orada qaldım, sonra bir yoldaşımın köməyi ilə əlimi sarıdım. Bir az sonra duman gəldi, yoldaşlarımla birlikdə oradan çıxdım. Məni gətirdilər Çənlibel postunun alt tərəfinə, oradan sanitar maşınla təxliyyə etdilər Daşkəsən Mərkəzi Rayon Xəstəxanasına. Orada tibbi yardım göstərdikdən sonra göndərdilər Gəncə şəhərinə hospitala, orada yer olmadığına görə gətirdilər Abbas Səhhət adına Xəstəxanaya. Orada bir ay yarım müalicə olundum, sonra getdim Şəmkir N saylı hərbi hissənin hospitalına. Oradan da 15-20 gün məzuniyyətə buraxdılar. Sonra təkrar xidmət etdiyim hərbi

hissəyə qayıtdım, xidmətimə davam etdim.

2021-ci ilin axırlarında manqa komandiri vəzifəsinə, bir müddət sonra isə 1-ci tabor 3-cü bölükdə kəşfiyyatçı-sanitar vəzifəsinə təyin edildim. 3-4 ay sonra komando kursuna göndərildim, kurs rəisi dedi ki, əlindəki zədəyə görə (əlimdə qaralma gedirdi) sən bu kursu keçə bilməzsən. Məni arxa cəbhəyə göndərdilər. 2022-ci ilin fevralında N saylı hərbi hissədə manqa komandiri vəzifəsinə təyin edildim. Hal-hazırda orada işləyirəm".

Təltifləri:

"Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Yubliley medalı. 26.06.2018.

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

25.06.2022-ci il tarixində N saylı hərbi hissənin komandiri kapitan İqbal Şərbətov tərəfindən "26 iyun – Azərbaycan Ordusunun Yaradılmasının 104-cü ildönümü münasibəti ilə döyüş və ictimai-siyasi hazırlığın yüksəldilməsində və hərbi intizamın möhkəmləndirilməsində əldə etdiyi nailiyyətlərə görə" Fəxri Fərmanla təltif olunub.

Haxverdiyev Bayram
Əli oğlu
Kiçik çavuş



1996-cı il martın 25-də Daşkəsən rayonunun Alunitdağ qəsəbəsində anadan olub. Şəhid Haxverdiyev Novruzun ekiz qardaşıdır. 2014-cü ildə Alunitdağ qəsəbə Rövşən Qafarov adına tam orta məktəbini bitiriblər. 2014-cü ildə əkiz qardaşı ilə birgə hərbi xidmətə gedib, Beyləqan N saylı hərbi hissədə xidmət edib, 2016-cı ildə ordu sıralarından tərxis olunub. 2016-cı ildə Daşkəsən rayon N saylı hərbi hissədə MAHHXHQ kimi işə girib, 6 il xidmət edib. Onun 3 ili Polad Həşimov olan postda olub.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi Müddətdən Artıq Həqiqi Hərbi Xidmət Hərbi Qulluqçularının Hazırlığı Kursunu bitirmişdir.

N saylı hərbi hissədə 03.09.2018-ci il tarixdən 15.09. 2018-ci il tarixədək təşkil edilmiş snayper ixtisası üzrə imtahanlarda iştirak etmiş və müsbət qiymətləndirilmişdir.

10.02.2019-cu ildə N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Fəxrəddin Cavadov tərəfindən "Hərbi intizamına, döyüş növbətçiliyində, döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə görə və hərbi hissənin yaranma günü münasibəti ilə" Fəxri Fərmanla;

N saylı hərbi hissənin komandiri polkovnik Əflatun Nurəliyev tərəfindən 09.05.2019-cu il tarixində "9 may – Alman faşizmi üzərində Böyük Qələbə Günü münasibəti ilə", 15.06.2020-ci il tarixində isə "15 iyun Milli Qurtuluş günü münasibəti ilə, döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi yüksək nəticələrə və yüksək hərbi intizama nail olduğuna görə" Fəxri Fərmanla təltif olunub.

Vətən müharibəsinin ilk günlərindən qardaşı Novruzla Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib. Ağçınqıl postunda tank əleyhinə qumbaraatan komandiri olub. Həmin döyüşlərdə Novruz şəhid, Bayram veteran oldu.

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Həsənov Şahlar İmamverdi oğlu
Kiçik çavuş

1993-cü il may ayının 29-da Daşkəsən rayon Zəylik kəndində anadan olub. 2011-ci ildə Zəylik kənd tam orta məktəbini bitirib. 2011-ci ilin iyul ayında Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Qaradağda N

saylı hərbi hissədə xidmət edib və 2013-cü ildə hərbi xidmətini başa vuraraq, ordu sıralarından tərxis olunub. 2013-cü ildə Şəmkir rayonunda Akkord şirkətində, daha sonra Bakı şəhərində elektrik malları mağazasında satıcı işləyib.

2019-cu ildə Gəncə şəhər N saylı hərbi hissədə MAH-HXHQ kimi Manqa komandiri vəzifəsində xidmətə başlayıb, daha sonra həmin hərbi hissədə artilleriya diviziyonunda top komandiri vəzifəsinə təyin olunub.

Vətən müharibəsi başlayan gündən Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib. Oktyabr ayının 3-də 1-ci dəfə sol dizindən yüngül yaralansa da, döyüşə davam edib. Oktyabr ayının 19-da 2-ci dəfə yaralanıb. Topdan atəş açan zaman ermənilər tərəfindən atılan 82 minamyot mərmisi yanına düşüb və ağır dərəcədə çoxsaylı qəlpə yarası alıb. Həmən gün günorta radələrində döyüş yerindən təxliyyə olunub, tibb məntəqəsinə gətirilib. İlkin tibbi yardım göstərildikdən sonra Daşkəsən Mərkəzi Rayon Xəstəxanasına gətirilib. Bir gün sonra Gəncə şəhər 230 saylı Hərbi Hospitala göndərilib, oradan da Abbas Səhhət adına Xəstəxanaya gətiriblər, orada müayinə və əməliyyat olunub. Noyabr ayının 16-da Qazax rayon Mərkəzi Xəstəxanasına aparılıb, müalicəsinə orada davam edib.

2021-ci il fevralın 15-də ordu sıralarından tərxis olunub və Tibbi sosial ekspert komissiyasi tərəfindən 2-ci qrup əlillik təyin olunub.

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

Həsənov Şəhriyar
Şahid oğlu
Kiçik çavuş



1995-ci il iyulun 4-də Daşkəsən rayonunun Gurbulaq kəndində anadan olub. 2012-ci ildə Gurbulaq kənd tam orta məktəbini bitirib. 2014-cü il iyulun 11-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Bakıda N saylı hərbi hissədə xidmət edib, 2016-cı il yanvarın 1-də xidmətini başa vurub ehtiyata buraxılıb. Doğma kəndi Gurbulağa qayıdıb və əkin-biçin işləri ilə məşğul olub. Ailədə 4 nəfər olublar – ata, ana və 2 qardaş. Hərbiyə böyük həvəsi olduğundan, 2018-ci il noyabrın 17-də yenidən MAHHXHQ kimi xidmətə başlayıb.

Vətən müharibəsinin ilk günündən xidmət etdiyi hərbi hissənin tərkibində Kəlbəcər- Murovdağ, sonra Füzuli, Cəbrayıl və Xocavənd istiqamətində gedən qızğın döyüşlərdə iştirak edib.

Şəhriyarın danışdıqlarından:

"Müharibənin ilk günlərindən çox sayda şəhid və yaralılarımız oldu. Çox üzülsək də yaralı və şəhidlərimizi təxliyyə edib, döyüşlərə davam etdik. Oktyabrın 15-də aşağı enib ordan dərhal Füzuli istiqamətində gedən döyüşlərə qatıldıq. Sonra isə Cəbrayıl və Xocavənd istiqamətində

gedən döyüşlərdə iştirak etdim. NTRB zirehli texnikasında doldurucu heyət nəfəri idim. Öz döyüş yoldaşlarımla bərabər şox sayda yaralıları odun-alovun içindən çıxararaq, təxliyyə olunmasına yardım etmişəm. Noyabrın 8-də Xocavənddə qızğın döyüşlər zamanı bizim texnikanı minamyotla vurdular. Mən və döyüş yoldaşlarım yaralandıq. Ondan sonra olanlardan xəbərim olmayıb. Gözümü açanda Füzuli xəstəxanasında idim. Sağ ayağımdan minamyot mərmisinin qəlpələrini təmizləmişdilər, bir həftə orada müalicə olundum. Xəstəxanaya çox sayda yaralı gətirilirdi, yer olmadığından məni Lənkəran xəstəxanasına təxliyyə etdilər. Orada da əməliyyat olundum, ayağımda qalan qəlpələri təmizlədilər. Bir həftə də orada müalicə olundum, sonra göndərdilər Bakıya Papaninə. Orada da bir həftə qaldıqdan sonra qayıtdım öz xidmət etdiyim hərbi hissəyə və bu günədək xidmətimə davam edirəm.

1-ci Qarabağ döyüşlərini görməsək də, televizorlardan izləmişik, hər an onları xatırlayırıq, adlarını ürək ağrısıyla anırıq.

Şəhid yoldaşlarımla olan günlərimiz, döyüşlərimiz, onlarla çiyin-çiyinə döyüşdüyümüz günlər heç vaxt yaddan çıxmaz. Bütün şəhidlərimizə Allah rəhmət eləsin.

Çox sevinir və qürur duyuram ki, qələbə bizimlə oldu, 30 il işğal altında qalan torpaqlarımızı azad etdik. Vətən sağ olsun! Vətənimizə qurban! Vətənimizin hər qarışı bizim üçün doğmadır, əzizdir. Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!"

18.10.2020-ci il tarixində N saylı hərbi hissənin komandiri kapitan Kənan Şirinov tərəfindən "18 oktyabr Müstəqillik günü münasibəti ilə nümunəvi hərbi xidmətə,

yüksək intizama, döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə görə" Fəxri Fərmanla təltif olunub.

Təltifləri:
"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 25.12.2020
"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2364. 25.12.2020.
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.
"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.
"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2714. 24.06.2021.

26.06.2021-ci il tarixində N saylı hərbi hissənin komandiri tibb xidməti polkovniki Hüseyn Əliyev tərəfindən "26 iyun Silahlı Qüvvələrin Yaranması Günü münasibəti ilə xidmət etdiyi müddət ərzində işinin aparılmasında savadı, bacarığı və işgüzarlığı ilə müsbət cəhətdən fərqləndiyinə görə" və 31.12.2021-ci il tarixində "31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibəti ilə vəzifəsinin öhdəsindən layiqincə gəldiyinə, döyüş və ictimai-siyasi hazırlığının yüksəldilməsində, hərbi intizamın möhkəmləndirilməsində, döyüş tapşırıqlarının yerinə yetirilməsində əldə etdiyi nailiyyətlərə görə" Fəxri Fərmanlarla təltif olunub.

Həşimov Emin
Hafiz oğlu
Kiçik çavuş



1982-ci il yanvarın 16-da Daşkəsən şəhərində anadan olub. 1999-cu ildə Daşkəsən şəhər Anar Mürsəlov adına 2 saylı tam orta məktəbi bitirib. 2000-ci il yanvar ayının 19-da Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Qusar N saylı hərbi hissədə sanitar təlimatçısı vəzifəsində xidmət edib, 2001-ci ilin iyul ayında tərxis olunub. Müxtəlif işlərdə işləyib. 2014-cü ildən Daşkəsən rayon N saylı hərbi hissədə MAHHXHQ kiçik çavuş olaraq manqa komandiri vəzifəsində xidmət edib.

27.10.2014-cü il tarixdən 21.12.2014-cü il tarixədək N saylı hərbi hissədə "Minaatan Kom" ixtisası üzrə tam kursu keçib. "Minaatan kom" ilk hərbi ixtisası üzrə 3-cü dərəcə üzrə Sertifikat alıb.

28.05.2016-cı ildə N saylı hərbi hissənin komandiri polkovnik Elzamin Behbudov tərəfindən "Hərbi intizamına, döyüş növbətçiliyində, döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə görə və Respublika günü münasibəti ilə" Fəxri Fərmanla;

26.06.2018-ci ildə N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Siyavuş Mustafayev tərəfindən "26 iyun – Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranma-

sının 100-cü ildönümü münasibəti ilə, eləcə də döyüş hazırlığında, qoşun xidmətinin təşkilində əldə etdiyi nailiyyətlərə görə" Fəxri Fərmanla;

10.02.2019-cu ildə N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Fəxrəddin Cavadov tərəfindən "Hərbi intizamına, döyüş növbətçiliyində, döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə görə və hərbi hissənin yaranma günü münasibəti ilə" Fəxi Fərmanla;

15.04.2020-ci ildə N saylı hərbi hissənin komandiri polkovnik Əflatun Nurəliyev tərəfindən "15 iyun Milli Qurtuluş günü münasibəti ilə, döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi yüksək nəticələrə və yüksək hərbi intizama nail olduğuna görə" Fəxri Fərmanla təltif olunub.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Eminin danışdıqlarından:

"Döyüşlərdə minbatda minaatan komandiri vəzifəsində iştirak edirdim. Döyüşlər zamanı nailiyyətlərim çox olub. Düşmənin bir neçə texnikasını və canlı qüvvəsini məhv etmişik. Atəşkəs elan olunduqdan sonra bir müddət olduğumuz mövqedə müdafiədə qaldıq. Sonra qayıtdıq öz hərbi hissəmizə, 15 gün sonra isə Kəlbəcərə getdik. 2022-ci ilin oktyabrınadək orada müdafiədə qaldıq. Müddətdən artıq xidmətimin müqavilə müddəti bitdiyinə görə dekabrda ordu sıralarından tərxis olundum".

Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin üzvüdür.

Təltifləri:
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Hüseynov Pərvin
İntiqam oğlu
Kiçik çavuş



1989-cu il martın 6-da Daşkəsən rayon Quşçu qəsəbəsində anadan olub. 2007-ci ildə Bakı şəhəri Nəsimi rayon F.Nəcəfov adına 266 nömrəli tam orta məktəbini bitirib. Elə həmin ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2009-cu ildə hərbi xidmətini başa vuraraq ordu sıralarından tərxis olunub. Sonra müxtəlif yerlərdə işləyib.

2020-ci il sentyabrın 21-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən səfərbərliklə müharibəyə çağırılıb. Kəlbəcər istiqamətində gedən döyüşlərdə hesablayıcı manqa komandiri vəzifəsində iştirak edib. Dekabrın 27-də ordu sıralarından tərxis olunub. Hal-hazırda Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsi "Siqnal" İxtisaslaşdırılmış Layihə İstehsalat İdarəsinin tikinti qrupunun işçisidir. Ailəlidir, bir oğlan, bir qız övladı var.

Təltifləri:
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



İsayev Elman
Həsənqulu oğlu
Kiçik çavuş

1977-ci il fevralın 12-də Daşkəsən rayonunun Zağalı kəndində anadan olub. 1994-cü ildə Daşkəsən rayon Qazaxyolçular kənd tam orta məktəbini bitirib. 1995-ci il iyunun 3-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, 1998-ci il iyulun 4-də ordu sıralarından tərxis olunub. Müxtəlif işlərdə işləyib. 2014-cü il mayın 4-də MAHHXHQ kimi Daşkəsən rayon N saylı hərbi hissədə xidmətə başlayıb. 2014-cü il oktyabrın 4-də N saylı hərbi hissəyə MAHHXHQ kursuna göndərilib, 2014-cü il dekabrın 28-də kursu bitirib.

27.10.2014-cü il tarixdən 21.12.2014-cü il tarixədək N saylı hərbi hissədə "Sürücü" ixtisası üzrə tam kursu keçib, ilk hərbi ixtisası üzrə 3-cü dərəcə alıb.

15.06.2020-ci il tarixində N saylı hərbi hissənin koman-

diri polkovnik Əflatun Nurəliyev tərəfindən "15 iyun Milli Qurtuluş günü münasibəti ilə döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi yüksək nəticələrə və yüksək hərbi intizama nail olduğuna görə" Fəxri Fərmanla təltif olunub.

Vətən müharibəsində xidmət etdiyi hərbi hissənin tərkibində Murovdağ – Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Elmanın danışdıqlarından:

"Elə müharibənin ilk günlərindən çətin və ağır günlərimiz başladı. Yanacaq dolu maşınımla ön cəbhəyə yola düşdüm, zirehli texnikaları və döyüş maşınlarını yanacaqla təmin edirdim. Düşmən dəfələrlə cəhd edib ki, maşınımı partlatsın, amma Allaha şükür olsun ki, məni qorudu.

Döyüşçülərimizin hər biri çox həvəslə vuruşurdu. Hamıda böyük ruh yüksəkliyi var idi. Düşmənin üzərinə heç nədən qorxmadan, gecələri səhərədək riskli yollarla gedirdik, səhərlər üzümüzə açılırdı. Amma buna baxmayaraq, yuxu, aclıq, qorxu bilmədən ancaq irəliyə doğru hərəkətdə idik. Çox ağır yollar keçdik, çox yaxşı qardaşlarımızı itirdik. Allah cəmi şəhidlərimizə rəhmət eləsin, qazilərimizi, ordumuzu qorusun. Çox şükür Allaha ki, qələbəni bizə nəsib etdi. Bu qələbədə Azərbaycanımızın hər bir vətəndaşının əməyi var. Arxa cəbhə uşaqdan böyüyədək bizə çox dəstək oldu. Çoxlu yardımlar gəlirdi, millətimizin mərd oğulları, qızları var olsun, bu qələbədə onların da əziyyətləri var. Allah Vətənimizi qorusun. Ali Baş Komandanımıza, bizə dəstək olan dövlətlərə də Allah kömək olsun, sağ olsunlar. Yaşasın Azərbaycanımız və Türk dövləti".

Elman 2022-ci il avqustun 4-də ordu sıralarından tərxis olunub.

Təltifləri:
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Qəribli Tural
İldırım oğlu
Kiçik çavuş



1992-ci il martın 12-də Daşkəsən şəhərində anadan olub. 2008-ci ildə Mədənçilər qəsəbəsi Nəriman Nərimanov adına 3 saylı orta məktəbin 9-cu sinfini bitirib. 2010-cu il aprelin 2-də Daşkəsən RHK tərəfindən hərbi xidmətə çağırılıb, Bakıda N saylı hərbi hissədə çilingər vəzifəsində xidmət edib. 2011-ci il oktyabrın 1-də tərxis olunub. 2012-ci ildən Daşkəsən Filizsaflaşdırmada çilingər işləyib. 2014-cü il mayın 12-də Daşkəsən rayon N saylı hərbi hissənin kəşfiyyat bölüyündə MAHHXHQ kimi 1-ci taqım 1-ci manqada kəşfiyyatçı vəzifəsinə işə girib. 2016-cı il fevralın 4-də N saylı hərbi hissədə dağçılıq kursunu oxuyub, kurs birincisi olub, Sertifikat və Fəxri Fərmanla təltif olunub. Ailəlidir, bir övladı var. Atası Qəribov İldırım Məmməd oğlu 1-ci Qarabağ müharibəsi veteranı və qazisidir.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Kəlbəcər istiqamətində gedən döyüş əməliyyatlarında iştirak edib.

Turalın danışdıqlarından:

"Sentyabrın 27-də 2-ci dağatıcı taborundan Kəlbəcərin Təkəqaya istiqamətində irəlilədik. 28-də Təkəqaya yüksəkliyini tutduq, oranı bir gün saxlayandan sonra əmr gəldi ki, geri qayıdın, biz geri qayıtdıq. Oktyabrın 2-də dedilər ki, Ağdağa hücum olunacaq. Ayın 2-də Ağdağ postu istiqamətində hücum elədik. Orada şəhidlərimiz oldu, geri qayıtdıq. Sonradan mövqeyi saxlamaq üçün xidmətə davam etdik. Noyabrın 26-sı Kəlbəcər rayonuna daxil olduq. 2021-ci ilin may ayında tərxis olundum".

Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin üzvüdür.

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

08.11.2021-ci il tarixində AVMVİB-nin Daşkəsən şöbəsinin sədri Musayev Əli tərəfindən "Müzəffər Azərbaycan ordusunun Vətən müharibəsində tarixi Qələbəsinin qazanılmasında göstərdiyi fədakar əməyinə və maddi-mənəvi dəstəyinə görə" Fəxri Fərmanla təltif olunub.

Qurbanov Maarif
Nəsib oğlu
Kiçik çavuş



1986-cı il martın 12-də Daşkəsən şəhərində anadan olub. 2004-cü ildə Daşkəsən rayon Bayan kənd Mikayıl Mustafayev adına tam orta məktəbini bitirib. 2004-cü il oktyabrın 2-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Naxçıvanda Sərhəd qoşunlarında, N saylı hərbi hissədə xidmət edib, 2006-cı il aprelin 6-da ordu sıralarından tərxis olunub. 2006-cı ilin sentyabrında Gəncə Dövlət Humanitar Kollecinə daxil olub, 2009-cu ildə həmin kolleci "Fiziki tərbiyə müəllimi" ixtisası üzrə bitirib. 2009-cu ilin sentyabrından 2014-cü ilin iyun ayınadək Bayan kənd M.Mustafayev adına tam orta məktəbdə fiziki tərbiyə müəllimi işləyib. 2014-cü il avqustun 17-də N saylı hərbi hissənin 4-cü tabor 12-ci bölük 2-ci taqım 1-ci manqasına Manqa komandiri vəzifəsinə təyin olunub. 2014-cü il oktyabrın 26-da N saylı hərbi hissədə MAHHXHQ-nin hazırlıq kursuna daxil olub. 2014-cü il dekabrın 21-də həmin kursu "Manqa komandiri" ixtisası üzrə bitirib. Hal-hazırda 2-ci tabor 6-cı bölük 2-ci taqım 2-ci qrupda "Kəşfiyyatçı qumbaraatan" vəzifəsində xidmət edir.

Vətən müharibəsinin ilk günündən Kəlbəcər istiqamə-

tində gedən döyüşlərdə iştirak edib.

Maarifin danışdıqlarından:

"2020-ci il sentyabrın 27-si, saat 8-in yarısı idi, döyüş başladı. Bu vaxta qədər döyüş görməmişdik, onu hiss etmirdik. İlk olaraq kamikadze gəldi bizim artilleriya topumuzun üstünə düşdü, 8 nəfər gözümüzün qabağında yandı, çox pis olmuşduq. Ondan sonra biz Kəlbəcər istiqamətindən hücuma keçdik - Ağdağ istiqamətindən, 93 istiqaməti deyilən yerdən. 6 saat mühasirədə qaldıq, sonra 4 yaralı ilə geri çəkildik, yaralılarımızın 2-si Daşkəsənli idi. Sentyabrın 28-i yenə hücuma keçdik, rabitə danışığımızı ermənilər tutmuşdular, hardan hərəkət elədiyimizdən məlumatları olduğundan, biz hücuma keçərkən getdiyimiz yolu artilleriya atəşinə tutdular. Orada 2 nəfər döyüş yoldaşımızı itirdik – Cəfərov Etibarı və maxe əsgər Əliyev Adəmi. Yenə geri çəkilmə əmri aldıq, yenə də atəş altında, çətinliklə şəhidlərimizi çıxarıb geri çəkildik. Ayın 29-u günü yenə bizim üçün çox ağır oldu, bizə məlumat gəldi ki, iki postumuz artıq yox səviyyəsindədir, düşmən ora basqın eləməyə hazırlaşır. O iki postun müdafiəsi üçün biz yerimizi dəyişməli olduq. Həmin postlara gəldik, postları gücləndirdik və 2 gün həmin postların müdafiəsində qaldıq. Oktyabrın 1-dən 2-nə keçən gecə bizə yenidən hücum əmri verdilər. Həmin hücum əmrində yenə düşmənin atəş nöqtəsini üstünə çəkən qrup olduğumuza görə, düşmənlə üz-üzə qaldıq ki, aldadıcı manevr edib postu ələ keçirək. Atəş başladı, 2 saat düşmənlə qarşılıqlı atışmamız davam etdi. Bölük komandirim yaralandı və bizə əmr verildi ki, geri çəkilin, artıq sizi idarə edən yoxdur. Geri çəkiləndən sonra, oktyabrın 2-də yenidən hücum əmri verildi, bizə

rəhbərliyi Daşkəsənli Baş leytenant Əliyev Ceyhun edirdi. Onunla birlikdə 3 nəfər posta sızma əməliyyatı etmək istədik, yolda Əliyev Ceyhun yaralandı, sonra mən yaralandım. Ceyhun düşmən snayperi ilə qolundan vuruldu, mən də artilleriya minamyot partlamasından ayağımdan qəlpə yarası aldım. 2 saat neytralda köməksiz qaldım, sonra yavaş-yavaş sürünüb öz postumuza tərəf çəkildim, oradan bölük yoldaşlarımın köməyi ilə Xoşbulaq səyyar hospitalına, oradan da Daşkəsən Mərkəzi Rayon Xəstəxanasına təxliyyə olundum. Orada ilkin tibbi yardım göstərildikdən sonra məni Gəncəyə, Abbas Səhhət adına xəstəxanaya göndərdilər. Bir ay orada müalicə olunduqdan sonra yenidən xidmətə qayıtdım.

Bu döyüşlərdə yanımızda nə qədər şəhidlərimiz, yaralılarımız oldu. Çox ağır günlər idi, çox ağır şərait, ağır vəziyyət oldu.

2022-ci il sentyabrın 12-də Daşkəsən - Təzəkənd - Göyçə istiqamətində gedən komando əməliyyatında da, ondan sonra Zəngəzur - Laçın istiqamətində gedən əməliyyatlarda da yaxından iştirak eləmişəm".

Təltifləri:

"Döyüşdə fərqlənməyə görə" medalı. Sərəncam № 2354. 18.12.2020.

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Laçının azad olunmasına görə" medalı. Sərəncam № 2719. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Məmmədov Elvin
Xaləddin oğlu
Kiçik çavuş



1990-cı il avqustun 31-də Daşkəsən şəhərində anadan olub. 2008-ci ildə Daşkəsən şəhər Anar Mürsəlov adına 2 saylı tam orta məktəbi bitirib. 2008-ci il oktyabr ayının 4-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Sumqayıtda N saylı hərbi hissədə rabitə xətt-nəzarət manqa komandiri vəzifəsində xidmət edib. 2010-cu il aprel ayının 2-də ehtiyata buraxılıb.

Vətən müharibəsi başlayandan Füzuli, Şuşa, Xankəndi istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

Elvinin danışdıqlarından:

"2020-ci il sentyabrın 27-də 2-ci Qarabağ döyüşlərində iştirak etmək üçün könüllü olaraq SHXÇDX-nın Daşkəsən rayon bölməsinə müraciət etdim. Sentyabrın 29-da Gəncə şəhər N saylı hərbi hissədə təlimlərə qatıldım. Təlimləri uğurla bitirdikdən sonra oktyabrın 27-28-də işğaldan azad olunan Füzuli rayonunun müdafiəsi üçün 1-ci taborun şəxsi heyəti olaraq yola düşdük. Mən döyüşlərdə Kiçik çavuş-manqa komandiri olaraq iştirak edirdim. 5 gün Füzuli rayonunun müdafiəsində dayandıq, noyabrın 2-də komandanlığın əmri ilə Şuşa şəhərinin Sığnaq, Daşaltı kəndlərinin azad olunması üçün Şuşa istiqamətinə gön-

dərildik. Həmin gün ağır döyüşlər nəticəsində bizim tabor komandirimiz və 50 nəfərdən ibarət şəxsi heyətimiz yaralandı. 7 noyabr Şuşa şəhəri azad olunduqdan sonra 8 noyabrda komanda gəldi və biz Xankəndi istiqamətində əks hücuma keçdik. Qızğın döyüş zamanı düşmən tərəfindən atılan mərminin partlaması nəticəsində sol ayağımın 1/3 hissəsi yaralandı. Həmin gün taborumuzdan çox sayda şəhid, yaralı və əsirlərimiz oldu. Biz yaralı halda Xankəndindən Şuşa şəhərinə qayıdarkən düşmən tərəf bizi mühasirəyə saldı. Həmyerlim Bəxtiyarov Orxan Sərvər oğlu düşmən tərəfindən atılan atəş zamanı ağır yaralandı, mən ona ilkin tibbi yardım göstərdim və yarasını sarıdım. Biz 5-6 saat düşmən mühasirəsində qaldıq və mübarizə apardıq. Nəhayət düşmən davam gətirməyib geri çəkildi. Biz Orxan ilə bərabər üzü Şuşaya doğru hərəkət etdik və növbəti dəfə düşmən tərəfindən mühasirəyə alındıq. Bu zaman Orxan şəhidlik məqamına ucaldı. Yenə də çox sayda şəhid və yaralılarımız oldu. Bundan sonra Xüsusi Təyinatlı Qüvvələrdən bir qrup bizə köməyə gəldi və düşmən tamamilə məhv edildi. Onlar yaralıları Şuşa şəhərinə gətirdilər, burada yaralılara tibbi yardım göstərildi. Noyabrın 9-dan 10-na keçən gecə bizə dedilər ki, qələbə qazandıq, həmin an mən və döyüş yoldaşlarım həyatımızın ən böyük sevincli, qürurlu və duyğulu anlarını yaşadıq.

Bu qələbəni bizə bəxş edən Ali Baş Komandan cənab İlham Əliyevə, qüdrətli ordumuza və ordumuzla daim bir yumruq kimi olan xalqımıza sonsuz təşəkkür edirəm. Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirəm".

Təltifləri:
"Döyüşdə fərqlənməyə görə" medalı. Sərəncam № 2354. 18.12.2020.
"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2376. 29.12.2020.
"Vətən müharibəsi iştirakçısı"medalı. Sərəncam № 250s. 21.04.2022.

Məmmədov Kamil
Faiq oğlu
Kiçik çavuş



1992-ci il aprelin 20-də Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 2007-ci ildə Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbin 9-cu sinfini bitirib. 2010-cu il aprelin 21-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Naxçıvanda N saylı hərbi hissədə tuşlayıcı vəzifəsində xidmət edib. 2011-ci il oktyabrın axırında xidmətini başa vurub, ehtiyata buraxılıb. 2014-cü il sentyabrın 19-da Daşkəsən N saylı hərbi hissədə MAHHXHQ kimi xidmətə başlayıb, dağatıcı briqadada manqa komandiri və kiçik çavuş vəzifəsində xidmət edib.

27.10.2014-cü il tarixdən 21.12.2014-cü il tarixədək N saylı hərbi hissədə "Qumn Komandiri" ixtisası üzrə tam

kursu keçib və ona ilk hərbi ixtisası üzrə 3-cü dərəcə verilib. 28.05.2020-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik Əflatun Nurəliyev tərəfindən "28 may Respublika Günü münasibəti ilə döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi yüksək nəticələrə və yüksək hərbi intizama nail olduğuna görə" Fəxri Fərmanla təltif olunub.

Vətən müharibəsinin ilk günlərindən xidmət etdiyi hərbi hissənin tərkibində Kəlbəcər istiqamətində gedən döyüş əməliyyatlarında iştirak edib.

Kamilin danışdıqlarından:

"Sentyabrın 25-də bizi ön xəttə apardılar, 27-si tezdən düşmən mövqelərinə hücum etdik. Çox çətin döyüş oldu, amma düşmənin bir postunu ələ keçirdik. 7 gün mühasirədə qaldıq, düşmən hər tərəfdən bizi ağır silahlarla vururdu. 67 nəfər şəxsi heyətdən 11 nəfər sağ qalmışdıq, döyüş yoldaşlarım şəhid oldular. Təəssüf ki, bizə dəstək gəlmədi və məcburi postu tərk etdik, qayıtdıq öz postumuza. Bölüyümüz komplektləşəndən sonra döyüşlərə davam etdik. Atəşkəs elan edilənədək döyüşdük, sonra aldığımız postların gücləndirilməsində və müdafiəsində qaldıq. Noyabrın axırlarında Daşkəsənə öz hərbi hissəmizə qayıtdıq. Dekabrın 27-də bizim bölük Kəlbəcərə göndərildi, orada xidmətimizə davam etdik. 2022-ci ilin aprelində tərxis olundum".

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Məmmədov Mehman
Fərman oğlu
Kiçik çavuş



1987-ci il yanvarın 10-da Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 2005-ci ildə Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbi bitirib. Elə həmin il iyulun 7-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Tərtər rayon N saylı hərbi hissədə snayper vəzifəsində xidmət edib. 2007-ci il yanvarın 1-də ordu sıralarından tərxis olunub. 2014-cü il iyulun 22-dən Daşkəsən N saylı hərbi hissədə MAHHXHQ kimi kiçik çavuş, manqa komandiri vəzifəsində xidmətə başlayıb, 2018-ci il yanvarın 10-da tərxis olunub. 2018-ci ilin sonunadək Gəncə Qrand Qafqaz Ticarət Kompleksində mühafizədə işləyib. 2019-cu il yanvarın 19-dan dekabrın sonunadək MAHHXHQ kimi Goranboy N saylı hərbi hissədə manqa komandiri vəzifəsində xidmət edib. 2020-ci ilin yanvarından Tərtər N saylı hərbi hissəyə dəyişdirilib.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Tap Qaraqoyunlu, Talış və Suqovuşan istiqamətlərində döyüşüb.

Mehmanın danışdıqlarından:

"Sentyabrın 27-si müharibə başlayanda 1-ci korpusun

tabeçiliyində olan N saylı hərbi hissənin tərkibində düşmənin Çay postu 1-ci eşalonlarını artilleriyamızla vurduq, sonra döyüşə girdik. Bizə verilən döyüş texnikaları güclü idi, düşmənin 1-ci eşalonunu dağıdaraq məhv etdik, sağ qalanları da qaçdılar. Barambat meşəsinin ayağında onların yaşıl hərbi hissələri var idi. Biz ora hücuma keçdik, döyüş texnikalarını vuraraq məhv etdik və salamat qalan texnikalarını qənimət götürdük, şəxsi heyətlərini məhv etdik, qalanları qaçdılar. 4 tank, 511 nəfər şəxsi heyətlə Tap Qaraqoyunlu çayından keçib, döyüşə-döyüşə Barambat meşəsinə girdik. Meşədə döyüşə-döyüşə istiqamətimizə uyğun olaraq mənfur düşməni qıra-qıra meşə ərazisində irəliləyirdik. Biz 931 postu uğrunda döyüşərkən, onların 3 tankı və 300 nəfərədək şəxsi heyəti bizə hücuma keçdilər, bizim tankımız onların 2 tankını sıradan çıxardı. Onlar bizə üstün gələ bilmədilər, bir tankları və şəxsi heyətlərindən sağ qalanları qaçdı. Bir gün sonra düşmən təkrar hücuma keçdi və biz mühasirəyə düşdük və 3 gün mühasirədə qaldıq. Bizim dronlarımız meşə ərazisində onların bütün texnikalarını və şəxsi heyətini vurdu, düşmənin qaçanı-qaçdı, qalanları məhv oldu, biz meşəni azad etdik, təhvil verdik başqa hərbi hissəyə. Sonra düşdük Talış kəndə, orada güclü atışma getdi, biz Talış kəndi götürdük, arxadan köməyə gələn başqa briqadamıza təhvil verdik və tapşırığa uyğun olaraq Suqovuşan istiqamətində döyüşməyə başladıq. Suqovuşanın mərkəzində yerləşən gölün meşə yüksəkliyinə döyüşə-döyüşə qalxdıq. Üç dəfə cəhd göstərdik, Pişik qayasını götürə bilmədik. Mingəçevir hərbi hissəsi kəşfiyyatçılarımızla birlikdə bizə köməyə gəldilər. Döyüş əməliyyatları uğurlu olduğuna görə, Pişik

qayasının bir hissəsini ala bildik, bir hissəsi qaldı. Mən oktyabrın 10-da Suqovuşan kəndi ətrafındakı 951 yüksəkliyində, Pişik qayasında, psy gta-sı deyilən yerdə hücuma keçən zaman düşmən tərəfindən atılmış ağır artilleriya mərmisinin yaxınlıqda partlaması nəticəsində qapalı kəllə-beyin travması aldım. Məni Naftalan Mərkəzi Xəstəxanasına təxliyyə etdilər. Bir həftə orada müalicə olundum, sonra məni göndərdilər Gəncə Hospitalına. 15-20 gün orada müalicə olundum və hərbi hissəyə geri qayıtdım. Dekabrın 1-də bizim hərbi hissəni göndərdilər Laçına, orada bir neçə ay xidmət etdikdən sonra xəstəliyim imkan vermədiyinə görə məni Bakıya Papanin hospitalına göndərdilər. Orada bir ay müalicə olundum və hərbi hissəyə geri qayıtdım. Xidmət etdiyim müddətdə aldığım travmaya görə təkrar Papaninə qayıtdım, 2 ay müalicə olunduqdan sonra hərbi hissəyə qayıtdım, mənə 3 ay məzuniyyət verdilər, 2022-ci il aprelin 30-da ordu sıralarından tərxis olundum.

Mən fəxr edirəm ki, torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə kiçik komandir kimi Vətənimə olan borcumu ləyaqətlə yerinə yetirdim. Hər zaman da xalqımın, torpağımın uğrunda hansısa bir hücum olarsa, canımla, qanımla döyüşməyə hazıram".

Təltifləri:

"Cəsur döyüşçü" medalı. Sərəncam № 2353. 18.12.2020.
"Laçının azad olunmasına görə" medalı. Sərəncam № 2373. 29.12.2020.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Məmmədov Teymur
Xanlar oğlu
Kiçik çavuş



1993-cü il noyabrın 20-də Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 2011-ci ildə Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbi bitirib. 2012-ci il yanvarın 4-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Ağcabədi N saylı hərbi hissədə atıcı vəzifəsində xidmət edib. 2013-cü il iyulun birində xidmətini başa vuraraq, ordu sıralarından tərxis olunub. 2013-cü ildən 2018-ci ilədək Riyad Mühafizə Xidmətində mühafizəçi işləyib.

01.10.2018-ci il tarixindən 24.11.2018-ci il tarixinədək Azərbaycan Respublikası Müdafiə Nazirliyinin N saylı hərbi hissəsində fəaliyyət göstərən MAHHXHQ-nin hazırlıq kursunda olub və motoatıcı manqa komandiri kursunu bitirib.

2019-ci il yanvarın 5-dən MAHHXHQ kimi Göygöl rayon N saylı hərbi hissədə manqa komandiri vəzifəsində xidmətə başlayıb.

15.06.2020-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik Əflatun Nurəliyev tərəfindən "15 iyun Milli Qurtuluş günü münasibəti ilə döyüş və ictimai-siyasi ha-

zırlıqda əldə etdiyi yüksək nəticələrə və yüksək hərbi intizama nail olduğuna görə" Fəxri Fərmanla təltif olunub.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin həmlə taborunun tərkibində Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Teymurun danışdıqlarından:

"Ermənilərin Üçtəpələr postuna hücum elədik, postu ələ keçirdik. Sonra düşmənin Ağdağ postuna əks hücuma keçdik, amma təəssüf ki, 5 şəhidimiz və 9 nəfər yaralımızla geri çəkilməyə məcbur olduq. Noyabrın 8-i idi, biz orada eşitdik ki, müharibə dayandı. Bizi yenidən qaytardılar Daşkəsənə, bölməmiz komplektləşdi, çünki, döyüşlərdə 18 nəfər şəhid vermişdik. 13 nəfər yaralımız olmuşdu deyə, bölüyümüzdə şəxsi heyət azalmışdı. Noyabrın 15-16-dək həm öz, həm də aldığımız postların müdafiəsində qaldıq. Sonra əmr gəldi ki, Laçın istiqamətində köməyə gedək. Bizi göndərdilər Seyfəliyə, komplektləşməyə. Noyabrın 27-də yenidən Kəlbəcərə getdik və 2021-ci il mayın 19-dək Zod qızıl mədəninin mühafizəsində olduq. Mayın 19-da bizə əmr gəldi və biz Kəlbəcərdən Göyçə istiqamətində olan yüksəklikləri ələ keçirilməsində iştirak elədik. Göyçənin Zod və Zər kəndləri istiqamətində olan yüksəklikləri götürdük. Olduğumuz yüksəkliklərdən Göyçə gölü, Zər kəndi, Nərimanlı kəndi, Zod kəndi, Basarkeçər rayonu və s. görünürdü. 2022-ci ilədək həmin yüksəkliklərdə olduq. 2022-ci il aprelin 5-də müqavilə müddətim bitdiyi üçün Ordu sıralarından ehtiyata buraxıldım. Hazırda Daşkəsən Dəmir Filiz MMC-də gözətçi vəzifəsində işləyirəm".

26.06.2021-ci il tarixində N saylı hərbi hissə komandi-

rinin vəzifələrini icra edən mayor Rasim Əliyev tərəfindən "Azərbaycan Ordusunun yaranmasının 103 illiyi münasibəti ilə döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi yüksək nəticələrə və yüksək hərbi intizama nail olduğuna görə" Fəxri Fərmanla təltif olunub.

Təltifləri:
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Namazov Eyvaz
Çingiz oğlu
Kiçik çavuş

1992-ci il oktyabrın 17-də Daşkəsən şəhərində anadan olub. 2010-cu ildə Daşkəsən şəhər Səməd Vurğun adına 4 saylı tam orta məktəbi bitirib. 2010-cu il oktyabrın 22-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Qusar rayonunda N saylı hərbi hissədə artilleriyada 120 minbatda heyət nəfəri vəzifəsində xidmət edib. 2012-ci il aprelin 1-də ordu sıralarından tərxis olunub. 2014-cü ilin yayından etibarən MAHHXHQ kimi Daşkəsən rayon N saylı hərbi hissədə çavuş vəzifəsində xidmətə başlayıb, 2015-ci il sentyabrın

20-də öz ərizəsi ilə ehtiyata buraxılıb.

Vətən müharibəsində Füzuli, Cəbrayıl, Xocavənd istiqamətlərində heyət nəfəri vəzifəsində döyüşüb.

Eyvazın danışdıqlarından:

"2020-il oktyabrın 10-da 11 nəfər könüllü olaraq komissarlığa müraciət etdik. Elə həmin gün bizi Ağcabədi rayon N saylı hərbi hissəyə apardılar, oktyabrın 26-dək təlimdə olduq. Oktyabrın 27-də Qusar N saylı hərbi hissənin 82 minbatına (artilleriya) verildim. Piyada qoşunla 7-ci bölüyün tərkibində Füzuli isiqamətində döyüşlərdə iştirak etdim. Sonra Cəbrayıl istiqamətində döyüşdük, oradan da döyüşə-döyüşə Xocavənd istiqamətinə keçdik. Noyabrın 4-də səhər tezdən Qırmızı Bazar ərazisində bir yüksəkliyi 17 dəqiqəyə azad etdik. Həmin vaxt minamyot mərmisi yaxınlığımda – 2m məsafəmdə partladı. Partlayış nəticəsində bölüyümüzdə 13 nəfərdən 11-i şəhid oldu, 2 nəfər yaralandıq. Mən ayağımdan qəlpə yaraları və qapalı kəllə-beyin travması aldım. Yoldaşlarım o yüksəklikdən məni endiriblər aşağı, sonra növbəti təpəni aşıblar və məni maşın yoluna gətiriblər. Oradan təcili yardım maşını məni Füzuli rayon Mərkəzi Xəstəxanasına gətirib, mənə ilkin tibbi yardım göstərilib. Bir gün sonra Göyçay Mərkəzi Xəstəxanasına göndərildim, orada əməliyyat olundum və bir ay 15 gün orada müalicə olundum. Sonra məni Cəbrayıl Xəstəxanasına göndərdilər, orada 2 gün qaldım, sonra Qusara N saylı hərbi hissəyə göndərildim. 2020-ci il dekabrın 8-də tərxis olundum və evə qayıtdım".

Təltifləri:

"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2364. 25.12.2020.

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2711. 24.06.2021.
"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2714. 24.06.2021.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Namazov Seymur
Mahir oğlu
Kiçik çavuş

1990-cı il iyunun 23-də Daşkəsən şəhərində anadan olub. 2008-ci ildə Daşkəsən şəhər Anar Mürsəlov adına 2 saylı tam orta məktəbi bitirib. Elə həmin ilin oktyabrında Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Ağstafa N saylı hərbi hissədə xidmət edib, 2010-cu ilin aprelində ordu sıralarından tərxis olunub. 2011-ci ilin fevralından 2014-cü ilin noyabrınadək Göygöl rayon Hərbiləşdirilmiş Mühafizə İdarəsində işləyib. 2014-cü ilin noyabından 2021-ci il sentyabrın 20-dək MAHHXHQ kimi Daşkəsən N saylı hərbi hissədə kiçik çavuş, manqa komandiri, sürücü vəzifəsində işləyib.

09.02.2015 - 14.03.2015-ci il tarixlərində "Snayper" hərbi ixtisası üzrə kurs keçib və 3-cü dərəcə üzrə Sertifikat alıb.

29.05.2020-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik Əflatun Nurəliyev tərəfindən "May ayının yekununa, döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi yüksək nəticələrə və yüksək hərbi intizama nail olduğuna görə" Fəxri Fərmanla təltif olunub.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Seymurun danışdıqlarından:

"Erməni şərəfsizlərinin, həmişə olduğu kimi, o gecə də törətdikləri təxribatlara Ali Baş Komandanımızın əmri ilə cavab verməli olduq. Hər kəsin bir məqsədi vardı – o şərəfsizləri torpaqlarımızdan qovmaq və Vətənimizi azad etmək. Ordumuzda böyük ruh yüksəkliyi, yüksək səviyyədə döyüş əzmi və Vətən eşqi vardı. Mən də bir top maşını sürücüsü kimi Vətənə olan borcumu yerinə yetirirdim. Həmin günlərdə döyüş yoldaşlarıma hərbi sursatların vaxtında çatdırılması üçün gecə-gündüz çalışırdım. Yoldaşlarımızın yaralı olmasına baxmayaraq, yenə də döyüşmək istəməsi bizi daha da ruhlandırırdı. Xalqımızın dəstəyi, cəbhənin müxtəlif istiqamətlərindən gələn qələbə xəbərləri döyüş əzmimizi artırırdı. Daha da irəli getmək, torpaqlarımızın hər qarışını azad etmək istəyimiz daha da artırdı. Bizi üzən yalnız yoldaşlarımızın şəhid olması, onların yaralı, cansız bədənlərini görmək idi. Bununla yanaşı cəbhədən şəhid kimi yola saldığımız yoldaşlarımızın, hərbi həkimlərimizin səyi nəticəsində həyata qayıtması xəbərlərini də ara-sıra eşidib sevinirdik".

Təltifləri:
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Nəzərov Tural
Füzuli oğlu
Kiçik çavuş

1991-ci il sentyabrın 20-də Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 2009-cu ildə Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbi bitirib. 2009-cu il oktyabrın 2-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Bakıda N saylı hərbi hissədə manqa komandiri vəzifəsində xidmət edib, 2011-ci il aprelin 1-də tərxis olunub. 2014-cü il martın 22-dən MAHHXHQ kimi xidmətə başlayıb, Daşkəsən, Şəmkir, Toğana, Murov, Kəlbəcər və Laçın N saylı hərbi hissələrində snayper vəzifəsində xidmət edib.

12.05.2014-cü il tarixdən 28.06.2014-cü il tarixədək N saylı hərbi hissədə Snayper ixtisası üzrə tam kursu keçib və ona Snayper ilk hərbi ixtisası üzrə 3-cü dərəcə verilib.

18.04.2016-cı il tarixdən 14.05.2016-cı il tarixədək Silah-

lı Qüvvələrin Təlim və Tədris Mərkəzində təşkil edilmiş Snayper hazırlığının təkmilləşdirilməsi (CVD) tüfəngi üzrə kursunu bitirib.

15.01.2018-ci il tarixdən 23.03.2018-ci il tarixədək Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən snayper hazırlıq kursunu (12.7mm OSV-96 snayper tüfəngi üzrə) bitirib.

29.12.2019-cu ildə N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Taleh Şamilov tərəfindən "31 dekabr Dünya azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibəti ilə döyüş və mənəvi-psixoloji hazırlıqda əldə etdiyi nailiyyətlərə görə" Fəxri Fərmanla;

31.07.2020-ci ildə N saylı hərbi hissənin komandiri mayor Zöhrab Vəliyev tərəfindən "Qurban bayramı münasibəti ilə nümunəvi hərbi xidmətlərə, yüksək intizama, döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə görə" Fəxri Fərmanla təltif olunub.

Vətən müharibəsi başlayan gündən Kəlbəcər, Füzuli, Cəbrayıl, Xocavənd uğrunda gedən döyüşlərdə snayper vəzifəsində iştirak edib.

Turalın danışdıqlarından:

"İlk döyüşümüz sentyabrın 27-də Koroğlu postundan başlayıb. Döyüşlər Koroğlu postundan Kəlbəcər istiqamətində gedib. Səhər saat 8 - 9-a işləmiş olardı, biz hücuma keçəndə minamyotun mərmisi yanımıza düşdü. Yanımda Nail adlı yoldaşım var idi, mərminin qəlpələri onu tutmuşdu, bir gözü kor olmuşdu, dalğası məni atmışdı yoldan aşağı, huşumu itirmişdim. Axşam saat 11 idi, ayıldım ki, məni təxliyyə edirlər, mən imtina elədim, dedim ki, yax-

şıyam, özümə gəlmişəm, getmək istəmirəm. Orda qaldım, döyüşə davam elədim. Yaxşı ki də getməmişdim, ermənilər hücum edən vaxt 9 nəfər yoldaşımın ordan sağ-salamat çıxmasına kömək elədim. Şəhid olan yoldaşlarımız da oldu. Sonra bizi apardılar Füzuli istiqamətinə. Füzulidə, Cəbrayılda, Xocavənddə döyüşmüşəm. Oktyabrın 31-i idi, Xocavəndə təzə getmişdik, hansısa kəndində idik. Mən orda snayper idim. Pilotsuz bizim yerimizi bildi, bizi bir dəfə çəkdi getdi, görmədim, vura bilmədim. 2-ci dəfə bizi çəkəndə vurdum saldım. Amma onlar artıq bizim yerimizi bilmişdilər, çəkiliş eləmişdilər. Bəzi yoldaşlarımız çıxa bildi, biz 2 nəfər ordan çıxmağa cəhd etsək də, gec oldu. Topdan, minamyotdan atırdılar deyə, çıxa bilmədik, ikimiz də yaralandıq. Düşmənin atdığı minamyotun partlaması nəticəsində mən sağ kürək nahiyəmdən yaralandım. Bir neçə saatdan sonra dronlarımız, radarlarımız bizə atanların yerini təyin edib vurdular. Onlar vurulandan sonra təxliyyə gəldi, kömək elədilər, biz çıxdıq.

Ermənilərı öldürmüşdük, onların təzə maşın və texnikalarının hamısını qənimət götürmüşdük. İçində təzə URAL da var idi, həmin URAL-la bizi - 5 nəfər yaralını Füzuliyə təxliyyə edən vaxt, yolu səhv getdik, girdik Xocavəndə, düşdük ermənilərin mühasirəsinin içinə. Döyüşçülərimiz dağda idi, geriyə də yol yox idi. Naxçıvan kəşfiyyatının rəisi çox sağ olsun, xəbər tutdu ki, yolu səhv getmişik, erməni gəlib bizə yaxınlaşana kimi, qrupla gəldi və bizə dedi ki, sakit olun, hər tərəfimiz ermənidir. Gecəni gözlədik, 4-5 saatdan sonra qaranlıq düşəndə bizi oradan sağ-salamat çıxartdı. Səhərisi gün bizi Füzuli Xəstəxanası-

na gətirdilər. 2 gün sonra məni göndərdilər Ağsu Xəstəxanasına, orda da bir müddət qaldım, müalicə olundum, sonra göndərdilər Gəncəyə Abbas Səhhət adına xəstəxanaya, ordan da mənə hospital məzuniyyəti verdilər. Hazırda xidmətimə davam edirəm".

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2711. 24.06.2021.

"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2712. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

08.11.2021-ci il tarixində N saylı hərbi hissənin komandiri t/x-ti polkovniki Hüseyn Əliyev tərəfindən "08 noyabr Zəfər bayramı günü və 09 noyabr Dövlət Bayrağı günü münasibəti ilə, xidmət etdiyi müddət ərzində işinin aparılmasında savadı, bacarığı və işgüzarlığı ilə müsbət cəhətdən fərqləndiyinə görə" Fəxri Fərmanla təltif olunub.



Rüstəmov Şəhruz
Arzu oğlu
Kiçik çavuş

1992-ci il mayın 11-də Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olub. 2009-cu ildə Xoşbulaq kənd tam orta məktəbini bitirib. 2010-cu il iyulun 2-də Daşkəsən RHK tərəfindən müddətli hərbi xidmətə çağırılıb, Kürdəmir N saylı hərbi hissədə havadan hücum və Bakıda N saylı hərbi hissədə baş əsgər vəzifəsində xidmət edib. 2012-ci il yanvarın 1-də ordu sıralarından tərxis olunub. 2014-cü ildən Daşkəsən rayon N saylı hərbi hissədə MAHHXHQ kimi pulemyotçu manqa komandiri vəzifəsində, çavuş rütbəsində xidmətinə davam edib.

20.03.2017-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Akif Ağayev tərəfindən "Hərbi intizamına, döyüş növbətçiliyində, döyüş və ictimai-siyasi hazırlığında əldə etdiyi nailiyyətlərə görə və Novruz bayramı münasibəti ilə" Fəxri Fərmanla;

09.11.2017-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Siyavuş Mustafayev tərəfindən "Hərbi intizamına, döyüş növbətçiliyində, döyüş və ictimai-siyasi hazırlığında əldə etdiyi nailiyyətlərə görə və Dövlət Bayrağı Günü münasibəti ilə" Fəxri Fərmanla;

11.05.2020-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik Əflatun Nurəliyev tərəfindən "Ən yaxşı iri çaplı pulemyot heyəti adı uğrunda yarışda əldə etdiyi nailiyyətə və yüksək hərbi intizama nail olduğuna görə" Fəxri Fərmanla təltif olunub.

Vətən müharibəsinin ilk günlərindən Daşkəsən - Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Şəhruzun danışdıqlarından:

"Sentyabrın 26-sı gecə saat 12 radələrində bizə komanda gəldi, biz Daşkəsən-Kəlbəcər istiqamətində yola düşdük, Qaraqollar və Zivlən kəndlərindən keçdik. Həmin gün hava çox yağışlı idi, maşınlar çox çətinliklə irəliləyirdi. Biz Koroğlu - 3 postu istiqamətində gedirdik. Hardasa, səhərə yaxın saat 4 idi, biz çox çətinliklə Koroğlu - 3 postumuza çatdıq. Yuxarılar çox soyuq idi, sulu qar yağırdı. Sentyabrın 27-si səhər saat 7-də döyüş başladı. Koroğlu - 3 postunun qarşısında düşmənin piyada postları var idi. Bizim tapşırığımız oranı alıb, Kəlbəcər tərəfə irəliləmək idi. Düşmənin minaatan batareyası Koroğlu - 3 postunun sağ tərəfindəki dərədə idi. Mənim tapşırığım, bizim şəxsi heyət irəliləyərkən, iri çaplı pulemyotum ilə təkbaşına düşmənin dərədə olan minaatan bölüyünü vurmaq idi. Mən bölüyü vurmağa başladım və darmadağın etdim, bizim şəxsi heyət rahatlıqla irəliləməyə başladı. Sonra düşmənin piyadalar istiqamətində olan postlarını vurmağa başladım. Bölüyümüzü dəstəkləyirdim ki, rahat irəliləyə bilsinlər. Mən düşmənin başına güllələri elə yağdırırdım ki, düşmən başını qaldıra bilmirdi. Biz bir şeyi düşünürdük ki, ancaq irəli gedib torpaqlarımızı düşməndən azad edək və şəhidlik zirvəsinə ucalaq. Düşməni elə bir hala

salmışdıq ki, onlar çaş-baş qalıb elə qaçırdılar ki... Azərbaycan əsgərinin səsi gələndə ürəkləri partlayırdı.

Biz oktyabrın 15-dək Kəlbəcər istiqamətində döyüşdük, sonra aldığımız yüksəkliklərin müdafiəsində dayandıq. 44 günlük müharibədə dayanmadan torpaqlarımızın azadlığı uğrunda döyüşdük və şəhid olan qardaşlarımızın qisasını aldıq.

Noyabrın 10-da artıq döyüşlər dayandı, Qələbə çaldıq. Qələbədən sonra biz Daşkəsən istiqamətindən Kəlbəcərə keçdik. Birinci Kəlbəcərin qızıl mədəninə getdik, sonra Zülfüqarlı kəndində, İstisuda olduq, çox gözəl idi, sonra Seyidlilər kəndinə getdik. Kəlbəcərin hər yerini gəzdim. Biz Kəlbəcərin adsız yüsəkliklərini yenidən ələ keçirdik. Orada da düşmənlə xeyli atışdıq, canımız bahasına olsa da, aldığımız yüksəklikləri əldə saxladıq, qorxmadan gecə-gündüz qoruduq. Göyçə mahalının tam üstündə bir il postda oldum. Göyçə mahalının bütün yüksəklikləri bizdə idi. May ayında postumuza qar da yağmışdı.

Bir müddət sonra mən Füzuli N saylı hərbi hissəyə manqa komandiri vəzifəsinə göndərildim. Taborumuz Xocavənddə idi və biz Qırmızı Bazarın tam üstündə Şuşa yolunu nəzarətdə saxlayırdıq. 2022-ci il martin 5-də müqavilə müddətim başa çatdığı üçün ordu sıralarından tərxis olundum. Hazırda Daşkəsən Dəmir Filizdə mühafizəçi işləyirəm".

Vətən Müharibəsi Əlillərinə Kömək İctimai Birliyinin üzvüdür.

Təltifləri:

"Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Yubiley medalı. 26.06.2018.

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Verdiyev Gəray
Zirəddin oğlu
Kiçik çavuş



1982-ci il oktyabrın 19-da Daşkəsən rayonunun Zağalı kəndində anadan olub. 2000-ci ildə Zağalı kənd tam orta məktəbini bitirib. Elə həmin ildə Azərbaycan Müəllimlər İnstitutunun Gəncə filialının Bədən tərbiyəsi fakültəsinə daxil olub. 2001-ci il yanvarın 20-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Beyləqən rayon N saylı hərbi hissədə kəşfiyyat bölüyündə xidmət edib. 2002-ci il iyulun 1-də xidmətini başa vuraraq ordu sıralarından tərxis olunub və institut təhsilinə davam edib. 2005-ci ildə institutu bitirib, Daşkəsən rayon Zağalı kənd tam orta məktəbində 9 il müəllim işləyib. 2014-cü ildən Daşkəsən rayon Xoşbulaq kəndində N saylı hərbi hissədə MAHHXHQ kimi işləyib.

24.02.2014-cü il tarixdən 19.04.2014-cü il tarixədək N saylı hərbi hissədə "Motoatıcı manqa komandiri" ixtisası üzrə tam kursu keçib və ona ilk hərbi ixtisası üzrə 3-cü dərəcə verilib.

N saylı hərbi hissənin komandiri polkovnik Əflatun Nurəliyev tərəfindən 09.11.2019-cu il tarixində "9 noyabr Dövlət Bayrağı günü, 24.05.2020-ci il tarixində Ramazan bayramı və 15.06.2020-ci il tarixində 15 iyun Milli Qurtuluş günü münasibəti ilə, döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərinə və yüksək hərbi intizama nail olduğuna görə" Fəxri Fərmanlarla təltif olunub.

Vətən Müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib. 2021-ci ilin noyabrında ordu sıralarından tərxis olunub.

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Bağırov Asim
Qasım oğlu
Baş əsgər



1995-ci il iyunun 1-də Daşkəsən şəhərində anadan olub. 2012-ci ildə Daşkəsən rayon Aşağı Daşkəsən qəsəbə Çingiz İsmayılov adına tam orta məktəbi bitirib. 2013-cü il iyulun 3-də SHXÇ-DX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Bakıda Fövqəladə Hallar Nazirliyinin N saylı hərbi hissəsində yanğın söndürən vəzifəsində xidmət edib. 2015-ci il yanvarın 1-də tərxis olunub. 2019-cu il iyulun 19-da Daşkəsən rayon N saylı hərbi hissənin diviziyonunda MAHHXHQ kimi baş əsgər vəzifəsində xidmətə başlayıb, sonra 2-ci taborun 4-cü bölüyünə keçirilib.

Vətən müharibəsi başlayan gündən Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Asimin danışdıqlarından:

"Biz Ağçınqıl postunda idik. Bizə ancaq postu müdafiə etmək, qoruyub saxlamaq tapşırılmışdı. Ermənilər hər gün postumuza atəş açırdılar, biz də qarşılıq verirdik.

Sentyabrın 29-u idi, qrupumuz komandirimizlə bərabər mühasirəyə düşdü. Bizə məlumat verildi, mən başqa bir qrupla ermənilərin Üçtəpə adlı postuna girdim, biz döyüşərək oradakı düşmənləri məhv etdik və qrupumuzu

mühasirədən çıxardıq. Orada yaralılarımız oldu, onlara kömək edərək geri gətirib hərbi təcili yardım maşını ilə Daşkəsən Mərkəzi Rayon Xəstəxanasına göndərdik.

Oktyabrın 2-si səhər saat 5 radələrində ermənilər xidmət etdiyimiz postu minamyotla atəşə tutdular, biz bacardığımız qədər postumuzu qoruyurduq. 120-lik minamyotun atəşi ilə sığınacağımızı dəqiq vurdular. Sığınacaqda 3 nəfər idik, mənim ayağımdan qəlpə dəydi və ayağım topuq nahiyəsindən sındı, həm də kəllə-beyin travması aldım. Çox şükür ki, digər 2 yoldaşıma heç nə olmadı. Biz oradan gəldik digər sığınacağa. Mən ayağıma 3 jqut bağladım. Əsgərim Babayev Əziz məni kürəyində təxminən 2 km məsafəyə, Qoşqar dağının arxa tərəfinə, ətəyinə apardı. Oradan hərbi təcili yardım maşını məni Suqovuşan deyilən əraziyə gətirdi. İlkin tibbi yardım göstərdikdən sonra Daşkəsən Mərkəzi Rayon Xəstəxanasına gətirdilər. Burada da tibbi yardım göstərildikdən sonra Gəncə Hərbi Hospitalına göndərdilər, orada da yoxlanışdan keçirib, tibbi yardım göstərib, Gəncə Beynəlxalq Xəstəxanasına göndərdilər. Orada 2 dəfə əməliyyat edib ayağımdakı qəlpələri çıxardılar. Oktyabrın 19-dək orada müalicə olundum. Oktyabrın 19-da məni Bakı şəhərinə Xalqlar dostluğu metrosu tərəfdə yerləşən Modern Hospitala apardılar. Orada Əbülfət adlı həkim- travmatoloq yenidən ayağımı əməliyyat edib, ayağıma İlizarov aparatı qoydu. 2020-ci il dekabrın 6-da məni evə buraxdılar. 4 aydan sonra aparatı ayağımdan çıxardılar, amma avqustadək ayağımı yerə qoya bilmədim. Hal-hazırda bir qoltuq ağacının köməyi ilə hərəkət edə bilirəm".

Təltifləri:
"Döyüşdə fərqlənməyə görə" medalı. Sərəncam № 2354. 18.12.2020.
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Göyüyev Samir Nizami oğlu
Baş əsgər



1999-cu il iyunun 4-də Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 2016-cı ildə Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbi bitirib. 2017-ci ildə hərbi xidmətə gedib, Bakıda N saylı hərbi hissənin maddi-texniki təminat bölümündə sürücü vəzifəsində xidmət edib. 2019-cu il yanvarın 7-də tərxis olunub. Evlidir, 1 övladı var. 2020-ci il mayın 8-i N saylı hərbi hissədə MAHHXHQ kimi baş əsgər (top komandiri) vəzifəsində xidmətə başlayıb.

Vətən müharibəsinin ilk günündən xidmət etdiyi hərbi hissənin tərkibində Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Samirin danışdıqlarından:

"Sentyabrın 27-si səhər saat 07:05-də döyüş başladı. İlk öncə havadan hücum etdilər. O vaxt biz Zivlən kəndinin yuxarısında Koroğlu - 3 postunun yaxınlığında mövqe tutmuşduq. Gecə-gündüz dayanmadan bizə komandalar gəlirdi, biz də icra edirdik. 44 günün hər günü döyüşdük. Üzərimizə düşən vəzifəni qürurla və layiqincə yerinə yetirdik".

Təltifləri:
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 2104.2022.



Hüseynov Xəlid
Nadir oğlu
Baş əsgər

1988-ci il martın 31-də Ermənistanın Amasiya rayonunun Göllü kəndində anadan olub. 1988-ci ildə azərbaycanlılar Ermənistandan qovulanda qaçqın kimi Daşkəsən rayonunun Bayan kəndinə gəliblər. 2006-cı ildə Mikayıl Mustafayev adına Bayan kənd tam orta məktəbini bitirib. Elə həmin il də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Füzulidə N saylı hərbi hissədə snayper vəzifəsində xidmət edib. 2008-ci ildə

xidmətini başa vuraraq ordu sıralarından tərxis olunub. 2016-cı ildən Azərişıq ASC-nin Daşkəsən rayon Elektrik Şəbəkəsində mantyor işləyib.

Polad Həşimov şəhid olandan sonra SHXÇDX-nın Daşkəsən rayon bölməsinə gələrək, könüllü olaraq müharibəyə getmək üçün adını yazdırıb.

Vətən müharibəsinin ilk günlərindən Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Xəlidin danışdıqlarından:

"2020-ci il sentyabrın 18-də telefonuma mesaj gəldi, sentyabrın 21-də qismən səfərbərliyə çağırıldım. Hərbi biletimi götürərək bölməyə getdim. Bizi 15 nəfər olaraq Gəncə N saylı hərbi hissəyə göndərdilər. Orada sentyabrın 26-dək təlimdə olduq. Sentyabrın 26-sı saat 14:00-da bizi bölərək Daşkəsən N saylı hərbi hissəyə göndərdilər. Mən tank əleyhinə batareya bölüyünə düşdüm. Axşam yeməyindən sonra hərbi hissə komandiri dedi ki, müharibədi. Silah-sursat götürərək, maşınlara mindik və postlara qalxdıq. Bölük komandirimizlə bərabər müdafiədə duraraq, komanda gözlədik. Gecə saat üç idi, biz isə gözləyirdik ki, "Atış sərbəst" desinlər. Saat 06:00-da hərbi hissə komandiri "Atış sərbəst" əmri verdi, müharibə başladı. Biz Kəlbəcər istiqamətində öz torpaqlarımızı almaq üçün döyüşə başladıq. Mən Koroğlu-1, Koroğlu-2, Koroğlu-3 postları uğrunda döyüşmüşəm. Döyüş gedərkən ermənilər tərəfindən bizim postlara minamyotla atırdılar, minamyot mərmisinin yanımızda partlaması nəticəsində döyüş yoldaşlarımızdan–zabit və əsgərlərimizdən şəhid və yaralananlar oldu. Mən isə döyüşərkən yaralanmadım. Bir neçə gün sonra atəşkəs elan olundu və biz aldığımız postlarda

Kəlbəcər təhvil verilənədək müdafiədə dayandıq. Noyabrın 25-də Kəlbəcər təhvil veriləndən sonra Kəlbəcərə daxil olduq. Sülhməramlılardan bir qədər arxada müdafiədə dayandıq. 2020-ci il dekabrın 26-da tərxis olundum".

Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin üzvüdür.

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Məmmədov Ilkin
Xaliq oğlu
Baş əsgər

1997-ci il yanvarın 31-də Daşkəsən rayonunun Qabaqtəpə kəndində anadan olub. 2013-cü ildə Daşkəsən şəhər Səməd Vurğun adına 4 saylı tam orta məktəbi bitirib. 2015-ci ildə SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Yardımlı rayonunda Dövlət Sərhəd Xidmətində 3-cü Komendaturada sürücü vəzifəsində xidmət edib. 2016-cı il oktyabrın 17-də tərxis olunub. 2020-ci il sentyab-

rın 8-də N saylı hərbi hissənin əməliyyat taborunda MAH-HXHQ kimi BTR-70 zirehli texnikasında baş əsgər sürücü vəzifəsində xidmətə başlayıb.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Toğanadan döyüşə giriblər. Sonra könüllü olaraq 052-nin tərkibində Kəlbəcər, Füzuli, Xocavənd, Cəbrayılın Daşkəsən kəndi istiqamətlərində döyüşüb, üzərinə düşən vəzifəni qürur və ləyaqətlə yerinə yetirib. Üstündə TŞK olan BTR zirehli texnikasını bütün heyətlə birlikdə idarə edib, sürücü-mexanik və tuşlayıcı olub.

Təltifləri:

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 25.12.2020.

"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2364. 25.12.2020.

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Nağıyev Turqut Aqil oğlu
Baş əsgər

1998-ci il avqustun 8-də Daşkəsən rayonunda anadan olub. 2016-cı ildə Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbi bitirib. Elə həmin il oktyabrın 7-də Daşkəsən SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Xocavənd rayon N saylı hərbi hissədə Kalaşnikov (PK) tuşlayıcısı vəzifəsində xidmət edib.

2017-ci il mayın 28-də N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Xalid Məmmədov tərəfindən Turqutun ailəsinə "İntizamlı, bacarıqlı, vətənpərvər əsgər, vəzifəsinin öhdəsindən vicdanla gələn, nümunəvi xidmət edən oğul böyütdüklərinə görə" minnətdarlıq məktubu göndərilib.

2018-ci il aprelin 12-də ordu sıralarından tərxis olunub. 2019-cu il iyunun 19-da Daşkəsən rayon N saylı hərbi hissədə MAHHXHQ kimi mühəndis-istehkam manqa komandiri vəzifəsində işə qəbul olub.

28.05.2020-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik Əflatun Nurəliyev tərəfindən "28 may Respublika Günü münasibəti ilə döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi yüksək nəticələrə və yüksək hərbi

intizama nail olduğuna görə" Fəxri Fərmanla təltif olunub.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Turqutun danışdıqlarından:

"2020-ci il sentyabrın 27-si səhər saatlarında düşmən təxribatlarının qarşısını almaq üçün Kəlbəcər istiqamətində minaaxtaran kimi döyüşlərə qatıldım. Səhər saat 11-ə qalmış düşmənin iri çaplı pulemyot 7/62 gülləsi ilə ayağımdan yaralandım və 4 saat yarım neytralda qaldım. Sonra döyüş yoldaşlarımın köməyi ilə neytral ərazidən çıxarıldım, Gəncə şəhər Hərbi Hospitalda ilkin tibbi yardım aldım. Vəziyyətim ağır olduğuna görə məni Bakı şəhər Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutuna apardılar. Orada 4 saatlıq əməliyyat nəticəsində ayağımdakı gülləni çıxardılar və ayağıma İlizarov aparatı quraşdırdılar. 9 ay ayağım aparatda qaldı, sonra aparatı ayağımdan çıxardılar, 3 ay da çəliklə gəzdim. 2022-ci ilin oktyabrında ordu sıralarından tərxis olundum".

Təltifləri:

"Döyüşdə fərqlənməyə görə" medalı. Sərəncam № 2354. 18.12.2020.

" Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Abbasov Natiq Faiq oğlu
Əsgər

1991-ci il aprelin 21-də Daşkəsən şəhərində anadan olub. 2008-ci ildə Daşkəsən şəhər İmadəddin Nəsimi adına 1 saylı tam orta məktəbi bitirib. 2009-cu il aprelin 23-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Naxçıvan MR-də N saylı hərbi hissədə rabitəçi vəzifəsində xidmət edib. 2010-cu il oktyabrın 3-də ordu sıralarından tərxis olunub.

Vətən müharibəsinin ilk günündən Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüşlərdə baş tuşlayıcı olaraq döyüşüb.

Natiqin danışdıqlarından:

"2020-ci il sentyabrın 21-də könüllü olaraq hərbi çağırışla Gəncə şəhər N saylı hərbi hissəyə göndərildim, təlimlərdə oldum, sentyabrın 25-də Toğana N saylı hərbi hissəyə göndərildim, 26-da Murovdağa qalxdıq, 27-si döyüşə girdik. Sentyabrın 29-da Murovdağ istiqamətində gedən döyüşdən qayıdanda düşmənin atdığı minamyot mərmisinin partlayışı nəticəsində ağır yaralandım. Mərminin partlayış dalğasından kəllə-beyin barotravması və belimdən zədə aldım, həm də qabırğalarım əzildi. Sentyabrın

30-da məni Gəncə Hospitala göndərdilər, orada müayinə olundum, amma yer olmadığı üçün Şəmkir Mərkəzi Xəstəxanasına göndərdilər. Oktyabrın 15-dək orada müalicə olundum. 15-i gecə öz təkidimlə təkrar cəbhə bölgəsinə - Murovdağa qayıtdım, amma komandirim döyüşə girməyə icazə vermədi, məni geriyə, Toğanaya – hərbi hissəyə qaytardı. Mən noyabrın 8-i qələbə xəbərini eşidənədək hərbi hissədə gözlədim. Sonra məni düşürdülər Şəmkir rayonundakı N saylı hərbi hissəyə, burada dekabrın 19-dək gözlədim, dekabrın 19-da ordu sıralarından tərxis olundum".

Təltifləri:

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

2021-ci ildə Vətən Müharibəsi Əlillərinə Kömək İB-nin idarə heyətinin qərarı ilə birliyin Gəncə Regional Mərkəzinin sədri S.Məmmədov tərəfindən "Müzəffər Azərbaycan Ordusunun Vətən müharibəsində tarixi Qələbəsinin qazanılmasında və müharibədə göstərdiyi igidliyə görə" Fəxri Fərmanla təltif olunub.



Abbasov Ruslan
Şahban oğlu
Əsgər

1987-ci il noyabrın 2-də Daşkəsən şəhərində anadan olub. 2006-cı ildə Daşkəsən rayon Alunitdağ qəsəbə Rövşən Qafarov adına tam orta məktəbi bitirib. 2006-cı il iyulun 6-da Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Naxçıvan MR-də N saylı hərbi hissədə xidmət edib. 2008-ci ilin yanvar ayında ordu sıralarından tərxis olunub. 2011-ci ildən MAH-HXHQ olaraq Sumqayıt N saylı hərbi hissədə xidmətinə davam edib. 2011-ci ilin oktyabrından 01.08.2012-ci iladək Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən mexanik-sürücü ixtisası üzrə kursu bitirib, Sumqayıta N saylı hərbi hissə komandirinin sərəncamına göndərilib. Müdafiə Nazirinin müavininin əmrinə əsasən Mingəçevir N saylı hərbi hissədə mexanik-sürücü vəzifəsində xidmət edib. Sonra korpus komandirinin müvafiq əmrinə əsasən Goranboy N saylı hərbi hissəyə köçürülüb. 2014-cü il sentyabrın 2-də yenidən Mingəçevir N saylı hərbi hissəyə köçürülüb. 2016-cı ildə Daşkəsən N saylı hərbi hissənin 4-cü taborunun 11-ci bölüyünə qumbaraatan vəzifəsinə verilib.

31.12.2016-cı il tarixində Daşkəsən rayon N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Akif Ağayev tərəfindən "Dünya azərbaycanlılarının həmrəylik günü münasibəti ilə döyüş və ictimai-siyasi hazırlıqda yüksək nailiyyətlər əldə etdiyinə görə" Fəxri Fərmanla;

22.08.2018-ci il tarixində Daşkəsən rayon N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Fəxrəddin Cavadov tərəfindən "Qurban bayramı münasibəti ilə, eləcə də döyüş hazırlığında qoşun xidmətinin təşkilində əldə etdiyi nailiyyətlərə görə" Fəxri Fərmanla;

12.11.2019-cu il tarixində Daşkəsən rayon N saylı hərbi hissənin komandiri polkovnik Əflatun Nurəliyev tərəfindən "12 noyabr Konstitusiya günü münasibəti ilə döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə və yüksək hərbi intizama nail olduğuna görə" Fəxri Fərmanla təltif olunub.

Vətən müharibəsi başlayan gündən Kəlbəcər istiqamətində gedən döyüşlərdə qumbaraatan vəzifəsində iştirak edib.

Ruslanın danışdıqlarından:

"Bir gün döyüşdükdən sonra Üçtəpə adlanan postumuzu düşməndən azad edib, 3 gün orada qaldıq. Oktyabrın 3-ü son döyüşümüz olub. Sonralar çıxışa getsək də atışma olmayıb. Oktyabrın 4-dən sonra 20 gün meşədə təlim keçmişik. Oktyabrın 26-da 30 nəfər könüllü olaraq digər döyüşlərdə iştirak etmək üçün 052-nin tərkibinə qoşulduq. Füzuli alındığı üçün oradan keçib 4 kənd uğrunda döyüşdük. Oradan Laçın dəhlizinə getdik, oradan da Şuşaya. Ən çətin döyüşlərimiz Şuşanın azadlığı uğrunda

olub, günlərlə ac və susuz qalmışıq. Ermənilər Daşaltı kəndində olduğu üçün meşə yolu ilə Şuşaya doğru irəlilədik. Noyabrın 6-da Şuşa uğrunda gedən döyüşlərdə yaxınlığımıza düşən minamyot mərmisinin partlaması nəticəsində kəllə-beyin travması və kürəyimdən qəlpə yarası aldım. Noyabrın 7-si Füzuli xəstəxanasına gətirildim, ilkin tibbi yardım göstərib, Qazax Rayon Nərkəzi Xəstəxanasına göndərdilər. Müalicə olunduqdan sonra Gəncə Hospitalına göndərdilər. Oradan da Kəlbəcər N saylı hərbi hissəyə qayıtdım. Hal-hazırda N saylı hərbi hissədə xidmətimə davam edirəm".

Təltifləri:

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

" Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2716. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

"Qüsursuz Xidmətə Görə" 3-cü dərəcəli medal. Əmr № 0136t. 26.06.2021

Abbasov Sədi Səid oğlu
Əsgər



1996-cı il aprelin 10-da Daşkəsən rayonunun Bayan kəndində anadan olub. Bayan kənd Mikayıl Mustafayev adına tam orta məktəbdə 9 illik təhsil alıb. Sonra Rusiyaya gedib və bir müddət orada işləyib, 2014-cü ildə Daşkəsənə qayıdıb. 2014-cü il aprelin 28-də SHXÇDX-nin Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Xocavənddə N saylı hərbi hissədə kəşfiyyatçı vəzifəsində xidmət edib. 2015-ci il oktyabrın 19-da ehtiyata buraxılıb.

Vətən müharibəsində kəşfiyyatçı olaraq Füzuli, Cəbrayıl, Xocavənd, Şuşa, Laçın istiqamətlərində döyüşüb.

Sədinin danışdıqlarından:

"2020-ci il oktyabrın 9-da könüllü olaraq müharibəyə getdim. Mən döyüşlərdə çox şeylər gördüm - igidlik, fədakarlıq, dostluq və s. Tanımadığım insanlarla döyüşdə necə bir-birimizə güvəndiyimiz çox maraqlı idi. İtkilərimiz də oldu, kədərli günümüz də olurdu, deyib - güldüyümüz günlər də. Maraqlısı budur ki, qorxu yox idi.

Bir gün yemək yeyirdik, erməni evindən bir az yemək tapmışdıq, sabahı əməliyyata getməli idik. Məndə öz-özlüyümdə maraq oyandı ki, görəsən bu uşaqlar nə hisslər keçirir. Bir anlıq onlara baxdım, gördüm ki, hamısı qəlbən

deyib-gülür. Orda mən hiss etdim ki, bunlar öz şəhadətini qəbul ediblər, sadəcə canlı şəhiddirlər. Sabahı kəşfiyyat əməliyyatına getdik, hamı hazırlaşdı, ağır nəyimiz var idisə, onları atdıq, çünki qalacağımız yer yüksək yer idi. 15 nəfərlik kəşfiyyat dəstəsi idik, hamı bir-biri ilə halallaşdı, sonra yola çıxdıq. 3 saatlıq yol qət etdikdən sonra əməliyyat əmri verilən məntəqəyə çatdıq və həmin yüksəkliyi ələ keçirdik. Çox həyəcanlı idik, qarşımızda görmədiyimiz, olmadığımız Şuşa dayanırdı. Hamı sevinirdi, azan oxunuldu. Birdən bizə tərəf minamyotlar atıldı, hamı dağıldı. Yaxınlığımızda eni 50 sm, uzunu təxminən 4 metrlik bir səngər var idi, döyüş yoldaşlarım özlərini ora atdılar. Mən və əlavə 3 nəfər çöldə qaldıq, qaçmağa yerimiz olmadı. Özümüzü böyürtkən koluna atdıq, bədənimizə tikanlar batsa da, hiss etmirdik. Orda maraqlı bir an baş verdi. Biz dördümüz də elə zənn etdik ki, bura qədər imiş, bir-birimizdən halallıq istədik ki, artıq haqqın dərgahına qovuşma anıdır. Biz bu vəziyyətdə hardasa 5 dəqiqə gözlədik, birdən yuxarıdan komandir heyətindən olan Mürsəlov qışqırdı ki, bura gəlin, yer var, sığışa bilərik. Birinci 2 nəfər göndərdik, axıra Fərid ilə mən qaldıq. Fərid mənə sual verdi ki, qardaş, biz öləcəyik? Mənsə güldüm, çünki ölümdən şirin heç nə yoxdur. Kəşfiyyatçı gərək diqqətli ola, düzdür, şəhadət gözəldir, amma gərək bir şey edəsən ki, şəhadətin gözəl ola. Bir az sonra biz də getdik onların yanına.

Döyüş insanı çox püxtələşdirir, həm qorxaqlığın gedir, həm də özünü yaxşı tanıyırsan. Mən orda görürdüm ki, boyu balaca, arıq elə uşaqlar var ki, canlarını sipər edir. Bizim yüksək əhval-ruhiyyəmiz vardı, uşaqlar döyüş əsna-

sında "Ya Allah, Ya Muhəmməd, Ya Əli!" deyə qışqırırdı. Döyüşdə ruh yüksəkliyi çox önəmli məsələdir.

Mən 2021-ci il yanvarın 1-də ordu sıralarından ehtiyata buraxıldım. Hazırda AzərGold Qapalı Səhmdar Cəmiyyətində işləyirəm.

Gənclərimizə demək istəyirəm ki, Vətəni sevsinlər və canları bahasına onu qorusunlar. Vətəni sevmək imandandır. Vətən uğrunda ölənləri əsla ölü zənn etməyin, onlar diridirlər və Allah yanında məqamları var".

Təltifləri:

"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2712. 24.06.2021.

"Laçının azad olunmasına görə" medalı. Sərəncam № 2719. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Abbasov Zaməddin
Nadir oğlu
Əsgər



1997-ci il dekabrın 11-də Daşkəsən şəhərində anadan olub. 2015-ci ildə Daşkəsən şəhər Səməd Vurğun adına 4 saylı tam orta məktəbi bitirib. Orta məktəbdə oxuduğu müddətdə idmanın müxtəlif növləri ilə məşğul olub və ya-

rışlarda iştirak edib.

2011-ci il oktyabrın 14-də Daşkəsən rayon Gənclər və İdman İdarəsinin rəisi S.Həsənov tərəfindən "Azərbaycan Respublikasının Müstəqilliyinin 20 illiyinə həsr olunmuş Daşkəsən rayon orta ümumtəhsil məktəbləri arasında Voleybol üzrə rayon birinciliyində" 1-ci yer tutduğuna görə Diplomla;

2015-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi Respublika Bədən Tərbiyəsi və idman Mərkəzinin Direktoru Q.Nəcəfov tərəfindən "Respublika ümumtəhsil və ilk peşə-ixtisas təhsili müəssisələri şagirdlərinin VIII Spartakiadasının Voleybol idman növü üzrə zona yarışında" 3-cü yer tutduğuna görə Diplomla;

2015-ci il noyabrın 01-11 tarixlərində Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının Prezidenti Firdovsi Əliyev tərəfindən "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibəti ilə "Heydər Zirvəsi"nə (3751m) müvəffəqiyyətlə yürüş etdiyinə görə" Sertifikatla təltif olunub.

2016-cı ilin yanvarında SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. DSX-da N saylı hərbi hissədə Cəlilabad, Biləsuvar, Yardımlı rayonlarının İranla sərhəddində xidmət edib. 2017-ci ilin iyulunda tərxis olunub.

Vətən müharibəsində Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Zaməddinin danışdıqlarından:

"General Polad Həşimovun şəhid olması vallah mənim içimdə elə bir hiss oyatdı ki, onun və digər şəhidlərimizin qisas hissi, işğal altında olan torpaqlarımızın işğaldan

azad edilməsi arzusu ilə 2020-ci il sentyabrın 8-də Müdafiə Nazirliyinin ordu sıralarına yazıldım və müddətdən artıq həqiqi hərbi xidmətə getdim. Göygöl rayon N saylı hərbi hissənin həmlə taborunda xidmətə başladım. 27 sentyabr saat 16:15-də döyüşə başladıq. Murovdağ yüksəkliyi və Kəlbəcər istiqamətində gedən döyüşlərdə qrupun tərkibində sıravi döyüşçü kimi iştirak etdim. 28-i günü gecə döyüş zamanı elə həmin istiqamətdə düşmən tərəfindən basdırılan insan əleyhinə olan minaya düşdüm, minanı ayaqlamışdım. Altı gün neytral ərazidə tək qaldım. Özüm ayağıma ilkin tibbi yardım etdim, vaxtında sarıdım. Saat yarımdan bir jqutu açıb, sarğını dəyişirdim. Altı günə gecələr, dumanlı havada sürünərək ac-susuz Murovdakı Uğur postuna gəldim. Gündüzlər su kanalının içində gizlənirdim, üstümü ot-alaqnan örtüb masqalanırdım ki, erməni kəşfiyyatı, snayper görməsin. Uğur postundan məni götürüb maşınla düşürdülər Toğanaya, oradan da Gəncə Beynəlxalq Xəstəxanasına. Orada bir ay qaldım, iki dəfə əməliyyat olundum, sonra Bakıya göndərdilər. Bakıda yenə 2-3 dəfə əməliyyat elədilər, ayaq pəncəmdəki daraq sümüklərim kaprondandır, sonra evə buraxdılar. 3-cü qrup verdilər. Yenə də Vətənim, dövlətim, millətim sağ olsun".

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

27.05.2021-ci il tarixində Daşkəsən rayon Heydər Əliyev Mərkəzinin Direktoru Nailə Məmmədova tərəfindən "Xalqımızın birliyi, torpaqlarımızın bütövlüyü uğrunda, Vətən qarşısında borcunu şərəflə yerinə yetirən, bu yolda canından keçməyə hazır olduğuna görə" Təşəkkürnamə;

27.05.2021-ci il tarixində nmedia.az İnformasiya Portalının Baş Redaktoru Nicat Dilqəmli tərəfindən "Vətən uğrunda göstərdiyi mərdliyə və şücaətə görə" Fəxri Media Mükafatı ilə təltif olunub.



Abdullayev Fərid
Qabil oğlu
Əsgər

2001-ci il iyunun 12-də Daşkəsən şəhərində anadan olub. 2019-cu ildə Anar Mürsəlov adına 2 saylı tam orta məktəbi bitirib. 2019-cu il iyulun 22-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, əvvəlcə Ağcabədi rayonunda N saylı hərbi hissədə, sonra isə N saylı hərbi hissənin postunda artilleriya kəşfiyyatında xidmət edib.

Vətən müharibəsində Füzuli, Xocavənd istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

Fəridin danışdıqlarından:

"Füzulidə 6 gün yaralılara köməklik etdikdən sonra, Xocavəndə yola düşdük. Xocavənddə 631 yüksəkliyi is-

tiqamətində döyüşdük. Döyüş bitdikdən sonra xidmətdən artıq 6 ay Ağdamda xidmətimə davam etdim. 2021-ci il iyulun 1-də ordu sıralarından tərxis olundum. Atam da 1-ci Qarabağ müharibəsinin qazisidir".

Azərbaycan Vətən Müharibəsi Veteranları İB-nin üzvüdür.

Təltifləri:

"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2712. 24.06.2021.

Abuşov Kamal Vidadi oğlu Əsgər



1990-cı il avqustun 19-da Daşkəsən rayonunun Zinzahal kəndində anadan olub. 2007-ci ildə Zinzahal kənd tam orta məktəbini bitirib. 2008-ci ildə Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Naxçıvan N saylı hərbi hissədə snayper (NSV) vəzifəsində xidmət edib. 2010-cu ildə ordu sıralarından tərxis olunub. Zinzahal kənd klubunda mədəni təşkilatçı işləyir.

Vətən müharibəsinin ilk günlərindən Kəlbəcər istiqamətində gedən döyüşlərdə snayper vəzifəsində iştirak edib.

Kamalın danışdıqlarından:

"2020-ci il sentyabrın 21-də SHXÇDX-nın Daşkəsən rayon bölməsinə çağırıldım, sentyabrın 25-dək Gəncə N saylı hərbi hissədə təlimdə oldum. Sonra gəldik Daşkəsən rayon N saylı hərbi hissəyə. Sentyabrın 28-də Kəlbəcər istiqamətində döyüşlərə qatıldım, Çınqıl-1 və Koroğlu postlarında döyüşmüşəm. Günorta üstü idi, Çınqıl-1 postunda 12 nəfər idik, yanımdakı əsgər yoldaşımı vurdular, mən onu çıxartmaq istəyirdim, düşmən tərəf isə imkan vermirdi ki, biz təpəni aşaq bizimkilər tərəfə. Elə bu vaxt yaxınlığımıza minamyot mərmisi düşdü və bizi atdı qayadan aşağı. Mənim ayağım qırıldı, yaralı yoldaşım da çiynimdən düşdü. Axşam saat 7-8 radələrinədək orada qaldıq. Sonra komandirimiz gəldi və bizi ərazidən çıxardı. Bizi təxliyyə etdilər Gəncə Hospitala. Orada əməliyyat edib, ayağımı gipsə qoydular, 11 gün hospitalda qaldım. Sonra qayıtdım öz hərbi hissəmizə, orada vaxtaşırı ayağımın gipsini açıb yeniləyirdilər. Biz Kəlbəvər təhvil verilənədək müdafiədə qaldıq. Sonra bizi apardılar Kəlbəcərə, dekabrın 25-də ehtiyata buraxıldım".

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Ağacanov Qəhrəman Nəriman oğlu Əsgər



2000-ci il oktyabrın 24-də Sumqayıt şəhərində anadan olub. 2011-ci ildən Daşkəsən rayonunun Quşçu kəndində qeydiyyatdadır. 2016-cı ildə Şumqayıt şəhər Hacı Zeynalabdin Tağıyev qəsəbəsi Xələc tam orta məktəbinin 9-cu sinfini bitirib. Sumqayıt şəhər 1 №-li Peşə liseyinə qəbul olub, 2019-cu ilin iyulunda bitirib. Elə həmin ayda da SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Beyləqan rayon N saylı hərbi hissədə topçu vəzifəsində xidmət edib.

Vətən müharibəsi başlayandan xidmət etdiyi hərbi hissənin tərkibində Füzuli, Cəbrayıl, Xocavənd, Hadrut və Şuşa istiqamətində gedən döyüşlərdə topçu olaraq iştirak edib.

Qəhrəmanın danışdıqlarından:

"İlk vaxtlar döyüşlər çox çətin və ağır idi, amma biz bütün çətinliklərə baxmayaraq qalib gələcəyimizə inanır, inadla, böyük ruh yüksəkliyi ilə döyüşür və irəli gedirdik. Füzuli alındıqdan sonra biz Cəbrayıl, Xocavənd və Hadrut istiqamətində döyüşlərə davam edirdik. Hadrut alındıqdan sonra Şuşa istiqamətində döyüşlərə davam

etdik. Topxanaya çatmamış bizdən öndə gedən Xüsusi Təyinatlı Qüvvələrimizin döyüşçülərinə yol açmaq üçün mövqeləndik. Biz yolu açırdıq, onlar da sürətlə irəli gedirdilər. Meşə alındıqdan sonra biz meşədən keçib Şuşanın Çanaqçı kəndində dayandıq. Noyabrın 8-i idi, topları atəş vəziyyətinə gətirib komanda gözləyirdik. Atəş əmri veriləndən sonra biz atəş açmağa başladıq, dayan əmri veriləndən sonra isə bir qədər dağınıq halda gözləyirdik. Bu vaxt yaxınlığımıza minamyot mərmisi düşdü, özüm də bilmədən qəlpəyə tuş gəldim, sağ üzümün almacıq nahiyəsindən yaralandım və huşumu itirdim. Komandirlərim məni ərazidən çıxarıb hərbi sanitar maşını ilə Füzuli xəstəxanasına göndərmişdilər. Orada özümə gəldim, paltarlarımı dəyişdilər, ilkin tibbi yardım göstərdilər, 1-2 saat sonra Saatlı Mərkəzi Xəstəxanasına göndərdilər. Bir həftə də orada qaldım, sonra Bakıya Papanin hospitalına göndərdilər, müayinədən sonra oradan da Tibbi Cərrahiyyə Klinikasına göndərdilər. Orada əməliyyat olundum, üzümün sağ almacıq sümüyünü titanla əvəz etdilər. İki ay da orada müalicə olunduqdan sonra ordu sıralarından tərxis olundum".

Təltifləri:

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2711. 24.06.2021.

"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2712. 24.06.2021.

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2714. 24.06.2021.

"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2716. 24.06.2021.
"Cəsur döyüşçü" medalı. Sərəncam № 2724. 24.06.2021.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

"Loğman" Qaçqınlara Dayaq Mərkəzi İB-nin sədri Tahirə Nağıyeva və Layihənin rəhbəri Nöyzalı Əliyev tərəfindən "Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda aparılan 44 günlük Vətən müharibəsi zamanı döyüş əməliyyatlarını şərəflə yerinə yetirdiyi üçün" Fəxri Fərman;

31.12.2020-ci il tarixində Ulu Öndər Heydər Əliyev Siyasi Kursu və Yeniləşən Dövlətə Dəstək İB-nin sədri Nəbi Qafarov tərəfindən "Müzəffər Ali Baş Komandan" Fəxri Diplomu;

27.09.2022-ci il tarixində Anım Günü münasibətilə Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov, Sumqayıt şəhəri Gənclər və İdman Baş İdarəsinin rəisi Elgün Hümbətov və Milli Karate Federasiyasının Sumqayıt şöbəsi üzrə sədri Akif Kərimov tərəfindən "Azərbaycanda Karate idman növünün, uşaqlarımızda hərbi vətənpərvər ruhun inkişafında göstərdiyi xidmətlərə görə" Fəxri Fərmanla təltif olunub.



Ağayev Ağamir
Mirağa oğlu
Əsgər

1987-ci il iyun ayının 8-də Daşkəsən şəhərində anadan olub. 2003-cü ildə Daşkəsən şəhər İmadəddin Nəsimi adına 1 saylı tam orta məktəbin 9-cu sinfini bitirib. 2004-cü ildə Y.Süleymanov adına Qazax Peşə Liseyinə daxil olub, 24 iyun 2007-ci ildə bitirib. 2007-ci il iyunun 9-da Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 2009-cu il yanvarın 1-də xidmətini başa vurub, ordu sıralarından tərxis olunub. MAHHXHQ kimi yenidən N saylı hərbi hissədə xidmətinə davam edib. 2009-cu il fevralın 2-də Təlim və Tədris Mərkəzində sürücülük kursunu bitirib.

Vətən müharibəsi başlayandan sürücü kimi döyüşün bütün təminatlarında iştirak edib. Hal-hazırda Kəlbəcər N saylı hərbi hissədə MAHHXHQ kimi xidmətinə davam edir. Kəpəz - Murovdag silsilələrində sürücü vəzifəsində işləyir.

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Alıyev Adil
İsfəndiyar oğlu
Əsgər



1990-cı il iyunun 16-da Daşkəsən rayonunun Qaraqollar kəndində anadan olub. 2008-ci ildə Daşkəsən şəhər Səməd Vurğun adına 4 saylı tam orta məktəbi bitirib. Elə həmin ilin iyul ayında Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Tərtər rayonunda N saylı hərbi hissədə artilleriya diviziyasında rabitə manqa komandiri vəzifəsində xidmət edib. 2010-cu ilin yanvarında xidmətini başa vurub ordu sıralarından tərxis olunub və müxtəlif işlərdə işləyib. 2014-cü ilin avqustunda Daşkəsən rayonunda N saylı hərbi hissədə Polad Həşimovun tabeçiliyində MAHHXHQ olaraq müqavilə üzrə artilleriyada hesablayıcı vəzifəsində xidmətə başlayıb. İxtisas fənnindən korpus üzrə 1-ci yerə çıxıb. 2017-ci ilin noyabr ayında xidmətinin müqavilə müddəti bitib və Rusiyaya işləməyə gedib.

2020-ci ilin iyulunda hörmətli generalımız Polad Həşimovun şəhid olduğu xəbərini aldıqdan sonra, hələ müharibə başlamamışdan əvvəl rayona qayıdıb. Bir məqsədi var idi - bütün Poladsevərlər kimi, neçə il tabeçiliyində işlədiyi komandirinin qisasını almaq, torpaqlarımızı işğaldan azad etmək. Bu əhval-ruhiyyə ilə könüllü olaraq ordu

sıralarına yazılıb. Vətən müharibəsində Tovuz istiqamətində, Polad Həşimovun şəhid olduğu yerdən döyüşlərə qatılıb. Orada qumbaraatan köməkçisi olaraq 4 ay, 2020-ci il dekabrın 28-dək Tovuzun müdafiəsində dayanıb. Dekabrın 28-də ordu sıralarından ehtiyata buraxılaraq Daşkəsənə qayıdıb və "Araz" supermarketlər şəbəkəsinə işə qəbul olunub. Hazırda şəbəkənin Daşkəsən filialının mağaza müdiri vəzifəsində işləyir.



Alıyev Elvin Habil oğlu
Əsgər

2001-ci il mayın 13-də Daşkəsən rayonunun Quşçu kəndində anadan olub. 2019-cu ildə Quşçu kənd Əli İsmayılov adına tam orta məktəbi bitirib. 2019-cu il iyulun 3-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Cəlilabad N saylı hərbi hissəsində xidmət edib. Tərxisinə 2 ay qalmış Vətən müharibəsi başlayıb, xidmət etdiyi hərbi hissənin tərkibində Füzuli, Cəbrayıl istiqamətində döyüşüb.

Elvinin danışdıqlarından:

"Əsas tapşırığımız Cəbrayılı əldə saxlamaq və etibarlı mühafizəsini təşkil etmək idi. Bunun da öhdəsindən layiqincə gəlirdik. Döyüşlər gedə-gedə Xudafərin su anbarını yüksək peşəkarlıqla mühafizə edirdik. Anbar Araz

çayı üzərində yerləşdiyi üçün anbarın bir tərəfində İran hərbçiləri dururdu. Döyüşlər bitənə qədər Qumlaq kəndində öz hərbi sədlərimizdə (zastavada) qaldıq. Müharibə bitdikdən sonra sərhədlər böyüdü, şəxsi heyətin azlığı və ordunun komplektləşdirilməsi üçün hərbi xidmət müddətindən 6 ay artıq xidmət etdik. 2021-ci il iyulun 20-də tərxis olundum.

Alınmış torpaqlarda ilk xidmət edən sərhədçilər kimi çox qürurlu idik. Bu qürur bizə xidmətdə çox böyük ruh yüksəkliyi verirdi".

Təltifləri:

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Alıyev Fikrət Fərhad oğlu
Əsgər



1986-cı il martın 8-də Daşkəsən rayonunun Daşkəsən qəsəbəsində anadan olub. 2003-cü ildə Daşkəsən rayon Kəmərqaya kənd orta məktəbini bitirib. 2004-cü ildə Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Naxçıvan MR-də N saylı hərbi hissənin kəşfiyyat bölüyündə

radio-teleqrafçı olaraq xidmət edib. 2005-ci ildə ordu sıralarından tərxis olunub. 2014-cü ilədək müxtəlif işlərdə işləyib. 2014-cü il yanvarın 15-dən Daşkəsən Dəmir Filiz MMC-də işləyir.

Vətən müharibəsi başlayanda könüllü olaraq SHXÇ-DX-nın Daşkəsən rayon bölməsinə müraciət edib, sentyabrın 29-da səfərbərliklə müharibəyə çağırılıb. N saylı hərbi hissənin tərkibində kəşfiyyat qrupunda atıcı əsgər olaraq Cəbrayıl, Qubadlı, Laçın istiqamətlərində döyüşüb.

Fikrətin danışdıqlarından:

"Oktyabrın 8-i idi, Cəbrayıl istiqamətində ilk olaraq bizim kəşfiyyat bölüyümüz hücuma keçdi. Qarşı tərəf artilleriya ilə vurur, biz də qarşılıq verirdik, nə şəhidimiz, nə də yaralılarımız olmadı. Cəbrayılın girəcəyində mühasirəyə düşdük, ermənilər bizi ağır artilleriya ilə vururdular. Həmin yerdə bizim briqadanın qərargah rəisi və 3 nəfərimiz şəhid oldu – baş kapitan, leytenant, mayor. Amma biz döyüşüb mühasirədən çıxa bildik və Cəbrayılın kəndinə girdik, mərkəzinədək gəldik, orda qızğın döyüşümüz oldu, kəndi aldıq, amma bir şəhid, 2 yaralımız vardı. Kəndin çıxışında bizi yenə mühasirəyə aldılar, güclü döyüşümüz oldu, 3-4 gün orada döyüşdük. Ermənilər SU-25 təyyarəsi qaldırmışdı, bizimkilər vurub saldılar. Sonra bizə güclü dəstək gəldi və mühasirədən çıxdıq. Oradan Qubadlı istiqamətində irəlilədik. Orada da güclü döyüşümüz oldu, yaralılarımız var idi. Qubadlıdan Laçın istiqamətinə keçən zaman mühasirəyə düşdük. Orada bizim sülhməramlılar bizə dəstək oldu, mühasirədən çıxdıq və Qubadlının məktəbinə sığındıq, 2-3 gün orada qaldıq. Ermənilər yerimizi təsbit edəndən sonra oradan çıxdıq. Çünki orada kamera-

lar çox idi deyə bizə ağır artilleriya ilə atəş edirdilər. Biz oradan çıxan zaman taxıllıq istiqamətində bizim briqada komandirinin siyasi işlər üzrə müavini (zampolit) və bir neçə əsgərimiz şəhid oldu. Qubadlı alındıqdan sonra, Qubadlının çıxacağında məni və 4 nəfəri təminata verdilər. Briqada isə Laçın istiqamətində döyüşlərə davam etdi. Orada bizim kəşfiyyat rəisimiz yaralandı, bizə yeni kəşfiyyat rəisi gəldi və bir müddət bizimlə döyüşlərdə oldu, o da Laçının Yuxarı Fərəcan kəndində şəhid oldu. Onunla bərabər 7 yaralı və 7 şəhidimiz vardı. Orada da ermənilərin 2 dənə SU-25 təyyarəsi və dronları ordumuz tərəfindən məhv edildi.

Laçına çatmağımıza 4 km qalmışdı, Yuxarı və Aşağı Fərəcan, Tərxanlı və Daşlı kəndləri uğrunda qızğın döyüşümüz oldu.

Noyabrın 6-sı idi, Yuxarı Fərəcan kəndində düşmən tərəfindən atılan ağır artilleriya mərmisinin partlaması nəticəsində ağır kəllə-beyin travması aldım. Başımda hələ də qəlpə qalıb. Mənə ilkin tibbi yardım göstərdikdən sonra, Füzuliyə təxliyyə etdilər, oradan da göndərdilər Qəbələ Mərkəzi Xəstəxanasına. Orada 7-8 gün müalicə olundum. Oradan da göndərdilər Şəmkir Hospitalına, bir gün sonra da göndərdilər Gəncə Hospitalına. Orada müayinə olundum, göndərdilər öz briqadama. Dekabrın 15-də ordu sıralarından tərxis olundum".

Fikrət ailəlidir, 2 övladı var.

Təltifləri:

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.
"Laçının azad olunmasına görə" medalı. Sərəncam № 2373. 29.12.2020.
"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Alıyev Nemətdin Sədrəddin oğlu Əsgər

1991-ci il dekabrın 15-də Daşkəsən rayonunun Bayan kəndində anadan olub. 2009-cu ildə Mikayıl Mustafayev adına Bayan kənd tam orta məktəbini bitirib. 2010-2014-cü illərdə Gəncə Dövlət Universitetinin Tarix-Coğrafiya fakültəsinin Tarix ixtisasında ali təhsil alıb. Universiteti bitirdikdən sonra 2014-2015-ci illərdə Naxçıvan MR-də N saylı hərbi hissədə pulemyotçu vəzifəsində xidmət edib. 2018-ci ildən Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik Hüquqi şəxsinin 3 saylı Gəncə Ərazi İdarəsinin Daşkəsən rayon şöbəsinin müdiri işləyir.

Vətən müharibəsində Daşaltı – Şuşa – Xankəndi istiqamətində gedən döyüşlərdə pulemyotçu vəzifəsində iştirak edib.

Nemətdinin danışdıqlarından:

"2020-ci il sentyabrın 27-də müharibə başladı. Sentyabrın 29-da Vətən müharibəsinə SHXÇDX-nın Daşkəsən rayon bölməsindən yola düşdük. Gəncə N saylı hərbi hissədə bir neçə gün təlimdə olduq. Həmin təlimlər döyüş vaxtı bizə çox kömək oldu. Çünki biz çağırışnan gedənlər xidmətdən tərxis olunanlar idik. Ola bilsin ki, bəzilərimiz təbii olaraq hərbidən müəyyən məsələləri unuda bilərdik. Bizim içimizdə müəllim də vardı, dövlət qulluqçusu da, fəhlə də. Biz məhz həmin təlimlərdə döyüş hazırlığı keçərək müharibəyə yollandıq.

Bizə döyüş tapşırığı Füzuli istiqamətindən gəldi. Taborumuz Füzulinin işğaldan azad olunmuş ərazilərində müdafiə mövqeyində oldu. Xüsusi Təyinatlılarımız irəlilədikcə, alınmış ərazilərdə bizim bölmələrimiz yerləşirdi. Hərbçilərimiz arasında böyük ruh yüksəkliyi vardı, bu da qələbəmizin əsas səbəblərindən biri oldu. İllərdir düşmən işğalı altında qalan torpaqlarımız işğaldan azad olunduqca, millətimizin sevinci bizi daha da ruhlandırırdı. Torpaqlarımız da sanki bizim üçün darıxmışdı, öz isti qucağını bizə açmışdı.

Bizə növbəti döyüş tapşırığı Şuşa istiqamətinə gəldi. Həmin vaxt döyüş yoldaşlarımızın sevincini sözlə ifadə etmək çox çətindi. Şuşa kimi əzəmətli, tarixi şəhərimizin işğaldan azad olunmasında bizim taborumuzun da döyüş əməliyyatları oldu. Daşaltı istiqamətindən keçilməz, çətin yollarla irəliləyib Şuşanın girişinə doğru qalxdıq. Şəhərin girişindəki Şuşa (o zaman Şuşi yazılmışdı) yazısını görəndə sevincimizin həddi-hüdudu yox idi. Şuşa şəhərinin ətrafında döyüş əməliyyatlarımız oldu. Həmin döyüşlərin

birində 6 nəfər döyüş yoldaşımız və tabor komandirimiz yaralandı. Bir qrupumuz bizdən qabaqda gedirdi. Həmin qrup erməni hərbçilərini yerindəcə məhv etdi. Həmin döyüşdə mən də əlimdən gələni edirdim. Belə ki, döyüş yoldaşlarımla birgə yaralı əsgərlərimizi döyüş mövqeyindən təhlükəsiz yerə çıxarırdıq. Ermənilər yerindəcə məhv elədik. Döyüş məsafəmiz hardasa 30-40 metr var idi. Həmin döyüşlərdə təbiət də bizim yanımızda idi. Havanın dumanlı olması bəzi döyüşlərdə bizim çox köməyimizə gəldi. Bizim taborumuza növbəti döyüş tapşırığı noyabrın 8-də gəldi, istiqamət Xankəndi idi. Şuşadan qaçan düşmən Xankəndindən Şuşaya hücum etmək istəyirdi. Bir neçə dəfə buna cəhd etsələr də, istəklərinə nail ola bilmədilər. Həmin döyüşdə düşmənin tankları, artilleriyası bizim mövqeləri dayanmadan vururdu. Ancaq biz bir addım belə geri atmadıq, əksinə, əlimizdə olan yüngül silahlarla düşmənin üzərinə getdik. Düşmən tankları Xankəndinə tərəf geri çəkildilər, onları Şuşadan bir neçə kilometr geriyə otuzdurduq. Həmin döyüşdə əsgər yoldaşlarımdan, komandirlərimdən həm şəhid, həm də yaralananlar oldu. Bölüyümüzün şəxsi heyət üzrə müavini vardı – Leytenant Abbasov Seymur, düşmən snayperi gözümün qarşısında vurdu, şəhid oldu. Həmin an yaddaşımdan heç vaxt çıxmayacaq. Yaralı, şəhid verdikcə düşmənə olan nifrətimiz daha da artırdı. Mən də noyabrın 8-də düşmənin atdığı minamyot mərmisinin qəlpəsindən yaralandım.

Çox şükür, Ali Baş Komandanımızın rəhbərliyi ilə biz qalib gəldik, torpaqlarımız düşmən işğalından azad olundu. Allah şəhidlərimizə rəhmət etsin. Yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm. Necə ki, müharibədə dövləti-

miz, millətimiz bir oldu, bundan sonra da bir olmağımızı, möhkəm olmağımızı arzu edurəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Təltifləri:

"Döyüşdə fərqlənməyə görə" medalı. Sərəncam № 2354. 18 12 2020.

"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2370. 29.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Alıyev Vüqar Nadir oğlu
Əsgər



1986-cı il avqustun 23-də Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 2003-cü ildə Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbi bitirib. 2004-cü il oktyabrın 6-da Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Füzuli rayon Horadiz qəsəbəsində hərbi sərhəd qoşununda post başçısı vəzifəsində xidmət edib. 2006-cı il aprelin 20-də ehtiyata buraxılıb. 2016-cı il avqustun 19-dan MAHHXHQ olaraq Daşkəsən rayon N saylı hərbi hissədə dağatıcı briqadada kəşfiyyat bölüyündə kəşfiyyatçı vəzifəsində işləyib.

Vətən müharibəsi başlayan gündən Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Vüqarın danışdıqlarından:

"Sentyabrın 27-si tapşırıq gəldi, biz qalxdıq posta, 28-i döyüş başlayanda biz Keçi qaya istiqamətində ermənilərlə döyüşə girdik, bizə verilən tapşırığı yerinə yetirdik. Bir gün həmin post bizdə qaldı. Sentyabrın 29-da oradan qayıtdıq və başqa yüksəklik istiqamətində hücuma keçdik. Həmin istiqamətdə də verilən bütün tapşırıqları yerinə yetirdik. Sentyabrın 30-31-i bizə tapşırıq gəldi ki, Kəlbəcər istiqamətində ermənilərin taborunu və bölüklərini ələ keçirək. Biz də getdik, ələ keçirdik, orada bizim yaralı və şəhidimiz oldu. Oradan qayıtdıq gəldik, səhərisi gün qruplara bölündük. Biz ehtiyat (atəş təminat) qrupunda qaldıq, 1-ci qrup irəlilədi. 20-21-ci postlardan bizim qrupa dəstəklə, biz ermənilərin postlarına atəş açdıq, 1-ci qrup keçid elədi. Bir müddət beləcə davam elədik, nə tapşırıq gəlirdisə, onu icra edirdik. Növbəti tapşırığı icra edərkən, oktyabrın 1-dən 1-ci və 2-ci qruplar 3 gün düşmən mühasirəsində qaldıq, sonra mühasirəni yarıb bütün qrup mühasirədən çıxdıq. Bölük komandirimiz, Yusif və başqa dostlarımız yaralandı, Haqverdiyev Novruz, Məmmədov Elnur, Tağıyev Rahib və Tağıyev Asif şəhid oldular. Biz yaralılarımızı da götürüb geri qayıtdıq və onları təxliyyə etdik.

Bir müddət sonra müharibə dayandı, biz Kəlbəcər istiqamətinə getdik, Kəlbəcərə girdik. Kəlbəcərin alınmasını cənab Prezidentimizə bizim qrup məruzə elədi. Bayrağı Kəlbəcərdə bizim qrup sancdı. Kəlbəcərdə xidmətimizə davam etdik. 2021-ci il iyunun 16-da ordu sıralarından tərxis olundum".

Təltifləri:
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

Allahverdiyev Ramal
Vasif oğlu
Əsgər



2001-ci il noyabrın 2-də Daşkəsən rayonunun Alunitdağ qəsəbəsində anadan olub. 2016-cı ildə Alunitdağ qəsəbəsi Rövşən Qafarov adına tam orta məktəbin 9-cu sinfini bitirib. 2016-cı ildə Gəncə şəhər 3 nömrəli Peşə Liseyinin Kompüter ustası ixtisasına qəbul olub, 2019-cu ildə Liseyi bitirib. 2020-ci il yanvarın 27-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Ağcabədidə N saylı hərbi hissədə xidmət edib.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Xocavənd və Füzuli rayonları istiqamətində gedən döyüş əməliyyatlarında iştirak edib və Füzuli rayonunun Mərdinli kəndində yaralanıb. 2021-ci il iyunun 1-də Qubadlı rayon N saylı hərbi hissəsindən ehtiyata buraxılıb.

Ramalın danışdıqlarından:

"Sentyabrın 27-də Xocavənd rayonu istiqamətində hücuma keçdik, 5 gün həmin istiqamətdə döyüşdə oldum. Çox ağır döyüşlər gedirdi, amma biz bilirdik ki, qələbə bizim olacaq. Oktyabrın 2-də bizim bir taqımı Füzuli rayonu istiqamətinə göndərdilər. Taqım komandirimiz şəhid baş leytenant Fərzəliyev Samiq idi. O, bizə çox gözəl komandir olub. İki gün gecə yol getdik, Füzuliyə çatdıq. Bizi orada idarə edən mayor Axundovun əmri ilə hücuma keçdik və Füzulinin Qaraxanbəyli kəndini aldıq. Düşmənin 12 dənə maşın və tankını ələ keçirdik. Düşməni, demək olar ki, məhv etdik. Biz Mərdinlı kəndinin girəcəyinə çatanda, gecə düşmüşdü deyə istirahət etmək üçün dayandıq. Ağır artilleriyalar, filan başladı atmağa. Gecə səhərədək yağış yağdı, biz də səhərə qədər palçıqlı səngərin içində gecələdik. Səhər açıldı, biz orada 1992-ci ildən işğalda qalan uçulub-dağıdılmış evlərin içinə girdik ki, bir az özümüzə gələk. Nə yeməyimiz, nə də suyumuz yox idi, üst-başımız da su idi. Buna baxmayaraq yenə döyüşmək üçün can atırdıq. Nə qədər gücdən, taqətdən düşsək də, öz aramızda patrul təyin etdik ki, istirahət vaxtlarında bizə hücum, filan olsa xəbərimiz olsun. Orada bizim bir əsgərimiz müşahidə etdiyi zaman düşmən tərəfdən snayperlə alnından vurdular. Bunu onun yanında olan əsgər Eyyublu Oktay xəbər verdi. Mən komandirimiz Fərzəliyev Samiqin yanına getdim və olanları məlumat verdim. O, öz bronojilet və kaskasını çıxardı, yerə qoydu, tüstü bombaları, filan mənə verdi və dedi ki, Allahverdiyev, sən at mən o əsgəri çıxardacam. Həmin vaxt orada atışma oldu, buna baxmayaraq komandirimiz getdi. O, Tovuzdan idi, çox cəsur adam idi. Allah rəhmət eləsin ona. Biz tüstü bombalarını, filan atdıq,

o getdi, yaralı əsgərimizi çıxartdı və gətirdi. Mən cəld sarğı beziylə əsgərin başını sarıdım və onu təxliyyə elədik. Çox şükür ki, İlkin adlı bu əsgərimiz sağdı, yeni əsgər idi.

Biz orada növbəti hücum əmrini gözləyərkən, 30-40 metr yaxınlığımıza tank gəldi, olduğumuz evlərin yanından keçib bizi axtarırdılar. Bu vaxt mayor Axundov əmr verdi ki, tankı vurun. Həmin an sanki hamı hipnoz olmuşd ki, bu necə oldu, bu tank bu qədər yaxınımıza gəldi deyə. O an Gəncədən olan əsgər yoldaşım Cəfərov Cəfər mənə dedi ki, Allahverdiyev, sənin əvvəllər də təlimlərdə nailiyyətlərin olub, sən vurarsan. Çıx vur, qardaşım, çıx vur. Mən çıxdım, tankı nişan aldım, amma o an tank sanki bilmədi necə etsin ki, geri qayıtsın, yüksək sürətlə əks tərəfə getdi. Mən bir dənə mərmi atdım, dəymədi, bu vaxt bizdən bir az sol istiqamətdə digər taborun leytenantı Abdullayev Pərvin tankı vurdu. Sevinirdik ki, şükür, vurduq. Tankın içindən bir erməni şərəfsizi düşüb qaçdı, yaralı idi. Yanımızda İlkin adında hərbçi var idi, müddətdən artıq, dedi ki, gedib onu öldürəcəm ey, onun qulağını kəsəcəm. Getdi və dediyini də elədi. Sonra bizə hücum əmri verildi, hücuma keçdik. Bu vaxt düşmənə təminat maşını – satki gəldi. Mən həmin maşını qumbaraatanla vurdum, sonra irəlilədik, amma mühasirəyə düşdük. İki saatdan çox mühasirədə qaldıq. Bir tərəfdən də atırlar, bilmirik ki, necə edək mühasirədən çıxaq. Orada 4 nəfər şəhid verdik. Yaxınlıqda dərə var idi, həmin dərədən, çayın içi ilə çətinliklə də olsa mühasirədən çıxa bildik. Gecə yenə yağış yağmağa başladı. Rəhmətlik komandirimiz Fərzəliyev Samiq bizim hamımıza dedi ki, siz istirahət edin, mən gecə səhərə oyaq qalacam. Öz fləşçadırını da çıxarıb bizə

verdi və gecə səhərədək başımızın üstündə növbə çəkdi. Səhər saat 8-9 olardı, qarşı tərəf atmağa başladı, atışdıq, mən qumbaraatanla atırdım və qarşı tərəfdən öldürdüklərim oldu. Mən atandan sonra atışma dayandı, biz hücuma keçdik. Onlara yaxınlaşmışdıq, yenə atışma başladı. Düşmənin aypara kimi postu var idi, biz ordan girib, Ağ evi alıb, Mərdinli kəndini götürəcəkdik. Bir az atışdıq, sonra qarşı tərəf atışmanı dayandırdı, biz də dayandıq, istirahət edirdik. Neçə gün idi ki, içməyə suyumuz yox idi, elə çaydan keçəndə, yağış suyu ilə idarə edirdik. Axşam tərəfi saat 5-6 olardı yenə atışma başladı, sağ tərəfimizdə dağ var idi, komandir əmr verdi ki, o istiqamətdə irəliləyək. Hücuma gedən vaxt bizə həm qarşı tərəfdən, həm də sol tərəfdən atırdılar. Uşaqların hamısı səngərə oxşar yer var idi, ora keçdilər. Düşmən atırdı deyə mən çata bilmədim, qaldım neytralda, uzandım yerə. Hər iki tərəf atırdı, güllələr başımın üstündə necə oynuyurdu... Həmin vaxt düşündüm ki, mən də burada şəhid olacam. Bu vaxt əsgər yoldaşım Xansuvarov Fərruxu gördüm, düz irəlidə səngərin içindəydi. Mənə dedi ki, gəl, qardaşım, gəl, çıxardacam səni. Onun dəstək atəşi ilə mən neytraldan çıxdım, şəhid olmaq mənə qismət olmadı. Bir az atışdıq, atışma dayandı. Bizim yanımıza könüllü olaraq gəstək üçün gələnlər oldu. Onlar bizim yanımıza yenicə çatmışdılar, əmr gəldi ki, 4 saat içində Mərdinli kəndini götürməlisiz. Yenidən hücuma keçdik, 4 km irəlilədik. Atışma zamanı bizim taqım qrup komandirimizi – Fərzəliyev Samiqi şəhid verdik. Samiq şəhid olandan iki gün sonra bizə xəbər gəlmişdi ki, onun yeni övladı dünyaya gəlib. Atışma dayandı, tamam sakitlik oldu, biz atırıq, onlar atmır. Birdən bərk qışqırıq gəldi,

erməni nəsə deyirdi, səsi çox aydın eşidilirdi. Bir dəqiqə filan qışqıra-qışqıra öz dillərində nəsə deyirdi, sonra sakitçilik oldu, biz də öz mövqelərimizi qurduq. Amma mən öz əsgər yoldaşlarıma və zabitimizə dedim ki, komandir, mayor Axundov, çox içəri girdik, gecə bizi mühasirəyə ala bilərlər. Hər tərəf meşəlikdi, ətrafı da tam tanımırıq. Komandir dedi ki, düz deyirsən, amma biz buranı almalıyıq, bu gün güc toplayın, sabah inşallah ki, bu kəndi də alarıq. Nə isə, biz də özümüz müşahidə edə-edə yarı-yarı istirahət edirdik. Oktyabrın 8-i, səhər saat 8 idi, qarşı tərəf güclü atmağa başladı, həm çox yaxında, həm də yüksəklikdə idilər. Biz də atışmaya qarşılıq verdik. Biz kapanerdəydik - maşın sığınacağında, komandirimiz qışqırdı ki, kapanerdə olanlar çıxsınlar, oranı minamyotla vuracaqlar. Xaçmazdan Kərimov Əmir var idi, ona dedim ki, Əmir, sən, ardınca mən, sonra da qalanları çıxaq burdan. Əmir kapanerdən çıxdı, mən çıxdım, çatmağıma bir az qalmışdı ki, gördüm qabaqda Əmir yerdədir, yaralanıb, bərk atışmadı, bunu üç yerindən vurublar. Tək əlimlə gücüm çatmadı çəkməyə, silahı yerə qoydum, ikiəlli çəkmək istəyirdim, elə paltarından tutacaqdım ki, qolumnan vurdular. Eyni zamanda yaxınlığımıza mərmi düşdü, mərminin dalğasından mən yıxıldım. Yaxında divar varıydı, süründüm onun arxasına, gördüm bir əsgər var, qulaqlarım heç nə eşitmirdi, cingildəyirdi, eləcə ona qışqırdım ki, kömək elə yaralı var, qalıb orda. Qışqırdı iki dəfə, yıxılan vaxt başım daşa dəydi, elə bildim gözlərim yerindən çıxdı, o dərəcədə bulanıq görürdüm hər tərəfi. Bunlar Əmiri çıxardılar, mən də huşumu itirib özümnən getmişəm. Gözümü açdım ki, yanımda qardaşlarım var, hamısı mənim kimi

yaralıdı, şəhid olanlar da var idi. Gördüm qolumun qanı dayanmır, səhər tezdən başlayan atışma hələ də dayanmayıb. Artıq axşamtərəfi idi, hava qaralana yaxın idi, çox qan itirmişdim, bronojiletimin kəndirini çıxardım, özüm qolumu yuxarıdan bağladım, sonra əlimnən üzümü siləndə baxdım qulaqlarımdan qan gəlir. Biz həmin yerdə çox itki verdik. Düzdü, mən olmasam da, mənim qardaşlarımın qanıynan, canıynan alındı o yer. Gecə düşdü, atışma kəsdi, yaralıları təxliyyə edən vaxt, oktyabrın 8-i günü qolum yaralı ola-ola özümnən bir nəfər yaralı da götürdüm. Val varıydı, Quliyev Həsənlə köməkli vala kimi getdik. Ordan sonra hərbi tibb maşınıynan döyüş bölgəsindən çıxdıq. Şükür Allaha ki, torpaqlarımız azad olundu, amma orada mənim qardaşlarım şəhid oldu. Sağalandan sonra isə xidmətimin qalan hissəsini azad olunmuş torpaqlarımızda çəkdim. Bir çox yerlərdə oldum – Qubadlı, Cəbrayıl, Zəngilan və laçın rayonunun Kirov kəndində".

Təltifləri:

"Cəsur döyüşçü" medalı. Sərəncam № 2353. 18.12.2020.
"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 25.12.2020.
"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2712. 24.06.2021.

"Azərbaycan Vətən Müharibəsi Veteranları" və "Qarabağ Əlillərinə Qayğı" İctimai Birliklərinin üzvüdür.

15.06.2021-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Elmar Əliyev tərəfindən "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüşçüsü kimi

öz borcunu dərindən dərk etdiyinə və nümunəvi xidmətinə görə" ailəsinə Təşəkkür Məktubu göndərilmişdir.

08.11.2021-ci il tarixində Azərbaycan Vətən Müharibəsi Veteranları İB-nin Daşkəsən şöbəsinin sədri Əli Musayev tərəfindən "Vətən Müharibəsində tarixi qələbənin qazanılmasında cəsur döyüşçü kimi göstərdiyi fədakar əməyinə və maddi-mənəvi dəstəyinə görə" Fəxri Fərmanla təltif olunmuşdur.

Allahverdiyev Ruslan
Rafayəddin oğlu
Sürücü



1989-cu ildə Daşkəsən şəhərində anadan olub. 2006-cı ildə Daşkəsən şəhər İmadəddin Nəsimi adına 1 saylı tam orta məktəbi bitirib. YAP-ın üzvüdür. 2007-ci ilin iyulunda Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Beyləqan rayon N saylı hərbi hissədə piyada qoşunlarında həm sürücü, həm də atıcı kimi xidmət edib. 2009-cu il yanvarın 5 də tərxis olunub. Həmin vaxtdan hal-hazıradək Daşkəsən rayon Mərkəzi Xəstəxanasının təcili yardım şöbəsində sürücü işləyir. 2012-ci ildə ailə həyatı qurub, iki övladı var.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində Kəlbəcər, Füzuli, Cəbrayıl və Hadrut istiqamətlərin-

də xidmət göstərib.

Ruslanın danışdıqlarından:

"Vətən müharibəsi başlayanda təcili yardım sürücüsü olaraq Kəlbəcər istiqamətində gedən döyüşlərdə yaralıların, şəhidlərin daşınmasında böyük köməklik etdim. Kəlbəcər istiqamətindən gələn yaralı və şəhidləri Daşkəsənin Qaraqollar kəndinə hərbi tibbi yardım, KamAz və s. maşınlarla gətirirdilər, oradan isə Daşkəsən təcili yardım maşınları ilə xəstəxanaya gətirir və ya Gəncə xəstəxanalarına, hospitalına aparırdılar. Mən də gecə-gündüz dayanmadan yaralı və şəhid daşıyırdım.

2020-ci il oktyabrın 25-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən çağırılıb, qismən səfərbərliyə cəlb edildim. Mən sərəncamla Füzuli rayon N saylı hərbi hissəyə təhvil verildim və elə öz sürücüsü olduğum təcili yardım maşını ilə, yanımda bir həkim olmaqla orada xidmət etdim. Füzuli, Cəbrayıl, Hadrut istiqamətlərində gedən döyüşlərdə yaralı və şəhidləri Bakı, Qəbələ, Şəki və s. rayonlara aidiyyəti üzrə daşıyırdım. Dəfələrlə raket, mərmi, güllə altında yaralı və şəhid daşımışam. Maşını təhlükəsiz yerə çəkib saxlamırdım ki, yaralıları vaxtında xəstəxanalara çatdıra bilim. Hətta bir dəfə Cəbrayıldan yaralıları Füzuli Xəstəxana və Hospitalına gətirərkən raket maşınımın yaxınlığında, 10-15 metr məsafədə düşüb, xoşbəxtlikdən partlamamışdı. Maşınım yaralılarla dolu idi. Elə vaxtlar olub ki, yaralıları götürməyə getdiyim zaman 100 metrədək məsafədə olan digər yaralıları görüb, çəkinmədən güllə altından çıxarıb, yanımdakı həkimlə bərabər ilkin tibbi yardım göstərərək, Füzuli xəstəxanasına aparmışam.

Elə vaxtlar olub ki, həftələrlə yatmağa imkanımız belə olmayıb. Amma istirahət etmək, bir az da olsa dincəlmək barədə heç düşünmürdük.

Müharibə bitsə də, mən noyabrın axırınadək xidmətə davam etdim. Sonra Füzuli rayon N saylı hərbi hissədən ehtiyata buraxıldım. Hazırda Daşkəsən rayon Mərkəzi Xəstəxanasında təcili yardım sürücüsü kimi işimə davam edirəm".

Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin üzvüdür.

2021-ci ildə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri vəzifəsini icra edən Vüqar Qurbanov tərəfindən "Vətən müharibəsi dövründə göstərdiyi xidmətlərə görə" Təşəkkürnamə;

08.11.2021-ci il tarixində AVMVİB-nin Daşkəsən şöbəsinin sədri Musayev Əli tərəfindən "Müzəffər Azərbaycan Ordusunun Vətən müharibəsində tarixi qələbəsinin qazanılmasında göstərdiyi fədakar əməyinə maddi-mənəvi dəstəyinə görə" Fəxri Fərmanla təltif olunub.



Allahyarov Rövşən Məzahir oğlu
Əsgər

2002-ci il iyulun 9-da Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 2019-cu ildə Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbi bitirib. 2020-ci il iyulun 14-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Tərtər rayonu N saylı hərbi hissədə atıcı əsgər vəzifəsində xidmət edib.

Vətən müharibəsinin ilk günlərindən Ağdam, Tərtər istiqamətində gedən döyüş əməliyyatlarında iştirak edib.

Rövşənin danışdıqlarından:

"2020-ci il sentyabrın 21-də xidmət etdiyim hərbi hissənin tərkibində manea rabitə maşınının mühafizəsində atıcı kimi döyüşlərdə iştirak etdim. Ağdam istiqamətində QD1 postunda döyüşürdüm. Oktyabrın ortalarında postun yaxınlığına top mərmisi düşdü, mən də mərminin partlayış dalğasına düşdüm. Yanımda olan maxe isə mərminin qəlpələrindən yaralandı. Mənim qulaqlarım və dilim tutulmuşdu, dalğa gözlərimə təsir etmişdi. Döyüş yoldaşım olan maxeni Ağdam Hospitalına apardılar, mən isə heyət az olduğu üçün postda qaldım. 10-15 gün postda qalsam

da, nə eşitmirdim, nə də danışa bilmirdim, gözlərim isə hər tərəfi tor görürdü. Noyabrın 11-dək döyüşlərdə iştirak etdim. Müharibə bitsə də, noyabrın 20-dək həmin postda xidmətimə davam etdim. Noyabrın 20-dən sonra postun bütün heyəti Tərtərə tabora qayıtdı. Tərtərə gedəndən sonra mən bir qədər özümə gəldim, eşitməyə və çətinliklə də olsa danışmağa başladım. Bir ay Tərtərdə müalicə olunduqdan sonra, məni pnevmaniyadan Ələt Hərbi Hospitalına göndərdilər. 36 gün orada müalicə olundum. Martın 9-da mənə bir ay məzuniyyət verdilər. Məzuniyyətdən sonra, fevralın 15-də gözüm ilə bağlı Ağdama Sarıcalı Hərbi Hospitalına getdim, orada yoxlanışdan sonra Papaninə getməyi məsləhət gördülər. Papanində 3 gün yoxlanışdan sonra, 2021-ci il martın 15-də hərbiyə yararsız kimi mənə sənəd verdilər. Amma sentyabrın 15-nə kimi məni taborda saxladılar, sentyabrın 15-də tərxis olundum".

Təltifləri:

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Allahyarov Sənan Məzahir oğlu
Əsgər

1996-cı il fevralın 23-də Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 2013-cü ildə Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbin 9-cu sinfini bitirib. 2014-cü ilin aprelində SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən hərbi xidmətə çağırılıb, Ağcabədi rayon N saylı hərbi hissədə Hava hücumundan müdafiədə baş əsgər vəzifəsində xidmət edib. 2014-cü ilin aprelindən oktyabra kimi Ağcabədidə olub. 2014-cü il oktyabrın axırından 2015-ci il oktyabradək Bakıda xidmət edib. 2015-ci il oktyabrın 2-də tərxis olunub. 2016-cı ildə ailə həyatı qurub, 2 övladı var.

2020-ci il avqustun 8-dən Daşkəsən rayon N saylı hərbi hissədə MAHHXHQ kimi işə başlayıb. Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib. 2021-ci il mayın 5-də ehtiyata buraxılıb.

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s.21.04.2022.

Amoyev Mustafa
Rüstəm oğlu
Əsgər - Operator



1997-ci il yanvarın 17-də Daşkəsən rayonunun Bayan kəndində anadan olub. Ailədə iki övladdırlar, Türkan adında bir bacısı var. 2014-cü ildə M.Mustafayev adına Bayan kənd tam orta məktəbini bitirib. 2015-ci il yanvarın 1-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb, əvvəl Sumqayıt N saylı hərbi hissədə, sonra isə Bakıda N saylı hərbi hissənin tank əleyhinə bölüyündə operator vəzifəsində xidmət edib.

16.02.2015-ci il tarixindən 27.03.2015-ci il tarixinədək N saylı hərbi hissədə "TƏİR manqa komandiri" ixtisası üzrə tam kursu keçib, ilk hərbi ixtisası üzrə 3-cü dərəcə alıb.

Tank əleyhinə bölüyün komandiri baş leytenant Orxan Azayev hərbi xasiyyətnamədə yazmışdır: "Amoyev Mustafa Rüstəm oğlu xidmət etdiyi müddətdə özünü intizamlı bir əsgər kimi göstərmişdir. Az.Res-nın Konstitusiyasına və qanunlarına hörmətlə yanaşır, nizamnamələrin tələblərini bilir, dərslərdə fəal iştirak edir, ona təhkim olunmuş silahdan istifadə qaydalarını mükəmməl bilir. Komandirlər tərəfindən verilmiş tapşırıqları vaxtlı-vaxtında yerinə yetirir...".

2016-cı il Aprel döyüşləri başlayanda Goranboy N saylı hərbi hissədə təlimdə olub. Sonra qayıdıb Bakıya xidmət etdiyi hərbi hissəyə. 2016-cı il iyunun 1-də ordu sıralarından tərxis olunub.

Vətən müharibəsi başlayanda könüllü olaraq qeydiyyatdan keçib və səfərbərliklə müharibəyə çağırılıb, Cəbrayıl və Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak edib.

Mustafanın danışdıqlarından:

"Ən qızğın döyüşümüz Qubadlıda oldu, bizi minamyot atəşinə tutmuşdular. Biz Güləbirdə qədər irəlilədik və orda özümüzə səngərlər qazıb, hazır vəziyyətdə gözlədik. Biz onlara hücuma keçməyə hazırlaşarkən, onlar hücuma keçməyə cəhd göstərdilər. Komandirim əmr verdi, tank əleyhinə raketi hazır vəziyyətə gətirdik. Yeni bir kalon hücuma keçəndə baş operator olan döyüş yoldaşımız komandirin əmri ilə atəş etdi, raket təxmini bir kalonun üstünə düşdü və məhv etdi. Biz də eyni vaxtda avtomatlarla atəşə başladıq, geri çəkildilər. Bir də axşamtərəfi saat 6-7 arası biz Güləbirddə olanda iki qırıcı gəldi, üzərimizə bombalar yağdırmaq istəyərkən, bizim arxada olan bir əsgərimiz ikisini də məhv etdi, biri təpənin bu üzünə, biri isə o biri tərəfinə düşdü.

Qubadlıda 5 gün ac-susuz döyüşdük, artilleriya silahları çiynimizdə böyük həvəslə neçə kilometrlərlə yolu piyada getdik, təpələr aşdıq.

Cəbrayılda səhər saat 5 radələrində hücuma keçdik və ermənin 2 tankını məhv etdik və xeyli irəlilədik. Mən artilleriyada idim, qarşı-qarşıya çox açıq döyüşə girmədik,

ancaq arxadan erməni artilleriyalarını məhv edirdik. Onu da vurğulayım ki, biz döyüşə girəndə bizdə salamat qayıtmaq düşüncəsi yox idi. Hamımız həvəslə "İmam Hüseyn" deyib irəli gedirdik, bilirdik ki, haqq uğrunda – öz torpağımız uğrunda döyüşürük və bu yolda ölmək deyil, şəhid olmaq var. İrəliyə, yolun sonuna doğru fəxrlə, canla-başla gedirdik. Bizim N saylı hərbi hissə, ümumilikdə irəliyə doğru 112 km piyada yol getdik. Çox əziyyət çəkdik, amma nə qorxu yox idi, nə də ki, ümidsizlik. O əziyyətin öz ləzzəti vardı, fəxr edirdik ki, imam Hüseyn davamçılarıyıq, haqq uğrunda döyüşürük. Yağışa, soyuğa baxmadan həvəslə, qürurla, fəxrlə döyüşdük".

Təltifləri:

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Aslanov Elçin Xanlar oğlu Əsgər

1992-ci il iyulun 30-da Daşkəsən şəhərində anadan olub. 2009-cu ildə Daşkəsən şəhər Anar Mürsəlov adına 2 saylı tam orta məktəbi bitirib. 2010-cu il oktyabrın 4-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Ağcabədi rayon N saylı hərbi hissədə atıcı olaraq xidmət edib.

Elçin: "Murov Qartalı Raquf Orucov Ağcabədidə mənim qərargah rəisim olub. Bir dəfə yeni ildə hərbi hissənin bütün komandir heyəti bayramı ailəsi ilə keçirərkən, o, bizi öz ailəsi bilərək bayramı bizimlə keçirmişdi. Biz çox sevinmişdik, onu çox sevirdik, çox şərəfli insan, əfsanə komandir idi".

Elçin 2012-ci il aprelin 1-də hərbi xidmətini başa vurub və ordu sıralarından tərxis olunub. 01.01.2013-cü ildən 2015-ci ilədək Azərbaycan Filizsaflaşdırma ASC-nin Təhlükəsizlik və Nəzarət Departamentində mühafizəçi işləyib. 2015-ci ildən MAHHXHQ kimi Ağdam rayon N saylı hərbi hissədə sürücü olaraq xidmət edib.

2016-cı ilin Aprel döyüşlərində aprelin 1-dən 5-dək döyüşlərdə sürücü kimi iştirak edib. Sonra təkrar Ağdama xidmət etdiyi hərbi hissəyə qayıdıb. 2017-ci ildə müqavilə

müddəti bitdiyi üçün ordu sıralarından tərxis olunub və təkrar Daşkəsən Filizsaflaşdırma ASC-yə mühafizə xidmətinə işə girib. 2020-ci il iyunun 18-də öz ərizəsi ilə işdən azad olunaraq, Daşkəsən rayon N saylı hərbi hissədə MAHHXHQ kimi xidmətə başlayıb.

Vətən müharibəsi başlayandan Kəlbəcər istiqamətində gedən döyüşlərdə sürücü vəzifəsində iştirak edib. Maddi-texniki təminat bölüyünün təxliyyə qrupunda olub. Yaralı və şəhidlərin təxliyyəsi və təminatı ilə məşğul olub. Yaralıları Daşkəsən rayon Mərkəzi Xəstəxanasına və Gəncə hospitalına çatdırıb.

Elçinin danışdıqlarından:

"Biz KamAZ markalı maşınla Murovdağa təminat apardığımız zaman düşmən atəşi altında çox həyəcanla irəli gedə bilirdik. Düşmən fasiləsiz atəş açdığından maşının işıqlarını yandıra bilmirdik. Təminatı axşam saat 9-da götürüb gecə saat 2-3 radələrinə postlara çatdırırdıq. Ərzaq, isti geyimlər və s. hər şeyi xalq bizə artıqlaması ilə verirdi ki, döyüşçülərə çatdıraq.

Maşında adətən 2 nəfər olurduq. Postlara çatanadək yanımda oturan maşın başçısı maşından düşüb əlinin içində yandırdığı əl fənəri ilə maşın yoluna işıq salaraq irəli gedirdi, mən də maşını onun arxasınca sürürdüm. Qoşqar dağından Murov dağınadək 14-15 km məsafəni bu şəkildə qət edirdik. Elə olurdu ki, piyada gedən yoldaşım yorulub maşına əyləşirdi, ölümü gözümüzə alıb yola davam edirdik. Bəzən də yorulanda deyirdi ki, Elçin, maşını saxla çıxım kabinanın üstünə, oradan işıq salım, yola davam edək. Hər yüz metrdən bir dayanıb işığı söndürürdük.

Bəzən düşmən tam açıq göründüyü zaman yola işıq-

sız davam edirdik. O, kabinanın üstündən mənə istiqamət verirdi, demək olar ki, addım-addım gedirdik. Çox çətin anlar idi, amma biz inadla yola davam edirdik. Çünki həm döyüş yoldaşlarımıza təminatı çatdırmalı idik, həm də təxliyyə qrupu olduğumuz üçün yaralı və şəhidlərimizi dağdan düşürməli idik.

Bir dəfə maşınımıza 80 yeşik 120-lik minaatan mərmisi yüklənmişdi, bir postdan digər posta, 200 metr məsafəyə aparmalı idik. Neytraldan keçən zaman maşın söndü, qaldıq yolda, açıq hədəf idik. Sürücü yoldaşım mənə dedi ki, Elçin, qaç, canını qurtar. Amma mən orada onunla bərabər ölməyə razı idim, nəinki qaçmağa. 40-45 dəqiqə beləcə gözlədik, nəhayət arxadan gələn təminat qrupu gəlib çatdı, nə qədər təkid etsək də, bizi yolda qoyub getmədilər, bizə kömək etdilər, maşını düzəltdik və yola davam etdik. Havanın zil qaranlıq və dumanlı olması bizi qorumuşdu. Düşdüyümüz vəziyyətin həyəcanını, təhlükəsini posta çatandan sonra daha aydın hiss etdik.

Murovda çox şəhid və yaralılarımız oldu. Kəlbəcər təhvil verilməndən sonra biz şəhidlərimizi neytraldan çıxarıb ailələrinə təhvil verdik. Sonra postlarımızı Kəlbəcərdə qurduq. Mən hazırda da Vətənimə xidmətimə davam edirəm".

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Bağırzadə Surac Vaqif oğlu
Əsgər



1991-ci il iyulun 18-də Daşkəsən şəhərində anadan olub. 2008-ci ildə İmadəddin Nəsimi adına Daşkəsən şəhər 2 saylı tam orta məktəbi bitirib. 2009-cu ildə Daşkəsən RHK tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb, 2011-ci ildə tərxis olunub. 2014-cü ilədək müxtəlif işlərdə işləyib. 2014-cü ildə MAHHXHQ kimi N saylı hərbi hissədə kiçik çavuş olaraq manqa komandiri vəzifəsində xidmətə başlayıb. 2015-ci ildə müəyyən səbəblər üzündən xidmətini yarımçıq saxlayıb, N saylı hərbi hissədən ehtiyata çıxıb. 2020-ci ilədək müxtəlif işlərdə işləyib.

Vətən müharibəsi başlayanda sentyabrın 27-də ona zəng ediblər, 28-i günü yaşadığı yerdən Daşkəsənə gəlib və oradan N saylı hərbi hissəyə yola düşüb. Sentyabrın 29-u cəbhə yoldaşları ilə birgə təlimlərə başlayıb. Oktyabrın 14-də onları 5 qrup halında Murovdağa yola salıblar.

Suracın danışdıqlarından:

"Murovdağda heç bir itki vermədən verilən tapşırıqları yerinə yetirib, düşmənin canlı qüvvəsini məhv edərək, onların bizim ərazidəki postlarını azad etdik. Oktyabrın 19-u yenidən öz hərbi hissəmizə qayıtdıq və komandanlığın əmri ilə Qarabağ bölgəsinə yola düşdük. Oktyabrın 24-

də bizi Füzulinin Üçüncü Mahmudlu kəndində yerləşdirdilər. Oktyabrın 26-sı gecə bizi Xocavəndin Tuğ kəndinə apardılar, həmin gecə Böyük Tağlar kəndinə yola saldılar. Kəndə yerləşdikdən dərhal sonra komandanlıq tərəfindən bizə yeni tapşırıqlar gəldi. Oktyabrın 27-si gecə saatlarında maşınlarla Böyük Tağlar kəndindən ayrıldıq. Hava sıx duman olduğundan bizim maşınımız getdiyimiz güzargahdan ayrılmışdı. Düşmənin artilleriya atəşinə məruz qaldıq, texnikamız sıradan çıxdı və biz Azıx kəndi üzərindən Xocavəndin Qırmızı Bazar deyilən istiqamətində yola düşdük. Çox çətin hava şəraitində, çətin maneələrdən, pusqulardan keçərək bizə tapşırılan əraziyə çatdıq. Oradan düşmən mövqelərinə sızıntı əməliyyatı keçirib, onları məhv etdik, Qırmızı Bazar mövqeləri tərəfimizdən ələ keçirildi və üzü Şuşa istiqamətində irəlilədik. Noyabrın 4-də biz artıq Şuşanın Laçın istiqamətindən Daşaltı kəndinə yaxın bir yerdə, Topxana adlanan meşəlikdə mövqelərimizi tutduq. Yeni əmr gələnədək biz oradan ayrıla bilməzdik. Şiddətli döyüşlər gedirdi, Şuşa və Şuşaətrafı yerlərdə biz yüksəklikdən o döyüşü canlı izləyirdik. Noyabrın 5-nə keçən gecə saat 2 radələrində bizə komandanlıqdan irəliləmə əmri gəldi. Biz Daşaltı kəndinə girdik, sonra isə mövqelərimizin cəsur igidlərilə birlikdə Laçın dəhlizinə girdik. Ayaqlarımızın altında yüzlərlə erməni leşləri vardı. Biz Şuşanın 2 km-lik məsafəsində idik. Noyabrın 5-i günü qazi və şəhid qardaşlarımla, igid döyüşçülərimizlə birlikdə çiyin-çiyinə döyüşərək irəlilədik və noyabrın 7-də planlı şəkildə Şuşa şəhərinə daxil olduq. Sonra Şuşa şəhərinin arama-tarama işlərinə cəlb edilmişik.

Noyabrın 8-də səhər saat 10 radələrində Ali Baş Komandanımız Şuşanın azad olunması xəbərini məruzə etdi.

Həmin gün saat 7-8 radələrində bizə yenidən döyüş əmri verildi və Can kəndi istiqamətində döyüşlərə getdik. Biz Xankəndi istiqamətinə irəlilədik, məgər pusquya irəliləyirmişik. Noyabrın 8-dən 9-na keçən gecə bizi və ordunun tamamını pusquya saldılar. Həmin gecə ağır və şiddətli döyüşlər başladı, düşmən bütün qüvvəsi ilə təzyiq göstərir və bütün birliklərilə - artilleriya tank briqadası, rota atıcı briqadası ilə hücuma keçirdi. O gecə çox ağır və acıverici gecə oldu – itkilərimiz artdı, bizlər isə cəsarətlə döyüşüb aldığımız torpaqları qorumaq üçün əlimizdən gələni etdik.

Nəhayət noyabrın 9-dan 10-na keçən gecə atəşkəs elan olundu. Bizlər olduğumuz mövqelərdə duraraq, ermənilərə daha da qəzəblə baxırdıq, çünki Xankəndinə girə bilməmişdik. Hələ də orada ermənilər var. Ali Baş Komandanın əmri ilə Laçın istiqamətinə yola düşdük və Laçın şəhərinin boşaldılmasına görə tərtibləndik. Biz hazır gözləyirdik, ermənilər Laçını tərk edəndən sonra bizlər Laçına girdik, bir həftə sonra Qubadlıya gedib orada yerləşdik. Sonra Zəngilana, daha sonra Cəbrayıla getdik, oradan da dekabrın 28-də tərxis olduq və qürurla evimizə, öz yurd-yuvamıza döndük.

Ailəliyəm, iki övladım var, müharibədə olduğum vaxt bir oğlum var idi".

Təltifləri:

"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2370. 29.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Bayramov Asim Rasim oğlu
Əsgər

1991-ci il iyunun 17-də Daşkəsən şəhərində anadan olub. 2006-cı ildə Bayan kənd Mikayıl Mustafayev adına tam orta məktəbi bitirib. 2010-cu ilin yanvarında Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Beyləqanda N saylı hərbi hissədə xidmət edib. 2011-ci ildə ordu sıralarından tərxis olunub. 2014-cü il sentyabrın 17-si Daşkəsən rayon N saylı hərbi hissədə MAHHXHQ kimi minaatan manqa komandiri vəzifəsində xidmətə başlayıb. Murovdağ silsiləsində xidmət edib. Bir il sonra kəşfiyyatçı olmağa qərar verib. 2015-ci ilin qış aylarında Daşkəsən rayon N saylı hərbi hissənin kəşfiyyat bölüyünə keçib və xidmətinə davam edib.

Vətən müharibəsi başlayan gündən Murovdağ - Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Asimin danışdıqlarından:

"2020-ci il sentyabrın 27-si tezdən saat 07.27-də müharibə başladı. Bizim kəşfiyyat bölüyünə əmr verildi, biz Murovdağ - Kəlbəcər istiqamətində döyüşə girdik. Oktyabrın 2-dək döyüşdüm. Oktyabrın 2-də Murovdağda düşmən arxasında döyüşən zaman minamyot mərmisi yaxınlığıma düşüb partladı, sol çiynimin kürək hissəsindən qəlpə yarası və mərminin partlayış dalğasından

kəllə-beyin travması aldım. Başım yerə bərk dəymişdi, özümdə olmamışam. Döyüş yoldaşlarım məni döyüş mövqeyindən uzaqlaşdıraraq ilkin tibbi yardım göstərib, təcili aparıblar Xoşbulaq kəndindəki hərbi tibb məntəqəsinə. Oradan da göndəriblər Daşkəsən Rayon Mərkəzi Xəstəxanasına. Orada məni qəbul etməyib, göndəriblər Şəmkir Rayon Mərkəzi Xəstəxanasına. Mən heç nə eşitmirdim, heç nə görmürdüm, güclü travma almışdım, 7 gündən sonra ayıldım. 17 gün Şəmkir Rayon Mərkəzi Xəstəxanasında müalicə olundum, sonra evə göndəriş verdilər, ev şəraitində müalicəmə davam etdim. Sonra təkrar xidmətə davam etdim. Bir müddət sonra səhhətim ilə bağlı xidmətə davam edə bilməyib, tərxis olundum".

Azərbaycan Vətən Müharibəsi Veteranları İB-nin üzvüdür.

Təltifləri:

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2716. 24.06.2021.

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

08.11.2021-ci il tarixində birliyin Daşkəsən şöbəsinin sədri Əli Musayev tərəfindən "Vətən müharibəsində tarixi Qələbənin qazanılmasında cəsur döyüşçü kimi göstərdiyi fədakar əməyinə və maddi-mənəvi dəstəyinə görə" Fəxri Fərmanla təltif olunub.



Bayramov Elnur Elçin oğlu
Əsgər

1996-cı il sentyabrın 12-də Gəncə şəhərində anadan olub. 2001-ci ildə ata yurdu olan doğma diyarına- Daşkəsən şəhərinə qayıdıblar və öz baba evlərində yaşamağa davam ediblər.

2002-ci ildə Daşkəsən rayon Gənclər və İdman məktəbində Yunan-Roma klassik güləş növüylə məşğul olaraq Respublika və rayonlararası regional yarışlarda 23 kq çəki dərəcəsindən başlayaraq 58 kq cəki dərəcəsinə qədər güləşərək dəfələrlə rayonumuza 1, 2 və 3-cü yerlər üzrə medal, Diplom və Fəxri Fərmanlar gətirib. 1-ci dərəcəli Yunan-Roma güləşçisi olaraq rayonumuzu təmsil edib.

2013-cü ildə Daşkəsən şəhər İmadəddin Nəsimi adına 1 saylı tam orta məktəbi bitirib. 2014-cü il oktyabrın 28-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 109 saylı 4-cü ordu korpusunun N saylı hərbi hissəsində 2 ay təlim keçərkən idman dərəcəsi və xidməti fərqlənmələrinə görə Sülhməramlı Qüvvələr Taborunun (SMQT) komandiri tərəfindən seçmələrə dəvət olunaraq xidmətini orada davam etdirib. Hərbi and içəndən sonra 112 SMQT taborunun N saylı hərbi hissəsində yerləşən hərbi binasında xidmətini davam etdi-

rib. Onlar orada Əfqanıstanda gedən döyüşlərdə Sülhü dəstəkləmə əməliyyatları keçirmək üçün təlimlər keçirdilər. Keçirdikləri hər təlimdə ona verilən vəzifəni şücaət və mərdliklə tam olaraq yerinə yetirib. Bu səbəblə 6 ay təlimlər keçdikdən sonra, 2015-ci ilin aprelində Azərbaycan Beynəlxalq Sülhün və Təhlükəsizliyin Bərqərar olunması uğrunda Azərbaycanın NATO ilə əməkdaşlığı müavilәsində beynəlxalq sülhməramlı əməliyyatları aparılması üçün NATO-nun Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi "Qətiyyətli Dəstək" adlı missiyasında Silahlı Qüvvələrimizin 4 nəfərlik kontingentinin tərkibində 6 aylıq rotasiya planına uyğun olaraq Əfqanıstanın Kabil şəhərinə göndərilərək xidmətinə davam edib. Elnurgilin oradakı vəzifələri Əfqanıstan İslam Respublikasının Həmid Kərzai adına Kabil Beynəlxalq Hava Limanının (HİKA) təhlükəsizliyini təmin etmək idi. Elnur orada da xidmətini tam layiqincə yerinə yetirdikdən sonra bölük heyətilə birlikdə Azərbaycana geri qaytarılıb.

Azərbaycana qayıdandan sonra xidmət etdiyi hərbi hissənin tərkibində atıcı əsgər (snayper) olaraq 2016-cı il Aprel döyüşlərində iştirak edib. Elnur aprelin 2-də tərxis olunmalı idi, döyüşlərə görə aprelin 14-də tərxis olunub. Atəşkəs elan olunsa da, aprelin 14-dək ermənilər təxribata davam edirdilər. Aprelin 14-dək bərkitmə və səngərlərin gücləndirilməsində iştirak edib, sonra Daşkəsənə qayıdıb. Bir müddət sonra işləri ilə əlaqədar Rusiya və Türkiyədə yaşayıb və turizm sektorunda işləyib. 2020-ci ilin iyulunda Azərbaycana, Bakıya qayıdıb.

Vətən müharibəsi başlayanda Daşkəsənə gəlib və könüllü olaraq SHXÇDX-nın Daşkəsən rayon bölməsində

qeydiyyatdan keçib. Füzuli, Cəbrayıl, Xocavənd istiqamətlərində gedən döyüşlərdə snayper vəzifəsində döyüşüb.

Elnurun danışdıqlarından:

"Əmrdə adım olmadığına görə məni döyüşə aparmırdılar. Mən çox təkidlə müharibəyə getmək istədiyimi bildirdim, nəhayət oktyabrın 4-də məni göndərdilər Ağcabədi N saylı hərbi hissəyə. Bölündükdən sonra göndərildik Qusar N saylı hərbi hissəyə, bir gün sonra isə həmin hərbi hissənin tərkibində döyüş bölgəsinə, ön cəbhəyə. Mən hərbi hissənin kəşfiyyat bölüyündə snayper vəzifəsinə təyin olundum. Füzuli istiqamətində döyüşlərə başladıq, Füzulinin kəndlərini azad etdikdən sonra keçdik Cəbrayıl istiqamətinə. O əraziləri də azad etdikdən sonra keçdik Xocavənd istiqamətinə. Xocavənddə bizə verilən döyüş tapşırığı üzərinə Xankəndi istiqamətinə irəliləyərək Qırmızı Bazara girdik. Kənddə bizə əmr gəldi ki, orada müdafiədə qalaq. Oktyabrın 27-də 775 yüksəkliyini azad etmək əmri gəldi. Biz 2 özəl qrupa bölündük, mən 1-ci qrupun tərkibində idim. Bizə verilmiş döyüş tapşırığını icra etmək üçün 13 nəfər döyüş yoldaşlarımla birlikdə həmin yüksəkliyə hücuma keçdik. 2-ci qrup isə bizə dəstək üçün bizdən geridə atəş dəstək mövqeyində idilər. Bizə verilən məlumata görə həmin yüksəklikdə olan postda təxmini 7-8 nəfər olmalı idi. Biz həmlə edib yaxın məsafədə posta daxil olub, onları zərərsizləşdirməli idik. Amma, biz ora yaxınlaşanda posta 50-100 metr qalmış həmin və yaxınlıqdakı yüksəkliklərdən bizi çəmbər atəş altına alaraq mühasirəyə saldılar. Olduğumuz yer mövqelənmək üçün əlverişli olmadığından, mövqelənə bilmədik. Demək olar ki, açıq ərazidə idik, düşmən üçün açıq hədəf idik.

Döyüş yoldaşlarımın çoxu orada vurularaq şəhid oldular, 14 nəfərdən 3 nəfər sağ qaldıq. Sağ qalan döyüş yoldaşlarımla atışmaya davam etdik. Yaxınlığımdakı sağ qalan döyüş yoldaşım da yaralanandan sonra, mühasirədə axşamın düşməsini gözlədik. Hava qaralandan sonra mən yaralı döyüş yoldaşımı da çiynimə alaraq, çox çətinliklə gizlənib mühasirədən çıxdım. Digər yoldaşımız da başqa istiqamətdən çıxmışdı. Biz 2-ci qrupun yanına geri qayıtdıq. Mən çıxartdığım döyüş yoldaşımı onlara təhvil verib, yarasının ağır olduğunu, təcili təxliyyə edilməsini tapşırdım. Sonra tabor komandirimizə geri qayıtdığımızı və şəhidlərimizi oradan çıxartmalı olduğumuzu dedim.

Yanımda partlamış minamyot mərmisinin dalğasının təsirində olduğumdan əsəbi idim və geri qayıtmağa cəhd göstərirdim. Lakin tabor komandirim qarşıma keçərək:

- Elnur, təmkinli və səbirli ol, indi bizim oraya qayıtmağımız çox təhlükəlidir. Dəstək alıb, güclənmiş heyətlə hücum edərək yüksəkliyi ələ keçirməliyik. Yüksəkliyi ələ keçirdikdən sonra, şəhidlərimizi neytraldan çıxara bilərik.

Şəhidlərimizin olduğu yeri təkcə mən bildiyim üçün, gecə komandirimlə birlikdə onların olduğu istiqamətə gizlicə geri qayıtdıq. Gecəgörmə cihazı ilə ərazini müşahidə edərkən aşkar etdik ki, düşmən tərəf şəhidlərin olduğu yeri bir neçə yerdən gözətləmə altında saxlayır. Orada pusu qurmuşdular. Bizim ora qayıdacağımızı bilirdilər və şəhidlərimizi çıxararkən bizi atəş altına alaraq zərərsizləşdirmək istəyirdilər. Biz ərazini müşahidə etdikdən sonra, geriyə heyətin yanına qayıtdıq. Gücləndirici dəstək gəldikdən sonra, biz həmin gecə - oktyabrın 27-də onların bizi gözlədikləri istiqamətdən deyil, başqa yollarla onların

olduqları yüksəkliyin arxasına keçərək, gözləmədikləri anda hücum etdik. Yüksəkliyə qalxarkən mən yorğunluq və həyəcan içərisində bir anlıq yüksəkdən Təkbir gətirərək "Allahu Əkbər" qışqırdım. O anda digər yoldaşlar da mənə qoşularaq "Allahu Əkbər, La İlahə İlləllah" deyərək qışqırmağa başladılar. Atışa-atışa yüksəkliyə çıxarkən, düşmən tərəf səsimizdən belə qorxaraq qaçmağa başladılar. Biz yüksəkliyi ələ keçirdik. Hava işıqlananda həmin postda bizi minamyot atəşinə tutdular. Onlar öz postlarına yaxşı bələd olduqları üçün, hədəflərinə dəqiq atəş açırdılar. Bizə atılan minamyot mərmilərinin sayı həddindən çox olduğu üçün, geri çəkilməyə məcbur olduq. Yenidən hava qaralanda onların artilleriya qüvvəsini məhv etmək üçün dəstək olaraq, SU-25 tipli havadan hücum qırıcısı ilə tək bir dəfə atəş edərək onların artilleriya qüvvəsini məhv etdik. Sonra piyada qüvvəsi olaraq hücuma keçdik. Onların orada qalmış yaralı və sağ qalanlarını da öldürüb zərərsizləşdirdik. Bizə verilmiş döyüş tapşırığını yerinə yetirdik, 2 gün ərzində çətin döyüş nəticəsində 775 yüksəkliyini ələ keçirdik.

Neytralda qalan şəhidlərimizi oradan çıxartmaq üçün tabor komandirimizdən mənə köməkçi qrup heyətini verməsini xahiş etdim. O da qrupu ayıraraq bizi göndərdi və 11 nəfər şəhidimizi çıxarıb təxliyyə etdik. O yüksəkliyi geri qaytarmaq üçün hər gün düşmən tərəfi hücuma keçirdi, biz də qarşılıq verirdik. Sonra ətraf yüksəklikləri və Üçtəpə yüksəkliyini də aldıq və noyabrın 8-dək o yüksəkliklərin müdafiəsində dayandıq. O yüksəkliklər Xocavənddən Xankəndinə gedən tək yolu nəzarətdə saxlamaq üçün lazım idi.

Qarşımızdakı Sos adlanan kənddə ermənilərin hərbi bazaları yerləşirdi, oranı silah-sursat və hərbi texnikalarla gücləndirmişdilər. Noyabrın 7-də mən olduğum müşahidə postundan düşmən tərəfin ərazisini kəşf edərkən, həmin kəndin yaxınlığındakı meşənin arasında onların bazalarını gördüm və bazada hərəkətlənmə olduğunu aşkar etdim. Daha öncə orada elə bir baza olduğunu bilmirdik. Hətta komandirlərin belə xəbəri yox idi. Mən hərbi rabitə vasitəsi ilə yuxarı komandanlıqdan korpus komandirinə məruzə etdim. Oranın xəritə üzərində tam olaraq hansı istiqamətdə və hansı nöqtədə yerləşdiyinin koordinatını verməyimi istədilər. Komandanlığın araşdırması nəticəsində oranın çox önəmli hədəf olduğu aşkar olundu və dərhal oranın məhv edilməsi əmri verildi. Mən 5 nəfər olduğumuz müşahidə məntəqəmdə rabitə ilə artilleriya heyətinə koordinatları verməklə, həmin hədəfin məhv edilməsinə kömək etdim. Bu əsnada düşmən tərəfə dəyən böyük zərərə görə mənim olduğum müşahidə postunu atəşə tutdular. Daha öncə də hər gün olduğumuz müşahidə postunda düşmənlə atışırdıq. Lakin bu dəfə məhv etdiyimiz hədəf onların önəmli hərbi bazası olduğu üçün, bizə artilleriya hücumu ilə qarşılıq verdilər. Olduğumuz posta atdıqları minamyot mərmisi birbaşa bizim postumuzdakı səngərin içinə düşdü. Partlayışdan sonra mən bir anlıq nə olduğunu başa düşmədim, bir anlıq şoka girdim, qulaqlarım cingildəyirdi. Eşitməyə başladığım anda səngərin digər tərəfindəki döyüş yoldaşlarımın qışqırtılarını və kömək istədiklərini eşitdim. İçlərindən biri ayaqlarım yoxdur, deyərək qışqırırdı. Digəri məni səsləyərək, Bayramov, qardaşım, sağsansa, gəl bizə kömək et, dedi.

Mən ayağa qalxmaq istəyəndə sol ayağımın üstünə böyük bir qaya parçası düşdüyünü, ayağıma qəlpə girdiyini və ayağımı tərpədə bilmədiyimi gördüm. Eyni zamanda ayağımda yanğı hiss edirdim. Ayağımın üstündəki daşı kənara ataraq, ayağımın qəlpə dəyən hissəsindən süngü bıçaqla hərbi formanı kəsib, süngü bıçaq və silahın şompulu vasitəsilə ayağımdan qəlpəni çıxardım və yaranı bağladım. Ayağa qalxıb yaralı döyüş yoldaşım tərəfə keçdikdə, onların dəhşətli dərəcədə ağır yaralı olduqlarını gördüm - tikə-parca idilər. O anda şokda olaraq hansına kömək edəcəyimi bilmədim. İki ayağı da qopmuş Şamilov Fərid "Bayramov, Qubadı ayaqlarımın üstündən götür",- dedi. Mən Qubadı götürərkən, bədənində dəhşətli dərəcədə böyük yaraların olduğunu gördüm. Onu Fəridin üzərindən kənara çəkdim. Eyni zamanda yaralı olan Kamran və Zaurun da yaralarını bağlamaq üçün kömək etməyə başladım. Kamranın sol ayağı dizdən aşağı sinir damarları və dəridən asılı qalmışdı. Dizdən yuxarı bağladım ki, qanaxması dayansın. Zaurun sağ ayağı topuqdan qopmuşdu, onun da ayağını bağladım. Rabitəni götürüb dərhal komandir heyətinə məruzə etdim ki, təxliyyə göndərsinlər. Təxliyyənin gecikdiyini görüb, yenidən komandirə ağlayaraq:

- Qardaşlarım qollarımda şəhid olur, harda qaldı sizin təxliyyəniz? Koordinat verdiyim bir dənə hədəfi vura bilmədiniz, onlar tək mərmidə bizi vurdular. İndi gəlin, qardaşlarımı buradan çıxardın, gözlərimin qabağında can verirlər. Qubad şəhid oldu, digərlərinin də vəziyyəti ağırdır, - deyə qışqırdım.

Bir qədər gecikdikdən sonra təxliyyə qrupu gəldi, lakin erməni şərəfsizləri atəş açaraq, təxliyyə qrupundan da

bir nəfəri qolundan yaraladılar. O anda mən əsəblərimi tuta bilməyərək, snayperi götürdüm və düşmən tərəfdən bizə tərəf irəliləyən açıq hədəfdəki 2 canlı qüvvəni gördüm, atəş edərək birini vurdum, digəri özünü qayalığa tərəf atdı. Təxliyyə qrupunun da dəstək atəşi nəticəsində düşməni susduraraq, yaralıları çıxardıq.

Yarama özüm ilkin yardım etdiyim üçün, hərbi tibb məntəqəsinə getmək istəmədiyimi dedim. Buna baxmayaraq, komandirlərim məni məcbur edərək "Get yarana baxsınlar, geri qayıdarsan" dedilər və məni göndərdilər. Məni apardılar Füzuli xəstəxanasına, orda ilkin müdaxilə edib, hospitala getməli olduğumu dedilər və məni göndərdilər Şəmkir xəstəxanasına, çünki hospitallarda yer yox idi. Oranı da hospital kimi təchiz eləmişdilər. Noyabrın 8-də atəşkəs elan etdilər. Mən o xəstəxanada bir həftə qaldım, sonra döyüş bölgəsinə yoldaşlarımın və komandirlərimin yanına geri qayıtdım. Yeni gələn hərbi hissələrə azad etdiyimiz əraziləri təhvil verib, qələbə qüruru və şəhidlərimizin üzüntüsü ilə geri qayıtdıq.

Mənim üçün fəxr və qürurverici idi ki, Vətənim və millətim uğrunda döyüş tapşırıqlarını layiqincə yerinə yetirdim".

Təltifləri:

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2711. 24.06.2021.

"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2712. 24.06.2021.

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2714. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

27.05.2021-ci il tarixində Daşkəsən rayon Heydər Əliyev Mərkəzinin direktoru Nailə Məmmədova tərəfindən "Xalqımızın birliyi, torpaqlarımızın bütövlüyü uğrunda Vətən qarşısında borcunu yerinə yetirdiyinə və bu yolda canından keçməyə hazır olduğuna görə" Təşəkkürnamə;

27.05.2021-ci il tarixində NMEDİA.AZ İnformasiya Portalının Baş redaktoru Nicat Dilqəmli tərəfindən "Vətən uğrunda göstərdiyi mərdliyə və şücaətə görə" Fəxri Media Mükafatı ilə təltif olunmuşdur.



Bayramov Elşən
Kərəm oğlu
Əsgər

1989-cu il martın 15-də Daşkəsən rayonunun Qazaxyolçular kəndində anadan olub. 2006-cı ildə Qazaxyolçular kənd tam orta məktəbini bitirib. 2007-ci il aprelin 2-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Beyləqan N saylı hərbi hissədə xidmət edib. 2008-ci il oktyabrın 16-da ordu sıralarından tərxis olunub. 2014-cü il iyunun 13-də Daşkəsən rayon N saylı hərbi hissədə MAHHXHQ kimi xidmətə başlayıb. Ailəlidir, 3 övladı var.

20.03.2018-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Siyavuş Mustafayev tərəfindən "Hərbi intizamına, döyüş növbətçiliyində, döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə görə və Novruz Bayramı münasibəti ilə" Fəxri Fərmanla;

20.03.2019-cu il tarixində N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Fəxrəddin Cavadov tərəfindən "Novruz Bayramı münasibəti ilə, döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə görə" Fəxri Fərmanla;

26.06.2019-cu il tarixində N saylı hərbi hissənin komandiri polkovnik Əflatun Nurəliyev tərəfindən "26 iyun Silahlı Qüvvələrin Yaranma Günü münasibəti ilə", 27.06.2019-cu il tarixində "Nümunəvi məşğələnin keçirilməsi məqsədi ilə" və 29.05.2020-ci il tarixində "May ayının yekununa görə, döyüş və ictimai-siyasi hazırlıqda, qoşun xidmətinin təşkilində əldə etdiyi yüksək nailiyyətlərə və nizam-intizamı yüksək səviyyədə saxladığına görə" Fəxri Fərmanlarla təltif olunub.

Vətən müharibəsində Kəlbəcər istiqamətində gedən döyüş əməliyyatlarında qumbaraatan köməkçisi olaraq iştirak edib. Düşmən təxribatının qarşısını alarkən, yaxınlıqda partlayan mərmi nəticəsində ayağından və başından xəsarət alıb. Səkkiz saat neytralda qalıb. Sonra döyüş yoldaşları gəlib çıxarıb maşın yolunadək gətiriblər. Oradan da hərbi maşınla Daşkəsən rayon Mərkəzi Xəstəxanasına gətirilib, ilkin tibbi yardım göstərildikdən sonra Gəncə şəhər Hərbi Hospitalına aparıblar. Orada 9 gün müalicə olunub, özünü bir az yaxşı hiss etdiyinə görə döyüşlərə qatılmaq istəyib və hərbi hissəyə gəlib. Vəziyyəti tam yaxşı olmadığı üçün müharibə bitənədək sərəncamda qalıb.

Elşən yaya qədər işinə davam edib, amma səhhəti imkan vermədiyinə görə işdən ayrılıb.

Təltifləri:
"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

08.11.2021-ci il tarixində Azərbaycan Vətən Müharibəsi Veteranları İB-nin Daşkəsən şöbəsinin sədri Əli Musayev tərəfindən "Vətən müharibəsində tarixi Qələbənin qazanılmasında göstərdiyi şücaətə, fədakar əməyinə və maddi-mənəvi dəstəyinə görə" Fəxri Fərmanla təltif olunub.



Bayramov Şahin
İlqar oğlu
Əsgər

1996-cı il iyunun 27-də Daşkəsən rayonunun Alunitdağ qəsəbəsində anadan olub. 2013-cü ildə Alunitdağ qəsəbə Rövşən Qafarov adına tam orta məktəbi bitirib. Orta məktəbdə oxuyarkən, 2005-ci ildən Daşkəsən şəhər Uşaq Gənclər və İdman idarəsinin idman məktəbində Yunan-Roma güləş növü ilə məşğul olub. Bir çox yarışlarda iştirak edib və mükafatlar alıb.

2009-cu ilin 21-24 may tarixlərində Gəncə şəhərində keçirilən sərbəst və Yunan-Roma güləşi üzrə kiçikyaşlı yeniyetmələr (1995-1996-cı illər) arasında Respublika turnirinin qalibi olub. Azərbaycan Güləş Federasiyasının təşkilati və maliyyə işləri üzrə vitse- prezidenti Babək Babayev tərəfindən Diplomla təltif olunub.

2013-cü il mayın 20-də Daşkəsən rayon Uşaq Gənclər və İdman məktəbindən Yunan-Roma güləşi üzrə 1-ci dərəcəli idman ustalığına namizəd təsnifat kitabçası alıb.

2014-cü ildə SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Üç ay Bakıda Qaraçuxur qəsəbəsində N saylı hərbi hissədə, sonra isə Ağcabədi rayon N saylı hərbi hissədə xidmət edib. 2016-cı ilin yanvarında ehtiyata buraxılıb. Müxtəlif işlərdə işləyib. 2020-ci il sentyabrın 9-da MAHHXHQ kimi Toğana N saylı hərbi hissəyə işə girib.

Vətən müharibəsi başlayan gündən döyüş tapşırığı ilə Ağdərə-Kəlbəcər istiqamətində döyüşlərə qatılıb.

Şahinin danışdıqlarından:

"Heyətdə 9-10 nəfər idik. Bölük komandirinin komandanlığı ilə ermənilərin 120 minbatının postuna girməli idik. Posta 200 metr məsafə qalmış heyətimizi 2 hissəyə böldülər, 5 nəfər qabaqda getdi, biz onlara atəş dəstək kimi arxada qaldıq. Ermənilərin postuna 100 metr qalmış onlar bizi atəşə tutdular. Orada qayalıq sığınacaq var idi, biz oraya sığınıb irəlidəkilərə atəş dəstək verdik. Orada 2 şəhidimiz oldu, digər 3 nəfərdən isə xəbərimiz olmadı, onlar bizdən ayrı düşdü. Xeyli atışdıq, axşamüstü əmr gəldi ki, geri çıxın. Biz geri qayıtdıq, sonra eşitdik ki, 3

yoldaşımız sağ-salamatdır, digər dəstəyə qoşulublar. Yolda gələndə bir nəfərimiz – Abbasov Saməddin ayağından minaya düşdü, pəncəsini mina apardı. Arxadan gələn qrup da bizə çatdı və irəli getdi. Biz 2 nəfər Saməddinlə qaldıq, ona ilkin tibbi yardım göstərdik, ayağını jqutla bağladıq. Sonra onu da götürüb 200 metrdən artıq bir məsafəni apardıq. Orada kömək gəldi, Saməddini təxliyyə elədik, biz isə düşdük Buzduq postuna. Oktyabrın 6-dək orada müdafiədə qaldıq, sonra əmr gəldi, qayıtdıq hərbi hissəyə. Oktyabrın 25-dək hərbi hissədə qaldıq. Oktyabrın 25-də hərbi hissədə seçim olundu, könüllü olaraq XTQ-yə qoşuldum və Şuşa uğrunda gedən döyüşlərdə iştirak etdim. Biz Topxana meşəsinədək yolun bir hissəsini piyada, bir hissəsini isə maşınla getdik. Noyabrın 4-ü axşam, 5-i səhər döyüşçülərin bir hissəsi Şuşaya daxil oldu. Bizim dəstə Xankəndi-Şuşa yolu istiqamətində müdafiədə qaldı.

Noyabrın 5-i idi, tank topunun mərmisi yaxınlığımda düşüb partladı, dalğası nəticəsində kəllə-beyin travması və ayağımdan qəlpə yarası aldım. Yerində yoldaşlarım tərəfindən tibbi yardım göstərildi və döyüşlərə davam etdim. Şuşa alındıqdan sonra bizim dəstə də Şuşaya daxil oldu. Biz noyabrın 20-25-dək orada qaldıq. 25-dən sonra Beyləqan N saylı hərbi hissəyə gəldik, oradan da Toğanaya xidmət etdiyim hərbi hissəyə gəldim. Burada hərbi hissənin sanitar bölməsində müalicəmə davam etdim. Amma ayağımdakı qəlpəni sümüyə yaxın olduğu üçün çıxarmaq mümkün olmayıb. 2021-ci il mayın 26-da səhhətimlə əlaqədar öz ərizəm ilə ehtiyata buraxıldım və Gəncədə psixiatriya xəstəxanasında müalicəmə davam etdim".

Təltifləri:
"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2716. 24.06.2021.
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Bayramov Vahid Məmmədəli oğlu Əsgər



1988-ci il sentyabrın 28-də Daşkəsən şəhərində anadan olub. Orta təhsilini Daşkəsən şəhər İmadəddin Nəsimi adına 1 saylı tam orta məktəbdə alıb. 2006-cı ilin oktyabrında Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Ağdam rayonunda N saylı hərbi hissədə kəşfiyyat qrupunda xidmət edib. 2008-ci il aprelin 1-də ordu sıralarından tərxis olunub. 2012-ci ildən 2020-ci ilin sentyabrınadək Daşkəsən Filizsaflaşdırma ASC-də fəhlə işləyib.

Vətən müharibəsi başlayanda, sentyabrın 28-də səfərbərliklə Gəncə şəhər N saylı hərbi hissənin quru qoşunları kəşfiyyat qrupuna çağırılıb. Füzuli, Cəbrayıl, Xocavənd istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

Vahidin danışdıqlarından:

"Gəncə hərbi hissəsində cəmləşib təlimə başladıq. Mənim olduğum hərbi hissənin əksəriyyəti Daşkəsənlilər idi. Sonra döyüş komandası gəldi, biz Füzuli istiqamətində döyüşə başladıq. Biz erməni postlarını və qənimətləri ələ keçirib, ərazinin şəxsi heyətinə təhvil verib növbəti əmrin icrasına gedirdik. Füzuli azad olunduqdan sonra Cəbrayıl istiqamətində döyüşə girdik. Altı şəhid və xeyli yaralılarımız oldu. Biz ancaq yüksək ərazilərdə hərəkət edirdik. Elə vaxt olub ki, bir litr su ilə 4 gün döyüşmüşük. Üzərimizdə ancaq silah-sursat olub. Təminat maşını gələnədək ac-susuz qalır, ancaq meşədən əldə etdiklərimiz ilə qidalanırdıq. Laçınadək belə davam etdik. Erməni postlarını alıb, şəxsi heyətə təhvil verib yola davam edirdik. Qrupumuz əsasən 052-nin komandirləri ilə bərabər döyüşə girirdi. Sağ cinahda 052, sol cinahdan isə bizim qrup. Laçına çatanda ermənilər dağı yandırdılar, 4 gün dağdakı yüksəklikdə alovun mühasirəsində qaldıq. 4 gündən sonra öz kəşfiyyat qrupumuzdan dəstək gəldi, yanğından koridor açaraq bizi mühasirədən çıxardılar. Dağdan düşüb ermənilərin gəldikləri maşın yolunu bağladıq. Yusifov Babəklə mən bizə köməyə gələn tankın altında 3 gün ermənilər müşahidə etdik. Digər döyüşçü yoldaşlarımız da hərə öz müşahidə mövqeyini tutmuşdu. Döyüş yoldaşım Gəncəli Həbib ermənilərin postuna girərək, erməni PK-sını götürüb ermənilərə qarşı atəş açırdı. Həmin PK ilə 2 post almışdıq. Azad etdiyimiz yerlərdən xeyli qənimətlər-texnika və maşınlar götürmüşdük.

Bir dəfə də Laçında ermənilərin boş evlərinin çəpərinə girmişdik, ordan xeyli meyvə götürmüşdük.

Noyabrın 2-si axşam idi, Laçın dəhlizinə girmək əmri gəldi. Əmri yerinə yetirərkən bizim şəxsi heyətimizi ermənilər minamyotlarla vurdular. Komandirimiz polkovnik- leytenant Tağıyev Ruslan və digərləri şəhid oldular. Mənimlə bərabər iki nəfər yoldaşım da yaralandı. Gəncəli Məlikov Cavid qolundan və kürəyindən, yoldaşlarımın Vedili deyə çağırdıqları oğlan başından yaralandı. Mənim də sağ budumu qəlpə üzmüşdü, çiynimə və başıma qəlpələr girmişdi. Mən neytralda qalmışdım. Cavidlə Vedili çətinliklə də olsa, sanitarkaların dayandığı dərəyə düşmüşdülər. Onlar mənə kömək üçün sanitar maşını göndərdilər, amma sanitar maşını gələnə qədər Daşkəsənin Qabaqtəpə kəndindən olan Namazov Röyal məni çiynində döyüş bölgəsindən maşın yoluna gətirdi. Sanitar maşını bizim üçümüzü də bölgədən çıxartdı. Vəziyyətim ağır olduğu üçün məni Ağcabədi xəstəxanasına gətirdilər. Gələn kimi ayağıma mil qoyub otağa yerləşdirdilər. Orada mənim ayağımı kəsmək istəyirdilər, çünki vəziyyətim get-gedə ağırlaşırdı. Bu zaman Türkiyədən və Rusiyadan gələn könüllü həkimlər məni müayinə etdilər. Aqşin həkim mənə dedi ki, ayaq barmaqlarını tərpət, mən çətinliklə barmaqlarımı tərpətdim. Aqşin həkim dedi ki, narahat olma, mən səni sağaldacam. Noyabrın 8-i səhər saatları idi, əməliyyat başlandı və günorta bitti. Başımdan və ayağımdan 5 qəlpə çıxarıldı, ayağıma İlizarov aparatı qoyuldu. Mən ayılanda gördüm ki, ayağıma 6 dənə mil qoyublar. Əməliyyatdan sonra ayağımda qəlpə qaldığı üçün məni Bakıya Siti Hospitala göndərdilər. Orada da 3 dəfə əməliyyat edib ayağımdakı qəlpəni çıxardılar. Oradan da göndərdilər Respublika Klinik Xəstəxanasına, 2-ci

korpusa, 3 ay da orada müalicə olundum. O xəstəxanada vətəndaşlar tərəfindən mənə davamlı bazarlıq, ərzaq və paltar gətirirdilər.

Mən bir il Aqşin həkimin nəzarətində qaldım. Oktyabrın 12-də Aqşin həkim milləri çıxardı. Çiynimdəki qəlpə isə hələ də durur, çıxarılması səhhətim üçün təhlükəlidir. Ümumilikdə 5 dəfə əməliyyat olunmuşam".

Azərbaycan Vətən Müharibəsi Veteranları İB-nin, Qarabağ Əlillərinə Qayğı İB-nin və Vətən Müharibəsi Əlillərinə Kömək İB-nin üzvüdür.

Təltifləri:

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020

"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.

"Laçının azad olunmasına görə" medalı. Sərəncam № 2373. 29.12.2020

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

"Vətən Müharibəsi İştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Qarabağ Əlillərinə Qayğı İB-nin sədri Firidun Məmmədov tərəfindən "Qazi" və "Qalib döyüşçü" medalları ilə təltif olunub.

Budaqov Xəyal Maarif oğlu
Əsgər



1993-cü il iyunun 22-də Daşkəsən rayonunun Qabaqtəpə kəndində anadan olub. 2010-cu ildə Daşkəsən rayonunun Təzəkənd kəndində Şair Cavad adına tam orta məktəbi bitirib. 2011-ci ildə Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin təminat bölüyündə xidmət edib. 2013-cü ilin yanvarında tərxis olunub.

Vətən müharibəsi başlayanda Xəyal könüllü olaraq səfərbərlik bölməsinə müraciət edib və oktyabrın 10-da müharibəyə çağırılıb.

Xəyalın danışdıqlarından:

"Bizi Ağcabədi rayon N saylı hərbi hissəyə apardılar, bir neçə gün orada təlimdə olduq. Oktyabrın 27-də Xocavəndə getdik, orada bölündük. Mən 4-cü tabor 11-ci bölüyün tərkibində döyüşlərə qatıldım. Biz döyüşə-döyüşə Şuşaya tərəf irəliləyirdik. Döyüşlərimiz çox gözəl və uğurla keçirdi. Çox sayda silah-sursat, qənimətlər ələ keçirdik. Meşədə ermənilər bizim orada olduğumuzu bilib, bizi minamyot, avtomat atəşinə tutdular. Bizə "Geriyə" komandası verildi. O döyüşdə 12 nəfər şəxsi heyətimiz yaralanmışdı. Komandirimiz xüsusi təyinatlı Oruc Abba-

sov ermənilәri təşvişə salıb, çaşdıraraq özlərini bir-birinə qırdırdı. Biz də dərhal yaralılara tibbi yardım göstərərək, itki vermədən onları meşədən çıxardıq. Səhərisi gün əmr gəldi ki, döyüşə girməlisiz. Biz döyüşə girdik, uğurla irəliləyərək noyabrın 9-da Qırmızı Bazarın üstündəki yüksəkliyi ələ keçirdik. Mən irəlidə olduğum üçün snayper gülləsi ilə döş qəfəsimdən 2 güllə yarası aldım. Özümü itirməyərək, sürünə-sürünə döyüş yoldaşlarıma yaxınlaşdım. Döyüş yoldaşlarım mənə cəld ilkin tibbi yardım göstərib döyüş meydanından çıxardılar, meşəliklərlə keçərək maşına çatdırdılar. Məni gətirdilər Füzuliyə, orada ilkin tibbi yardım göstərdilər və Bakıya Papanin hospitalına göndərdilər. Ağır yaralı olduğuma görə məni oraya götürmədilər, göndərdilər Mehriban Əliyeva adına Bona DEA Klinikasına, orda əməliyyat olundum, bir müddət də müalicə olundum. Sonra məni yenidən Papaninə göndərdilər. Orada müayinə olunduqdan sonra evə buraxıldım. Çox sevinirəm ki, torpaqlarımızı erməni vandallarından azad etdik və fəxr edirəm ki, mənim də bu qələbənin qazanılmasında payım var. Allah ordumuzu və xalqımızı qorusun".

Təltifləri:

"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2712. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Budaqov Qəlbinur Nizami oğlu Əsgər



1994-cü il dekabrın 24-də Daşkəsən rayonunun Mədənçilər qəsəbəsində anadan olub. 2012-ci ildə Daşkəsən şəhər Anar Mürsəlov adına 2 saylı tam orta məktəbi bitirib. 2013-cü il yanvarın 15-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Beyləqan rayon N saylı hərbi hissədə radio-telefonçu vəzifəsində xidmət edib. 2014-cü il iyulun 1-də ordu sıralarından tərxis olunub. 2014-cü il noyabrın 22-də Daşkəsən rayon N saylı hərbi hissədə MAHHXHQ kimi xidmətə başlayıb, hazırda həmin hərbi hissədə xidmətinə davam edir.

Vətən müharibəsi başlayanda xidmət etdiyi hərbi hissənin tərkibində Kəlbəcər istiqamətindən döyüşə başlayıblar.

Qəlbinurun danışdıqlarından:

"Ağçınqıl, Üçtəpə, Ağdağ postlarının azad olunması uğrunda döyüşüb, postları azad etdik. Atəşkəs elan olunanadək olduğumuz mövqelərdə müdafiədə dayandıq. Oktyabrın 25-də Daşkəsəndən Qubadlı istiqamətinə getdik, 26-da Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak etdik, şəhər alındıqdan sonra arama-tarama (təmizləmə)

döyüşlərində iştirak etmişik. Oradan Zəngilana getdik, arama-taramada iştirak etdik, sonra isə Xocavəndə. Oradan da noyabrın 1-2-də Laçın dəhlizinə keçdik. Noyabrın 6-da Şuşaya hücum etdik, orada döyüşüb Şuşanı azad etdik".

Təltifləri:
"Hərbi Xidmətdə Fərqlənməyə görə" 3-cü dərəcəli medal. Əmr № 0218t. 28.12.2020
"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2370. 29.12.2020.
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Cəfərov Elcan Nüsrət oğlu
Əsgər

1995-ci il avqustun 2-də Daşkəsən rayonunun Zağalı kəndində anadan olub. 2011-ci ildə Daşkəşən şəhər Nəsimi adına 1 saylı tam orta məktəbin 9-cu sinfini bitirib, Gəncə Dövlət Humanitar Kollecinə daxil olub. 2014-cü ildə həmin kolleci bitirib. Elə həmin il SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Bakıda

Qaradağ rayonunda N saylı hərbi hissədə sürücü-pantonçu vəzifəsində xidmət edib. 2016-cı il yanvarın 5-də hərbi xidmətini başa vurub, ehtiyata buraxılıb. 2018-ci ildən müəllim işləyir.

2020-ci il sentyabrın 21-də hərbi səfərbərliklə könüllü olaraq cəbhəyə yola düşüb. Vətən müharibəsinin başladığı andan etibarən Kəlbəcər istiqamətində, Murovdağ yüksəkliklərində gedən döyüşlərdə artilleriya batareyasında sürücü vəzifəsində iştirak edib. 2020-ci il dekabrın 8-də ehtiyata buraxılıb.

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Cəfərov Namiq Tofiq oğlu Əsgər



1991-ci il yanvarın 14-də Daşkəsən şəhərində anadan olub. 2009-cu ildə İmadəddin Nəsimi adına 1 saylı tam orta məktəbi bitirib. 2009-cu ilin iyulunda Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Bakıda N saylı hərbi hissədə atıcı vəzifəsində

xidmət edib. 2011-ci ilin yanvarında tərxis olunub, rayona qayıdıb və Daşkəsən "Filizsaflaşdırma" ASC-də fəhlə və mühafizəçi işləyib. Bir müddət işlədikdən sonra öz ərizəsi ilə işdən azad olunub, Rusiyaya, Moskvaya gedib, 9 ay orda işləyib, sonra Vətənə qayıdıb.

Namiqin danışdıqlarından:

"Mən 2016-cı ildə Aprel döyüşləri başlayanda da komissarlığa gedib adımı könüllü yazdırdmışdım. Mənim ürəyim Vətənim üçün döyünür, Azərbaycanıma canım qurban olsun. Aprel ayı başlayanda, axşam saat 11 idi, mən yaxınlaşdım rayon Hərbi Komissarlığına ki, məni də yazın, könüllü getmək istəyirəm. Həmin saat məni qeydə aldılar, təəssüf ki, biz Gəncə N saylı hərbi hissəyə çatanda bizə dedilər ki, müharibə qurtardı. Biz çox peşman olduq ki, axı niyə dayandı, biz çox həvəslə getmişdik ki, döyüşək torpaqlarımızı azad edək. Bizi çox peşman halda geri qaytardılar.

İkinci Qarabağ müharibəsində də könüllü yazılmışam. Füzuli, Cəbrayıl, Xocavənd istiqamətlərində döyüşmüşəm.

2020-ci il oktyabrın 9-da biz Daşkəsəndən çıxdıq, getdik Ağcabədi rayon N saylı hərbi hissəyə. Oktyabrın 10-da N saylı hərbi hissənin tərkibində Füzuli istiqamətində döyüşə girdik. XTQ öndə 5-6 maşınla, biz isə onların arxasında 4-5 BTR və 2 dənə də zirehli maşın içi dolu əsgərlə Sarıtəpə yüksəkliyi istiqamətində gedirdik. Qayalıq yerə qədər XTQ-nin arxasınca BTR və zirehli maşınla getdik, orada XTQ-nin ilk maşınını vurdular, həm yaralılar, həm şəhidlər oldu. Orda tıxac yarandı, bizə komanda gəldi ki, maşınlardan düşün, vura bilərlər. Hamımız

maşın və BTR-lərdan düşüb ətrafa dağıldıq və gözlədik. Hər an hücum ola bilərdi. Amma hücum olmadı, oktyabrın 11-i səhər tezdən saat 5-6 radələrində irəli hərəkət etdik, müəyyən olunmuş yerdən sonra yola piyada davam etdik. Oktyabrın 12-də Füzulinin sıx meşə yerində "Xaç vışka" deyilən yerdən piyada üzü aşağı düşüb yaşayış məntəqələrinə yaxınlaşdıq və evləri yoxladıq. Orada 2 nəfər kiçik yaşlı uşaq vardı, ermənilərin yadından çıxıb qalmışdılar. Bir dənə də təzə Dubay NİVA markalı maşın vardı, orada qaldı. Uşaqları götürüb arxadan gələn dövlət işçilərinə verdilər. Radiostansiya ilə bizə əmr gəldi ki, 4 yol deyilən yerdən hücuma keçin. Biz ağaclıq tərəfə yaxınlaşanda orda bizi TŞK ilə atəşə tutdular. Biz ermənin düz qarşısında idik, onlar meşənin içində idilər. Sonra isə minamyotla, snayperlə, pulemyotla və s. silahlarla atəş açdılar. Ermənilər yerimizi təsbit etmişdilər, olduğumuz yeri aramsız vururdular. Xeyli şəhid verdik və yaralılarımız oldu. Amma biz həmin mövqeni aldıq və orada 5-6 gün müdafiədə dayandıq. Oktyabrın 19-da ermənilər olduğumuz yerə hücum etdi, qızğın döyüşlər zamanı yaxınlığımda partlayan minamyot mərmisinin dalğasından kəllə-beyin travması və sağ qolumdan qəlpə yarası aldım. Məni Füzuli hərbi hospitalına gətirdilər, orada müalicə olundum. Sonra Zərdab hospitalına köçürdülər, orada müalicə olundum və oktyabrın 29-da hospitaldan çıxdım. Məni təkrar Xocavənd istiqamətində Zoğalbulaq kəndinə döyüş bölgəsinə göndərdilər, kəndin müdafiəsində dayandıq. Qələbədən sonra 01.01.2021-ci il tarixində tərxis olundum".

Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin üzvüdür.

Təltifləri:

"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2364. 25.12.2020.

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2711. 24.06.2021.

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2714. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

07.05.2021-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik Hafiz Ağayev tərəfindən "Vətən Müharibəsində fəal iştirak etdiyinə görə" Fəxri Fərman;

27.05.2021-ci il tarixində nmedia.az İnformasiya Portalının baş redaktoru Nicat Dilqəmli tərəfindən "Vətən uğrunda göstərdiyi mərdlik və şücaətə görə" Fəxri Media Mükafatı;

27.05.2021-ci il tarixində Daşkəsən rayon Heydər Əliyev Mərkəzinin direktoru Nailə Məmmədova tərəfindən "Xalqımızın birliyi, torpaqlarımızın bütövlüyü uğrunda, Vətən qarşısında borcunu şərəflə yerinə yetirdiyinə görə" Təşəkkürnamə ilə təltif olunub.

Cəfərov Röyal Yadigar oğlu
Əsgər



2000-ci il oktyabrın 15-də Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olub. 2019-cu ildə Göygöl rayonunun Yeni Qızılca kənd tam orta məktəbini bitirib. 2019-cu il, iyulun 22-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Ağcabədi rayon N saylı hərbi hissədə 3 ay xidmət edib. Sonra Xocavənd rayonunun N saylı hərbi hissəsinə göndərilib, minaatan batareyada heyət nəfəri kimi xidmət edib.

Vətən müharibəsinin ilk günlərindən xidmət etdiyi hərbi hissənin tərkibində Füzuli, Qubadlı, Hadrut, Şuşa istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

Röyalın danışdıqlarından:

"Sentyabrın 27-də tam korpusla Füzuli istiqamətində döyüşlərə başladıq. 10 gündən çox düşmən hədəfini atəşə tutmuşuq. Düşmən hiylə ilə maskalandığından təəssüf ki, həmlələr boşa çıxırdı. Buna görə bizim batareyaya yerdəyişmə əmri verildi, olduğumuz mövqeyi dəyişərək bir az daha qabağa getdik. Bu dəfə həmlələrimiz uğurlu alındı, düşmənin çox sayda döyüş texnikasını, sursat anbarlarını və canlı qüvvəsini məhv etdik. Çox təəssüf ki, itkimiz

də oldu – batareyada şəxsi heyət sursat boşaldarkən şəhid verdik. Artıq mövqeyimiz düşmənə məlum olduğuna görə, batareyaya növbəti yerdəyişmə əmri verildi. Bu dəfə Qubadlı rayonuna gəldik, bir neçə gün orada döyüş apardıq. Döyüşlərimiz uğurlu oldu, getdikcə daha çox düşmən hədəflərini məhv edirdik. Get-gedə düşmən itki verdikcə arxaya çəkilirdi. Biz də yerdəyişmə edə-edə Hadrut və Tuğ kəndlərində döyüş apardıq. Təəssüf ki, Tuğda yenə şəhid verdik. Bu dəfə yerdəyişməmiz Topxana meşəsinə oldu. Yüksəkliklər düşməndə olduğuna görə çox çətinlik çəkirdik, burada yenə şəhid verdik. Buna baxmayaraq düşmən hədəflərini məhv edirdik. Nəhayət, bütün çətinliklərə baxmayaraq, Topxana meşəsində gedən döyüşlərdə qalib gəldik. Növbəti mövqeyimiz Şuşanın Daşaltı kəndində oldu. Minaatanları döyüşə gətirərək düşmən hədəfini nişan aldıq, lakin düşmən tərəf atış aparmağa imkan vermədi, bizi atəşə tutdu. Daldalanmağa yer olmadığından kənddə olan evlərdə daldalandıq. Lakin yenə döyüş aparmaq mümkün olmadı, Şuşa meşəsinə çəkildik. Meşədən apardığımız döyüşlərdə düşməni Şuşadan qovduq. Az sonra müharibənin qurtardığını dedilər. Düşmən tərəf minlərlə canlı qüvvəsini, silah-sursat anbarlarını, zəbt etdiyi Azərbaycan torpaqlarını itirmişdi.

Keçdiyim döyüş yolu mənə qürur verir. Xidmət müddətim bitsə də, ordumuzda itkilər olduğuna və bərkitmə işlərinə görə Şuşada xidmətimdən əlavə 6 ay da xidmət etmişəm. 2021-ci il iyulun 1-də ordu sıralarından tərxis olundum".

Təltifləri:
"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 25.12.2020.
"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.
"Şuşanın" azad olunmasına görə" medalı. Sərəncam № 2716. 24.06.2021.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam №250s. 21.04.2022.

Cəfərzadə Ceyhun Vahid oğlu Əsgər



1995-ci il martın 13-də Daşkəsən şəhərində anadan olub. 2011-ci ildə Daşkəsən şəhər Anar Mürsəlov adına 2 saylı tam orta məktəbin 9-cu sinfini bitirib, Mingəçevir Turizm Kollecinə qəbul olub. 2014-cü ildə Kolleci bitirdikdən sonra SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Tərtər rayonunda N saylı hərbi hissədə sanitar-təlimatçı vəzifəsində xidmət edib, 2016-cı ildə tərxis olunub.

Vətən Müharibəsi başlayan gündən Cəbrayıl, Qubadlı və Laçın istiqamətində gedən döyüşlərdə sanitar -təlimatçı vəzifəsində iştirak edib.

Təltifləri:

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.

"Laçının azad olunmasına görə" medalı. Sərəncam № 2373. 29.12.2020.



Əhmədov Abbas Amil oğlu Əsgər

2001-ci il martın 28-də Daşkəsən şəhərində anadan olub. 2003-cü ildə atası, 2015-ci ildə isə anası vəfat edib. Abbası ana babası Məmmədov Nəriman qəyyumluğa götürüb və böyüdüb. Abbas 2017-ci ildə Daşkəsən şəhər Səməd Vurğun adına 4 saylı tam orta məktəbi bitirib. Elə həmin il də İdman və Bədən Tərbiyəsi üzrə imtahan verib Mingəçevir Turizm Kollecinə qəbul olub. Yaşayış yeri uzaq olduğu üçün yerini Gəncə Dövlət Regional Kollecinə dəyişdirib. Kolleci bitirməyinə 3 ay qalmış 18 yaşı tamam olduğu üçün 2019-cu il aprelin 4-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 2 ay Ağcabədi N saylı hərbi hissədə xidmət etdikdən sonra xidmətini Füzulinin N saylı hərbi hissəsində davam etdirib.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində döyüşlərə qatılıb.

Abbasın danışdıqlarından:

"Sentyabrın 27-si idi, torpaqlarımızı düşməndən azad etmək üçün Ali Baş Komandanımız İlham Əliyevin əks-hücum əmrini aldıq. Füzuli – Xocavənd istiqamətində döyüşlərə qatıldıq. Oktyabrın 3-də Füzulidən Xocavəndə keçid edirdik, ağır döyüşlər gedirdi, düşmən tərəfin atdığı mərminin partlaması nəticəsində yaralandım. Məni Salyan rayon Mərkəzi Xəstəxanasına yerləşdirdilər. Bir neçə gün müalicə aldıqdan sonra Gəncə şəhər Abbas Səhhət adına xəstəxanaya göndərildim. Həmin xəstəxanada aldığım qəlpə yaraları sağaldıqdan sonra məni Gəncə şəhər Hərbi Hospitalında müayinədən keçirdilər, çox şükür ki, səhhətimdə heç bir problem olmadı və mən yenidən torpaqlarımızı düşməndən azad etmək üçün könüllü olaraq döyüş bölgəsinə qayıtdım. Cəbrayıl rayonunun Daşkəsən kəndindən döyüşlərə qatıldım. Şuşanın Sığnaq kəndinə kimi döyüşüb düşməni məhv etdik, Şuşa alındıqdan sonra isə Şuşaya daxil olduq. Düşmən təslim olduqdan sonra müharibə dayandı və bizim diviziyonu Cəbrayıl rayonuna apardılar.

2021-ci il aprelin 1-də ordu sıralarından ehtiyata buraxıldım və təhsilimi davam etdirib, Gəncə Dövlət Regional Kollecini bitirdim. Hazırda babam və nənəmlə birlikdə Daşkəsəndə yaşayıram".

Təltifləri:

"Şücaətə görə" medalı. Əmr № 0246t. 30.12.2020

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 25.12.2020.
"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2364. 25.12.2020.
"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2716. 24.06.2021.
"Cəsur döyüşçü" medalı. Sərəncam № 2724. 24.06.2021.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

27.05.2021-ci il tarixində Daşkəsən rayon Heydər Əliyev Mərkəzinin direktoru Nailə Məmmədova tərəfindən "Xalqımızın birliyi, torpaqlarımızın bütövlüyü uğrunda Vətən qarşısında borcunu şərəflə yerinə yetirdiyinə görə" Təşəkkürnamə;

27.05.2021-ci il tarixində NMedia.az İnformasiya Portalının Baş redaktoru N.Dilqəmli tərəfindən "Vətən uğrunda göstərdiyi mərdliyə və şücaətə görə" Fəxri Media Mükafatı ilə təltif olunub.

Əhmədov Səməndər Kamandar oğlu Əsgər



1992-ci il oktyabrın 23-də Daşkəsən şəhərində anadan olub. 2010-cu ildə Daşkəsən şəhər Səməd Vurğun adına 4 saylı tam orta məktəbi bitirib. 2010-cu ilin oktyabrında Dakəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Beyləqan N saylı hərbi hissədə snayper olaraq xidmət edib, 2012-ci ilin aprelində tərxis olunub.

Vətən müharibəsinin ilk günündən Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüş əməliyyatlarında iştirak edib.

Səməndərin danışdıqlarından:

2020-ci il sentyabrın 21-də könüllü olaraq səfərbərlikdən müharibəyə çağırıldım. Bizi göndərdilər Gəncə şəhər N saylı hərbi hissəyə, sentyabrın 24-dək orada təlimdə olduq. Sentyabrın 24-də Toğanaya gətirildik, 26-da bölünərək oradan Murovdağa qaldırıldıq. Sentyabrın 27-dən noyabrın 10-dək Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüş əməliyyatlarında N saylı hərbi hissənin tərkibində baş atıcı vəzifəsində iştirak etdim. Bu döyüşlərdə mən Nuruyev Asiflə eyni hərbi hissənin tərkibində olmuşam, Murovdağda, o soyuqda açıq havada gecələmişik. Yaxın-

lığımıza düşüb partlayan mərmidən sağ-salamat qurtaran döyüşçülərdən biriyəm. Noyabrın 10-da qayıtdıq Toğanaya, 15 gün orada qaldıq. Noyabrın 25-də bizi Kəlbəcər rayonunun Ermənistanla həmsərhəd bölgəsinə apardılar. Orada dekabrın 27-dək xidmət etdim, 27-də tərxis olundum".

Təltifləri:
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Əliyev Elşən Nurəli oğlu
Əsgər

1996-cı il aprelin 22-də Daşkəsən rayonunun Zinzahal kəndində anadan olub. 2012-ci ildə Zinzahal kənd tam orta məktəbini bitirib. 2013-cü ildə SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Bakı, Abşeron və Qusarda N saylı hərbi hissələrdə qumbaraatan vəzifəsində xidmət edib, 2015-ci ildə ordu sıralarından tərxis olunub. Müharibə başlayanadək müxtəlif işlərdə işləyib.

Vətən müharibəsində Cəbrayıl, Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak edib.

Elşənin danışdıqlarından:

"2-ci Qarabağ Müharibəsi başlayanda könüllü olaraq qeydiyyatdan keçdim, 2020-ci il sentyabrın 29-da səfərbərlik elanı ilə vətənimizin ərazi bütövlüyü uğrunda döyüşlərə çağırıldım. Oktyabrın 10-dək Şəmkir rayonunda təlimdə olduq. Oktyabrın 10-da döyüş bölgəsinə getdik, səhərisi gün döyüşə girdik. Döyüşlər o qədər ruh yüksəkliyi ilə gedirdi ki, hər kəs ancaq irəli getmək istəyirdi. Əlbəttə ki, döyüş şəhidsiz, qazisiz olmaz, amma biz torpaqlarımızı mənfur düşmənlərdən azad etdik. Qorxmaz ruha sahib idik, şəhid və qazilərimizin qisasını almaq üçün ancaq irəli can atırdıq. 6 gün döyüşdən sonra, oktyabrın 17-də bizim bölməni arxada saxlamışdılar, sonra komanda gəldi ki, 12 nəfər şəxsi heyət tankla gəlsin. 12 nəfərdən 1-i də mən idim, tanka mindik və irəliyə, Cəbrayıl dağlarına qalxdıq, orada bir neçə saat döyüşdük, şəhidlərimiz də oldu, yaralılarımız da. Axşamtərəfi biz Qubadlıya girdik və Qubadlının girəcəyində vurulduq. Həmin gün minamyot mərmisinin partlamasından bədənimin bir neçə yerindən ağır qəlpə yaraları almışdım, çox ağır vəziyyətdə idim, amma özümü idarə edirdim. Döyüş yoldaşımın köməyi ilə oradan çıxdım, döyüş yoldaşım da ayağından yaralanmışdı. Məni cəmləşmə rayonuna gətirib ilkin tibbi yardım göstərdikdən sonra, təcili yardım maşını ilə Horadizə təxliyyə etdilər. Orada sarğılarımı dəyişdilər və tibbi yardım göstərildikdən sonra Füzulinin Əhmədbəyli Hos-

pitalına göndərildim. Həmin gün ağır əməliyyat keçirdim və oktyabrın 18-də Silahlı Qüvvələrin Baş Kliniki Hospitalına (Papaninə) təxliyyə olundum. Orada bir neçə gün müalicə olundum, oktyabrın 22-də Bakı Sağlamlıq Mərkəzinə göndərildim. Orada müayinə və müalicələrim davam etdi. Noyabrın 10-da 2-ci dəfə əməliyyat olundum və 10 gün müalicədən sonra evə buraxıldım.

Biz həm öndə xidmət edən həkimlərimizlə, həm də arxada vəzifəsini vicdanla yerinə yetirən kişi qeyrətli xanım həkimlərimizlə fəxr edirik. Bizə çox qayğı və diqqət göstərirdilər".

Təltifləri:

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Əliyev Etibar Eyyub oğlu
Əsgər



1995-ci il aprelin 15-də Daşkəsən rayonunun Kəmərqaya kəndində anadan olub. 2010-cu ildə Quşçu kənd tam orta məktəbinin 9-cu sinfini bitirib. 2013-cü ildə SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, 8 ay Ağcabədi N saylı hərbi hissədə tankda tuşlayıcı, sonra isə Beyləqan N saylı hərbi hissədə minamyotçu vəzifəsində xidmət edib. 2014-cü il oktyabrın 1-də xidmətini başa vurub, ordu sıralarından tərxis olunub. Bakıda tikintidə fəhlə işləyib.

Vətən müharibəsində Cəbrayıl və Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak edib.

Etibarın danışdıqlarından:

"Müharibə başlayanda könüllü olaraq qeydiyyatdan keçdim. 2-ci çağırışda bizi Gəncə şəhər N saylı hərbi hissəyə apardılar, orada hərbi təlimlər keçdikdən sonra manqa komandiri vəzifəsində piyada qoşunla Füzuli istiqamətində gedən döyüşlərə qatıldım. Füzuli alınmışdı, amma o istiqamətdə kalonlarımız vuruldu, hərəmiz bir tərəfə dağıldıq. Oradan da döyüş yoldaşlarımla Cəbrayıla keçid etdik. Dağla-daşla çətinliklə irəliləyib, simli minaya düşdük. Hər tərəf mina ilə dolu idi, zülümlə irəliləyirdik.

Ermənilərlə üz-üzə gələrək döyüşə-döyüşə gedib oralara çıxmışıq. Daha sonra Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak etdik. Orada körpünün altında 2 gün mühasirədə qaldıq. Qubadlıda döyüş yoldaşlarımızdan şəhid və yaralananlar oldu. Canımız bahasına olsa da, döyüş bölgəsindən onları çıxardıq, yaralılara köməklik etdik. Qubadlı rayonu uğrunda gedən axırıncı döyüşdə 120-lik minamyotun partlaması nəticəsində ağır kəllə-beyin travması aldım. Məni təxliyyə etdilər Füzuli Hospitalına, daha sonra Neftçalada xəstəxanaya yerləşdirdilər. Sonra da Gəncədə müalicələrimə davam etdim.

44 günlük Vətən müharibəsində acılı günlərimiz də oldu, sevincli günlərimiz də. Belə ki, döyüş zamanı qardaşlarımız şəhid olurdular, ən yüksək məqama ucalırdılar, çoxlu yaralı qardaşlarımız oldu. Orda hamı bir-birinə yaxın, doğma olurdu, orda pis-yaxşı deyilən bir şey yox idi, hamı bir məqsəd üçün vuruşurdu – torpaq uğrunda...

Müharibə dövründə biz çox sayda yaxın dost qazanmış olduq. Sevinirdik ki, rayonlarımızı və kəndlərimizi bir-bir geri alırıq, hisslərimiz çox qarışıq idi..."

Təltifləri:

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Əmirov İsrayıl İsmayıl oğlu
Əsgər



1995-ci il noyabrın 15-də Daşkəsən rayonunun Qazaxyolçular kəndində anadan olub. 2013-cü ildə Qazaxyolçular kənd tam orta məktəbini bitirib. 2015-ci il aprelin 6-da SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, əvvəlcə Gəncə N saylı hərbi hissədə, sonra Ağcabədi N saylı hərbi hissədə mühafizə bölüyündə xidmət edib. 2016-cı il oktyabrın 15-də tərxis olunub.

Vətən müharibəsində Kəlbəcər istiqamətində gedən döyüşlərdə manqa komandiri vəzifəsində iştirak edib.

İsrayılın danışdıqlarından:

"2020-ci il sentyabrın 21-də axşamtərəfi hərbi komissarlığa getdik, oradan bizi Gəncə N saylı hərbi hissəyə apardılar, 5 gün təlimlərdə olduq. Sentyabrın 26-da bizi Toğanaya N saylı hərbi hissənin 3-cü taboruna qaldırdılar. Sentyabrın 27-də səhər tezdən müharibə başladı və biz Murovdağ istiqamətinə qalxdıq və gecə Murova çatdıq. Gecə-gündüz yatmadan müdafiədə dururduq, irəli getmək üçün əmr gözləyirdik. Axır ki, şad xəbər gəldi və gecə saatlarında irəliyə getdik. Dağ, dərə və təpələrlə gedib "Canavar sağ" deyilən posta girdik. Düşmənlər pos-

tu tərk edib qaçmışdılar. Zirvə deyilən yüksəklikdə bizi vurdular, şəhid və yaralılarımız oldu. Amma onların qanı yerdə qalmadı, mərd və cəsur ordumuz hamısının qisasını aldı. Kəbəcər təhvil verilməndən sonra, Kəlbəcərdə Göyçə gölü ilə üzbəüz postda durduq. Dekabrda tərxis olundum"

Təltifləri:
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Əsgərov Elvin Faxrəddin oğlu
Əsgər

1993-cü il martın 4-də Daşkəsən rayonunun Mollahasanlı kəndində anadan olub. 2010-cu ildə Mollahasanlı kənd tam orta məktəbini bitirib. 2011-ci ilin aprelində Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Kürdəmir N saylı hərbi hissədə sürücü vəzifəsində xidmət edib. 2012-ci ilin oktyabrında tərxis olunub. Müxtəlif işlərdə işləyib.

Vətən müharibəsi başlayanda sentyabrın 29-da könüllü olaraq səfərbərliklə müharibəyə çağırılıb. Gəncə N saylı

hərbi hissədə oktyabrın 12-dək təlimlərdə olub. Oktyabrın 12-də Cəbrayıl rayonuna gəlib döyüşlərə qatılıblar. Cəbrayıl, Qubadlı və Laçın istiqamətində gedən döyüşlərdə minaaxtaran mühəndis bölüyündə sürücü vəzifəsində iştirak edib. Laçının Güləbir kəndində olarkən müharibə bitib, dekabrın 4-dək Güləbir kəndində müdafiədə durublar. Sonra gəliblər Gəncə N saylı hərbi hissəyə və dekabrın 27-də tərxis olunub.

Təltifləri:

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.

"Laçının azad olunmasına görə" medalı. Sərəncam № 2373. 29.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Əsgərov Röyal Murad oğlu Əsgər



1995-ci il yanvarın 3-də Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 2012-ci ildə Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbi bitirib. 2013-cü ilin yanva-

rından Naxçıvan MR-in Babək rayonunda N saylı hərbi hissədə xidmət edib. 2014-cü ilin iyulunda tərxis olunub. 2016-cı il avqustun 29-dan Daşkəsən rayon N saylı hərbi hissənin kəşfiyyat bölməsində MAHHXHQ kimi işləməyə başlayıb.

Vətən müharibəsi başlayan gündən Kəlbəcər istiqamətində gedən döyüşlərdə kəşfiyyat bölməsi ilə hücuma keçiblər. Oktyabrın 2-də ayağından yaralanmasına baxmayaraq döyüşə davam edib. Axşam tibb məntəqəsinə endirilib. Tibbi yardımdan sonra təkrar döyüşlərə davam edib. Noyabrın 25-i Kəlbəcər rayonuna daxil olublar. Xidmətinə Kəlbəcərdə davam edib. 2021-ci il iyunun 17-də bədəninin müqaviməti bitdiyinə görə hərbi xidmətdən ehtiyata buraxılıb.

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Haqverdiyev Xəyal
Əlabbas oğlu
Sürücü



1983-cü il yanvarın 18-də Daşkəsən rayonunun Qaratağılar kəndində anadan olub. 2001-ci ildə Qaraqollar kənd orta məktəbini bitirib. 2001-ci ilin iyulunda Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Naftalan rayon N saylı hərbi hissədə atıcı vəzifəsində xidmət edib. 2002-ci ildə tərxis olunub. 2015-ci ildən Daşkəsən MRX-da təcili yardım maşınında sürücü vəzifəsində işə girib, hal-hazıradək orada sürücü işləyir.

Vətən müharibəsi başlayanda 2020-ci il oktyabrın 6-dan noyabrın 10-dək Daşkəsən Mərkəzi Xəstəxanasından, N saylı hərbi hissənin tibb məntəqəsindən, döyüş postlarından və Kəlbəcər istiqamətindən yaralıların və şəhidlərin daşınmasında yardım göstərib.

Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin üzvüdür.

Azərbaycan Respublikası İcbari Tibbi Sığorta Üzrə Dövlət Agentliyi "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" İdarə Heyətinin sədri vəzifəsini icra edən Vüqar Qurbanov tərəfindən "Vətən Müharibəsi dövründə göstərdiyi xidmətlərə görə" Təşəkkürnamə;

AVMVİB-nin Daşkəsən şöbəsinin sədri Musayev Əli

tərəfindən "Müzəffər Azərbaycan Ordusunun Vətən Müharibəsində tarixi Qələbəsinin qazanılmasında göstərdiyi fədakar əməyinə və maddi-mənəvi dəstəyinə görə" Fəxri Fərmanla təltif olunub.



Həsənov Asim Xaliq oğlu
Əsgər

1996-cı il noyabrın 14-də Daşkəsən rayonunun Qaratağılar kəndində anadan olub. Gəncə şəhər, Sevinc qəsəbəsi 21 nömrəli tam orta məktəbin 9-cu sinfini bitirib, 2 saylı peşə liseyinə daxil olub. 2016-cı ilin yanvarında SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Ağcabədi N saylı hərbi hissədə baş atıcı vəzifəsində xidmət edib. 2016-cı ildə xidmət etdiyi hərbi hissənin tərkibində Aprel döyüşlərində iştirak edib, sonra aldıqları postda 2017-ci ilin iyul ayınadək müdafiədə durublar. İyul ayında ordu sıralarından tərxis olunub, Gəncəyə qayıdıb, müxtəlif işlərdə işləyib.

Vətən müharibəsi başlayan gündən könüllü olaraq SHXÇDX-nın Daşkəsən rayon bölməsində qeydiyyatdan keçib, elə həmin gün də Ağcabədi N saylı hərbi hissəyə göndəriliblər, orada bölünüblər. Oktyabrın 10-da Asim Qusar N saylı hərbi hissənin tərkibində Füzuli, Cəbrayıl, Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak edib,

Qırmızı Bazaradək döyüşüb. Dekabrın 31-də tərxis olunub.

Asimin danışdıqlarından:

"Oktyabrın 10-u axşamtərəfi idi, biz Füzuli istiqamətində döyüşlərə başladıq. Mən manqa komandiri idim. Biz döyüşə başlayanda artıq 2 kənd azad edilmişdi. Bizə demişdilər ki, getdiyiniz istiqamətdəki bütün mövqelər alınıb. Elə səngərə təzəcə düşmüşdük ki, minamyotlarla bizi atəşə tutdular, biz dizə qədər səngərdə idik, birtəhər gizlənib gecəni gözlədik. Gecə yarısı müşahidəyə çıxdıq, gördük ki, hər tərəfimiz ermənidir, biz mühasirədəyik. Atışa-atışa mühasirədən çıxdıq, 60 nəfərlik şəxsi heyətdən 16 nəfər sağ qalmışdıq. Geri çəkilmə əmri gəldi, şəhidlərimizi və yaralılarımızı da götürüb arxaya çəkildik, 70-80 m məsafədəki səngərə girdik. Noyabrın 12-də bizə dəstək gəldi, təkrar hücuma keçdik və irəliləyərək Cəbrayıl istiqamətinə keçdik. Daşkəsən kəndindəki erməni hərbi hissəsini nəzarətə götürməli idik. Biz 100 nəfər olardıq, ermənilər isə 300-400 nəfər olardılar. Ona görə də biz kəndə düzünə hücum etmədik, kəndin sol tərəfi ilə dağlara tərəf yuxarı qalxdıq. Onların silahları, texnikaları həm sayca, həm də çapına görə bizdən qat-qat artıq idi. Onlarda iri çaplı silahlar daha çox idi. Biz atışaraq vala tərəf sıxışdıq, xeyli itkimiz oldu, 40-50 nəfər qalmışdıq. Valda XTQ-nin döyüşçüləri ilə rastlaşdıq, onlar təəccüb etdilər ki, siz niyə bizdən əvvəl irəli getmisiz. Sonra plan hazırlandı və biz təkrar hücuma keçdik. XTQ isə səssizcə hərbi hissənin arxa tərəfinə keçib, oradan hücuma keçdilər və biz hərbi hissəni ələ keçirdik. XTQ getdi, biz isə müdafiə-

də qaldıq. Hərbi hissənin içərisində hər cür şərait var idi, hətta mal-qara fermaları da vardı, heyvanlar da ərazidə idilər. Kənddə bir həftə qaldıq, bizim tabor oraya tam yerləşəndən sonra, digər hərbi hissə də oraya gəldi. Cəmləşmədən sonra biz Xocavənd istiqamətində hücuma keçdik. Xocavənddə 650 yüksəkliyini almalı idik. Səssiz hücuma keçdik, bir qədər sonra bizi gördülər, ağır artilleriyadan bizə atəş açdılar. Sağ, sol və qarşı tərəf ermənilər idi. Digər hərbi hissənin dəstəyi ilə sağdan irəliləyərkən yaxınlığıma minamyot mərmisi düşdü. Dalğası məni 15 metrədək tulladı, yerə çırpıldım və özümdən getdim. Yoldaşlarım məni neytraldan çıxararkən özümə gəldim, güclü baş ağrılarım olsa da, yenə döyüşə davam elədim. Sağ tərəfdən girib ermənıyə ağır zərbə endirdik və yüksəkliyi ələ keçirdik. 2 gün orada olduq, sonra əmr gəldi ki, Sərhəd Qoşunlarının mühasirədə qalmış Xüsusi Təyinatlılarına köməyə gedin. Biz o istiqamətdə irəlilədik, sol tərəfdən isə digər bölük irəliləyirdi, dəstəni mühasirəsdən çıxardıq və üzümlük deyilən ərazini ələ keçirdik. Orada da çox sayda şəhid və yaralılarımız oldu. Onları təxliyyə edib, iki gün - noyabrın 3-4-ü müdafiədə qaldıq. Sonra əmr gəldi ki, Zoğalbulağı alıb, Qırmızı Bazar istiqamətinə keçək. Cəmləşmədən sonra 40 nəfərlə biz o istiqamətdə irəlilədik və irəlidəki dağın döşünə qədər qalxdıq. Gecə kəşfiyyat elədik, gördük ki, qarşıda bir batalyon erməni var. Əmr gəldi ki, 200 metr geri çəkilin, çəkildik əvvəlki yerimizə. Səhərisi gün, noyabrın 6-da ermənilərlə qarşılıqlı artilleriya atəşimiz başladı. Mən olduğum səngərin qarşısına minamyot mərmisi düşdü, dalğasından kəllə-beyin travması aldım. Səngərin

torpağı üstümə tökülüb məni basdırmışdı. Döyüş bitəndən sonra yoldaşlarım məni oradan çıxarıb, ilkin tibbi yardım göstərdilər. Noyabrın 7-də atəşkəs elan olundu. Biz mövqelərimizi bərkidib 20 günədək orada müdafiədə qaldıq. Mən ad günümü noyabrın 14-də Xocavənddə, Qırmızı Bazarda keçirdim. Sonra mövqelərimizi başqa hərbi hissəyə təhvil verib Cəbrayıla döndük, oradan da avtobuslarla Qusara öz hərbi hissəmizə qayıtdıq. Dekabrın 31-də ordu sıralarından tərxis olundum".

Təltifləri:

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2711. 24.06.2021.

"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2712. 24.06.2021.

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2714. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

31.12.2020-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik Hafiz Ağayev tərəfindən "Vətən Müharibəsində fəal iştirak etdiyinə görə" Fəxri Fərmanla təltif olunub.



Həsənov Qoşqar Rövşən oğlu Əsgər

2000-ci il aprelin 1-də Daşkəsən rayonunun Çıraqlı kəndində anadan olub. 2019-cu ildə Gəncə şəhər Mikayıl Müşfiq adına 14 nömrəli tam orta məktəbi bitirib. Elə həmin il iyulun 22-də SHXÇ-DX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Harami düzündə N saylı hərbi hissədə atıcı, qumbaraatan vəzifəsində xidmət edib.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Füzuli, Qubadlı və Şuşa istiqamətində gedən döyüş əməliyyatlarında iştirak edib.

Qoşqarın danışdıqlarından:

"Sentyabrın 27-si döyüş başladı və biz Füzuli istiqamətində düşmənə hücuma keçdik. Füzulidə ağır döyüşlər gedən zaman mən tankın içində döyüş yoldaşlarımla düşmən tərəfə irəliləyərkən, tankımızı vurdular. Mən sağ qolumdan 6 qəlpə yarası aldım. Döyüş yoldaşlarımdan mənə yaxın olan dostlarım şəhid oldu deyə, mən hospitala getməkdən imtina etdim və yaralı-yaralı döyüşə davam etdim. Dırnaqtutanla qolumun içindən 4 ədəd qəlpə çıxartdım, amma 2-si qaldı. Yenə də döyüşə davam etmək qərarına gəldim. Şuşanın Daşaltı kəndinə kimi döyüş-

düm, təəssüf ki, Daşaltıda erməni əsgərlərinin AQS-17 silahından atdığı mərminin 2-si qabağıma düşdü və bədənimin müxtəlif nahiyələrindən 49 qəlpə yarası aldım. Düşən mərminin təzyiqi məni səngərdən çölə tulladı, erməni snayperi 2 ədəd də güllə vurdu. Sanki şəhid olduğumu hiss edirdim. Bu zaman əsgər yoldaşlarımdan və müddətdən artıq xidmət edən hərbçilərimizdən kömək üçün gələn bir neçə nəfər mənə yaxınlaşdı. Bir saat ərzində məni neytral ərazidən çıxardılar və tibbi yardım maşınına yerləşdirdilər. Mən tibbi yardım maşınına minərkən yanımda yanmış bir şəhidimiz də var idi. Sonra həkim mənə güclü ağrıkəsici vurdu. Gözümü açanda Füzulinin Əhmədbəyli Hospitalında idim. Orada qanaxmanı kəsdikdən sonra məni helikopterlə Bakıya "Yeni Klinika"ya apardılar və orda 6 dəfə əməliyyat olunduqdan sonra, məni Papaninə göndərdilər. Orada bir dəfə əməliyyat olundum, sonra evə göndərdilər".

Təltifləri:

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 25.12.2020.

"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.

"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2716. 24.06.2021.

"Cəsur döyüşçü" medalı. Sərəncam № 2724. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Həsənov Sərxan Elxan oğlu Əsgər

1996-cı ildə Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olub. 2001-ci ildə Gəncə şəhərinə köçüblər. 2013-cü ildə Gəncə şəhər Şah İsmayıl Xətai adına 13 saylı tam orta məktəbi bitirib. Elə həmin ilin oktyabrında hərbi xidmətə çağırılıb, N saylı hərbi hissədə qumbaraatan vəzifəsində xidmət edib. 2016-cı il aprelin 20-də hərbi xidməti başa vurub, ordu sıralarından tərxis olunub.

Vətən müharibəsi başlayanda səfərbərliklə müharibəyə çağırılıb, sentyabrın 29-dan N saylı hərbi hissənin 1-ci tabor, 1-ci bölüyündə qumbaraatan vəzifəsində döyüşə hazırlıq təlimlərində olub. Oktyabrın 25-i Füzuli rayonuna aparıblar. Noyabrın 5-i Şuşa istiqamətində, sonra isə Xankəndi istiqamətində gedən döyüşlərdə iştirak edib. Noyabrın 8-də Xankəndi istiqamətində gedən döyüşdə yaralanıb, onu düşürüblər Daşaltına. Orada ilkin tibbi yardım göstərdikdən sonra göndəriblər Füzuli Rayon Hospitalına. Oradan noyabrın 10-da göndəriblər Gəncə şəhər Abbas Səhhət adına xəstəxanaya. Müalicəsi qurtardıqdan sonra Qubadlı rayonuna göndərilib. 2020-ci il dekabrın 12-də evə buraxılıb.

Təltifləri:
"Döyüşdə fərqlənməyə görə" medalı. Sərəncam № 2354. 18.12.2020.
"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2370. 29.12.2020.

Hüseynov Elcan Oruc oğlu Əsgər



1999-cu il oktyabrın 21-də Daşkəsən rayonunun Bayan kəndində anadan olub. 2016-cı ildə Mikayıl Mustafayev adına Bayan kənd tam orta məktəbini bitirib. Elə həmin ildə Azərbaycan Neft və Sənaye Universitetinə daxil olub, 2020-ci ildə bitirib. 2020-ci il iyulun 4-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən hərbi xidmətə çağırılıb. Əvvəlcə Ağcabədi rayonunda N saylı hərbi hissədə, andiçmədən sonra isə Beyləqan rayon N saylı hərbi hissədə kəşfiyyat taborunda xidmət edib.

Vətən müharibəsində xidmət etdiyi hərbi hissənin tərkibində Füzuli, Cəbrayıl, Qubadlı rayonları uğrunda gedən döyüşlərdə iştirak edib. Qələbə qazandıqdan sonra xidmətinə Xocavənd rayonunun Ağoğlan (Hadrut) qəsəbəsində davam edib. 2021-ci il iyulun 1-də ordu sıralarından tərxis olunub.

Təltifləri:
"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 25.12.2020.
"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.
"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Hüseynov Qənbər
Polad oğlu
Əsgər

1988-ci il dekabrın 4-də Daşkəsən rayonunun Əhmədli kəndində anadan olub. 2004-cü ildə Əhmədli kənd Rövşən Qurbanov adına tam orta məktəbi bitirib. 2006-cı il aprelin 20-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Füzuli rayon N saylı hərbi hissədə kiçik çavuş və çavuş vəzifələrində xidmət edib, 2007-ci il oktyabrın 1-də tərxis olunub.

2016-cı ildə Aprel döyüşləri başlayanda komissarlıqdan onu Tovuz rayonuna təlimə aparıblar, bir neçə gün sonra tərxis ediblər.

Tovuz hadisələri başlayanda könüllü olaraq komissarlığa müraciət edib, qeydiyyatdan keçib. Vətən müharibəsində Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Qənbərin danışdıqlarından:

"2020-ci il sentyabrın 21-də müharibəyə çağırıldım. Məni Gəncə N saylı hərbi hissəyə apardılar, 4 gün təlimdə oldum, ordan Daşkəsən N saylı hərbi hissəyə diviziyona göndərildim. Sentyabrın 27-də saat 14 radələrində Murovdağ – Kəlbəcər istiqamətində gedən döyüşlərdə top (D30) atıcısı vəzifəsində döyüşlərə qatıldım. Kəlbəcər təhvil verilənədək olduğumuz mövqedə qalmışıq. Komandir hansı koordinatı versə oraya atəş açır, hədəfi vururduq. İstifadə etdiyim topun atış məsafəsi 18 km idi. Kəlbəcərin alınması xəbərinin sevincini də elə olduğumuz mövqedə yaşamışıq. Müharibə bitdikdən sonra bir müddət müdafiə və bərkitmə işlərində qaldım, dekabrın 27-də tərxis olundum".

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



İbrahimov Mahir
Alim oğlu
Əsgər

1999-cu il fevralın 15-də Daşkəsən rayonunun Daşkəsən qəsəbəsində anadan olub. 2014-cü ildə Daşkəsən qəsəbə 43saylı tam orta məktəbin 9-cu sinfini bitirib. 2017-ci il aprelin 3-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. İlk 3 ayı Ağcabədi N saylı hərbi hissədə, sonra isə Füzulidə N saylı hərbi hissədə qumbaraatan köməkçisi vəzifəsində xidmət edib. 2018-ci il oktyabrın 10-da tərxis olunub.

Vətən müharibəsi başlayandan Murovdağ - Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Mahirin danışdıqlarından:

"Sentyabrın 21-i gecə saat 2-nin yarısında səfərbərliklə müharibəyə çağırıldım. Sentyabrın 26-dək Gəncə N saylı hərbi hissədə təlimdə oldum. 26-da Gəncə N saylı hərbi hissədən Göygöl rayon N saylı hərbi hissənin minaatan batareyasına göndərildim.

Sentyabrın 27-də müharibə başladı, Murovdağ – Kəlbəcər istiqamətində gedən döyüşlərdə minaatan ağır artilleriyada döyüşürdüm. Ömər postu ilə üzbəüz idik. Çox sağ olsunlar, mülki vətəndaşlarımız bizə hər bir cəhətdən

kömək, dəstək oldular. Noyabrın 10-da müharibə dayandı, amma biz bir müddət daha minaatan batareyada olduq, sonra Göygöl rayon N saylı hərbi hissəyə getdik, orada 2021-ci il yanvarın 14-dək qaldıq, sonra bizi tərxis etdilər".

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Isayev Samir Tapdıq oğlu
Əsgər



1999-cu il fevralın 14-də Daşkəsən rayonunun Kobalt qəsəbəsində (Daşkəsən qəsəbə) anadan olub. 2016-cı ildə Daşkəsən qəsəbə tam orta məktəbini bitirib. 2017-ci il aprelin 6-da həqiqi hərbi xidmətə çağırılıb, Ağcabədi və Beyləqan N saylı hərbi hissələrdə baş sürücü kimi xidmət edib. 2018-ci ilin oktyabrında ordu sıralarından tərxis olunub.

Vətən müharibəsində Cəbrayıl, Qubadlı və Laçın istiqamətlərində gedən döyüş əməliyyatlarında iştirak edib.

Samirin danışdıqlarından:

"2020-ci il sentyabrın 29-da səfərbərliklə müharibəyə çağırıldım, sentyabrın 30-da Gəncə N saylı hərbi hissəyə aparıldıq, oktyabrın 13-dək təlimdə olduq. Oktyabrın 13-də Cəbrayıl istiqamətində gedən döyüşlərə sürücü kimi qatıldım, amma avtomobil nasaz olduğu üçün piyada bölüyünün tərkibində döyüşdüm. Sonra Qubadlı istiqamətinə keçdik. Qubadlıya qədər günlərlə həm piyada, həm də maşınla yol getmişik. 3-5 km piyada yol gedirdik, elə olurdu ki, ermənilər yolu vururdular, yola davam etmək, irəli getmək mümkün olmurdu. Dərələrdə, yamaclarda gizlənib gözləyirdik ki, qaranlıq düşsün, yola davam edək. Çox vaxt yağışlı, dumanlı, çiskinli havada yol gedirdik. Elə vaxt olurdu ki, yol vurulduğu üçün günlərlə ac qalırdıq, təminat gəlib çatmırdı. Bəzən gecə yatırdıq, səhərə yaxın qalxıb ağacların altına plas çadır tutub ağacı silkələyirdik ki, şeh tökülsün, onu yığıb içirdik. Elə vaxtlarımız olub ki, dərələrdə gizlənib, yağışın altında yatmışıq.

Biz Cəbrayılın girişindən Qubadlı və Laçınadək döyüşdük. Laçın uğrunda gedən döyüşlər zamanı 3 gün mühasirədə qaldıq, sonra kömək gəldi, bölüyümüz mühasirədən çıxdı. Oktyabrın 28-də Laçının azad edilməsi uğrunda gedən döyüşlərdə yaxınlığımda minamyot mərmisi partladı, ayağımdan qəlpə yaraları, mərminin partlayış dalğasından isə kəllə-beyin zədəsi aldım, eşitmə və danışma qabiliyyətimi itirmişdim. Məni Füzuli rayonunun Əhmədbəyli Hospitalına gətiriblər, ilkin tibbi yardım ediblər, bir gün sonra Bakıya Papaninə göndəriblər, oradakı müdaxilədən sonra özümə gəlib, ayılmışam. 14-15 gün orada müalicə aldıqdan sonra, xidmət etdiyim hərbi hissənin həkimləri məni Gəncə N saylı hərbi hissənin tibb

məntəqəsinə gətiriblər, 10-15 gün həmin məntəqədə müalicə aldıqdan sonra, komandirlərim tərəfindən Şəmkir rayon Seyfəli poliqonuna gətirildim. Dekabrın 13-də tərxis olundum".

Təltifləri:

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.

"Laçının azad olunmasına görə" medalı. Sərəncam № 2373. 29.12.2020.

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

İsgəndərli Xaliq
Cəlil oğlu
Əsgər



2001-ci il iyulun 4-də Daşkəsən rayonunun Bayan kəndində anadan olub. 2018-ci ildə Bayan kənd Mikayıl Mustafayev adına tam orta məktəbi bitirib. 2019-cu il iyulun 22-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə

çağırılıb, Beyləqan rayon N saylı hərbi hissədə qumbaraatan vəzifəsində xidmət edib. 2020-ci il aprelin 1-də ordu sıralarından tərxis olunub.

Vətən müharibəsi başlayandan Füzuli, Cəbrayıl, Xocavənd, Şuşa istiqamətində gedən döyüşlərdə iştirak edib.

Xaliqin danışdıqlarından:

"Sentyabrın 27-si idi, Lələtəpə yüksəkliyinin yanında yerləşən Vilayət postunun sağ tərəfi ilə BTR döyüş maşınları ilə döyüşə girdik. Cəbrayılın Nüzgar kəndinə qədər bütün mövqeləri işğaldan azad etdikdən sonra, Nüzgar kəndində düşmənin pusqusuna düşdük. Orada döyüş maşınlarımız vuruldu, çox sayda döyüş yoldaşlarım şəhid oldu və yaralandı. Bölüyün zabit, gizir, maxe heyəti və 12 əsgərdən təkcə mən sağ qalmışdıq. Həmin gün ayağımdan yaralandım, amma döyüşə davam etdim. Yaralı dostlarıma kömək edib döyüş bölgəsindən təhlükəsiz yerə çıxardıqdan sonra, neytral ərazidə qalan şəhidlərimizin yerlərinin tapılması və çıxarılması üçün yerlərini zabitlərə vermişdik, onları da təxliyyə çıxarmışdı.

Döyüşün axşamı idi, erməni dronları gəlib ərazimizi çəkdilər və sabahısı oranı minamyot atəşinə tutdular. Vilayət postunda briqadamızın silah-sursatı varıydı, oranı partlatdılar, post yandı. Partlayış 6 saat davam etdi, dodun içində qalmışdıq, digər yoldaşlarımız da səngərdə idilər. Şükür Allaha ki, partlayış nəticəsində şəhid və yaralımız olmadı. Digər döyüş yoldaşlarımız da dəstə-dəstə mühasirədə qalmışdılar.

Biz zabit heyəti ilə birlikdə 5 nəfərdən ibarət könüllü qrup yaratmışdıq, mən də o qrupun içində tək əsgər idim, mühasirədə qalmışdıq və heç bir təminatımız yox idi. 7

gün ərzində əlimizdən heç nə gəlmirdi, yolları vururdular. Məcbur hər şeyi gözə alıb, o vurulan yol ilə arxaya qayıdır, sursat, su və əlimizə keçən yeməklərdən gətirirdik. Yaralılarımız çox idi, onların çıxarılmasında da biz 5 nəfər könüllü fəal iştirak etdik. 7 gün mühasirədən sonra komandirimiz Cəfərli Həmid Kərim oğlu Nüzgar təpəsinə bayrağımızı sancdı və irəliləməyə davam etdik. Sonra XTQ əsgərləri gəldi və biz Füzuli istiqamətində döyüşlərə başladıq.

Axşam çox güclü yağış yağırdı, hava da çox soyuq idi, üstümüzdə yağmurluq belə yox idi, çox üşüyürdük, amma çətin günlərə dözürdük. Qumbaraatan olduğum üçün bölük komandirim yüksəkliyin ən qabaq yerinə məni qoymuşdu, yanımda da pulemyotçu dururdu, o yağışda gecə növbəsi aparırdıq. Gecə soyuq, yağışlı və dözülməz idi. Sabah açıldı, hər şeyimiz su olmuşdu, amma irəliləməli idik, təminat gəlmirdi, yollar bağlıydı. Oktyabrın 5-i idi, Horadiz kəndi istiqamətinə irəliləməyə başladıq. Tapşırıqlar verildi, qruplar şəklində bölündük. Biz 2-ci qrup idik, 1-ci qrup girdikdən sonra, biz hazırlaşırdıq girməyə, həmin anda yanımıza mərmi düşdü, komandirimiz kapitan Cəfərli Həmid şəhid oldu. Yüksək rütbəli zabit heyəti, gizir, çavuş və əsgər heyəti yaralandı, mən də 2-ci dəfə həmin ayağımdan yaralandım, bu dəfə irəliləyə bilmədim. Rabitəmiz yox idi, heç kimin də telefonunda enerji ehtiyatı yox idi. Şəhid olan komandirimizin telefonunda enerji ehtiyatı varıydı, ancaq kodu barmaq iziyləydi. Şəhid olanda əlləri isti qalmışdı, barmağını telefona tutduq, açıldı. Taborumuzun qərargah rəisinə zəng etdik və dəstək istədik,

kapitan Cəfərli Həmidin şəhid olduğunu eşidəndə o da hər kəs kimi çox üzüldü. Saatlar keçdi, biz o döyüş bölgəsindən çıxdıq, bizi arxaya xəstəxanaya gətirdilər. Füzuli, Şirvan və Qəbələdə xəstəxanada bir həftə müalicə aldım. Yenidən döyüş bölgəsinə qayıtmaq istəyirdim. Şəhid əmim Xaliq İsgəndərovun adını daşıyıram və qisasını tam almamışdım, oktyabrın 13-də qisasımı almaq üçün təkrar döyüş bölgəsinə qayıtdım. Mən qayıdanda Hadrut işğaldan azad olmuşdu, Tuğ kəndi uğrunda döyüşlər gedirdi. Həmin döyüşlərə, yenə öz bölüyümüzün yanına qayıtdım. Tuğ kəndi ətrafında da qızğın döyüşlər getdi, şükür Allahın böyüklüyünə ki, Tuğ kəndi də işğaldan azad olundu. Bir neçə gün oranın mühafizəsini təşkil etdikdən sonra bizi arxaya qaytardılar. Başa düşürdük ki, yenə başqa bir əraziyə döyüşə yollanırıq. Hadruta düşdük, bir gecə orada qaldıqdan sonra briqada komandirimiz gəldi və yeni döyüş tapşırığı verildi. Budəfəki istiqamət Şuşa idi, çox qürurlandırıcıydı. Hər bir əsgər ora getmək istəyirdi, bu da bizə qismət olmuşdu. Yollandıq Topxana meşəsinə və oranın mühafizəsini təşkil etdik. Oktyabrın 29-u bizi yenidən arxaya dincəlməyə düşürdülər, gecəni kənddə keçirdik, 30-u yeni döyüş əmrimiz gəldi. Bu dəfə mühafizə yox, Şuşakənd uğrunda üzbəüz döyüşə girəcəkdik. Hər kəs silah-sursatını topladı. Oktyabrın 30-u tabor şəklində KamAz-larla yola düşdük. KamAz-ımız yolda dayandı və irəli getmədi, şəxsi heyətin yarısı Topxana meşəsində qalmışdıq. Bizə iriçaplı silahlardan atəş açırdılar, minamyotlar çox yaxınımıza düşürdü, bu da bizə pis təsir edirdi, başımız çox ağrıyırdı. Hər kəs bir tərəfdən söz

deyir, fikrini bildirirdi, başımızda komandirimiz yox idi, nə edəcəyimizi bilmirdik. Döyüş yoldaşıma dedim ki, gəl bir az təhlükəsiz yerə çəkilək, sabah yenə qayıdıb bölüyü taparıq. Geri çəkildik, arxada başqa bir bölmə ilə qaldıq. Noyabrın 1-i sabah açıldı və əsgər yoldaşımla mən yenidən irəlilədik, saatlarla yol getdik, axşam saat 6-da bölüyümüzü tapdıq. Onlar da döyüşə girməyə hazırlaşırdılar, havanın qaralmağını gözləyirdilər. Saat 8-in yarısı idi, biz döyüş əməliyyatına başladıq. Yanmış meşəni keçdikdən sonra Şuşakənd istiqamətinə çatdıq. Yüküm çox ağır idi, qumbaraatan və mərmiləri çiynimdə idi, əlimdə də avtomat varıydı, çox yorulmuşdum, amma az qaldığını hiss edirdim. İçimdə qəribə bir hiss var idi, döyüş yoldaşıma dedim ki, əgər mənə nəsə olsa, telefonumda "yes"də atamın nömrəsi var, zəng edərsən ki, oğlun qorxmadı və əmisinin qisasını aldı. Sanki ürəyimə dammışdı ki, mənə nəsə olacaq, amma yenə də can-başla irəlilədim. Şuşakənd yüksəkliyinin yanına çatanda, bizi AQS tipli ağır silahlardan atəşə tutdular, hər yer partlayırdı, dayanmadan atırdılar. Döyüş yoldaşlarımın qışqırtı səslərini eşidəndə, sanki ayıldım və özümə mövqe seçmək istədim ki, mən də yaralanmayım. Balaca bir daş varıydı, onun arxasına doğru qaçmağa başladım, daşa çatırdım ki, elə bil məni nə isə itələdi və daşın altına düşdüm, saniyə çəkmədi ki, ayaqlarıma istilik gəldiyini gördüm. Gecəydi, partlayışın işıqlarında gördüm ki, forma və batinkalarım cırıq-cırıqdı, özümü itirməməyə çalışdım. Xeyli sayda yaralımız vardı, onları təhlükəsiz yerə aparmağa çalışırdılar. Döyüş yoldaşlarım mənə səsləndilər ki, aşağıdakı səngərə düş, mən də ayaq-

larımı hiss etmədiyimi, ayaqlarımın olmadığını dedim. Elə bilmişdim ki, ayağımı mərmi aparıb, heç nə hiss etmirdim. Bir az orada gözlədim, silahımı yanımda sxladım ki, yanıma düşmən gələrsə, bacardığım qədər atəş açım, sonra da qalan gülləylə özümü vurum ki, əsir düşməyim. Düşmənlə aramız çox yaxın idi, səslərini eşitmək olurdu. Yoldaşlarım yanıma gəldilər, məni sürüyərək aşağı, dərənin yanındakı səngərə gətirdilər. Yaralıları gördüm, çox yaralımız vardı. Ayağımı bağladılar və bir saatdan bir açıb təkrar bağlamağımı dedilər. Yaralıların səsi sanki beynimin içindəydi, hər kəs ağrıyırdı. Mən də çox ağrıyırdım, çox ağır yaralanmışdım, ayaqlarım üşüyürdü. Bu anda şəhid kapitan Hüseynov Ülvi gəldi, bir əsgəri kimi məni çox istəyirdi, mənə dedi ki, İsgəndərli, sən də yaralanıbsan? Dedim ki, hə, komandir, ayağım yoxdu. Dedi ki, narahat olma, ayağın yerindədi, çıxacağıq burdan.

Müxtəlif silahlardan bizi atəşə tuturdular, çoxlu qan itirirdim və ordan sağ çıxacağımıza inanmırdım. Döyüş yoldaşıma dedim ki, qaqa, dözəmmirəm, can çəkirəm, məni vur. O da mənə elə bir şey olmayacağını, burdan sağ çıxacağımızı dedi. Ürəyim su istəyirdi, ancaq qan durulmasın deyə vermirdilər. Döyüş yoldaşım gecə səhərəcən mənimlə söhbət etdi, təsəlli verdi. 9 saat neytralda qaldıqdan sonra, səhərə yaxın saat 5-də təxliyyə gəldi və çox çətinliklə bizi oradan çıxarıb, arxaya tibb məntəqəsi kimi bir yerə gətirdilər. Zabit həkim gəldi, mənə dedi ki, yaxşısan, qorxma, ürəyin nə istəyir edək. Mən ancaq su istədiyimi dedim. O da sanitara dedi ki, əsgərə su verin, doyunca içsin, mən də doyunca içdim, sanki həyata gəldim.

Amma irəlidə atışma səslərini eşidirdim. Yaralılar çox idi, bizi KamAz-a mindirdilər və Hadruta ilkin tibbi yardım məntəqəsinə gətirdilər. Hələ də elə bilirdim ki, yuxu görürəm, həkimə sual verdim ki, ayağımı kəsəcəksiniz? Dedi ki, narahat olma, sağalacaqsan. Mən isə elə fikirləşirdim ki, bir də ayağım olmayacaq. Sonra məni Füzuli Mərkəzi Xəstəxanasına gətirdilər. Bütün hər şeyim, döyüş çantam da yanmışdı, heç nəyim yox idi. Bir əsgərdən telefon aldım, atama zəng vurdum ki, yenə yaralanmışam. Bu 3-cü yaralanmağım idi. Atam soruşdu ki, vəziyyət necədi? Əvvəlkilərdən çox pis olduğunu dedim. Sonra yanıma gəldilər və məni Ağcabədiyə gətirdilər, oradan da Şəmkirə. Bir ay ərzində 4 dəfə əməliyyat olundum. Silahlı Qüvvələrin Baş Klinik Hospitalında müalicə aldıqdan sonra, avqustun 15-i qazilik statusum verildi və ordu sıralarından ehtiyata buraxıldım".

Təltifləri:

"Cəsur döyüşçü" medalı. Sərəncam № 2353. 18.12.2020.

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 25.12.2020.

"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2712. 24.06.2021.

"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2716. 24.06.2021.



Kazımov Elgün
Köhlən oğlu
Əsgər

2001-ci il aprelin 3-də Daşkəsən rayonunun Bayan kəndində anadan olub. 2018-ci ildə Şəmkir rayon Nəsib Nəsirov adına Ələsgərli kənd tam orta məktəbini bitirib. 2019-cu ilin aprel ayında SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb, Yaşmada N saylı hərbi hissədə müşahidəçi vəzifəsində xidmət edib.

Vətən müharibəsi başlayan ilk gündən noyabrın 10-dək xidmət etdiyi hərbi hissənin tərkibində Füzuli, Qubadlı və Xocavənd istiqamətində gedən döyüş əməliyyatlarında atıcı-sanitar, eləcə də snayper kimi iştirak edib.

Elgünün danışdıqlarından:

"Füzuli istiqamətində gedən döyüşlər zamanı piyada əleyhinə raketlə vuruldum, qolumdan və ayağımdan qəlpə yaraları aldım. Məni Füzulinin Əhmədbəyli Hospitalına təxliyyə etdilər. Orada bir müddət müalicə olunduqdan sonra, yenidən döyüş bölgəsinə qayıtdım və döyüşlərə davam etdim. Xocavənd istiqamətində gedən döyüşlər zamanı top atəşi nəticəsində döş qəfəsimdən sağtərəfli qəlpə yarası aldım. Məni Ağcabədi Rayon Mərkəzi Xəstəxanasına təxliyyə etdilər. Bir müddət orada müalicə olunduq-

dan sonra təkrar qayıtdım Qubadlıya öz hərbi hissəmə və xidmətimə davam etdim. 2021-ci ilin yanvar ayında ordu sıralarından tərxis olundum. Hal-hazırda qəlpə ürəyimin alt hissəsində qalıb".

Təltifləri:
"Cəsur döyüşçü" medalı. Sərəncam № 2353. 18.12.2020.
"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 25.12.2020.
"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2364. 25.12.2020.

Qasımov Rəşad Feyruz oğlu Əsgər



1988-ci il avqustun 4-də Daşkəsən rayonunun Qabaqtəpə kəndində anadan olub. 2004-cü ildə Qabaqtəpə kənd tam orta məktəbini bitirib. 2006-cı ildə Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Füzuli N saylı hərbi hissədə snayper olaraq xidmət edib, 2008-ci ildə ordu sıralarından tərxis olunub. Ailəlidir, iki övladı var.

2014-cü ildə MAHHXHQ kimi Daşkəsən rayon N saylı hərbi hissəyə snayper vəzifəsinə işə girib.

27.10.2014-cü il tarixdən 21.12.2014-cü il tarixinədək N

saylı hərbi hissədə "Snayper" ixtisası üzrə tam kursu keçib və ilk hərbi ixtisası üzrə 3-cü dərəcə alıb. 2015-ci ildə öz ərizəsi ilə işdən azad olunub, ehtiyata buraxılıb.

Vətən müharibəsində Füzuli, Cəbrayıl, Qubadlı, Laçın istiqamətində gedən döyüşlərdə snayper kimi iştirak edib.

Rəşadın danışdıqlarından:

"Mən sentyabrın 29-da könüllü olaraq snayper vəzifəsində müharibəyə getmişəm. İlk olaraq Füzuli istiqamətində döyüşlərə qatıldım, böyük coşqu və fəxrlə irəliləyirdik. Snayper olduğum üçün mənə əmr verilmişdi ki, düşmənin canlı qüvvələrini, komandirlərini, texnikalarını və rabitəsini məhv edim. Mən bacardığım qədər düşmənin canlı qüvvələrini və texnikalarını sıradan çıxarırdım. Füzulini azad etdikdən sonra Zəngilanın, Cəbrayılın kəndlərini azad etdik, sonra Cəbrayıla çatdıq, buradakı döyüşlərdə şəhid və yaralılarımız oldu. Sonra 3 gün atəşkəs elan olundu. Düşmənin təxribatından sonra döyüşlərimiz davam etdi və mən 2 KamAz markalı yük maşınını sıradan çıxartdım, komandirlərini məhv etdim. Sonra Qubadlıya daxil olduq, bizi görən ermənilər silahlarını atıb qaçırdılar. Biz də o istiqamətdə döyüşə davam edirdik. Qubadlıda evlərə daxil olurduq ki, görək bizim əsirlərdən varmı. Bir evə daxil olanda gördük ki, 2 azyaşlı uşaq var, ermənilər qaçarkən onları evdə qoyub qaçmışdılar, biz onlara yemək və su verib arxaya göndərdik.

Biz döyüşə-döyüşə irəliləyir və Laçının kəndlərini azad edirdik. Laçın istiqamətində gedən döyüşdə yaxınlığımda partlayan minamyot mərmisi nəticəsində sol ayağımdan yaralandım, yüngül kəllə-beyin travması aldım, amma yaralandığımı hiss etmirdim. Yaxınlığımda xeyli yaralı və şəhidlər var idi, mən yaralılara kömək edib, oradan çıxar-

dım. Xeyli sonra yaralandığımı hiss etdim. Bu vaxt yenə də yanıma ardıcıl iki mərmi düşdü, iki dəfə ardıcıl olaraq dalğası məni vurdu, kanala düşdüm və özümdən getdim. Demək olar ki, 3 dəfə mərmi partlayışının dalğasına düşmüşəm, sonra olanları bilməmişəm. Məni Füzuli Hospitalına gətiriblər, ilkin tibbi yardım ediblər, sonra oradan Zərdaba aparıblar, orada da qəlpələri çıxara bilməyiblər. Oradan Göyçay Mərkəzi Xəstəxanasına göndəriblər, komada olmuşam, orada əməliyyat edib qəlpələri çıxarıblar, 4 gün sonra özümə gəlmişəm. Sinirə yaxın olduğuna görə bir neçə qəlpə ayağımda və başımda qalıb. Bir ay yarım orada müalicə olundum, oradan çıxandan sonra tərxis olundum, müalicələrimə evdə davam edirəm".

Azərbaycan Respublikası "Qarabağ Əlillərinə Qayğı" İctimai Birliyinin üzvüdür.

Təltifləri:

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

08.11.2021-ci il tarixində "Qarabağ Əlillərinə Qayğı" İB-nin Daşkəsən şöbəsinin sədri Nadir Məmmədov tərəfindən "Müzəffər Azərbaycan Ordusunun Vətən müharibəsində tarixi Qələbəsinin qazanılmasında göstərdiyi fədakarlığa görə" Fəxri Fərmanla təltif olunub.



Quliyev Arzuman Nizami oğlu Əsgər

1997-ci il sentyabrın 9-da Daşkəsən rayonunun Əmirvar kəndində anadan olub. 2015-ci ildə Əmirvar kənd tam orta məktəbini bitirib. 2015-ci il mayın 31-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, oktyabrın 5-də hərbi xidmətə gedib, Qusar N saylı hərbi hissədə əvvəl snayper, sonra tank əleyhinə bölükdə baş tuşlayıcı vəzifəsində xidmət edib. 2016-cı ildə xidmət etdiyi hərbi hissənin tərkibində Aprel döyüşlərində iştirak edib. 2017-ci il aprelin 7-də ordu sıralarından tərxis olunub. Göygöl rayonlararası mühafizə bölməsində işləyib.

Vətən müharibəsində Füzuli, Cəbrayıl, Qubadlı istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

Arzumanın danışdıqlarından:

"Vətən müharibəsi başlayanda Daşkəsənə gəldim, könüllü olaraq qeydiyyatdan keçdim. Sentyabrın 21-də səfərbərliklə müharibəyə çağırıldım, elə həmin gün Gəncə şəhər N saylı hərbi hissəyə göndərildim. Orada 5 gün təlimlərdə oldum. Sentyabrın 27-də həyəcan siqnalı ilə silah, təminat və s. götürüb, Füzuli istiqamətində döyüşlərə qatıldım. İşğal altında olan torpaqlarımızın azadlığı uğ-

runda göz qırpmadan, igidcəsinə, cəsurluqla döyüşdüm. Canımdan, qanımdan, hətta ailəmdən belə keçərək Vətənimin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etdim.

Oktyabrın 26-da Qubadlı istiqamətində gedən döyüşlərdə soyuq qəlpə yarası aldım. Məni Bakıya 1 saylı Şəhər Kliniki Xəstəxanasına (Semaşko) göndərdilər. Orada 36 gün müalicə olundum, sonra ordu sıralarından tərxis olundum. Hazırda Bərdə rayonunda çoban işləyirəm".

Təltifləri:

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

Quliyev Elmir Arzu oğlu
Əsgər



2001-ci il aprelin 18-də Daşkəsən rayonunun Bayan kəndində anadan olub. 2019-cu ildə Bayan kənd Mikayıl Mustafayev adına tam orta məktəbi bitirib. 2019-cu il iyulun 30-da SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, N saylı hərbi hissədə atıcı vəzifəsində xidmət edib.

Vətən müharibəsi başlayandan xidmət etdiyi hərbi hissənin tərkibində Füzuli, Cəbrayıl, Xocavənd, Hadrut, Şuşa istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

Elmirin danışdıqlarından:

"Füzuli istiqamətindən döyüşə başladıq, sonra Cəbrayıl istiqamətinə keçdik. Oktyabrın 2-də Cəbrayıl istiqamətində gedən döyüşlər zamanı düşmən tərəfindən atılan odlu silah nəticəsində sağ qolumdan güllə yarası almışam. 10 gün Füzuli, Salyan, Göygöl xəstəxanalarında tibbi yardım və müalicə aldım. Oradan Gəncə Hospitalına təxliyyə olundum, yoxlanışlardan keçdikdən sonra briqadanın özünə qayıtmışam. Hadrut, Xocavənd, Şuşa istiqamətlərində gedən döyüşlərdə iştirak etmişəm. Sonra Zəngilan rayonunun mühafizəsində olmuşuq. 2021-ci ilin iyulunda ordu sıralarından tərxis olunmuşam".

N saylı hərbi hissənin bölük komandiri baş leytenant Əbülfəz Babayevin Elmirə yazdığı xidməti xasiyyətnamədən:

"Əsgər Quliyev Elmir Arzu oğlu hərbi hissədə xidmət etdiyi müddət ərzində özünü işgüzar və savadlı bir hərbi qulluqçu kimi göstərmişdir. Tutduğu vəzifəni layiqincə yerinə yetirir. Təşkilatçılıq və çətin şəraitlərdə qərar qəbul etmək bacarığı yüksəkdir... Qanunları, Silahlı Qüvvələrin Nizamnamələrini və rəhbər sənədləri bilir və gündəlik xidmətində onlardan düzgün istifadə edir. Kollektiv arasında nüfuzu və hörməti yüksəkdir.

27.09.2020-ci il tarixdən 10.11.2020-ci ilədək işğal altında olan torpaqlarımızın azad olunmasında fəal iştirak etmişdir. 44 günlük Vətən müharibəsində şücaət və cə-

surluq göstərmişdir. Döyüşdə xüsusi fərqləndiyinə görə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı Cənab İlham Əliyevin sərəncamı ilə medallarla təltif olunmuşdur".

N saylı hərbi hissənin komandiri polkovnik Nizami Mövlanov tərəfindən "N saylı hərbi hissədə xidmət etdiyi müddət ərzində və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən Vətən müharibəsi zamanı üzərinə düşən vəzifələri layiqincə yerinə yetirdiyinə görə" Fəxri Fərmanla təltif olunub.

N saylı hərbi hissənin komandiri polkovnik Nizami Mövlanov tərəfindən 26.06.2020-ci il tarixində ailəsinə Təşəkkür Məktubu göndərilib.

Təltifləri:

"Cəsur döyüşçü" medalı. Sərəncam № 2353. 18.12.2020

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 15.12 2020.

"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2364. 25.12.2020.

"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2370. 29.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Quluyev Mahal Arif oğlu
Əsgər

2001-ci il martın 30-da Daşkəsən rayonunun Təzəkənd kəndində anadan olub. 2005-ci ildən, 5 yaşından 18 yaşınadək Gəncə SOS uşaq evində böyüyüb. 2016-cı ildə Gəncə şəhər 6 saylı tam orta məktəbin 9-cu sinfini bitirib, Gəncə şəhər 3 saylı Peşə liseyinin Dərzi Dizayn fakültəsinə daxil olub, 2019-cu ildə liseyi bitirib. 2019-cu il iyulun 24-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Bakı şəhər N saylı hərbi hissədə atıcı, qumbaraatan köməkçisi vəzifəsində xidmət edib.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində döyüşlərdə iştirak edib.

Mahalın danışdıqlarından:

"Xidmət etdiyim N saylı əməliyyat taboru ilə Füzuli istiqamətindən döyüşə girdik. Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişəm. Noyabrın 3-də Xocavənd rayonundakı erməni hərbi hissəsinə 43 nəfərlə hücum etdik. Hərbi hissənin içində güclü partlayış oldu, xeyli yaralımız vardı, mən də sol ayağımdan 3 qəlpə yarası aldım. Məni Xocavənd rayon Mərkəzi Xəstəxanasına təxliyyə etdilər, burada əməliyyat olundum, ayağımdakı qəlpələri çıxardılar. 9 gün

müalicə olunduqdan sonra, noyabrın 12-də hərbi hissəyə qayıtdım. Müharibə qurtarandan sonra Laçın-Kəlbəcər rayon birləşməsində erməni ilə üz-üzə müddətdən artıq 6 ay xidmət etdim. 2021-ci il iyulun 18-də ordu sıralarından tərxis olundum".

Təltifləri:
"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.
"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 15.12.2020.
"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2712. 24.06.2021.

Quliyev Rauf Surxay oğlu Əsgər



1990-cı il noyabrın 1-də Daşkəsən rayonunun Şahvələdli kəndində anadan olub. Şahvələdli kənd tam orta məktəbində 9 illik təhsil alıb. 2009-cu ilin yanvarında Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, əvvəlcə Füzuli rayon N saylı hərbi hissədə, sonra isə Ağcabədi N saylı hərbi hissədə heyətdə baş atıcı əsgər vəzifəsində xidmət edib. 2010-cu ilin iyulunda ordu sıralarından tərxis olunub. Müxtəlif

işlərdə işləyib.

Vətən müharibəsi başlayanda səfərbərliklə müharibəyə çağırılıb.

Raufun danışdıqlarından:

"Sentyabrın 21-də bizi Cəncə N saylı hərbi hissəyə apardılar, bir gün sonra bölünərək hərbi avtobusla Tovuz rayon N saylı hərbi hissəyə göndərildik. Tovuzda qazılmış torpaq ərazidə özümüzə çadır quraraq, post şəraiti yaratdıq və sentyabrın 27-dək gözlədik. Sentyabrın 27-də əmr gəldi, bölündük. Biz bir manqa Tovuzun Əsrik Cırdaxan adlanan sərhəd kəndinə getdik. Mən heyət üzrə atıcı idim. Durduğumuz mövqedə 1-ci Qarabağ müharibəsindən qalan köhnə sığınacaq – blindaj vardı, oranı təmir edib yararlı hala gətirdik və onun içində qaldıq. Orada təminat məsələsi çətin idi, hər gün iki nəfər posta gedib ərzaq gətirirdik, o da çox az olurdu, heç kimə çatmırdı. Bizə demək olar ki, təminat gəlmirdi, bizə ərzağı kənd camaatı gətirirdi. Su çox uzaqda idi, kənd camaatının bizə verdiyi ulaqla suyu kənddən daşıyırdıq.

Mayor Eminov var idi, bir müddət orada bizimlə suyun, palçığın içində qaldı. Sonra oraya bir KamAz xır tökdürdü və su çəni gətirtdi.

Bir gün əsgər yoldaşım Samirlə postdan ərzaq gətirməyə getmişdik. Kazarmada komandirdən icazə istədik ki, ailəmizlə danışaq. Mən post tərəfə gedirdim, Samir isə kazarma tərəfdə idi. Komandir dedi ki, çox uzağa getmə, vurarlar. Mən 5-6 metr kazarmadan aralanmışdım ki, post tərəfdə partlayış oldu. Mən partlayışın səsindən və dalğasından şoka düşmüşdüm, orda olanlardan xəbərim olmayıb. Mən ayılanda postun əsgərləri və komandir yanımda

idi. O partlayışdan sonra başımda güclü ağrılar olurdu. Samirin də vəziyyəti yaxşı deyildi. Buna baxmayaraq xidmətə davam edirdik. Ermənilər tərəfdən iki dəfə atəş açmışdılar, mərmilər mənim çox yaxın məsafəmdən keçmişdi. Onların "Vışka" deyilən postundan bizim postları vura bilirdilər.

25 gün orada müdafiədə durduq. Sonra bizi göndərdilər Tovuzun Ermənistanla həmsərhəd Ağdam kəndinə. Orada Qızılqaya deyilən postda müharibə bitənədək müdafiədə durduq. Köhnə, dağılmış bir kazarma vardı, onun dağılan yerlərini təmir edib, tərxis qərarı çıxanadək orada qaldıq. Qərar çıxandan sonra bizim hər birimizə 1200 manat pul verdilər və tərxis olunduq. Tərxisdən sonra gəldim evə, Daşkəsən rayonunun Qıyıxlı kəndinə. Müharibədən əvvəl köçmüşdük o kəndə. Gələndən sonra bildim ki, bizim evə heç bir yardım və təminat verilməyib. Dağın başında yoldaşım və iki qızım köməksiz qalmışdılar. Çünki ailəmi mən gündəlik qazancımla saxlayırdım.

Evə gələndən sonra başımdakı ağrılar daha da artdı, sudurqalar keçirməyə başladım. Gəncədə Abbas Səhhət adına xəstəxananın reanimasiya şöbəsində 12 gün müalicə olundum. Sonra Gəncə şəhər Psixiatriya xəstəxanasında 4 dəfə müalicə götürdüm. Bir müddət sonra Bakıda Maştağa Psixiatriya Xəstəxanasında, sonra da Gəncədə Teymurov adına Xəstəxanada müalicə olunmuşam. Hələ də özümü yaxşı hiss etmirəm".

"Qarabağ Əlillərinə Qayğı" İctimai Birliyinin üzvüdür.



Quliyev Ruslan Surxay oğlu Əsgər

1987-ci ildə Daşkəsən rayonunun Şahvələdli kəndində anadan olub. Şahvələdli kənd tam orta məktəbində 9 illik təhsil alıb. 2005-ci ilin iyulunda Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 3 ay Beyləqanda N saylı hərbi hissədə, sonra isə Xocavənddə N saylı hərbi hissədə baş atıcı olaraq xidmət edib. 2007-ci ilin yanvarında ordu sıralarından tərxis olunub.

Vətən müharibəsində Füzuli, Cəbrayıl, Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak edib.

Ruslanın danışdıqlarından:

"2020-ci il oktyabrın 9-da səfərbərlikdən müharibəyə çağırıldım, Ağcabədi rayon N saylı hərbi hissəyə göndərildim, 6 gün orada təlimdə olduq. Oradan da Qusar rayon N saylı hərbi hissəyə göndərildim, orada bölündük. Mən Füzuli istiqamətində minamyotatan vəzifəsində döyüşlərə qatıldım. 82 nömrəli minbatda 27 nəfər idik. Füzulinin Sarıtəpə kəndi uğrunda gedən döyüşlərdə yaxınlıqda partlayan minamyot mərmisi nəticəsində hər iki ayağımdan və əlimdən qəlpə yaraları aldım. Yanımda əsgər yoldaşlarım şəhid olublar, 18 nəfər sağ qalmışıq. Məni huşsuz vəziyyətdə Bakıya Papanin Hospitalına təxliyyə ediblər.

Burada 12 gün müalicə olunduqdan sonra yenidən döyüş bölgəsinə qayıdaraq Cəbrayıl istiqamətində döyüşlərə qatıldım. Noyabrın 8-də Xocavəndin Zoğalbulaq kəndi uğrunda gedən döyüşlərdə yenə də yaxınlıqda partlayan minamyot mərmisinin dalğasına düşdüm, kəllə-beyin barotravması aldım. Bir qulağımdan və burnumdan qan açılıb, bütün dişlərim tökülüb. Hazırda bir qulağım eşitmir. Həmin kənddə bir evdə yerləşən tibb məntəqəsində ilkin tibbi yardım aldım. Həmin günün axşamı isə qələbə xəbərini eşitdik. Oradan məni gətiriblər Qusar rayon N saylı hərbi hissəyə, oradan da tərxis olundum".

Təltifləri:
"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

Qurbanov Elşən
İsax oğlu
Sürücü



1967-ci il avqustun 12-də Daşkəsən rayonunun Alaxançallar kəndində anadan olub. 1984-cü ildə Alaxançallar kənd orta məktəbini bitirib. 1985-ci il oktyabrın 17-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Türkmənistanın paytaxtı Aşqabad

şəhərində hərbi xidmətə başlayıb, 6 aydan sonra 3 ay Türmənistanın Kuşka şəhərində, 3 ay Xabarovskın Vyazinski hərbi hissəsində və son bir ili Kamçatkanın Çapayevka hərbi hissəsində mexanik-sürücü vəzifəsində xidmət edib. Xidməti müddətində "Əlaçı" döş nişanı ilə təltif olunub. 1987-il noyabrın 24-də ordu sıralarından tərxis olunub.

Hal-hazırda Daşkəsən rayonunun Bayan kəndində yaşayır. Daşkəsən rayon Mərkəzi Xəstəxanasının Bayan həkim məntəqəsində təcili yardım sürücüsü vəzifəsində işləyir. Vətən müharibəsi dövründə 2020-ci il sentyabrın 27-dən noyabrın 6-dək Daşkəsən rayon Mərkəzi Xəstəxanasının Xoşbulaq N saylı hərbi hissəsinə göndərilib. Kəlbəcər istiqamətində gedən döyüşlər zamanı yaralıların və şəhidlərin təxliyyəsində, Füzuli Diaqnostika Mərkəzindən və Gəncə 3№-li Xəstəxanadan şəhidlərimizin gətirilməsində fəal iştirak edib.

Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin üzvüdür.

2021-ci ildə Azərbaycan Respublikası İcbari Tibbi Sığorta Üzrə Dövlət Agentliyi "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi"nin İdarə Heyətinin sədri vəzifəsini icra edən Vüqar Qurbanov tərəfindən "Vətən müharibəsi dövründə göstərdiyi xidmətlərə görə" Təşəkkürnamə ilə təltif olunub.

Qurbanov Elvin
Qurban oğlu
Əsgər



1999-cu il aprelin 17-də Daşkəsən şəhərində anadan olub. 2016-cı ildə Daşkəsən şəhər Anar Mürsəlov adına 2 saylı tam orta məktəbi bitirib. 2016 - 2020- ci illərdə Gəncə Dövlət Universitetinin İqtisadiyyat fakültəsində Menecment ixtisası üzrə təhsil alıb. 2020-2021-ci ildə Ağcabədi rayon N saylı hərbi hissədə sürücü vəzifəsində xidmət edib. Vətən müharibəsində xidmət etdiyi hərbi hissənin tərkibində Ağdam, Cəbrayıl, Zəngilan və Qubadlı istiqamətində gedən döyüş əməliyyatlarında iştirak edib. 2021-ci ilin iyulunda ordu sıralarından tərxis olunub.

Təltifləri:

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

"Zəngilanın azad olunmasına görə" medalı. Sərəncam № 2363. 25.12.2020.

"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.

"Ağdamın azad olunmasına görə" medalı. Sərəncam № 2371. 29.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 2104.2022.



Qurbanov Xəyal
Musa oğlu
Əsgər

1989-cu il oktyabrın 4-də Daşkəsən rayonunun Əhmədli kəndində anadan olub. Əhmədli kənd tam orta məktəbində 9 illik təhsil alıb, sonra Mollahasanlı kənd orta məktəbində təhsilini davam etdirib, 2007-ci ildə məktəbi bitirib. 2007-ci il oktyabrın 8-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Ağcabədi rayon N saylı hərbi hissədə sürücü əsgər vəzifəsində xidmət edib, 2009-cu il aprelin 1-də tərxis olunub. 2010-cu ildən 2013-cü ilədək Qusar N saylı hərbi hissədə MAHHXHQ olaraq sürücü, manqa komandiri vəzifəsində xidmət edib. 2013-cü ildən 2021-ci il mayın 31-dək Daşkəsən N saylı hərbi hissədə sürücü vəzifəsində xidmət edib. Mayın 31-də ordu sıralarından tərxis olunub.

09.11.2011-ci il tarixində N saylı hərbi hissənin komandiri Oruc Abdullayev tərəfindən "Döyüş hazırlığında əldə etdiyi nailiyyətlərə, nümunəvi xidmətinə görə, habelə 9 noyabr Dövlət Bayrağı Günü münasibətilə" Fəxri Fərmanla;

26.06.2012-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Oruc Abdullayev tərəfindən "26 iyun Silahlı Qüvvələrin Yaranma Günü münasibətilə, habelə döyüş və ictimai-siyasi hazırlıqda fərqləndiyinə görə"

Fəxri Fərmanla;

N saylı hərbi hissənin komandiri polkovnik Əflatun Nurəliyev tərəfindən 28.05.2020-ci il tarixində "28 may Respublika Günü münasibəti ilə", 26.06.2019-cu il tarixində isə "26 iyun Silahlı Qüvvələrin Yaranma Günü münasibəti ilə döyüş hazırlığında, qoşun xidmətinin təşkilində əldə etdikləri nailiyyətlərə və nizam-intizamı yüksək səviyyədə saxladığına görə" Fəxri Fərmanlarla təltif olunub.

Vətən müharibəsi başlayan gündən Kəlbəcər istiqamətində gedən döyüş əməliyyatlarında atıcı vəzifəsində iştirak edib.

Xəyalın danışdıqlarından:

"Sentyabrın 27-də Daşkəsən istiqamətindən düşmənin olduğu Üçtəpə yüksəkliyi istiqamətində döyüşlərə girdik. Üçtəpə postunun birini aldıq. Sonra Ağdağ postu istiqamətində döyüşdük. Sonra bizi endirdilər tabora, oradan Xoşbulaqdakı hərbi hissəyə, oradan da göndərdilər Şəmkirin Seyfəli poliqonuna. Orada dağ yüksəkliklərini ələ keçirmək məqsədilə təlimlərdə olduq. Oradan gedəcəkdik ya Şuşaya, ya da Laçına, amma döyüşlər dayandı. Noyabrın 27-də getdik Kəlbəcərə, orada 2021-ci il mayın 31-dək xidmət elədim, sonra tərxis olundum".

Təltifləri:

"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" Yubiley medalı. 24.06.2013.

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Qurbanov Ramil
Oruc oğlu
Əsgər

1989-cu ildə Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olub. 2007-ci ildə Xoşbulaq kənd Tərlan Məmmədov adına tam orta məktəbini bitirib. 2007-ci ildə Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Beyləqan rayon N saylı hərbi hissədə piyada qoşunununda xidmət edib. 2009-cu ilin yanvar ayında tərxis olunub.

Vətən müharibəsinə könüllü olaraq qatılıb, piyada qoşunun tərkibində Xocavənd, Füzuli və Cəbrayıl istiqamətində gedən döyüş əməliyyatlarında qumbaraatan köməkçisi vəzifəsində iştirak edib.

Ramilin danışdıqlarından:

"Xocavənd rayonu istiqamətində Üçtəpə deyilən yüksəklikdə düşmənin xeyli canlı qüvvəsi vardı, bizim heyət nəfəri isə az idi. Buna baxmayaraq, biz düşmən üzərinə hərəkətə keçdik, onları oradan qovduq, itki verərək qaçdılar.

Xocavənd rayonu ərazisində dağdakı yüksəklikdə düşmənin 60 nəfər canlı qüvvəsi var idi. Biz isə 30 nəfər idik. 15-15 bölündük, sağ və sol tərəfdən düşmən üzərinə

hərəkətə keçdik, onları məhv edib, yüksəkliyi ələ keçirdik.

Füzuli istiqamətində meşəlik deyilən ərazidə çox çətin döyüşlər gedirdi. Orada düşmənin çox sayda piyadası, texnikaları, 360 dərəcə ilə müşahidə edə bilən kameraları və bunkerlər var idi. BMP-ləri ilə üzərimizə hücuma keçmişdilər. Biz BMP-ləri qumbaraatanlarla məhv edib, düşməni dəf etdik. Ora girmək çox çətin idi, amma biz birlikdə oranı azad etdik. 2020-ci il dekabrın 27-də ehtiyata buraxıldım".

26.12.2020-ci il tarixində 651 nömrəli hərbi hissənin komandiri polkovnik Hafiz Ağayev tərəfindən "Vətən Müharibəsində fəal iştirak etdiyinə görə" Fəxri Fərmanla təltif olunub.

Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin üzvüdür.

Təltifləri:

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2711. 24.06.2021.

"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2712. 24.06.2021.

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2714. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Qurbanov Tural
Cahan oğlu
Əsgər

1989-cu il oktyabrın 10-da Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olub, orada yaşayır. Xoşbulaq kənd tam orta məktəbində 9 illik təhsil alıb. Ailəlidir, 3 övladı var. 2007-ci ilin oktyabrında Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Füzuli N saylı hərbi hissədə qumbaraatan vəzifəsində xidmət edib. 2009-cu il aprelin 1-də ordu sıralarından tərxis olunub. Bir müddət sürücü işləyib.

Vətən müharibəsində Füzuli, Xocavənd, Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak edib.

Turalın danışdıqlarından:

"Müharibə başlayanda, könüllü olaraq müharibəyə getmək üçün SHXÇDX-nın Daşkəsən rayon bölməsinə müraciət etdim, məni aparmadılar, dedilər hələ ehtiyac yoxdur, ehtiyac olarsa çağırarıq. Oktyabrın 9-da təkrar bölməyə müraciət etdim və təkidlə döyüşmək istədiyimi bildirdim. Nəhayət oktyabrın 12-də məni Ağcabədi rayon N saylı hərbi hissəyə göndərdilər. Oradan da Bakıya N saylı hərbi hissəyə apardılar, oktyabrın 15-də həmin hərbi hissənin həmlə taborunun tərkibində Füzuli istiqamətində döyüşlərə qatıldım. Füzulinin Dilağarda kəndi uğrunda gedən

döyüş zamanı xeyli maşınlar və s. texnikalar qənimət götürmüşdük. Qənimət götürdüyümüz Kamazın banından (kuzasından) açar götürüb düşəndə yıxıldım, sağ tərəfdən 4 qabırğam qırıldı. Oradan məni təxliyyə etdilər Füzulinin Əhmədbəyli Hospitalına, 10 gün orada müalicə olundum, öz bölüymə qayıtdım və döyüşlərə davam etdim.

Sonra Xocavənd istiqamətinə keçdik. Xocəvənddən bir az kənarda ermənilərin böyük hərbi hissələri var idi. Bizim hərbi hissəyə əmr verilmişdi ki, oranı alaq. Şəmkirin həmləsini, Naxçıvanın kəşfiyyatını və s. gətirmişdilər ora. Oranı almağa hazırlaşırdıq, orada böyük val* var idi , o valın içi ilə bir dəfə getdik, kəşfiyyat elədik, geri qayıtdıq. Səhərisi gün həmin yolu bir də getdik və geri qayıtdıq. Axşam hücum edəndə 12 nəfər əsgərimiz minaya düşdü, 4 nəfər orada ayağını itirdi, 1-i şəhid oldu – Daşkəsəndən İsmayılov Novruz. Onları çıxartdıq, orda hücumu saxladılar, ərazinin hər yeri minalanmışdı. O yoldaşlarımızı çıxaranda qırılmış qabırğalarım içəriyə daha da zədə saldı. İsmayılov Novruzla Pərvini maşına qoydum gətirdim Cəbrayılın Daşkəsən kəndindəki tibb məntəqəsinə, oradan da bizi gətirdilər xəstəxanaya.

Sonra təkrar Cəbrayıl istiqamətində döyüşlərə qatıldım, noyabrın 10-dək Cəbrayılın yaxınlığına kimi döyüşlərdə iştirak etdim. Müharibə bitəndən sonra qayıtdıq Cəbrayılın Daşkəsən kəndinə, oradan da Bakıya və ordu sıralarından tərxis olundum".

Azərbaycan Vətən Müharibəsi Veteranları İB-nin üzvüdür.

Təltifləri:

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 25.12.2020.

*Val- səngərin böyüyünə deyilir, maşınların, texnikaların onun içində görünmədən hərəkət etməsi üçün qazırlar.



Qurbanov Vüsal Tahir oğlu Əsgər

2001-ci il noyabrın 2-də Daşkəsən rayonunun Çanaqçı kəndində anadan olub. 2019-cu ildə Çanaqçı kənd tam orta məktəbini bitirib. 2020-ci il iyulun 3-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Əvvəl Ağcabədi N saylı hərbi hissəsində, sonra isə Xocavənd N saylı hərbi hissəsində rabitəçi vəzifəsində xidmət edib. Vətən müharibəsi başlayandan xidmət etdiyi hərbi hissənin tərkibində Füzuli, Qubadlı və Şuşa istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

Vüsalın danışdıqlarından:

"Sentyabrın 27-də düşmən tərəfi hərbi hissəmizi minamyot atəşinə tutdu, biz çöllərdə qaldıq. Füzuli istiqamə-

tində döyüşə başladıq. Oktyabrın 14-ü idi, Füzuli istiqamətində döyüşürdük, əsgər yoldaşlarım yaralanmışdılar, biz onları ərazidən çıxarmaq istəyəndə təkrar bizi minamyot atəşinə tutdular. Tabor komandirimiz Nuruyev Şahnur şəhid olmuşdu. Mən sol qolumdan qəlpə yarası aldım, məni Xocavənddə Borsunlu hərbi tibb məntəqəsinə gətirdilər. 7 gün orada müalicə olundum və təkrar döyüşlərə qayıtdım. Qubadlı, sonra isə Şuşa istiqamətində döyüşlərdə iştirak etdim. Noyabrın 5-də Şuşaya qalxanda Topxana meşəsində 8 nəfər döyüş yoldaşlarımla minaya düşdük, 5 nəfər şəhid oldu, 3 nəfər yaralandıq. Rabitə ilə məlumat verdik ki, bəs minaya düşmüşük, vəziyyətimiz ağırdır. Sonra rabitənin daşı bitdi, rabitə dayandı, təkrar rabitə qura bilmədik. Biz üçümüz də qanitirmədən özümüzdən getmişdik. Mən təkrar qolumdan, hər iki ayağımdan qəlpə yaraları, başımdan isə qapalı kəllə-beyin travması almışdım. Məni Biləsuvara aparmışdılar, gözümü açanda xəstəxanada idim, ayaqlarımdan üç qəlpə çıxarmışdılar, sol ayağımda isə hələ də bir qəlpə qalıb. Müalicələrdən sonra, noyabrın 20-də öz istəyimlə Şuşaya, öz əsgər yoldaşlarımın yanına qayıtdım, bir il bir ay xidmətdə oldum. 2022-ci il yanvarın 1-də ordu sıralarından tərxis olundum".

Təltifləri:

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 25.12.2020

"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.

"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2716. 24.06.2021.

"Cəsur döyüşçü" medalı. Sərəncam № 2724. 24.06.2021.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Mehtiyev Vüsal
Mərdan oğlu
Əsgər

1992-ci il yanvarın 20-də Daşkəsən rayonunun Rəsullu kəndində anadan olub. 2009-cu ildə Rəsullu kənd tam orta məktəbini bitirib. 2010-cu ilin yanvarında Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Füzuli rayon N saylı hərbi hissədə tuşlayıcı vəzifəsində xidmət edib, 2011-ci ilin iyun ayında ordu sıralarından tərxis olunub. Müxtəlif işlərdə işləyib.

Vətən müharibəsi başlayanda səfərbərliklə müharibəyə çağırılıb, sentyabrın 29-dan etibarən Cəbrayıl, Qubadlı, Laçın istiqamətlərində tank əleyhinə bölükdə (TƏB) tuşlayıcı olaraq döyüşüb. Oktyabrın 28-də Laçın istiqamətində yaralanıb.

Təltifləri:

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Məmmədov Amil
Fəzail oğlu
Əsgər



1997-ci il iyulun 25-də Daşkəsən şəhərində anadan olub. 2015-ci ildə Daşkəsən şəhər Səməd Vurğun adına 4 saylı tam orta məktəbi bitirib. 2015-ci il iyulun 29-da SHXÇ-DX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Naxçıvan MR-də N saylı hərbi hissədə baş sürücü vəzifəsində xidmət edib. 2017-ci il dekabrın 16-da ordu sıralarından ehtiyata buraxılıb.

Vətən müharibəsində Şuşa, Xankəndi istiqamətində gedən döyüşlərdə iştirak edib.

Amilin danışdıqlarından:

"Sentyabrın 29-da səfərbərliklə müharibəyə çağırıldım, Gəncə şəhər N saylı hərbi hissədə sürücü vəzifəsinə təyin olundum, oktyabrın 27-dək Gəncədə təlimdə oldum. Oktyabrın 27-də taborumuz Füzuli rayonunun Mahmudlu kəndinə gəldi, 3 gün orada qaldıq, sonra Seyid Mahmudlu kəndinə getdik, bir neçə gün də orada qaldıq. Noyabrın 5-də döyüşmək üçün taborumuz Şuşa şəhərinə getdi və Şuşanın azad olunması uğrunda ağır döyüşlərə qatıldıq. Şuşa, Xankəndi istiqamətlərində əsgər olaraq döyüşdüm. Noyabrın 7-də yaxınlığıma düşən mərminin partlaması

nəticəsində xəsarət aldım. Bir müddət sonra özümü pis hiss etdiyim üçün Bakı şəhərinə hərbi hospitala göndərildim. Orada müayinə olunan zaman sol gözümdə qəlpə aşkar olundu və məlum oldu ki, gözümün görmə qabiliyyəti işıq hissinə qədər azalıb. Mənə 3-cü qrup əlillik təyin olundu. 2020-ci il dekabrın 25-də ordu sıralarından tərxis olundum".

Təltifləri:
"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2370. 29.12.2020.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Məmmədov Anar
Əli oğlu
Əsgər

1986-cı il fevralın 23-də Daşkəsən rayonunun Aşağı Daşkəsən qəsəbəsində anadan olub. 2004-cü ildə Zinzahal kənd tam orta məktəbini bitirib. Elə həmin il Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Naxçıvanın Şahbuz rayonunda N saylı hərbi hissənin artilleriya diviziyasında xidmət edib. 2005-ci il oktyabrın 1-də hərbi xidmətini bitirərək ehtiyata bu-

raxılıb. 2008-ci ildən Gəncədə yaşayır. Ailəlidir, iki övladı var.

Vətən müharibəsi başlayanda, sentyabrın 21-də Daşkəsən rayonunun hərbi səfərbərlik xidmətinə çağırılıb və Gəncəyə N saylı hərbi hissəyə göndərilib. Sentyabrın 25-dək orada hərbi təlimdə olub. Oradan bölünərək Göygöl rayonunun Çaykənd kəndində yerləşən N saylı hərbi hissənin artilleriya diviziyasına düşüb. Kəlbəcər uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Murovdağda topçu olub, müharibə bitdikdən sonra, 2020-ci il dekabrın 27-də ehtiyata buraxılıb.

Təltifləri:
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.

Məmmədov Asif Misir oğlu Əsgər



1997-ci il aprelin 20-də Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 2016-cı ildə Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbi bitirib. Elə həmin il Gəncə Dövlət Universitetinin Biologiya - Kimya fakültəsi-

nin Ekologiya Mühəndisliyi ixtisasına qəbul olunub, 2020-ci ilin mayında universiteti bitirib. 2020-ci il iyulun 4-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb.

Vətən müharibəsi başlayanda əks-hücum əməliyyatları zamanı xidmət etdiyi N saylı hərbi hissənin tərkibində atıcı əsgər vəzifəsində Füzuli, Xocavənd rayonları istiqamətində gedən döyüş əməliyyatlarında iştirak edib. Noyabrın 5-də düşmən tərəfindən atılan mərminin partlaması nəticəsində kəllədaxili barotravma alıb. Bir müddət müalicə olunduqdan sonra Cəbrayıl, Qubadlı və Laçın rayonlarında xidmətinə davam edib.

26.06.2021-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Elmar Əliyev tərəfindən ailəsinə təşəkkür məktubu göndərilmişdir:

"Oğlunuz Asif Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüşçüsü kimi öz borcunu dərindən dərk edir, Az. Res. Konstitusiyasının, Hərbi Nizamnamələrin, yuxarı komandanlığın, hərbi andın tələblərini layiqincə yerinə yetirir, hərbi və dövlət sirrini qorumağı bacarır.

Hərbi hissədə xidmət etdiyi ilk günlərdən özünü nümunəvi, vicdanlı və intizamlı bir əsgər kimi göstərmişdir. Vəzifə borclarının icrasına vicdanla yanaşır. Ona həvalə edilmiş vəzifələrin öhdəsindən layiqincə gəlir, verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirir... Digər əsgər yoldaşları üçün nümunədir".

2021-ci ilin iyulunda xidmət müddətini başa vuraraq ordu sıralarından ehtiyata buraxılıb.

Təltifləri:
"Cəsur döyüşçü" medalı. Sərəncam № 2353. 18.12.2020.
"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 25.12.2020.
" Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2712. 24.06.2021.

Məmmədov Elvin
Faiq oğlu
Əsgər



1995-ci il sentyabrın 2-də Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 2011-ci ildə Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbin 9-cu sinfini bitirib. 2014-cü il yanvarın 7-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Qusar rayon N saylı hərbi hissədə xidmət edib. 2015-ci il iyunun 17-də ehtiyata buraxılıb. 2020-ci il sentyabrın 8-də MAHHXHQ kimi ordu sıralarında xidmətə başlayıb. Şəmkir rayonunun Seyfəli Təlim Mərkəzinin əməliyyat taborunun ikinci bölüyündə xidmət edib.

Vətən müharibəsi başlayandan Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Elvinin danışdıqlarından:

"Sentyabrın 27-də xidmət etdiyim hərbi hissənin tər-

kibində Kəlbəcər istiqamətində baş atıcı kimi döyüşlərə qatıldım. Oktyabrın 1-də əks-hücum nəticəsində düşmənin atdığı mərmi yaxınlığımda partladı, mən əl-ayaq nahiyələrimdən çoxsaylı qəlpə yaraları aldım. Üç gün müddətində yaralandığım Canavar Qulağı postunun sağ Qulaq istiqamətində mühasirədə qaldım. Bu döyüşdə 70 nəfər idik, 50-si şəhid oldu, 20 nəfər isə mühasirədə qaldıq. Üç gün sonra ordumuzun əraziyə gələn bölməsi tərəfindən mühasirədən çıxarıldıq. Oktyabrın 3-ü gecə saatlarında məni Göygöl rayonunun Toğanalı kəndindəki xəstəxanaya gətirdilər, xəstəxanada müayinə olunduqdan sonra Göygöl Mərkəzi Rayon Xəstəxanasına göndərdilər, bir ay müalicə olundum. Noyabrın 3-də xəstəxanadan buraxıldım və təkrar ordu sıralarına qayıtdım.

N saylı hərbi hissənin komandiri kapitan Kənan Şirinov tərəfindən "18 oktyabr Müstəqillik günü münasibəti ilə nümunəvi hərbi xidmətə, yüksək intizama, döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə görə" Fəxri Fərmanla təltif olundum.

2021-ci il aprelin 12-də ordu sıralarından ehtiyata buraxıldım".

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam 250s. 21.04.2022.

Məmmədov Fazil
Mehman oğlu
Əsgər



1990-cı il dekabrın 10-da Daşkəsən şəhərində anadan olub. 2011-ci ildə Daşkəsən şəhər Anar Mürsəlov adına 2 saylı tam orta məktəbi bitirib. Elə həmin il iyulun 4-də Daşkəsən RHK tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb, Cəlilabad N saylı hərbi hissədə tuşlayıcı vəzifəsində xidmət edib. 2013-cü il yanvarın 2-də ordu sıralarından tərxis olunub. Bir müddət "Daşkəsən Filizsaflaşdırma" ASC-də işləyib.

Vətən müharibəsi başlayanda könüllü olaraq qeydiyyatdan keçib, oktyabrın 9-da müharibəyə çağırılıb. Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində gedən döyüşlərdə tuşlayıcı PK kimi iştirak edib.

Fazilin danışdıqlarından:

"Oktyabrın 9-da Daşkəsəndən çıxdıq, Ağcabədiyə getdik, iki gün orada qaldıq, sonra məni Füzuli istiqamətinə göndərdilər, iki gün də orada qaldım, bölgüdə məni Bakının həmlə bölüyünə verdilər, oradan döyüşə girdim, Xocavəndə qədər döyüşdüm.

Gecə saat 2-3 radələrində Xocavəndə girdik, oradakı bir təpəyə çıxdıq, baxdım ki, sağ-sol və ön tərəfimiz ermə-

nilərlə doludur. Orada gizlənib səhəri gözlədik, səhər açılanda müharibə başladı. Hər tərəfdən bizi atəşə tutdular, yerimizi bilmişdilər. Biz də qarşılıq verirdik, o anda bizim olduğumuz yeri topla vurdular, biz mühasirəyə düşmüşdük. Mən təpənin arxa tərəfinə çəkildim, amma ayağımdan həm güllə, həm də qəlpə yarası aldım. Yoldaşlarım məni olduğum yerdən çıxardılar, səngərə girdik. Mühasirədə olduğumuzdan heç hara çıxa bilmirdik. Komandirimiz yuxarıya məruzə etdi, Bayraktar gəldi, ermənilər tərəfi vuraraq zərərsizləşdirdi və bizi mühasirədən çıxardılar. Gecə saat 2-də Şəmkirin həmlə bölüyü gəldi və yaralıları döyüş bölgəsindən (təpədən) aşağı endirdi. Bizi KamAz-la Füzuli Hospitalına göndərdilər, orada əməliyyat olundum, ayağımdan güllə və qəlpəni çıxardılar. Orada yer olmadığından bir gün sonra məni göndərdilər Neftçala Rayon Mərkəzi Xəstəxanasına. İki gün orada müalicə olundum, sonra göndərdilər Lənkəran Rayon Mərkəzi Xəstəxanasına, 2 gün sonra göndərdilər Bakıya Papaninə, bir gün sonra qayıtdım Füzuliyə öz hərbi hissəmə. Oradan da 2-3 gün sonra göndərdilər Cəbrayıla, 2 gün sonra bizi göndərdilər Bakıya, orada tərxis olundum".

Təltifləri:

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Məmmədov Xəyal Fizuli oğlu Əsgər



1992-ci il dekabrın 14-də Gəncə şəhərində anadan olub. 2008-ci ilədək 98 saylı tam orta məktəbdə təhsil alıb, 2008-ci ildə Göygöl rayon 8 Mart kənd əsas məktəbini bitirib. 2010-cu ildə 3 №-li Gəncə Peşə Liseyinə daxil olub, 2013-cü ildə 4-cü dərəcə "Modelçi – dərzi" ixtisasını bitirib. 2011-ci il yanvarın 8-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Qusar N saylı hərbi hissədə kəşfiyyatçı-pulemyotçu və manqa komandiri vəzifələrində xidmət edib. 2012-ci ildə xidmətini başa vuraraq, ordu sıralarından tərxis olunub.

Vətən müharibəsində Füzuli, Cəbrayıl, Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak edib.

Xəyalın danışdıqlarından:

"Şəmkir N saylı hərbi hissənin həmlə taborunda idim. Oradan bizi apardılar Murova, döyüşə girmək çətin olduğundan orada təlim keçdilər. Sonra əmr gəldi oradan keçdik Cəbrayıl, Füzuli, Xocavənd istiqamətlərində döyüşdük. Xocavənddə oktyabrın 31-də snayper gülləsi ilə üz nahiyəmin sağ tərəfindən, çənə sümüyümdən yaralandım. Döyüş yoldaşlarım tərəfindən mənə ilkin tibbi yardım göstərildi və məni Füzuli Rayon Mərkəzi Xəstəxana-

sına göndərdilər. Çox qan itirdiyim üçün orada mənə qan köçürdülər və Bakıya Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasına göndərdilər, orada əməliyyat olundum, müalicələrdən sonra tərxis olundum".

Təltifləri:

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 23.12.2020.

"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2364. 25.12.2020.

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2714. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Məmmədov Nurad Davud oğlu Əsgər

2001-ci il avqustun 15-də Daşkəsən rayonunun Dardərə kəndində anadan olub. 2004-cü ildə Göygöl rayonunun Yeni Qızılca kəndinə köçüblər. 2018-ci ildə Göygöl rayon Qızılca stansiyası Rafiq Məmmədov adına tam orta məktəbi bitirib. Gəncə şəhər Abbas Səhhət adına 2 nömrə-

li peşə liseyinin avtomobil üzrə elektrik ixtisasına qəbul olub, 2019-cu ildə liseyi bitirib. Elə həmin il oktyabrın 3-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Əvvəl Ağcabədi N saylı hərbi hissədə, sonra isə Füzuli N saylı hərbi hissədə Lələtəpə postunda xidmət edib.

Vətən müharibəsi başlayandan xidmət etdiyi hərbi hissənin tərkibində Füzuli və Xocavənd istiqamətində gedən döyüş əməliyyatlarında iştirak edib. 2021-ci il iyulun 3-də tərxis olunub.

Təltifləri:

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 25.12.2020.

"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2364. 25.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam 250.s. № 21.04.2022.

Məmmədov Rüfət
Araz oğlu
Əsgər



1998-ci il martın 5-də Daşkəsən şəhərində anadan olub. 2016-cı ildə Daşkəsən şəhər İmadəddin Nəsimi adına 1 saylı tam orta məktəbi bitirib. 2016-cı ilin iyun ayında SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi

hərbi xidmətə çağırılıb, Bakıda N saylı hərbi hissədə snayper vəzifəsində xidmət edib. 2018-ci ilin yanvarında ordu sıralarından tərxis olunub. Mühafizədə işləyib.

Vətən müharibəsində Şuşa, Xankəndi istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

Rüfətin danışdıqlarından:

"Sentyabrın 29-da səfərbərliklə hərbi xidmətə çağırıldım, bir ay Gəncədə N saylı hərbi hissədə snayper olaraq təlimdə oldum. Təlimlərdən sonra Füzulinin müdafiəsinə getdik. Füzulidən çıxaraq Hadrutdan irəliləməyə başladıq. Səhərə yaxın Sığınaq kəndinə çatdıq və noyabrın 6-da oradan Şuşaya tərəf piyada irəliləməyə başladıq, axşamtərəfi Şuşanın Daşaltı kəndinə çatdıq. Ermənilər bizi görürdülər və dayanmadan minamyot atəşinə tuturdular. Buna baxmayaraq biz irəliləyirdik. Ordan Şuşanın özünə qalxanda biz ermənilərnən üz-üzə gəldik. Orada 2 saat döyüşdük, onları məhv etdik və şəhərə daxil olduq. Səhərisi gün noyabrın 8-də Xankəndi istiqamətində döyüşlərə girdik, irəliləyirdik, onlar da geri çəkilirdilər. Orada tankın açdığı atəş nəticəsində partlayan mərminin dalğasından başımdan iki travma aldım, vəziyyətim ağır olduğundan döyüş yoldaşlarım məni ordan çıxardaraq Biləsuvara Hospitala yola saldılar. Orada 20 gün müalicə olunduqdan sonra məni Tovuz Rayon Mərkəzi Xəstəxanasına göndərdilər, 7 gün də orada müalicə aldım, sonra tərxis olundum".

Təltifləri:

"Döyüşdə fərqlənməyə görə" medalı. Sərəncam № 2354. 18.12.2020.

"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2370. 29.12.2020.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

29.03.2021-ci il tarixində GESKO ASC-nin direktoru Anar Cəlilov tərəfindən "II Qarabağ Müharibəsində şanlı qələbənin qazanılmasına verdiyi töhfəyə, göstərdiyi şərəfli xidmətə görə" Təşəkkürnamə;

27.05.2021-ci il tarixində NMedia.az İnformasiya portalının Baş redaktoru Nicat Dilqəmli tərəfindən "Vətən uğrunda göstərdiyi mərdliyə və şücaətə görə" Fəxri Media Mükafatı;

27.05.2021-ci il tarixində Daşkəsən rayon Heydər Əliyev Mərkəzinin Direktoru Nailə Məmmədova tərəfindən "Xalqımızın birliyi, torpaqlarımızın bütövlüyü uğrunda, Vətən qarşısında borcunu şərəflə yerinə yetirdiyinə görə" Təşəkkürnamə ilə təltif olunmuşdur.

Məmmədov Taleh
Zülfü oğlu
Əsgər



2002-ci il martın 9-da Daşkəsən rayonunun Alaxançallı kəndində anadan olub. 2019-cu ildə Alaxançallı kənd tam orta məktəbini bitirib. 2020-ci il mayın 4-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərə-

fındən həqiqi hərbi xidmətə çağırılıb, Ağcabədi rayon N saylı hərbi hissədə xidmətə başlayıb. Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Ağdam, Xocavənd, Cəbrayıl, Qubadlı istiqamətlərində gedən döyüş əməliyyatlarında sürücü vəzifəsində iştirak edib. 2021-ci il oktyabrın 3-də ordu sıralarından tərxis olunub.

Təltifləri:

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

08.11.2021-ci il tarixində Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Daşkəsən şöbəsinin sədri Musayev Əli tərəfindən "Müzəffər Azərbaycan Ordusunun Vətən müharibəsində tarixi Qələbənin qazanılmasında göstərdiyi fədakar əməyinə və maddi-mənəvi dəstəyinə görə" Fəxri Fərmanla təltif olunub.

Məmmədov Yusif
Misir oğlu
Əsgər



1993-cü il noyabrın 10-da Daşkəsən rayon Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 2009-cu ildə Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbin 9-cu sinfini bitirib. 2012-ci il yanvarın 12-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 2013-cü ilin iyulunda xidmətini başa vurub, ordu sıralarından tərxis olunub. 2016-cı il avqustun 19-da Daşkəsən rayonunun Xoşbulaq kəndində N saylı hərbi hissədə MAHHXHQ kimi kəşfiyyatçı vəzifəsində xidmətə başlayıb.

Vətən müharibəsi başlayanda Kəlbəcər istiqamətində gedən döyüşlərə taktiki döyüş qrupları ilə kəşfiyyatçı vəzifəsində qatılıb. Oktyabrın 3-də sol qolundan snayper güllə yarası, sağ ayağından və dizindən qəlpə yarası alıb. 2021-ci ildə ordu sıralarından tərxis olunub.

Təltifləri:

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Məmmədov Yusif
Sarı oğlu
Əsgər

2000-ci il iyunun 12-də Daşkəsən şəhərində anadan olub. 2010-cu ildə Daşkəsən şəhər Anar Mürsəlov adına 2 saylı orta məktəbin 10-cu sinfini bitirib, Gəncə Dövlət Regional Kollecinin Bədən Tərbiyə və İdman fakültəsinə daxil olub, 2019-cu ildə məzun olub. 2019-cu il iyulun 2-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Ağcabədi N saylı hərbi hissədə manqa komandiri vəzifəsində xidmət edib.

Vətən müharibəsi başlayanda xidmət etdiyi hərbi hissənin tərkibində oktyabr ayının 6-dan briqada ilə birlikdə Cəbrayıl istiqamətində döyüşlərə qatılıb. Cəbrayıl, Zəngilan, Qubadlı istiqamətində döyüşüb. 2021-ci il, iyulun 1-də ordu sıralarından tərxis olunub.

Yusifin danışdıqlarından:

"2020-ci il oktyabrın 6-sı, günorta saat 3-4 radələrində hərbi hissəmizdə həyəcan komandası verildi. Taborumuz Ağcabədidən Füzuli-Lələtəpə istiqamətində yola düşdü və Lələtəpədə hərbi hissənin cəmləşmə məntəqəsində cəmləşdik. Axşam saat 10-11 radələrində həyəcan komandası verildi, taborumuzun iki bölüyü tam təchizatla top-

laşdı, düzüldü və Cəbrayıl istiqamətində yola düşdük. Təhlükəsizlik üçün gecə maşınların işıqlarını yandırmaq mümkün deyildi, ay işığının köməyi ilə gedirdik. Cəbrayıla çatana qədər dəfələrlə yolu səhv salıb, neytral əraziyə daxil olmuşduq. Orda mövqelənən qrupların köməyi ilə yolu dəyişib digər istiqamətdə gedirdik. Ətrafı görmək mümkün olmadığı üçün tez-tez öndəki maşında sürücünün yanında əyləşən hərbçi maşından düşüb, əl fənəri ilə istiqaməti təyin edirdi. Səhərə yaxın taborumuz Cəbrayılın giriş dairəsinə yaxınlaşdı, 7-8 km qalmış maşınlardan düşdük, 2-3 km piyada yol getdik və mövqeləndik. İlk dəfə yanlış yerdə mövqelənmişdik, çox açıqlıqda idik, düşmən vura bilərdi. Saat 8-in yarısı olardı, yüksək rütbəli komandir gəldi və irad tutdu ki, çox açıqlıqda niyə mövqe tutmusuz. Taborumuz həmin yerdən çıxdı və Cəbrayıla gedən yolun aşağısındakı dərəyə düşdü, həmin anda əvvəl mövqeləndiyimiz yeri düşmən vurdu. Çünki bizi səngər qazan zaman görmüşdülər. Saat 11-dək taborumuz mühasirədə qaldı, bizi minamyotlarla atəşə tuturdular. Həmin vaxt taborun digər iki bölüyü bizim mühasirəyə düşdüyümüz istiqamətdə gəlirdi, qarşı tərəf kalonu gördü və minamyotlarla atəşə tutdu. Tabor orda həm şəhid verdi, həm də yaralıları oldu, sursat maşını vuruldu, onlar geri çəkildilər. Qaranlıq düşəndən sonra biz, əvvəlcədən bizimkilər tərəfindən vurulmuş, yaxınlıqda olan erməni təminat maşınından ərzaq gətirə bilirdik. Ermənilər maşını qoyub qaçmışdılar. Hardasa iki-üç gün sonra bizimkilər pualarla yüksəklikdəki düşmən mövqelərini vurdular. Taborun digər bölükləri bizim yerləşdiyimiz mövqeyə gəldilər.

Səhərisi gün bizim bölüklərimiz dərədən çıxıb Cəbrayılın dairəsinə gəldilər. Axşamadək orada gözlədik, gecə saat 1-2 radələrində Tulusdağdakı erməni mövqelərinə hücuma keçdik, ermənilər postlarını qoyub qaçmışdılar. Tulusdağda mövqeləndik, bir həftəyədək orada qaldıq. Ermənilər hər gün bizi minamyotlarla vururdular, burada da şəhid və yaralılarımız oldu. Sonra Zəngilan istiqamətində irəlilədik, Cəbrayılla Zəngilan arasında bir təpədə yerləşdik. Səhər tezdən 7-də hücuma keçən qruplar bölündü hücuma keçdik. Öndə tanklar hücum etdi, arxasınca bizim piyada qruplarımız irəliləyirdi. Düşmən silah-sursatını qoyub qaçdı, qrup posta olan silah-sursatı qənimət kimi götürdü və qayıtdıq mövqeləndiyimiz təpəyə. O mövqedə 5 gün qaldıq. Sonra Cəbrayıla cəmləşmə məntəqəsinə getdik, orada 2 gün qaldıqdan sonra Qubadlı istiqamətində getdik, Balasoltanlı kəndində yerləşdik. Səhərisi gün bizim qrup hücuma keçdi, bizdən əvvəlki qrupun çıxdığı mövqedə yerləşdik. Bir gün sonra olduğumuz yeri vururdular, minamyotun mərmisi bizim yaxınlığımıza düşdü və dalğası mövqedəki əsgərlərimizi vurdu. Hər tərəfi toz-duman bürümüşdü, mən başımı qaldırıb ətrafa baxdım, amma heç nə eşitmirdim, başım hərlənirdi, dilim söz tutmurdu. Yaxınlıqdakı yoldaşlarımdan xəbərim yox idi, amma minamyotlar yenə də vururdu. Sonra olanlardan mənim xəbərim olmadı. O zaman ayıldım ki, yoldaşlarım məni təpənin o biri tərəfinə aparırlar. İki gün orada qaldıq, çünki ermənilər yolu vururdular, maşın gələ bilmirdi. İki gün sonra əsgərlərimiz məni yola düşürdülər və Füzuli Rayon Mərkəzi Xəstəxanasına təxliyyə etdilər. 3 gün orda

qaldıqdan sonra məni Şirvan Rayon Mərkəzi Xəstəxanasına göndərdilər, bir həftə sonra isə Bakıya Papanin Hərbi Hospitalına. Oradan da bir gün sonra göndərdilər Maştağa Psixiatrik Xəstəxanasına. 10 gün orda müalicə aldıqdan sonra, mənə 15 günlük məzuniyyət verdilər. Sonra yenə Papaninə qayıtdım, hərbi komissiyadan keçdim və qayıtdım əvvəl yerləşdiyim Ağcabədi N saylı hərbi hissəyə. 3-4 gün sonra bizi göndərdilər Xocavəndin Tuğ kəndinə. Orada bir ayadək sərəncamda qaldım, sonra yenidən öz bölüyümə verdilər, getdim Xocavəndin Domi (Binə) kəndinə. 1 ayadək kəndin mühafizəsində qaldıq, sonra hərbi hissə Qubadlıda cəmləşdi. 2021-ci ilin iyulunda isə tərxis olundum".

Təltifləri:

"Cəsur döyüşçü" medalı. Sərəncam № 2353. 18.12.2020.
"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.
"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Musayev Məharət Əli oğlu Əsgər

1999-cu il iyunun 1-də Daşkəsən rayonunun Gurbulaq kəndində anadan olub. 2016-cı ildə Daşkəsən rayon Alunitdağ qəsəbəsi Rövşən Qafarov adına tam orta məktəbi bitirib. 2017-ci ilin iyulunda SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Qusar rayon N saylı hərbi hissədə baş kəşfiyyatçı, müşahidəçi vəzifəsində xidmət edib. 2019-cu ilin yanvarında xidmətini başa vurub, ordu sıralarından tərxis olunub. 2019-cu ilin avqustunda yenidən MAHHXHQ kimi Ağstafa rayon N saylı hərbi hissənin kəşfiyyat taborunda xidmətə başlayıb. 2020-ci ilin martında Daşkəsən rayon N saylı hərbi hissənin həmlə bölüyünə baş atıcı vəzifəsinə dəyişdirilib və xidmətinə davam edib.

Vətən müharibəsi başlayan gündən həmlə bölüyünün 1-ci taqımında baş atıcı olaraq Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Məharətin danışdıqlarından:

"Mənim MAHHXHQ kimi hərbiyə gəlməyimdə Böyük generalımız Polad Həşimovun çox köməyi olub. Bizim korpusun qərargah rəisi idi. Çox təlimlərdə bizimlə bərabər olurdu, bərabər qaçırdıq. Mənə 3 dənə Fəxri Fərman

da verib. Şəhid olmamışdan bir gün qabaq Daşkəsənə gəlib bizim təlimlərimizə baxdı, bizimlə xeyli söhbət elədi. Bizə deyirdi ki, sizinlə bərabər ermənilərı məhv edəcəyik, sonları çatıb. Səhərisi gün Tovuzdan şəhid xəbəri gəldi, çox pis olmuşduq, çox sevdiyimiz generalımızı itirmişdik. Əsəbimdən ağlayırdım, yoldaşlarım da həmçinin. Biz and içmişdik ki, onun qisasını mütləq alacağıq, aldıq da.

Sentyabrın 27-si səhər saatlarında əmr gəldi və biz ermənilərin Konqur postuna hücuma keçdik. Post Konqur qızıl yatağının yanında idi. Ermənilər bizim yerimizi təyin etmişdilər deyə biz mühasirəyə düşdük və 14 saat mühasirədə qaldıq. Gecə saat 12-01 radələrində öz gücümüzlə mühasirəni yarıb, geri çəkildik. Sonra əmr gəldi ki, Üçtəpə postuna hücum etməliyik, hücum etdik. Qızğın döyüş gedirdi, 23 nəfər şəxsi heyətdən 7 nəfər posta çata bildik və postu aldıq. O döyüşdə 8 şəhidimiz, 8 yaralımız oldu. Biz 2 gün postda qaldıq, ermənilər hər gün hücum edirdi. 200 nəfərə qarşı 7 nəfər döyüşürdük. Silah-sursatımız və ərzağımız bitmişdi, dəstək gəlmədiyinə görə ermənilər postu əlimizdən aldılar. Biz öz ərazimizə qayıtmağa məcbur olduq.

Oktyabrın 1-də əmr verildi ki, 2-ci tabora enməlisiz, endik, bir gün orda qaldıq. Oktyabrın 2-dən 3-nə keçən gecə saat 3-4 radələri idi, 2-ci taborun 21 postu adlanan ərazidən kəşfiyyat və həmlə bölüyü birlikdə hücuma keçdik. Biz dağınıq halda posta tərəf qaçırdıq. O döyüşdə də yaralı və şəhidlərimiz çox oldu. Mən Ağdağ postuna qalxan yolla ermənilərə tərəf qaçırdım, posta çatanda qarşımda 3 erməni var idi, NSVT silahı ilə bizim posta tərəf atəş açırdılar. Mən onları güllələdim, həmin anda snayperlə dizdən

xeyli yuxarı ayağımdan vurdular, mən özümü tarazlayıb daşın arxasına atıldım və jqutla ayağımı bağladım. Ayağımı bağlayanda uzatdığım üçün erməni snayperi gördü və 2-ci dəfə dizimdən vurdu. İstədim başımı çıxarıb ətrafa baxam, bu zaman ermənin biri qaça-qaça üstümə gəldi, mən cəld özümü tarazlayıb onu güllələdim. Bu zaman onlar mənim durduğum yeri atəşə tutdular. Yaşamağa heç ümidim qalmamışdı, bütün yoldaşlarım geri çəkilmişdilər, ərazidə tək qalmışdım. Bu zaman qayaların arasında torpaqlı boşluq, çökək gördüm və özümü oraya atdım. Oraya sağ qolumun üstə düşdüm, qolumun sümüyü çatlamışdı. Çətinliklə də olsa, mən sürünə-sürünə öz postumuza yaxınlaşdım. Posta 100 metr qədər məsafə qalmışdı, daha sürünməyə heç taqətim yox idi, qışqırdım. Uşaqlar səsimi eşidib köməyə gəldilər, məni götürüb hərbi tibbi maşına gətirdilər və Daşkəsən Rayon Mərkəzi Xəstəxanasına göndərdilər. Orada ilkin tibbi yardım göstərib Gəncə Mərkəzi Klinikaya göndərdilər. Orada əməliyyat etdilər, 2 ay orada müalicə olundum. Sonra Gəncə Hospitalına göndərdilər, 3 ay da orada müalicə olundum və evə məzuniyyətə göndərildim. Məzuniyyətdən sonra məni Bakıya Papaninə göndərdilər. 2021-ci il dekabrın 21-də hərbiyə yararsız olduğum üçün ordu sıralarından tərxis olundum".

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

Azərbaycan Vətən Müharibəsi Veteranları İB-nin Daşkəsən şöbəsinin sədri Əli Musayev tərəfindən "Müzəffər Azərbaycan Ordusunun Vətən müharibəsində tarixi Qələbəsinin qazanılmasında göstərdiyi fədakar əməyinə və maddi-mənəvi dəstəyinə görə" Fəxri Fərmanla təltif olunub.

Mustafayev Babək
Zöhrab oğlu
Əsgər



1996-cı ildə Daşkəsən şəhərində anadan olub. 2014-cü ildə Daşkəsən şəhər Səməd Vurğun adına 4 saylı tam orta məktəbi bitirib. Elə həmin ildə SHXÇDX-nın Daşkəsən rayon bölməsindən həqiqi hərbi xidmətə çağırılıb. Bakı şəhəri N saylı hərbi hissədə sürücü vəzifəsində xidmət edib. 2016-cı ildə xidmətini başa vuraraq tərxis olunub.

Vətən müharibəsi başlayanda SHXÇDX-nın Daşkəsən rayon bölməsindən səfərbərliklə müharibəyə çağırılıb.

Babəkin danışdıqlarından:

"Oktyabrın 25-dək Gəncə şəhər N saylı hərbi hissədə təlimdə oldum. Sonra hərbi hissəmizi Füzulinin Seyid Əhmədbəyli kəndinə göndərdilər. Bir həftə orada qaldıqdan sonra, noyabrın 3-də axşam oradan çıxdıq, 4-ü günü

səhər Topxana meşəsinə çatdıq və Şuşa istiqamətində gedən döyüşlərə qatıldıq. Mən Şuşanın azad olunması uğrunda gedən döyüşlərdə piyada qoşunla atıcı kimi iştirak edirdim. Noyabrın 8-də Şuşa azad olunduqdan sonra, Xankəndi istiqamətində yola düşdük. Xankəndi istiqamətində gedən döyüşlərə 400 nəfər şəxsi heyətlə qatılmışdıq. Taborun əsas döyüş tapşırığı Xankəndini almaq idi. Bizim dəstə Tehran Mənsimovun dəstəsinin ardınca gedirdi, həm döyüşür, həm də müdafiədə dayanırdıq. Dəstəmiz dayanmadan irəli gedirdi. Ermənilər bizi artilleriya atəşinə tuturdular. Biz burada 90 nəfərədək şəhid verdik, xeyli yaralılarımız vardı. Erməni tankları üstümüzə doğru gəlirdi, tabor tankların qarşısında heç nə edə bilməyəcəyi üçün, Şuşaya tərəf geri çəkilməyə məcbur oldu. Biz geridə heç kimi qoymayıb, yaralıları özümüzlə aparırdıq. Noyabrın 9-da, gecə vaxtı geri çəkilərkən meşədə mühasirəyə düşdük və 12 saat mühasirədə qaldıq. Mühasirədə qalan vaxtı ermənilərin atdıqları mərminin biri bizim yaxınlığımıza düşdü və partlaması nəticəsində şəhid və yaralılarımız oldu. Mən isə mərminin partlayış dalğasına düşmüşdüm, məndə kəllə-beyin silkələnməsi olmuşdu, qulağımdan qan gəlirdi. Həmin vaxt yaralıları çıxarmaq mümkün olmadı. Noyabrın 10-da 052-nin döyüşçülərinin köməyi ilə mühasirədən çıxdıq. Tabor yaralı və şəhidləri hərbi tibbi yardım maşınlarına təhvil verib, Şuşa qalasının müdafiəsinə qayıtdı. Mən xəsarət aldığımı tabor komandirinə bildirdim, məni də digər yaralılarla birgə Daşaltıda yerləşən hərbi tibb məntəqəsinə gətirdilər. Tibbi yardım göstərildikdən sonra mən xidmətimə geri döndüm.

Gün ərzində ermənilər 3 dəfə Şuşanı geri qaytarmaq üçün piyada qoşunlarla hücum etsə də, hücumların hamısı boşa çıxdı. Baxmayaraq ki, artilleriya onlara dəstək idi, onlar geri çəkilməyə məcbur oldular. Bu döyüşdə tabor 128 şəhid verdi. Biz noyabrın 10-dək Şuşa qalasının müdafiəsində qaldıq. Noyabrın 10-u, gecə saat 2-də üçtərəfli Bəyanat imzalandı. Sülh elan olunsa da, qarşı tərəf səhər saat 4-ün yarısınadək artilleriyadan atəş etdilər. Noyabrın 11-dən başlayaraq 20 gün tabor Laçın dəhlizinə nəzarətdə dayandı. Sonra Qubadlıya qayıtmaq üçün əmr verildi və biz Qubadlıya qayıtdıq. Bir ay orada xidmət etdikdən sonra ehtiyata buraxıldım".

Təltifləri:

"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2370. 29.12.2020.

"Vətən müharibəsi iştirakçısı"medalı. Sərəncam № 250s. 21.04.2022.

27.05.2021-ci il tarixində Daşkəsən rayon Heydər Əliyev Mərkəzinin Direktoru Nailə Məmmədova tərəfindən "Xalqımızın birliyi, torpaqlarımızın bütövlüyü uğrunda, Vətən qarşısında borcunu şərəflə yerinə yetirdiyinə görə" Təşəkkürnamə ilə təltif olunub.



Namazov Bahəddin Xanlar oğlu
Əsgər

1994-cü il iyulun 6-da Daşkəsən rayonunun Qazaxyolçular kəndində anadan olub. 2012-ci ildə Qazaxyolçular kənd tam orta məktəbini bitirib. Elə həmin il iyulun 1-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Sumqayıt N saylı hərbi hissədə kiçik çavuş, manqa komandiri vəzifəsində xidmət edib. 2014-cü ildə tərxis olunub. Müxtəlif işlərdə işləyib.

Vətən müharibəsi başlayanda könüllü olaraq Daşkəsən rayon hərbi komissarlığına müraciət edib. N saylı hərbi hissənin 1-ci taborunda heyət nəfəri (piyada əsgər) vəzifəsində Daşaltı, Şuşa, Xankəndi istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

Bahəddinin danışdıqlarından:

"Sentyabrın 27-də bizi apardılar Gəncə N saylı hərbi hissəyə, bir ay orada təlimdə olduq. Sonra apardılar Füzuliyə, orada müdafiədə qaldıq. Sonra komanda gəldi, bizi 400 nəfər şəxsi heyətlə KamAz-larla apardılar Topxana meşəsinə, oradan piyada qalxdıq Daşaltına. Sonra Laçın istiqamətinə çıxdıq, orada 181 əsgər yaralanmışdı, onlara

kömək edib gəldik. Hava qaralanda ermənilər bizim yerimizi bildilər və bizi minamyot atəşinə tutdular, biz meşəyə çəkildik. Səhər komanda gəldi, Xankəndinə getdik, orada ermənilər bizi pusquya saldı, 5 saat döyüşdük, şəhid və yaralılarımız oldu. Noyabrın 7-də komanda verildi ki, geri çəkilin, Şuşaya qalxın. Biz də qalxdıq, Şuşanın müdafiəsində durmuşduq, erməni bizə top və tankla atırdı. Yanımızda yaralı əsgərimiz vardı, Əliyev Xəyalla mən onu aparanda düşmən tərəfin atdığı tank əleyhinə minaatan mərmisi yanımıza düşdü, biz qapalı kəllə-beyin travması aldıq. Sonra kömək gəldi, bizi apardılar otelə, ordan da bizi göndərdilər Hadruta, orada tibbi yardım göstərildikdən sonra göndərdilər Füzulinin hospitalına, orada müalicə olunduq. Sonra tərxis olundum".

Təltifləri:

"Döyüşdə fərqlənməyə görə" medalı. Sərəncam № 2354. 18.12.2020.

"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2370. 29.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Namazov Elgün
Qədir oğlu
Əsgər

2000-ci il avqustun 2-də Daşkəsən rayonunun Aşağı Daşkəsən qəsəbəsində anadan olub. 2017-ci ildə Aşağı Daşkəsən qəsəbə Gündüz İsmayılov adına tam orta məktəbi bitirib. 2018-ci il oktyabrın 19-da SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Bakıda N saylı hərbi hissədə atıcı vəzifəsində xidmət edib. 2020-ci il aprelin 21-də ehtiyata buraxılıb.

Vətən müharibəsinin ilk günlərindən Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Elgünün danışdıqlarından:

"2020-ci il sentyabrın 21-də səfərbərliyə çağırıldım. Gəncədə cəmləşdik, 5-6 gün təlimlərdə olduq. Sentyabrın 27-də bölgüdə Göygöl rayon N saylı hərbi hissənin tərkibində taktiki qrupda hücumda baş atıcı vəzifəsində Kəlbəcər istiqamətində gedən döyüşlərdə İştirak etdim. Canavar qulağı sağ postunda döyüşürdüm, ermənilərin bütün hücumlarının qarşısını alaraq, yüksəkliklərimizi azad edirdik. Oktyabrın 7-də artilleriya atəşinə məruz qaldıq. Yaxınlığıma düşən minamyot mərmisinin partlayış dalğasına düşərək xəsarət aldım, amma döyüşlərə davam elədim. Atəşkəs elan olunana qədər döyüşdük, son-

ra postlarımızın müdafiəsində dayandıq. Noyabrın 25-də Kəlbəcər rayonu boşaldılaraq Azərbaycan Silahlı Qüvvələrinə təhvil verildi. Bizim hərbi hissə noyabrın 27-də Kəlbəcər rayonuna daxil oldu, İstisu və Alagöllər bölgəsində mövqeləndik, postlarımızı qurub, müdafiəni təşkil etdik. Ərazini tərk edən ermənilər evləri ilə yanaşı meşələri də yandırmışdır. Olduğumuz mövqelərdən Göyçə gölü və Göyçənin kəndləri görünürdü. Mən 2021-ci il yanvarın 11-də səfərbərlikdən ehtiyata buraxıldım. 2022-ci il dekabrın 8-dən yenidən MAHHXHQ olaraq ordu sıralarına geri qayıtdım və hal-hazırda da xidmətimə davam edirəm".

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s.21.04.2022.

Namazov Elşad Tofiq oğlu Əsgər



1986-cı il avqustun 2-də Daşkəsən rayonunun Alaxançallı kəndində anadan olub. 2003-cü ildə Daşkəsən şəhər Səməd Vurğun adına 4 saylı tam orta məktəbi bitirib. 2007-ci il oktyabrın 1-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Ağdam

rayon N saylı hərbi hissədə snayper vəzifəsində xidmət edib. 2009-cu il iyulun 7-də tərxis olunub.

2020-ci il oktyabrın 23-də qismən səfərbərliklə Vətən müharibəsinə çağırılıb və Ağcabədi N saylı hərbi hissəyə göndərilib. 12 gün təlimdə olublar, oradan Füzuliyə 5-ci taborun tərkibinə, 14-cü bölüyə göndərilib. Cəbrayıl, Füzuli, Xocavənd istiqamətində gedən döyüşlərdə baş atıcı vəzifəsində iştirak edib, dekabrın 26-da tərxis olunub.

26.12.2020-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik Elzamin Behbudov tərəfindən Elşadın ailəsinə Təşəkkür Məktubu göndərilmişdir:

"Hörmətli Valideyn!

Sizin oğlunuz Namazov Elşad Tofiq oğlu Azərbaycanın ərazi bütövlüyü uğrunda başlanılan "Vətən Müharibəsi"ndə....döyüş tapşırıqlarının icrası zamanı fəallıq göstərərək digər döyüşçü yoldaşlarına nümunə olmuş, üzərinə düşən bütün tapşırıqların öhdəsindən layiqincə gələrək fədakarlıq göstərmişdir.

Siz fəxr edə bilərsiniz ki, oğlunuz Vətən qarşısındakı vətəndaşlıq borcunu, hərbi vəzifəsini şərəflə, ləyaqətlə və layiqincə yerinə yetirib. Vətənə layiqli, vətənpərvər, qorxmaz, cəsur, qələbəmizin qazanılmasında canından keçməyə belə hazır olan döyüşçü kimi tərbiyə etdiyinizə görə Sizə təşəkkür edirəm".

Təltifləri:

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Namazov Elvin Yaqub oğlu Əsgər



1992-ci il dekabrın 19-da Daşkəsən rayonunun Alaxançallı kəndində anadan olub. Təhsilinin ilk 3 ilini Alaxançallı kənd tam orta məktəbində alıb. 2001-ci ildə Yuxarı Daşkəsən qəsəbəsinə köçdükləri üçün təhsilinə Zahir Bağırov adına tam orta məktəbdə davam edib. 2010-cu ildə orta məktəbi bitirib. 2011-ci il yanvarın 4-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Sumqayıt N saylı hərbi hissədə sürücü vəzifəsində xidmət edib, 6 ay sonra TKM (Taqım komandirinin müavini) təyin olunub. 2012-ci il iyulun 1-də ordu sıralarından tərxis olunub. Aprel döyüşlərindən əvvəl keçirilən təlimlərdə iştirak edib. Sonra müxtəlif işlərdə işləyib.

Vətən müharibəsi başlayanda səfərbərliklə könüllü olaraq döyüşlərə qatılıb. Oktyabrın 12-dən noyabrın 10-dək Cəbrayıl, Qubadlı, Laçın istiqamətlərində 3-cü taborun minbatında sürücü vəzifəsində döyüşlərdə iştirak edib.

Elvinin danışdıqlarından:

"Cəbrayılda gedən döyüşlər zamanı sürücü işlədiyim üçün xeyli sayda yaralı hərbçilərimizi döyüş bölgəsindən çıxarmışam. Dəfələrlə ermənilərlə üzbəüz gəlmişəm, elə

vaxtlar olub ki, onlarla döyüşə-döyüşə yaralılarımızı həmin ərazidən təxliyyə etmişəm. Biz Qubadlıya doğru irəlilədikcə, döyüşlər daha da şiddətlənirdi. Torpaqlarımızı azad etdikcə məndə də, döyüş yoldaşlarımda da qələbə sevinci daha da yüksəlirdi. Hətta Qubadlının Güləbird kəndinə hücum edərkən, erməni şərəfsizləri qırıcı qaldırdı, təxminən saat 5-6 olardı. Həmin zaman mən və döyüş yoldaşım çox irəliləyərək mühasirəyə düşdük, bir gün yarım mühasirədə qaldıq. Beton trubanın içində müdafiə olunurduq. Şərəfsizlər sağ-solumuzda özlərini müdafiə etmək istəyirdilər. Biz gecəni gözlədik, F1-i əlimizə alaraq, düşündük ki, üstümüzə gələrlərsə, özümüzü məhv edək, amma əsir düşməyək. Sonra döyüş yoldaşlarımıza tərəf getdik və onlarla birgə Laçına doğru irəlilədik. Laçının 7 kəndini işğaldan azad etdik. Orada məktəbdə 12 nəfər döyüş yoldaşım mühasirədə qalmışdı. Mən Pikapla gedib onları oradan çıxardım. Mən yaralıları çıxarmağa gedən zaman iki nəfər erməni şərəfsizi maşında məni əl ilə çağırdılar. Mən onların arxalarınca bir az getdim, bərk sürərək yaxınlaşanda gördüm ki, ermənidirlər, onları məhv etdim.

Laçında taxıllıq deyilən bir yerdə yaralı çıxardan zaman maşınımı minamyotla vurdular, mən özümü maşından tulladım, bilirdim ki, 3 saniyə ərzində minamyotun mərmisi gəlib çatır. Çox uzağa tullana bilmədim, başımdan yüngül travma aldım. Məni hərbi hospitala aparmaq istədilər, amma mən döyüş yoldaşlarımı qoyub getmədim, yenə döyüşlərə davam elədim. Qızğın döyüşlər nəticəsində noyabrın 9-u saat 12-00-da qələbə çaldıq. Biz Laçında müdafiədə qaldıq. Dekabrın 3-də qələbə sevinci ilə hərbi hissəyə qayıtdıq, dekabrın 12-də ehtiyata buraxıldım".

Təltifləri:
"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.
"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.
"Laçının azad olunmasına görə" medalı. Sərəncam № 2373. 29.12.2020.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

AVMVİB-nin Daşkəsən şöbəsinin sədri Musayev Əli tərəfindən "Müzəffər Azərbaycan Ordusunun Vətən müharibəsində tarixi Qələbəsinin qazanılmasında göstərdiyi fədakar əməyinə və maddi-mənəvi dəstəyinə görə" Fəxri Fərmanla təltif olunub.

Namazov Kamal
Çingiz oğlu
Əsgər



1988-ci il aprelin 3-də Daşkəsən şəhərində anadan olub. 2005-ci ildə Daşkəsən şəhər Səməd Vurğun adına 4 saylı tam orta məktəbi bitirib. 2006-cı il aprelin 11-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Ağcabədi rayon N saylı hərbi hissədə

atıcı vəzifəsində xidmət edib, 2007-ci il oktyabrın 3-də tərxis olunub.

Vətən müharibəsinin ilk günlərindən Murovdağ - Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Kamalın danışdıqlarından:

"2020-ci il sentyabrın 21-də səfərbərliklə müharibəyə çağırıldım, bizi Gəncə şəhər N saylı hərbi hissəyə apardılar. Sentyabrın 24-də bölüklə birgə Toğanalıya getdik, oradan da sentyabrın 27-də Kəlbəcər istiqamətində gedən döyüşlərə qatıldıq. Göygölün Toğanalı kəndində yerləşən N saylı hərbi hissənin artilleriya diviziyonunun 2-ci haubitsalı artilleriya batareyasının 2-ci taqımının 3-cü topunun heyət nəfəri vəzifəsində Murovdağ - Kəlbəcər istiqamətində Durnalı postunda noyabrın 20-dək döyüş əməliyyatlarında iştirak etdim. Kəlbəcər təhvil veriləndən sonra məni və döyüş yoldaşım Elcanı Gəncə şəhərinə, N saylı hərbi hissəyə gətirdilər. Bir neçə gün burada qaldıq. Yeni əsgərlər gəlirdi, burada yer olmadığından bizi Seyfəliyə apardılar. Dekabrın 9-da bizi təkrar Gəncəyə gətirdilər və ordudan tərxis olundum".

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Nəsibov Nuru
Eldəniz oğlu
Əsgər



1999-cu il fevralın 1-də Daşkəsən rayonunun Quşçu kəndində anadan olub. 2016-cı ildə Bakı şəhəri Səbayıl rayon 163 saylı tam orta məktəbi bitirib. 2017-ci il aprelin 3-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Füzuli rayonunun Abdurrahmanlı kəndində ön cəbhədə pulemyotçu (PK) vəzifəsində xidmət edib.

16.09.2017-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik Nemət Məmmədov tərəfindən "Azərbaycan Respublikası Silahlı Qüvvələri üzrə "ƏN Yaxşı Bölük" adı uğrunda keçirilən müsabiqədə əldə etdiyi birinciliyə görə" Fəxri Fərmanla təltif olunub.

2018-ci il sentyabrın 13-də hərbi xidmətini başa vuraraq, ordu sıralarından tərxis olunub.

Vətən müharibəsi başlayanda SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən müharibəyə çağırılıb. Şəmkirin Seyfəli həmlə əməliyyat taborunun tərkibində Füzuli, Cəbrayıl və Xocavənd rayonları istiqamətində pulemyotçu (PK və AKM) vəzifəsində döyüşlərdə iştirak edib.

Nurunun danışdıqlarından:

"Sentyabrın 29-da həmlə əməliyyat taborunun tərkibində gecə saat 3-də Füzuli istiqamətində döyüşə baş-

ladıq. Gecə keçid zamanı 620 yüksəkliyini ələ keçirmək istəyərkən mühasirəyə düşdük. Naxçıvan hərbi qulluqçuları və Türkiyə pilotsuzlarının köməyi ilə mühasirədən 3 şəhid və 5 yaralı verərək çıxdıq. Ən təsirlisi də odur ki, Naxçıvan hərbi qulluqçusu yanımda şəhid oldu. Mühasirədə qalarkən söhbət edirdik, iki qızı var idi. Mənə dedi ki, görəsən qızlarımı görmək qismət olacaqmı. Elə o anda düşmən snayperi başından vurdu və o şəhid oldu.

Yaralıları təxliyyə edən zaman düşmən artilleriyasının saldırısına məruz qaldıq. Yenidən 2 şəhid, 7 yaralı verərək düşmən işğalında olan torpaqlarımızı azad elədik. Növbəti tapşırıq əsasında gecə düşmənin artilleriya qurğularını məhv edərək yüksəkliyi ələ keçirdik. Təminat bölüyündən yemək və mühümmat götürməyə gedərkən artilleriya və düşmən hücumuna məruz qaldıq. 2 dostumuz artilleriyadan yaralandı, 3 döstumuz, 2 komandirimiz isə güllə yarası aldı. Nə sursatı, nə də yeməyi götürə bilmədik. Amma öldürdüyümüz düşmənlərin sursatları ilə döyüşərək yüksəkliyi aldıq. Komandirlərimiz yaralandığına görə məcburi geri çəkildik. Yenidən qruplaşdıq və təkrar dayanmadan irəlilədik, dağ tapşırığı olduğu üçün, çox sayda şəhid və yaralı verirdik, amma yenə də dayanmırdıq. Çətin də olsa, yaralı qardaşlarımıza ilk tibbi yardım göstərərək, şəhidlərimizi gizlədərək irəliləyirdik. Məhv etdiyimiz ermənilərin sursatını götürərək, saat, gün bilmədən irəliləyirdik. Ağlımızda sadəcə döyüşü qazanmaq, torpaqlarımızı almaq vardı. Gecə üzümlük adlanan ərazidən keçid etməyə çalışdıq, düşmən hərbçiləri tərəfindən açığa çıxdıq. Açıq döyüş zamanı bir qardaşımızı şəhid verdik və bir komandirimiz qolundan güllə yarası, bir qardaşımız isə çənəsindən güllə yarası aldı. Amma biz dayanmırdıq, artıq xeyli

yol qət etmiş, xeyli torpaqlarımızı işğaldan azad etmişdik, bayrağımızı sanca-sanca irəliləyirdik.

Bir yüksəklikdə keçid edə bilmədiyimizə görə, geri çəkilərək digər qruplarla birləşdik, 2-3 günlük müşahidədən sonra, irəli komandası ilə yüksəkliyə hücum etdik, xeyli sayda şəhid və yaralı verərək bayrağımızı o yüksəkliyə sancdıq. Bayrağı sancdığımız üçün düşmənin hava, artilleriya saldırısından yenə xeyli şəhid və yaralı verdik, ancaq geri çəkilmədik.

Noyabrın 8-i axşam saat 8-də Xocavənd istiqamətində 630 adlı yüksəkliyi azad etmək uğrunda gedən döyüşdə sol budumun ön səthindən qəlpə yarası aldım. Saat 11-də məni Füzuli Rayon Mərkəzi Xəstəxanasına apardılar, orada ilkin tibbi yardım göstərildi. Səhər saat 5-də isə Ucar Rayon Mərkəzi Xəstəxanasına apardılar, 7 gün müalicədən sonra öz istəyim ilə xəstəxanadan çıxıb, Seyfəliyə öz hərbi hissəmə qayıtdım. 20 gün orada qaldıqdan sonra Gəncə N saylı hərbi hissəyə göndərildik, orada da 5-6 gün qaldıqdan sonra tərxis olundum".

Təltifləri:

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2362. 25.12.2020.

"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2364. 25.12.2020.

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2714. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Nuruyev Asif Akif oğlu
Əsgər

1991-ci il noyabrın 27-də Daşkəsən şəhərində anadan olub. 2008-ci ildə Daşkəsən şəhər Səməd Vurğun adına 4 saylı tam orta məktəbin 9-cu sinfini bitirib. 2010-cu il yanvarın 4-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Naxçıvam MR-də N saylı hərbi hissədə istehkamçı olaraq xidmət edib. 2011-ci il iyulun 1-də ordu sıralarından tərxis olunub.

Vətən müharibəsinin ilk günlərindən Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Asifin danışdıqlarından:

"2020-ci il sentyabrın 21-də könüllü olaraq səfərbərliklə Daşkəsən hərbi xidmət bölməsinə çağırıldım və Gəncə N saylı hərbi hissəyə göndərildim. Sentyabrın 24-də bizi Toğanalıya apardılar, oradan da 26-da Murovdağa qalxdıq. Sentyabrın 27-dən noyabrın 10-dək Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüş əməliyyatlarında atıcı vəzifəsində iştirak etmişəm.

Murovdağda taborumuz açıq havada gecələyirdi. Orada çadır qurmaq mümkün deyildi. Dağda ancaq qayaların altında, ya da dibində özümüzə sığınacaq düzəldə bilirdik. Bir dəfə döyüş vaxtı yaxınlığımıza minamyot mərmi-

si düşdü və partlayış nəticəsində 45 nəfərədək yaralı və şəhidlərimiz oldu. Bir saata qədər atəş dayanmadığı üçün yaralı və şəhidləri ərazidən çıxarmaq mümkün olmadı. Atəş dayandıqdan sonra həm hərbi tibb maşını, həm də komandirin maşını ilə yaralıları aşağı endirmək mümkün oldu. Atəşkəs elan olunandan sonra olduğumuz mövqedə müdafiədə dayandıq. Noyabrın 10-da taborumuzu dağdan Başqışlaq kəndinə endirdilər. Burada çadırlar qurub noyabrın axırlarına qədər qaldıq, sonra bizi Gəncəyə gətirdilər. 2020-ci il dekabrın 9-da tərxis olundum".

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Orucov Samir Hidayət oğlu Əsgər



1989-cu il iyunun 14-də Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. Sonra ailəsi Qabaqtəpə kəndinə köçüb. 2006-cı ildə Azər Rüstəmov adına Qabaqtəpə kənd tam orta məktəbini bitirib. 2008-ci ildə Daşkəsən RHK tərəfin-

dən həqiqi hərbi xidmətə çağırılıb, Naxçıvan MR-də N saylı hərbi hissədə pulemyotçu vəzifəsində xidmət edib, 2010-cu ildə ordu sıralarından tərxis olunub. 2014-cü ildə Daşkəsən rayon N saylı hərbi hissədə MAHHXHQ olaraq manqa komandiri vəzifəsində xidmətə başlayıb, 2015-ci ildə ailə problemləri ilə bağlı işdən çıxıb. Müxtəlif işlərdə işləyib.

Vətən müharibəsində Füzuli, Xankəndi, Şuşa istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

Samirin danışdıqlarından:

"2020-ci il sentyabrın 28-də müharibəyə çağırıldım, 20 gün təlimdən sonra pulemyotçu kimi Füzuliyə göndərildim, noyabrın 2-də oradan Daşaltı kəndinə, oradan Xankəndinə, oradan da Şuşa istiqamətinə göndərildim. Noyabrın 8-də Şuşada güllə yarası aldım, sonra isə yaxınlığımda partlayan minamyot mərmisinin qəlpəsindən ayağımın daraq sümüyü, 3 qabırğam sınıb, ağciyərimin pərdəsinə qəlpələr girib, hələ də oradadır, çıxarılmayıb, sağ qulağımın pərdəsi deşilib və digər yaralar almışam.

Çox sevinirəm ki, o vaxtın kişiləri kimi getdim döyüşdüm, kişi kimi bayrağımızı qaldırdım yüksəklərə. Bir də erməni sərəfsizləri bizim torpağımıza göz dikərsə, yenə də gedib döyüşməyə razıyam, gedəcəm də. Yaşasın Azərbaycanımız. Qarabağ Azərbaycandır".

Təltifləri:

"Döyüşdə fərqlənməyə görə" medalı. Sərəncam № 2354. 18.12.2020.

"Şuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2370. 29.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Orucov Samir Surxay oğlu Əsgər



1996-cı il fevralın 4-də Daşkəsən rayonunun Qabaqtəpə kəndində anadan olub. Qabaqtəpə kənd ümumi orta məktəbində 9 illik təhsil alıb. 2014-cü ilin aprelində SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Bakıda N saylı hərbi hissədə radio-operator vəzifəsində xidmət edib. 2015-ci ilin oktyabrında xidmətini başa vurub, ordu sıralarından tərxis olunub. 2016-cı il avqustun 19-da Daşkəsən rayon N saylı hərbi hissədə MAHHXHQ olaraq kiçik çavuş, manqa komandiri vəzifəsində xidmət edib.

Samirin danışdıqlarından:

"Bir dəfə bizim iki əsgərimiz dağda tara düşmüşdü, biri müddətdən artıq hərbi qulluqçu, digəri isə gizir idi. Vertolyotla axtarış qrupu gəldi, axtardılar, amma tapa bilmədilər. Biz Daşkəsən uşaqları axtarış qrupunun ləvazimatları ilə əsgərlərimizin tara düşdüklərinin 41-ci günü birini, 42-ci gün isə digərini tapdıq".

2019-cu ilin noyabrında müqaviləsi başa çatdıqdan sonra, ailə vəziyyəti ilə əlaqədar müqavilənin vaxtını uzatmayıb, ehtiyata buraxılıb. Sonra müxtəlif işlərdə işləyib.

Vətən müharibəsi başlayanda Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Samirin danışdıqlarından:

"General Polad Həşimovun şəhid olması xəbərini eşidəndə çox pis olmuşdum, özümə gələ bilmirdim, bir həftə ağlamışdım. Bütün şəhidlərimizə Allah rəhmət eləsin, amma onun şəhid olması mənim üçün çox ağır oldu. Çox istəyirdim ki, onun qisasını alaq. Uşaqlarla bərabər getdik Tovuz tərəfə. Orda yolda post qurmuşdular, bir nəfər baş gizir var idi, bizə dedi ki, yaxşısı budur siz korpusa gedin, orda sizi yönləndirəcəklər. Biz gəldik korpusa, orda zampolit korpus var idi - Rasim müəllim, o məni xidmətdə, şəhidlərimizi tardan çıxaranda görmüşdü, tanıyırdı. Dedi ki, Samir, sənədlərini yığıb gətir, səni işə bərpa eliyim. Mən də sənədlərimi yığdım, gətirdim. Bir aydan artıq idi ki, xidmətə başlamışdım, müharibə başladı. Vətən müharibəsinə çox böyük sevinc hissi ilə qatıldım, bu günləri çoxdan gözləyirdik. Əmin idik ki, Ali Baş Komandanımızın rəhbərliyi ilə gedən Vətən müharibəsində qələbə qazanacağır. Ölüm məni qorxutmurdu, bütün xidmət yoldaşlarımızla birlikdə haqlı qalibiyyətimizə inandığımız üçün qürur hissi ilə döyüşürdük. Döyüşə gedəndə Allaha şükür edirdim ki, yaxşı ki, torpaqlarımızın alınması bizim dövrümüzə düşdü. Haqlı olan tərəf bizik, bunu bütün dünya bilir, torpaqlarımız da gec, ya tez qayıtmalı idi.

Sentyabrın 27-si idi, Kəlbəcər istiqamətində döyüşürdük. Hardasa saat 10 radələrində başımdan güllə və qəlpə yaraları aldım. Sonra heç nədən xəbərim olmayıb. Döyüş yoldaşlarım ilkin tibbi yardım göstəriblər. 11 saat neytralda qalmışam, məni şəhid kimi məruzə ediblər. Məni neyt-

raldan çıxaranda özümdə deyildim, dediklərinə görə nəbzim belə atmırmış, sonra görüblər ki, sol tərəfimdə hərəkət var, məni gətiriblər Daşkəsən Rayon Mərkəzi Xəstəxanasına, oradan da göndəriblər Gəncəyə, Beynəlxalq Xəstəxanaya. Gəncədə vəziyyətim o qədər pis olub ki, ailəmə deyiblər hazırlıqlı olun, cəsədini hər an götürə bilərsiniz. 17 gün orada komada qalmışam, həyatda qalmağım möcüzə olub, yaşamağıma heç bir ümid olmayıb. Bədənimin sol tərəfi iflic olmuşdu, 9 ay danışa bilməmişəm, ancaq lövhəyə yaza bilirdim, 10-cu ayda yavaş-yavaş danışmağa başladım. Həkimlərimizdən çox razıyam, çox sağ olsunlar. Türkiyədə də bir müddət müalicə olundum. Artıq qoltuq ağacları ilə gəzə bilirəm, amma sol tərəfimi hələ də yaxşı işlədə bilmirəm. Hətta bu vəziyyətdə belə Ali Baş Komandanımız əmr versə, yenə də döyüşə getməyə hazıram".

Təltifləri:

"Döyüşdə fərqlənməyə görə" medalı. Sərəncam № 2354. 18.12.2020.

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718.24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Rüstəmov Mirzəli
Mirzə oğlu
Əsgər

1996-cı il iyunun 19-da Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. Daşkəsən rayon Allaxançallı kənd tam orta məktəbini bitirib. 2014-cü il iyulun 3-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Salyan rayon Hərbi Polis idarəsinin N saylı hərbi hissəsində xidmət edib, 2016-cı il yanvarın 1-də tərxis olunub.

Vətən müharibəsində Cəbrayıl, Qubadlı istiqamətlərində gedən döyüşlərdə atıcı vəzifəsində iştirak edib.

Mirzəlinin danışdıqlarından:

"2020-ci il sentyabrın 27-si səfərbərliklə müharibəyə çağırıldım. Sentyabrın 28-də məni Gəncə N saylı hərbi hissəyə göndərdilər, orada bir müddət təlimdə oldum. Oktyabrın 12-də getdik Füzuliyə, 2-3 gün orada qaldıq, sonra getdik Cəbrayıla, 5-6 gün orada döyüş vəziyyətində qaldıq, zaman-zaman döyüşlərimiz olurdu. Oktyabrın 20-21-i keçdik Qubadlı istiqamətində döyüşməyə. Oktyabrın 27-də Qubadlı istiqamətində gedən döyüş əməliyyatları zamanı ayağımdan güllə yarası aldım. Sonra da kəllə-beyin travması aldım. Oradan məni gətiriblər Füzuli Hospitalına, orada ilkin tibbi yardım göstərdikdən sonra,

göndərdilər Şirvan Rayon Mərkəzi Xəstəxanasına, burada bir müddət müalicə olunduqdan sonra göndərdilər Tovuz rayon Mərkəzi Xəstəxanasına. Orada da bir neçə gün müalicə olunduqdan sonra öz istəyimlə qayıtdım döyüşlərə. Sonra göndərdilər Laçın dəhlizinə, getdim yenə də öz hərbi hissəmizə, öz əsgər yoldaşlarımla müharibədə iştirak elədim. Ermənilərlə qarşı-qarşıya döyüşürdük. Orada başımda olan ağrılar artdı, gecələr tez-tez sudurqalar keçirirdim. Hərbi hissədə bir həftəyə qədər qaldım, döyüşdüm. Noyabrın 8-i atəşkəs elan olundu. Hardasa 10 gün orada qaldıq. Sonra bizim hərbi hissəni təkrar Qubadlıya köçürdülər. Orada 15-20 gün qaldıq, sonra gəldik Gəncə N saylı hərbi hissəyə, dekabrın 14-dək orada qaldıq. Orada vəziyyətim ilə bağlı hospitala müraciət etdim, dedilər ki, get mülkidə müalicə olunarsan. Dekabrın 14-də tərxis olundum. Sonra başımdakı travma ilə bağlı Gəncə Psixiatriya Xəstəxanasında bir dəfə 25 gün, sonrakı dəfə 21 gün müalicə olunmuşam".

Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin üzvüdür.

Təltifləri:

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Rzayev Tural Nizami oğlu Əsgər

1986-cı il sentyabrın 11-də Daşkəsən rayonunda anadan olub. 2003-cü ildə Gəncə şəhər Məhəmməd Hadi adına 10 nömrəli tam orta məktəbi bitirib. 2007-ci ildə Azərbaycan Beynəlxalq Universitetinin Tarix və İctimaiyyət fakültəsini bitirib.

Turalın danışdıqlarından:

"Bu ixtisası seçməkdə və tarixçi olmağımda Ulu Öndər Heydər Əliyevə olan sevgi kifayət edir. 2008-ci ildə Vətənə olan borcumu yerinə yetirmək üçün hərbi xidmətə yollandım. Xidmətimi Ağcabədi rayon N saylı hərbi hissədə tuşlayıcı olaraq yerinə yetirdim. Orada tabor komandirimiz Milli Qəhrəman Raquf Orucov tərəfindən əsl hərbçi kimi yetişdirildik. Ağdamın Yusifcanlı kəndində bir çox kəşfiyyat xarakterli əməliyyatlarda iştirak edib, ermənilərin bu ərazilərdə özlərinə necə istehkam qurğuları qurduğunu müşahidə edirdik. Biz tərxis olub ehtiyata buraxılanda komandirimizin sözləri heç vaxt yadımdan çıxmırdı. Raquf Orucov bu sözləri dedi: "Əziz hərbçilər, sizlər tərxis olsanız da, bu torpaqlara vuruşmaq üçün geri qayıdacaqsınız. Kim müharibə zamanı könüllü müharibəyə gəlməyəcəksə, gedəndə mənimlə görüşüb getsin".

Biz ayrılanda komandirimizlə görüşüb ayrılmaq istədik, lakin onun sözləri bizi tərəddüddə saxladı.Yarım saatdan sonra yola düşüb getmək istəyəndə bizə düzül komandası verildi. Biz tərxis olunduğumuz zaman bu komandanın nə olduğunu anlamadıq, kim nə etdi? - deyə bir-birimizə baxdıq. Qafqaz Qartalı - ordumuzun qürurlu zabiti sıranın qabağına keçərək bizə uca səslə dedi: "Siz mənimlə görüşüb getmək istəmirsiz?" Biz çaşıb qaldıq ki, axı müharibə olanda geri qayıtmalıyıq. Sən demə komandir bizi sınamaq məqsədi ilə deyibmiş. O, bizim hər birimizlə görüşüb sevinərək yola saldı

İllər keçdi, 2016-cı ilin aprel ayında ermənilərin hücumunun qarşısını alarkən Raquf Orucovun şəhid olması xəbəri mənə çox pis təsir etdi və kədərləndim. Sabahı mən hərbi komissarlığa yollandım, çox təəssüf ki, həmin vaxt səfərbərlik elan olunmamışdı.

2020-ci ilin iyul ayında Tovuzda ermənilərin təxribatı zamanı dinc sakinlərə və yaşayış binalarına ağır artilleriya qurğularından zərbələr endirilirdi. Bu təxribat zamanı Azərbaycan Respublikasının Milli Qəhrəmanı cənab general Polad Həşimovun şəhid olma xəbərini eşitdim. Bu zaman Ali Baş Komandan, Prezident İlham Əliyev qismən səfərbərlik elan etdi. Hadisə baş verən zaman mən dostum Rəvanla birlikdə Şəmkir rayonundan Daşkəsənə gəlirdik. Səttarov Rəvan Aprel döyüşlərinin iştirakçısı (qazi) və Polad Həşimovun əsgəri olmuşdur. Polad Həşimovun şəhid olduğunu eşidən kimi ağlamağa başladı. Mən onu sakitləşdirə bilmirdim. Dedim ki, ağlamaqdan bir şey çıxmaz, gedək səfərbərlikdən qeydiyyatdan keçək. Qeydiyyat zamanı Rəvan 1-ci qrup əlil olduğu üçün onu qəbul etmədilər.

Nəhayət sentyabrın 20-si mənə zəng gəldi ki, sabah siz rayonumuzda yerləşən SHXÇDX-nın Daşkəsən rayon bölməsinə gəlməlisiz. Mən sözün əsl mənasında sevindim və hərbiyə yollandım. Bizi Gəncə şəhərində yerləşən N saylı hərbi hissəyə apardılar. Orada mənimlə birlikdə 478 nəfər idik, məlum oldu ki, Tovuzda yerləşən hərbi hissəyə düşmüşük. Yəni, Polad Həşimovun şəhid olduğu yerə. Bizi intiqam hissi daha da ruhlandırdı. Döyüşə atılmağı səbirsizliklə gözləyirdik. Ayın 27-si döyüş əmri verildi. Apreldə, iyulda və ümumilikdə Qarabağ döyüşlərində şəhid olan qardaşlarımızın intiqamını almaq hissi bizi daha da döyüşə ruhlandırdı. Düzdür, Tovuz rayonundan hücum əmri verilməsə də, mənfur düşmən 60 mm və 82 mm minaatanlardan dinc sakinləri atəşə tuturdu. Bizim dəqiq artilleriya zərbələri ilə düşmən texnika və canlı qüvvəsini itirərək susdurulurdu. Biz bu əraziləri düşməndən tam təmizləsək də, irəli əmri verilmirdi. İrəli əmrinin verilməmə səbəbi işğal olunmuş ərazilərimizi azad etmək idi. Bizim qoruduğumuz ərazi Ermənistanın Berd rayonu ilə həmsərhəd idi. Düşmənin kəndlərini müşahidə zamanı gördük ki, ermənilər tək evlərini yox, hətta var-dövlətlərini də qoyub qaçmışdılar. Onlar yaxşı bilirdilər ki, bu ərazilər də bizim tarixi torpaqlarımızdır. Qarabağda şiddətli döyüşlər gedən zaman düşmən bizimlə üzbəüz yerləşən mövqelərində öz postlarına əsgər tapıb qoya bilmirdi. Postlarda xidmət edən mülki polislər idi, onlar da gecə xidmətləri zamanı postu tərk edib gedirdilər. Onlardan fərqli olaraq bizim hərbçilərimiz tam heyətlə birlikdə yeni yaradılmış, səfərbərlikdən ibarət tabor, döyüşə hazır vəziyyətdə gözləyirdi. Onlardan fərqli olaraq, kəndləri-

mizdə həyat öz axarı ilə davam edirdi. İnsanlar bizə öz dəstəyini isti geyim və ərzaq verməklə göstərirdilər. Baxmayaraq ki, ordumuz yüksək səviyyədə ərzaq və geyimlə təmin olunurdu.

Mən bu xalqın bir nümayəndəsi kimi, fəxr edirəm ki, vətənə olan borcumu əsgər kimi yerinə yetirməyi özümə borc bildim. Hal-hazırda da Daşkəsən rayonu Yuxarı Daşkəsən qəsəbəsində Zahir Bağırov adına tam orta məktəbdə təşkilatçı müavin və tarix müəllimi işləyərək vətənə olan borcumu davam etdirirəm. Ailəliyəm, Rza və Mübariz adlı 2 oğlum var. Balaca oğlumun adını Milli qəhrəmanımız Mübariz İbrahimovun şərəfinə Mübariz qoymuşam".

Səmədov Elvin Ayaz oğlu
Əsgər



1991-ci il sentyabrın 15-də Daşkəsən rayonunun Qaraqollar kəndində anadan olub. 2009-cu ildə Qaraqollar kənd tam orta məktəbini bitirib. 2009-cu ilin oktyabrında Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Ədliyyə Nazirliyinin mühafizə alayında xidmət edib. 2011-ci ilin aprel ayında ordu sıralarından tərxis olunub.

Vətən müharibəsində Füzuli, Cəbrayıl, Xocavənd istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

Elvinin danışdıqlarından:

"Mən hər zaman düşünürdüm ki, cənab Ali Baş Komandan əmr versin, gedək torpaqlarımızı düşmən tapdağından azad edək. Nəhayət, həmin gün gəldi, sentyabrın 27-si əks-hücum əməliyyatı başladı. Mən də bir əsgər kimi könüllü olaraq hərbi komissarlıqda qeydiyyatdan keçdim. 2020-ci il oktyabrın 9-da səfərbərliklə Daşkəsən rayon hərbi komissarlığından Ağcabədi rayon N saylı hərbi hissəyə göndərildim. Oktyabrın 15-də oradan Füzuli istiqamətində döyüşən Qusar N saylı hərbi hissəyə göndərildim və həmin hərbi hissənin tərkibində qumbaraatan köməkçisi vəzifəsində döyüşlərə qatıldım. Füzuli, Cəbrayıl, Xocavənd uğrunda gedən döyüşlərdə iştirak etdim. Oktyabrın 29-da Xocavənd rayonunun ətrafındakı Üçtəpə yüksəkliyinin azadlığı uğrunda döyüşdük və yüksəkliyi azad edib, orada mövqeləndik. Səhərisi gün, ayın 30-da yaxınlığıma düşən minamyot mərmisinin partlaması nəticəsində başımdan 3 qəlpə yarası, partlayışın dalğasından kəllə-beyin travması almışam, gözlərimin görməsi, qulaqlarımın eşitməsi zəifləyib, üst dişlərim tamamilə sıradan çıxıb, diz nahiyəmin əzələləri əzilib. Məni Füzulinin Böyük Bəhmənli kəndinə Diaqnostika Mərkəzinə gətiriblər, orada başımdan qəlpələri çıxarandan sonra, Əlibayramlı Rayon Mərkəzi Xəstəxanasına, orada bir neçə gün qaldıqdan sonra Gəncə Abbas Səhhət adına Xəstəxanaya göndərdilər. Noyabrın 12-dək burada müalicə olundum, sonra göndərdilər Gəncə Hospitalına. Burada 3 gün ətraflı müayinə olunduqdan sonra ambulator müalicə üçün Xocavənddə olan Qusar N saylı hərbi hissəyə göndərildim. Noyabrın 26-da Qusara hərbi hissəyə qayıtdım və dekab-

rın 8-də ehtiyata buraxıldım. 3-cü qrup Qarabağ əliliyəm.

Döyüşlərdən xatirələrim çoxdur, amma ən yaddaqalanı odur ki, rütbəsindən, vəzifəsindən asılı olmayaraq, bir-birimizə qardaş deyir, bir tikə çörəyi bölüb yeyirdik. Döyüşlərdə sevinirdik ki, 30 illik həsrətə son qoyuruq, eyni zamanda kədərlənirdik ki, qardaşlarımız şəhid olur. Allah şəhidlərimizə rəhmət eləsin. Döyüş əhval-ruhiyyəmiz çox yüksək idi. Bir də xalqımızın bir olması bizi döyüşdə qürurlandırırdı. Həkimlərimizin, polislərimizin, FH işçilərinin bizlərə göstərdiyi xidmət sözün həqiqi mənasında məni heyran etdi. Allah xalqımızı qorusun. Amin".

Azərbaycan Respublikası "Qarabağ Əlillərinə Qayğı" İctimai Birliyinin və "Azərbaycan Vətən Müharibəsi Veteranları" İctimai Birliyinin üzvüdür.

Təltifləri:

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

"Füzulinin azad olunmasına görə" medalı. Sərəncam № 2711. 24.06.2021.

"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2712. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

17.05.2021-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik Hafiz Ağayev tərəfindən "Vətən Müharibəsində fəal iştirak etdiyinə görə" Fəxri Fərman;

27.05.2021-ci il tarixində Daşkəsən rayon Heydər Əliyev Mərkəzinin direktoru Nailə Məmmədova tərəfindən

"Xalqımızın birliyi, torpaqlarımızın bütövlüyü uğrunda, Vətən qarşısında borcunu şərəflə yerinə yetirdiyinə, bu yolda canından keçməyə hazır olduğuna görə" Təşəkkürnamə;

27.05.2021-ci il tarixində NMEDİA.AZ İnformasiya Portalının Baş direktoru Nicat Dilqəmli tərəfindən "Vətən uğrunda göstərdiyi mərdliyə və şücaətə görə" Fəxri Media Mükafatı ilə təltif olunub.



Səttarlı Üzeyir Kazım oğlu Əsgər

1989-cu il dekabrın 17-də Daşkəsən rayonunun Bayan kəndində anadan olub. 2007-ci ildə Qax şəhər 5 nömrəli tam orta məktəbi bitirib. 2008-ci il yanvarın 1-də Daşkəsən RHK tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb, Naxçıvan MR-də N saylı hərbi hissənin əlahiddə minaatan batareyasının kəşfiyyat taqımında məsafəölçən vəzifəsində xidmət edib. 2009-cu il iyunun 5-də ordu sıralarından tərxis olunub. 2010-cu ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Nəqliyyat" fakültəsinə daxil olub, 2015-ci ildə universiteti bitirib. 2020-ci ilədək Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyində işləyib.

Vətən müharibəsinin ilk günlərindən Kəlbəcər is-

tiqamətində gedən döyüşlərdə manqa komandiri vəzifəsində iştirak edib.

Üzeyirin danışdıqlarından:

"Sentyabrın 27-si saat 10:00-da bütün şəxsi heyət ilə birgə Zirvə postu adlanan əraziyə yollandıq. Həmin ərazidən Ömər postunun alınması üçün atılan addımlar relyef baxımından əlverişsiz hesab olunduğu üçün bu əraziyə şəxsi heyətin göndərilməsi dayandırıldı. Üç gün həmin ərazidə qaldıqdan sonra düşmən həmin əraziyə iri çaplı top və minamyotlardan atəş açmağa başladı. Həmin anda şəxsi heyətin qorunması məqsədi ilə mövqeyimizi dəyişərək ərazidən 2-3 km uzaqda yeni mövqelərimizi qurduq. Oktyabrın 6-da düşmən tərəfindən atılan mərmilər nəticəsində 11 yaralı, 20 nəfər şəhid verdik. Həmin axşam şəxsi heyətin bir qismi Buzluq adlanan əraziyə, bir qismi isə şəhidlərimizi çıxarmaq məqsədilə həmin əraziyə yollandıq.

Oktyabrın 19-da düşmənin diqqətini yayındırmaq məqsədi ilə Canavar sol postu adlanan əraziyə çıxış etdik. Lakin bir müddət sonra həmin postdan geri qaytarıldıq və alınan postlarda müdafiədə qaldıq.

Noyabrın 8-də atəşkəs elan olundu və biz qələbə çaldıq. Noyabrın 27-də Kəlbəcərə yollandıq və Alagöllər adlanan ərazidə postlarımızı quraraq möhkəmləndirmə işləri apardıq. Dekabrın 28-də tərxis olundum".

Hal-hazırda Daşkəsən rayon İcra Hakimiyyətində "Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili" şöbəsində böyük məsləhətçi vəzifəsində işləyir. Ailəlidir, iki övladı var.

Təltifləri:
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.



Süleymanov Elçin Akif oğlu Əsgər

1994-cü ildə Daşkəsən rayonunun Quşçu kəndində anadan olub. 2009-cu ildə Quşçu kənd Əli İsmayılov adına tam orta məktəbin 9-cu sinfini bitirib. 2012-ci ildə SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Xızı rayon N saylı hərbi hissədə atıcı vəzifəsində xidmət edib, 6 ay sonra manqa komandiri vəzifəsinə keçib. 2014-cü il yanvarın 1-də ordu sıralarından tərxis olunub. 2014-cü ilin sentyabrında MAHHXHQ kimi Daşkəsən rayon N saylı hərbi hissənin kəşfiyyat taqımı 1-ci manqanın komandiri vəzifəsinə işə girib, 2017-ci ilədək işləyib.

Vətən müharibəsində Cəbrayıl, Qubadlı, Laçın istiqamətlərində gedən döyüşlərdə atıcı vəzifəsində iştirak edib.

Elçinin danışdıqlarından:

"Sentyabrın 28-i konüllü olaraq qeydiyyatdan keçdim, 29-da səfərbərliklə Gəncə N saylı hərbi hissəyə getdik, oktyabrın 10-dək təlimdə olduq. Oktyabrın 10-da Cəbrayıl istiqamətində gedən döyüşlərə qatıldıq.

Oktyabrın 30-da Laçının Güləbir kəndi uğrunda gedən döyüşlərdə yaxınlığımda partlayan minamyot mərmisinin dalğasından kəllə-beyin travması aldım. Oradan məni gətirdilər Füzulinin Əhmədbəyli kəndindəki hospitala, bir gün sonra Bakıya Papaninə göndərdilər. 8 gün orada müalicə aldım, vəziyyətim qənaətbəxş olduğundan məni göndərdilər Beyləqan rayon N saylı hərbi hissənin tibb məntəqəsinə. 22 gün danışa bilməmişəm. Noyabrın 14-də Laçına öz xidmət etdiyim bölüyə qayıtdım və postun gücləndirilməsində iştirak etdim. Dekabrın 22-də briqada Gəncə N saylı hərbi hissəyə qayıtdı və mən 31-də tərxis olundum".

Təltifləri:

"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

"Qubadlının azad olunmasına görə" medalı. Sərəncam № 2369. 29.12.2020.

"Laçının azad olunmasına görə" medalı. Sərəncam № 2373. 29.12.2020.

"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.



Süleymanov Fəqan Nüsrət oğlu Əsgər

1988-ci il sentyabrın 20-də Daşkəsən şəhərində anadan olub. 2006-cı ildə Daşkəsən şəhər İmadəddin Nəsimi adına 1 saylı tam orta məktəbi bitirib. 2006-cı il oktyabrın 2-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, 2008-ci il aprelin 1-də ordu sıralarından tərxis olunub. 2008-ci ildən Daşkəsən rayon 22 saylı Yol İstismar İdarəsində fəhlə işləyib. 2014-cü il aprelin 28-də Daşkəsən rayon N saylı hərbi hissədə MAH-HXHQ olaraq 4-cü taborun 14-cü bölüyünün 2-ci taqımının 2-ci manqa komandiri vəzifəsində işləyib.

11.05.2014-cü il tarixindən 30.06.2014-cü il tarixinədək N saylı hərbi hissədə fəaliyyət göstərən "Müddətdən artıq həqiqi hərbi xidmət" hazırlığı kursunu bitirib. Sonra Daşkəsən rayon N saylı hərbi hissədə xidmətinə davam edib. 2015-ci il dekabrın 20-də ehtiyata buraxılıb. 2016-cı il fevralın 2-dən Daşkəsən rayon Qaz İstismar sahəsində çilingər işləyib.

Vətən müharibəsində könüllü olaraq oktyabrın 20-dən noyabrın 7-dək gedən döyüş əməliyyatlarında iştirak edib.

Fəqanın danışdıqlarından:

"Noyabrın 7-də Xocavəndin Qırmızı Bazar qəsəbəsinin azad olunması uğrunda gedən döyüşlərdə yaxınlıqda partlayan minamyot mərmisi nəticəsində sağ ayağımdan qəlpə yarası, mərminin partlayış dalğasından isə kəllə-beyin barotravması aldım. Döyüş yoldaşlarım Budaqov Xəyal və digərləri məni ərazidən çıxarıb gətiriblər səyyar hərbi tibb məntəqəsinə. Burada ilkin tibbi yardım göstərildikdən sonra təcili yardım maşını ilə Füzulidəki Hospitala göndərildim. Orada müayinə olunduqdan sonra Füzuli Rayon Mərkəzi Xəstəxanasına göndərdilər. Füzuli xəstəxanasına hər tərəfdən yaralı gətirilirdi deyə, yaramı təmizləyib məni Ağsu Rayon Mərkəzi Xəstəxanasına göndərdilər. Burada əməliyyat edib ayağımdan qəlpəni çıxardılar və on gün müalicə olundum. Noyabrın 17-də Bakı şəhər Silahlı Qüvvələrin Baş Klinik Hospitalına göndərildim və burada müalicəmə davam etdim. 2021-ci il yanvarın 9-da tərxis olundum. Hazırda Şəmkir Regional Qaz İstismarı İdarəsinin Daşkəsən xidmət sahəsində işləyirəm".

09.01.2021-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik Hafiz Ağayev tərəfindən "Vətən Müharibəsində fəal iştirak etdiyinə görə" Fəxri Fərmanla təltif olunub.

Təltifləri:

"Xocavəndin azad olunmasına görə" medalı. Sərəncam № 2712. 24.06.2021.



Şirinov Elnur Rafiq oğlu
Əsgər

1994-cü il iyulun 17-də Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 2011-ci ildə Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbi bitirib. 2012-ci ilin iyulunda SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Bakıda N saylı hərbi hissənin 2-ci mühafizə taqımının 3-cü manqasında rabitə bölməsində manqa komandiri vəzifəsində xidmət edib.

Mühafizə və təminat bölüyünün komandiri kapitan Nurəhməd Rəsulovun Elnura verdiyi Xidməti Xasiyyətnamədə yazılıb:

"... xidmət etdiyi müddət ərzində özünü bacarıqlı və savadlı hərbi qulluqçu kimi göstərmişdir. Xidmətinin ilk günlərindən öz vəzifəsinə məsuliyyətlə yanaşmış, komandirlərin və rəislərin əmrlərinə sözsüz tabe olmuşdur. Öz vəzifəsini dərindən öyrənmiş və yoldaşlarının da bu sahədə maariflənməsi üçün əlindən gələni əsirgəməmişdir. Öhdəsinə götürdüyü işlərin çətinliyini dərk edərək, ona göstərilən etimadı doğrultmuşdur. Səbirlidir, hər bir işə ciddi yanaşaraq, düzgün qərar qəbul etməyi bacarır..."

2014-cü il yanvarın 1-də ordu sıralarından ehtiyata buraxılıb.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində, N saylı hərbi hissədə 13.06.2016-cı il tarixdən 27.07.2016-cı il tarixədək təşkil edilmiş "Kəşfiyyat Manqa Komandiri" kursunu bitirib.

2016-cı il avqustun 29-dan MAHHXHQ kimi Daşkəsən rayon N saylı hərbi hissədə kəşfiyyat bölməsində xidmətinə davam edib.

Vətən müharibəsi başlayan gündən xidmət etdiyi hərbi hissənin tərkibində Kəlbəcər alınana qədər kəşfiyyat bölməsi ilə Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

17.11.2020-ci il tarixində N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Ramin Cabbarov tərəfindən "Döyüş əməliyyatlarında şəhid olmuş hərbi qulluqçuların döyüş meydanından çıxarılmasında fəal iştirak etdiyi üçün" Fəxri Fərmanla təltif olunub.

Kəlbəcər sülh yolu ilə alınandan sonra 2021-ci il mayın 25-dək kəşfiyyat bölməsində xidmətini davam etdirib. Mayın 25-də xidməti vəzifələri başa çatdığına görə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi ehtiyata buraxılıb.

Təltifləri:

"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam 250s.№ 21.04.2022.



Tağıyev Azər Zeynal oğlu
Əsgər

1994-cü il fevralın 19-da Daşkəsən rayonunda anadan olub. 2011-ci ildə Daşkəsən rayon Yuxarı Daşkəsən qəsəbəsi Zahir Bağırov adına tam orta məktəbi bitirib. Həmin il Gəncə Dövlət Universitetinin Filologiya fakültəsinə qəbul olub, unuversiteti əla qiymətlərlə bitirib. 2015-ci ildə SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. 2016-cı ildə Aprel döyüşlərinin iştirakçısı olub. 2016-cı ildə hərbi xidmətini başa vuraraq ordu sıralarından tərxis olunub, rayona qayıdıb və müxtəlif sahələrdə işləyib.

Vətən müharibəsində Talışkənd, Suqovuşan, Füzuli istiqamətində gedən döyüşlərdə pulemyotçu vəzifəsində iştirak edib.

Azərin danışdıqlarından:

"Torpaqlarımızın düşmən tapdağında olması hər bir azərbaycanlı kimi məni də çox narahat edirdi. Bunun nəticəsi idi ki, 2020-ci ilin sentyabrında cənab prezidentimizin başlatdığı Dəmir Yumruq əməliyyatına könüllü olaraq qatıldım və bir azərbaycanlı kimi öz öhdəmə düşən Vətəni müdafiə eləmək borcumu yerinə yetirdim. Noyabr ayının 3-də döyüş tapşırığını yerinə yetirərkən ağır yaralanmışam".

Təltifləri:
"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.
"Suqovuşanın azad olunmasına görə" medalı. Sərəncam № 2720. 24.06.2021.
"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

Tağıyev Həbib Əli oğlu
Əsgər



2001-ci il aprelin 4-də Daşkəsən rayonunun Zağalı kəndində anadan olub. 2018-ci ildə Gəncə şəhər 46 saylı tam orta məktəbi bitirib, Gəncə Dövlət Regional Kollecinə daxil olub. Nəqliyyatda Daşımaların Təşkili ixtisası üztə təhsil alıb. Sonra təhsilini yarımçıq qoyub, Dövlət Sərhəd Xidməti tərəfindən gələn 04.04.2019-cu il tarixli həqiqi hərbi xidmətə çağırışa əsasən, 2019-cu il mayın 4-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Cəlilabad rayon N saylı hərbi hissədə TTM keçib. Oradan Füzuli rayon N saylı hərbi hissəyə göndərilib. 10 gün təlimdən sonra isə N saylı sərhəd zastavasına göndərilib. Füzuli rayon N saylı hərbi hissəsinin 3-cü Çevik Hərəkət Bölüyünə bölünüb. 2020-ci il okt-

yabrın 10-da döyüşlər vaxtı 1-ci ÇHB-nin tərkibinə keçib. 2020-ci il noyabrın 10-dək N saylı hərbi hissənin tərkibində Cəbrayıl, Zəngilan, Qubadlı istiqamətində gedən döyüşlərdə pulemyotçu əsgər vəzifəsində iştirak edib. Döyüşlər bitəndən sonra 2020-ci il noyabrın 22-də Cəbrayıldakı hərbi hissəyə gəlib. 2021-ci il yanvarın əvvəllərində bölünmə nəticəsində Qubadlı Əlahiddə Sərhəd Diviziyasının Laçındakı 70-ci sərhəd zastavasının 1-ci məntəqəsinə gəlib. 2021-ci il avqustun 4-də Qubadlı N saylı hərbi hissəsinə gəlib, oradan Qubadlının digər hərbi hissəsinə göndərilib, oradan da ehtiyata buraxılıb.

Təltifləri:
"Cəbrayılın azad olunmasına görə" medalı. Sərəncam № 2358. 24.12.2020.

Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev tərəfindən Həbibin atası Əli Tağıyevə Təşəkkür məktubu göndərilmişdir:

"... 44 günlük Vətən müharibəsi zamanı qəhrəmanlıq və rəşadət göstərən Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının sıralarında xidmət keçən oğlunuz Həbib Tağıyev xidmət etdiyi müddət ərzində intizamı ilə fərqlənmiş, Vətənimizin müqəddəs sərhədlərinin mühafizəsi üzrə vəzifələrini yerinə yetirərkən fədakar xidməti ilə əsgər yoldaşlarına nümunə olmuş, yüksək peşəkarlıq və sayıqlıq nümayiş etdirmişdir. Rəislərin verdiyi əmr və tapşırıqları vaxtında və dəqiq yerinə yetirmiş, bilik və bacarığını artırmaq üçün daim öz üzərində çalışmış, hərbi kollektivin dərin hörmətini qazanmışdır.

Hörmətli Tağıyevlər ailəsi, Vətənimizə layiqli övlad yetişdirdiyinizə görə Sizə təşəkkür edir, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin müdrik rəhbərliyi sayəsində inkişaf edən və qüdrətlənən doğma Vətənimizin tərəqqisi və işıqlı gələcəyi naminə fəaliyyətinizdə uğurlar diləyirəm".

Tağıyev Röyal Seymur oğlu Əsgər



2001-ci il iyulun 6-da Daşkəsən şəhərində anadan olub. 2018-ci ildə Daşkəsən şəhər Anar Mürsəlov adına 2 saylı tam orta məktəbi bitirib. Elə həmin ildə Mingəçevir Turizm Kollecinin Rekreasiya, idman və sağlamlıq turizmi ixtisasına qəbul olub, oradan 2019-cu ilin iyul ayında hərbi xidmətə gedib. Qobustan Dövlət Sərhəd Xidmətində onlara forma verib göndəriblər Cəlilabad N saylı hərbi hissəyə. Andiçmədən sonra göndərilib Xudat N saylı hərbi hissəyə. 2020-ci ilin avqustunda yenidən Cəlilabad N saylı hərbi hissəyə göndərilib. Burada oktyabrın 8-dək təlim keçiblər, oradan göndəriblər Cəbrayıla. Onlar Cəbrayıla çatanda artıq Cəbrayıl azad edilmişdi. Röyalgil sərhədboyu məntəqələrə mühafizə üçün yerləşdilər. Sərhəd boyu 14 mühafizə məntəqəsi iş-

ğaldan azad olunmuşdu. Röyal sərhəd boyu Zəngilanda yerləşən 6-cı məntəqədə mühafizəçi kimi xidmətə davam edib. 2021-ci il iyulun 20-də ordu sıralarından təxris olunub.

Təltifləri:
"Zəngilanın azad olunmasına görə" medalı. Sərəncam № 2363. 25.12.2020.



Tağıyev Vüsal Yaqub oğlu Əsgər

1987-ci il dekabrın 3-də Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 2005-ci ildə Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbi bitirib. 2006-cı ilin yanvarında Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Naxçıvanda N saylı hərbi hissədə tuşlayıcı vəzifəsində xidmət edib. 2007-ci ilin iyulunda ordu sıralarından tərxis olunub və Daşkəsənə qayıdıb. 2014-cü ilin may ayınadək müxtəlif işlərdə işləyib. 2014-cü il mayın 26-da Daşkəsən rayon N saylı hərbi hissədə MAHHXHQ olaraq manqa komandiri vəzifəsində xidmətə başlayıb. Bir il xidmət etdikdən sonra öz xahişi ilə ehtiyata buraxılıb.

Vətən müharibəsinin ilk günlərindən Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Vüsalın danışdıqlarından:

"2020-ci il sentyabrın 20-də səfərbərliklə müharibəyə çağırıldım. Sentyabrın 25-dək Gəncə N saylı hərbi hissədə təlimdə oldum. Sentyabrın 25-də Daşkəsən rayon N saylı hərbi hissəyə qayıtdıq. Kəlbəcər istiqamətində gedən döyüşlərdə tuşlayıcı olaraq döyüşürdüm. Sentyabrın 27-də Ağdağın qarşısındakı Yeddi qardaş dağının 21 postuna getdik. 28-i 19 nəfər heyətlə Ağdağdakı erməni postuna hücum etdik, o gün döyüşdə dostumuz Vəkilov Elməddin şəhid oldu. Döyüşə girib çıxdıq, postu ala bilmədik. 29-u və 30-u yenə döyüşə girdik, dəstək gəlmədiyinə görə yenə postu ala bilmədik. 29-u günü 21 postunda 120-lik minamyotla əlimdəki NSV-ni vurdular. Mərminin səsini eşidib əlimdəki yüngül avtomatla qaçıb yaxınlıqdakı sığınacağa girdim. Mərminin partlayış dalğası sığınacağın üstünü atdı, sığınacaq dağılıb üstümə töküldü. Yüngül xəsarət almışdım. Müdafiə üçün yığılan təkərlər olmasaydı mən də ağır xəsarət alacaqdım. Bir az sonra yoldaşlarım gəlib məni çıxardılar, 1-2 saat sonra özümə gəlmişdim. Sonra biz 18 nəfər Yeddi qardaş dağının altındakı tabora düşdük. Oktyabrın 2-si qardaşım Ramid vurulandan sonra, qardaşım Rahidlə bərabər Daşkəsən rayon N saylı hərbi hissəyə düşdük. Noyabrın 17-də Ramidin nəşi tapılandan sonra biz iki qardaşı dəfnə buraxdılar. Dəfndən sonra qayıtdıq Gəncə N saylı hərbi hissəyə, dekabrın 13-də tərxis olunduq".

Təltifləri:
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.



Verdiyev Elmir
Etibar oğlu
Əsgər

1993-cü il yanvarın 29-da Daşkəsən rayonunun Quşçu qəsəbəsində anadan olub. 2010-cu ildə Quşçu qəsəbə Səlimxan İskəndərov adına tam orta məktəbi bitirib. 2011-ci il yanvarın 29-da Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Beyləqan rayon N saylı hərbi hissədə əvvəl tuşlayıcı, bir müddət sonra isə manqa komandiri vəzifəsində xidmət edib. 2012-ci il iyulun 1-də ordu sıralarından tərxis olunub. Müxtəlif işlərdə işləyib.

Vətən müharibəsinin ilk günlərindən Murovdağ-Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

Elmirin danışdıqlarından:

"2020-ci il sentyabrın 21-də SHXÇDX-nın Daşkəsən rayon bölməsi tərəfindən təlimlərə çağırıldım. Sentyabrın 25-dək Gəncə N saylı hərbi hissədə təlimdə oldum, sentyabrın 26-sı məni tuşlayıcı vəzifəsində N saylı hərbi hissənin tərkibinə verdilər və biz sentyabrın 27-si Murov-

dağ-Kəlbəcər istiqamətində döyüşlərə başladıq. Sentyabrın 29-da yaxınlığıma düşən minamyot mərmisinin partlaması nəticəsində hər iki ayağımdan qəlpə yaraları aldım. Məni təxliyyə etdilər Çaykəndə, oradan da Gəncə Hospitalına. Orada 10 gün müalicə olunduqdan sonra təkrar Murova öz hərbi hissəmə qayıtdım. 2020-ci il dekabrın 27-də ordu sıralarından tərxis olundum".

Təltifləri:
"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2718. 24.06.2021.

Verdiyev Famil
Arzu oğlu
Əsgər



1992-ci il martın 18-də Daşkəsən rayonunun Aşağı Daşkəsən qəsəbəsində anadan olub. 2010-cu ildə Aşağı Daşkəsən qəsəbə Çingiz İsmayılov adına tam orta məktəbi bitirib. 2010-cu il oktyabrın 11-də Daşkəsən RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, Bakıda N saylı hərbi hissədə xidmət edib. Xidmət vaxtı komandirlərinin əmr və tapşırıqlarını dəqiq yerinə yetirib, onların hörmətini qazanıb. 2012-ci il aprelin

4 də ordu sıralarından tərxis olunub.

Vətən müharibəsində Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib.

Familin danışdıqlarından:

"Hər zaman qəlbimdə Vətənimə sevgi, düşmənə nifrət olmuşdur. Ona görə də 2014-cü il mayın 14-də müddətdən artıq hərbi qulluqçu kimi Daşkəsən rayon N saylı hərbi hissədə 1-ci tabor 3-cü bölükdə snayper vəzifəsində xidmətə başladım. Xidmətim zamanı düşmənin bir neçə canlı qüvvəsini snayperlə məhv etmiş və avtomobil texnikasını sıradan çıxarmışam. Xidmətlərimə görə dəfələrlə komandirlərim tərəfindən mükafatlara layiq görülmüşəm.

Vətən müharibəsi başlayanda Murovdağ istiqamətində döyüşmüşəm, 15 erməni əsgərini snayperlə məhv etmişəm. URAL markalı iki avtomobilini partlatmışam və bir neçə düşməni ağır yaralamışam. Oktyabrın 2-də düşmənin açdığı minamyot atəşi nəticəsində ağır yaralanmışam. Məni hərbi hospitala yerləşdiriblər, orada müalicə olunmuşam.

18.10.2020-ci il tarixində N saylı hərbi hissənin komandiri kapitan Kənan Şirinov tərəfindən "18 Oktyabr Müstəqillik Günü" münasibəti ilə nümunəvi hərbi xidmətə, yüksək intizama, döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyim nailiyyətlərə görə Fəxri Fərmanla təltif olunmuşam.

Bədənimin müəyyən yerlərində qəlpələr və başımda kontuziya olmasına baxmayaraq, hal-hazırda Tovuz rayonunda N saylı hərbi hissədə xidmətimə davam edirəm. Çünki Vətənimin keşiyində məğrur durmağı özümə borc bilirəm".

Təltifləri:
"Kəlbəcərin azad olunmasına görə" medalı. Sərəncam № 2372. 29.12.2020.
"Hərbi xidmətlərə görə" medalı. Sərəncam № 2374. 30.12.2020.

27.05.2021-ci il tarixində NMedia.az informasiya portalının Baş redaktoru Nicat Dilqəmli tərəfindən "Vətən uğrunda göstərdiyi mərdliyə və şücaətə görə" Fəxri Media Mükafatı;

27.05.2021-ci ildə Daşkəsən rayon Heydər Əliyev Mərkəzinin direktoru Nailə Məmmədova tərəfindən "Xalqımızın birliyi, torpaqlarımızın bütövlüyü uğrunda, Vətən qarşısında borcunu şərəflə yerinə yetirdiyinə və bu yolda canından keçməyə hazır olduğuna görə" Təşəkkürnamə ilə təltif olunub.

Verdiyev Güloğlan
Rəcəb oğlu
Əsgər



2002-ci il avqustun 2-də Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsində anadan olub. 2019-cu ildə Yuxarı Daşkəsən qəsəbə Zahir Bağırov adına tam orta məktəbi bitirib. 2020-ci il mayın 4-də SHXÇDX-nın Daşkəsən rayon

bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb, əvvəlcə Ağcabədi rayon N saylı hərbi hissədə, sonra isə Ağcabədinin digər hərbi hissəsində usta heyət nəfəri vəzifəsində xidmət edib.

Vətən müharibəsində xidmət etdiyi hərbi hissənin tərkibində əvvəlcə Xocavənd, sonra isə Ağdam istiqamətində gedən döyüşlərdə iştirak edib.

Güloğlanın danışdıqlarından:

"Müharibədə minbatda 1-ci taqım, 1-ci manqada 82-likdə usta heyət nəfəri olaraq iştirak etmişəm. Ağdam uğrunda gedən döyüşlərdə yaxınlığıma düşən minamyot mərmisinin partlayış dalğasına düşdüm, kantuziya aldım. Amma döyüş yoldaşlarımı qoyub hospitala getmədim, yerində müayinə olundum, yardım göstərdilər və döyüşlərə davam etdim. Müharibə qurtarandan sonra Cəbrayıla yollandıq. Sonra isə 706 nömrəli hərbi hissəyə göndərildim və Xocavənddə postda ön cəbhədə xidmət etdim. 2021-ci il oktyabrın 3-də ehtiyata buraxıldım".

Təltifləri:

"Ağdamın azad olunmasına görə" medalı. Sərəncam № 2717. 24.06.2021.

"Vətən müharibəsi iştirakçısı" medalı. Sərəncam № 250s. 21.04.2022.

EPİLOQ

Doğma Qarabağım - bir ucu Mil düzündə, bir ucu Laçında, Kəlbəcərdə, bir ucu Murovda, Qoşqarda, Dəlidağda olan torpağım. Aranlı-dağlı Qarabağım, ürəyi yaralı Qarabağım, axır ki, 28 illik əsarətinə son qoyuldu. Siyasi, strateji, eyni zamanda, çox böyük mənəvi dəyər daşıyan Dağlıq Qarabağ (Xocavənd, Xocalı, Şuşa, Ağdərə, Xankəndi) və ətrafındakı 7 rayon (Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan) işğaldan azad olundu.

Azərbaycanımızın, qəhrəman xalqımızın şanlı hərb tarixinə 10 noyabr 2020-ci il qızıl hərflərlə yazıldı. Qarabağımıza Günəş yenidən doğdu. Bu zəfər dolu möhtəşəm günləri bizlərə yaşadan Ali Baş Komandanımıza və onun rəhbərliyi altında inamla, qrurla, şərəflə addımlayan şanlı Azərbaycan Ordusuna eşq olsun!

Vətən müharibəsində qazandığımız zəfər Azərbaycanın tarixi salnamələrinə yazılmaqla bərabər, hər bir azərbaycanlının yaddaşına, ruhuna, qəlbinə yazıldı.

Döyüşlərdə bütün dünya Azərbaycan xalqının əzmini, Azərbaycan Ordusunun döyüş qabiliyyətini aydın gördü. Bu döyüşlər bütün dünyaya Azərbaycan xalqının gücünü, birliyini, yenilməzliyini göstərdi. Bütün Dünya Azərbaycan əsgərinin şücaətinə, döyüş əzminə heyran idi. Döyüşkənlik TÜRKÜN qanında, genində var. İgidlik, mərdlik, cəsarət öyrənilmir, bunlar insanın qanında olur.

Qarabağ uğrunda döyüşlər başlayanda bütün xalqımız ayağa qalxdı. Hərbi çağırış vərəqəsi gözləmədən respublikamızın hər bir guşəsindən cavanlar Qarabağa axışdılar...

Bu müharibə bir daha sübut etdi ki, tariximizin hər dönəmində Azərbaycanımızın qəhrəman, cəsur, mərd, igid və vətənpərvər, torpaq üçün canından keçən oğulları olmuşdur və həmişə də olacaqdır. Biz Vətəndən, Vətən bizdən keçib gedir.

Vətənpərvərlik - Vətənini sevmək və Vətən üçün hər cür fədakarlıq etmək, öz şəxsi maraqlarını Vətən yolunda qurban verməkdir. Özü üçün deyil, el üçün, gələcək üçün yaşamaqdır.

Bu kitabda haqqında söz açdığım hər bir zabit və əsgərimiz ölümün gözünə dik baxan, qorxmadan, çəkinmədən mərminin üzərinə gedən bir qəhrəmandır. Onlar Vətən naminə canlarını sevə-sevə ortaya qoydular, könüllü olaraq ailələrindən, sevdiklərindən ayrılaraq, torpaq üçün candan keçməyi seçdilər. Bu insanlar Vətənin özüdürlər.

Qəhrəmanlarını unudanlar, görməzdən gələnlər, onları aşağı dəyərləndirənlər bir daha qəhrəmanlıq edə bilməzlər. Qəhrəman bir nəsil yetişdirmək üçün üzərimizə düşən vəzifə, gələcək nəsillərə qəhrəmanlığın nə olduğunu göstərməkdir.

Haqqında söz açdığım fədakar insanları, müharibənin amansız, sərt üzünə rəğmən bir addım geri çəkilməyərək düşmən üzərinə yeriyən, bizə zəfər sevincini yaşadan igidlərimizi tanımaq və tanıtmaqdan gözəl nə ola bilər ki?! Hər bir millət gələcəyə qəhrəman övladları ilə gedər.

Vətən, torpaq, yurd sevdalı qəhrəman oğullarımız azad etdikləri torpaqlarımızın, şəhərlərimizin, kəndlərimizin ən yüksək yerlərinə Azərbaycan və Türk bayraqlarını qoşa sancdılar. Bu gün bayrağımız əzəli və əbədi Qarabağ torpaqlarında qürurla dalğalanır və əbədi dalğalanacaq! Yaşasın Azərbaycan! Yaşasın Türk xalqı!

Mündəricat

Müəllifdən 5
Redaktordan 8
Ön söz 10
Vətən müharibəsi 15
General gəlir 24
Həşimov Polad İsrayıl oğlu 29

Vətən timsalına dönən şəhidlər
Torpaq, uğrunda ölən varsa vətəndir 45
Şəhidlər 48

Gizir
Alıyev Vahid Abbas oğlu 50
Cəfərli Orxan Etibar oğlu 52
İsmayılov Novruz Nurəddin oğlu 54

Kiçik gizir
Abdullayev Şəhriyar Kamil oğlu 57

Çavuş
Ələsgərov Pərviz Lətif oğlu 62
Sadıqov Rüfət Vaqif oğlu 67

Kiçik çavuş
Bağırov Eşqin Rafiq oğlu 74
Cəfərov Vüsal Saxləddin oğlu 75
Quliyev Elşən Natiq oğlu 77

Tağıyev Asif Zakir oğlu 81
Tağıyev Ramid Yaqub oğlu 83

Baş əsgər

Vəkilov Elməddin Nizami oğlu 85

Əsgər

Abbasov Möhlət Eldəniz oğlu 86
Abbasov Tacəddin Vüqar oğlu.....89
Abdullayev Həsən Qərib oğlu 90
Abdullayev Məhəmməd Vaqif oğlu 95
Bağırov Elnur Sahib oğlu 99
Bəxtiyarov Orxan Sərvər oğlu 101
Cabbarov Muraz İlham oğlu 102
Əhmədov Əhmədxan Məzahir oğlu 111
Haqverdiyev Novruz Əli oğlu 113
İbrahimov Mübariz Telman oğlu 121
İsmayılov RüstəmÜzeyir oğlu 123
İsmayılov Tural Nurəddin oğlu 124
İsrafilov Vidadi Vaqif oğlu 126
Quliyev Elvin Amil oğlu 128
Məmmədov Elnur İsrafil oğlu 129
Məmmədov Sərxan Sahil oğlu 131
Məmmədov Tural Taryel oğlu 133
Süleymanov Turxan İdris oğlu.....138
Şıxıyev Orxan Raqif oğlu 139
Verdiyev Nihad Nicat oğlu.....141
Verdiyev Röyal Qabil oğlu 145
Zeynalov Arzu Rövşən oğlu 148

Qəlbi vətən eşqi ilə döyünən qəhrəmanlarımız

Vətən bir az qazi, bir az şəhiddir 151

Polkovnik leytenant

HüseynovElmar Etibar oğlu.....153
Bağırov Vüqar Vaqif oğlu 163

Mayor

Vahabov Faiq Saroğlan oğlu.....166

Kapitan

Məmmədov Turxan Ələddin oğlu.....169

Baş leytenant

Əliyev Ceyhun Məşdi oğlu.....172
İbrahimov Zahir Əli oğlu.....175
Məmmədov Elxan Şəmiddin oğlu.....176
Mirzəyev Rəşad Ələddin oğlu 178
Musayev Əli Vilayət oğlu 181

Leytenant

Həsənov Fəxri Akif oğlu 184

Baş gizir

Məmmədov Nadir Məhərrəm oğlu 187

Gizir

Abbasov Asəf Valeh oğlu 189
Cəfərov Rəhman Bahadur oğlu 191
Əsgərli Ramayıl Rəfayıl oğlu 193
Hüseynov Arif Ağəli oğlu 194
Qafarov Nəsimi Elşad oğlu 196
Qurbanov Tural Qəşəm oğlu 203
Məmmədov Afiq Faiq oğlu 205
Məmmədov Elvin Fərmayıl oğlu 206
Nağıyev Həsən Famil oğlu 208

Kiçik gizir

Nağıyev Zabil Qabil oğlu 209
Həsənov Natiq Nəsir oğlu 213

Baş çavuş

Məmmədov Riyaviz Əli oğlu 215
Tağıyev Seymur Nəsrəddin oğlu 219

Çavuş

Babayev Orxan Səfər oğlu 220
Bayramov Samir Qüdrət oğlu 233
Budaqov Elnur Nizami oğlu 234
Ələkbərov Taleh Tahir oğlu 237
Göyüyev Vüqar Vilayət oğlu 241
Həsənov Səbuhi Şöhrəddin oğlu 242
Paşayev Elşad Əli oğlu 244
Rzayev Rza Bəhman oğlu 246
Yusifov Şahrux İlqar oğlu 248

Kiçik çavuş

Abdıyev Elmir Sərdar oğlu.....250
Alıyev Elcan Çərkəz oğlu.....252
Alıyev Elməddin Çərkəz oğlu 254
Allahverdiyev Allahverdi Şəmsəddin oğlu.....255
Allahverdiyev Nofəl Səday oğlu 258
Bağırov Emin Xasay oğlu.....263
Əliyev Yaşar Müseyib oğlu.....264
Haxverdiyev Bayram Əli oğlu 267
Həsənov Şahlar İmamverdi oğlu 268
Həsənov Şəhriyar Şahid oğlu.....270
Həşimov Emin Hafiz oğlu 273
Hüseynov Pərvin İntiqam oğlu.....275
İsayev Elman Həsənqulu oğlu 276
Qəribli Tural İldırım oğlu 278
Qurbanov Maarif Nəsib oğlu 280
Məmmədov Elvin Xaləddin oğlu 283
Məmmədov Kamil Faiq oğlu.....285
Məmmədov Mehman Fərman oğlu 287
Məmmədov Teymur Xanlar oğlu 290
Namazov Eyvaz Çingiz oğlu.....292
Namazov Seymur Mahir oğlu.....294
Nəzərov Tural Füzuli oğlu.....296
Rüstəmov Şəhruz Arzu oğlu 300
Verdiyev Gəray Zirəddin oğlu.....303

Baş əsgər

Bağırov Asim Qasım oğlu.....305
Göyüyev Samir Nizami oğlu.....307

Hüseynov Xəlid Nadir oğlu 308
Məmmədov Ilkin Xaliq oğlu 310
Nağıyev Turqut Aqil oğlu 312

Əsgər

Abbasov Natiq Faiq oğlu 314
Abbasov Ruslan Şahban oğlu 316
Abbasov Sədi Səid oğlu 319
Abbasov Zamәddin Nadir oğlu 321
Abdullayev Fərid Qabil oğlu 324
Abuşov Kamal Vidadi oğlu 325
Ağacanov Qəhrəman Nəriman oğlu 327
Ağayev Ağamir Mirağa oğlu 330
Alıyev Adil İsfəndiyar oğlu 331
Alıyev Elvin Habil oğlu 332
Alıyev Fikrət Fərhad oğlu 333
Alıyev Nemәddin Sədrəddin oğlu 336
Alıyev Vüqar Nadir oğlu 339
Allahverdiyev Ramal Vasif oğlu 341
Allahverdiyev Ruslan Rafayəddin oğlu 347
Allahyarov Rövşən Məzahir oğlu 350
Allahyarov Sənan Məzahir oğlu 352
Amoyev Mustafa Rüstəm oğlu 353
Aslanov Elçin Xanlar oğlu 356
Bağırzadə Surac Vaqif oğlu 359
Bayramov Asim Rasim oğlu 362
Bayramov Elnur Elçin oğlu 364
Bayramov Elşən Kərəm oğlu 372
Bayramov Şahin İlqar oğlu 374
Bayramov Vahid Məmmədəli oğlu 377

Budaqov Xəyal Maarif oğlu 381
Budaqov Qəlbinur Nizami oğlu 383
Cəfərov Elcan Nüsrət oğlu 384
Cəfərov Namiq Tofiq oğlu 385
Cəfərov Röyal Yadigar oğlu 389
Cəfərzadə Ceyhun Vahid oğlu 391
Əhmədov Abbas Amil oğlu 392
Əhmədov Səməndər Kamandar oğlu 395
Əliyev Elşən Nurəli oğlu 396
Əliyev Etibar Eyyub oğlu 399
Əmirov İsrayıl İsmayıl oğlu 401
Əsgərov Elvin Faxrəddin oğlu 402
Əsgərov Röyal Murad oğlu 403
Haqverdiyev Xəyal Əlabbas oğlu 405
Həsənov Asim Xaliq oğlu 406
Həsənov Qoşqar Rövşən oğlu 410
Həsənov Sərxan Elxan oğlu 412
Hüseynov Elcan Oruc oğlu 413
Hüseynov Qənbər Polad oğlu 414
İbrahimov Mahir Alim oğlu 416
Isayev Samir Tapdıq oğlu 417
İsgəndərli Xaliq Cəlil oğlu 419
Kazımov Elgün Köhlən oğlu 426
Qasımov Rəşad Feyruz oğlu 427
Quliyev Arzuman Nizami oğlu 430
Quliyev Elmir Arzu oğlu 431
Quluyev Mahal Arif oğlu 434
Quliyev Rauf Surxay oğlu 435
Quliyev Ruslan Surxay oğlu 438
Qurbanov Elşən İsax oğlu 439

Qurbanov Elvin Qurban oğlu 441
Qurbanov Xəyal Musa oğlu 442
Qurbanov Ramil Oruc oğlu 444
Qurbanov Tural Cahan oğlu 446
Qurbanov Vüsal Tahir oğlu 448
Mehtiyev Vüsal Mərdan oğlu 450
Məmmədov Amil Fəzail oğlu 451
Məmmədov Anar Əli oğlu 452
Məmmədov Asif Misir oğlu 453
Məmmədov Elvin Faiq oğlu 455
Məmmədov Fazil Mehman oğlu 457
Məmmədov Xəyal Fizuli oğlu 459
Məmmədov Nurad Davud oğlu 460
Məmmədov Rüfət Araz oğlu 461
Məmmədov Taleh Zülfü oğlu 463
Məmmədov Yusif Misir oğlu 465
Məmmədov Yusif Sarı oğlu 466
Musayev Məharət Əli oğlu 470
Mustafayev Babək Zöhrab oğlu 473
Namazov Bahəddin Xanlar oğlu 476
Namazov Elgün Qədir oğlu 478
Namazov Elşad Tofiq oğlu 479
Namazov Elvin Yaqub oğlu 481
Namazov Kamal Çingiz oğlu 483
Nəsibov Nuru Eldəniz oğlu 485
Nuruyev Asif Akif oğlu 488
Orucov Samir Hidayət oğlu 489
Orucov Samir Surxay oğlu 491
Rüstəmov Mirzəli Mirzə oğlu 494
Rzayev Tural Nizami oğlu 496

Səmədov Elvin Ayaz oğlu 499
Səttarlı Üzeyir Kazım oğlu 502
Süleymanov Elçin Akif oğlu 504
Süleymanov Fəqan Nüsrət oğlu 506
Şirinov Elnur Rafiq oğlu 508
Tağıyev Azər Zeynal oğlu 510
Tağıyev Həbib Əli oğlu 511
Tağıyev Röyal Seymur oğlu 513
Tağıyev Vüsal Yaqub oğlu 514
Verdiyev Elmir Etibar oğlu 516
Verdiyev Famil Arzu oğlu 517
Verdiyev Güloğlan Rəcəb oğlu 519
Epiloq 521

ETİBAR HƏSƏNZADƏ

"Vətən uğrunda"

İMZA

NƏŞRLƏR EVİ

Direktor: Səbuhi Aslan

Dizayner: Veys Əliyev

Texniki redaktor: Hüseyn Məmmədov

Çapa imzalanmışdır: 23.06.2023
Ofset çapı. Əla növ kağız
Tiraj: 500
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87,
(050) 263-16-16; (055) 263-16-17
email: imza_nesrler_evi@mail.ru

Həsənzadə Etibar Oktay oğlu 07 iyun 1992-ci ildə Azərbaycan Respublikasının Daşkəsən şəhərində anadan olmuşdur. 2010-cu ildə Daşkəsən şəhər Anar Mursəlov adına 2 saylı orta məktəbi bitirmişdir.



1. Azərbaycan Yazıçılar Birliyinin
2. Avrasya Sanat Kültür, Edebiyat və Bilim Federasyonunun (ASKEF)
3. Anadolu Sanatçı, Yazar və Ozanlar Birliyinin (ANASAN)
4. Türkmen Edebiyatçı və Yazarlar Birliyinin
5. Ankara Kültür Sanat və Edebiyat Derneğinin (AKSED)
6. Qarabağ Əlillərinə Qayğı İctimai Birliyinin (QƏQIB) Fəxri üzvü
7. İstedadlı Əlillər İctimai Birliyinin fəxri üzvüdür.

«Könlümlə söhbət", "Duyğular dinsin", "Gecikmiş etiraf ", «Bir həyat romanı", "Sevgi bəstəsi", "Nurla gəldi, Nurla Yaşadı, Nurla getdi", "Mən şəhid olacam, ana" və "Eşqin heykəli" adlı kitabların müəllifidir.
2022-ci ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən "Kəsişən yollar" adlı kitabı nəşr olunub.
2019-cu ildə Prezident mükafatına layiq görülüb.
Həm Azərbaycan, həm də Türk yazıçı və şairlərinin antologiyalarında əsərləri yer almışdır. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən Yaradıcılıq sahəsində əldə etdiyi nailiyyətlərə görə Diplomla təltif olunmuşdur. Qarabağ Azadlıq Təşkilatı tərəfindən "Azad Qarabağ Uğrunda Mücahid" fəxri adına, TUTAP tərəfindən "Türkiyenin Kültür ve Turizm Elçisi Beratı"na, Uluslararası İdeal Barış Vakfı tərəfindən "Uluslararası Barış Elçisi" statusuna layiq görülmüşdür. Azər.KİVİHİ-nin Rəyasət heyətinin qərarı ilə "Qızıl qələm" media mükafatı laureatı, "İlin Vətənpərvər Şairi", "Xəlil Rza Ulutürk", "Azərbaycan bayrağı", "Ali Baş Komandan","Şərəf", "Ustad Şəhriyar", ASKEF və QafqazMedia İB tərəfindən verilən "Vicdanlı qələm" "Qızıl Kitab", "Xarı bülbül" və s. mükafatçısıdır. "Qarabağ Azərbaycandır" adlı fərdi layihəsinə görə Türkiyə və Azərbaycanın bir sıra birlik və təşkilatları tərəfindən Onur, Başarı, Üstün Başarı, Üstün Hizmet, Teşekkür Belgeleri və diplomlar ilə mükafatlandırılmışdır.